t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



tttttttttttttttttttttttttttttttttttttttt



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



HACI HƏSƏN HÜSEYNOV

# *HƏZRƏT ƏLİ (Ə) MÜXTƏLİF BAXIŞLARDA*

Nərgiz NƏŞRİYYATI
BAKI-2011

**Redaktor:**
**Şəlalə Ana**

**Ön söz:**
**Dahi Almaslı**

***Bu kitabı İslama ilk iman gətirən xanım – Həzrət Muhəmmədin (s) həyat yoldaşı Həzrət Xədiceyi-Kubranın (ə) və onun simasında Əhli-Beyt (ə) yolunda xidməti olan xanımların pak və müqəddəs ruhlarına ithaf edirəm.***

**Hacı Həsən Hüseynov.** «Həzrət Əli (ə) müxtəlif baxışlarda».
“Nərgiz” nəşriyyatı, Bakı, 2011, 524 səh.

Hacı Həsən Xalıqverdi oğlu Hüseynov 1970-ci il aprel ayının 25-də Zəngilan rayonunun Sobu kəndində anadan olub. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib, döyüşlərin birində ağır güllə yarası alıb. Uzun müddət yataq xəstəsi olub. Hal-hazırda I qrup Qarabağ Müharibəsi əlilidir.

Bakı İslam Universitetini bitirib. İslamşünasdır.

«Aşıq Qurbani» məclisinin üzvüdür. «Olaylar», «İki sahil», «Üç nöqtə», «Nəbz», «Dirili Qurbani» qəzetlərində və bir sıra jurnallarda məqalələri dərc olunub.

«Parlaq ulduz», «Xuda Hüseynin aşiqi», «Ya Əli», «Gizli qalmış xəzinə» adlı elmi-tədqiqat əsərlərinin müəllifidir. «Həzrət Əli (ə) müxtəlif baxışlarda» adlı kitabı müəllifin oxucularla növbəti görüşüdür.

**H** $\frac{742000000}{079}$ 664-2011

İSBN 978-9952-8023-8-2
© Hacı Həsən Hüseynov, 2011

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ÖN SÖZ

Hər bir fəlsəfi-ictimai cərəyanın, dini-əxlaqi məktəbin yaranması və inkişafı üçün iki şey zəruridir: ideya və şəxsiyyət. Dinlərin sonuncusu və ən mükəmməli olaraq İslam bu iki məsələdə də dünya xalqları üçün əvəzsiz örnəkdir. Bir tərəfdən sarsılmaz etiqad sisteminə və elmi-əxlaqi dəyərlərə malik olması, digər tərəfdən də mayası əqidə, əxlaq və hikmətdən yoğrulmuş kamil şəxsiyyətlərlə zənginliyi baxımından müqəddəs dinimiz, həqiqətən ardıcıl öyrənilməyə, beləliklə də, ən düzgün yaşam tərzi kimi əbədi olaraq öz mövqeyini qoruyub saxlamağa layiqdir.

Şəxsiyyət tərbiyəsini özünün əsas tələblərindən biri elan edən İslam tarix boyu zamanın fövqündə dayanan ümumbəşəri problemlərin ağırlığını çiyinlərində daşıyan, bütün dövrlər üçün elm və mənəviyyat güzgüsünə çevrilən kamil insanlar meydana çıxarmış, onların vasitəsi ilə dünyanın ictimai-mədəni axarına təsir göstərmişdir. Söz yox ki, bu şəxsiyyətlərin ön sırasında əziz peyğəmbərimiz Həzrət Muhəmməd (s) və onun nəslindən olan pak, məsum din rəhbərlərimiz durur. Görkəmli Azərbaycan şairi S.Ə.Şirvani bu mətləbin bədii açımını necə də gözəl vermişdir:

***Bir vücudi-kamilin olmuş tüfeyli kainat,***
***Xəlqi-aləmdən nə Musavü nə İsadır qərəz.***

***Pənctənlər adını zikr et ki, Seyyid, bilmişəm,***
***Adəmə təlimi-əsmadan bu mənadır qərəz.***

Doğrudan da, bu elm, əxlaq və əqidə fədailəri olmasaydı, dünyamız cılız və anlamsız görünərdi. Bəşər həyatına ilahi məna qazandıran, onu əzəli-əbədi dəyərlərlə ucaldan Həzrət Muhəmmədin (s), Həzrət Əlinin (ə) və başqa din böyüklərimizin pak adlarıdır.

Həzrət Əli (ə) bəşər tarixinin ən seçkin və əvəzsiz şəxsiyyətlərindən biridir. Onun örnək əxlaqı, sonsuz elm və hikməti, yenilməz əqidəsi, tutduğu yola sədaqəti, dillərə sığmayan ölməz şücaəti bütün əsrlərin ağıllı və müdrik insanları tərəfindən etiraf edilmiş və gələn nəsillərə nümunə göstərilmişdir. “Kamil insan” və “kamil şəxsiyyət” anlayışlarının nə demək olduğunu, həqiqi ilahi rəhbərin hansı mənəvi fəzilətlərlə seçildiyini biz, məhz, Əli ibn Əbutalibdən (ə) öyrənirik.

Söhbət, “Allahın məndən böyük qüdrət nişanəsi yoxdur”, - deyə özünü dünyaya tanıdan şəxsiyyətdən gedir. Söhbət, barəsində Peyğəmbərin (s): “Ya Əli (ə) sən məndənsən, mən də səndənəm”, “Mən elmin şəhəriyəm, Əli onun qapısıdır”, “Mən Allahın yetişdirməsiyəm, Əli isə mənim yetişdirməmdir”, “Ya Əli, səninlə müharibə mənimlə hərbə gir-

mək, səninlə sülh bağlamaq mənimlə sülhə gəlməkdir", "Səninlə mənim münasibətimiz Harunla Musanın münasibətləri kimidir; fərq yalnız bundadır ki, məndən sonra peyğəmbər gəlməyəcək", "Mən kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir", "Mən və Əli bu ümmətin atalarıyıq" və s. danılmaz qiymətli kəlamlar buyurduğu bir şəxsiyyətdən gedir. Söhbət elə bir kamil varlıqdan gedir ki, uca yaradanımız bir qüdsi hədisdə Peyğəmbərə (s) müraciətlə: "Səni öz nurumdan, Əlini isə sənin nurundan yaratdım", - buyuraraq onu İslam Peyğəmbərindən (s) sonra bütün aləmlər üçün başlıca nur qaynağı elan edir.

Əli (ə) əzəməti, Əli (ə) saflığı şanlı Quranımızda da danılmaz əksini tapmışdır. Məsələn "Əhzab" surəsinin 33-cü ayəsində uca tanrımız Əhli-beytin hər hansı günahdan və çirkinlikdən uzaq olduğunu təkidlə dilə gətirir. "Şura" surəsinin 23-cü ayəsində isə onlara (Əli, Həsən, Hüseyn, Fatimə və digər imamlara) hörmət və məhəbbət bəsləməyin vacib olduğunu bildirir. Vilayət ayələri kimi məşhur olan ilahi kəlamlarda isə Həzrət Əlinin (ə) məqamı üzə çıxır. Mənəvi gözəlliklərlə bağlı bir çox Quran ayəsinin kamil təzahürü, sərrast nümunəsi də Əli ibn Əbutalibdir.

Bütün məsum imamlarımız kimi Əli ibn Əbutalib (ə) də ağır və şərəfli bir ömür sürmüşdür. Bu həyat yolunda ailə-məişət çətinlikləri də, Allah yolunda silahlı mübarizənin məşəqqətləri də, daxildəki İslam düşmənləri ilə əzablı çəkişmələr də, elmi-mədəni münazirələr də vardır. Başlıca olan budur ki, Həzrət Əli (ə) bütün bu çətinliklərə səbr və mətanətlə sinə gərmiş, canından artıq sevdiyi həqiqi İslam dəyərlərini, nəyin bahasına olursa-olsun, qoruyub-saxlamağa çalışmışdır. Bu sətirlərin müəllifi oxuculardan üzr istəyərək Həzrət Əli (ə) barəsində qələmə almağa cəsarət etdiyi bir neçə beyti yeri gəldiyinə görə burada verməyi lazım bilir:

***Xudavəndi-Əhəd xəlq eyləyəndə mülki-dünyanı,***
***Əli adıyla etmişdir müzəyyən pəstü balanı.***

***Onun şaninədir hər ülvi mətləb, hər gözəl məna,***
***Odur ölmüş ürəklərdə dirildən ruhi-təqvanı.***

***Sədaqət rəmzidir dünyavü üqbadə, vəfa rəmzi,***
***Baxan bu güzgüyə görmüş Xudanı, Şahi-Bəthanı.***

Əli ibn Əbutalibin (ə) həyatını diqqətlə gözdən keçirdikdə, həqiqətən də, bənzərsiz bir sədaqət və fədakarlıq nümunəsi ilə qarşılaşırıq. O həm cismani, həm də mənəvi qüdrətindən yararlanaraq Həzrət Muhəmmədin (s) şərəfli yoluna, qoyduğu qayda-qanunlara xəyanət edənlərlə

sona qədər çarpışmış və nəticədə, bu səmimi, sədaqətli, dönməz mübarizənin qurbanı olmuşdur.

Həzrət Əli (ə) bir tərəfdən Quran ayələrinin düzgün izahını verir, şəriətlə bağlı meydana çıxan yeni sualların səlis cavablarını açıqlayır, digər tərəfdən isə İslam dəyərlərini din düşmənlərinin əsassız elmi-fəlsəfi hücumlarından qoruyurdu. Həqiqi dini dəyərləri qorumalı və təbliğ etməli olan saf insanlar yetişdirmək, tükənməz elmi bilikləri və hikmətamiz mətləbləri gələcək nəsillərə ötürmək üçün xüsusi tələblər hazırlamaq Həzrət Əlinin (ə) başqa bir mühüm fəaliyyət sahəsi olmuşdur. Əslində, vilayət və imamət anlayışlarının məğzi, mahiyyəti də, elə bu məsələlərdədir. Qeyd etməliyik ki, Əli ibn Əbutalibdən (ə) sonra onun nəslindən olan başqa məsum rəhbərlərimiz bu mühüm ilahi vəzifələri ardıcıllıqla və dönmədən yerinə yetirmişlər.

Tədqiqatçı Hacı Həsən Hüseynov bundan öncəki araşdırmalarında Həzrət Muhəmmədin (s), İmam Hüseynin (ə), Xanım Zeynəbin (ə) və başqa İslam dühalarının həyat və mübarizələri ilə bağlı çeşidli məsələlərə yer vermiş, klassik və müasir Azərbaycan şairlərinin onların ömür yolu, mənəvi-əxlaqi üstünlükləri ilə əlaqədar əsərlərini toplayıb çap etdirmişdir. Bu kitabda isə müəllif, Əli ibn Əbutalibin (ə) həyat yoluna qısaca nəzər salmış, bəzi mübahisəli tarixi məqamlara aydınlıq gətirməyə çalışmış, lakin əsas diqqətini Əli (ə) şəxsiyyətinin elmi, etiqadi, əxlaqi və siyasi-ictimai tərəflərinin açımına yönəltmişdir. H.Hüseynov Həzrət Əli (ə) və Peyğəmbərimizin (s) pak Əhli-beyti ilə, ümumən, vilayət və imamətlə bağlı bir çox şərəfli Quran ayələrini önə çəkmiş, bəzi İslam alimlərinin bu ayələrlə bağlı təfsir və izahlarından məqsədə uyğun istifadə etmişdir. Kitabın başqa bölmələrində isə biz əziz İslam Peyğəmbəri Həzrət Muhəmmədin (s) və onun nəslindən olan İlahi rəhbərlərin Həzrət Əli (ə) barəsində buyurduqları qiymətli kəlamlarla qarşılaşırıq. Əli (ə) şəxsiyyətinin mənəvi-əxlaqi, tarixi-ictimai və elmi-mədəni fəzilətlərinin açılıb-göstərilməsi, xüsusən də, gənc nəslə çatdırılması baxımından bu qiymətli kəlamların toplanıb nəşr edilməsi olduqca böyük əhəmiyyətə malikdir.

Kitabın maraqlı fəsillərindən biri də tanınmış şərq və qərb alimlərinin Əli ibn Əbutalib (ə) dühası haqda dəyərli fikirlərinin toplandığı bölmədir. Buradan aydın olur ki, yalnız müsəlman alimləri və filosofları deyil, bir sıra qərb mütəfəkkirləri də bu düha qarşısında heyran qalmış, onu bəşər tarixinin ən müdrik və əvəz edilməz simalarından saymışlar. Yeri gəlmişkən deməliyik ki, bu bölmələr ötəri zövq və ləzzətə söykənən bəzi qərb vərdişləri qarşısında heyranlıq duyan gənclərimizin milli-dini özünəqayıdışında, mənəvi oyanışında mühüm rol oynaya bilər.

Sadiq və nəcabətli Peyğəmbər (s) səhabələrinin, məşhur İslam xəlifələrinin Həzrət Əli (ə) barəsində düşüncələri, ona göstərdikləri münasi-

bətlər də araşdırıcının diqqətindən kənarda qalmamış, kitabda ayrıca olaraq öz əksini tapmışdır.

Şair təbiətli bir şəxs kimi tanıdığımız və sevdiyimiz Hacı Həsən Hüseynov yenə də özünə sadiq qalmış, əsərdə orta əsrlər və çağdaş Azərbaycan şairlərinin, ustad aşıqlarımızın bir sıra bədii yaradıcılıq nümunələrindən istifadə etmişdir. Qədir-Xum hadisəsinə və Həzrət Əlinin (ə) ruhi-mənəvi ucalığına həsr olunmuş belə ədəbi-bədii nümunələr kitabı daha şirin və oxunaqlı etməklə yanaşı, xalqımızın könlündəki ölməz Əhlibeyt (ə) məhəbbətini bir daha üzə çıxarır.

Biz həm öz tərəfimizdən, həm də oxucular adından H.Hüseynova təşəkkürümüzü bildirir, gələcək araşdırmalarda ona daha böyük uğurlar arzulayırıq.

***Dahi Almaslı***

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## MÜƏLLİFDƏN

Bismillahir-rəhmanir-rəhim.

Ya Allah, ya Muhəmməd, ya Əli, səndən mədəd!

İslam aləmində Peyğəmbərdən (s) sonra çox böyük hörmət və nüfuz sahibi olan İmam Əlinin (ə) haqqında yazmaq, onun şərəfli şəninə layiq söz söyləmək insandan böyük cəsarət istəyir. Çünki Həzrət Əlinin (ə) şəxsiyyəti o qədər əzəmətlidir ki, bu əzəməti bir yerdə cəmləşdirmək mümkün olmur. Yəni, hər hansı bir sahədə istəsən, Həzrət Əlinin (ə) barəsində danışa bilərsən. Peyğəmbər (s) elminin qapısı hesab edilən Əlinin (ə) şücaətindən, əxlaqından, bilik və elmindən, səxavət və ibadətindən və s. danışa bilərsən. Bu əzəmətli, tarixi şəxsiyyət barəsində qələm sahibləri belə öz sözlərini bir yerə cəmləşdirə bilmədiklərindən aciz olduqlarını etiraf etmişlər. Həzrət Əlinin (ə) vəsfinə, şəninə nə qədər gözəl sözlər söyləsələr də, yenə də bu tarixi şəxsiyyətin əzəməti və bəlağətli sözləri qarşısında özlərinin və söylədikləri sözlərin kiçikliyini hiss edərək, yalnız öz düşüncələri və duyğuları ilə Əli (ə) aşiqlərinə ruh verərək rahatlıq və təskinlik tapmışlar.

Həzrət Əlinin (ə) məhəbbəti ilahi məhəbbətdir. Bu səbəbdən də İmam Əli (ə) haqqın nişanəsi kimi insanların ürəyində, qəlbində özünə əbədi şöhrət qazanmışdır. Böyük Füzulimiz deyir:

***Kim nicat istər Qiyamətdə, gərəkdir, saxlaya***
***Taəti-həq tək həmişə ehtiramın, ya Əli.***

***Cümlə insanlar, mələklər Kəbə tək məbəd sanar***
***Hər yeri, kim orda olmuşdur məqamın, ya Əli.***

Başqa şairlər də Əlinin (ə) barəsində gözəl sözlər söyləyib. Bir ərəb şairi deyir:

“Ya Əli, sənə əqllər heyran olubdu. Mən nə qədər yaxınlaşıram səni tanımaqlığa, o qədər də uzaqlaşıram.”

Beytin mənası budur ki, o adam ki Əlini (ə) az tanıyır, Əlini (ə) çox istədiyini zənn edir. O adam ki Əlini (ə) nə qədər çox tanıyır, o qədər də Əlinin (ə) əzəmətinin çox-çox böyük olduğunu başa düşür.

Peyğəmbər (s) buyurub: “Ya Əli, Allahı səndən və məndən, məni Allahdan və səndən, səni də Allahdan və məndən başqa tanıyan olmadı.”

Peyğəmbərin (s) bu hədisini bir fars şairi nəzmə çəkib:

***Mən Əliyəm ki, Xuda qiblenəma saxt məra,***
***Coz Nəbiyu, Fatime kəs nəşenaxt məra.***

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Mən Əliyəm ki, Allah məni bəşər üçün qibləgah qərar verdi. Məni Peyğəmbərdən və Fatimədən başqa heç kəs tanıyan olmadı.”

***Mən ki yek bare dər əz qəleyi-Xeybər kərdəm,***
***Daği-Zəhra, be Xuda, əz nəfəs əndaxt məra.***

“Mən ki bir dəfəyə Xeybər qalasınnın qapısını çıxartdım. And ola Allaha, Zəhranın(ə) dağı, məni əldən saldı.”

Bu günə qədər tarixdə elə bir şəxsiyyət yoxdur ki, Kəbədə doğulsun, özü də qeyri-adi şəkildə. Kəbənin divarı yarıldı və Fatimə binti Əsəd Kəbəyə daxil oldu, 3 gündən sonra sevimli balası qucağında Kəbədən eşiyə çıxdı.

***Kəbə evi aləmdə şərəf tapdı sən ilən,***
***Miladın ilə qibleyi-imandı, Əli can.***

Həzrət Əli yeganə şəxsiyyətdir ki, Allah evi Kəbədə dünyaya gəlib və Allah evində, Kufə məscidində sübh namazı üstündə şəhadətə çatıb.

Həzrət Əli (ə) Allah-Təalanın Qurani-Kərimdə, Peyğəmbərin (s) və məsumların (ə) hədislərdə, mələklərin ərşdə, alimlərin, ariflərin, şairlərin, məddahların, haqq aşıqlarının hər kəlmədə vəsf etdikləri fövqəlbəşər bir şəxsiyyətdir.

Həzrət Əli (ə), Həzrəti Məhəmmməddən (s) başqa, demək olar ki, dünyaya gəlmiş və gələcək insanların ən üstünüdür.

Həzrət Əli (ə) əxlaq, ədəb və mərifət dəryasıdır. Həzrət Əli (ə) hakimlərin ən ədalətlisi, xəlifələrin ən layiqlisidir. Həmçinin, Həzrət Əli (ə), Qurandan və hədisi-Nəbəvidən başqa, bütün kitablardan üstün olan “Nəhcül-Bəlağə”nin, digər neçə-neçə əsərlərin və “Divani-Əmir” şeirlər toplusunun müəllifidir.

Həzrət Əli (ə) səmavi kitablar sayılan Tövrat, İncil və Zəburda yad olunan şəxsdir.

Həzrət Əli (ə) vəhy mələyi Cəbrailin (ə) ustadı, peyğəmbərlərin rahnüması (yolgöstərəni), kitabullahdakı “Əvvəl”, “Axir”, “Zahir” və “Batin”dir. Bütün bu deyilənləri haqq aşiqi Aşıq Ələsgər də bir ustadnaməsində təsdiq edir:

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qənbərinən, Səlmanı,***
***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrailə ustad olan, ya Əli!***

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həzrət Peyğəmbər (s) buyurur: “Əhli-beytim, sizin adınız da Nuhun (ə) gəmisinə bənzəyir, o gəmiyə minən nicat tapar, kənarda qalan isə qərq olar.”

Qurani-Kərimin və Peyğəmbərin (s) buyurduqlarına əsasən, Əhli-beytin (ə) Allah dərgahında ən uca məqama malik olmalarına heç bir şəkk-şübhə ola bilməz. Peyğəmbərin (s) Əhli-beyti (ə) məqam baxımından ən saleh övliyalardan, mələklərdən üstündürlər. Mövqe baxımından məxluqatdan heç kəs Əhli-beytin (ə) dərəcəsinə yetişə bilməyib. Bu deyilən fikirlər əsassız və sübutsuz bir iddia deyil, həqiqətdir. Özü də Quranın və mötəbər hədislərin açıq-aşkar şahidlik etdiyi bir həqiqət. Allah-təala öz kitabında, Qurani-Kərimdə Əhli-beytin(ə), xüsusən, Həzrət Əlinin (ə) fəzilət və məqamlarını dönə-dönə xatırladaraq möminlərin qəlbini Əhli-beyt (ə) haqqında nazil olan ayələrlə nurlandırmışdır. “Təthir”, “Mübahilə”, “Məvəddət”, “Vilayət”, “Təbliğ”, “İkmal” və s. ayələri bu deyilənlərə sübut və dəlildir. “İnsan” surəsində isə Əhli-beytin (ə) yetimə, miskinə, əsirə öz payını verməsi vəsf olunmuşdur.

İbn Abbas Həzrət Əli (ə) haqqında Quranda 300 ayə nazil olduğunu qeyd etmişdir. Seyyid Sadiq Şirazi “Əli Quranda” adlı kitabında Həzrət Əlinin (ə) şəninə 600 ayə nazil olduğunu bildirir. Allah-təala Adəmi yaratmamışdan 12000 il əvvəl Əhli-beytin (ə) nurunu yaratmışdır və Əhli-beyti (ə) yaradılışın ağası və bəşərin rəhbəri etmişdir. Allah-təala Əhli-beytin (ə) vilayətini qəbul etməyi ibadətin qəbul olunması üçün şərt edib, Əhli-beytə(ə) itaəti vacib buyurmuşdur.

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”[1]

Peyğəmbər (s) buyurmuşdur: “Ey camaat! Həqiqətən məndən sonra heç bir Peyğəmbər, sizdən sonra heç bir ümmət olmayacaq. Agah olun və öz Allahınıza ibadət edin, beş vaxtda namaz qılıb, Ramazan ayının orucunu tutun, Rəbbinizin beytinin həccinə gedin, mal-dövlətinizin zəkatını səmimi qəlbdən verin və öz vəliyyi-əmrlərinizə (imamlarınıza) itaət edin ki, Pərvərdigarınızın cənnətinə daxil olasınız.”

“Əlinin (ə) vilayəti Allahın vilayətidir, onu sevmək ibadətdir.”

Allah-təala Əhli-beyti (ə) şəfaətci, hidayət yolunun çırağı, ürvətil-vüsqa, ərkani-qiblə, insanlıq üçün höccət və düzgün yol təyin edərək Nicat gəmisi kimi tanıtdırmışdır.

Sual oluna bilər ki, nə səbəbə, məhz, Əhli-beyt (ə)?

Bir neçə dəlillə bu suala cavab verəcəyik:

---

[1] “Nisa” surəsi, ayə 59

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1. Qurani-kərimin “Təthir” ayəsinə əsasən, Əhli-beyt (ə) pak və məsumdur. Əhli-beyt (ə) Allaha qarşı günah etmir və onun əmrinə xilaf çıxmırlar.

***Dərda ki, dəhli-danişü idrak getdilər,***
***Məcruhi dil şikəstəvu qəmnak getdilər,***
***Alayişi-zəxarifə aludə olmayıb,***
***Dünyayə pak gəldilər, pak getdilər.***

(Dərd budur ki, elm və idrak əhli getdilər. Qəlbi şikəstə və yaralı olan qüssəlilər getdilər. Bəzək-düzəyə bulanmadılar, dünyaya pak gəlib, pak getdilər.)[1]

2. Əhli-beytdən(ə) başqa bütün insanlar günah işlədir və bu səbəbdən də Allah yanında dərəcələri aşağı enir, duaları qəbul olunmur, qəzəb və cəzaya layiq olurlar. Günahkar bəndələr Allahın ən sevimli və məqamca üstün olan bəndələri vasitəsi ilə şəfa tapır, günahları bağışlanır, duaları qəbul olunur.

Bəzi insanlar şəfaəti, təvəssülü qəbul etmirlər və bunu dində bidət hesab edirlər. Lakin Allah övliyalarına təvəssül etmək bidət deyil, əksinə, qəbul olunan şəfaət vasitəsi kimi Quranda bir çox ayələrdə zikr olunmuşdur.

وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ لِيُطَاعَ بِإِذْنِ اللّهِ وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

“Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaları üçün dua etməyini xahiş etsəydilər, Peyğəmbər də onlar üçün əfv diləsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər.”[2]

Digər bir surədə, “Yusif” surəsində Yaqub Peyğəmbərin(ə) övladları barəsində belə buyurulur:

قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ
قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّيَ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

“O vaxt Yaqubun oğlanları onun yanına gəldilər, ondan bağışlanmaları üçün Allahdan şəfaət istəməsini xahiş etdilər. “Ata, bizim günahlarımızın bağışlanması üçün dua et. Doğrudan da, günahkar olmuşuq”, -

---

[1] M. Füzuli. “Hədiqətüs-sühəda”
[2] “Nisa” surəsi, ayə 64

dedilər. Yaqub da onların istəklərini rədd etmədi. O dedi: Mən Rəbbimdən sizin bağışlanmanızı diləyəcəm. O, həqiqətən, bağışlayan və mehribandır."[1]

Bu ayələr Allahın sevimli bəndələrini vasitəçi tutmağın, onların vasitəsi ilə şəfaət diləməyin caiz (mümkün) olduğunu göstərən tutarlı dəlillərdir. Həqiqətən, Peyğəmbər (s) və onun Əhli-beyti (ə) Allahın ən sevimli və üstün məqama malik olan bəndələridir.

3. Allah-təala o bəndəni sevir ki, o duasını Peyğəmbər (s) və onun Əhli-beytinə (ə) salavat göndərməklə başlasın. Peyğəmbər (s) buyurur: "Elə bir dua yoxdur ki, onunla səma arasında pərdə olmasın. Mənə və Əhli-beytimə salavat göndərməklə, həmin pərdə açılır və dua qəbul olunur."[2]

Bir gün Cabir ibn Abdullah Ənsar Peyğəmbərdən (s) Əli, Fatimə, Həsən və Hüseynin (ə) məqamı barəsində sual etdikdə, Həzrət buyurdu: **"Ya Cabir, dualarının Allah tərəfindən qəbul olunmasını istəyirsənsə, Onların adı ilə dua et. Həqiqətən, o adlar Allahın ən çox sevdiyi adlardır".**

Göründüyü kimi, bu hədislər bütün insanlara, peyğəmbərlərə və övliyalara aiddir. Hətta Həzrət Peyğəmbər (s) də öz duasında belə buyurardı: **"Ey Allahım, üzümü Muhəmməd və Ali Muhəmmədin hörmətinə sənə tərəf tuturam, Onların vasitəsi ilə Sənə yaxınlaşıram və öz istəklərimi Onların vasitəsi ilə Sənə təqdim edirəm".**

Bizə yetişən çoxlu hədis və rəvayətlərdən belə qənaətə gəlirik ki, peyğəmbərlər çətin məqamlarda Allaha, Peyğəmbər (s) və Ali-Peyğəmbərə təvəssül edərək, çətinliklərdən nicat tapmışlar. Bu da Həzrət Peyğəmbərin (s) və Əhli-beytinin Allah yanında hansı məqam sahibi olduğunu sübut edən açıq-aydın dəlillərdən biridir.

Biz də Allahdan o şəni uca olan Muhəmməd (s) və Ali Muhəmməd hörmətinə elm, mərifət və rəhmət diləyirik.

Məşhur əhli-sünnə alimi, "Nəhcül-Bəlağə"nin böyük təfsirçilərindən olan İbn Əbil Hədid deyir: "Müsəlman olmayan alimlər də əsrlər boyu o Həzrətin (Əlinin) sözlərini dərk etməyə ehtiyac duymuş, bu ilahi hikmət və mərifətdən bəşər övladının maddi və mənəvi həyatının bütün sahələrində faydalanmış və hal-hazırda da bəhrələnməkdədirlər."

"Nəhcül-Bəlağə" bəşər tarixinin ən böyük xətibi olan Həzrət Əlinin (ə) ən ali fəsahət və bəlağət yadigarıdır.

Həzrət Əli (ə), hər şey agah, qeyb və ilahi elmlərin qapıları üzünə açıq olduğu halda insanların dərrakəsi, ehtiyacı və tutumu qədər danışırdı. Təəssüflər olsun ki, o həkim və nümunə olan insan öz zamanında

---

[1] "Yusif" surəsi, ayə 97, 98

[2] Əllamə Məclisi. "Biharul-Ənvar", c. 94, səh. 64.

belə tanına bilmədi. Mərifət aləmində tənha yaşadı və məzlum olaraq dünyadan getdi.

Həzrət Əli (ə) şəhadət və cihad məktəbinin şücaətli sərkərdəsi və qorxmaz əsgəri idi. O, İslamda vəhdəti qorumaqdan ötrü özünün və ailəsinin mənafeyindən keçən, icmada fəal iştirak edib cəmiyyətlə qaynayıb-qarışan, lakin "fəna fillah"da, münacatında, təfəkküründə tənha qalan, həyatını İslam dininin inkişafına həsr edən ixlas məbədinin memarıdır.

Dahi şair şeyx Nizami Gəncəvi "Olar" rədifli qəsidəsində Əlinin (ə) yüksək mənəvi keyfiyyətlərini qələmə alaraq yazır:

***Bəhmənin qollarını əjdaha bölmüşdür iki,***
***Burda Heydər biləyiylə o, əziyyətdə olar.***

Bəhmən şərq pəhləvanlarından biri olmuşdur. O, əjdaha ilə döyüşdə bir qolunu itirmişdi. Rəvayətlərdə deyilir ki, həmin əjdaha yalnız Heydərin, yəni Əlinin (ə) qılıncı ilə ikiyə bölünmüşdür.

Nizami bu rəvayətə istinad edib nəticə çıxarır ki, həyatda heç bir zülm, pis əməl cəzasız qalmır, hər kəs öz işinin cəzasını və mükafatını almalıdır və alacaqdır. Necə ki, Şərq pəhləvanı Bəhmənin qolunu şər qüvvəsi əjdaha kəsmişdi, o cür də xeyir qüvvəsi Əlinin (ə) qılıncı əjdahanı məhv etdi.

Firdovsi "Şahnamə" əsərinin müqəddiməsində İslam Peyğəmbərinin (s) şəninə təriflər söylədikdən sonra Peyğəmbərin (s) Əhli-beytinə (ə) olan hörmətini bu cür ifadə edir:

***Peyğəmbərin söylədiyi yolla get,***
***Ürəyini bu saf su ilə pak et.***
***And içirəm: Bu sözləri o deyib,***
***Qulaqların onun səsin dinləyib.***
***Elmin şəhri mənəm, qapısı Əli,***
***Peyğəmbər söyləyibdir bu sözləri.***
***Mən Peyğəmbər Əhli-beytinə qulam,***
***Onlara dua etməklə məşğulam.***

Seyyid Yəhya sünni-hənəfi bir şeyx olmasına baxmayaraq, şiə və sünni müsəlmanlar arasında barışdırıcı bir mövqe tutmağa çalışmışdır. Əsərlərində Həzrət Əli (ə) və Əhli-beyt (ə) sevgisindən çox söz açmışdı, İmam Əli (ə) üçün yazdığı qəsidələrdə ona inanmayanların müsəlman ola bilməyəcəyini qeyd etmişdir. Onun bu məhəbbəti sağlığında "rafizi" kimi də günahlandırılmasına səbəb olmuşdur. Örnəklərə müraciət edək:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

> ***“Şahi-mərdan, miri-meydan, safları yaran Əlidir,***
> ***Yol bilən, haqqa gedən yola rəhbər olan Əlidir.***
> ***Hər kim Əlini tanımadısa, iki cahanda kor oldu,***
> ***Necə kor olmasın, çünki hər şeyin əsli Əlidir”***

Və yaxud:

> ***“Bu Qul, Nəbidən sonra mürşüd Əlini tapdım,***
> ***Əhməd şəhər idi, Əlini qapısı olaraq gördüm.***
> ***Həm nəbi, həm vəli, iki aləmin böyük zərrələri,***
> ***Baxdıqda yəqin olaraq Əlini gördüm”[1].***

İbn Abbas nəql edir ki, Həzrət Peyğəmbərimiz (s) bir xütbəsində buyurdu:

“Ey camaat! Allah-təala mənə vəhy etdi ki, tezliklə sizin aranızdan gedəcəyəm. Bilin ki, əmioğlum Əli (ə) qardaşım, canişinim və məndən sonra xəlifəmdir, imamdır. Əgər ona itaət etsəniz, Allaha itaət etmiş, itaət etməsəniz, Allaha qarşı günah etmiş olursunuz. Allah-təala Quranı mənə nazil etdi. Əli (ə) onun təfsirçisidir. Hər kəs Quranla müxalifətçilik edərsə, yolunu azacaq və hər kəs Əlidən (ə) başqasına itaət etsə, xar və zəlil olacaq.

Ey camaat! Qiyamət günü mən, Əhli-beytim (ə), nəslim və sizlər hamılıqla toplaşacağıq. Onda mən sizdən iki ağır əmanət haqqında soruşacağam. Məndən sonra bu ikisi ilə necə rəftar edəcəyinizə diqqət edin. Hər kəs onlara əziyyət etsə, mənə əziyyət etmiş və hər kəs onlara zülm etsə, mənə zülm etmişdir. Hər kəs onlarla dost olsa, mənimlə dost olmuş, hər kəs onlara hörmət etsə, mənə hörmət etmişdir. Hər kəs onlardan başqa nicat yolu axtarsa, məni inkar etmişdir. Allahdan qorxun və diqqətli olun ki, sabah Qiyamət günü nə cavab verəcəksiniz?! Bilin ki, Quran və Əhli-beytimə (ə) düşmən olan kəsə mən də düşmənəm. Mən hər kəsə düşmən olsam, onun nəsibi cəhənnəm olacaq”.

Baxmayaraq ki, Peyğəmbərimiz (s) buyurmuşdu ki, Quran və ailəm bir-birindən ayrılmayacaq və sizin nicatınız onların hər ikisindən möhkəm yapışmağınızdadır, amma bəziləri bunu əməldə inkar edərək: “Allahın kitabı bizə kifayətdir”, - dedilər, nəticədə, nə Qurana əməl etdilər və nə də Əhli-beytə (ə) tabe oldular”[2].

Həzrət Əli (ə) Qurani-Kərimə aid olan biliklərini Həzrət Peyğəmbərdən (s) almış və Peyğəmbərə (s) ən yaxın adam olmuşdur. Belə ki, Pey-

[1] Mehmet Rihtim. “Seyyid Yəhya Bakuvi və Xəlvətilik”
[2] “Biharul-ənvar”, c. 22, səh. 473

ğəmbər (s) aldığı vəhylərin mənasını hamıdan əvvəl Əliyə (ə) açıqlamışdır. Elə bu səbəbdən də Həzrət Əli (ə) buyurmuşdur:

"Allahın kitabı barəsində məndən soruşun, çünki elə bir ayə yoxdur ki, onun gecə və ya gündüz, aranda və ya dağda nazil olduğunu bilməyim."

İnsan nə qədər elmli, bilikli olsun ki, belə bir sözü camaat arasında desin. Həzrət Əlinin (ə) belə bir söz deməyə haqqı çatırdı, çünki Peyğəmbər (s) nazil olan ayələri əvvəlcə Həzrət Əliyə (ə) oxuyur və yazdırırdı, sonra həmin ayələrin təvil və təfsirini, nasix və mənsuxunu, möhkəm və mütəşabihini öyrədir və Allah-təaladan istəyirdi ki, onları başa düşmək üçün Əliyə (ə) qüvvət versin. Həzrət Əli də (ə) Peyğəmbərdən (s) öyrəndiklərini yadda saxlayır və bu mübarək ayələrin halal-harama dair hökmlərini, əmr və qadağalarını, olanlara və olacaqlara dair xəbərlərini bilirdi. Həzrət Əli (ə) bir nəfər müsəlmanın "Bəqərə" surəsinin 156-cı ayəsini oxuduğunu eşidərkən buyurdu: "Bizim "İnna lillahu" deməyimiz Allahın padşahlığını etiraf etməyimizdir, "İnna ileyhi raciun" deməyimiz isə həlak olacağımızı iqrar etməyimizdir."[1]

Şeyx Mufidin yazdığına görə, "Əmirəl-möminin Əli (ə) nazil olan Quranı əvvəlindən axırına kimi cəm etmiş, vacib olduğu şəkildə yazmış, Məkkə ayələrini Mədinə ayələrindən qabağa çəkmiş, nəsx edilmiş ayələri nəsx edən ayələrdən qabağa çəkmiş, oradakı hər şeyi öz yerinə qoymuşdur."

Həzrət Əlinin (ə) xütbələrindən, məktub və qısa kəlamlarından ibarət olan "Nəhcül-bəlağə" əsəri də Əlinin (ə) şəxsiyyəti, fəzilətləri, bəlağət və fəsahəti, elmi və natiqliyi barədə biliklərimizi zənginləşdirən, daha geniş və dolğun bilik əldə etməyimizə imkan verən fundamental bir əsərdir. İlk dəfə Həzrət Əlinin (ə) xütbələrini onun yaxın əshabından olan və Əlini (ə) Nəhrəvan səfərində müşayiət edən Kufəli Zeyd ibn Vəhbəl-Cuheyni (vəfatı-714 h/q) yazmağa başlamışdır.

"Nəhcül-bəlağə" İslam mədəniyyətinin ensiklopediyasıdır. Bu adı o Həzrətin(ə) nəslindən olan, 4-cü əsrin məşhur islam alimi və ədibi Seyyid Rəzi vermişdir. Seyyid Rəzi Həzrət Əlinin (ə) xütbələrini, məktublarını, öyüd və nəsihətlərini, hikmətli sözlərini bir yerə cəmləyərək "Nəhcül-bəlağə" adlandırmışdır.

"Nəhcül-bəlağə"nin mövzusu barəsində bu müqəddəs kitabın müasir şərhçilərindən olan böyük Əhli-sünnə alimlərindən biri, Misirin keçmiş müftisi Şeyx Məhəmməd Əbduhun sözlərinin bir hissəsini nəql etməklə kifayətlənirik. Şeyx öz müqəddiməsində deyir: "Mən "Nəhcül-bəlağə"ni oxuyanda, bir ibarədən digər bir ibarəyə keçəndə düşüncə cövlangahı və bəsirət baxışının dəyişməsini görürdüm. Bəzən özümü nurani və hey-

[1] "Nəhcül-bəlağə", hikmətli kəlamlar, 95

rətləndirici kəlmələrə bükülmüş halda pak ruhların ziyarətinə gələn və çirkinliklərdən təmizlənmiş qəlblərdə yurd salan çox yüksək mənalar aləmində görürdüm... Cümlə və ibarələr bəzən də belə olurdu ki, sanki qaşqabaqlı üzlər, bir-birinə qıcanmış dişlər və hücum etməyə hazırlanmış qəzəbli qartallarla üz-üzəyəm. Bəzən də öz cismani qəlibi ilə heç bir oxşarlığı olmayan nurani bir ağılı görürdüm ki, ilahi karvandan ayrılaraq insan ruhuna qoşulub və onu çirkinlik və vəsvəsələrdən təmizlədikdən sonra ona təbiət aləmindən gözəllik verib və daha sonra onu özü ilə uca mələklər aləminə aparıb, ilahi nurun saçdığı məkana kimi çatdırıb və Rəbbin müqəddəs dərgahına məskunlaşdırıb. Bəzən də ümmətin vəlilərinə xitab edərək uca səslə onlara təlim verən, doğru və səhv yolu onlara göstərən, ölkə idarəçiliyini onlara öyrədən və azğınlıq uçurumuna gedib çıxan yol ilə getməkdən çəkindirən bir xətib gördüm.”

Həzrət Əli (ə) buyurur: “Bizə sarılan bizə yetişər, bizdən ayrılan geri qalar, həlak olar. Əmrimizə boyun əyən qabağa gedər, xoşbəxtliyə yetişər. Bizim gəmimizdən başqa gəmiyə minən həlak olar, boğular. Dəstəmiz Allahın dəstəsidir. Ədalətsiz və zalım olanlar isə şeytanın dəstəsidirlər. Kim bizimlə bizim düşmənimizi bir edərsə, bizdən deyil.”

Allah-təala bizi Quran və Əhli-beytdən ayrı salmasın. Bizi Əhli-beytə (ə) yaxınlaşmaqda müvəffəq etsin. Qəlblərimizi Həzrət Əlinin (ə) vilayət nuru ilə işıqlandırsın. Bu dünyada bizi Əhli-beytin (ə) ziyarətindən, Qiyamət günü şəfaətlərindən binəsib etməsin. Nə bu dünyada, nə də axirətdə bizi onlardan bir an belə ayırmasın. Amin!

***Ey cəmalında sənin nuri-ilahidir tamam,***
***Ol sifatın zikridir fikrim həmişə sübhü şam.***

***Ol şəhənşahu-cəhansan kim, qul olub qanuna,***
***Qənbərinin xidmətiçün Qeysərü Cəmdir Qulam***

***“Həl-əta” da həq sana çün saqiyi-mütləq dedi,***
***Abi-kövsərdən sənin dəstindədir yaqut cam.***

***Ol Əlisən kim, xamu peyğəmbərə səndən şəfi,***
***Cümlə bu ümmid ilən Qapuna gəlir xasu am.***

***Çün sənin övsafinə yetməz Xətainin sözü,***
***Uş bu əbyat üstə xətm oldu kəlamım, vəssəlam.***



# I FƏSİL

# HƏZRƏT ƏLİNİN (Ə) HƏYATI

*Mənim şahim Əliyyu Mürtəzadur.*
*Yüzüm dünyavü üqbadə onadur.*

*Əlini bilməyən məl`un münafiq,*
*Xəvaricdür iki gözü əmadur.*

*Olardan özgə kim vardur? Mənə de,*
*Xudadur, Mustəfadur, Murtəzadur.*

*Əlidür ğazilər şahi, şəhənşah,*
*Muhəmməd Müstəfa sahib liqadur.*

*Xətai can-u dildən şahə quldur,*
*Əlinün eşiyündə bir gədadur.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## HƏZRƏT ƏLİ İBN ƏBU TALİB (Ə)

Doğum tarixi: 13 Rəcəb, hicrətdən 23 il öncə
Atası: Həzrət Əbu Talib (Peyğəmbərin (s) əmisi)
Anası: Fatimə binti-Əsəd
Künyə və ləqəbi: Əbəl-Həsən, (Mürtəza, Heydər)
İmamət müddəti: 30 il
Şəhadət tarixi: 21 Ramazan, hicrətin 40-cı ili
Qatili: Əbdürrəhman ibn Mülcəm Muradi
Qəbri-şərifi: İraqın Nəcəf şəhərində

## HƏZRƏT ƏLİNİN (Ə) HƏYAT VƏ FƏALİYYƏTİ

Həzrət Əli (ə) Peyğəmbər (s) peyğəmbərliyə çatmamışdan 10 il əvvəl Rəcəb ayının 13-də Kəbə evində dünyaya gəlib. Atası Həzrət Əbu Talib (ə), anası Fatimə binti-Əsəddir.

Rəcəb ayının 13-də cümə gecəsi Fatimə binti Əsəd ağrılar hiss etdi. Əbu Talib (ə) Qureyş qadınlarından onun üçün kömək çağırmaq istədikdə bir səs eşitdi: “Ey Əbu Talib, səbr et. Çünki nəcis əl Allahın vəlisinə toxunmamalıdır.”

Fatimə binti-Əsəd(ə) deyir: “Sübh vaxtı bir nida eşitdim: “Ey Fatimə, bizim evə gəl.”

Əbu Talib (ə) və Peyğəmbər (s) onu Məscidül-Harama gətirdilər. Abbas ibn Əbdül Mütəllib bir dəstə insanla məsciddə əyləşmişdi. Gördülər ki, Fatimə binti-Əsəd(ə) Məscidül-Harama daxil oldu. Kəbə ilə üzbəüz dayanıb, səmaya baxaraq belə dua edirdi: “Pərvərdigara! Mənim Sənə, Peyğəmbərlərinə və sənin tərəfindən göndərilən kitablara imanım var. Mən babam İbrahimin (ə) kəlamını təsdiq edirəm. O, bu evi bir şəxsin haqqına xatir tikib. Səni and verirəm bətnimdə olan, mənimlə danışıb ünsiyyət quran övladın haqqına xatir, bu doğumu mənə asan et.”[1]

“Birdən orada olanlar gördülər ki, Kəbənin arxa tərəfindəki divar yarıldı. Fatimə binti-Əsəd (ə) içəri daxil oldu. Kəbənin qapısındakı qıfılı nə qədər açmaq istəsələr də, mümkün olmadı. Bildilər ki, bu işdə Allahın hikməti var”[2].

Fatimə binti-Əsəd(ə) deyir: “Kəbəyə daxil olduqda gördüm ki, Həvva, Sara, Asiya, Musa ibn İmranın anası və İsanın(ə) anası Məryəm

---

[1] İbn Şəhraşub, “Mənaqib”, c. 2, səh. 198-199; “Biharul-Ənvar”, c. 35, səh. 8-36
[2] “İrşad”, c. 1, səh. 5

gəldilər. Onlar mənə salam verdilər: “Əssələmu əleyki, ya vəliyyətullah” və qarşımda əyləşdilər.

Peyğəmbərlərin sonuncusu Həzrət Muhəmməd(s) dünyaya gəldikdə yerinə yetirdiklərini Əlinin (ə) viladətində də yerinə yetirdilər. (O zaman) Fatimə binti-Əsəd(ə) Peyğəmbər (s) dünyaya gəldikdə iştirak etmiş və əhvalatı Əbu Talibə danışmışdı. Həzrət Əbu Talib qabaqcadan ona demşdi: “30 il səbr elə, Allah sənə Peyğəmbərlərin sonuncusu kimi bir övlad bəxş edəcək. Yalnız o, peyğəmbər olmayacaq, onun vəsisi və canişini olacaq.”[1]

Cümə günü Əli (ə) Kəbənin sağ küncündə qırmızı daşın üstündə günəş kimi saçdı. Kəbəyə ayaq qoyan kimi səcdəyə düşdü və əllərini səmaya qaldırıb buyurdu: “Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən Rəsulullah və əşhədu ənnə Əliyyən vəliyyu Muhəmmədin Rəsulillah, bi Muhəmmədin yəxtimullahun-nübüvvətə və bi yəxtimul və ənə Əmirul-Muminin” - “Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur. Mühəmməd (s) Allahın Rəsuludur.Əli Muhəmmədin vəsisidir. Muhəmmədlə nübuvvətlik, mənimlə isə vəsilik kamil və tamam olur. Mən möminlərin əmiriyəm.”[2]

Sonra buyurdu: “Haqq gəldi və batil aradan getdi.”

Mübarək vücudu bu torpağa qədəm qoyan kimi Kəbədə olan bütlər üzü üstə yerə düşdü, səmalar nurlandı, Şeytan fəryad etdi: “Vay olsun bütlərə və bütpərəstlərə.”

### *Üç gün Kəbədə*

Fatimə binti-Əsəd (ə) üç gün ilahi qonaq olduqdan sonra, öz möhtərəm və sevimli oğlunu qucağına alıb Kəbədən xaric oldu. Qeybdən belə bir nida gəldi: “Ey Fatimə, bu uşağın adını Əli qoy. Mən Əliyyi-Əla olan Allaham. Mən onun adını öz adımdan seçmişəm. Ona ədəb öyrətmişəm və öz əmrimi ona tapşırmışam. Onu öz elmimdən agah etmişəm. O, mənim evimdə dünyaya gəlib. O, mənim evimin üstündə azan deyəcək ilk şəxsdir. O, bütləri sındıracaq, Kəbənin üstündən yerə atacaq. Xoş o insanın halına ki, onu sevib, itaət və kömək edə. Ona düşmən kəsilib, ondan boyun qaçırıb, xar edərək haqqını inkar edən kəsin halına vay olsun.”[3]

***Olubdu üç gecə-gündüz Xudaya Fatimə qonaq,***
***Ananın olsa isməti, Xuda gözəl bala verir.***

---

[1] “Biharul-Ənvar”, c. 35, səh. 6; Rövzətul-vaizin, c.1, səh. 81
[2] “Mənaqib”, c.2, səh. 198
[3] “Biharul-ənvar”, c. 35, səh. 9-37

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Çıxıbdı Beytidən, gəlib yetişdi dudimaninə,*
*Gəlibdi guya bu səs görüb Xuda nida verib:*

*"Əli" qoyun adın bunun, həbibimdir Mənə bu tifil,*
*Deyin, bunu sevənlərə Xuda özü cəza verir.*

*Alıb Peyəmbəri-Xuda qucağına öpüb üzün,*
*Görüblər, çox sevir onu, öpür gözün, dua verir.*

*Deyir: Xudayi-laməkan, özün bu tifili hifz elə,*
*Vəsiyyi-əvvəlimdi bu, Sənin kimi Xuda verir[1].*

Bu üç gündə hər yerdə mübarək mövludun istisna halda dünyaya gəlməsindən danışılırdı. Xüsusilə, Kəbənin divarlarının kafirlərin gözü qarşısında yarılmasından.

Fatimə binti-Əsəd(ə) deyir: "Kəbədən xaric olub, övladımı Peyğəmbərin (s) yanına qoyduqdan sonra O Həzrət (s) mübarək ağzı ilə Əlinin (ə) ağzını açıb, ağzının suyunu ona toxundurdu. Sağ qulağına "azan", sol qulağına "iqamə" dedi.[2]

Həzrət Əlinin (ə) viladətinin üçüncü günü Həzrət Əbu Talib ziyafət verdi və buyurdu: "Əli ibn Əbu Talibin (ə) ziyafətinə gəlin. Əvvəlcə, Kəbəni 7 dəfə təvaf edin, sonra övladım Əliyə (ə) salam verin."

*Adın həmişə, ya Əli, ürəklərə səfa verir,*
*Hayanda zikr olur adın, o məclisə cəla verir.*

*Adında, bilmirəm, nə var, deyəndə kim həvəslənir,*
*Adın fədasıyam, Əli, mərizlərə dəva verir.*

## *Həzrət Əlinin (ə) uşaqlıq dövrü*

Həzrət Əli (ə) özünün uşaqlıq dövrü və Peyğəmbərlə(s) birlikdə olması barəsində belə buyurur: "Uşaqlıqda Peyğəmbər (s) məni qucağına alıb sinəsinə yapışdırar, yeməyi çeynəyib ağzıma qoyardı. Onun xoş iyi canıma daxil olurdu. O, danışığımda yalan, rəftarımda isə səhv və nadanlıq tapmırdı. Allah Peyğəmbəri (s) məni süd içən vaxtdan böyük mələklərlə yoldaş etmişdi. Mən də süd içən uşağın anasına itaət etdiyi kimi

[1] Şair Azəri
[2] "Mənaqib", cild 2, səh.199

ona itaət edirdim. O, hər il Hera dağına gedirdi və bu vaxt məndən başqa heç kim onu görmürdü."[1]

Həzrət Əlinin (ə) yaşayış dövrü 4 hissəyə bölünür:

1. Uşaqlıq dövrü
2. Peyğəmbər (s) ilə olan dövr
3. Xilafətdən uzaqlaşdırılan dövr
4. Xəlifəlik dövrü

### *Həzrət Əliyə (ə) "Əli" deməyin səbəbi*

Bəzi alimlər Həzrət Əliyə (ə) "Əli" deməyin səbəbini onunla əlaqələndirirlər ki, O Həzrət hər kəsin qarşısında dursaydı, ona qələbə çalardı.

Bir dəstə alimlər deyirlər: "Həzrət Əlinin (ə) behiştdəki məqamı o qədər üstündür ki, Peyğəmbərlərin məqamına bərabərdir".

Başqa bir dəstə alimlər deyirlər ki, Peyğəmbərdən (s) sonra Həzrət Əli (ə) elmdə xalqın ən üstünü idi.

Digər bir dəstə alimlər isə deyirlər: Kəbə evinin üstündəki bütlərin məhv olduğu vaxt Həzrət Əli (ə) Peyğəmbərin (s) mübarək çiyninə çıxıb bütləri sındırdı.

Belə bir rəmz var Kəbədə büt qırmaq üçün,
Mustafa çiyni Əli payinə minbər oldu[2].

### *Həzrət Əlinin (ə) adı nəyə görə Quranda açıq-aşkar gəlməyibdir?*

1. Həzrət Əlinin (ə) vilayət mövzusu imtahana çəkilir və gərək camaat onun vasitəsilə imtahan olsun. Bu mətləbi təsdiq edən ayələrdən biri "Ənkəbud" surəsinin 1-ci ayəsidir. Bu ayədə Allah-Təala buyurur:

"İnsanlar yalnız "İman gətirdik!" - demələri ilə onlardan əl çəkilib imtahan olmayacaqlarını güman edirlər."[3]

Sünni və şiə aləminin böyük təfsir alimlərinin yekdil nəzərinə əsasən, bu ayədən məqsəd Həzrət Əlinin (ə) vilayətidir. O Həzrətin vilayəti ilə müsəlmanlar imtahan olunurlar. Ş.İ.Xətai bir qəzəlində vilayət barəsində deyir:

---

[1] "Nəhcül-bəlağə", 234-cü xütbənin axır hissələri
[2] A.A.Bakıxanov "Seçilmiş əsərlər"
[3] "Ənkəbut" surəsi, ayə 1

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***Mən şaha bu canımı sidq ilə qurban qılmışam.***
***Gər qəbul qılsa, vilayət eydi-qurban məndədir.***

İmam Məhəmməd Baqir (ə) buyurub: "İslam dini 5 təməl üzərində qurulub: Namaz, zəkat, oruc, həcc və vilayət. Vilayət bu 4-nün açarıdır."

2. Əgər Həzrət Əlinin (ə) adı Quranda açıq-aşkar gəlsəydi belə, yenə də camaat vəzifə, məqam, dünya tamahkarlığı və məhəbbəti üzündən onunla müxalifətçilik edəcəkdilər. Necə ki, Quran ayələrindən bəziləri ilə müxalifət etdilər.

3. Qurani-Kərim külli və ümumi hökmlərə şamildir. Bu hökmlərin cüziyyatını Peyğəmbər (s) izah edibdir. Vilayət və İmamətin əslindən də bir neçə ayədə müxtəlif şahidlərlə yanaşı qeyd olunubdur. Peyğəmbər (s) də öz bəyanatı ilə həmin ayələrin mənasını, yəni Həzrət Əliyə (ə) aid olmasını xalqa çatdırıbdır.[1]




[1] Fəzlullah Kompani, "Əli kimdir?", səh. 6

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## FATİMƏ BİNTİ-ƏSƏD

Fatimə binti-Əsəd İmam Əlinin (ə) anası və Əbu Talibin (ə) həyat yoldaşıdır. O xanım bir müddət Peyğəmbərə (s) himayədarlıq etmiş və ona məhəbbət bəsləyən bir ana kimi olmuşdur.

Fatimə Məkkədən Mədinəyə İmam Əli (ə) ilə birlikdə mühacirət etmişdi. Fatimənin şəninə yalnız bu söz yetər ki, o, Həzrət Əli (ə) kimi övladını Kəbə evində dünyaya gətirmiş və Əmirəl-möminin Əlinin (ə) anası olmaq kimi böyük bir iftixara layiq olmuşdur. Allahın Rəsulu (s) hər zaman günortadan qabaq yorğun olarkən, Fatimə binti-Əsədin evinə gedərək, orada istirahət edərdi. O xanım bacardığı qədər İslama xidmət göstərmək yolunda çalışmış və İslam ordusuna başçılıq edən Həzrət Əli (ə), Cəfər Təyyar kimi övladlar yetişdirmişdir. Fatimə binti-Əsəd dünyasının dəyişəndə Peyğəmbər (s) ağlar gözlə onun cəsədinin yanına gəlmiş və demişdir: “Allah onu bağışlasın. O, təkcə Əlinin (ə) deyil, mənim də anam idi”.

Sonra Peyğəmbər (s) öz köynəyini və əmmaməsini onun kəfəninin düzəldilməsi üçün verdi və onun üçün meyit namazı qılarkən qırx təkbir dedi. Onun boş qəbrinə daxil olaraq orada uzandı. Daha sonra Həzrət Əliyə (ə), sonra isə Həsənə (ə) buyurdu: “Siz də qəbirə girib uzanın və sonra qırağa çıxın”.

Peyğəmbər (s) bunlardan əlavə Fatimənin (ə) başı tərəfində durub ona təlqin dedi və haqqında dua etdi. Əmmar Rəsuləllaha (s) ərz etdi: “Fatimə üçün etdiklərinizi heç kim üçün etməmişdiniz”.

Həzrət (s) buyurdu: “O mənim belə rəftarıma layiq idi. O öz uşaqlarını yeməklə doyurmazdan qabaq məni doyurardı. Uşaqları paltarsız saxlayıb, məni geyindirərdi. Öz övladlarından çox mənə xidmət edərdi”.

Əmmar soruşdu: “Bəs, onun namazında niyə qırx təkbir dediniz?”

Həzrət (s) buyurdu: “Fatimənin namazında qırx cərgə mələk iştirak edirdi. Hər bir cərgə üçün bir təkbir dedim. Öz köynəyimi və əmmaməmi ona kəfən etməyimin səbəbi bu idi ki, bir gün camaatın Qiyamət günü lüt, paltarsız olması barəsində söhbət edirdim. Bu söhbəti eşidən Fatimə Qiyamət günündə paltarsız qalmaqdan və rüsvay olmaqdan narahat oldu. Öz paltarımla onu kəfənlədim ki, Qiyamət günündə paltarsız olmasın və kəfəni də çürüməsin. O qəbrdə soruşulacağ sualdan qorxduğu üçün onun qəbrində uzandım. Allah, onun qəbrinə behiştdəki qapılardan birini açdı və onun qəbri behişt bağlarından birinə çevrildi”.[1]

Əhli-sünnənin tanınmış alimi ibn Əbil-Hədid yazır: “Fatimə binti-Əsəd İslamın zühurundan sonra müsəlman oldu (Halbuki, bizim əqidəmizə görə, İmam Əlinin (ə) anası Fatimə binti-Əsəd heç vaxt müşrik ol-

[1] “Məqatilut-talibin”, səh. 8, “Bihar”, cild. 35, səh. 70

mamışdır) və İslamı qəbul edən on üç nəfərdən biridir. Peyğəmbər (s) ona çox ehtiram edərdi və onu “ana” çağırardı. Fatimə binti-Əsəd vəfat edən zaman öz vəsiyyətini Peyğəmbərə (s) etdi. Peyğəmbər (s) də onun vəsiyyətini qəbul etdi. Cənazəsinə namaz qıldı, qəbrində uzandı və öz köynəyini ona kəfən etdi. Peyğəmbərdən (s) soruşdular: “Siz heç kim üçün belə etməmisiniz, Fatimə üçün etdiniz?”

Peyğəmbər (s) cavabında buyurdu: “Əbu Talibdən sonra heç kəs mənə Fatimə qədər yaxşılıq etmədi”.

Fatimə binti-Əsəd Peyğəmbərə (s) Xədicədən (ə) sonra beyət edən qadın idi.”[1]

Fatimənin Faxtə “Ummu Hani” adlı bir qızı da vardı ki, Peyğəmbər (s) onun evindən meraca getdi. Ummu Hani Məkkənin fəthində İslamı qəbul etmişdi və əri kafir qaldığı üçün ondan ayrılmışdı.

Məkkənin fəthində Peyğəmbər (s) buyurmuşdu: “Kafirlərdən hər kim Ummu Haninin evinə getsə, amandadır”.[2]

Həmçinin, Peyğəmbər (s) belə buyurmuşdu: “İstəyirsizinmi, əmi və bibi cəhətindən ən üstün olan şəxslərin kim olduğunu sizə söyləyim?”

Orada olanlar dedilər: “Bəli”.

Peyğəmbər (s) buyurdu: “Onlar Həsən (ə) və Hüseyndir(ə). Əmiləri behiştdə qanadları ilə uçan Cəfər Təyyar və bibiləri də behişt əhli olan Ummu Hanidir”.[3]

Həqiqətən də, qadın elə bir ehtiram və şəxsiyyət həddinə yüksələ bilər ki, tanınmış böyük qəhrəmanlar yetişdirər, Kəbə evi onun doğum yeri olar, İslam Peyğəmbəri (s) isə onu öz anası bilər. Ey Qadın! Sən özünü kiçik sanma. Sən böyük bir şəxsiyyətə maliksən. Bəs, özünə etimad edib güvənməklə Allah yolunda addımla ki, uca və yüksək məqamlara çatasan.

[1] “Nəhcül-bəlağənin şərhi”, ibn Əbil-Hədid, cild. 1, səh. 14
[2] “Səfinətul-bihar”, cild. 2, səh. 726
[3] “Tənqihul-məqal”, cild. 3, səh. 74

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ƏBU TALİBİN HƏYATI

Həzrət Əbu Talibin əsl adı İmrandır. Atası Əbdül-Mütəllib, anası Fatimə binti Əmr ibn Aizdir. Həzrət Əbu Talib Peyğəmbərin (s) atası Abdullah və Zübeyrlə doğma qardaş idi.Əbdül Mütəllibin digər övladları isə başqa qadından dünyaya gəlmişdilər.

Tarix Həzrət Əbu Talibin fədakarlıqlarını qeydə almışdır. Məşhur tarixçi ibni- Əbil Hədid Əbu Talibin göstərdiyi fədakarlıqlar haqqında belə yazır: “Bir nəfər Əbu Talibin imanı barədə bir kitab yazıb mənim yanıma gətirdi və məndən onun haqqında bir şey yazmağımı istədi. Mən onun kitabının arxasında bu iki misranı yazdım: “Əgər ƏbuTalib və oğlu Əli (ə) olmasaydı, İslam dinini qoruyub saxlamaq mümkün olmazdı. Ata (Əbu Talib) Məkkədə Peyğəmbəri (s) himayə edirdi və oğlu Əli (ə) Yəsribdə ölüm burulğanına düşürdü.”[1]

Əbu Talibin imanı məsələsinin tarix kitablarında qeyd olunmasına siyasi bir məsələ kimi baxılır. Bəzi yersiz təəssübkeşlər onun imanını inkar etməklə, Həzrət Əlinin (ə) fəzilətini inkar etmək istəyirlər. Əgər Əbu Talib Əlinin (ə) atası olmasaydı, onun imanının sübut edilməsi üçün mövcud dəlillərin heç onda biri də lazım deyildi.

## ƏBU TALİBİN İMANININ DƏLİLLƏRİ

### *1. Əbu Talibin elmi-ədəbi əsərləri*

İslam alimləri və tarixçiləri Əbu Talibdən gözəl qəsidələr nəql etmişlər ki, onun elmi və ədəbi misraları arasından həqiqi imanını dərk etmək olar. Biz onun çoxlu qəsidələrindən bəzilərini qeyd edirik:

لِيَعلَم خِيَارُ النَّاسِ اَنَّ مُحَمَّدًا     نَبِيٌّ كَمُوسَي وَالمَسيحِ ابنِ مَريَم
اَتَانَا بِهُدًي مِثلَ مَا اَتَيَابِهِ     فَكُلٌّ بِاَمرِ اللهِ يَهدِي وَ يَعصِمُ

“Şərif və alicənab insanlar bilsinlər ki, Muhəmməd də Musa və İsa kimi bir peyğəmbərdir, O ikisinin malik olduğu asimani nuraniyyətə o da malikdir. Bütün peyğəmbərlər Allahın fərmanı ilə insanları hidayət etdilər və günahlardan çəkindirdilər.”[2]

---

[1] İbni-Əbil Hədid, “Nəhcül-bəlağə”nin şərhi, cild 4, səh. 83
[2] “Əl-hüccə”, səh. 57, “Müstədrək” (Hakim), 2-ci cild, səh.623, Beyrut çapı

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

اَلَم تَعلَمُوا اَنَّا وَجَدنَا مُحَمَّدًا       رَسُولاً كَمُوسَي خُطّ فِى اَوَّلِ الكُتُبِ
وَ اَنَّ عَلَيهِ فِى العِبَادِ مَحَبَّةً       وَلا حيفَ فِيمَن خَصَّهُ اللّٰهُ بِالحُبِّ

"Bilmirsinizmi ki, biz Muhəmmədin, Musa kimi asimani kitablarda bəyan olunan bir peyğəmbər olduğunu gördük?

Camaat onu sevir və Allah onun məhəbbətini qəlblərdə qərar verdiyi bir şəxsə zülm rəva görməməlidirlər."[1]

لَقَد اَكرَمَ اللّٰهُ النَّبِيَّ مُحَمَّدًا       فَكرَمُ خَلقِ اللّٰهِ فِي النَّاسِ اَحمَدُ
وَ شَقَّ لَهُ مِنِ اِسمِهِ لِيُجِلَّهُ       فَذوالعَرشِ مَحمُودٌ وَ هذَا مُحَمَّدُ

"Böyük Allah öz Peyğəmbəri Muhəmmədi əzizlədi. Buna görə də Allahın məxluqlarının ən sevimlisi Əhmədir. Allah Peyğəmbərin adını öz adından müştəq etmişdir ki, onun məqamını əzizləsin.

Ərş sahibi olan Pərvərdigar Məhmud (tərifənmiş), Onun Peyğəmbəri isə Əhməddir" (çox həmdü səna edəndir).[2]

وَاللّٰهِ لَن يَصِلُوا الُواالَيکَ بِجَمعِهِم       حَتىَّ اُوسِدَ فِى التُرَابِ دغينَ
فَاصدَع بِامرِکَ مَا عليک غَضاضَة       وَاَبشِر بِذلِ وَقَرَّ مِنکَ عُيُونَا
وَدَعَو تَنِي وَ عَلِمتُ اَنَّکَ نَاصِحيز       وَلَقَد دَعَوتَ وَ كُنتَ ثَمَّ اَمِينَا
وَلَقَد عَلِمتُ بِاَنَّ دِينَ مُحَمَّدٍ(ص)       مِن خَيرِ اَديَانِ البَرِيَّةِ دِينَا

"Ey Allahın Rəsulu, Allaha and olsun, mən torpaqda varam oluncaya (yəni, ölüncəyə) qədər düşmənlər heç vaxt səni ələ keçirə bilməyəcəklər.

Belə isə heç nədən qorxma, sənə əmr olunan şeyləri aşkar et, müjdə ver, gözlərə nuranilik bağışla.

Sən məni öz dininə çağırdın, mən də bilirəm ki, sən mənim xeyrimi istəyirsən və öz dəvətində möhkəm və düzsən.

Mən aydın şəkildə bildim ki, Muhəmmədin ayini dünya dinlərinin ən yaxşısıdır."[1]

---

[1] "Tarixi-ibni-Kəsir", 1-ci cild, səh. 42; "Nəhcül-bəlağə"-nin şərhi (ibni-Əbil Hədid), 14-cü cild, səh. 72
[2] "Nəhcül-bəlağə"-nin şərhi (ibni-Əbil Hədid), 14-cü cild, səh. 78; "Tarixi-ibni-Əsakir", 1-ci cild, səh. 75; "Tarixi ibni Kəsir", 1-ci cild, səh. 266, "Tarixul Xəmis", 1-ci cild, səh. 254

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

يَاشَاهِدَ اللّٰهِ عَلَيَّ فَشهَد        اَنِّى عَلَي دِينِ النَّبِيِّ اَحمَد
مَن ضَلَّ فِي الدِّينِ فَاِنِّي مُهتَدي

“Ey Allahın mənə olan şahidi, mənim Muhəmmədin dininə imanıma şahid ol; Hər kəs yolunu azsa da, mən hidayət əhliyəm.”[2]

Əbu Talib ömrünün son anlarında aşağıda qeyd olunan beytlərlə Bəni-Haşim başçılarının Peyğəmbəri (s) kamil şəkildə himayə etmələrini tövsiyə edir:

اُوصِى بِنَصرِ نَبِيِّ الخَيرِ اَربَعَةً        اِبنِي عَلِيًّا وَ شَيخَ القَومِ عَبَّاسَا
وَحَمزَةَ الاَسَدَ الحَامِي حَقِيقَتَهُ        وَ جَفرًا اَنتذودُوا دُونَهُ النَّاسا
كُونُوا فِدَاءً لَكُم اُمِّي وَمَاوَلَدَت        فِي نَصرِ اَحمَدَ دُونَ النَاسِ اَترَاسَا

“Dörd nəfərə xeyir Peyğəmbərinə kömək etməyi tövsiyyə edirəm: oğlum Əliyə, qəbiləmizin böyüyü Abbasa, Allahın şiri Həmzəyə ki, həmişə əziz Peyğəmbəri himayə etmişdir və (oğlum) Cəfərə ki, ona kömək edəsiniz.

Və siz – əzizlərim, sizə fəda olsun canım, həmişə Allahın Rəsulu üçün düşmənlər müqabilində sipər olun!”[3]

Hər bir insaflı və təqvalı insan Əbu Talibin Allah və Peyğəmbərə (s) iman və əqidəsini kamil və aşkar şəkildə bəyan edən bu gözəl əsərlərini müşahidə etməklə şiələrin onun həqiqi mənada mömin olması barəsindəki nəzərinin düzgünlüyünü anlayır, bəzi yazıçıların xüsusi siyasi hədəflərlə Qureyşin mömini, Peyğəmbərin (s) əmisi, İslamın əvvəllərində yaranan, ən ağır şəraitlərdə şəriətin böyük keşikçisinə yağdırdıqları ittihamlara görə təəssüf hissi keçirir.

### *2. Əbu Talibin Peyğəmbərlə(s) olan rəftarı onun imanlı olmasını göstərir.*

Məşhur İslam yazıçılarının və tarixçilərinin hamısı onun Peyğəmbərin (s) yolundakı misilsiz fədakarlıqlarını xatırlatmışdır. Bu da onun dərin etiqadını bəyan edir. Əbu Talib islamı müdafiə etmək və Peyğəmbərin keşiyini çəkmək üçün “Əbu Talib” dərəsindəki üç illik sərgərdançılığa və iqtisadi mühasirəyə dözərək Peyğəmbərin (s) yanında olmağı

---

1 “Xəzanətul-ədəb” (Bağdadi), 1-ci cild, səh. 261; “Tarixi-ibni-Kəsir”, 3-cü cild, səh. 42; “Nəhcül-bəlağə”-nin şərhi (İbni. Əbil Hədid), 14-cü cild, səh. 55; “Fəthul-Bari”, 7-ci cild, səh. 153-155; “Əl-İsabə”, 4-cü cild, səh. 116, Misir çapı, 1358; “Divani-Əbi Talib”, səh. 12

2 “Nəhcül-bəlağə”-nin şərhi (İbni-Əbil Hədid), 14-cü cild, səh.78, “Divani-Əbi Talib”, səh. 75

3 “Mütəşabihatul-Quran” (İbni-Şəhrəşub), “Həcc” surəsinin təfsirində

Qüreyşə rəislikdən üstün hesab etdi, müsəlmanların iqtisadi mühasirəsinin axırına qədər o Həzrətin yanında qaldı və belə bir üzücü şəraitdə bütün çətinliklərə canla-başla sinə gərdi.[1]

Bundan əlavə, ƏbuTalib özünün əziz övladı Əlini (ə) Peyğəmbərlə (s) yanaşı çağırdı və ondan istədi ki, islamın əvvəllərində mövcud olan bütün çətin şəraitlərdə o Həzrətin yanında olsun. İbni-Əbil Hədid "Nəhcülbəlağə"nin şərhində Əbu Talibin öz oğlu Əliyə (ə) belə dediyini nəql edir: "Allahın Rəsulu səni yalnız xeyir işlərə dəvət edir, belə isə daim onunla yanaşı ol."[2] Aydındır ki, Əbu Talibin Peyğəmbərə (s) etdiyi bu qədər dəyərli xidmətlər və islamı qorumaqdakı xalis və riyasız fədakarlıqlar onun imanına güclü bir dəlildir. Buna görə də böyük islam alimi ibni-Əbil Hədid Əbu Talibin Peyğəmbəri-Əkrəmin (s) canının və onun pak dininin qorunub hifz olunmasında ifa etdiyi həyati rola işarə edərək onu belə tərifləyir:

وَلَو لا اَبُو طالِبٍ وَ ابنُهُ　　　لَمَا مثّلَ الدِّين شَخصًا فَقَامَا
فَذاکَ بِمَکَّةَ آوَي وَحَامَي　　　وَ هذَا بِيَثرِبَ جَسَّ الحمَامَا
وَمَا ضَرَّ مَجدُاَبِي طَالِبِ　　　جَهُولٌ لغَيَ اَو بَصِيرٌ تَعَامَي

"Əgər Əbu Talib və onun övladı (Əli) olmasaydı, islam dini heç vaxt möhkəmlənə bilməzdi.

O, Məkkədə Peyğəmbərə dayaq olaraq onu himayə etdi, onun övladı da Yəsribdə (Peyğəmbərə kömək etmək yolunda) ölümün ağuşuna atıldı.

Heç kəs Əbu Talibin əzəmətinə xələl gətirə bilməz: nə bihudə danışan cahillər, nə də özünü nadanlığa vuran agahlar."[3]

### *3. Əbu Talibin vəsiyyəti onun imanına aşkar dəlildir.*

Məşhur islam tarixçiləri, o cümlədən Hələbi Şafei özünün "Sirə" kitabında, Məhəmməd Diyar Bəkri "Tarixul-Xəmis" kitabında Əbu Talibin ömrünün axırında öz qövmünü Peyğəmbərə (s) kömək etməyə səsləməsi ilə əlaqədar sözlərini qeyd etmişlər:

"Ey mənim qohum-əqrəbam! Məhəmmədi sevib ona tabe olun və onun Hizbini (islamı) himayə edin. Allaha and olsun, hər kəs onun hidayət nuruna tabe olsa, səadətə çatar. Əgər mənim ömrüm davam etsəydi

---

[1] Əlavə məlumat almaq üçün aşağıdakı mənbələrə müraciət edin: 1. "Sireyi-Hələbi", 1-ci cild, səh. 134 Misir çapı; 2. "Tarixul-Xəmis", 1-ci cild, səh. 253-254. Beyrut çapı; 3."Sireyi-ibni-Hişam", 1-ci cild, Beyrut çapı, səh. 189; 4. "Nəhcül-bəlağə"nin şərhi (ibni-Əbil-Hədid), 14-cü cild, səh. 52; 5. "Tarixi-Yəqubi", 2-ci cild, Nəcəf çapı; 6. "Əl-İsabə", 4-cü cild, səh. 115, Misir çapı; 7. "Təbəqatul-Kubra", 1-ci cild, səh. 119, Beyrut çapı, 1380

[2] "Nəhcül-bəlağə"nin şərhi, 14-cü cild, səh. 53

[3] "Nəhcül-bəlağə"nin şərhi, 14-cü cild, səh. 84

və əcəl mənə möhlət versəydi, şübhəsiz, onun çətinliklərini aradan qaldırardım. Bunu deyib canını tapşırdı."[1]

***4. Əbu Talibin Peyğəmbəri-Əkrəm (s) tərəfindən sevilməsi onun imanlı olmasına dəlildir.***

Peyğəmbər (s) öz əmisi Əbu Talibi müxtəlif münasibətlərlə əlaqədar tərifləmiş, onu sevdiyini izhar etmişdir. Biz yalnız iki nümunəni qeyd etməklə kifayətlənirik:

1. Tarixçilərdən bir qrupu nəql etmişlər ki, Peyğəmbər (s) Əqil ibni-Əbu Talibə belə buyurdu:

"Mən səni iki cəhətə görə sevirəm: Birincisi mənimlə qohum olduğuna görədir, digəri isə buna görədir ki, əmim Əbu Talibin səni sevdiyini bilirəm."[2]

2. Hələbi də özünün "Sirə" kitabında Peyğəmbərin (s), Əbu Talibin məqamını tərifləyərək belə buyurduğunu yazır:

"Nə qədər ki, Əbu Talib sağ idi, Qureyş kafirləri mənə işgəncə, əzab-əziyyət verə bilmirdilər."[3]

Aydındır ki, Peyğəmbərin (s) Əbu Talibə məhəbbət bəsləməsi və onun yüksək məqamını tərifləməsi onun xalis imanına dəlildir. Çünki Peyğəmbəri-Əkrəm (s) Quran ayələrinin buyurduğuna görə, yalnız möminləri sevirdi, kafir və müşriklərə qarşı isə sərt idi. Quran bu barədə buyurur:

لِتُؤْمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَتُعَزِّرُوهُ وَتُوَقِّرُوهُ وَتُسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا

"Biz onu göndərdik ki, siz, insanlar Allah və Onun Rəsuluna iman gətirəsiniz, ona yardım edəsiniz, onu böyük sayıb ehtiramını saxlayasınız və Allaha səhər-axşam sitayiş edib şəninə təriflər deyəsiniz!"[4]

Başqa bir ayədə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ آبَاءكُمْ وَإِخْوَانَكُمْ أَوْلِيَاء إَنِ اسْتَحَبُّواْ الْكُفْرَ عَلَى الإِيمَانِ
وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَأُوْلَـئِكَ هُمُ الظَّالِمُونَ

"Ey iman gətirənlər! Əgər atanız və qardaşınız iman yerinə küfrü seçmək istəyirlərsə, onlarla dostluq etməyin. Və sizdən hər kəs onları dost tutsa, şübhəsiz ki, zülmkardır."[5]

---

1 "Tarixul-Xəmis", 1-ci cild, səh. 300-301, Beyrut çapı; "Sireyi-Hələbi", 1-ci cild, səh. 391, Misir çapı
2 "Tarixul-Xəmis", 1-ci cild, səh. 163; "Əl-istiyab", 2-ci cild, səh. 509
3 "Sireyi-Hələbi", 1-ci cild, səh. 931, Misir çapı
4 "Fəth" surəsi, ayə: 9
5 "Tövbə" surəsi, ayə: 23

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ

"Ey iman gətirənlər! Sizlərdən hər kim öz dinindən mürtəd olsa, tezliklə Allah gələcəkdə bir cəmiyyət gətirər ki, onlari sevər və onlar da Allahı sevərlər. Möminlərin qarşısında sadə və kafirlərin bərabərində qüvvətlidirlər. Onlar Allah yolunda cihad edərlər və din yolunda qınanılacaqlarından qorxuları yoxdur. Bu Allahın fərzidir ki, hər kəs istəsə, verər. Allahın geniş rəhməti sonsuzdur və hər kəsin halını biləndir."[1]

وَلَوْ كَانُوا يُؤْمِنُونَ بِالله والنَّبِيِّ وَمَا أُنزِلَ إِلَيْهِ مَا اتَّخَذُوهُمْ أَوْلِيَاء وَلَـكِنَّ كَثِيرًا مِّنْهُمْ فَاسِقُونَ

"Əgər kitab əhli, xüsusən, yəhudilər Allaha və Peyğəmbərə və ona nazil olan kitaba iman gətirsəydilər, əlbəttə, kafirləri özlərinə dost seçməzdilər. Amma onların çoxu fasiqdirlər."[2]

Qeyd olunan ayələri nəzərə almaqla, onları Peyğəmbəri-Əkrəmin (s) Əbu Talibə məhəbbət bəsləməsi və onu müxtəlif əlamətdar hadisələrlə əlaqədar tərifləməsi ilə müqayisə etməklə, Əbu Talibin Allaha və Peyğəmbərə (s) yüksək iman dərəcəsindən bəhrələnməsində heç bir şəkk-şübhəyə yer qalmır.

### *5. Peyğəmbər (s) səhabələrinin şahidliyi*

Peyğəmbər (s) səhabələrindən bir qrupu Əbu Talibin dərin imanına şahidlik etmişlər ki, onlardan bəzilərini qeyd edirik:

1. Məlumatsız bir şəxs Əlinin (ə) hüzurunda Əbu Talibin məqamına ittiham yağdırmağa başladı. O Həzrət qəzəbli halda buyurdu:

"Sakit ol! Allah ağzını sındırsın! Muhəmmədi peyğəmbərliyə göndərən Allaha and olsun, əgər atam Əbu Talib hər bir günahların şəfaətini öhdəsinə almaq istəsə, Allah onu möhkəm şəfaətçi edər."[1]

---

[1] "Maidə" surəsi, ayə: 54
[2] "Maidə" surəsi, ayə: 81

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Başqa bir yerdə buyurur:

"Allaha and olsun ki, Əbu Talib Əbdülmənaf ibni Əbdülmüttəlib mömin və müsəlman idi, öz imanını Qüreyş kafirlərindən gizlədirdi ki, onlar Bəni-Haşimlə düşmənçilik etməsinlər."[2]

İmam Əlinin (ə) bu sözləri Əbu Talibin güclü imanını təsdiq etməkdən əlavə, onu ilahi övliyalar cərgəsində qeyd etmişdir, belə ki, o, hətta Allahın izni ilə başqalarının şəfaətçisi də ola bilər.

2. Əbuzər Qifari Əbu Talibin barəsində belə deyir:

"Yeganə olan Allaha and olsun ki, Əbu Talib islamı qəbul etməmiş dünyadan getmədi."[3]

3. Abbas ibni-Əbdülmütəllib və Əbu Bəkr ibni-Əbu Quhafədən də çoxlu sənədlərlə belə rəvayət olunur:

"Əbu Talib "la ilahə illəllah, Muhəmmədun Rəsulullah" deməmiş dünyadan getməmişdir."[4]

### *6. Əhli-beytin (ə) nəzərində Əbu Talib*

Əhli-beyt imamlarının hamısı Əbu Talibin möhkəm və güclü imana malik olmasını aşkar şəkildə bəyan etmiş, müxtəlif əlamətdar hadisələrlə əlaqədar Peyğəmbərin (s) bu fədakar köməkçisini müdafiə etmişlər. Biz onlardan iki nümunə qeyd etməklə kifayətlənirik.

a) İmam Baqir(ə) buyurur:

"Əgər Əbu Talibin imanını tərəzinin bir gözünə, bu insanların imanını digər gözünə qoysalar, şübhəsiz, Əbu Talibin imanı ağır gələr."[5]

b) İmam Sadiq(ə) Peyğəmbərdən belə nəql edir:

"Əshabi-Kəhf (müəyyən məsləhətlərə görə) öz imanlarını gizlədərək zahirdə özlərini kafir kimi göstərdilər. Allah da onlara iki dəfə savab verdi. Əbu Talib də öz imanını və müsəlmanlığını gizlədir və (müəyyən məsləhətlərə görə) zahirdə özünü müşrik kimi göstərirdi. Allah da ona iki qat savab verdi."[6]

Qeyd olunan dəlillərin məcmusundan aydın olur ki, Əbu Talib aşağıdakı yüksək məqamlara malik idi:

1. Allaha və Peyğəmbəri-Əkrəmə (s) güclü iman.

---

1 "Əl-Hüccə", səh. 24
2 Yenə orada, səh. 24
3 "Nəhcül-bəlağə"nin şərhi, 14-cü cild, səh. 71
4 "Əl-Qədir", 7-ci cild, səh. 389, Beyrut çapı, 1378 Hicri-qəməri, Vəkinin təfsirindən nəqlən
5 "Nəhcül-bəlağə"-nin şərhi, 14-cü cild, səh. 68; "Əl-Hüccə", səh. 18
6 "Nəhcül-bəlağə"nin şərhi, 14-cü cild, səh. 70; "Əl-Hüccə", səh. 115

2. Allaha və Peyğəmbəri-Əkrəmə (s) riyasız, xalis kömək etmək və islam yolunda fədakarlıq.

3. Peyğəmbər (s) tərəfindən misilsiz dərəcədə sevilmək.

4. Allah dərgahında şəfaət məqamından bəhrələnmək.

Bununla da ona edilən yersiz ittihamların əsassız olduğu sübuta yetir.

Həmçinin, qeyd olunanlardan iki həqiqət aşkar olur:

1. Əbu Talibin imanı Peyğəmbəri-Əkrəm (s) və o Həzrətin səhabələri, eləcə də Əmirəl-möminin və Əhli-beytin (ə) sair imamları tərəfindən qəbul olunur.

2. Ona edilən ittihamların heç bir əsası yoxdur və bunlar, yalnız siyasi hədəflərə görə, Əhli-beytlə (ə) və Əbu Talib övladları ilə mübarizə aparan, onlara dərin düşmənçilik bəsləyən Bəni-Üməyyə və Bəni-Abbas şahlarının təhrik edilməsi üçün baş vermişdir.

İndi yaxşı olar ki, o cənabın böyük şəxsiyyətini sındırmaq üçün istifadə edilən və “Zəhzah vadisi” adı ilə məşhur olan ən böyük bəhanəni araşdıraq, Quran ayələri, Peyğəmbərin (s) danılmaz sünnəsi və sağlam əql nəzərindən onun əsassız olduğunu isbat edək.

Həzrət İmam Rza (ə) buyurur: “Kimin Əbu Talibin (ə) kafir dünyadan köçməsinə etiqadı olsa, kafirdir.”

### *Əbu Talibin(ə) imanlı olmağının səbəbləri*

Hər hansı bir şəxsin imanını aşağıda qeyd olunan üç yoldan biri ilə sübut etmək olar:

1. Ondan yadigar qalan elmi əsərlərini araşdırmaqla.
2. Onun cəmiyyətdəki rəftarını araşdırmaqla.
3. Onun haqqında dostlarının nəzərini araşdırmaqla.

### *Əbu Talibin(ə) Peyğəmbəri qorumaqda göstərdiyi xidmətlər*

Əgər biz Əbu Talibin Peyğəmbəri (s) qorumaqda göstərdiyi fədakarlıqları və onun məqsədlərini araşdırsaq, görərik ki, bu xidmətlərin hamısı onun imanını sübut edir. Əbu Talibin (ə) Peyğəmbərə (s) qarşı məhəbbəti səbəb oldu ki, qoca olduğuna baxmayaraq, 3 il bir dərədə qalsın və bu işi Məkkənin rəisliyindən (şeyxlikdən) üstün bilsin. Hətta Əbu Talib Peyğəmbəri (s) müdafiə etdiyinə görə şeyxlikdən uzaqlaşdırılır.

Həzrət Əli (ə) buyurub: “Mənim atam şeyx idi, eyni zamanda, fəqir idi.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***Qohumların və dostların Əbu Talibin imanına münasibəti***

Əbu Talibin ölüm xəbəri Peyğəmbərə (s) çatanda Peyğəmbər (s) ağladı və Əliyə (ə) əmr etdi ki, ona qüsl verib kəfənə büksün və dəfn etsin. Özü isə Allahdan onu bağışlamasını istədi. Əbu Talib Hənif dinində idi.

Bir nöqtəni də qeyd etmək lazımdır ki, Peyğəmbərlə (s) Xədicənin (s.ə) kəbinini Əbu Talib oxuyub.

İmam Səccadın(ə) hüzurunda Əbu Talibdən söz düşdü. İmam (ə) buyurdu: “Təəccüb edirəm ki, nə üçün camaat onun ixlasında şəkk edir, heç bir müsəlman qadın kafir ərinin əqdində qala bilməz, halbuki Fatimə binti-Əsəd (ə) Peyğəmbərə (s) iman gətirən ilk qadınlardandır və Əbu Talibin həyatının son anlarına kimi onun əqdində idi və ondan ayrılmadı.”

İmam Baqir (ə) buyurur: “Əbu Talibin imanı camaatın çoxunun imanından üstündür. Əmirəlmöminin Əli (ə) bəzilərinə əmr edirdi ki, atasının tərəfindən həcc əməllərini yerinə yetirsinlər.”

İmam Sadiq(ə) buyurub: “Onun (Əbu Talibin) imanı Əshabi-Kəhfin imanı kimidir ki, ürəyində imanlı idi, amma təzahür etməzdi.”

Əllamə Məclisi deyir: “Şiələrin nəzərincə, Həzrət Əbu Talib heç vaxt bütə sitayiş etməyib. O, Peyğəmbərə(ə) iman gətirənlərdəndir. Əbu Talib Həzrət İbrahimin (ə) vəsilərindən biridir. Onun imanlı şəxs olması şiələr arasında məşhurdur.Şiə alimləri bu böyük şəxsiyyətin imanı barədə kitablar yazıblar.”

Şeyx Səduq yazır: “Bir hədisdə buyurulur ki, cənab Əbdül-Mütəllib ilahi hüccət, cənab Əbu Talib isə onun vəsisi olub”.

“Vədaiyu-ənbiya” kitabının rəvayətinə əsasən, Həzrət Musanın (s) əsası və Həzrət Süleymanın (ə) üzüyü və s. əmanətləri Əbdül Mütəllibin vasitəsi ilə Əbu Talibə verildi. O da onları peyğəmbərlərin sonuncusu Həzrət Məhəmmədə (s) verdi.”

İbn Əsr Şafei deyir: “Əhli-Beyt (ə) Əbu Talibin imanı barədə yekdil fikirdə olublar və Əhli-beytin (ə) bu sözü hüccətdir.”[1]

Əsbəğ ibn Nəbatə deyir: “Əli (ə) buyurur: “Allaha and olsun, babalarım Əbdül Mütəllib, Haşim və Əbdül Mənaf bütə ibadət etməyiblər.”

Dedilər: “Bəs, nəyə ibadət edirdilər?” Həzrət buyurdu: “ Onlar Kəbəyə tərəf namaz qılırdılar və İbrahimin(ə) dininə bağlı idilər.”

Həzrət Əlinin (ə) Əbu Talibin(ə) barəsindəki beytlərindən məlum olur ki, Əbu Talibin məqamı Həmzədən daha üstündür.

---

[1] “Müntəxəbut-təvarix”, səh. 113-114

İbni-Əbil Hədid yazır: “ Əgər Əbu Talib və oğlu olmasaydı, dindən heç bir əsər olmaz və belə möhkəmlənməzdi. Əbu Talib Məkkədə Peyğəmbəri (s) qoruyurdu, oğlu isə Peyğəmbəri (s) Mədinədə fasiləsiz qoruyur və müdafiə edirdi.”

Bütün bu deyilən fikirlərdən belə aydın olur ki, Əbu Talib imanlı bir şəxs olub və bu dünyadan köçərkən İslam dininin hökmlərinə uyğun dəfn olunub.

Həzrət Əbu Talibin imanı barədə çoxlu kitablar yazılıb. İlk kitab hicrətin 630-cu ilində qələmə alınıb. O zamandan indiyə qədər müxtəlif dillərdə onun imanı, böyüklüyü barədə kitablar yazılaraq çap edilib ki, bu da tədqiqatçılara aydındır.[1]

## “ZƏHZAH” HƏDİSİNİN ARAŞDIRILMASI

Bəzi yazıçılar, o cümlədən Buxari və Müslim Süyan ibni-Səid Suri, Əbdülməlik ibni-Ümeyr, Əbdül Əziz ibni-Məhəmməd Dəravərdi, Leys ibni- Səd kimi ravilərə istinad edərək Peyğəmbərdən(s) aşağıdakı hədisi nəql etmişlər:

“Onu (Əbu Talibi) odla dolu bir yerdə tapdım, sonra onu “Zəhzah”a apardım.”[2]

Bəlkə də Qiyamət günündə mənim şəfaətim ona – Əbu Talibə fayda çatdıra, sonra cəhənnəm odunun “Zəhzah”ında qərar tutar ki, dərinliyi onun ayaqlarının çıxıntısına qədər çatar, belə ki, onun beyni qaynayar.”[3]

Əbu Talibin aydın imanını göstərən çoxlu dəlillər və rəvayətlərlə, namərdcəsinə olan bu böyük töhmət və iftiraya aydınlıq gətirmək üçün “Zəhzah” hədisini iki yöndən araşdırırıq:

1. Onun sənədlərinin əsassız olması;

2. Onun mətninin Allahın kitabı və Peyğəmbər (s) sünnəsi ilə zidd olması.

### *“Zəhzah” hədisinin sənədləri əsassızdır*

Qeyd olunduğu kimi “Zəhzah” hədisinin raviləri aşağıdakılardır:

---

[1] “Qəlaidun-nehvər-Rəcəb”, səh. 284-322; “Vəqaiyul-əyyam”, cild 1, səh. 301

[2] “Zəhzah” dərinliyi insan boyundan az olan çuxura deyilir.

[3] “Səhih-Buxari”, 5-ci cild, mənaqib babları, Misir çapı, “Qissətu Əbu Talib” babı, səh. 52, və 8-ci cild, “kitabul-ədəb kunyətul-müşrik” babı, səh. 46

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Süfyan ibni-Səid Suri, Əbdulməlik ibni-Ümeyr, Əbdül Əziz ibni-Məhəmməd Dəravərdi və Leys ibni-Səd. İndi sünnilərin rical alimlərinin (onlar hədislərin hansı vəziyyətdə olmalarını araşdırırlar) bu barədə olan sözlərinə istinad edərək adları qeyd olunan ravilərin vəziyyətini araşdırırıq:

a) Süfyan ibni-Səid Suri

Əbu Əbdillah Məhəmməd ibni-Əhməd ibni-Osman Zəhəbi (sünnilərin böyük şəxsiyyətli rical alimidir) onun barəsində belə deyir:

"Süfyan ibn Suri zəif ravilərdən saxta (qondarma) hədisləri rəvayət edirdi."[1]

Bu söz göstərir ki, Süfyan Suri hədisləri təhrif edir, zəiflərdən, yaxud vəziyyətləri aşkar olmayan ravilərdən hədis nəql edirdi. Deməli, onun hədisləri etibar dərəcəsindən düşür.

b) Əbdülməlik ibni-Ümeyr

Zəhəbi onun barəsində yazır:

"Onun ömrü uzun oldu, hafizəsində xələl yarandı."

Əbu Hatəm deyir: "Onun hədisi qoruyub saxlamaq qüdrəti yox idi, hafizə qüvvəsi də dəyişmişdi." Əhməd ibni-Hənbəl də deyir: "Əbdülməlik ibni-Ümeyr zəif və səhvlə doludur (yəni, əsassız və saxta rəvayətləri nəql edirdi)." İbni-Muin deyir: "O düzgün olmayan hədisləri düzgün hədislərlə qarışdırmışdır." Kushəc, Əhməd ibni-Hənbəldən rəvayət edir ki, o, Əbdülməlik ibni-Ümeyrin həddən artıq zəif olduğunu demişdir.[2]

Bu sözlərin məcmusundan aydın olur ki, Əbdülməlik ibni-Ümeyr aşağıdakı sifətlərə malik olmuşdur:

1. Hafizəsiz və unutqandır;

2. Zəifdir (rical elmi istilahında), yəni onun rəvayətlərinə etimad olunmaz;

3. Səhvləri çoxdur;

4. Düzgün olmayan hədisləri düzgün hədislərlə qarışdırırmış.

Aydındır ki, bu sifətlərdən hər biri təklikdə Əbdülməlik ibni-Ümeyrin hədislərinin əsassız olduğunu göstərir, halbuki onda bu sifətlərin hamısı mövcuddur.

c) Əbdül Əziz ibni-Məhəmməd Dəravərdi

Sünnilərin rical alimləri onu unutqan və hafizəsiz hesab etmiş və demişlər ki, onun rəvayətlərinə əsaslanmaq olmaz. Əhməd ibni-Hənbəl onun barəsində deyir:

---

[1] "Mizanul-etidal" (Zəhəbi), 2-ci cild, səh.169, Beyrut çapı, 1382
[2] "Mizanul-etidal", 2-ci cild, səh. 660, Beyrut çapı.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Hər vaxt hifzdən (əzbərdən) rəvayət desəydi, əsassız və dəxli olmayan mətləblər deyirdi.”[1]

Əbu Hatəm də onun barəsində, “onun sözlərinə əsaslanmaq olmaz” - deyirdi.

Əbu Zəraə onu “səyyiul-hifz”, yəni hafizəsi pis olan şəxs kimi təqdim etmişdir.[2]

ç) Leys ibni-Səd

Rical elmində yazılan sünni kitablarına müraciət etməklə aydın olur ki, adları Leys olan ravilərin hamısı tanınmaz və məchul, yaxud zəif adamlar olmuşlar ki, onların hədislərinə etimad etmək, onu dəlil gətirmək olmaz.[3]

Leys ibni-Səd rəvayətlərdə zəif və laqeyd bir adam olmuşdur. Belə ki, o, hədis eşitməkdə və rəvayəti nəql edən şəxslər barəsində səhlənkarlıq edirmiş. Yəhya ibni Muin onun barəsində deyir:

“Leys ibni-Səd rəvayəti nəql edən adamlar barəsində, eləcə də hədis eşitməkdə səhlənkarlığa yol verirdi.”[4]

Nəbati onu zəiflər cərgəsində bilmiş, onun adını özünün yalnız zəif raviləri təqdim edən “Ət-təzlilu ələl-kamil” kitabında bəyan etmişdir.[5]

Deməli, “Zəhzah” hədisinin raviləri son dərəcə zəif olmuşdur və onların hədisinə etimad etmək olmaz.

***“Zəhzah” hədisinin məzmunu Allahın kitabı və Peyğəmbər (s) sünnəsi ilə uyğun gəlmir***

Qeyd olunan hədisdə Peyğəmbəri-Əkrəmə(s) belə bir nisbət verilir ki, guya o Həzrət, Əbu Talibi cəhənnəm atəşinin içindən, atəşin nisbətən az olduğu yerə aparmış və beləliklə də, onun əzabının yüngülləşməsinə səbəb olmuş, yaxud qiyamət günündə ona şəfaət etməsini arzu etmişdir. Halbuki, Quran ayələri və Peyğəmbər (s) sünnəsinə əsasən, peyğəmbərlərin şəfaəti və əzabın yüngülləşdirilməsi yalnız möminlər və müsəlmanlara aiddir. Deməli, əgər Əbu Talib kafir olsaydı, Peyğəmbər (s) heç vaxt onun əzabını yüngülləşdirə, yaxud ona şəfaət edə bilməzdi.

Deməli, hətta Əbu Talibi kafir hesab edənlərin öz sözlərinə əsasən belə, “Zəhzah” hədisinin sənədlərinin əsassız olduğu sübuta yetir.

---

[1] Yenə orada, səh.634
[2] Yenə orada, səh.634
[3] “Mizanul-etidal”, 3-cü cild, Beyrut çapı, səh. 420-421
[4] Yenə orada, səh. 423
[5] “Şeyxul-Əbtəh”, səh. 75; “Mizanul-etidal”, 3-cü cild, səh. 423

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

İndi isə bu məsələni Allahın kitabı və Peyğəmbər (s) sünnəsi əsasında aydınlaşdırırıq:

a) Qurani-Kərim buyurur:

وَالَّذِينَ كَفَرُوا لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَى عَلَيْهِمْ فَيَمُوتُوا وَلَا يُخَفَّفُ عَنْهُم مِّنْ عَذَابِهَا كَذَلِكَ نَجْزِي كُلَّ كَفُورٍ

"Cəhənnəm atəşi kafirlər üçündür; nə onlar üçün ölüm gəlib çatar, ölsünlər, nə də onların əzabı yüngülləşdirilər. Biz kafirlərə belə cəza verərik!"[1]

b) Peyğəmbərin (s) sünnəsi də kafirlər üçün şəfaəti inkar edir. Əbuzər Qəffari Peyğəmbərdən(s) belə nəql edir:

"Mənim şəfaətim ümmətimdən müşrik olmayanlara çatar."

Deməli, "Zəhzah" hədisinin mətni də, Əbu Talibi kafir hesab edənlərin sözünə əsasən, əsassızdır, Allahın kitabı və Peyğəmbər (s) sünnəsi ilə ziddiyyət təşkil edir.

Qeyd olunanlardan məlum olur ki, "Zəhzah" hədisi həm sənəd, həm də məzmun və mətn baxımından etibarsızdır və ona istinad etmək olmaz. Beləliklə, Əbu Talibin yüksək imanını sarsıtmaq üçün sığınacaq kimi istifadə edilən saxta hədis batil olur.

## ƏBU TALİBİN (Ə) VƏFATI

Həzrət Əbu Talib besətin 10-cu ili, hicrətdən 3 il qabaq dünyadan köçdü. Məşhur rəvayətə əsasən, Həzrət Əbu Talib 81 yaşında vəfat edib. Peyğəmbər (s) əmisinin cənazəsini gördükdə kədərləndi və buyurdu: "Ey əmi, mərhəmət etdin və mehribanlıq göstərdin, nəticədə xeyirli mükafat aldın. Uşaqlıqda mənə arxa oldun, böyüklükdə isə kömək və himayə etdin."

Sonra üzünü insanlara çevirib buyurdu: "Allaha and olsun ki, qiyamət günü əmimə şəfaətə hamı təəccüb edəcək."

[1] "Fatir" surəsi, ayə 36

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əbu Talibin vəfat etməsi ilə əlaqədar Həzrət Cəbrail (ə) nazil olub, Peyğəmbərə (s) buyurdu: “Sənin arxa və köməyin dünyadan köçdü, hicrət et.”[1]

Əbu Talibin qəbri Həcundadır. Həcun Məkkədə bir yer adıdır.

Peyğəmbər (s) əmisi Əbu Talibin vəfat etdiyi ili “Amul-hüzn” adı ilə adlandırdı.

Bu bölümü gözəl elm və din xadimi, Əhli-beyt (ə) şairi Axund Hacı Soltanın “Həzrət Əbu Talib” haqqında yazdığı şeirlə yekunlaşdırıram.

***Odur Peyğəmbəri edən himayət,***
***Tükənməz vəfası Əbu Talibin.***
***Məhəmməd yetincə gənclik yaşına,***
***Çox olub cəfası Əbu Talibin.***

***Düşmənə laf üçün verməzdi məcal,***
***Sözü qılınc təki kəsərdi dərhal,***
***Kafirlər qorxudan olurdular lal,***
***Gələndə sədası Əbu Talibin.***

***Oldu peyğəmbərçün sinəsi səngər,***
***Kim ona kəc baxdı, oldu mükəddər,***
***Bir Mühəmməd idi, bir də ki Heydər***
***Ruhani qidası Əbu Talibin.***

***Peyğəmbər vəsfinə şeirlə dindi,***
***Əmi tək qiyməti, qədri bilindi,***
***İslamın əmisi sayılan indi,***
***Budur iqtidası Əbu Talibin.***

***Hörmətin, vacibdir, saxlasın aləm,***
***Adını hər mömin desin mükərrəm,***
***Soltan pişvazına çıxardı o dəm,***
***Olsaydı rizası Əbu Talibin.***

[1] “Biharul-Ənvar”, cild 19, səh. 69

# II FƏSİL

# İSLAMDA NÜBÜVVƏT VƏ İMAMƏT

*Mən qulami–xanədanəm, padişahımdır Əli,*
*Ehtiyacım onadır, püştü pənahımdı Əli,*
*Könlümü qıldı münəvvər, mehrü mahımdır Əli,*
*Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.*

*Zümreyi-nacidünüz həm Əsgəriyyə Əsgərüz,*
*Mehdiyi–Sahib–Zəmanə biz təvəlla eylərüz,*
*Ey Nəsimi, həmdulillah, yolumuzda izlərüz,*
*Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.*

“Nübuvvət” və “İmamət” kəlmələrinin Quranda hansı mənada işləndiyini Quran ayələrinin işığında aydınlaşdıraq.

### *1. Nübüvvət məqamı*

“Nəbi” kəlməsi “mühüm və böyük xəbər” mənasının ifadə edən “nəbə-ə” kökündən alınmışdır. Buna görə də “nəbi” kəlməsinin mənası “böyük xəbər daşıyan şəxs”, “böyük xəbər verən şəxs” deməkdir. “Peyğəmbər” mənasını ifadə edən “nəbi” kəlməsi Quran terminində elə bir insana deyilir ki, Allahdan müxtəlif yollarla ilahi vəhyi alır, heç bir insanın vasitə olmadığı halda Allah tərəfindən xəbər verir. Alimlər bu kəlmənin tərifini belə vermişlər:

“Nəbi o kəsdir ki, başqa bir insanın vasitəçiliyi olmadan Allahın vəhyini insanlara çatdırsın.”[1]

Deməli, nəbinin vəzifəsi ilahi vəhyin bəyan olunma çərçivəsindədir və ona ilham olunanları camaata bəyan etməklə məhdudlaşır. Quran bu barədə buyurur:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ

“Allah, peyğəmbərləri müjdə verənlər və qorxudanlar olaraq seçdi (göndərdi).”[2]

### *2. Risalət məqamı*

Vəhy terminində “rəsul” kəlməsi o peyğəmbərlərə aid edilir ki, vəhyi almaq və Allah tərəfindən xəbər verməkdən əlavə, ilahi risaləti təbliğ etmək məsuliyyətini də (Allah tərəfindən) öz öhdəsinə alsın, bu risaləti insanlara çatdırsın. Qurani-Məcid bu barədə buyurur:

وَأَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَاحْذَرُواْ فَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّمَا عَلَى رَسُولِنَا الْبَلاَغُ الْمُبِينُ

“Allaha və Peyğəmbərinə itaət edin və qorxun. Əgər itaətdən üz döndərsəniz, bilin ki, bizim Peyğəmbərimizin vəzifəsi yalnız aşkar təbliğdir.”[3]

Deməli, risalət məqamı Nəbiyə əta olunan digər bir məqamdır.

---

[1] “Rəsailul-əşr”, səh.111
2 “Bəqərə” surəsi, ayə 213
3 “Maidə” surəsi, ayə 92

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Başqa sözlə desək, “nübüvvət” və “risalət” məfhumlarının hər biri Allah tərəfindən vəhy əldə edən peyğəmbərlərin xüsusiyyətlərinin birinə işarə edir. Belə ki, peyğəmbərlər vəhyi alır, vəhy daşıyıcıları olduğuna görə “nəbi” adlanır, həmçinin peyğəmbərliyi (risaləti) təbliğ etmək vəzifəsini öhdələrinə aldıqlarına görə isə “rəsul” adlandırılır.

Qeyd olunanlardan belə nəticə alınır ki, peyğəmbərlər nübüvvət və risalət çərçivəsində qərarlaşana qədər yalnız insanlara halal-haramı elan edir, onları düz yola hidayət edən xoşbəxtlik və səadət yollarını göstərirlər. Onların Allah tərəfindən xəbər vermək, yaxud onların öhdəsinə qoyulan vəzifəni yerinə yetirməkdən başqa heç bir məmuriyyət və məsuliyyətləri yoxdur.

### *3. İmamət məqamı*

Quran nəzərindən ilahi imamət məqamı yuxarıda qeyd olunan iki məqamdan tamamilə fərqlənir; o, bəşər cəmiyyətlərinə rəhbərlik və onların işlərinə nəzarət etmək kimi daha geniş ixtiyarlara malikdir. Quran ayələrinə istinad edərək bu məsələ ilə əlaqədar aşkar dəlillərimizi nəzərinizə çatdırırıq:

1. Qurani-Kərim böyük ilahi peyğəmbər olan İbrahim Xəlilə imamət məqamının verilməsini belə bəyan edir:

وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِي

“Yada sal o zamanı ki, böyük Allah Öz peyğəmbəri İbrahimi bir neçə imtahanla sınaqdan keçirtdi, o da ilahi imtahanlardan üzüağ çıxdı, bu zaman Allah buyurdu: “Mən səni insanlara imam və rəhbər qərar verirəm.” İbrahim dedi: Bu rəhbərliyi mənim övladlarıma da əta edərsənmi?...”[1]

Bu kəlamdan iki həqiqət aşkar olur:

a) Qeyd olunan ayə “imamət”in “nübüvvət” və “risalət” məfhumundan fərqləndiyini göstərir. Çünki İbrahim(ə) bu ilahi imtahanlardan öncə, (onlardan biri də övladını qurban etmək barədə qərara gəlməsi idi) uzun illər nübüvvət məqamında idi. Bu da aşağıdakı dəlillə isbat olunur:

İbrahim qocaman yaşlarında olanda böyük Allah ona övlad (İsmaili və İshaqı) əta etdi. Quran onun dilindən nəql edərək belə buyurur:

الْحَمْدُ لِلّهِ الَّذِي وَهَبَ لِي عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَإِسْحَقَ

---

[1] “Bəqərə surəsi”, ayə 124

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Həmd olsun o Allaha ki, qocalıq dövründə mənə İsmaili və İshaqı əta etdi.”[1]

Deməli, ilahi imtahanlardan biri olan, İsmailin Allah yolunda qurbanlıq edilməsinin ardınca böyük imamət məqamı İbrahimə verildi. O, bu imtahanı ömrünün son çağlarında vermiş və insanlara imam seçilmişdir, halbuki ondan əvvəl uzun müddət nübüvvət məqamında idi.[2]

b) Həmçinin “və izibtəla İbrahimə Rəbbuhu bi kəlimatin” ayəsindən məlum olar ki, ilahi imamət və cəmiyyətə rəhbərlik məqamı nübüvvət və risalətdən çox-çox yüksək bir mərtəbədir. Çünki Quranın bəyan etdiyi kimi, imamət məqamı Həzrəti İbrahimə (ə) nübüvvət və risalət məqamına çatdıqdan, ağır imtahanlardan çıxdıqdan sonra verildi. Səbəbi də aydındır; çünki ilahi imamət məqamı vəhyin əxz olunub risalətin insanlara təqdim olunması vəzifəsindən əlavə, ümmətə rəhbərlik və cəmiyyətin işlərinin düzgün şəkildə idarə olunmasını, onların kamal və səadətə çatdırılmasını da öhdəsinə alır. Təbiidir ki, belə bir məqam xüsusi əzəmətə malikdir ki, ona nail olmaq ardıcıl və ağır imtahanlardan çıxmadan mümkün deyildir.

2. Yuxarıdakı ayədən məlum olur ki, Mütəal-Allah cəmiyyətə rəhbərlik və imamət məqamını Həzrəti İbrahimə (ə) qarşısına çıxan ağır imtahanlardan başıuca çıxdıqdan sonra vermişdir. Bu zaman İbrahim (ə) Allahdan o məqamın öz övladlarında da olmasını istəmişdir.

Quranın digər bir ayəsinə əsasən məlum olur ki, Mütəal-Allah İbrahimin (ə) istəyini qəbul etmiş, nübüvvət məqamından sonra cəmiyyətin rəhbərliyini və ümmətə hakimiyyəti də onun saleh övladlarına əta etmişdir. Quran bu barədə buyurur:

فَقَدْ آتَيْنَآ آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُم مُّلْكًا عَظِيمًا

“Biz İbrahim övladlarına (asimani) kitab, hikmət və böyük hakimiyyət əta etdik.”[3]

Bu ayədən məlum olur ki, imamət və cəmiyyətə rəhbərlik nübüvvətdən tamamilə fərqli olan bir məqamdır ki, Mütəal-Allah onu Öz peyğəmbəri İbrahimə (ə), ağır imtahanları verdikdən sonra əta etmişdir. İbrahim (ə) Allahdan bu mənsəbi öz övladarında da qərar verməsini istədikdə Allah bu yüksək məqamın onun övladlarından ədalətli olanlarda qalmasını qəbul etdi və onlara asimani kitab, risalət və nübüvvət rəmzi olan hikmət və böyük mülk (rəhbərlik və hakimiyyət) əta etdi. Beləliklə, İbrahimin (ə) istəyi və duası qəbul olundu. Buna görə də onun zürriyə-

---

[1] “İbrahim” surəsi, ayə: 39
[2] Bu barədə “Saffat” surəsinin 99-102, “Hicr” surəsinin 53-54, “Hud” surəsinin 70-71- ci ayələrinə müraciət edin.
[3] “Nisa” surəsi, ayə: 54

tindən bəziləri, o cümlədən, Yusif, Davud, Süleyman və s. nübüvvət məqamından əlavə, cəmiyyətə rəhbərlik və hakimiyyət məqamına da çatmışdılar. Deməli, İmamət məqamı nübüvvət və risalətdən başqa bir məqamdır, ixtiyar və məsuliyyətlərinin geniş olmasına görə çox yüksək dəyərə, üstün mövqeyə malikdir.

***İmamət mövqeyinin üstünlüyü***

Yuxarıda deyilənlərdən aydın olur ki, nəbi və rəsulun əhatə dairəsi nübüvvət və risalətin daşıyıcıları olması baxımından yalnız təzəkkür vermək və yolu işıqlandırmaqdır.Hərgah nəbi, yaxud rəsul imamət məqamına çatsalar, daha böyük və ağır məsuliyyətləri öhdələrinə almış olur, bunun ardınca da nümunəvi və səadətli cəmiyyət yaratmaq üçün müqəddəs şəriət qanunlarını icra etməyə və ilahi proqramları həyata keçirməyə vəzifəli olurlar ki, öz ümmətlərini hər iki dünyanın xoşbəxtliyi olan bir yolda qərar versinlər.

Aydındır ki, belə böyük və ağır məsuliyyətləri qəbul etmək mənəvi əzəmət, qüdrət və xüsusi ləyaqət tələb edir. Daim təmayüllərlə mübarizəni tələb edən, üzücü çətinliklərlə yanaşı olan bu vəzifə Allah yolunda daha artıq ürəyiyananlığı, yüksək dərəcədə səbirliliyi gərəkli edir. Bu isə Allah eşqi olmadan, Onun razılığını cəlb etmədən mümkün deyildir. Buna görə də Öz layiqli bəndələrinin ən fəzilətlisini, yəni İslam Peyğəmbərini ümmətə rəhbərlik və imamət məqamına seçərək onu iftixarlı etdi, cəmiyyətə rəhbərliyi və hakimiyyəti ona əta etdi.

***Zahiri rəhbərlik (xilafət, hakimiyyət)***

Deyirlər ki, Peyğəmbərdən(s) sonra heç bir şübhə qalmayacaq şəkildə o Həzrətin(s) canişinliyinə aid İslam Peyğəmbərindən(s) açıq-aşkar sifariş və tapşırıq olmayıb, habelə Qurani-Kərimdə də heç bir ayə gəlməyib. Əksinə, bu, müsəlmanların öz öhdəsinə buraxılmış bir mövzudur. İndi isə 1400 ildən sonra bu məsələnin üstünü açmağın heç bir faydası yoxdur.

Amma niyə faydası olmamalıdır? Bəs, onda tarix elmi nə üçündür? Heç faydası olmasa belə, "keçmiş gələcəyin çırağıdır", - deyiblər. Gəlin, bu məsələyə üç baxışdan (Quran, Hədis və Əql) yenə bir nəzər salaq və həqiqəti tapaq.

**1. Quran:**

Qurani-Kərim "Nəhl" surəsinin 80-ci ayəsində buyurur: "Və hər şeyin dolğun açıqlaması və aydınlaşdırıcısı, müsəlmanlar üçün başdan-başa hidayət, rəhmət və müjdə mənbəyi olan bu kitabı sənə nazil etdik."

Başqa bir ayədə buyurur: "Hər bir şeyin (Diqqət edin: "Hər bir şeyin" - H.) aydınlaşdırıcısı və açıqlaması müsəlmanlar üçün hidayət və rəhmət mənbəyi olan bu kitabdır." Əgər uşağınız sizdən "hər bir şeyin

açıqlamasının onda yazıldığını, yəni heç bir şeyin cavabsız qalmadığını iddia edən bu kitabda İslam aləminin hakimiyyətinə aid sözü yoxdur soruşsa, ona nə cavab verərsiniz?

Əgər mən hakimiyyətin çox mühüm məsələ olduğunu iddia etsəm, onu öz başına buraxmaq Peyğəmbərin (s) şəninə yaraşmır. Ola bilər, məndən qəbul etməyəsiniz, amma baxın, bu mövzunun əhəmiyyəti ilə bağlı ikinci xəlifənin oğlu (Abdullah ibn Ömər) nə deyir?:

Məsudi "Murucuz Zəhəb" kitabında, İbn Əbdur Rəbbih "İqaul-Fərid" kitabında, Müslim "Səhih"ində, İbn Əbil-Hədid "Nəhcül-Bəlağə"nin şərhində yazırlar: "İkinci xəlifə yaralanan zaman oğlu Abdullah ona dedi: Ey Əmirəlmöminin, öz yerinə bir canişin təyin et. Çünki sənin çobanın qoyunlarını başsız otarsa, onu danlayarsan, elə isə Məhəmməd (s) ümmətini nə üçün başsız qoyasan? Yox, mütləq özünə canişin təyin et." İndi isə əgər, şiələr cəsarət edib soruşarlar: "Bu necə peyğəmbərdir ki, Abdullah ibn Ömər ondan çox bilir? Bəs, nə səbəbdən xəlifə özü oğluna demədi: "Ay oğul, xilafət məsələsi mənə aid olan məsələ deyil. Çünki Peyğəmbər (s) özü də müsəlmanları başsız qoyub getmişdir." Habelə, niyə demədi, müsəlmanların əlində olan Quran onlara kifayət edər? "

Düşünəndə tarixin ən əsaslı suallarından biri budur ki, nə üçün birinci xəlifə ikincisinin xəlifə olmasına vəsiyyət edərkən demədilər ki, belə bir vəsiyyət Peyğəmbərin (s) sünnətinin əksinə oldu? Niyə Əhlisünnə qardaşlarımız sünnətə riayət etmədilər? Niyə demədilər ki, İslamda hakimiyyət vəsiyyət yolu ilə deyil, demokratik yolla həll olunmalıdır?![1]

Əslində məsələ belə deyil. Əksinə, Allah-Təala özü buyurduğu kimi, Qurani-Kərimdə hər bir şeyi açıq-aşkar cavablandırıb. O cümlədən Peyğəmbərdən (s) sonra hakimiyyət məsələsinin açıq şəkildə izahını verib. Belə ki, buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

"Ey iman gətirənlər, Allaha itaət edin, onun peyğəmbərinə və özünüzdən olan əmr sahiblərinə tabe olun."[2]

Həmçinin buyurur:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

---

[1] Bu məsələ ilə əlaqədar geniş məlumat almaq istəsəniz, doktor Məhəmməd Ticaninin yazdığı kitablara müraciət edə bilərsiniz.

[2] "Nisa" surəsi, ayə 59

"Allah siz Əhli-beytdən hər cür pislikləri təmizləmək və sizi paklığın bütün cəhətlərində pak etmək istəyir."[1]

Birinci ayədə açıq şəkildə buyurur: "Peyğəmbərə (s) itaət etməyiniz vacib olduğu kimi, "Ulul-əmr", yəni özünüzdən təyin olunmuş əmr sahiblərinə də itaət vacibdir."

Əvvəlki səhifələrdə izah olundu ki, Peyğəmbərlər(s) ümumilikdə məsum olmalıdırlar və "ismət" dedikdə peyğəmbərliyin ayrılmaz bir şərti nəzərdə tutulur. Çünki onlar məsum olmasaydılar, ona qeyri-şərtsiz itaətləri vacib olmazdı. Bu məsələ ilə bağlı İslam dininin müxtəlif məzhəbləri (İstər əhli-sünnətdə: Həmbəli, Hənəfi, Maliki, Şafei, istərsə də şiədə: Zeydi, İsmaili, İsna-əşəri) arasında heç bir ixtilaf yoxdur.

İkinci ayə isə məsum şəxslərin ünvanını tanıtdıraraq buyurur: Yalnız Peyğəmbərimizin Əhli-beytidir ki, hər cür pisliyin onlardan təmizlənməsi və paklığın bütün cəhətlərinin onlarda cəm olması ilə məsum olublar.

Bu sübutlardan başqa Qurani-Kərimdə bir çox ayələr də bu məsələyə dəlalət edir. O cümlədən, "Maidə" surəsinin 55-ci ayəsi:

**إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ**

"Həqiqətən, sizin başçınız və işlərinizin ixtiyar sahibi yalnız Allah və onun peyğəmbəri, iman gətirənlər, namaz qılıb ruku halında zəkat verən kəslərdir."

İstər sünni, istərsə də şiə məzhəbindən olan təfsir alimləri bu ayənin Həzrət Əlinin (ə) vilayətinə işarə olmasını qəbul edirlər. Əhli-beyt şairi Mövlana Məhəmməd Füzuli də (r) bu ayənin Həzrət Əliyə (ə) aid olmasını qeyd edərək yazır:

***Üzük bəxş eyləmişsə sailə ol şah namaz üstə,***
***Əlində əhli-həqqin hər nə varsa, nəzri-saildir.***

**2. Hədis:**

Peyğəmbərimizdən(s) nəql olunan "Qədir" hədisi, "Səfinə" hədisi, "Səqəleyn" hədisi, "Haqq" hədisi, "Mənzilət" hədisi, "Əşireyi-Əqrabin" hədisi və s. hədislərdə xilafət məsələsi aydın şəkildə izah olunub.

Təbəri "Zəxairul-uqba", İbn Zəbbağ Maliki "Fusulil Muhimə", Nəsai "Xəsais", Bəhrani "Ğayətul-Məram", kitablarında əhli-sünnədən 89 təriq, şiədən isə 43 təriq ilə "Qədir" hədisini nəql ediblər. Belə ki, İslam Peyğəmbəri (s) "Vida həcci"dən qayıdarkən "Qədir-Xum" səhrasına çatanda əmr etdi. O çölü təmizlədilər, irəlidə gedənlər qayıtdılar, arxadan gələn-

[1] "Əhzab" surəsi, ayə 33

lər çatdılar (120.000 nəfər qadın və kişi). İslam Peyğəmbəri (s) geniş və ətraflı çıxış etdikdən sonda buyurdu: “Mən sizin ixtiyar sahibiniz deyiləm-mi? Cavab verdilər: Bizim ixtiyarımız səndədir. Sonra buyurdu: Mən kimin mövlası və ixtiyar sahibiyəmsə, məndən sonra onun mövlası və ixtiyar sahibi Əlidir.”[1]

Peyğəmbərimiz (s) buyurub: “Əli haqq ilə, haqq da Əli ilədir. Əli Quranla, Quran da Əli ilədir.İçinizdən ən qazi olan Əlidir. Əməllərinizin ölçüsü Əlidir. Möminlə münafiqi bir-birindən seçməyin ölçüsü Əlidir. Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır” və s. Əhli-Beytdən(s) geniş bir hədis şiə yolu ilə nəql olunub. Bu hədis İslam Peyğəmbərinin (s) gələcək zamandan xəbər verdiyini açıq-aşkar göstərir. Bu hədis möcüzə sayılır. Hədis belədir: “Məndən sonra vəsilərim on iki nəfərdir. Hər biri Qureyş tayfasındandır. Birincisi Əlidir(ə). Axırıncısı Mehdidir(ə.f). Onların doqquzu Hüseynin(ə) övladlarındandır, doqquzuncusu Qaimdir(ə.f). Onun üçün uzun müddət qeybət var və yer üzünü pislik, zülm və fəsad doldurduğu vaxt (Mehdi (ə.f) öz qiyamı ilə yer kürəsində ədalət və əmniyyət yaradacaq.” İnşaallah.[2]

Bu hədisin İslam Peyğəmbəri (s) tərəfindən ifadə edilən ən böyük möcüzələrdən sayılmasını iddia etməyimiz buna əsasəndir ki, İslam peyğəmbərinin (s) dünyasını dəyişdiyi zaman nəvəsi Həzrət Hüseyn ibn Əlinin (ə) altı yaşı var idi, lakin hədisdə oxudunuz ki, Peyğəmbərimiz (s) buyurub: Onların doqquzu Hüseynin (ə) övladlarındandır. Son səhifələrdə onların mübarək adlarını sadalayacağıq. Demək istəyirəm ki, İmam Hüseyn (ə) altı yaşında olduğu halda İslam Peyğəmbərinin (s) gələcəkdən xəbər verərək onun nəslindən olan doqquz nəfərin adını və tərcümeyi-halını sadalaması möcüzə deyilmi?

**3. Əql:**

Əql sahibi olan insanlar belə mühüm məsələnin yaddan çıxmasının qeyri-mümkün olduğunu söyləyirlər. Əgər bizlərdən hər birinin atası, oğlu, qardaşı on nəfərlik işçisi olan bir fabrikdə sədr olsa, hətta bir gün işə getməsə, ondan şirkəti kimə tapşırırsan?” – deyə soruşsaq, cavabında: “Heç kimə, elə-belə”, - desə, deməzikmi: “Necə elə-belə?”

Axır zaman Peyğəmbəri (s) 124.000 peyğəmbərin gətirdiyi dinin nəticəsi və sona çatdıranı adlanır. Qurani-Kərim də bu məsələni təsdiqləyərək buyurub:

---

[1] Həm yuxarıda qeyd olunan hədisləri, həm də Qədir-Xum hədisini əhli-sünnət qardaşlarımızın kitablarına əsasən (“Qədir günündən Aşurayadək” kitabında) görə bilərsiniz.

[2] Həcc səfərinə gedən bacı və qardaşlar, Mədinə şəhərində peyğəmbərin məscidində olarkən orada olan müsəlmanlardan xahiş edin: Məscidun-nəbinin içərisində olan iki üstü açıq hissənin ətraf divarlarında yazılan adları sizin üçün oxusunlar. On iki imamın, hətta Mehdi Sahib-əz Zamanın(ə.f.) mübarək adı orada yazılıb. Mehdinin(ə.f.) adının orada olması şiənin iddiasına ən böyük sübutdur.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

“Məhəmməd (s) sizlərdən heç birinin atası deyil, lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah həmişə hər şeyə agahdır”[1]

O Həzrət özü də buyurub: “Məndən sonra Peyğəmbər gəlməyəcək.” Həyatın son anına qədər də yaşadığı ölkənin siyasi baxımdan rəhbərliyini edirdi. Dünyasını dəyişməsindən bir neçə ay öncə Həcc səfərində olduğu zaman Ərəfat çölündə buyurdu: “ Ola bilər, bu, Mənim axır səfərim olsun, daha məni bir daha burada görməyəsiniz”. Yəni, özü də həyatının axır günləri olduğunu bilirmiş. Habelə, dünyasını dəyişməzdən öncə bir neçə gün xəstə halda evdə yatıb. Doğrudan da, necə ola bilər ki, Peyğəmbər (s) özü, dəfələrlə: “Ey müsəlmanlar! Yatarkən vəsiyyət məktubunuz başınızın altında olsun”, - buyurduğu halda, amma özü özündən sonra müsəlmanları ən mühüm məsələ ilə bağlı təklifsiz qoyub getsin? Çox təəccüblü bir hadisədir!

Nəticəsi də bu olar: İddiası olan din dünyanın hamısının həmişə qalan dinidir, lakin hakimiyyətə aid bir an peyğəmbərdən(s) sonraya sözü yoxdur. Belə ki, Doktor Taha Hüseyn “ Əli (ə) və onun övladları” kitabında acizliklə etiraf edir: “İslam dininin hakimiyyətə aid sözü yoxdur. Çünki birinci xəlifəni (Əbu Bəkr) müsəlmanlar ümumi səslə seçdilər, ikincisi (Ömər) vəsiyyətlə xəlifə oldu, üçüncüsü (Osman) altı nəfərlik şura üzvlərinin səs verməsi yolu ilə seçildi, dördüncüsü (Əli (ə)) müsəlmanların ümumi səsverməsi yolu ilə seçildi. “...Hicrətin qırx birinci ilindən sonra hakimiyyət, xilafət modelindən krallığa çevrildi. Belə ki, Hicrətin 132-ci ilinə qədər Bəni-Üməyyə tayfasının cavanları arasında uşaq oyuncağı kimi əldən-ələ düşdü. Daha sonra, Hicrətin 650-ci ilinə qədər Abbasilər hakimiyyət başında oldular. Bunların hansı düzgün İslam yolu imiş?”[2]

### *İslam dininin yayılması*

Təbiidir ki, İslam maarifinin yayılıb və dünya səviyyəsində ümumiləşməsi İslam Peyğəmbərinin (s) ən böyük arzularından biri olub. Belə ki, bu məsələni (furuid-dindən) iki baxımdan qərar verib: Birincisi müsəlman üçün imkan dairəsində onlara əməl etməyi vacib sayıbdır. “Əmr be məruf”, yəni imkan dairəsində hidayət qapılarını başqalarının üzünə

---

[1] “Əhzab” surəsi, ayə 40

[2] Bir neçə il bundan öncə həyatını sona çatdırmış mərhum doktor Taha Hüseyn Misirdə yaşamış böyük yazıçı və görkəmli tarixçi alimdir. İllər boyu “əl-Həram” qəzetinin redaktoru və Milli Məclisin üzvü olmuşdur.

açmaq. İkincisi, “Nəhy əz münkər”, yəni pis və yaramaz işlərdən insanları qorumaq.

Quran buyurur:

كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ وَتُؤْمِنُونَ بِاللّهِ

“Siz (müsəlmanlar) insanlara zahir olmuş ən yaxşı ümmətsiniz. Bəyənilən işə əmr edir, çirkin işdən çəkindirir və Allaha iman gətirirsiniz.”[1]

Tarix İslam Peyğəmbərindən(s) sonra bu iki ən mühüm vəzifənin yaddan çıxmamasına ən böyük şahiddir.

Bəli, “İslam” adı Səudiyyə Ərəbistanından çıxdı və az bir zamanda (təxminən, birinci yarım əsrdə) yaxın şərq ölkələrindən tutmuş Afrika qitəsinin yarısına qədər İslam adı ilə ərəb hakimiyyətinin kölgəsi altına çəkildi. Mavəraən-nəhrdən[2] tutmuş Cəbəlüt-Tariq boğazına qədər günün beş vaxtında “Əşhədü ən la ilahə illəllah, Əşhədu ənnə Muhəmmədən Rəsulullah” sədası minarələrdən ucalıb, məscidlərdə müsəlmanlar namaz sıralarında durub namaz qılıblar.

Bu sözləri oxuyan hər kəs soruşa bilər: Bəs, nə istəyirik? Belə cavab verərik ki, heç bir şey istəmirik. Yalnız bilməliyik ki, söhbət ərəb hakimiyyətinin “İslam” adı ilə dünyanın dörd bir tərəfini tutmasından deyil, İslam maarifinin yayılmasından gedir.

Söhbət bu günün dünyasından getmir. Əksinə, İslam Peyğəmbərinin (s) vəfatından otuz il sonra, yəni hicrətin 41-ci ilində Əbu Süfyanın oğlu Müaviyyənin Kufə şəhərində vali olduğu zaman Kufə məscidinin minbərində “Mən sizin namaz qılıb oruc tutmağınız üçün müharibə etmirdim. Mən yalnız sizlərə xəlifə olmaq üçün müharibə edirdim”, - deməsi və oğlu Yezidin, daha sonra Həkəmin oğlu Mərvan və oğlanlarının hicrətin 132-ci ilinə kimi Bəni-Üməyyə tayfasının krallarının İslam xilafəti adına, İslama, Qurana, mənəviyyata etdikləri xəyanət və müsəlmanlar əleyhinə etdikləri ən böyük cinayətlərdən gedir.

Onların hakimiyyəti dövründə Mədinə şəhərinə (Peyğəmbərin (s) şəhərinə) basqın edilib. Əli ibn Hüseyn Mədaini yazır: “Hirrə müharibəsi”ndən sonra Mədinə qızlarının min nəfərdən çoxu hamilə olaraq uşaq dünyaya gətirdilər. Tarixdə o uşaqlar “Hirrə övladları” adlandılar. İki dəfə Məkkə şəhərinə basqın edilərək, Kəbə evinə od vurulub yandırılaraq viran edilib.

Əbu Süfyan oğlu Muaviyyənin İslam maarifindən xəbəri yox idi. Yoxun nəyini yaymalı idi. Əksinə, özünün iddia etdiyi kimi, məqsədi

---

[1] “Ali-İmran” surəsi, ayə 110
[2] Buxara-Səmərqənd

İslam və Peyğəmbərin (s) adını batırmaq idi. Amma bu hədəfinə zahiri şəkildə əməl edə bilmədiyi üçün beytul-maldan pul ayıraraq tamahkar insanları aldadıb, əsir tutub Peyğəmbərin (s) adından hədislər uydurdu ki, o saxta hədislər haqqı batillə qarışdırsınlar, insanlara haqqı tapmaq çətinləşsin.

Yalnız bu bir iddianı sübut üçün deməliyəm ki, bildiyiniz kimi, Əhli-sünnətdə hər biri "səhih" adlanan altı hədis kitabı var. Onlardan biri "Səhihi-Buxari"dir. Müəllifi Abdullah ibn Məhəmməd ibn İsmayil ibn İbrahim ibn Muceyrə Buxaridir. Hicrətin 194-cü ilində Buxara şəhərində doğulub və hicrətin 256-cı ilində vəfat etmişdir.

Bu şəxs həmin əsərinin müqəddiməsində yazır:

Mən 1080 nəfərdən 600.000 hədis eşidib qeyd edərək cəm etdikdən sonra yazmağa başladım. Əziz oxucu bilməlidir ki, "Səhihi-Buxari" kitabında təkcə 7257 hədis qeyd olunub.

Bu sözlərin mənasının nə olduğunu bilirsinizmi? Yəni, Buxari 592.743 hədisin saxta olduğunu başa düşərək, öz kitabında onları qeyd etməyib. İndi Bəni-Üməyyə tayfasının İslama necə böyük xəyanətlər etdiyini bildinizmi? Həmçinin deyə bilərik ki, ağalar zəhmət çəkib, təxminən, hər doğru hədisin qarşılığında 99 hədis saxtalaşdırıblar.

Bu kitabda məqsədimiz mövzunu qısa şəkildə aydınlaşdırmaqdır. Yoxsa, siz – əzizlərə əhli-sünnət qardaşlarımızın yazdığı kitablara istinad edərək, Bəni-Üməyyə tayfasının hakimiyyəti dövründə İslamın kökünə dəyən zərbələri, habelə Abbasilərin hakimiyyəti dövründə baş vermiş cinayətləri şərh edərdim. Həqiqətən, Peyğəmbər (s) Əhli-beytinin (ə) çəkdiyi zəhmətlər və İslam dini yolunda verdikləri qurbanlar olmasaydı, İslam dini birinci əsrin sonlarına çatmayacaq və yalnız tarix kitablarında belə bir dinin adı ilə qarşılaşacaqdıq. Bütün bunlara baxmayaraq, çox təəssüf ki, əhli-sünnət qardaşlarımız ağı qaradan seçmədən, yaxşını pisdən ayırmadan – ucdantutma hicrətin 650-ci ilinə qədər xəlifə adlanan hər bir kəsə itaəti özlərinə vacib biliblər. Onlar Vəlid ibn Yezid kimi həyasız insana, Yezid ibn Müaviyə kimi dinsiz şəxsə "Əmirəlmöminin" (Möminlərin əmiri) ləqəbi veriblər!

Çünki onlar öz hakimiyyətlərindən başqa heç bir şeyə fikir vermirdilər. Buna görə də Quranı başa düşməkdə öz acizliklərini etiraf ediblər. Bu iddiaya nümunə olaraq bir hədis nəql edirəm. "Təfsiri-Fəxri Razi", "Təfsiri-Nişaburi", "Mənaqibi-Xarəzmi", "Sunəni-Kubra", "Zəxairul-Üqba" kitablarının müəllifləri öz yazdıqları kitablarından bu hədisi şərh ediblər:

Ömər ibn Xəttabın hakimiyyəti dövründə bir ərli qadın zina həddinə məhkum oldu. Qadının bacısı narahat halda Əli ibn Əbu-Talibin (ə) yanına gəlib bacısının günahsız məhkum olduğunu bildirdi. Əli (ə) məscidə gəlib verilən hökmə öz etirazını bildirdi.Xəlifə dedi: Şahidlər bu qadının ərinin neçə müddətdir səfərdə olduğuna şəhadət veriblər. Altı aydır, sə-

fərdən qayıdıb.İndi isə sağlam bir uşaq dünyaya gətirib. Bunun mənası zinadan başqa nə ola bilər?

Əli (ə) dedi: Allah-Təala Qurani-Kərimdə buyurub:

وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلاَدَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ

“Analar öz övladlarına tam iki il süd verməlidir.”[1]

Başqa bir ayədə buyurub:

وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ إِحْسَانًا حَمَلَتْهُ أُمُّهُ كُرْهًا وَوَضَعَتْهُ كُرْهًا وَحَمْلُهُ وَفِصَالُهُ ثَلَاثُونَ شَهْرًا

“Onun (körpənin-ana bətində) daşınması və süddən ayrılması (Ana bətnində qalması ilə süd əmmə müddəti üst-üstə) otuz aydır.”[2]

Əli (ə) bu iki ayəni oxuyarkən buyurdu: Otuz aydan iki il (24 ay) çıxılsa, yerdə nə qalar? Dedilər: Altı ay. Sonra nəticə aldı. Deməк Allah-Təalanın buyurduğuna əsasən uşaq altı ayda kamil surətdə doğulub sağlam qala bilər. Belə isə hansı günaha görə bu qadını ittihamlayıb daş-qalaq hökmü verirsiniz? Xəlifə dedi: “Əgər Əli (ə) olmasaydı, mən həlak olardım.”

Qurani-Kərimi müəllimsiz anlamaq olmaz. Bu kitabın ən böyük müəllimləri Əhli-beytdir(ə) ki, bu kitab onların evində nazil olub. Evin sahibi onlardır. Buna görə də Qurani-Kərimin təvil və təfsirini onlardan başqa heç kəs başa düşə bilməz. İbni-Əbil-Hədid Mötəzili Şafei “Nəhcül-Bəlağə” kitabının şərhinin 20-ci cildinin müqəddiməsində yazır: “Səhabə arasında fəqih (yəni, fiqh elmini ən çox başa düşən və fiqh elmi ilə daha çox tanış olan) iki nəfərdir: “Abdullah ibn Abbas və Ömər ibn Xəttab”. Hər ikisinin də elmi Əlinin (ə) elminə bağlanır... Daha sonra yazır ki, Abdullah ibn Abbasın açıq-aşkar Əli (ə) tələbəsi olması, Ömər ibn Xəttabın dəfələrlə “Əgər Əli (ə) olmasaydı, Ömər həlak olardı.”

### *Mənəvi rəhbərlik*

İnsan fikir və düşüncəsi ilə dərk edir: yox idi, var olub və yenə də yox olacaq. Bu ikisinin orta vəziyyəti onun həyat və yaşayış dövranını təşkil edir. Buna görə də yaşadığı zaman kəsiyindən qənaətlə istifadə etməyə çalışır. Amma bilməliyik ki, insan “haradan gəlib, haraya gedir?” - sualına cavab tapmayana qədər bu ikisinin arasında olan həyatdan səmərəli istifadə edə bilməyəcək.

---

[1] “Bəqərə” surəsi, ayə 233
[2] “Əhqaf” surəsi, ayə 15

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Hər bir insan bilməlidir ki, bu üç suala (haradan gəlib, nə üçün gəlib, haraya gedir) aid dinin çox ciddi şəkildə sözü var, hətta ağıl üçün dindən kömək almadığı təqdirdə həll edilməsi problem olan ölümdən sonrakı həyat da dinin nəzərindən yayınmayıb. Belə deyə bilərik ki, "ölümdən sonrakı həyat" din maarifi olmadan izah olunmayan bir məfhumdur.

Ölüm insan üçün dünya həyatının sonuncu günü, axirət həyatının isə ilk günü hesab olunur. İnsanın həqiqəti deyir ki, onun həyatının sonunda səadətə yetişməsi nəfsinin öhdəsindədir. Nəfs səadətə yetişməyin təkcə yolunun "Mənəvi rəhbərlər"in sözünə qulaq asıb onların göstərdikləri yolla getməkdə olduğunu bilməlidir.

Mənəvi rəhbər Allah-Təalanın yer üzündə canişinləri və "Güzgü" kimi Allah-Təalanın nurunu insaniyyət aləminə yayan kamil insanlardır. "Kamil insan" dedikdə vücudlarında bütün insani dəyərlər ali səviyyədə, bir-birinə uyğun səviyyədə inkişaf edən insanlar nəzərdə tutulur.

"Kamil insan" dedikdə Həzrət Məhəmməd ibn Abdullah(s) və onun Əhli-beytindən olan imamlar (Onlar Allah-Təalanın xüsusi lütfü ilə insaniyyət aləminin ən yüksək rütbəsində və dərəcəsində qərar tutublar) nəzərdə tutulur. Belə ki, insan onların ardınca getməsə, həqiqət yolunu azması və dinində zəlalətə düşməsi yəqindir.

İmamət yalnız kamil insanların haqqıdır.

Allah-Təala Qurani-Kərimdə buyurur:

**وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِي قَالَ لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ**

"Rəbbinin İbrahimi bəzi işlərlə imtahana çəkdiyi zaman o (İbrahim) hər şeyi kamil surətdə yerinə yetirdi. Rəbbi dedi: Həqiqətən, mən səni insanlara imam və rəhbər etdim. (İbrahim) dedi: Övladlarımdan necə? Dedi: Mənim əhdim zalımlara nəsib olmaz."[1]

Həm "əl-Mizan" təfsirində Həzrət Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai Təbrizi, həm də "əl-Bəyan" təfsirində Həzrət Ayətullahul-Uzma Seyyid Əbül-Qasim Xoyi (Allah-Təala hər ikisinə rəhmət etsin) yazıblar ki, ağıl baxımından insanların dünya səviyyəsində yaşını dörd haldan başqa cür fikirləşmək olmaz. Onlar aşağıdakılardır:

1.Ömrünün əvvəlindən axırına kimi zalım olan.

2. Həyatı boyunca heç vaxt zalım olmayan.

3. Ömrünün əvvəlində zalım olub sonra tövbə edən.

4. Həyatının axır hissəsində zalım olan.

Sonra nəticə olaraq buyurublar: Şübhəsiz, birinci və dördüncü səviyyədə olan (yəni, ömrünün bütün, yaxud son hissəsində zalım olan)

---

[1] "Bəqərə" surəsi, ayə 124

insanlara imamlıq və rəhbərlik məqamı arzu etmək Həzrət İbrahimin (ə) şənindən uzaqdır. İki hissə qalır (heç bir zaman zalım olmayan və ömürlərinin əvvəlində zalım olub sonunda tövbə edən insanlar), amma Allah-Təala Həzrət İbrahimin (ə) bu istəyini belə cavablandırır: “Mənim əhdim zalımlara nəsib olmaz”, yəni imamət məqamının yalnız ömürləri boyu zülm etməmələrindən əlavə, vücudlarında bütün insani dəyərlərin ən yüksək həddə, bir-birilərinə uyğun səviyyədə inkişaf etdiyi kamil insanların haqqı olması çox incəliklə məlum olur.

Bu mənalarda “imamət” məqamı o şəxsin öz vücuduna bağlı olan zati bir haqdır. Başqa insanların onu qəbul edib-etməməsi məsələnin mahiyyətini dəyişə bilməz. Nə üçün? Bütün fəzilətlər imamın vücuduna cəm olduğu, onun özü ölçü və əməllərin mizanı olduğu üçün başqalarının onu qəbul edib, yaxud rədd etməklə öz münasibətləri ilə hidayət və ya zəlalət yolunu seçməkdə ixtiyar sahibidirlər.

“Tövbə” surəsinin 105-ci ayəsi yalnız bir mənadə izah oluna bilər. Belə ki, Həzrət İmam Rzadan (ə) soruşuldu: “Ey peyğəmbərin (s) övladı, necə ola bilər ki, siz bizim əməllərimizi görəsiniz?” Buyurdu: “Məgər Allah-Təala buyurmayıb: “De: İstədiyinizi edin ki, tezliklə əməllərinizi Allah, Onun peyğəmbəri və möminlər görəcəklər.” Sonra buyurdu: “Sizin əməllərinizi görən mömin insanlar bizik.”

Habelə, səkkizinci İmamın (ə) buyuruğuna əsasən, 14 məsumun (ə) hər birində bu məqam dəyişməzdir və əməldə də sübuta yetib. Əlbəttə, münafiqlərdən başqa, hətta ibtidai insanlara belə bu anlayışın həzminin azacıq çətin olması məlumdur. Çünki yolu daş-kəsəklidir, üzü yuxarıdır, lakin nə etmək olar? Haqq yolunu tapmağın müəyyən qədər çətinliyi var. İnsandan zəhmət tələb edir. Çünki şeytan insanları doğru yoldan çəkindirməyə çalışır. Qurani-Kərimdə oxuyuruq:

قَالَ فَبِعِزَّتِكَ لَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

“(İblis) dedi: İzzətinə and olsun ki, sənin xalis və seçilmiş bəndələrin istisna olmaqla, onların (insanların) hamısını aldadıb doğru yoldan azdıracağam.”[1]

Beləliklə, gəlin, bir daha bu iki ayəni Qurani-Kərimdən birlikdə oxuyub mənası haqda düşünək. Bəlkə məsələnin həllinə yaxınlaşdıq. İnşallah.

وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ

[1] “Sad” surəsi, 82 və 83-cü ayələr

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə (onlar) diridirlər və lakin siz dərk etmirsiniz."[1]

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

"Allah yolunda öldürülənləri ölü zənn etmə, əksinə onlar diridirlər və onlara Rəbbi yanında ruzi verilir."[2]

Bu ayələr onlara şübhə edilməsi mümkün olmayan, Allah-Təalanın buyurduğu ayələrdir. Yalnız məsələni özümüz üçün təhlil etmək qalır. Necə ola bilər ki, biz onların diriliyini dərk etməyək? Onun da cavabı Qurandadır. Buyurur: Siz onu dərk edə bilməzsiniz. Təbiidir ki, öləndən sonrakı həyatı bizlər başa düşə bilmərik, amma Allah-Təalanın buyurduğuna görə inanmalıyıq. Bu barədə kitablarda kifayət qədər məlumatlar qeyd olunub. Misal olaraq, "Uyuni-Əxbarur-Rza" kitabında yazılıb: "Həzrət İmam Riza (ə) Mədinədən Xorasana gəldiyi zaman Səbzəvar şəhərində əmr etdi ki, bir bərbər gəlib baş və üzünün tüklərini azaltsın. Qoca bir bərbər gətirdilər, Həzrətin (ə) tüklərini o yan-bu yana çevirdiyi halda özü üçün çox dəyər bilirdi. İmamın (ə) ətrafında dolandığı və onun tüklərini səliqəyə saldığı üçün fəxr edirdi. Ürəyindən keçdi ki, görəsən ağanın lütfü mənə nə olacaq. Bir az sonra əlindəki qayçının qızıl olduğunu gördü. Diqqətlə baxdıqda sehr etmədiyini gördü. (Dırnaq arası deyilməlidir ki, savadından asılı olmayaraq insanların bəzisi, həqiqətən də əldə olan fürsətdən əla dərəcədə istifadə etməyi bacarır.) Bərbər qayçıya baxarkən ərz etdi: Ağacan, kaş ki, dünya malı əvəzinə axirətimə bir lütfünüz olaydı". Həzrət buyurdu: "Biz, Ali-Məhəmməd (s) verdiyimiz hədiyyəni geri qaytarmarıq. İndi isə istəyin nədir?" Ərz etdi: "Ölən zaman başımın üstünə gələsiniz." Həzrət buyurdu: "Söz verirəm." Elə də oldu.

### *İki ən böyük şahid*

Daha öncə, bir neçə səhifə qabaqda qeyd etdik ki, şiə anlayışında imamət məqamı "həm məkan, həm də zaman uzaqlığından" üstündür. İndi isə demək istəyirəm ki, belə olduğu halda üstünlüyü Quran təsdiq edir. İnkar da edilə bilməz. Lakin təəssüf ki, bir qrup məşhurlara görə, yolun yarısından artıq ayaqlaşa bilmədikləri əsasda,

إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ سَبِيلاً

أُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ حَقًّا وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُّهِينًا

[1] "Bəqərə" surəsi, ayə:154
[2] "Ali-İmran" surəsi, ayə: 169

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Allaha və Onun peyğəmbərlərinə kafir olanlar istəyirlər ki, Allah və Peyğəmbəri arasında ayrılıq salsınlar. (Yəni deyərlər ki, bunlar Allahın göndərdikləri deyillər). Və deyərlər ki, biz peyğəmbərlərin bəzi dediklərinə iman gətirmərik. İmanla küfr arasında bir yol seçmək istəyirlər."

"Bütün bunlar həqiqətən kafirdirlər. Biz kafirlərdən ötrü rüsvay edici əzab hazırlamışıq"[1]- buyurduğu ayəyə şamil olurlar.

### *1. Asəf ibn Bərxiya*

Qurani-Kərim "Nəml" surəsində bir hadisə nəql edir. O hadisənin xülasəsi belədir: Allah-Təalanın izni ilə quşların da dilini bilən Həzrət Süleymana (s) Hud-hud xəbər gətirdi ki, "Səba" ölkəsində tək Allaha deyil, günəşə səcdə edən bir qadın hökmranlıq edir. Həzrət Süleyman(ə) məktub göndərərək onu tək Allaha ibadət etməyə dəvət etdi. O qadın (Bilqeys xanım) məktuba cavab olaraq Həzrət Süleymana(s) hədiyyə yolladı. Nəhayət, bir gün bu mövzu gündəmdə olarkən və Həzrət Süleyman(ə) öz ölkəsinin böyükləri ilə məşvərət etdiyi zaman onlara dedi:

"Hansınız o qadının taxtını mənə gətirə bilər? Cinlərdən olan (çox zehnli və nəhəng) İfrit dedi: Mən onu sən yerindən qalxmamış sənin yanına gətirərəm. Əlbəttə, mənim bu işə qüvvəm və etibarım var. Kitabdan bir qədər elmi olan dedi: "Mən onu bir göz qırpımında sənin yanına gətirərəm." Süleyman(ə) onu taxtı yanında görərkən dedi: Bu Rəbbimin fəzlindəndir və mənim şükr edib, yoxsa nankor olacağımı yoxlamaq üçündür."[2]

Qurani-Kərimə təfsir yazanların bir çoxu kitabdan bir qədər elmi olan şəxsin Həzrət Asəf ibn Bərxiya olduğunu yazıblar. O, Həzrət Süleymanın (ə) vəzir və canişini olaraq Allah-Təala tərəfindən Bilqeys xanımın taxtını "Səba" ölkəsindən Qüdsə gətirəcək bir qüdrətə sahib olmuşdur.

### *2. Həzrət Əli ibn Əbu Talib (ə)*

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِندَهُ عِلْمُ الْكِتَابِ

"Kafirlər deyirlər: Sən (Allahın) peyğəmbəri deyilsən. De: Mənimlə sizin aranazda Allahın, həmçinin kitab elminə malik olan kəsin şahid olması yetər."[3]

---

[1] "Nisa" surəsi, 150, 151-ci ayələr
[2] "Nəml" surəsi, 38, 39, 40-cı ayələr
[3] "Rəd" surəsi, ayə 43

Əhli-sünnət alimi Həskaninin "Şəvahidut-Tənzil" kitabından kitab elminə malik olan kəsin Həzrət Əli ibn Əbu-Talib (ə) olması bildirilir.

Biz də Qurani-Kərimdə olan bu iki ibarənin mənasını başa düşməliyik: "İndəhu ilmun minəl-kitab" - "Kitabdan bir qədər məlumatı olan", "Və mən indəhu ilmul-kitab"- "Kitabın elminə malik olan". Yeri gəlmişkən deyə bilərik ki, tərcümə olunan iki cümlə ərəb dilində ifadə etdikləri mənaları tam ifadə etmir. İfadə etməsi mümkün də deyil, lakin bunu bilirik ki, bu iki şəxsin biri kitab elmindən bir qədər bilirmiş, digəri isə kitab elminə malik imiş.

Hədislərimizdə kitab elmi belə izah olunub: Kitab elmi 72 hərfdir. Cənab Asəf ibn Bərxiya ondan bir hərf bilirmiş, lakin o bir hərfin nə qədər qüdrətli olduğunu oxuduq.

Qurani-Kərim vücudunu Peyğəmbərin (s) nəfsi (özü) kimi bildirdiyi kitab elminə malik olan şəxsə gəlincə Peyğəmbərin (s) risalətinə şahid olan mövlamız və rəhbərimiz Həzrət Əbəl-Həsən Əli ibn Əbu Talibdir (ə). İndi isə o mübarək vücudun barəsində nəql olunmuş minlərlə hədis və rəvayətlərdən yalnız o Həzrətin dünyaya gəlişinə və elminə aid bir neçə hədis nəql edək.

O Həzrətin Kəbə evində dünyaya gəlməsi barədə kitablar belə yazır: Anası Xanım Fatimə binti-Əsəd özündə doğum ağrısı hiss etdiyi zaman Kəbə evinə tərəf yaxınlaşarkən Kəbə evinin divarı müstəcar tərəfdən açıldı. Xanım Fatimə başa düşdü ki, evin içinə daxil olmalıdır. Divar bağlandı və üç gündən sonra qucağında uşaqla birlikdə Kəbə evindən çıxdı.

Cənab Asəf ibn Bərxiya "kitabdan bir qədər elmi olan" şəxsdir, lakin "Kitab elminə malik olan" şəxsin vücudundan dünyanın işıqlanması üçün Kəbə evi parçalanır. Əziz oxucular, bu hadisənin yalnız şiə kitablarında nəql olunduğunu təsəvvür edə bilərlər, lakin nəql etdiyimiz hadisəni əhli-sünnət qardaşlarımızın bir çoxu da yazmışdır. O cümlədən:

Hakim Nişapuri "Əl-Müstədrək" kitabının üçüncü cildinin 483-cü səhifəsində bu hadisəni nəql edib təsdiq edərək yazıb: "Əlinin (ə) Kəbə evində doğulması mütəvatir hədislərdəndir." Hafiz Gənci Şafei "Kifayətut-Talib" kitabının 407-ci səhifəsində yazıb: "Nə Əlidən (ə) qabaq, nə də sonra heç kəs Kəbə evində doğulmayıb."

"Təfsiri-Kəbir"in müəllifi Seyyid Məhəmməd Alusi yazır: "Cümə günü Rəcəb ayının 13-də Əli (ə) Kəbə evində dünyaya gəldi. Belə ki, ondan qabaq heç kəs orda doğulmamışdır." Misir respublikasının müasir məşhur yazıçısı cənab Doktor Əqqad "Əbqəriyyətul-İmam Əli (ə)" kitabının 7-ci cildinin 43-cü səhifəsində həmin mənanı gözəl şəkildə ifadə edərək yazır: "Əlinin (ə) Kəbə evində doğulması ən böyük şərəf sayılır. Belə ki, o Həzrət anadan olduğu vaxtdan vücudu tövhid kəlməsi ilə birləşmişdir."

## İMAMƏT “QURANİ-KƏRİM”DƏ

“İmam” kəlməsinin mənası “rəhbər”, “öndə gedən”, “ictimai və siyasi baxımdan bir qrupun rəhbərliyini öhdəsinə götürən şəxs”dir. “İmam” kəlməsi özlüyündə müqəddəs kəlmədir. Çünki rəhbər öz ardıcıllarını həm düzgün yola hidayət edib səadətə doğru apara, həm də batil və azğınlıq yoluna çəkərək yazıq edə bilər.

Allah-Təala Qurani-Kərimdə bir sıra peyğəmbərlərin adını çəkdikdən sonra buyurur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ

“Biz onları əmrimizlə xalqı hidayət edən rəhbərlər etdik.”[1]

Başqa bir məqamda Fironun barəsində buyurur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ وَيَوْمَ الْقِيَامَةِ لَا يُنصَرُونَ

“Biz o qövmü dünyada insanları cəhənnəm oduna çağıran rəhbərlər etdik. Qiyamət günü onlara Allahın Cəhənnəm əzabından qurtarmaq üçün heç bir kömək edilməyəcəkdir!”[2]

Şiə anlayışında məsələ heç də elə deyil ki, İslam Peyğəmbəri (s) Allah-təalanın əmri ilə 23 il müddətinə vəhy vasitəsilə dünyanın sonuna kimi səadət yolu göstərən kitabı – Qurani-Kərimi alıb olduğu kimi insanlara çatdırdıqdan sonra o Həzrətin (s) risalət və vəzifəsi qurtarır, müsəlmanlar da necə istəsələr, elə də etsinlər, istəməsələr, özləri bilərlər. Əksinə, şiənin etiqadına görə, İslam Peyğəmbərinin (s) öz həyatı dövründə risalətdən başqa, o Həzrətdən(s) sonra öz başına buraxılması mümkün olmayan bir sıra şəni məqamları da var idi. O cümlədən:

1. Zahiri rəhbərlik: Yeni qurulmuş İslam dövləti, onun mərkəzi olan Mədinə şəhəri İslam Peyğəmbərinin (s) başçılığı altında idarə edilirdi. O Həzrətdən(s) sonra bu mühüm məsələ necə olmalı idi?

2. İslam maarifinin yayılması: Bu məsələ sadə bir məsələ deyildi ki, “Həsbunə kitabullah”, yəni “Quran bizə kifayət edər”, - deyilsin. Çünki Quran açıqlanmadan başa düşülməsi mümkün olmayan bir kitabdır.

3. Mənəvi rəhbərlik: İnsanın zahiri həyatından başqa, əməllərin başlanğıcı sayılan, batini və mənəvi həyatı da var. “Mən kiməm?”- sualına yalnız mənəvi rəhbərlər cavab verə bilərlər.

---

[1] “Ənbiya” surəsi, ayə 73
[2] “Qəsəs” surəsi, ayə 41

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Çox təəssüf olsun ki, bu üç məqamın hər üçü də Peyğəmbərdən (s) sonra ümumi şəkildə yerdə qaldı. Peyğəmbərin (s) bir qrup xüsusi səhabələrindən başqa onlara sahib çıxan olmadı. Nəticədə İslam Peyğəmbərinin (s) vəfatından yarım əsr keçməmiş, mənəviyyat sahəsi elə solğun halda süqut etdi ki, günün günorta çağı o Həzrətin(s) nəvəsi Hüseyn ibn Əlinin (ə) ətrafında olan ən görkəmli insanların başlarını kəsdilər. Amma heç bir müsəlmanın səsi çıxmadı. Niyə?

İndi isə bu suala qısa şəkildə cavab axtaraq. Bəlkə düzgün və Quranın buyurduğu nəticəyə çata bildik. Yəqin ki, bu "niyə"nin cavabı tapılsa, imamət məsələsi aydınlaşar.



***İlham olundu yenə, qələm aldım əlimə,***
***Gözəl zikrin, Əli can, süzüldü bu dilimə.***
***Səni Qurana sordum. Dedi: "Rəsulun nəfsi".***
***Bu cümlədə toplanmış, fəzilətlərin həpsi.***
***Yenə sordum, oxudu mənə "təthir" ayəsin,***
***"Təfsiridir Murtəza məndəki hər ayənin".***
***Dedim: "Başqa nə vardır?" Dedi: "Yetməzmi artıq?***
***Mən Qurani-Samitəm, odur Qurani-Natiq"***
***Səni İslama sordum. Dedi: "Dinin dirəyi.***
***Əlinin vilayəti, dindarlığın gərəyi"***
***Rəsula sordum səni. Dedi: "Sonsuz bir dərya.***
***Mən kimə mövlayamsa, Əlidir ona mövla.***
***Mən və Əli əzəldə ilahi bir nur idik,***
***"Ələstu" sualına ilk təsdiqi biz verdik.***
***Mən həqiqət mülküyəm, Əli onun sənədi,***
***Mən elmlər şəhriyəm, qapısıdır əbədi.***
***Dünya tufanlı dərya, mən qurtuluş sahili.***
***Sahilə çatdıracaq gəmi Əlidir, Əli.***
***Bu ümmətin atası, bir mən, bir də Əlidir.***
***Möminlərin cəminə məndən sonra vəlidir.***
***Əmri-aləm mənimdir, bayraq Əli əlində.***
***Cənnət və nar bölüşü ancaq Əli əlində***
***Düşmənliyi nifaqdır, iman olub söhbəti,***
***Söylə, Əli düşməni, gözləməsin cənnəti".***
***Zəhraya sordum səni. Dedim, Əlini vəsf et.***
***Dedi: "Bizdə birləşdi iki bəhrı-həqiqət.***
***Bir görüşdən doğuldu on bir dürrü-imamət.***
***Beləcə təkmil oldu mənzumeyi-vilayət"***
***Səni Həsənə sordum. Dedi: "Hüsnüm Əlidir."***
***Hüseynə sordum, dedi: "Sirrim onda cəlidir."***
***Kəbəyə sordum səni. "Əli oğlumdur" dedi,***
***Onun gözü eynullah, yəni Allahın yədi.***
***Bütlər yerə sərildi, yədullahın əliylə,***
***Sirlər aşikar oldu, haqq söyləyən diliylə."***
***Cəbrailə sordum, dedi: "La fəta mütləq Əli,***
***Həm mənim, həm aləmin əmiri Mövla Əli."***
***Bir də Zülfüqara, mən, soruşum, dedim səni,***
***Dedi: Zülfüqar edən Əli əlidir məni."***
***Əqlimə sordum səni, dedi: "Çaşmışam, çaşmış,***
***Məni divanə edən, onun eşqidir, aşmış.***
***Könlümə sordum səni, "Sevincim Əli" dedi,***
***Vicdana sordum səni, "Qürurum Əli" dedi.***
***Səni arifə sordum, dedi: "Ürfan Əlidir."***
***Səni möminə sordum, dedi: "İman Əlidir."[1]***

[1] Türkcədən çevirən: Ə.Nur

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

# III F Ə S İ L

# İMAM ƏLİ (Ə) "QURAN"DA

*Düşmüşəm bu dəhridə, ya Rəbb, əcəb sevdayə mən,*
*Şükrilillah, getmədim qafil olan röyayə mən.*

*Mən Əli adın sevib zikir eylədim şamü səhər,*
*Aşiqəm ruzi-əzəldən çün belə mövlayə mən.*

*Lütf qılmış Xaliqim, mən mədhi-mövlani deyəm,*
*Həmd qıllam daima ol Xaliqi-Yektayə mən.*

*Daima əzbərdir mənim dilimdə bu Əli adı,*
*Dönmüşəm bu bəzmdə bir bülbüli-şeydayə mən.*

*Mədhi-mövlani deyən olmaz o mövladan kənar,*
*Söylərəm mövlayə mədhin, kim olam həm sayə mən.*

*Çox fəzilət söyləmiş mədhi-Əlidən Müstəfa,*
*Həmdi qıllam, yetmişəm bu neməti-üzmayə mən.*

*Ey Xuda, əfv eylə Məddahi, bihəqqi-Mürtəza,*
*Rəhm qıl, taki gələndə məhşəri-kübrayə mən.*

Hafiz Suleyman ibni-İbrahim Qunduzinin (Hənifi) “Yənabiul-Məvəddə” adlı kitabında və Cəlaləddin Suyutinin “Əd-durrul Mənsur” adlı əsərində” “Fatihə” surəsinin birinci ayəsi olan “Bismillahir-rəhmanir-rəhim” ayəsinin haqqında deyilir:

“Bilin ki, bütün səmavi ktabların sirləri Qurandadır və Quranda olan bütün sirlər “Fatihə” surəsindədir. “Fatihə”də olan bütün sirlər isə “Bismillah”dadır. “Bismillah”dakı bütün sirlər isə ondakı “bə” (ب) hərfində və “bə” də olan bütün sirlər isə onun altındakı nöqtədədir.”

Daha sonra Həzrət Əlinin (ə) belə buyurduğu nəql edilir:

“Mən “bə” hərfinin altındakı nöqtəyəm.”

Yenə, Qunduzi İmam Əlidən(ə) belə nəql edir:

“Mən natiqi (danışan)-Quranam.”

Əziz oxucu! Əgər bizlər bu hədisə bir az diqqət etsək, istisnasız olaraq bu nəticəni əldə edəcəyik:

“Bə”nin (ب) altında nöqtə olmadığı zaman bu hərf boş bir qaralamadan başqa bir şey olmayacaq. Beləliklə də nöqtəsiz olan bu hərf heç bir mənaya dəlalət etməyəcək.

“Bütün sirlər “bə”nin altındakı nöqtədədir” sözü isə “elmlərin açarları “bə”nin altındakı nöqtədir” deməkdir. Bu nöqtə olmadığı zaman bütün elmlər bağlıdır. Beləliklə də bütün səmavi kitabların və Quranın sirri bu nöqtədə olduğuna görə bütün elmlər insanlara bu nöqtə ilə bərabər açılmaqdadır. Necə ki, Həzrət Əli (ə) buyurmuşdur:

“Mən natiqi-Quranam”.

Ona görə ki, o nöqtə olmadan heç bir elm və insanlar kamala çatmaz. Demək, Quran da kamillik dərəcəsinə yetişməz. Bu elə bir nöqtədir ki, bütün səmavi dinlərin və İslam dininin təməl nöqtəsidir.

Bir hədisdə deyilir:

“Allah-Təala onun (Həzrət Əlinin) vilayəti ilə dini kamilləşdirmişdir.”

Yəni, din İmam Əlinin (ə) vilayəti ilə kamilliyə çatmış və Allah-Təala onun vilayəti ilə bəndələrinə olan nemətini tamamlamış, onun vilayəti ilə qulları üçün din olaraq İslamı seçmişdir. Belə ki, Peyğəmbərin (s) sonuncu həcc zamanında Məkkə yaxınlığında “Qədir-Xum” deyilən vadidə təxminən 120 min zəvvar qarşısında Həzrət Əlinin (ə) vilayətini elan edərək “Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır” hökmünü elan etdikdən az sonra bu ayə nazil olmuşdur:

“Bu gün dininizi kamilləşdirdim və sizə olan nemətimi tamamladım. Din olaraq sizə İslamı seçdim.”[1]

Nəticə olaraq bunları söyləyə bilərik:

[1] “Maidə” surəsi, ayə 3

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1. Əgər din İmam Əlinin (ə) vilayəti olmadan olarsa, o din naqis bir din sayılar;

2. Əgər nemət İmam Əlinin (ə) vilayəti olmadan olarsa, demək nemət naqisdir;

3. İslam dini İmam Əlinin (ə) vilayəti olmadan kamil bir din olmamışdır;

4. Elmlərdə İmam Əlinin (ə) elmi olmazsa, o elm naqis sayılır;

5. İmam Əlinin (ə) vilayəti olmadan Quranı açıqlamaq mümkün deyil;

Bu açıqlamalardan heç də narahat olmayın.Biz bu hədisi Əhli-sünnənin böyük alimlərindən biri olan Qunduzinin (Hənifi) öz kitabından nəql etdik. Biz Qurandakı bütün “bismillah”ları oxuduqda bu nəticəni əldə edə bilərik. Bu “bismillah”larda hədəf və məqsəd Allahın vahidliyini və Həzrət Əlinin (ə) fəziləti və üstünlüyünü bizə xatırlatmaqdır. Eyni zamanda, Quranda 114 dəfə “bismillah” təkrarlanmışdır. Və yenə də deyə bilərik ki, “Həzrəti Muhəmmədin(s) Əhli-beytinin(ə) fəzilət və şəninin ucalığına bu 114 “bismillah” şəhadət verməkdədir.”[1]




[1] “Kənzul-Ummal”, cild 12, səh. 33

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***Həzrət Əlinin (ə) şaninə Qurani-Kərimdə 300-dən çox ayə nazil olub. Həmin ayələrdən bir neçəsini bu bölümdə əziz oxucuların diqqətinə yetiririk:***

## "ƏMANƏTLƏRİ SAHİBLƏRİNƏ QAYTARIN" AYƏSİ

**إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ إِنَّ اللّهَ نِعِمَّا يَعِظُكُم بِهِ إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا**

"Həqiqətən, Allah sizə əmr edir ki, əmanətləri sahiblərinə qaytarın. Xalq arasında hakimlik edərkən ədalətlə hökm verin. Allahın sizə öyüd verdiyi şey necə də yaxşıdır! Şübhəsiz, Allah eşidən və görəndir".[1]

Əmanətə vəfa və ədalətli rəftar imanın mühüm nişanələrindəndir. Necə ki, xəyanət nifaq əlamətidir.

Hədis: "İnsanların uzun ruku və səcdələrinə yox, doğru danışmağına və əmanətə münasibətinə baxın."[2]

Rəvayətlərdə nəql olunur ki, "əmanət" dedikdə cəmiyyətə Əhli-beyt tərəfindən rəhbərlik nəzərdə tutulur. Belə bir əmanətə sədaqət bu ayəyə əməl olunmasının bariz nümunələrindəndir. Cəmiyyətin xoşbəxtliyinin açarı iş başında layiqli və ədalətli şəxsin olmasıdır.

Həzrət Əli (ə) buyurur: "Bir şəxs cəmiyyətdə özündən layiqlisi olduğunu bildiyi halda rəhbərliyi qəbul edərsə, şübhəsiz, Allaha, peyğəmbərə və möminlərə xəyanət etmişdir".[3]

İmam Baqir (ə) və İmam Sadiq(ə) buyurmuşlar: "Allahın əmr və hədləri ilahi əmanətlərdir."[4]

İmam Sadiq (ə) bu ayənin təfsirində buyurmuşdur: "Allah əmr etmişdir ki, hər bir İmam özündə olanı növbəti İmama tapşırsın."[5]

Bu ayənin sonunda Allah-təala əmanətə xəyanət edən insanlara çatdırır ki, əmanətə xəyanət və ya ədalətsiz mühakiməni xalq bilməsə də, Allah eşidən və görəndir.

**يَا بَنِي إِسْرَائِيلَ اذْكُرُواْ نِعْمَتِيَ الَّتِي أَنْعَمْتُ عَلَيْكُمْ وَأَوْفُواْ بِعَهْدِي أُوفِ بِعَهْدِكُمْ وَإِيَّايَ فَارْهَبُونِ**

---

[1] "Nisa" surəsi, ayə 58
[2] Şeyx Kuleyni, "Kafi", cild 2, səh. 105
[3] Əllamə Əmini. " Əl-Qədir", cild 8
[4] "Təfsiri-Nurus-Səqəleyn"
[5] Şeyx Kuleyni. "Kafi" cild 1, səh. 277

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Ey İsrail övladları! Sizə ruzi etdiyim nemətləri yadınıza salın və Mənim əhdimə vəfa edin ki, Mən də sizin əhdinizə vəfa edim. Yalnız məndən qorxun."[1]

Səmavi kitabların (Tövrat, Zəbur, İncil və Quran) hökmlərinə şamil olan ilahi əhdlər və Allahın hamıdan aldığı bütün əhdlər gerçəkləşəsidir. "Bəqərə", surəsinin 124-cü ayəsinə əsasən, İmamət məsələsi əhd alınmışdır: "Mənim əhdim (imamət məqamı) zalım fərdlərə çatmaz." Bu ayəyə əsasən, əhd səmavi imam və rəhbərə vəfa, ona itaətdir.

İmam Baqir(ə) buyurub: "Allah bütün insanlardan əhd alıb Həzrət Əlinin (ə) vilayətinə".

İmam Baqir (ə) Peyğəmbərdən (s) nəql edir ki, Allah-təalanın bu ayədə "Mənim əhdimə vəfa edin ki, mən də sizin əhdinizə vəfa edim" kəlməsindən məqsəd – "Ufi biəhdi vilayəti Əli ibn Əbutalib, ufi ləkum bil cənnət", yəni "Mənim əhdim budur ki, Əli ibn Əbu Talibin vilayətini qəbul edəsiniz, mən də onun müqabilində sizə cənnəti vəd edirəm."dir. "Əliyun hubbul cənnət" – "Əlinin (ə) məhəbbəti cənnətdir." Yəni, cənnətin qapısı Əlidir.

***Etməsən sidq ilə ünvan Şəhi-Mərdan qapısın,***
***Qeyri-mümkün, açasan rövzeyi-rüzvan qapısın.***

***Əlidən istə nicatı, odur aqillərə yar,***
***Nə rəvadır gedib aqil döyə nadan qapısın.***

***Düşdüyün eşq Əli eşqi deyilsə, nə vüsal,***
***Boşuna min yol açıb bağlama hicran qapısın.***

***Can quşun şəhri-Nəcəf səmtinə göndər, Arif***
***Qoy, ziyarət eləsin bir dəfə canan qapısın.***

İbn Abbas deyir: "Bu ayə nazil olanda Peyğəmbər (s) sözə başlayaraq buyurdu: "Bir gün Həzrət Adəm(ə)özündən sonrakı canişini olacaq Həzrət Şiysi (ə) camaata tanıtdıraraq özünün canişinini təyin etdi, amma Adəmin (ə) vəfatından sonra camaat onun canişinini qəbul etmədi.

Bir gün Həzrət Nuh (ə) özündən sonrakı vəsisi və canişini olacaq Həzrət Samı(ə) vəsi təyin etdi, amma təəssüflər olsun ki, camaat Nuhdan (ə) sonra o vəsiyyətə əməl etmədi.

Bir gün Həzrət İbrahim (ə) İsmayılı (ə) öz yerinə vəsi təyin etdi. Amma təəssüflər olsun ki, camaat İbrahimdən (ə) sonra o vəsiyyətə əməl etmədi.

---

[1] "Bəqərə" surəsi, ayə 40

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bir gün Həzrət Musa (ə) Yuşə ibn Nunu öz yerinə vəsi təyin etdi. Amma təəssüflər olsun ki, camaat Musadan (ə) sonra o vəsiyyətə əməl etmədi.

Bir gün İsa (ə) özündən sonra Şəmunu öz yerinə vəsi təyin etdi. Amma təəssüflər olsun ki, camaat İsadan (ə) sonra o vəsiyyətə əməl etmədi.

Mən də gedirəm və vəsiyyət edirəm: "Məndən sonra Həzrət Əli (ə) mənim yerimdə oturandır, mənim vəsim və canişinimdir. Axır saatlarımda öz əhdimi təzələyirəm. Əlini (ə) sizə vəsiyyət edirəm. Hər kəs verdiyi sözə əməl etməsə, özün sındıracaq. Mən və Əli (ə) sirat körpüsünün qabağında dayanacağıq. Bütün insanlar ordan keçəndə Əlinin (ə) məhəbbətindən və Əlinin (ə) vilayətindən soruşulacaq. Əgər cavab verə bilsə, keçəcək. Həzrət Əlinin (ə) məhəbbəti və vilayəti cənnətin dəvətnaməsidir."

Quran ayələrindən və Peyğəmbərin (s) hədislərindən belə aydın olur ki, Əlini (ə) Kəbədən, məsciddən, Allahdan və Peyğəmbərdən ayırmaq mümkün deyil. Onlar bir-birinin ayrılmaz hissələridir.

S.İ.Nəsimi deyir:

***Kim Muhəmmədi Əlidən ayırır lənət ona,***
***Ləhməki-ləhmi deyilmi, ya Əli, səndən mədəd.***

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ

"Onları bizim göstərişimizlə (xalqı) hidayət edən rəhbərlər qərar verdik. Onlara yaxşı işlər görməyi, namazın bərpasını və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizim abidlərimiz idilər."[1]

Bu ayədən açıq-aşkar görünür ki, İmamət də Nübuvvət kimi Allahın seçimi ilə müəyyənləşdirilir. Böyük peyğəmbərlər risalət məqamından əlavə, cəmiyyətə İmamət və rəhbərlik məqamını da öhdəyə götürmüşlər. Həzrət İbrahimin (ə) dövründə Lut (ə) da peyğəmbər idi. İmamət və rəhbərlik məsələsində isə İbrahim (ə) imam olduğundan Lut (ə) imamət məqamına çatmamışdır.

فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ

"Əgər bilmirsinizsə, zikr əhlindən soruşun."[2]

[1] "Ənbiya" surəsi, ayə 73
2 Ənbiya surəsi, ayə 7

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Rəvayətlərdə tövsiyə olunur ki, çıxış yolu tapmadıqda Peyğəmbər (s) Əhli-beytinə (ə) müraciət edin. Əhli-beyt (ə) zikr əhlinin kamil nümunələridir. Bu səbəbdən də xalqa yol göstərmək zikr əhlinə vacibdir.

Peyğəmbərdən (s) sonra Əhli-beytin (ə) başçısı, bütün asimani kitabların ən kamili və sonuncusu sayılan Qurani-Kərimin təcəssümü sayılan Həzrət Əli (ə) olmuşdur.

***İlham olundu yenə, qələm aldım əlimə,***
***Gözəl zikrin, Əli can, süzüldü bu dilimə.***
***Səni Qurana sordum: Dedi: "Rəsulun nəfsi".***
***Bu cümlədə toplanmış fəzilətlərin həpsi.***
***Yenə sordum, oxudu mənə "Təthir" ayəsin,***
***"Təfsiridir Murtəza məndəki hər ayənin".***
***Dedim: "Başqa nə vardır?" Dedi: "Yetməzmi artıq?***
***Mən Qurani-Samitəm, odur Qurani-Natiq"***

Peyğəmbər (s) buyurub: "Əli danışan Qurandır və onun vücudu Quranın timsalıdır."

Həzrət Əli (ə) haqqında bu tərif mötəbər İslam mənbələrində öz əksini tapıb və müqəddəs bir şüar kimi qərinələrin, əsrlərin, insaniyyət tarixinin səhifələrində iz qoymuşdur. Həzrət Əli (ə) kainatda ən çox kəramət sahibi kimi tanınan, "Onu tanıyan Allahı tanıyar, Allahı tanıyan onu tanıyar" kəlamına layiq görülən yeganə şəxsiyyətdir.

***Əli, ey hümayi-rəhmət, nə dəlilsən Xudayə,***
***Ki, Xudadan özgə, sayən nə ki var, edər himayə.***

***Əgər aşinayi-həqsən, Əli ilə aşina ol,***
***Əli ilə olmuşam mən, könül, aşina Xudayə.***

يُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"[1]

Bu ayədə Allah-Təala insanlara 3 kimsəyə itaət etməyi əmr etmişdir.

Bu ayədə Allah-Təala əvvəlcə Onun özünə, ikinci Peyğəmbərə və üçüncü əmr sahiblərinə itaət etməyi buyurub. Ayədə Allah-Təala və Peyğəmbər (s) məlumdur. Lakin əmr sahiblərinin kimlər olduğunu izah etmək lazımdır. Böyük təfsir alimləri öz kitablarında "əmr sahibi" ifadəsi barəsində bu cür yazmışlar: "Əmr sahibləri Həzrət Əli (ə) və onun on bir övladı-

---

[1] "Nisa" surəsi, ayə59

dır. Deməli, bu ayədə Allah-Təala on iki imama itaət etməyi vacib bilir." İstedadlı qələm sahibi, şair Mövlanə Məhəmməd Füzuli bir beytdə yazır:

***Tövbə qıldıq, ömrümüzdə bir kəsi mədh etməyək,***
***Bir Əli, bir də onun övladı-pakindən səva.***

Başqa bir yerdə şair yazır:

***Əli və on bir imam oğlunun məhəbbətidir,***
***Nizama salmış ay ilə ili və həftələri.***

Tanınmış sünni alimlərindən biri Əbu Bəkr İbn Mətin İbn Abbasdan nəql edir ki, bu ayə Əlinin (ə) barəsində nazil olmuşdur. Bir sıra mötəbər və tutarlı rəvayətlərdə bu ayənin Həzrət Əliyə (ə) aid olduğunu çatdırır. Böyük təfsir alimlərindən olan və Əhli-sünnət məzhəbinə mənsub olan Hakim Həskani Hənəfi Nişaburi bu ayənin təfsirində hədis nəql edib ki, onların hamısında "ülul-əmrin" Əliyə (ə) aid olduğu göstərilir. Həmçinin, "Şəvahidud - tənzil" əsərində də bu ayənin Əlinin (ə) vilayəti barəsində olduğunu göstərən çoxlu sayda hədislər nəql olunmuşdur.

Hakim Nişaburinin rəvayət etdiyi hədislər:

1. Həzrət Əlinin (ə) özündən nəql olunur. Əli (ə) buyurur: "Soruşdum ki, ya Rəsulullah, "ülul-əmr" kimlərdir? Həzrət Peyğəmbər (s) buyurdu: "Birincisi sənsən."

2. Məşhur təfsirçi Mücahiddən nəql edir: Bu ayə o vaxt nazil olub ki, Həzrət Peyğəmbər (s) Əlini (ə) öz yerinə canişin təyin edib, özü Təbuk müharibəsinə getdi.

3. Səd ibn Vəqqas nəql edir:

"Peyğəmbər (s) Təbuk döyüşünə gedirdi. Əli (ə) əlində silah onun ardınca gəlib dedi: "Ya Rəsulullah, mən heç bir döyüşdə səndən ayrı düşməmişəm. İndi mən Mədinədə qalıram, münafiqlər də şayiə yayacaqlar ki, yanınızda olmağımdan xoşunuz gəlmir."Səd deyir: "Öz qulağımla eşitdim ki, Rəsulullah (s) buyurdu: "Ey Əli, istəmirsənmi ki, Harun Musa üçün necə idisə, sən də mənim üçün elə olasan?" Yəni, Harun Musanın (s) canişini idi, sən də mənim canişinim olasan? Ya Əli (ə), qayıt, Mədinəni münafiqlərdən qoru. Elə bu vaxt həmin ayə nazil oldu və "ülul-əmrə" itaət vacib edildi."

Əhli-beyt şairi M.Füzuli bu ayə və hədisi belə qələmə almışdır:

***Dedi Əhməd: Əli mənlə olub Harunla Musa tək,***
***Şəriklik rəmzi var bunda kəmali-cahi-izzətdir.***

***"Nübuvvətdə Əlinin dəxli yoxdur." – Ey deyən insan,***
***Nübuvvət əmrinə şirkət deyil bu, hifzi-ümmətdir.***

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Deyillər, dari-dünyadan gedən vəxtində Peyğəmbər,*
*Əlini söyləmişdir, hifz qılmaq eyni-şükrətdir.*

*Bir ali-firqədir məhşər olunca nəsli-peyğəmbər,*
*Bəqayi-dinə baisdir, həm onlar kani-himmətdir.*

*Kimi görsəm, peyğəmbər nəslidir, ali-Əlidəndir,*
*İki ali məqamın nəsli-paki çün ki, şirkətdir.*

Həmin ayədə ən mühüm nöqtə budur ki, Allah-Təala əmr sahiblərinə itaət edilməsini özünə və Rəsuluna itaət edilməsi ilə yanaşı əmr edir.

Əbu Bəsir İmam Sadiqdən (ə) soruşur:

"Yəbnə Rəsulullah (s), camaat bizə deyir ki, nə üçün Allah-təala Qurani-Kərimdə Əli (ə) və onun Əhli-beytinin (ə) adlarını çəkməmişdir?"

İmam Sadiq (ə) buyurdu: "Onlara belə cavab verin ki, Rəsuli-Əkrəmə (s) namaz hökmü nazil oldu, amma Allah-təala onun üç və ya dörd rükət olmasının bəyan etmədi. Həzrət Peyğəmbər (s) də özü camaat üçün rükətlərin sayını bəyan etdi. Həmçinin, zəkatın hökmü ümumi şəkildə nazil oldu, amma onun incəlikləri və hansı halda vacib olması bəyan olunmadı və Peyğəmbər (s) özü şəxsən onları aydınlaşdırdı. Habelə, Allah-təala həccin vacib olmasını əmr etdi, amma neçə dəfə təvaf etməyin vacib olmasını bəyan etmədi və Peyğəmbər (s) bunu da özü camaata bəyan etdi. Həmçinin Allah-təala "Allaha, onun Rəsuluna və əmr sahiblərinə itaət edin" ayəsinin nazil etdi, amma əmr sahiblərinin kimlər olduğunu bəyan etmədi və bunun aydınlaşdırılmasını Peyğəmbərin (s) öhdəsinə qoydu. Həzrət Peyğəmbər (s) müxtəlif hadisələrlə əlaqədar olaraq əmr sahiblərinin (yəni, özündən sonra ümmətin imamları və özündən sonra haqq canişinlərinin kimlər olduğunu) dəfələrlə bəyan etmiş və İslam ümmətinə çatdırmışdır."[1]

Peyğəmbər (s) buyurub:

"Məndən sonra xəlifələr on iki nəfərdir, hamısı da Qureyşdəndir."

Həzrət Peyğəmbər (s) hər bir münasibətdə əmisioğlu Həzrət Əlinin (ə) fəzilətlərini xalqa çatdırıb və buyurardı: "Əli (ə) mənim qardaşım və məndən sonra varisim və xəlifəmdir, onu eşidin və ona tabe olun."[2]

Cabir ibni Əbdullah Ənsari (r.ə) nəql edirdi ki, bu ayə Həzrət Peyğəmbərə (s) nazil olanda soruşdum: "Ey Allahın elçisi! Biz Allahı və onun peyğəmbərini tanıdıq, amma sizinlə yanaşı itaəti (vacib) olanların kim olduğunu bilmirik." Həzrət Peyğəmbər (s) cavabında buyurdu:

"Ey Cabir! Onlar (əmr sahibləri) mənim canişinlərim və məndən sonra müsəlmanların imamlarıdır. Onların birincisi Əliyyibni Əbu Talib,

---

[1] "Usuli-Kəfi", "Kitabul-haccət", Səh. 40, hədis-1
[2] "Tarixi-Təbəri" c. 2, səh. 319; "Tarixi ibni-Əsir", cild 2, səh. 65

sonra Həsən, sonra Hüseyn, sonra Əli ibn Hüseyn, sonra Tövratda Baqir adı ilə tanınmış Muhəmməd ibni Əlidir ki, sən onu görəcəksən. Ey Cabir, onu görəndə mənim salamımı ona çatdırarsan. Sonra Sadiq Cəfər ibni Muhəmməd, sonra Musəbni Cəfər, sonra Əliyyibni Musa, sonra Muhəmməd ibni Əli, sonra Əliyyibni Muhəmməd, sonra Həsən ibni Əli və daha sonra mənim adımda olan Allahın höccəti Mehdi Sahibəz-zamandır(ə. f)."[1]

Sultan Mahmud Qəznəvinin zamanında İsfahan mahalında bir arif yaşayırmış. Bu arifin mərifəti, imanı, əqidəsi barədə şaha o qədər danışmışdılar ki, şah özü də bu arifi görməyə can atırdı. Bir gün şah öz adamlarına dedi: "Mən İsfahana getmək istəyirəm ki, görüm, onun haqqında deyilənlər düzdür, ya yox?" Şah adamları ilə birlikdə İsfahana gəlir. İsfahana çatanda şah bir qasid göndərərək həmin arifin onun pişvazına çıxmasını istəyir. Şah qasidə deyir: "Get, həmən arifə de ki, şahın mübarək qədəmləri İsfahan torpağına düşüb, yaxşı olar ki, gedib onu siz qarşılayasız. Əgər gəlməsə, ona Quranda olan bu ayəni oxu və məni "əmr sahibi" kimi ona təqdim et. De ki, Allah buyurub: "İtaət edin Allaha, Onun rəsuluna və əmr sahiblərinə." Qasid həmin arifin xidmətinə gəlir və şahın əmrini ona çatdırır. Amma arif qasidə məsləhət görür ki, şəhərin nüfuzlu adamları şahı qarşılasın. Vəziyyəti belə görən qasid Qurandan bu ayəni oxuyaraq arifə xatırladır ki, şah da bu ayədə gələn "əmr sahiblərin"dən biridir və sənin də vəzifən əmr sahibinə itaət etməkdir. Arif bu qasidin sözlərin dinlədikdən sonra qasidə arifanə bir cavab verib deyir: Mən oxuduğunuz ayədə "Ətiullah"da (əvvəl Allaha itaət edin) elə qərq olmuşam ki, "Ətiurəsul"da (Rəsula itaət edin) şərməndəyəm.Əgər Allah və Rəsulunun və əmr sahibləri olan 12 İmamın itaətin yerinə yetirə bilsəm, şahın da xidmətinə yetişərəm."

Qasid heç bir söz deyə bilmir və kor-peşiman şahın xidmətinə qayıdır.

[1] "Əl-mizan Təfsiri", cild 4, səh. 435.

## "VİLAYƏT" AYƏSİ

Qurani-Kərim vilayət ayəsində Həzrət Əlini(ə) Allah dostlarından biri kimi təqdim edir və bu ayədə onun möminlər üzərində rəhbər olmasını buyurur.

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

"Sizin rəhbəriniz yalnız Allah, onun Rəsulu və iman gətirib namaz qılaraq rüku halında zəkat verən şəxslərdir."[1]

Ayənin şəni-nüzulu belədir:

İmam Əbu-İshaq Sələbi "Əl-Kəbir" adlı təfsirində Əbuzər Qəffaridən belə nəql edir: "Mən bu iki qulağımla eşitdim – yalan desəm, hər ikisi də kar olsun – və bu iki gözümlə gördüm – yalan desəm, hər ikisi də kor olsun ki, Həzrət Peyğəmbər (s) belə buyurdu: "Əli möminlərin rəhbəri, kafirləri öldürəndir. Ona kömək edən (Allahdan) kömək görər, onu yalqız buraxan (Allah tərəfindən) yalqız buraxılar." Bilin ki, mən Həzrət Peyğəmbərlə (s) birlikdə namaz qıldığım bir gün bir sail məsciddə xalqdan yardım dilədi. Amma heç kim ona bir şey vermədi. Həzrət Əli (ə) isə ruku halında idi, üzük olan orta barmağını sailə tərəf uzatdı. Həmin sail gəlib Əlinin (ə) barmağındakı üzüyü çıxartdı. Bu vaxt Həzrət Peyğəmbər (s) Allaha yalvararaq belə dua etdi: "Ey Allahım! Qardaşım Musa sənə dua edərək dedi: "Ey Rəbbim, mənim köksümü aç, işimi asanlaşdır, dilimdəki, düyünü aç ki, sözümü başa düşsünlər və mənim öz əhlimdən olan qardaşım Harunu mənə köməkçi et, onunla qüvvətləndir və onu mənim işimə şərik et ki, sənə çoxlu təsbih və zikr edək. Heç şübhəsiz, sən bizim (halımızı) ən yaxşı görənsən." Sən isə ona: "Ey Musa, dua qəbul edildi və istəyin verildi" – deyə vəhy etdin. Ey Allahım, mən də sənin bəndən və Peyğəmbərinəm; Sən mənim də köksümü aç, işimi asanlaşdır və mənim öz əhlimdən olan Əlini (ə) mənə vəzir (xəlifə, köməkçi) təyin et, onunla məni qüvvətləndir."

Əbuzər (ə) sözünə belə davam edir: "Allaha and olsun ki, hələ Peyğəmbər (s) sözünü qurtarmamışdı ki, Cəbrail(ə) nazil olub bu ayəni gətirdi: "Sizin dostunuz, rəhbəriniz ancaq Allah, onun elçisi və namaz qılarkən ruku halında zəkat verən möminlərdir."

Hər kim Allah, onun elçisi və möminlərlə dostluq etsə, bilsin ki, Allahın firqəsi qələbə çalacaqdır."

---

[1] "Maidə" surəsi, ayə 55

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sünnülərin “Sihah” və “Müsnəd” kitablarında nəql etdikləri rəvayətlərdə aydın şəkildə qeyd olunur ki, bu ayə Əlinin (ə) öz üzüyünü ruku halında sailə (fəqirə) verdiyi zaman nazil olmuşdur. Peyğəmbərin (s) zamanında yaşayan və gözəl təbə malik olan şair Həssan İbni-Sabit bu hadisəni belə nəzmə çəkir.

و انت الذى اعطيت اذ انت راكعٌ
فدتک نفوس القوم يا خير راكعٍ
فانذل فيک الله خير ولايةٍ
وبينهما فى محكمات الشّرائعِ

“Sən o kəssən ki, ruku halında bəxşiş etdin, canlar sənə fəda olsun, ey ruku edənlərin ən yaxşısı! Allah ən yaxşı vilayəti sənin barəndə nazil etdi və onu şəriətin xələl yetməyən hökmlərində bəyan etdi.”

Bu ayənin şəni-nüzulu ilə əlaqədar olan sənədlər həddindən artıq çoxdur.[1]

Mövlana Məhəmməd Füzuli bu ayəni belə vəsf edib:

***Üzük bəxş eyləmişsə sailə ol şəh namaz üstə,***
***Əlində əhli-həqqin hər nə varsa, nəzri-saildir.***

Müasir şairlərdən biri olan Namiq Kamal Dərbəndi də bu ayəni belə qələmə almışdır:

***Sailə etdin əta şövqilə əngüştərini,***
***Heyranam taətinə, etdiyin ehsanə, Əli.***

Məddah Hacı Yaşar Cahid də “Olmaz idi” rədifli qəzəlində Həzrət Əlinin (ə) bu şücaətini cox incə şəkildə qələmə almışdır:

***Verdin əngüştərini sailə əsnayi-namaz,***
***Kimsə əshabidə bir böylə səxa olmaz idi.***

“Dədə Qorqud” dastanında Qurani-kərimin xüsusi fəzilətlərə malik “Ən-nəbə” və “Ya-sin” surələri zikr olunur. Dastanda Əhli-beyt (ə), xüsusən, Həzrət Əlinin (ə) vilayəti barədə buyurulur: “Qılınc çaldı, din açdı mərdlər şahı Əli − əhsən”.

Həzrət Əli (ə) Peyğəmbərdən(s) sonra həm kəlamı, həm də qılıncı ilə dinimizı qüvvətləndirən və şöhrətləndirən, şücaəti, səbri, təqvası ilə

[1]“Təfsiri-Təbəri”, 6-c., səh.186; “Təfsiri-Beyzavi”, cild 1, səh.345; “ddürrul-Mənsur”, cild 2, səh.293 və s.

islamı yaşadan ikinci böyük şəxsiyyət idi. Dastanda "Ən-nəba" və "Ya-sin" surələri barədə deyilir:

***Quranın son fəslində "Əmmə" surəsi gözəldir!***
***Höccətlənib düz oxunsa "Ya-sin" gözəldir!***

Təfsir alimlərinin fikrincə, "Əmmə" surəsində Məad – Qiyamət günü olsa da, Peyğəmbər (s) surənin əvvəlinci iki ayəsinin təfsirində - "Onlar (müşriklər) bir birindən nə haqda soruşurlar?", "Böyük bir xəbərdən (Qiyamət günü haqqında)" – belə buyurmuşdur: "Böyük xəbər" Əlinin vilayət məsələsidir ki, bu barədə bütün insanlardan qəbr evində də soruşulacaqdır.

## VİLAYƏT HAQDA BUYURULAN HƏDİSLƏR

1. Həzrət Peyğəmbər (s) buyurmuşdur: Allah-Təala buyurur: "Əlinin (ə) vilayəti mənim möhkəm və alınmaz qalamdır; hər kəs Mənim qalama daxil olsa, cəhənnəm odundan amanda qalar."

2. Peyğəmbəri-Əkrəm(s) buyurmuşdur: "Əlinin vilayəti Allahın vilayətidir; Ona məhəbbət bəsləmək Allaha ibadət etmək və ona tabe olmaq isə vacib əməlləri yerinə yetirməkdir."

3. "Hər kəsdə Əlinin vilayətinin Bəratı olmasa, Siratdan keçə bilməz."

4. "Əlinin vilayəti Mənim vilayətim, Mənim vilayətim isə Rəbbimin vilayətidir."

5. "Əlinin vilayəti Allahın vilayətidir, onu sevmək ibadətdir."

6. "Əgər bütün insanlar Əliyə (ə) məhəbbət bəsləsəydilər, Allah-Təala cəhənnəm odunu yaratmazdı."

7. "Övladlarınıza Əli ibni-Əbu Talibə(ə) məhəbbət bəsləməyi əmr edin."

8. "Ya Əli! Bir gün Cəbrail (ə) mənim yanıma gəlib dedi: "Ey Məhəmməd! Allah sənin səhabələrinə nəzər saldı, Əlinin (ə) sənin ən yaxşı dostun olduğunu görüb, onu sənin canişinin və sənin tərəfindən xəbərləri çatdıran bir şəxs qərar verdi."

9. "Mən və Əli bu ümmətin atasıyıq. Bizim bu ümmət üzərində olan haqqımız onların həqiqi atalarına qarşı olan hüquqlarından artıqdır.Çünki onlar bizə itaət etsələr, biz onları cəhənnəm odundan (xilas edib) Behiştə və səadətə doğru hidayət edərik."[1]

10. "Ya Əli! Sən mənim canişinim və ümmətimin rəhbərisən. Sənə tabe olan şəxs xoşbəxtdir."

---

[1] "Səfinətul-Bihar"; cild 2, səh. 688

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

11. İmam Museyi Kazım (ə) buyurmuşdur: “Əlinin (ə) vilayəti bütün peyğəmbərlərin kitablarında qeyd olunmuşdur. Hər bir peyğəmbər yalnız Mühəmmədin (s) nübüvvətinə və Əlinin (ə) imamətinə dair əhd-peyman aldıqdan sonra peyğəmbərliyə seçilmişdir.”

*Dövrü-Adəmdən bəri yar oldun hər peyğəmbərə,*
*Olmusan Sahib-vilayət zahir, həm ixfa, Əli.*[1]

12. Peyğəmbər (s) buyurub: “Sizlərdən hər kəs, Allahı və Əli ibn Əbu Talibin (ə) vilayətini qəbul edib razı olsa, Allahın əzabından amanda qalacaq.”[2]

13. İmam Zeynal-Abidin (ə) buyurub: “Əgər bir nəfər Nuh (ə) qədər ömür sürsə və gündüzləri oruc tutub, gecələri ibadət etsə, lakin biz imamların vilayətini qəbul etmədən dünyadan getsə, gördüyü əməllərin ona heç bir faydası olmaz.”[3]

14. İmam Sadiq (ə) buyurub: “Əgər yer üzünün bütün insanları Əlinin (ə) vilayətini inkar etsələr, Allah-Təala onları cəzalandırar və cəhənnəmə aparar.”[4]




[1] Şair Vüqar Nakam
[2] “Biharul-Ənvar”, cild 41, səh. 351
[3] Mühəddis Hüveyzi, “Təfsiri-nurus-səqəleyn”
[4] “İqabul-əmal”, səh. 450

***HACI SOLTAN HÜSEYNQULU OĞLU***

## *YA VƏLİYYULLAH*

Məqamın aləmə darüş-şəfadır, ya vəliyyullah,
Bizə ismin sənin kənzül-vəfadir, ya vəliyyullah.

Səni peyğəmbəri-aləm cahanə canişin etdi,
Ayağın dəydiyi yer basəfadır, ya vəliyyullah.

Nə sözlər söyləyim vəsfində kim, Allah edib tərif,
Misalı bu yetər ki, "Həl-əta"dır, ya vəliyyullah..

Əmirəlmöminsən, dünyəvü aləm sənə çakər,
Sənin rahində can vermək rəvadır, ya vəliyyullah.

Həsən ilə Hüseynin oldu meyar zöhdü təqvadə,
Ki zatı onların Şiri-Xudadır, ya vəliyyəllah.

Əliyyəl Mürtəzasan, xidmətində cümlə insü cin,
Gözün eyni-Nəbi, Xeyrənnisadır, ya vəliyyullah.

Əsir olmuş Vətənçün qeyrətin ali nəsihətdir,
Sözün məzlumlara sahib-livadır, ya vəliyyullah.

Hacı Soltan səni səndən dilər, ey şiələr şahi,
Bu bimarə nəzər qıl, mübtəladır, ya vəliyyullah.

## *VƏSİYY*

Tanrının Əhmədə bəxş etdiyi ismətdi vəsiyy,
Əhmədin həqq sözüdür, həqdən əlamətdi vəsiyy.

Onu Peyğəmbər özü seçmədi, Allah seçdi,
Xaliqin aləmə göndərdiyi rəhmətdi vəsiyy.

Bəşərə etdi nümunə onu Qəhharü Qədim,
Çün şücaətdi, ləyaqətdi, ədalətdi vəsiyy.

Baxma zahirdə o da sadə bir insandı, vəli
Batinin seyr elə, Qurandan ibarətdi vəsiyy.

Bu adı verdi Qədir-Xumdə ona peyğəmbər,
Yəni məndən sora İslama rəyasətdi vəsiyy.

Oldu möminlər Əmiri hər iki aləmdə,
Nitqi-Allah ilə insanlığa dəvətdi vəsiyy.

İşi bifasilə xidmətdi Rəsulallahə
Əhli-beyt, həm də Quran-cəmdə əmanətdi vəsiyy.

Əli Allahın əli, həm gözü Allah gözüdür,
Həqqi mizan eliyən şahi- vilayətdi vəsiyy.

Əlisiz dəhrdə nə eşq, nə gözəllik vardır,
Soltanın hər sözünə, şeirinə ziynətdi vəsiyy.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “TƏTHİR” AYƏSİ

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

“Siz, ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz pak etmək istər!”[1]

Təfsir və hədis kitablarına görə, “Əhli-beyt” sözündən məqsəd Peyğəmbərin (s) xanədanıdır və onlar “Əli, Fatimə, Həsən və Hüseyn” əleyhumussəlamdan ibarətdirlər.

Peyğəmbər (s) bu ayənin barəsində buyurmuşdur: “Təthir” ayəsi beş nəfərin haqqında nazil olmuşdur: Mən, Əli, Fatimə, Həsən və Hüseyn (əleyhimussəlatu vəs-səlam).”

Aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Dədə Ələsgər Peyğəmbərin (s) buyurduğu bu hədisi “Divani”sində belə çatdırır:

***Ələstidən bəli dedim, nə xoş iqbaldı yüküm,***
***Beş gözəlin aşiqiyəm, vəsfi kamaldı yüküm.***
***Mətahım mətah olunca bazarım bazar olsun,***
***Nə alınmır, nə satılmır, xeyli zavaldı yüküm.***

Peyğəmbərin (s) Əhli-beytinin kimlərdən ibarət olması barədə ixtilafları nəzərə alıb, mötəbər sünnü kitablarından “Təthir” ayəsinin kimlərə şamil olduğunu izah edəcəyik.

“Təthir” ayəsinin əvvəlində Allah-Təala Peyğəmbərin zövcələrinə (həyat yoldaşlarına) nəsihət verir, onları yaxşı işlərə dəvət edir, hamısında qadınlara məxsus olan كُنَّ“kunnə” əvəzliyi gətirilir. Amma ayənin sonunda, söz Əhli-beytə çatanda, əvəzlik dəyişilir, kişilərə xitab olunaraq كم (kum) kəlməsindən istifadə edilir. Lakin ayədə açıq-aydın göstərilən əvəzliyi nəzərə almayan əhli-sünnət qardaşlarımız bu ayəni Peyğəmbərin (s) xanımlarına aid edirlər.

Gəlin, sünnü rəvayətlərinə nəzər yetirək. Əhli-sünnə məzhəbinə malik olan Həkim ibni-Səid deyir: “Ümmü Sələmənin yanında Əli (rəziyəllahu ənhu) haqqında söhbət gedirdi. Ümmü Sələmə bu münasibətlə “Təthir” ayəsini oxudu, sonra dedi: “Bu ayə mənim evimdə nazil oldu. Bir gün Peyğəmbərə (s) xidmət etmək iftixarı mənə qismət olmuşdu. Həzrət bu gün istəyirdi ki, evdə tək olsun və başqası bizim evimizə gəlməsin. Buna görə də mənə tapşırdı ki, bu gün heç kəsə evə gəlməyə icazə verməyim. Amma Fatimə (rəziyəllahu ənha) gəldi. Mən onu geri qaytarmağa utandım. O, evə varid oldu. Bir azdan sonra Həsən, sonra Hüseyn,

[1] “Əhzab” surəsi, ayə 33

daha sonra isə Əli (rəziyəllahu ənh) bu minvalla bizim evimizə gəldilər və Peyğəmbərin ətrafında oturdular. Elə bu vaxt ayə (Təthir ayəsi) nazil oldu. Peyğəmbər (s) bu 4 nəfəri bir yerə yığıb öz əbasını onların başına çəkdi, belə dua etdi: "Pərvərdigara! Mənim Əhli-beytim bu dörd nəfərdən başqa heç kəs deyildir. İlahi, onları çirkinliklərdən uzaq et!"

Peyğəmbər (s) onlara dua edəndən sonra, mən dedim: "Ey Allahın Rəsulu, bəs, mən?!"

Peyğəmbər (s) buyurdu: "Bu dua və ayə sənə şamil deyil. Lakin bil ki, sənin gələcəyin parlaqdır."

Ümmü Sələmə bu söhbətin axırında dedi: "Onların yığıncağı çox bərəkətli idi."

Əbu Səid Xudri nəql edir ki, Ümmü Sələmə dedi: "Təthir" ayəsi mənim evimdə nazil oldu. Bu ayə nazil olan günü Əli, Fatimə, Həsən və Hüseyn (rəziyəllahu ənhum) Peyğəmbərin (s) dövrəsində toplaşmışdılar. Mən də qapının astanasında oturmuşdum: "Ayə nazil olandan sonra Peyğəmbərdən soruşdum: "Ey Allahın Rəsulu! Məgər mən Əhli-beytdən hesab olunmuram?" Peyğəmbər (s) buyurdu: "Sənin aqibətin xeyirlədir. Sən Peyğəmbərin zövcələrindənsən, ləyaqətli qadınsan. Amma Əhli-beytdən hesab olunmursan."

Digər bir rəvayətdə Əbu Səid deyir, Peyğəmbər (s) buyurdu: "Təthir" ayəsi beş nəfərin – Mən, Əli, Fatimə və iki övladı Həsənlə Hüseynin haqqında nazil olmuşdur."

Şeybənin qızı Səfiyyə nəql edirdi ki, Aişə dedi: "Bir gün sübh tezdən, Peyğəmbər (s) naxışlı yun paltarını geyib, evdən çıxdı. Həsən, Hüseyn, Fatimə və Əli də ona qoşuldular. Peyğəmbər (s) onları bir-bir əbasının altına salandan sonra "Təthir" ayəsini oxudu."

İbni-Həvəşin əmisi oğlu deyir: "Mən və atam birlikdə Aişədən (rəziyəllahu ənha) Əli (ə) haqqında sual etdik. Aişə (rəziyəllahu ənha) dedi: "Sən elə bir şəxs haqqında soruşursan ki, Peyğəmbərə (s) hamıdan sevimli idi. Peyğəmbərin qızı da onun ixtiyarında idi. Hansı ki, Peyğəmbərin (s) ən çox istədiyi şəxs idi. Bir gün gördüm ki, Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseyni (Allah onlardan razı olsun) öz yanına çağırdı, öz əbasını onların başının üstünə çəkib buyurdu: "Pərvərdigara! Bunları çirkinliklərdən, günahlardan qoru!"

Aişə deyir: "Mən onlara tərəfə yaxınlaşdım və Allahın Rəsuluna dedim: "Mən də sənin Əhli-beytindənəm?"

Peyğəmbər (s) buyurdu: "Xeyr! Buradan uzaqlaş! Sən mənim Əhli-beytimdən deyilsən. Amma yaxşı adamsan!"

İslamın əziz Peyğəmbəri Həzrəti Muhəmməd (s) dəfələrlə bu hədisi (hədisi – Səqələyin) ümmətinə çatdırmış və buyurmuşdur: "Sizin aranızda iki əmanət qoyub gedirəm; Allahın kitabını və itrətimi (nəslimdən

olan məsum imamları) Bunlar qiyamətdə Kövsər hovuzu kənarında mənim hüzuruma varid olana qədər bir-birindən ayrılmazlar."[1]

Bu hədisdə Peyğəmbər (s) Quranla Əhli-beytin(ə) qiyamətədək davam edəcək qırılmaz rabitəsini müsəlmanlara çatdırır. Həzrət Əli (ə) isə Əhli-beytin (ə) ilk şəxsiyyəti, İmamların sərvəridir.

Həzrət Əlinin (ə) şəninə nazil olmuş bir çox ayələrin barəsində İmam Məhəmməd Baqirdən(ə) nəql olunur ki, O, Həzrət buyurub:

**نحن جنب الله و نحن حبل الله و نحن رحمة الله على خلقه و بنا يفتح الله و بنا يختم الله و نحن العلم المرفوع لأهل الدنّيا و نحن السّبقون و نحن الأخرون من تمڤّک بنا لحق و من تخلّف عنّا غرق. نحن قادة المحجّلين و نحن حرم الله و نحن الطريق و الصراط المستقيم إلى الله عزّوجلّ و نحن من نعم الله على خلقه و نحن المنهاج و نحن معدن النّبوّة و نحن مواضع الرسالة و نحن أصول الدين و إلينا يختلف الملائكة و نحن السّراج لمن استضاء بنا و نحن السّبيل لمن اقتدى بنا و نحن الهداة الى الجنّة و نحن عروة الاسلام و نحن الجسور و نحن القناطر من مضى علينا اشبق و من تخلّف عنّا محق و نحن السّنام الأعظم و بنا يصرف الله عنكم العذاب من أبصر بنا و عرفنا و عرف حقّنا و أخذ بأمرنا فهو منّا.**

İmam (ə) bu xütbədə Quran ayələrini və Peyğəmbərdən (s) nəql olunmuş rəvayətləri izah edərək buyurub: "Biz Allahın ən yaxın bəndələriyik."

Əhli-beyt (ə) Allahın ən yaxın və sevimli bəndələri olduğu üçün onları Cənbullah (yəni, Allahın yaxın bəndələri) adlandırır.

İmam Baqirin (ə) bu cümləsi "Zumər" surəsinin 56-cı ayəsinə işarədir:

**أَن تَقُولَ نَفْسٌ يَا حَسْرَتَى علَى مَا فَرَّطتُ فِي جَنبِ اللَّهِ وَإِن كُنتُ لَمِنَ السَّاخِرِينَ**

"Nəfs deyər: Ey vay, Mən Allah haqqında məsuliyyətsiz oldum." Ayənin təfsiri belə olacaq: "Vay olsun mənə ki, Əhli-beytdən(ə) uzaq düşdüm!"

"Həblullah (Allahın qırılmaz ipi) bizik!" Bu cümlə aşağıdakı Quran ayəsinə işarə edir:

**وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ**

"Allahın möhkəm ipindən yapışın və ayrılmayın"[2]

---

[1] Əllamə Tehrani, "İmamşünasi", cild 6, səh.145
[2] "Ali-İmran" surəsi, ayə 103

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Biz Allahın bəndələrinə olan geniş rəhmətindənik, ” – cümləsi Qurani-Kərimin “Əraf” surəsinin 156-cı ayəsinə işarədir:

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ

“Mənim rəhmətim hər şeyi əhatə etmişdir”.

Rəvayətlərdə nəql olunur ki, Allahın geniş rəhməti Əhli-beytədir(ə).

“Allah əvvəldən axıra qədər olan xilqəti bizə görə yaradıb.”

Bu cümlə, ziyarət kitablarında da nəql olunduğu kimi, bu ayəyə işarədir:

وَكَذَلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا لِّتَكُونُواْ شُهَدَاء عَلَى النَّاسِ وَيَكُونَ الرَّسُولُ عَلَيْكُمْ شَهِيدًا

“Həqiqətən, Biz sizi (Əhli-beyti) kamil yaratdıq ki, insanlara şahid olasınız?”[1]

Rəvayətlərdə nəql olunur ki, “şəhadət” (şahid olmaq) feyz mənasındadır.

“Biz yol göstərən və parlaq imamlarıq, insanlar üçün elm mənbəyiyik. Əvvəlkilər və axırkılar bizik. Hər kəs bizə pənah gətirsə, doğru yolu tapar. Hər kəs bizdən uzaq düşsə, qərq olar.”

Bu cümlələr Peyğəmbərmizdən (s) dəfələrlə nəql olunan “Gəmi” hədisinə işarədir; “Mənim əhli-beytimin məsəli Nuhun gəmisinin məsəli kimidir. Hər kəs onlara pənah gətirsə, nicat tapar, hər kəs onlardan uzaqlaşsa, qərq olar.”[2]

“Qiyamət günündə yol göstərən bizik. Biz Allahın hərəmiyik ki, insanlar arasında hörmətimiz qorunur.” Xütbədə qeyd olunan “Biz düz yoluq”, – cümləsi “Fatihə” surəsinin 6-cı ayəsinin təfsiridir.

اهدِنَا الصِّرَاطَ المُستَقِيمَ

“Bizi düz yola hidayət elə.”

“Allahın bəndələrinə olan neməti bizik, ” – cümləsi “Nəhl” surəsinin 112-ci ayəsinə işarədir:

وَضَرَبَ اللّهُ مَثَلاً قَرْيَةً كَانَتْ آمِنَةً مُّطْمَئِنَّةً يَأْتِيهَا رِزْقُهَا رَغَدًا مِّن كُلِّ مَكَانٍ فَكَفَرَتْ بِأَنْعُمِ اللّهِ فَأَذَاقَهَا اللّهُ لِبَاسَ الْجُوعِ وَالْخَوْفِ بِمَا كَانُواْ يَصْنَعُونَ

---

[1] “ Əl-Bəqərə” surəsi, ayə 143

[2] “Müstədrəküs – səhiheyin”, cild 2, səh. 343

“Allah-Təala elə bir şəhəri məsəl çəkir ki, əmniyyət və nemət oraya hər tərəfdən nazil olurdu. Onlar Allahın nemətlərinə küfr etdilər. Sonra Allah aclıq və böhranı onlara göndərdi. “Haqq və həqiqət yolu, Peyğəmbərin (s) xəzinəsi bizik. Risalət bizim evimizdə nazil olub.”

“Allah öz risalətini harda qərar verdiyini daha yaxşı bilir”, - ayəsinə işarədir.

Şeyx Muhəmməd ibn Əhməd ibn Cəzzi əl-Kəlbi “Kitabut-təhsil”, 3/137-də yazır: “Qalən-nəbiyyu nəzələt hazihil-ayə fi xəmsətin fi vuldi Əliyyin və Fatiməti, vəl-Həsəni vəl Huseyni”.

Tərcüməsi: Peyğəmbər (s) buyurdu: “Bu ayə beş nəfər haqqında nazil olmuşdur: Əli övladları, Fatimə, Həsən və Hüseyn (Allahın salamı onlara olsun)”.

Bunlardan əlavə, əhli-sünnə və imamiyyələrin hədis və tarix kitabları buna şahidlik edirlər ki, “Əhli-beyt” yalnız “əshabi-kisa” və ya “əba əhli” dirlər.

İmam Sələbi, İmam Əhməd ibn Hənbəl, ibn Əsir “Camiul-usul”, Müslim və Tirmizi öz əsərlərində ummul-möminin Umm-Sələmədən nəql edirlər ki, o xanım buyurur: “Bir gün Peyğəmbər (s) mənim mənzilimdə idi. Fatimə (ə) əlində bir qab hərirə (un və süd və ya un və yağla bişirilən yemək) daxil oldu. Peyğəmbər “səfvə” də (həzrətin yataq yeri) oturmuşdu. Ayağının altına xeybər əbası salmışdı. Mən öz hücrəmdə namaz qılırdım. Peyğəmbər (s) Fatiməyə(ə) buyurdu: “Get ərini və oğlanlarını gətir”. Çox çəkmədi ki, onlar gəldilər və hərirəni bir yerdə yedilər. O halda Cəbrail mələk nazil olub “əl-Əhzab” surəsinin 33-cü ayəsini gətirdi. Bu zaman Allahın Rəsulu (s) əbanı onların üstünə salıb buyurdu: “İlahi, bunlar mənim əhli beytimdir, bunlardan bütün çirkin və rəzillikləri götür və bunları pak-pakizə et”.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ƏHLİ – BEYT HAQDA HƏDİSLƏR

İmam Sadiq(ə) buyurub: “Bütün peyğəmbərlər bizim (Əhli-beytin) üstünlüyümüzü və haqqımızı tanıyaraq məbus olmuşdur.[1]

Həzrət Muhəmməd(s) buyurmuşdur: “Ulduzlar səma əhli üçün amandır. Ulduzlar olmadıqda səma əhli də olmaz. Mənim Əhli-beytim də yer əhli üçün amandır. Əhli-beytim olmadıqda yer əhli də aradan gedər.”[2]

**قال رسول أكرم (ص): أدّبوا أولادكم على ثلاث خصال: حبّ نبيّكم و أهل بيته و قراءة القرآن.**

Peyğəmbəri-əkrəm(s) buyurmuşdur: “Övladlarınızı üç şey əsasında tərbiyə edin:

1. Peyğəmbərinizə məhəbbət;
2. Onun Əhli-beytinə(ə) məhəbbət;
3. Quran qiraəti (oxunuşu)[3]

İmam Hüseyn (ə) buyurub: “Bizim Əhli-beyt üçün bir zərrə belə göz yaşı axıdan şəxsə Allah-Təala Cənnəti bağışlayar.”[4]

“İslamın kökləri bizik. İnsanlar bizim nurumuzdan bəhrələnirlər. İslamın möhkəm və qırılmaz dəstəyi (عروة الوثقى) bizik.”

Bu cümlədə “Bəqərə” surəsinin 256-cı ayəsinə işarə olunur.

**وَيُؤْمِن بِاللّهِ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَىَ لاَ انفِصَامَ لَهَا**

“Hər kəs Tağuta kafir olub Allaha iman gətirsə, elə bir dəstəkdən yapışar ki, heç vaxt qırılmaz.”

“Hər kəs haqqa çatmaq, zəlalətdən qurtarıb behiştə getmək istəyirsə, gərək bizə tərəf gəlsin, bizi tanısın və bizdən göstəriş alsın. Hər kəs bizdən qabağa keçsə, yaxud bizdən ayrılsa, məhv olub aradan gedər. Biz islamın ən böyük mühafizləriyik. Allah dünya və axirət əzabını bizim vücudumuza xatir öz bəndələrindən götürər. Hər kəs bizi tanıyıb haqqımızda mərifət kəsb etsə və göstərişlərimizə əməl etsə, bizdəndir.”

Bu yerdə ustad Füzulinin bir şeiri yada düşür:

***Əhli-beytin sənavü mərsiyəsi***
***Əhsəni-əfzəli-fəzayildir.***
***Kim ki, bir beyt ol xüsusda deyər,***
***Ol dəxi Əhli-beytə daxildir.***

---

[1] “Məsumların nurlu kəlamlarından 500 hədis”. Toplayan: Əli Həmədani
[2] “Zəxarül-üqba”, səh.17
[3] “Kənzül – ümman”, cild16, səh. 456, hədis 45409
[4] “Yanəbiül – məvəddət”, səh. 228

### *“Kisa” hədisi*

Rəsuli-əkrəmin (s) qızı Fatimeyi-Zəhradan (s.ə) nəql olunub ki, buyurmuşdur: “Bir gün atam Rəsulullah(s) mənim evimə gəldi, buyurdu: “Salam olsun sənə, ey Fatimə.”

Mən dedim: “Əleykəs-səlam!”

Buyurdu: “Mən özümdə yorğunluq hiss edirəm.”

Dedim: “Sənin bu yorğunluğunda Allaha pənah verirəm.”

Buyurdu: “Ya Fatimə, yəməni əbamı gətir, üstümə sal!”

Mən yəməni əbanı gətirib atamın üstünə saldım, sonra üzünə baxmağa başladım. Üzü 15 günlük ay kimi nur verirdi.

Bir az keçməmişdi ki, oğlum Həsən yanıma gəlib dedi: “Salam olsun sənə, ey anam!”

Dedim: “Əleykəs-salam, ey gözlərimin nuru, qəlbimin meyvəsi!”

Oğlum dedi: “Anacan, mən sənin yanında ətirli bir qoxu hiss edirəm. Elə bil ki, cəddim Rəsulullahın ətridir.

Dedim: “Bəli, baban əbanın altındadır”. Həsən əbaya tərəf gedib dedi: “Salam olsun sənə, ey cəddim, ey Rəsulullah! İcazə verirsənmi, səninlə birlikdə əbanın altında olum?”

Buyurdu: “Əleykəs-salam, ey oğlum, ey hovuzumun sahibi, sənə icazə verdim.” Oğlum Həsən əbanın altına girdi, çox keçmədən oğlum Hüseyn gəldi, dedi: “Salam olsun sənə, ey ana!”

Dedim: “Əleykəs-salam, ey oğlum, ey gözlərimin nuru, qəlbimin meyvəsi!”

Oğlum mənə dedi: “Anacan, sənin yanında xoş, ətirli bir qoxu hiss edirəm. Elə bil ki, cəddim Rəsulullahın ətridir.”

Dedim: “Bəli, cəddin və qardaşın əbanın altındadır.” Hüseyn də əbaya tərəf yaxınlaşıb dedi: “Salam olsun sənə, ey cəddim! Salam olsun sənə, ey Allahın seçdiyi, icazə verirsənmi, sizinlə birlikdə əbanın altında olum?”

Buyurdu: “Əleykəs-salam, ey oğlum, ey ümmətimin şəfaətçisi, sənə icazə verirəm.

Hüseyn də əbanın altına girdi.

Bu zaman Əbul-Həsən Əli ibni-Əbu Talib mənə tərəf gəlib dedi: “Salam olsun sənə, ey Rəsulullahın qızı!”

Dedim: “Əleykəs-salam, ey Əbəl-Həsən, ey Əmirəl-möminin.”

Əli (ə) dedi: “Ey Fatimə, mən sənin yanında ətirli bir iy hiss edirəm. Elə bil, qardaşım və əmioğlum Rəsulullahın ətridir.”

Dedim: “Bəli, O, iki oğlunla birlikdə əbanın altındadır. Əli (ə) əbaya tərəf gedib dedi: “Salam olsun sənə, ey Rəsulullah, icazə verirsənmi, sizinlə birlikdə əbanın altında olum?”

Atam buyurdu: “Əleykəs-salam, ey qardaşım və canişinim və ey bayraqdarım. Sənə icazə verirəm.”

Əli (ə) da əbanın altına girdi, sonra mən də onlara tərəf gəlib dedim: “Salam olsun sənə, ey atam, ey Rəsulullah, icazə verirsənmi, sizinlə birlikdə əbanın altına gələm?”

Atam buyurdu: “Əleykəs-salam, ey qızım, ey ciyərimin parəsi, icazə verirəm.”

Mən əbanın altına daxil oldum.

Elə ki, hamımız birlikdə əbanın altına yığışdıq, atam Rəsulullah əbanın iki tərəfindən tutub, sağ əli ilə asimana işarə edərək dedi: “Pərvərdigara, bunlar mənim Əhli-beytim, ən yaxın və xas adamlarımdır. Ətləri ətim, qanları qanımdır.

Onlara əziyyət verənlər mənə əziyyət verir, onları qəmgin edənlər məni qəmgin edir.

Mən onlara qarşı müharibə edənlərlə müharibə edər, onlarla barışıq edənlərlə barışaram.

Düşmənləri ilə düşmən, onları sevənlərlə dostam. Onlar məndən, mən də onlardanam.

Öz salavat, bərəkət, rəhmət, məğfirət və razılığını mənə və onlara şamil et. Onlardan zahiri və batini çirkinlikləri aparıb onları pak – pakizə qərar ver.”

Allah buyurdu: “Ey mənim mələklərim, ey asimanlarda sakin olanlar!

Mən bina olunmuş asimanları, döşənmiş yerləri, nurlu ayı, nur verən günəşi, dövr edən fələyi, cərəyan edən dəryaları, seyr edən gəmiləri yalnız əbanın altında olan bu beş nəfərin məhəbbəti xatirinə xəlq etmişəm.”

Cəbraili-Əmin soruşdu: “Ey Rəbbim, əbanın altında olanlar kimlərdi?”

Allah-Təala buyurdu: “Onlar Fatimə, onun atası, əri və oğlanlarından ibarət nübuvvət Əhli-beyti, risalət mədənidirlər.”

Cəbrail ərz etdi: “Ey Rəbbim, icazə verirsənmi, onların altıncısı olam?”

Allah buyurdu: “Bəli, sənə icazə verirəm.”

Cəbraili Əmin yer üzünə düşdü və dedi: “Salam olsun, sənə, ey Rəsulullah, Əliyyi-Əla Xudavənd sənə salam göndərir, səni təhiyyətə və ikrama məxsus edir, buyurur: “And olsun izzət və cəlalıma, mən bina olunmuş səmanı, döşənmiş yeri, nurlu ayı, nur verən günəşi, dövr edən fələyi, cərəyan edən dəryanı, seyr edən gəmiləri yalnız sizin xatirinizə və sizin məhəbbətiniz xatirinə xəlq etmişəm.”

Allah mənə icazə verdi ki, sizin yanınıza daxil olam!

Ey Rəsulullah, icazə verirsənmi?”

Rəsuli – Əkrəm(s) buyurdu: “Salam olsun sənə, ey Allahın vəhy əmanətdarı, əlbəttə, bəli, sənə icazə verirəm.”

Cəbrail də əbanın altına daxil oldu, atama dedi: “Həqiqətən, Allah sizə vəhy edib buyurur: “Allahın iradəsi bu olmuşdur ki, siz Əhli-beytdən hər növ (zahiri və batini) çirkinlikləri aparıb sizi pak – pakizə qərar versin.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əli (ə) atama dedi: “Ya Rəsulullah, mənə xəbər ver, görüm, bizim əbanın altında oturmağımızın Allah yanında nə kimi fəziləti var?”

Peyğəmbər (s) buyurdu: “And olsun məni haqq olaraq nübuvvətə məbus edib, məni nicat verən kimi risalətə seçənə, bizim bu xəbərimiz yer əhlinin məclislərindən hər hansı birində xatırladılsa və o məclisdə bizi sevənlərdən bir neçəsi olsa, hökmən onlara rəhmət nazil olar, məlaikələr onları əhatə edər, onlar bu məclisdən dağılışana kimi onlar üçün Allahdan bağışlanmaq diləyərlər.”

Əli (ə) dedi: “Belə isə, and olsun Allaha ki, biz və bizim şiələrimiz nicat tapdı, and olsun Kəbənin Rəbbinə.”

Peyğəmbər (s) buyurdu: “Ey Əli, and olsun məni haqq olaraq nübuvvətə məbus edən və məni nicat verən şəxs kimi risalətə seçənə ki, bizim bu xəbər yer əhlinin məclislərinin hər hansı birində zikir olunsa və o məclisdə bizim şiələrdən və bizi sevənlərdən bir neçə nəfər olsa, Allah-Təala hökmən onların qəmlərini dağıdar (sevincə çevirər), qüssələrini aradan qaldırar, hacət istəyənlərin hacətini təmin edər.

Əli (ə) dedi: “Belə isə, and olsun Allaha ki, nicat tapdıq və səadətə yetdik, həmçinin, şiələrimiz də nicat tapıb dünya və axirətdə səadətə yetdilər.”

## “MÜBAHİLƏ” AYƏSİ

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللّهِ عَلَى الْكَاذِبِينَ

“Ali-İmran” surəsi, 61-ci ayə: “ (İsanın haqqında) Sənə göndərilən elmdən sonra, onlara de ki: Gəlin, biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü çağıraq! Sonra mübahilə (qarğış) edib yalançılara Allahın lənət etməsini diləyək.”

Bu ayəyə “Mübahilə” ayəsi deyilir.

“Mübahilə” – “Bəhl” kökündən olub “özbaşına buraxmaq və bir şeydən qeydi-şərti götürmək” mənasını daşıyır. Bu ayədə onun mənası “iki nəfərin bir-birinə etdikləri lənət” mənasındadır. Belə ki, bir-birinin mühüm məsələsi barədə bir-biriləri ilə mübahisə edən şəxslər bir yerə toplaşaraq Allaha yalvarıb yalançılara lənət etməsini diləyirlər.

Allaha-Təala yuxarıdakı ayədə Öz Peyğəmbərinə (s) göstəriş verir ki, bu açıq-aşkar dəlillərindən sonra hər kəs İsa barəsində səninlə mübahisə etsə, onları dəvət et ki, gəlin, biz də oğlanlarımızı, siz də oğlanlarınızı bir yerə dəvət edək. Sonra isə, Allaha yalvarıb diləyək ki, yalançılara Öz lənətini göndərsin.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Mübahilə məsələsi, qeyd olunan şəkildə o zaman ərəblər arasında yayılmamışdı. Bu elə bir yol idi ki, Peyğəmbərin (s) dəvətinin doğruluğunu sübut edirdi.

Mübahilənin adı çəkilərkən, Nəcran məsihilərinin nümayəndələri bu barədə fikirləşmək üçün Peyğəmbərdən (s) möhlət istədilər. Onlar öz böyükləri ilə bir şura təşkil edib məsləhətləşdilər və mübahilədə iştirak etmək istəyən nümayəndələrinə göstəriş verdilər ki, əgər Muhəmmədin hay-küylə, böyük bir cəmiyyətlə mübahiləyə gəlməsini müşahidə etsəniz, qorxmayın. Onunla mübahilə edin və bilin ki, onun dəvətində heç bir həqiqət yoxdur. Yox, əgər öz yaxın adamlarından olan az bir dəstə ilə, balaca uşaqlarla mübahiləyə gəlsə, bilin ki, O, Allahın Peyğəmbəridir. Belə olan təqdirdə, onunla mübahilə etmək təhlükəlidir.

Onlar əvvəlcə məscidə gəldilər. Birdən gördülər ki, Peyğəmbər (s) Hüseyni qucağına almış, Həsənin də əlindən tutmuşdur. Əli və Fatimə də onunla birgədirlər. Peyğəmbər (s) onlara deyir ki, hər dəfə mən dua etsəm, siz də "amin" deyin. Məsihilər bunu görcək qorxuya düşdülər. Mübahilə etməyib, "zimmə" şəraiti ilə sülh etməyə razılaşdılar.

Şiə və sünnü təfsirçilərinin dediklərinə görə, "Mübahilə" ayəsi Peyğəmbərin Əhli-beyti barəsində nazil olmuşdur. Həzrət Peyğəmbərin (s) özü ilə mübahiləyə apardığı şəxslər Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) olmuşlar. Ayədə qeyd olunan "əbnaəna" (oğlanlarımızı) kəlməsindən məqsəd İmam Həsən (ə) və İmam Hüseyn(ə), "nisaəna" (qadınlarımızı) kəlməsindən məqsəd Həzrət Fatimə(s.ə), "Ənfüsəna" (özümüzü) kəlməsindən məqsəd Həzrət Əlidir (ə).

***Dedi haqqında Quran "Ənfüsəna ənfüsəkum",***
***Allahın zatı təcəlla eliyən üz Əlidir.***

Sünnilərin əsas mənbələrinə müraciət etdikdə görürük ki, bu hadisələri təkcə şiələr deyil, həm də sünni alimləri öz kitablarında nəql etmişlər.

Qazi Nurullah Şüştəri "Ehqaqul – həqq" kitabında belə yazır: "Təfsirçilərin bu məsələ barəsində fikir birliyi vardır. Ayədə qeyd olunan "əbnaəna" (oğlanlarımız) İmam Həsən və İmam Hüseyn(ə)-a, "nisaəna" (özümüzü) isə Həzrət Əli (ə)-a işarədir."[1]

Bu alim həmən kitabın haşiyəsində sünni alimlərinin təqribən 60 nəfərini qeyd edir ki, onların hamısı "Mübahilə" ayəsinin Əhli-beyt (ə) barəsində nazil olmasını etiraf ediblər. Bu mətləbi nəql edən ən böyük şəxsiyyətlərdən bəzilərinin adlarını qeyd edirik.

[1] Qazi Nurullah Şüştəri, "Ehqaqül –həqq", cild 46, səh. 46.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1. Müslüm ibn Həccac Nişaburi: “Səhihi-Buxari”, 7-ci cild, səh.120, Misirin Məhəmməd Əli Sübeyh çapı.

2. Əhməd ibn Hənbəl, “Musnəd” 1 c. səh. 185, Misir çapı.

3. Təbəri: “Təfsiri -Təbəri”, 3-c, səh.192, Misirin Meyməniyyə çapı.

4. Hakim: “Mustədrək”, 3-c., səh.150, Heydərabad çapı.

5. Zəməxşəri: “Kəşşaf” təfsiri, 1-c., səh. 193, Mustəfa Mühəmməd çapı.

“Qayətul-Məram” kitabında Həzrət Əlinin (ə) fəzilətləri barəsində Səhih Müslümdən nəql olunur ki; günlərin birində Maviyə (l) Səd ibn Əbi Vəqqasa dedi: “Nə üçün Əliyə nalayiq sözlər demirsən?” O dedi: “Peyğəmbərin (s) Əli (ə) barəsində buyurduğu üç şey haqqında fikirləşirdim. Elə buna görə də Əliyə nalayiq sözlər deməkdən vaz keçdim. Onların 1-cisi bu idi ki, “Mübahilə” ayəsi nazil olarkən Peyğəmbər ancaq Əlini, Fatiməni, Həsəni və Hüseyni apardı. Sonra isə belə buyurdu: “İlahi, bunlar mənim ən yaxın adamlarımdır.” Belə bir hadisə İmam Rzanın (ə) zamanında da olub. Xəlifə Məmun İmam Rzaya(ə) dedi ki, Həzrət Əli (ə)-ın haqqında olan ən böyük fəzilət hansıdır? Həzrət buyurdu: “Mübahilə” ayəsindəki fəzilət ən böyük fəzilətdir”.

Şeyx Əzri bu fəziləti qələmə alaraq yazır:

***“Vəhuvə fi ayətil təbahülu nəfsi,***
***Əl Mustafa Ğeyruhu izzaha***”.

Şeirin mənası belədir: “O (Həzrət Əli), Həzrəti Muhəmməd Mustəfanın (s) nəfsi və canıdır. Ondan başqa heç kəs bu cür deyil.”

Zəməxşəri “Kəşşaf” kitabında bu ayənin təfsirində deyir: “Bu ayə Kisa əhlinin − “Əhli-beytin” fəzilətini isbat edən ən möhkəm dəlillərdən biridir.”

Mərhum Əmamə Təbatəbai öz təfsirində bu ayə barəsində bəhs etdikdən sonra, Mübahilədə iştirak edənlərin Həzrət Peyğəmbər (s), Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyndən (ə) ibarət olduğunu bəyan edərək buyurmuşdur: “Hədislərin hamısı, o cümlədən, Müslüm, Tirmizi və bu kimi böyük hədis kitabları yazan alimlər də onu öz kitablarında yazaraq təsdiq etmişlər.”

### *Hədisi-Tayr (qızardılmış toyuq)*

Şübhəsiz ki, Həzrət Əli (ə) Allah və onun Rəsulunun(s) yanında ən sevimlisi idi. Biz onu bir çox dəlillərlə birlikdə “Hədisi-tayr”da da görürük. Bəs, bu hədis necə yaranmışdır?

Ənəs ibn Malik deyir: “Hər gün ənsarın uşaqlarından biri Peyğəmbərin işlərini görərdi. Bir gün növbə mənim idi. Ümmi-Əyman qızardılmış bir toyuğu Peyğəmbərin hüzuruna gətirərək dedi: “Ya Rəsulullah! Bu

toyuğu özüm alıb sizin üçün bişirmişəm.” Həzrət Peyğəmbər (s) dedi: “İlahi, bəndələrin ən yaxşısını göndər. Bu toyuğu mənimlə yeməkdə şərik olsun.” Elə bu vaxt qapı döyüldü. Peyğəmbər (s) buyurdu: “Ənəs, qapını aç.” Öz-özümə dedim, kaş, mənim tayfamda ənsardan biri olaydı. Qapını açanda Əlini gördüm və “Peyğəmbər məşğuldur”, – deyərək qapını örtdüm. Qayıdıb öz yerimdə durdum. Yenə bir azdan qapı döyüldü. Qapını açıb gördüm ki, yenə də Əlidir. “Peyğəmbər məşğuldur”, – deyərək qapını örtüb geri döndüm. Üçüncü dəfə qapı döyüldü. Peyğəmbər buyurdu: “Ənəs, get qapını aç, onu evə gətir. Sən öz qəbiləni sevən birinci adam deyilsən. O, ənsardan deyil.” Mən gedib Əlini dəvət etdim. Birlikdə qızardılmış toyuğu yedilər.”

Göründüyü kimi, Həzrət Peyğəmbər (s) dua etdi ki, “İlahi, bəndələrin ən yaxşısını mənə göndər.” O da Əlini(ə) göndərdi. Bu səhih hədis Həzrət Əlinin (ə) Peyğəmbərdən(s) sonra Allahın ən istəkli bəndəsi olduğunu bir daha sübut edir. Əhli-beyti(ə) dost tutan mömin şəxsə bu hədis kifayət edər.[1]

## “MƏVƏDDƏT” AYƏSİ

قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى

“Ey Peyğəmbər, müsəlmanlara de ki, Mən sizdən öz risalətimin qarşısında Əhli-beytimin məhəbbətindən başqa heç nə istəmirəm.”[2]

Təfsir, hədis və tarix kitablarında qeyd olunduğu kimi bu ayədəki “القربى” (Peyğəmbərin yaxın adamları) kəlməsindən məqsəd Əli, Fatimə, Həsən və Hüseyndir (ə).

Zəməxşəri öz “Kəşşaf” təfsirində belə yazmışdır: “Bir gün müşriklər “Muhəmməd öz Peyğəmbərliyi üçün, mükafat istəyirmi” – deyə, danışırdılar ki, bu ayə nazil oldu: “Ey Peyğəmbər (müsəlmanlara) de ki, mən sizdən Peyğəmbərlik müqabilində Əhli-beytimi sevməkdən başqa bir şey istəmirəm.”

---

[1] Bu mötəbər hədis sünni məzhəbinin kitabları, o cümlədən “Səhihi-Buxari”, “Səhihi-Müslim”, Tirmizi, Əbu Talib Sistaninin “Sünən”ində, İmam Əhməd bin Hənbəlinin “Müsnəd”ində, İbn Əbil Hədidin “Şərhu-Nəhcül-bəlağə”sində, İbn Səbbağ Malikinin “Füsulul-Mühümmə” əsərinin 21-ci səhifəsində, Süleyman Bəlxi Hənəfinin “Yənabiul-Səvəddət” kitabının 8-ci bölməsində, Sibt ibn Cövzinin “Təzkirə” kitabının 23-cü səhifəsində, Məsudinin “Mürəvvəcüz-Zəhəb” kitabının 2-ci cildinin 49-cu səhifəsində, İmam Əbu Əbdürrəhman Nəsainin “Xəsaisul-Ələvi” kitabının 10-cu hədisində, Məhəmməd bin Cərir Təbəri və Hakim Nişaburinin “Müstədrəküs-səhiheyn” əsərinin 3-cü cildinin 131-ci səhifəsində (18-dən çox sünni məzhəbinin mötəbər kitabında) 86 şəxsdən nəql edilmişdir.

[2] “Şura” surəsi, ayə 23

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Zəməxşəri sözünə davam edərək deyir: “Rəvayətə görə, bu ayə nazil olandan sonra, Həzrət Peyğəmbərdən soruşdular:” Ya Rəsulullah! Bizə dostluq və məhəbbətləri vacib olan yaxın adamların kimlərdir? Peyğəmbər (s) cavabında buyurdu: “ Onlar Əli, Fatimə və iki oğlanları Həsən və Hüseyndən ibarətdir.[1]

***Etmişəm 23 il şamü səhər xidmət sizə,***
***Cahiliyyətdən qurtardım, verdim əmniyyət sizə.***
***Bir əmanətdir bu gün Quran ilə itrət sizə,***
***Gülüstanımdan gülü-rənanı tapşırdım sizə.***

Bu ayədə Allah-təala Peyğəmbərə (s) əmr edir ki, de: “Peyğəmbərliyim müqabilində mən sizdən heç bir əcr və əvəz istəmirəm. Yalnız Əhli-beytimə məhəbbət!”

Peyğəmbərin (s) vəfatından sonra İslam dininin yaşamasında Əhli-beytin mühüm rolu olduğu üçün Allah-Təala bu ayəni nazil edir. Bu ayənin nazil olmasında ən mühüm məsələ imamət və xilafət məsələsi, yəni insanların hidayəti və düz yolda saxlanılması məsələsidir. Bu sözümüzə sübut olaraq Peyğəmbərin (s) Əhli-beyt barədə buyurduğu hədislərə diqqət edək.

“Mənim Əhli-beytimi öz aranızda başın bədənə olan münasibəti kimi, başda da gözün başa olan münasibəti kimi qərar verin. (Bilin ki) baş yalnız gözlərin vasitəsilə hidayət olunur.”

“Həqiqətən, mənim Əhli-beytimin məsəli Bəni-İsrailin “Hittə” qapısına bənzəyir; hər kəs oraya daxil olsa, günahları bağışlanar. Bu hədislərdən də aydın görünür ki, bu ayədə əsas məsələ imamət və xilafət məsələsidir.[2]

***Əlvida, ey ümmətim, dünyanı tapşırdım sizə,***
***Can sizin, can itrətim, Quranı tapşırdım sizə.***

***Gərçi mən Pəyğəmbərəm, nazil olub Quran mənə,***
***Azimi-rahi-bəqayəm, çün yetib fərman mənə.***
***Müntəzirdir ədndə dərvazədən rizvan mənə,***
***Dini təkmil etmişəm, imani tapşırdım sizə.***

Peyğəmbər (s) buyurmuşdur: “Əgər camaat Əli ibn Əbu Talibin (ə) məhəbbəti ilə onun başına toplaşsaydı, Allah-Təala cəhənnəm odunu yaratmazdı.”

---

[1] Fəxri – Razi: “ Təfsiri – kəbir”; “Şura” surəsi, ayə 23
[2] Səbban, “Əsafur – raqibin”, Şeyx Yusif Nəbhani, “Əmşərəfül-Müəbbəd”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ƏHLİ - BEYT KİMLƏRDİR

"Əhli-Beyt" sözü lüğətdə "ev əhli" mənasında işlənsə də, istilahi mənada "İslam Peyğəmbərinin (s) ailəsi (yaxınları), övladları" məfhumunu daşıyır və xüsusi şəxslərə aid edilir. Peyğəmbərin (s) özündən nəql olunan yüzlərlə hədisdə Əhli-Beytin(ə) kimlərdən ibarət olduğu açıq-aşkar bəyan edilmişdir. Bu hədislərdə yalnız Əli (ə), Fatimə(s.ə), Həsən (ə), Hüseyn(ə) və İmam Hüseynin(ə) nəslindən olan və Peyğəmbərin vəfatından sonra dünyaya gələn doqquz nəfər Həzrətin Əhli-Beyti kimi təqdim edilmişdir. O rəvayətlərdən bir neçəsini nümunə olaraq oxucuların nəzərinə çatdırırıq.

Amir ibni-Səd ibni-Əbu Vəqqas öz atasından nəql edir ki, vəhy nazil olan zaman Peyğəmbər Əli, Fatimə və onun iki oğlunu (Həsən və Hüseyni) əbasının altına çəkib dedi: "Pərvərdigara, bunlar mənim Əhlibeytimdir."[1]

İsa ibni-Əbdullah ibni-Malik ikinci Xəlifə Ömər ibni-Xəttabdan belə nəql edir ki, Ömər deyir: "Peyğəmbərdən(s) eşitdim ki, buyurdu: "Ey camaat, mən yaxın zamanlarda sizin aranızdan gedəcəyəm. Qiyamətdə siz də gəlib mənə qovuşacaqsınız. Peyğəmbər (s) camaata Quran və Əhli-beytin hüquqlarına riaət etmək barədə çoxlu tövsiyələr etdi." İkinci Xəlifə Ömər ibni-Xəttab deyir: "Mən - "Ey Allahın Rəsulu, sənin Əhlibeytin kimlərdir?" - deyə soruşdum." Həzrət buyurdu: " Mənim Əhlibeytim Əli, Fatimə, onun iki övladı Həsən və Hüseyn və Hüseynin nəslindən olan doqquz nəfər əməli-saleh İmamlardır. Onlar mənim itrətim, ətim və qanımdır."[2]

İmam Sadiq (ə) buyurdu: "Musa (ə) Allah ilə münacat edərkən İblis onun yanına gəldi. Mələklərdən biri İblisə dedi: Musa münacatla məşğul olduğu halda (onu yoldan azdırmağa) nə ümidin var? Şeytan dedi: Onun atası Adəm behiştdə olarkən ona nə etdimsə, Musaya da həmin işi etmək istəyirəm."

Musa münacat edən zaman Allah tərəfindən xitab gəldi: "Ey Musa, Mən yalnız o kəslərin namazını qəbul edirəm ki, mənim əzəmətim qarşısında təvazö etsinlər, həmişə qəlblərində də məndən qorxuları olsun, gününü məni zikr etməklə sona çatdırsınlar, günah işlərə israr etməsinlər, mənim dostlarımın, övliyalarımın haqqını tanısınlar." Musa ərz etdi:

---

[1] "Səhihi – Müslüm", cild 4, səh.1871, hədis32;
"Sünəni – Termizi", cild 5, səh.225, hədis 2999;
"Əl-Müstədrəki əl əs-səhiheyin", cild 3. səh. 163, hədis 4719;
"Müsnədi ibni Hənbəl", cild 1, səh.391, hədis 1608
[2] "Kifayətul - əsər ", səh. 91; "Təfsiri – Bürhan", cild 1, səh.9

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Pərvərdigara, "övliya" və "dostların" dedikdə İbrahim, İshaq və Yəqubu nəzərdə tutursanmı?"

Xitab gəldi: "Onlar da mənim dostlarımdır, lakin mənim məqsədim o kəsdir ki, yalnız onun xatirinə Adəm və Həvvanı xəlq etmişəm. Behişt və Cəhənnəmi yaratmışam." Musa ərz etdi: "Pərvərdigara, o şəxs kimdir? "Allah buyurdu: "O şəxs Muhəmməd-Əhməddir. Mən onun adını öz adımdan müştəq etmişəm. Çünki mənim adım Məhmuddur" (Ona görə də onun adını Muhəmməd qoydum). Musa ərz etdi: "Pərvərdigara, məni onun ümmətindən qərar ver."

Allah buyurdu: "Ey Musa, əgər sən onun Əhli-beytinin məqam və mənzilətini tanısan, onun ümmətindən hesab olunarsan. Çünki məxluqatın arasında onun özü və Əhli-beytinin məsəli, Behişt və Firdovsun məsəli kimidir ki, ağaclarının yarpaqları qurumaz, meyvələrinin ləzzəti dəyişməz. Hər kəs onları tanısa və hüquqlarını bilsə, mən o şəxs üçün cahil olduğu zaman helm, qaranlıqda nur verərəm, o şəxs mənə dua etməmiş istəyini qəbul edərəm, sual etməzdən qabaq (lazım olan hər şeyi) ona əta edərəm."[1]

***HACI SOLTAN HÜSEYNQULU OĞLU***

## *MƏVƏDDƏT*

"La əsəlukum" söylə, et ol yarə məvəddət,
Həq nazil edib Əhmədi-Muxtarə məvəddət.

Aiddi bu söz Fatimə ilə Həsəneynə,
Həm şamil olub Heydəri-Kərrarə məvəddət.

Allahə olan sevgi ilə təndi bu məna,
Eşqi çıxarır gizlidən aşkarə məvəddət.

Batində olan mehr çıxır zahirə əlan,
Bariz yetişir rəhbəru dildarə məvəddət.

Ağuşə peyəmbər gətirib oğlu Hüseyni,
Hulqun öpüb eylərdi o sərdarə məvəddət.

"Qardaş" dedi Əbbasə Hüseyn Kərbübəladə,
Eşq oldu bəyan, qalxdı bu miqdarə məvəddət.

[1] Şeyx Həsən Hürri Amuli, "Hədisi – Qüdsi", hədis 88

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bir söz demədi şahim Hüseyn vəqti-vidadə,
Etdi göz ilə Zeynəbi-qəmxarə məvəddət.

Aşkarə de, gər ali-əba aşiqisən sən,
Vursun dili – suzanidə fəvvarə məvəddət.

Sən Şiri-Qəzənfər adına eylə sənani,
Göstərmək üçün Qadiri – Ğəffarə məvəddət.

Dərd tapdı ürək, dərdləri səhmanə salınca,
Soltan, Əli zikrin et, ola çarə – məvəddət.

## “FƏZİLƏT” AYƏSİ

**وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ**

“Əgər yerdəki ağaclar qələm, dərya isə mürəkkəb olsaydı və yeddi dərya ona qoşulsaydı, yenə də Rəbbimin sözləri yazmaqla tükənməzdi.”[1]

Bu ayənin barəsində İslam Peyğəmbəri (s) buyurur: “Əgər meşələr qələm, dənizlər mürəkkəb olsa, torpaq kağız, insanlar və cinlər yazan olsa, Həzrət Əli ibni-Əbu Talibin (ə) fəzilətlərini yazıb qurtara bilməzlər.”[2]

Şair Sifyari Dilxuni deyir:

***Ovsafını tərif eləyib Xaliqi-Sübhan,***
***Şahid sözümə ayeyi-Qurandı, Əlican.***

İbni-Əsgər İbni-Abbasdan nəql edir: “Allahın göndərdiyi kitabda Əlinin (ə) fəziləti qədər heç kəs haqqında ayə nazil olmayıb.”[3]

---

[1] “Loğman” surəsi, ayə 27
[2] “Yənabuel – Məvəddət”; “Biharul-Ənvar”, 38-ci, səh. 197
[3] İbni-Hacər, “Səvaiq”, səh. 76

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “LEYLƏTUL-MƏBİT” AYƏSİ

وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

“İnsanlardan bəziləri Allahın razılığına xatir canlarını verərlər. Allah bəndələrinə çox mehribandır.”[1]

Bu ayə Əlinin (ə) fəzilətinə dəlalət edən ayələrdən biridir və “Leylətul-Məbit” adı ilə tanınmışdır.

Bir gecə Həzrət Əli (ə) Peyğəmbərin (s) yatağında yatdı ki, Peyğəmbər (s) rahatlıq və salamatlıqla Məkkə şəhərindən çıxsın və düşmənlərin çirkin planları alt-üst olsun. Həzrət Əli (ə) Peyğəmbərin (s) yatağında yatandan sonra Peyğəmbər (s) sağ-salamat Məkkə şəhərindən xaric oldu. Əli (ə) həmin macəra ilə dolu gecəni müvəffəqiyyətlə sona yetirdi. Həmin gecəyə “Leylətul-Məbit” deyirlər. Həzrət Əlinin (ə) həmin fədakarlığı və öz canından keçməsi haqqında yuxarıda qeyd olunan ayə nazil oldu.

Səalibi öz təfsirində İbn Abbasdan rəvayət edir ki, Peyğəmbərin (s) hicrət gecəsi Əli (ə) onun yatağında yatdı və bu ayə o Həzrətin şənində nazil oldu.[2]

Müşriklər səhərə yaxın evə hücum etdilər və Peyğəmbərin (s) yerində Əlini (ə) görüb onun şücaətinə heyran qaldılar. Əli (ə) isə Peyğəmbərin (s) tapşırıqlarına əməl etdikdən sonra Fatiməni götürüb Məkkədən çıxdı.

Hakim Həsəkani “Şəvahidüt-tənzil”də Əbu Səid Xudridən eyni hədisi nəql edib. Həmin kitabda İbni-Abbasdan nəql olunur: “Əli yeganə şəxsdir ki, Peyğəmbərə ilkin iman gətirib, onun paltarını geyib və onun yerində yatıb.”

Sünni məzhəblərindən birinin başçısı olan Əhməd ibn Hənbəl öz “Məsnəd”ində nəql edir: “Qüreyş yığışıb bu qərara gəldi ki, Peyğəmbəri öldürsünlər. Peyğəmbər Əlini öz yerində yatırdıb, Məkkədən xaric oldu. Sonra “Bəqərə” surəsinin 207-ci ayəsi nazil oldu.” Əli (ə) o təhlükəli gecədə Peyğəmbərin (s) yerində yatanda Allah-Təala özünün iki əziz mələyinə-Cəbrail və Mikayıla buyurdu: “Sizlərdən hansınız digərinə fəda olmağa razısınız?” Onlardan heç biri razı olmadı. Allah-Təala buyurdu: “Yer üzünə baxın, Əli ibn Əbu Talibin (ə) öz canını Rəsuli-Əkrəmə necə fəda etdiyini görün.”

Sünni alimlərindən bir çoxu da Həzrət Əlinin (ə) bu fəzilətini iqrar etmişlər. Bu ayənin barəsində bir çox şairlər, o cümlədən, Hacı Yaşar Cahid yazmışdır.

***Rəxti-xabında yatıbdı o, Peyəmbərdən ötür,***
***Kimsə əshabidə bir böylə şüca olmaz idi.***

---

[1] “Bəqərə” surəsi, ayə 207
[2] “Yənəbiul–Məvəddət”, səh. 92; “Kifatətut – Qalib”, səh. 239

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “ELMÜL-KİTAB” AYƏSİ

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِندَهُ عِلْمُ الْكِتَابِ

“Və kafirlər etiraz edib: Sən Allahın Peyğəmbəri deyilsən, deyirlər. De: Mənimlə sizin aranızda Allahın və kitabı bilənlərin şahid olması kifayət edər.”[1]

Bu ayə nazil olduqdan sonra Peyğəmbərdən(s) sual etdilər: “Ya Rəsulullah, bu kitabı bilən alim kimdir və bu kitab Qurandan başqa bir kitabdırmı?” Peyğəmbər (s) buyurdu: “Bu Lövhi-Məhfuzdur. Bu bir kitabdır ki, hər kim onu öyrənə bilsə, bütün elmləri öyrənə bilər.”

Həzrət Əli (ə) buyurmuşdur: “Mən həmin o adamam ki, Quran deyir: “Elmi-kitab onun yanındadır.”

Başqa bir hədisdə Əli (ə) buyurur: “Mən o adamam ki, kitabın bütün elmi mənim yanımdadır.” Məndə elə bir elm və elə bir bilik var ki, əgər sizlərə desəm, dərin quyudan su çıxarda bilən bir uzun ip kimi yerinizdə titrəyərsiniz.” Yəni, siz onu eşitməyə qadir deyilsiniz.

İmam Sadiq(ə) buyurur: “Əli (ə) onun elmini daşıya bilən bir adam tapa bilmədi. Hətta ürəkdən ah çəkirdi. Və minbər üstündə deyirdi: Məni əldən vermədən öncə, məndən soruşun, mənim sinəmdə çoxlu elmlər var. Əfsuslar olsun ki, mən bu elmi daşıyan bir adam tapa bilmədim.”

Əsbəğ ibn Nəbatə Əlinin (ə) yaxın səhabələrindən belə bir rəvayət nəql edir. Deyir: Bir gün Əli (ə) moizə edərkən dedi: “Məni əldən verməsdən soruşun. Allaha and olsun ki, keçmişləri və ya gələcəkdə baş verənləri məndən soruşsanız, mən onların hamısını sizə deyərəm.”

Şeyx Səduk “Əmali” kitabında nəql edir ki, həmin məclisdə Səd ibn Əbu Vəqqas da oturmuşdu. O, Əlini (ə) pərt etmək üçün belə bir sual verdi: “De, görək, mənim başımda və saqqalımda neçə dənə tük var?” Həzrət Əli (ə) buyurdu: “Sən məndən elə bir sual etdin ki, həmin sualın cavabın Peyğəmbər (s) mənə deyib. Hətta buyurub ki, bir gün sən məndən belə bir sual edəcəksən ki, mənim başımda nə qədər tük var. Və hətta sənin hər bir tükünün yanında bir şeytan əyləşdiyini də mənə deyib. Amma sənin sualın düzgün sual deyil və sənin başının tükünü saymaq olmaz. Nə qədər desəm, deyəcəksən, biri azdır və ya biri çoxdur. Amma sənə bir söz deyim ki, başqaları da bilsinlər ki, sənin cavabını yaxşı bilirəm. O budur ki, sənin evində bir övladın var, o övlad mənim oğlum Hüseyni (ə) öldürəcək.” Həqiqətən, Ömər Səd ibn Vəqqasın oğludur.

---

[1] “Rəd” surəsi, ayə 43

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əbu Səid Xodri deyir: “Rəsulullahdan xəbər aldım: “Quran elminin sahibi olan şəxs kimdir? Peyğəmbər (s) buyurdu: “O şəxs qardaşım Əli ibn Əbu Talibdir.”

**عن عبد الله بن سلام رضى الله عنه فى قوله تعالى: ( ومن عنده علم الكتاب ) قال سألت رسول الله صلّى الله عليه وآله وسلّم قال: (إنّما ذلک علىّ بن أبى طالب) أورده الثعلبى.**

Əbdullah ibn Səlam (r) mübarək “Rəd” surəsinin 43-cü ayəsinin təfsirində demişdir:

“Allahın Rəsulundan bu ayə barəsində soruşdum, buyurdu: “Həqiqətən, o şəxs Əli ibn Əbu Talibdir.” Bu rəvayəti böyük sünnü təfsirçilərindən olan Sələbi nəql etmişdir.[1]

## “HİKMƏT” AYƏSİ

**يُؤتِي الْحِكْمَةَ مَن يَشَاء وَمَن يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْرًا كَثِيرًا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الأَلْبَابِ**

“Allah istədiyi şəxsə hikmət, elm, feyz əta edər. Kimə hikmət və elm əta edilmişsə, onun barəsində çoxlu inayət və mərhəmət edilmişdir. Bunu (ki, elm ən yaxşı nemətdir) ancaq ağıllı adamlar dərk edərlər!”[2]

Hakim Həsəkani “Şəvahidut–tənzil” kitabında İbni-Abbasdan belə nəql edir ki, Peyğəmbər (s) buyurdu:

**قال رسول الله(ص): من أراد أن ينظر إلى ابراهيم فى حلمه و إلى نوح فى حكمته و إلى يوسف فى إجتماعه فلينظر إلى علىّ بن أبى طالب.**

“İbrahimin helmini, Nuhun hikmətini və Həzrəti Yusifin camaatla rəftarını görmək istəyən Əli ibni-Əbu Talibə baxsın.”

Digər bir yerdə Ibni-Abbas nəql edir ki, Peyğəmbərdən (s) Əlinin (ə) hikməti barəsində soruşulduqda Həzrət (s) belə buyurdu:

**قسّمت الحكمة عشرةَ أجزاء فأعطى على تسعة أجزاء.**

“Hikmət on hissədən ibarətdir. Bu on hissədən doqquzu Əliyə (ə), bir hissəsi isə qalan camaata verilib.”

---

[1] Sələbi, “Təfsir-əl-Kəbir”, cild 1, səh. 437
[2] “Bəqərə” surəsi, ayə 269

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bu ayədən və hədislərdən aydın olur ki, elm və hikmətdə Peyğəmbərdən (s) sonra birinci şəxs Həzrət Əlidir (ə).

Elm və hikmət İmamətin rükünlərindəndir. Buna görə də İmamətə ən layiq adam Əlidir (ə). Peyğəmbər (s) buyurub:

**أنا دار الحكمة و علىّ بابها.**

"Mən hikmətin eviyəm, Əli isə onun qapısıdır."[1]

*Nəbi ərz etdi, elm şəhri mənəm, babi Əli,*
*Yayılıbdır bu kəlam hər tərəf, hər yanə, Əli.*

Başqa bir hədisdə Peyğəmbər (s) buyurur: "Əli (ə) şəfaəti bir qapıdır. Bu qapıdan girən mömindir."

## "MUNZİR VƏ HADİ" AYƏSİ

**وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ**

"(Müşriklər) Tənə ilə deyirlər: Niyə Pərvərdigarından ona ayət nazil olmadı? Sən ancaq qorxudansan. Hər tayfanın bir hidayət edəni var."[2]

Peyğəmbər (s) bu ayə nazil olan zaman buyurdu: "Mən munzir, Əli isə hadidir. Ya Əli, məndən sonra (haqqı axtaran) yolçular haqq yolu sənin vasitən ilə tapacaqlar."[3]

Ayədəki "hər bir tayfanın yol göstərəni" sözləri Həzrət Əliyə (ə) işarədir.

Sünni alimləri tərəfindən 7 hədis nəql olunmuşdur ki, həmin hədislərdə bu ayədə "Munzir" sözi ilə Peyğəmbərin (s) və "Hadi" sözü ilə İmam Əlinin (ə) nəzərdə tutulduğu yazılır. Maliki yazır ki, bu ayə nazil olan zaman Peyğəmbər (s) buyurdu:

"Mən qorxuzanam və Əli (ə) doğru yol göstərəndir: Ya Əli (ə), sənin vasitənlə doğru yol tapanlar hidayət olunurlar"[4]

**عن ابن عبّاس رضى الله عنه قال: لمّا نزل قوله تعالى (إنّما أنت منذر و لكلّ قوم هاد) قال رسول الله صلّى الله عليه و آله وسلّم: (أنا المنذر و علىّ الهادى و بل يل على مهتدى المهتدون) رواه صاحب الفردوس.**

---

[1] "Səhihi-Termizi"
[2] "Rəd" surəsi, ayə 7
[3] "Kənzül-ümmal", hədis 2631
[4] "Füsulül–Mühimmə", səh. 122

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

İbni-Abbas(r) deyir: “Rəd” surəsinin 7-ci ayəsi (Ey Muhəmməd, həqiqətən, sən qorxudansan və hər bir qövm üçün bir hidayət edən və rəhbər vardır) nazil olan zaman, Allahın Rəsulu buyurmuşdur: “Mən xəbərdar edənəm, Əli isə rəhbərdir. Ey Əli, sənin vasitənlə hidayət tələb edənlər hidayət olunmuşlar.” Bu hədisi “Firdovsil-Əxbar” müəllifi nəql etmişdir.[1]

Xətib Bağdadi Bərra və Deyləmidən, onlar da İbni-Abbasdan rəvayət edirlər ki, Peyğəmbər (s) buyurdu:

“Əlinin mənimlə münasibəti mənim başımın bədənimlə olan münasibətidir. Əli Quran ilə, Quran da Əli ilədir. Onlar hovuzun (Kövsər) kənarında mənim yanıma gəlib çatana qədər bir-birindən ayrılmayacaqdır.”[2]

Termizi özünün “Səhih” kitabında, Təbəri və digərləri öz tarixlərində, Müttəqi Hindi “Kənzül-ümmal”ın 6-cı cildinin 401-ci səhifəsində Peyğəmbərin (s) Əli (ə) haqqında buyurduğu hədisi qeyd etmişlər; “Mən hikmət eviyəm, Əli onun qapısıdır.”

Hakim “Müstədrək”in 3-cü cildinin 122-ci səhifəsində Peyğəmbərin (s) Əli (ə) barədə buyurduğu iki mühüm hədisi qeyd etmişdir. Peyğəmbər (s) buyurur: “Ya Əli, sən mənim ümmətimin ixtilafı məsələlərini həll edəcəksən.”

Digər bir hədisdə buyurur:

“Hər kəs mənə itaət etsə, Allaha itaət etmişdir. Hər kəs Əliyə üsyankarlıq etsə, mənə qarşı üsyankarlıq etmişdir”.

## “İNFAQ” AYƏSİ

الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ

“Onlar ki, öz mallarını gecə, gündüz, gizlin və aşkar infaq edirlər, əcrləri Allah yanındadır. Onlar üçün nə qorxu, nə də ki qəm vardır.”[3]

İbni-Abbas nəql edir ki, bu ayə Həzrət Əlinin (ə) haqqında nazil olub. Əlinin (ə) 4 dirhəm pulu var idi. Ondan birini gecə, birini gündüz, birini gizli, birini isə aşkar sədəqə verdi. Peyğəmbər (s) bunun səbəbini soruşduqda Əli (ə) belə cavab verdi: “İstədim, Allahın mənə verdiyi vədini yerinə yetirim.” Peyğəmbər (s) buyurdu: “Agah ol, bu vədə sənin barəndə həqiqətə yetişdi.” Sonra bu ayə nazil oldu.

[1] “Kənzül–ümmal”, cild 6, səh.157
[2] “Müstədrək”, cild 1, səh. 1224
[3] “Bəqərə” surəsi, ayə 274

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həmçinin, rəvayət edirlər ki, Əlinin (ə) dörd dirhəm pulu var idi. Onun bir dirhəmini gündüz, bir dirhəmini gecə, bir dirhəmini gizlində, bir dirhəmini də cəmiyyət içində sədəqə verdi. Səbəbini belə izah etdi: "Allah yanında sədəqənin verildiyi şəraitlərin biri ən yüksək savaba malikdir. Mən pulumu müxtəlif şəraitlərdə verdim ki, heç olmazsa, biri həmin yüksək əcr – səvab mərtəbəsindən hesab edilsin."

## "BURUC" AYƏSİ

وَالسَّمَاء ذَاتِ الْبُرُوجِ

"And olsun əzəmətli bürclər sahib olan uca göyə."

İbni-Abbas "Buruc" surəsinin 1-ci ayəsi barəsində deyir: "Peyğəmbər (s) buyurdu:

"Mən asimanam, Əhli-beytimdən olan imamlar isə onun bürcləridir. Onlar on iki nəfərdir."[1]

## "SALEH MÖMİN" AYƏSİ

إِن تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَلِكَ ظَهِيرٌ

"Əgər onun ziddinə getsəniz, Allah onun mövlası (rəhbəri), Cəbrail, saleh möminlər və mələkələr isə ona dayaqdırlar."[2]

Bu ayənin nazil olma səbəbi haqda çoxlu hədis və rəvayətlər nəql olunub. Amma onlardan ən mühümü budur: Peyğəmbər (s) öz xanımlarından olan Zeynəb Binti-Cəhişin yanına gedərkən Zeynəb Peyğəmbərin (s) xidmətində layiqincə dayanar və ona bal verərdi. Bu söz Peyğəmbərin (s) digər xanımı olan Aişəyə çatarkən o, Həfsə Binti-Ömərin yanına gedib dedi: Ey Həfsə (Peyğəmbərin (s) xanımlarından olub 2-ci Xəlifə Ömərin qızıdır), gəl, sözü bir yerə qoyaq, hər vaxt ki Peyğəmbər (s) bizim yanımıza gəlsə, soruşaq ondan ki, "Məğafir sumağı yemisənmi?" (Bu, Hicazda bitən Urfut ağacından alınan pis qoxulu bir sumaqdır)."

Bir gün Peyğəmbər (s) Həfsənin yanına gələrkən o, Peyğəmbərdən (s) "sumaq yemisənmi?" - deyə soruşdu. Peyğəmbər (s) bu sözdən çox narahat oldu, çünki onun pis qoxusu vardı və Peyğəmbər (s) onu xoşlamazdı.

[1] "Yənaibiul-Məvəddət", cild 3, səh. 253, hədis 59
[2] "Təhrim" surəsi, ayə 4

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Peyğəmbərin (s) narahatlığından sonra bu ayə nazil oldu və Allah-Təala Peyğəmbərə (s) çatdırdı ki, bu iş (Aişə və Həfəsə tərəfindən qurulmuşdu) quramadır. Ayədə buyurulurdu: "Əgər tövbə etsəniz, sizin xeyrinizədir, yox, əgər işinizə davam etsəniz, onda bilin ki, Allah, Cəbrail, saleh möminlər və məlakələr Peyğəmbərə (s) dayaqdırlar. Sizin kələklərəriniz ona bir şey edə bilməz."

Ayədə qeyd olunan "saleh möminlər"dən məqsəd Həzrət Əlidir (ə). Əlinin (ə) adının bu ayədə Cəbrail və başqa mələklərlə birlikdə çəkilməsi o Həzrətin hansı məqamda olduğunu bizə çatdırır. Allah-Təaladan və vəhy mələyi Cəbrayildən (ə) sonra Peyğəmbərin ən böyük dayağı və köməkçisi Həzrət Əlidir (ə). Ona görə də Peyğəmbərin (s) vəfatından sonra onun yerində ancaq Həzrət Əli (ə) canişin ola bilərdi. Amma təəssüflər olsun ki, o zaman bir sıra nüfuz sahibləri tərəfindən Əlinin (ə) canişinlik məqamı əlindən alındı. Lakin o şəxslərdən heç biri Əli (ə) qədər insanların qəlbində özlərinə yer tuta bilmədilər. Böyük Füzuli yadigarı, Əhli-Beyt(ə) şairi S.Ə.Şirvani yazır:

***Piri-meyxanə Əlidir, odur ənvari-cəli,***
***Aşinanı tanı, seyr eyləmə biganə üçün.***

("Mey" - sözü ərəb əlifbası ilə yazılanda iki hərfdən ibarət olur: مى – mim və yey. Əbcəd hesabı ilə bu hərfi rəqəmə çevirəndə mim hərfi "4", yey hərfi isə "10" rəqəmini ifadə edir. Beləliklə, aydın olur ki, "Mey" sözü 14 məsuma işarədir. Yəni, Peyğəmbər (s), Fatimeyi – Zəhra (s. ə) və 12 İmam.

Şair bu beytdə deyir ki, Həzrət Əli (ə) 14 məsumun piri, ulusu və 11 İmamın atası, Həzrət Zəhranın (s.ə) həyat yoldaşı və Peyğəmbərin (s) kürəkənidir. Bu səbəbdən dostunu, yəni Əlini (ə) tanı, biganələrin ardınca getmə ki, qiyamət günü xəcalətli olasan.)

Axund Hacı Soltan Hüseynqulu oğlunun da S.Ə.Şirvaniyə yazdığı bir "Təxmis"də "mey"in 14 məsuma aid olduğunun şahidi oluruq.

Meyə on dörd nəfərin zikridir adət, vaiz,
Bu da Məsumlara eylər çü dəlalət, vaiz,
Yoxdu vəzində sənin zərrə ədalət, vaiz,
"Demə meyxanə yolun rahi-zəlalət, vaiz,
Oğlun ölsün, bir ayıl, bu Şəhi-Mərdan yoludur."

Yuxarıda qeyd olunan ayədə saleh möminlərin ən üstün nümayəndəsi Həzrət Əlidir (ə).

Hakim Həskani Hənəfi bu ayənin barəsində 18 hədis nəql edib. Bu hədislərin hamısı "saleh möminlər" kəlməsinin Əliyə (ə) aid olduğuna dəlalət edir. Müəllif hədislərin birində Əsma binti-Ümeyədən nəql edərək yazır: Peyğəmbər (s) buyurdu: "Saleh mömin Əli ibni-Əbu Talibdir."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Digər bir hədisi İbni-Abbas nəql edir ki, Peyğəmbər (s) buyurdu: “Əli (ə) saleh mömindir”[1]

***Mömin sayılan hər kəsin ünvanı Əlidir.***
***Təqvada mükəmməl olanın canı Əlidir.***

Əmmar Yasir nəql edir ki, Əli (ə) buyurdu: “Ey Əmmar, bir gün Peyğəmbər (s) məni çağırıb buyurdu: “İstəyirsənmi, sənə şad xəbər verim?” Ərz elədim: “Ya Rəsulullah, sən həmişə xeyir xəbər vermisən.” Həzrət Peyğəmbər (s) buyurdu: “Allah sənin barəndə ayə nazil etdi. Soruşdum: “Ya Rəsulullah, hansı ayəni?” Bu vaxt Peyğəmbər (s) bu ayəni oxudu.

## “ONU TƏSDİQ EDƏNLƏR” VƏ “QOHUM EDƏNLƏR” AYƏSİ

وَالَّذِي جَاء بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُوْلَئِكَ هُمُ الْمُتَّقُونَ

“Haqqı (Quranı) gətirənlər və onu təsdiq edənlər (Peyğəmbər və möminlər) isə əsl müttəqilərdir.”[2]

Bu ayədə “Onu təsdiq edənlər” ifadəsi Həzrət Əliyə (ə) aiddir.

وَهُوَ الَّذِي خَلَقَ مِنَ الْمَاء بَشَرًا فَجَعَلَهُ نَسَبًا وَصِهْرًا وَكَانَ رَبُّكَ قَدِيرًا

“İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsl qohum (qan qohumu) və sonradan qohum edən odur.”[3]

Bu ayədə İmam Əli (ə) və Həzrət Fatimə (s.ə.) nəzərdə tutulmuşdur.”[4]

## “MƏRƏCƏL–BƏHREYİN” AYƏSİ

مَرَجَ الْبَحْرَيْنِ يَلْتَقِيَانِ بَيْنَهُمَا بَرْزَخٌ لَّا يَبْغِيَانِ فَبِأَيِّ آلَاء رَبِّكُمَا تُكَذِّبَانِ
يَخْرُجُ مِنْهُمَا اللُّؤْلُؤُ وَالْمَرْجَانُ

“Allah-Təala iki dəryanı yan-yana qərar verdi, fəqət onları bir-birindən ayıran maneə vardır. Allahın hansı nemətini inkar edəcəksiniz?! O iki dəryadan inci və mərcan çıxar.”[5]

---

[1] Həkim Həskani Hənəfi
[2] “Zumər” surəsi, ayə 33
[3] “Furqan” surəsi, ayə 54
[4] Şeyx Abbas Qumi, “Fəzaili-Əli”.
[5] “Ərrəhman” surəsi, ayə19-22

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bəzi rəvayətlərdə iki dərya ibarətdir Əli (ə) və Fatimədən (s.ə) və Bərzəx ibarətdir Peyğəmbərdən (s) və lölö və mərcan ibarətdir Həsən (ə) və Hüseyndən (ə). Dəryaya şəbahəti (oxşarlıqları) onların vüsəti-fəzil və kəsrəti-xeyr cəhətinədir.

“Şəvahidüt-tənzil”də Səlman Farsidən bu ayələrin təfsiri nəql olunub: “Mərəcəl-Bəhreyin”dən (iki dəryadan) məqsəd Əli (ə) və Fatimədir (s.ə). Sonra nəql edir ki, Peyğəmbər (s) buyurdu: “Yəxrucu minhuma lölü vəl mərcan”dan (inci və mərcandan) məqsəd Həsən və Hüseyndir.”

Digər bir hədisdə Səid ibni-Cübeyirdən belə nəql olunub: “Mərəcəl – Bəhreyində” məqsəd Əli (ə) və Fatimədir (s.ə.).

“Bəynəhuma Bərzəxun la yəbğiyan” – da (Ancaq aralarında maniə vardır ki, bir-birinə qarışmazlar) məqsəd onların arasında olan sonsuz məhəbbətdir.

“Yəxrucu minhuməl lola vəl mərcan” (o iki dəryadən inci və mərcan çıxar). Bu ayədə məqsəd Behişt gənclərinin ağaları sayılan Həsən və Hüseyndir (ə).

“Bərzəx” iki şey arasında olan maneəyə deyərlər. Bu ayədə işlənən “Bərzəx” kəlməsindən məqsəd Həzrət Əliylə (ə) Həzrət Fatimənin (s.ə.) arasında olan ülvi məhəbbətdir ki, kənar söhbətlərin müdaxiləsinin qarşısını alır.

## “SABİQUN” AYƏSİ

**وَالسَّابِقُونَ السَّابِقُونَ أُوْلَئِكَ الْمُقَرَّبُونَ فِي جَنَّاتِ النَّعِيمِ ثُلَّةٌ مِّنَ الْأَوَّلِينَ وَقَلِيلٌ مِّنَ الْآخِرِينَ**

“Vaqiə” surəsinin 10, 11, 12, 13, 14-cü ayələrində Allah-Təala buyurur: “Bir də (imanda) öndə olub hamıdan qabağa keçənlər! (Allaha) yaxın olanlar da bunlardır! Bil, nemətli cənnətlərdə (olacaqlar) çoxu əvvəlkilərdəndir. Bir azı da sonrakılardan.”

Bu ayədə Həzrət Əli (ə) və onun şiələri nəzərdə tutulur.

“Şəvahidüt-tənzil” kitabında hakim Həsəkani İbni-Abbasdan nəql edir:

**السّابق ثلاثة سبق يوشع بن نون إلى موسى و سبق صاحب ياسين إلى عسى و سبق علىّ إلى نبىّ(ص).**

“İmanda qabaqcıllar üç nəfərdir: Yuşə Həzrət Musaya (ə) iman gətirənlərin qabaqcılı olub. Sahibi Yasin (Həbibi Nəccar) İsaya (ə) iman gətirənlərin qabaqcılı olub. Həzrət Əli (ə) isə Həzrət Muhəmmədə (s) iman gətirənlərin qabaqcılı olub.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həmin kitabın başqa bir yerində İbni-Abbasdan belə nəql olunur. İbni-Abbas deyir: “Mən Peyğəmbərdən (s) bu ayənin təfsirini soruşdum. Həzrət cavabında buyurdu:

**هدّثنی جبرئیل بتفسیرها، قال ذاک علیّ و شیعته إلی الجنّة.**

Mən bu ayənin təfsirini Cəbraildən soruşdum, dedi: Bu, Əli (ə) və onun şiələrindən olanlardır. Onlar Behiştə birinci gedəcəklər.”

Bu iki hədisdən aydın görsənir ki, Peyğəmbərə (s) həm ilk iman gətirən, həm də behiştə ilk daxil olan şəxs Həzrət Əlidır (ə).

***Əhli-İslama, yəqin, babi-Əlidəndi nicat,***
***Özgə bir kəsdə səxa yoxdu, bu xülyadan keç.***[1]

Bir gün səhabələr Həzrət Peyğəmbərdən (s) soruşdular: “Ya Rəsulullah, sənin ümmətinin bizdən üstün möminləri olacaqmı?” Həzrət cavabında buyurdu: “Zaman gələr ki, o zamanın bir mömini siz səhabələrin əlli nəfərindən üstün olar.”

Səhabələr dedilər: “Ya Rəsulullah, Quran bizim yanımızda nazil olub, böyük müharibələri biz udmuşuq, hicrət və mühasirələrə biz məruz qalmışıq. Necə ola bilər ki, onlar bizdən üstün olsun?

Həzrət Peyğəmbər (s) buyurdu: “Bütün bu işləri siz mənim yanımda, mənim köməkliyim ilə və məni görərək etmisiniz. Amma o zamanın möminləri məni görməyəcək, mənim canişinimin qeybəti (12- ci imamın qeybdə olduğu dövr nəzərdə tutulur) dövründə yaşayacaqlar. Bununla belə, iman gətirib, siz etdiyiniz əməlləri də yerinə yetirəcəklər.

## “NƏCVA” AYƏSİ

**يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَةً ذَلِكَ خَيْرٌ لَّكُمْ وَأَطْهَرُ فَإِن لَّمْ تَجِدُوا فَإِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ**
**أَأَشْفَقْتُمْ أَن تُقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَاتٍ فَإِذْ لَمْ تَفْعَلُوا وَتَابَ اللَّهُ عَلَيْكُمْ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ**

“Ey iman gətirənlər! Peyğəmbərlə(s) gizli söhbətləşdiyiniz zaman, əvvəlcə, Allah yolunda sədəqə verin. Bu sizin üçün yaxşı və pakizədir. Əgər imkanınız olmasa, Allah bağışlayan və mehribandır.”[2]

---

[1] Beyt Axund Hacı Soltanındır.
[2] “Mücadilə” surəsi, ayə12, 13

“Məgər siz Peyğəmbərlə məxfi danışmazdan əvvəl sədəqə verməkdən (fəqirlikdən) qorxdunuzmu? Madam ki, siz etmədiniz, sədəqə vermədiniz. Allah yenə də tövbənizi qəbul etdi. Onda namaz qılıb, zəkat verin. Allaha və Peyğəmbərinə itaət edin. (Və bilin ki, Allah nə etdiklərinizdən agahdır!)”

Bu iki ayə Əlinin (ə) fəzilətinə dəlalət edən ayələrdəndir.

Mötəbər rəvayətlərə istinadən qeyd olunur ki, Peyğəmbər (s) zamanında bir dəstə var-dövlət sahibi olan insanlar özlərini nüfuz sahibi kimi göstərmək üçün kiçik bir işdən ötrü Peyğəmbərin (s) yanına gəlib, onun qulağına söz deyib, özlərini böyük adam kimi qələmə vermək istəyirdilər. Amma dərk etmirdilər ki, onların bu işi kasıb təbəqədən olan insanların narahatlığına səbəb ola bilər. O səbəbdən “Mücadilə” surəsinin 12-ci ayəsi nazil olub, müsəlmanlara göstəriş verdi ki, bu işinizdən əvvəl sədəqə verin. Bu əmr özünü Peyğəmbərə (s) daha yaxın edənlər üçün yaxşı bir imtahan idi. Camaat sədəqə verməkdən boyun qaçırdı. Təkcə Həzrət Əli (ə) bu əmrə əməl etdi. Allah-Təala bu ayədə kimin hansı mövqedə olduğunu aşkar etdi.

Amma bir müddət keçəndən sonra 13-cü ayə nazil olub, bu hökmü aradan qaldırdı. Bu ayələrdən məlum oldu ki, bəzi adamların var-dövlətə olan məhəbbəti, Peyğəmbərlə (s) söhbət etməyə olan məhəbbətdən üstündür. Hansı bir çətin şərait qarşıya çıxır-çıxsın, Əli (ə) o çətinliyə razılaşar və Allah-Təalanın əmrinə əməl edib, Peyğəmbərə (s) yaxın olardı.

Həzrət Muhəmməd (s) Əliyə (ə) bir iş tapşırmışdı. Əli (ə) bu işdən qayıdanda Peyğəmbər (s) onu görüb şad oldu və təbrik dedi. Sonra Əli (ə) ilə astadan söhbət etməyə başladı. Bunu görən İbni-Ömər Xəttab narazılıqla dedi: “Onunla xəlvət danışırsan, biz qalmışıq kənarda”. Həzrət Peyğəmbər (s) buyurdu: “Ey Ömər, bilmirsən ki, onunla xəlvət danışmağı Allah mənə əmr edib?!”.

Bu hadisədən də bir daha aydın olur ki, Həzrət Əli (ə) Allah yanında nə qədər üstün fəzilətə malik olan bir şəxs idi. Bu ayənin barəsində “Şəvahid ət-tənzil” kitabında Mücahiddən, o da Əlidən (ə) nəql edir ki, Həzrət Əli (ə) buyurdu:

**إنّ فى القرآن لآية ما عمل ها أحد قبلى و لا بعدى و هو أية النجوى. قال: كان لى دينار فبعته بعشرة دارهم فكلّما أردت أن أناجى النّبِى(ص) تصدّقت بدرهم منه هم نسخت.**

“Quranda məndən başqa heç bir kəsin əməl etmədiyi bir ayə var. O, “Nəcva” ayəsidir. Mənim bir dinarım var idi. Onu on dirhəm edib, hər dəfə bir dirhəm sədəqə verməklə on dəfə Peyğəmbərlə (s) pıçıltı ilə danışdım. Sonra bu ayə nəsx oldu (hökm qüvvədən düşdü). Məşhur sünni

alimi Süyuti "Dürrül-mənsur" kitabında 7-dən çox mötəbər sənədlə bu hədisi nəql edibdir.

Digər bir hədis "Ruhul-bəyan" tərəfindən Abdullah ibn Ömərdən nəql olunur.

**كان لعلىّ ثلاهق لو كانت لى واحدة منهنّ كان أحبّ إلىّ من حمر النعيم ترويجه فاطمة(س) و إعطاؤثه الرّاية يوم الخير و آية النجوى**

"Əlinin (ə) üç fəzilətinə mənim çox rəğbətim var. Əgər onlardan biri məndə olsaydı, bu iş mənim üçün qırmızı dəvədən də artıq olardı (Qırmızı dəvə ərəblərdə ən qiymətli şey kimi nəzərdə tutulurdu – H.H.).

1. Fatimə (s.ə ) ilə evlənməyi;
2. Xeybər müharibəsində bayrağın ona verilməsi;
3. "Nəcva" ayəsidir".

## "TƏQVALILAR" AYƏSİ

Həzrət Əli (ə) barəsində nazil olan ayələrdən biri də "Təqvalılar" ayəsidir.

**ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ**

"Budur, onda heç bir şübhə olmayan və təqvalıları hidayət edən kitab."[1]

Ayədəki "təqvalılar" kəlməsi Əliyə (ə) işarədir.

Bu ayənin Həzrət Əliyə (ə) aid olması barəsində Şərq ədəbiyyatında bir çox şairlər şeirlər yazmışdır ki, o şairlərdən biri də gözəl təbə malik olan Axund Hacı Soltandır.

### *MÖVLA ƏLİDİR*

Eyyuhənnas, bilin, sahibi-təqva Əlidir,
Həm də təqva sözünə bətnidə məna Əlidir.

Inamın ölçüsü, meyarı, halalın həddi,
Paklığın rəmzi olan zati-mübərra Əlidir.

Tanrının şəfqəti mehrinə odur layiq olan,
Özü ali, sözü ali, adı əla Əlidir.

---

[1] "Bəqərə" surəsi, ayə 2

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əli gər hər nə ibadət eləyə, məqbuldur,
Çün ibadətlərə də ziynətü ziba Əlidir.

Qapısı pirü, özü nur, kərəm sahibidir,
Aləmi-mərifəti eyləyən inşa Əlidir.

Fanidə sərv nədir, baqidə Tuba nəçidir,
Əlifi ismi-Xudada edən icra Əlidir.

Şərhi-təqva ilə Həmmami yetirdi vəslə,
Eyləyən mömin üçün cənnəti bərpa Əlidir.

Əliyə yoxdusa mehrin, daha "Quran" oxuma,
Mətni-Quranidəki hər əlifü ba Əlidir.

Xaliqə arif olan kimsə Əlidən dönməz,
Sanki bir nəhrdi təqva, ona məcra Əlidir.

Buyurub ayeyi-Quranda Xuda: "Əkrəməkum",
Bu guruhə hər iki mülkidə mövla Əlidir.

Soltana söz deməyin, yoxdu eşitmək hali,
Əqli məşğuldu ki, başındakı sevda Əlidir.

## "SƏADƏTƏ ÇATANLAR" AYƏSİ

أُوْلَـئِكَ عَلَى هُدًى مِّن رَّبِّهِمْ وَأُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

"Onlar Rəbbləri tərəfindən hidayət olunub, səadətə çatanlardırlar".[1]

Ayədə " Səadətə çatanlar" Əliyə (ə) və o Həzrətin tərəfdarlarına işarədir.

[1] "Bəqərə" surəsi, ayə 5.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “SİRATƏL-MÜSTƏQİM” AYƏSİ

**اهدِنَا الصِّرَاطَ المُستَقِيمَ**

“Fatihə” surəsi, 6-cı ayə: “Bizi doğru yola yönəlt.”

İmam Sadiqdən (ə) rəvayət olunub ki, bu ayədə Siratəl-Müstəqim-Əmirəl- Möminin Əlidır (ə).[1]

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən biri, 19-cu əsrin şirin kəlamlı şairi, Əhli-beyt (ə) aşiqi Qumru Dərbəndi “Həmd”, ”İxlas” surələrində Həzrət Əlinin (ə) parlaq simasını sətiraltı mənalarla oxucuya belə çatdırır:

***Dəftəri-Mədhündü Tövratilə İncilu Zəbur,***
***Vəsfi-övsafündə Quran bir kitabət, ya Əli.***

***Nöqteyi-payini-təhti-bai-Bismillahisən,***
***Kəlmeyi-əşhədu lillahi-vəsatət, ya Əli.***

***Əntə ya molayi-din, molayi-rəbbil-aləmin,***
***Batini-mənayi-həmd üçün ibarət, ya Əli.***

***İsmin olmuş ismi-rəbbil-aləmindən intixab,***
***Ey adı müştəqqi, əsmai-cəlalət, ya Əli.***

***Rəbbi-əlasən, Əlisən, rəbbi-rəhmansan rəhim,***
***Rəbbi-izzət, rəbbi-millət, rəbbi-şövkət, ya Əli.***

***Maliki-divani-yəvmiddinə sənsən həbbəza,***
***Ayəti-iyyakə Nəbud, bil ibadət, ya Əli.***

***Nəstəin iyyakə bəl vallahu xeyril-müstəan,***
***Ey olan miftahi-babi-istianət, ya Əli.***

***Bəzmi-xasi-xaliqül-isbahə misbahən-vəra,***
***İhdinə ləfzində misdaqi hidayət, ya Əli.***

***Sən sirati-müstəqimi-aləmi-ibdaisən,***
***Ey sirati-ədlü mizani-təriqət, ya Əli.***

---
[1] Şeyx Səduq. “Məaniyyul-Əxbar”

*Əlləzinə yunkirunən-nemətə veylun ləhum,*
*Batini-ənəmtidə məqsudi-nemət, ya Əli.*

*La əleyhim qeyri-məğzubi-əleyhim bəl vəla,*
*Moqifi-divani üqbadə şəfaət, ya Əli.*

*Həülail-qamu əhlun-nari-bəl hum zal-lin,*
*Mərhəba əhbabuvə, ədavə zillət, ya Əli.*

*Qulhüvəllahu əhədsən, deyim, haşa vəla,*
*Vardu Əllahus-Samədədən səndə qüdrət, ya Əli.*

*Ləm yəlidsən aləmi-ənvar içində, şübhəsiz,*
*Yüz min illər aləmi qıldın səyahət, ya Əli.*

*Gər vələm yuləd desəm, əstəğfürul-lahəl əzim,*
*Var bu mətləbdən vücudündə bəraət, ya Əli.*

*Ləfzü babu ləm yəkun ilən ləhu küfuvən əhəd,*
*Səndə həm peydadu bəd əz rəbbi-izzət, ya Əli.*

*Aşikarədür verən cahu cəlali-rütbəvə,*
*Üç yüz on üç ayeyi-Quran şəhadət, ya Əli.*

*İbtida əvvəl əlif lam, mim zalikəl-kitab,*
*Reybisiz hadi sən olmaqdır işarət, ya Əli.*

## HƏZRƏT ADƏMƏ (Ə) NİCAT VERƏN AYƏ

İmam Əlinin (ə) mübarək adı Adəmə(ə) nicat verdi.

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ

“Adəm öz Allahından (bəzi, xüsusi) kəlmələr öyrəndi ki, onun tövbəsinin qəbul olmasına səbəb oldu. Həqiqətən, Allah tövbə qəbul edən və mehribandır.”[1]

İbn ən Nəcar İbn Abbasdan nəql edir: “Bu kəlmələr Muhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynin (ə) mübarək adlarından ibarətdir.”

Əhli-beyt aşiqi, Azərbaycan klassik ədəbiyyatının görkəmli simalarından olan S.Ə.Şirvani də bu ayədə işlənən “kəlimatin” sözündən məqsədin Əhli-beytin (ə) adlarının olmasını qeyd edir.

***Pənc-tənlər adını zikr et ki, Seyyid bilmişəm,***
***Adəmə təlimi-əsmadan bu mənadır qərəz.***

Və yaxud:

***Piri – meyxanə Əlidir, odur ənvari – cəli,***
***Aşinanı tanı, seyr eyləmə biganə üçün.***

Axund Hacı Soltan da “Əlidir” rədifli qəzəlində Adəmin (ə) tövbəsinin Həzrət Əliyə (ə) xatir qəbul olunduğunu qeyd edir.

***Bildinmi, necə əfv elədi Adəmi Xaliq ?***
***Bu məğfirətin rəhməti-ğüfranı Əlidir.***

İbn Abbas deyir ki, bir gün Peyğəmbərdən (s) soruşdum: “Adəmin Allahdan öyrəndiyi və tövbə etmək vasitəsi olan sözlər hansılardır?” Buyurdu: “Allahı Muhəmmədə (s), Əliyə (ə), Fatiməyə (ə), Həsənə (ə) və Hüseynə (ə) and verdi, tövbəsi də qəbul oldu.”

Hədisi-qüdsidə İbn Abbas Peyğəmbərdən (s) belə nəql edir: “Rəsuli-Əkrəm (s) buyurdu: “Allah Adəmi yaradıb öz ruhundan ona daxil etdikdən, mələkləri ona səcdə etdirdikdən, ona cənnətdə yer verib Həvva ilə evləndirdikdən sonra Adəm (ə) başını ərşə tərəf qaldırdı, gördü ki, orda beş nəfərin adı yazılmışdır. Adəm (ə) soruşdu: “Pərvərdigara, bunlar kimlərdir? Allah-Təala buyurdu: “Bunlar o şəxslərdir ki, əgər məxluqatım

---

[1] “Bəqərə” surəsi, ayə 37

üçün Mənim dərgahımda şəfaət etsələr, Mən onların şəfaət və vasitəçiliklərini qəbul edərəm.” Adəm (ə) dedi: “Pərvərdigara, səni and verirəm onların sənin dərgahında olan qədir-qiymətinə, onların adları nədir? Allah buyurdu: “Birincisinin adına gəldikdə, Mən Məhmud olduğuma görə, o da Muhəmməddir. İkincisinin adı: Mən Ali olduğuma görə, o da Əlidir. Üşüncüsünün adı: Mən Fatih olduğuma görə, o da Fatimədir. Dördüncüsünün adı: Mən Möhsün olduğuma görə, bu da Həsəndir. Beşincisinin adı: Mən ehsan sahibi olduğuma görə, o da Hüseyndir. Onların hamısı Allaha həmd və səna edirlər.”[1]

Əhli-beyt şairi S.Ə.Şirvani Əhli-beytin (ə) yüksək nüfuza malik olduğunu belə xatırladır:

***Bar-ilahi, Behəqqi-Ali-Əba***
***Əfv qıl cürmümü, bağışla xəta.***
***Sənə bir əbdi-rusiyahəm mən,***
***Bəndeyi-asitani-şahəm mən.***
***Şahım ol Murtəzadı, nuri-cəli,***
***Heydəri-şirdil, Əliyyu vəli***
***Bar-ilahi, behəqqi-Ali-Bətul,***
***Tövbəvü üzrümü sən eylə qəbul.***

“Ənvarul-aşiqin” kitabında belə bir hədis nəql olunur: “Həzrət Adəm (ə) etdiyi günahın bağışlanması üçün neçə illər ağlayaraq dua etdi, amma bağışlanmadı. Bir gün o, Allah dərgahına üz tutarkən orada nurdan bir qübbə gördü və soruşdu: “Pərvərdigara! O nə qübbədir?”

Allah-Təala buyurdu: “Gördüyün Qübbə Həzrət Fatimədir. Başındakı Tac Həzrət Muhəmməddir. Belindəki kəmər Həzrət Əli, sağındakı və solundakı nur isə Həzrət Həsən və Həzrət Hüseyndir.”

Ya Adəm, mən Fatihəm, O, Fatimədir. Mən Həmidəm (həmd olunan), O Muhəmməddir. Mən Aliyəm (uca), O, Əlidir. Mən Sahibi-ehsanam, o, Həsəndir. Mən Hüsnəm (gözəl), o Hüseyndir. Bil ki, ey Adəm, bu adlar mənim üçün ən əziz olan isimlərdir.

Adəm (ə) dedi: “Pərvərdigara! Səni and verirəm bu isimlərə, məni bağışla.” Allah-Təala buyurdu: “Ey Adəm, bu isimlərə xatir mən nəinki səni, sənin bütün nəslini bağışlamağa hazıram.”

İmam Həsən Əsgəri (ə) buyurub: “Bir mömin öldüyü zaman, biri digərindən daha xoş ətirli və daha gözəl üzlü altı nurani şəxs onunla birgə qəbrə doğru hərəkət edər. Onun sağında, solunda, üstündə, altında, arxasında və önündə durarlar. Bu zaman onların ən gözəli soruşacaq: Siz-

[1] Şeyx Hürr Amili. “Hədisi–qüdsinin külliyyatı”)

lər kimsiniz? Sağda duran deyəcək: - Mən namazam; soldaki deyəcək: Mən zəkatam; Öndəki deyəcək: - Mən orucam, arxadakı deyəcək: – Mən həcc və ümrəyəm; altdakı deyəcək: – Mən onun din qardaşlarına elədikləri yaxşılıqlaram. Bu arada hamısı bir ağızdan ən gözəl üzlüdən soruşacaqlar: – Sən kimsən ki, hamımızdan gözəlsən? Mən Ali-Muhəmmədin vilayət və sevgisiyəm, deyə o cavab verəcək.[1]“

Bir şəxs İmam Sadiqdən (ə) əmin-aman yer haqqında soruşduqda İmam (ə) buyurdu: “Hər kəs Kəbə evin ziyarət etsə və bilsə ki, bu evin ziyarətini Allah əmr etmişdir, eləcə də, Əhli-beyti (ə) lazımınca tanısa, dünya və axirətdə amanda olacaq.”[2]

İbn Abbas Peyğəmbərdən (s) rəvayət edir ki, Həzrət (s) buyurdu: “Allah-Təalanın vəhy mələyi Cəbrail (ə) şad halda mənim yanıma gəldi. Ona dedim: “Dostum, sən ki, belə xoşhalsan, onda de, görüm, qardaşım və əmim oğlu Əli ibn Əbu Talibin (ə) Allah-Təala yanında məqamı necədir?”

Cəbrayıl (ə) dedi: “Səni yaradan və peyğəmbər seçən Allaha and olsun. Elə indi sənə Əli (ə) haqqında müjdə vermək üçün Allah dərgahından enmişəm. Ya Muhəmməd! Əliyyül-Əla Allah, sizin ikinizə də salam göndərir və buyurur ki, “Muhəmməd Mənim rəhmət peyğəmbərimdir. Əli də Mənim hüccətimi bərpa edəndir. Əlini (ə) sevən kəsə mən əzab vermərém, hərçənd Mənə itaətsizlik etsə belə. Əlini (ə) özünə düşmən bilən kəsə rəhm etmərəm, hərçənd Mənə itaət etsə də.”

Sonra Həzrət Peyğəmbər (s) sözünə davam etdi: “Qiyamət günü Mən “Rizvan” kürsülərinin birisində, Qüds minbərlərindən birinin üstündə oturacağam. Bu vaxt Cəbrayıl yetmiş tikə parçadan ibarət və hər tikəsi günəş və aydan böyük olan həmd bayrağı ilə Mənim yanıma gələcək. Mən o həmd bayrağını Cəbrayıldan alıb Əli ibn Əbu Talibə(ə) verəcəm. Bu vaxt Ömər narahat olub ərz etdi: “Ey Allahın Rəsulu! Dediyiniz o yetmiş tikədən ibarət və hər tikəsi günəşdən və aydan böyük olan bayrağı Əli necə götürə biləcək?” Peyğəmbər (s) buyurdu: “Qiyamət günü Allah-Təala Əliyə (ə) Cəbrayılın qüvvəsi qədər qüvvə, Adəmin (ə) nuru kimi nur, Rizvanın helmi qədər helm, Yusifin (ə) gözəlliyi qədər gözəllik, Davudun (ə) səsi kimi bir səs əta edəcəkdir. Əgər Allah-Təalanın təqdiri ilə Davud (ə) cənnətdə Həzrət Əlinin (ə) sözünü bəyan edən natiq kimi təyin olunmasaydı, Allah-Təala Davudun (ə) səsi mislində bir səsi Əliyə (ə) bəxş edərdi. Həqiqətən, Əli (ə) iki çayın – Səlsəbil və Zəncəbil çaylarının suyundan ən birinci içən şəxsdir. Həqiqətən, Əli (ə) və onun tərəfdarları Qiyamətdə hamının qibtə etdiyi bir məqamda olacaqlar.”[3]

---

[1]“Biharul-Ənvar”, cild 6. səh. 234
[2] “Üsuli–Kafi”, cild 4, səh 540
[3] “Biharul-Ənvar”, cild 8, . fəsil 18, səh. 3.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**ربنا امنا بما أنزلت واتبعنا الرّسول فاكتبنا مع الشاهدين.**

"Pərvərdigara! Biz Sənin, Əli (ə) barədə nazil etdiyinə (vilayətə) iman gətirdik."

## "RÜKU" AYƏSİ

**وَارْكَعُواْ مَعَ الرَّاكِعِينَ**

"Rüku edənlərlə birlikdə rüku edin."[1]

Müvəffəq ibn Əhməd və Əbu Nəim ibn Abbasdan nəql edirlər ki, bu ayə Peyğəmbər (s) və Əli (ə) haqqında nazil olmuşdur. Peyğəmbər (s) və Əli (ə) namaz qılan və rüku edən ilk müsəlmanlar idilər.

İbn Abbas nəql edir:

"Əlidə (ə) olan 4 xüsusiyyət heç kəsdə yoxdu: Əli (ə) ərəb və əcəm içərisində Peyğəmbərlə (s) namaz qılan ilk şəxsdir."

Həzrət Əli (ə) özü belə buyurur:

"Mən Allahın bəndəsi, Peyğəmbərin (s) qardaşı və Səddi-Əkbərəm. Məndən sonra bu sözü yalançıdan başqa bir kəs deməz. Mən Rəsulullah ilə yeddi il camaatdan qabaq namaz qıldım və onunla namaz qılan ilk şəxsəm."

## "SORĞU–SUAL" AYƏSİ

Qiyamət günü Həzrət Əlinin (ə) vilayəti barədə soruşacaqlar.

**وَقِفُوهُمْ إِنَّـهُم مَّسْئُولُونَ**

"Onları yubadıb saxlayın, çünkü sorğu-sual olunacaqlar."[2]

Əbu Səid Xodri Peyğəmbərdən (s) nəql edir ki, sorğu-sual olunacaq məsələ Həzrət Əlinin (ə) vilayətidir.[3]

Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətai vilayət barədə "Məndədir" rədifli qəzəlinin bir bəndində deyir:

***Mən şəha bu canımı sidq ilə qurban qılmışam,***
***Gər qəbul qılsa vilayət, eydi-qurban məndədir.***

---

[1] "Bəqərə" surəsi, ayə 43
[2] "Saffat" surəsi, ayə 24
[3] "Şəvahidut – Tənzil", cild 1, səh. 170

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

İslam dinində Əhli-beytin (ə) vilayətini qəbul etmək dinin vacib əməllərindən biridir. Bu haqda İmam Muhəmməd Baqir(ə) buyurub: "İslam dini 5 təməl üzərində qurulub: namaz, zəkat, həcc, ramazan ayının orucu və vilayət (yəni, biz Əhli-beytin (ə) vilayətini və dostluğunu qəbul etmək). Vilayət bunların açarıdır. Bunlardan 4-ü müəyyən hallarda rüsxətlidir (üzrlüdür), yəni fəqirə zəkat düşmür, imkanı müəyyən həddə çatmayan həcdən azaddır, xəstə adam namazını oturduğu halda da qıla bilər və oruc tutmaya bilər. Lakin vilayət heç kəsin boynundan götürülmür. Bu xəstəyə də, sağlama da, varlıya da, yoxsula da vacibdir.

İslam Peyğəmbərinin (s) də bu məzmunda bir hədisi var. Peyğəmbər (s) ümmətinə üz tutaraq buyurdu: "Məndən sonra Peyğəmbər yoxdur, sizdən sonra isə ümmət. Bəs, elə isə Allaha tapının, gündəlik 5 vacib namazınızı yerinə yetirin, Ramazan ayının oruclarını tutun, Allah evinin ziyarətinə gedin, malın zəkatını rəğbətlə verin, İmamlara itaət edin ki, Behiştə varid olasınız."

İmam Sadiq(ə) buyurub:

"Muhəmmədin (s) sadə və asan dini bunlardan ibarətdir: Namaz, Ramazan ayının orucu, Həcc, İmama itaət (vilayəti qəbul etmək) və möminlərin haqqına riaət etmək."

## "ƏMNİYYƏT" AYƏSİ

الَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ أُوْلَـئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ

"Əmniyyət iman gətirənlər və imanlarını şirkə qatmayanlar üçündür və bunlar hidayət olunmuşlardır."[1]

Bu ayədəki "İman gətirənlər və imanlarını şirkə qatmayanlar və hidayət olunmuşlar" kəlmələri Həzrət Əliyə (ə) işarədir.

## "ÖZ YARDIMI VƏ MÖMİNLƏRİN YARDIMI İLƏ DƏSTƏKLƏYƏN" AYƏSİ

وَإِن يُرِيدُواْ أَن يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللّهُ هُوَ الَّذِيَ أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ

Bu ayədə Allah-Təala "Öz yardımı və möminlərin yardımı ilə dəstəkləyən" şəxsin Həzrət Əli (ə) olmasına işarə edir.

"Əgər səni aldatmaq istəsələr, sənin üçün Allah kifayətdir. Səni öz yardımı və möminlərin yardımı ilə dəstəkləyən Odur."[2]

1 "Ənam" surəsi, ayə 82
2 "Ənfal" surəsi, ayə 62

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “SƏNƏ TABE OLAN MÖMİNLƏR” AYƏSİ

يَا أَيُّهَا النَّبِيُّ حَسْبُكَ اللّٰهُ وَمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ

“Ey Peyğəmbər, Allah və sənə tabe olan möminlər sənin üçün bəsdir.”[1]

Bu ayədə “Sənə tabe olan möminlər” kəlməsindən məqsəd Həzrət Əlidir (ə).

## “KÖNÜL SAHİBLƏRİ VƏ GÖRÜB QULAQ ASAN” AYƏSİ

إِنَّ فِي ذَلِكَ لَذِكْرَى لِمَن كَانَ لَهُ قَلْبٌ أَوْ أَلْقَى السَّمْعَ وَهُوَ شَهِيدٌ

“Bu sözdə könül sahiblərinə və görüb qulaq asana öyüd var.”[2]

Ayədə ifadə olunan “könül sahibləri və görüb qulaq asan” kəlməsindən məqsəd Əlidir (ə).

## “DOĞRU DANIŞAN SİDDİQLƏR”

والذين آمنوا بالله و رسوله أولئک

“Allaha və peyğəmbərinə iman gətirənlər doğru danışan siddiqlərdirlər.”[3]

Ayədə gələn “ doğru danışan siddiqlər” kəlməsi Əliyə (ə) işarədir.

## “TƏQVALILAR ÜÇÜN QURTULUŞ VƏ SƏADƏT YERİ”[4] AYƏSİ

إنّ للمتّقين مفازاً

Ayədəki “təqvalılar üçün qurtuluş və səadət yeri” ifadəsi Əliyə (ə) işarədir.

---

[1] “Ənfal” surəsi, ayə 64
[2] “Qaf” surəsi, ayə 37
[3] “Hədid” surəsi, ayə 19
[4] “Nəba” surəsi, ayə 31

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “XOŞ RUZİGARDIRLAR” AYƏSİ

وَأَصْحَابُ الْيَمِينِ مَا أَصْحَابُ الْيَمِينِ

Amma sağ tərəf sahibləri! Onlarda nə xoş ruzigardırlar.”[1]

Bu ayədə işlənən “Xoş ruzigardırlar” – kəlməsindən məqsəd səadət əhlidir. “Səadət əhli” kəlməsi də Mövla Əliyə (ə) işarədir.

## “XEYRÜL–BƏRİYYƏT” AYƏSİ

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُوْلَئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ

“İman gətirənlər və yaxşı işlər görənlər yaranmışların ən yaxşısıdır.”[2]

Şiə təfsirçiləri kimi bəzi sünni təfsirçiləri də çoxlu sənəd və hədislərə söykənərək yazmışlar ki, “Xeyrül-Bəriyyə” adı ilə məhşur olan bu ayə Həzrət Əli (ə) və onun şiələri barədə nazil olmuşdur. Bu ayə nazil olandan sonra müsəlmanlar Həzrət Əliyə (ə) “Xeyrül-Bəriyyə” deməyə başlamışlar.

Süyuti İbn Abbasdan nəql edir ki, “Xeyrül-Bəriyyə”ayəsi nazil olandan sonra Rəsuli-Əkrəm (s) Həzrət Əliyə (ə) buyurmuşdur: “Xeyrül-Bərriyyə” – sən və sənin şiələrindir: Qiyamət günü siz Allahdan və Allah da sizdən razı olacaqdır.”

“Nurus-səqəleyin” İbni-Tavusa istinadən nəql edir: “26-cı xəbərdə göstərildiyinə görə, “Xeyrül-Bəriyyə” Həzrət Əli (ə) və onun şiələri haqqında nazil omuşdur. Onların “Xeyrül-Bəriyə” və yaradılmışların ən yaxşıları olmalarının ən bariz əlaməti iman və saleh əməldir və bu əlamətlər onları “Xeyrül-Bəriyyə” etmişdir.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Sizlərin ən yaxşısı o kəsdir ki, insanlar onun xeyrinə ümidvar və şərindən isə amanda olsun.”

Hicri 5-ci əsrin ən böyük alimlərindən olan Hakim Həsəkani Nişapuri bu ayənin Həzrət Əlinin (ə) və onun şiələrinin haqqında nazil olmasını özünün “Şəvahidül – Tənzil” əsərində müxtəlif sənədlərlə nəql etmişdir.

İbn Abbas deyir:

[1] “Vaqiə” surəsi, ayə 27
[2] "Bəyyinəh" surəsi, ayə 7

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Xeyrül-Bəriyyə" ayəsi nazil olduğu zaman Peyğəmbəri-Əkrəm (s) buyurdu: "Bu ayədən məqsəd sən və sənin şiələrindir ki, Qiyamət günü məhşər meydanına elə halda daxil olacaqsınız ki, həm siz Allahdan razı olacaqsınız, həm də Allah sizdən. Sənin düşmənin isə məhşərə qəzəbli halda daxil olacaq və zorla cəhənnəmə sürüklənəcəkdir."[1]

Əbu Bərzdən nəql olunan başqa bir hədisdə deyilir: "Peyğəmbəri - Əkrəm (s) bu ayəni tilavət edən zaman buyurdu: "Onlar sən və sənin şiələrindir. Ya Əli! Mənim və sizin vədəniz Kövsər hovuzunun yanındadır" (yəni, görüşməkdir).[2]

Cəlaləddin Süyuti də özünün "Dürrül-Mənsur" kitabında İbn Abbasdan nəql etmişdir: "Xeyrül-Bəriyyə" ayəsi nazil olan zaman Peyğəmbəri Əkrəm (s) Əliyə (ə) buyurdu: "O sən və sənin şiələrindir ki, Qiyamətdə həm siz Allahdan razısınız, həm də Allah sizdən razıdır."[3]

Həmin əsərdə İbn Mordveyhdən, o da Əlidən (ə) nəql edir ki, "Peyğəmbəri-Əkrəm (s) mənə buyurdu: "Məgər sən Allahın bu sözünü eşitməmisən: "İman gətirib saleh əməllər edənlər yaradılmışların ən yaxşılarıdır?" Bunlar sən və sənin şiələrindir, Mənim və sizin görüş yerimiz Kövsər hovuzunun yanındadır. Mən ümmətlərin haqq-hesabı üçün gələn zaman siz alnıaçıq və tanınmış halda dəvət olunacaqsınız."[4]

Bu xəbərlər həm də belə bir həqiqəti aydın şəkildə göstərir ki, "şiə" kəlməsi ilk dəfə Peyğəmbərin (s) öz zamanında və şəxsən, o həzrətin özü tərəfindən işlədilmişdir və Əmirəl-Möminin Həzrət Əlinin (ə) davamçılarına bir işarədir.[5]

## "YÜKSƏK MƏQAM" AYƏSİ

وَتِلْكَ حُجَّتُنَا آتَيْنَاهَا إِبْرَاهِيمَ عَلَى قَوْمِهِ نَرْفَعُ دَرَجَاتٍ مَّن نَّشَاء إِنَّ رَبَّكَ حَكِيمٌ عَلِيمٌ

"Bu (növ dəlil) qövmü qarşısında bizim İbrahimə verdiyimiz höccətdir. İstədiyimiz kəsi (layiq bilsək) yüksək dərəcəyə çatdırarıq. Həqiqətən, Sənin Rəbbin hikmət sahibi və biləndir."[6]

İmam Baqir(ə) buyurmuşdur: "Bu ayə, həyatı boyu bir an belə şirkə yol verməmiş Həzrət Əli (ə) haqında nazil olmuşdur."[7]

---

[1] "Şəvahidül – Tənzil", cild 2, . səh. 357, hədis 1126
[2] "Şəvahidül – Tənzil", səh. 359, hədis 113
[3] "Dürrül–Mənsur", cild 6, səh. 379
4 "Dürrül–Mənsur"
[5] Hacı Əbdürrəhman Yusifpur, "30-cu cüzvünün təfsiri", cild 2, səh. 246
[6] "Ənam" surəsi, ayə 83
[7] "Bihar", cild 23, səh.. 367

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “İRS” AYƏSİ

قَالَ مُوسَى لِقَوْمِهِ اسْتَعِينُوا بِاللّهِ وَاصْبِرُواْ إِنَّ الأَرْضَ لِلّهِ يُورِثُهَا مَن يَشَاء مِنْ عِبَادِهِ وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ

“Musa öz qövmünə dedi: “Allahdan yardım diləyin, səbr və müqavimət yolunu seçin. Çünki yer o Allahındır ki, onu istədiyi bəndəsinə irs qoyar. (Xoş) aqibət pəhrizkarlara məxsusdur”.[1]

Bu ayədə iki müjdə ilə müşayiət olunan iki göstəriş verilir: Yardım diləmək və səbr göstərişi, təqvalılara yer üzündə varislik və xoş aqibət müjdəsi.

İmam Baqir (ə) Həzrət Əlinin (ə) belə buyurduğunu nəql edir: “Mən və Mənim Əhli-beytim(ə) bu ayənin (nümunələri) ünvanlarıyıq”.

İmam Sadiq (ə) bu ayənin təfsirində buyurmuşdur: “Yer Allahındır, yəni Allahın rəsulu və imamlar Allah tərəfindən yer üzünün varisləridir.”[2]

وَمِمَّنْ خَلَقْنَا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ

“Yaratdıqlarımızdan bir dəstəsi (başqalarını) haqqa çağırır və haqq olaraq hökm edir.”[3]

Bu ayə, rəvayətlərdə qeyd olunduğuna görə, Peyğəmbər (s) Əhli-beyti (ə) və ardıcılları haqda nazil olmuşdur.[4]

Həzrət Peyğəmbər (s) buyurur: “Bu ayədə mənim ümmətimin elə bir dəstəsi nəzərdə tutulur ki, onların bütün hökmləri, göstərişləri, ətaları və alış-verişləri haqq üzərində bərqərardır”[5]

Həzrət Əli (ə) İslam ümmətindən çıxacaq dəstələr haqqında danışarkən buyurmuşdur: “Yalnız qurtuluş əhli olan bir dəstə Əhli-beyt (ə) şiələri olar.”[6]

---

[1] “Əraf” surəsi, ayə 128
[2] “Təfsire-Nurus-səqələyn”
[3] “Əraf” surəsi, ayə 181
[4] “Təfsire-Məcməul-bəyan”
[5] “Təfsire-Dürrül-Mənsur”
[6] “Kafi”, cild 1, səh. 44


الله

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## "ƏZAB" AYƏSİ

وَإِذْ قَالُواْ اللَّهُمَّ إِن كَانَ هَـذَا هُوَ الْحَقَّ مِنْ عِندِكَ فَأَمْطِرْ عَلَيْنَا حِجَارَةً مِّنَ السَّمَاءِ أَوِ ائْتِنَا بِعَذَابٍ أَلِيمٍ

"Xatırla o zaman ki, müxaliflər dedilər: Pərvərdigara, əgər bu Sənin tərəfindən həmin haqdırsa, bizə göydən daş yağdır və ya ağrılı bir əzab göndər."[1]

Allah-təalanın əmri ilə Qədir-Xumda Həzrət Peyğəmbər (s) Əlini (ə) İmamət məqamına təyin edib buyurdu: "Mən kimin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır".

Münafiqlərdən olan Neman ibn Haris Peyğəmbərə (s) yaxınlaşıb dedi: "Bizə Tövhid, nübuvvət, cihad, həcc, oruc, namaz, zəkat göstərişləri verdin, biz də qəbul etdik. İndi də bu gənci (Əlini (ə)) bizə imam təyin edirsən?!

Peyğəmbər (s) buyurdu: "Yalnız Allahın əmri ilə".

Həmin vaxt Neman qəzəblənərək özünə lənət istədi. Öz nifrinində isə haqqında söhbət gedən bu ayə nazil oldu.[2]

Neman həmin yerdən bir neçə addım uzaqlaşmamış, səmadan enən daş onun başına düşüb həyatına son qoydu. Sonra "Məaric" surəsinin ilk ayələri nazil oldu.

Ayədən də aydın görünür ki, bu cür qarğışların kökündə ya təəssüb və inadkarlıq, ya da xalqı aldatmaq istəyi dayanır.

## "12 AY" AYƏSİ

Əhli-beytə (ə) etiqadı və mərifəti artırmaq üçün qısa surətdə Əhli-beytin (ə) şənində olan bəzi mühüm nöqtələri siz − əzizlərin diqqətinə çatdırmağa çalışırıq.

إِنَّ عِدَّةَ الشُّهُورِ عِندَ اللّهِ اثْنَا عَشَرَ شَهْرًا فِي كِتَابِ اللّهِ يَوْمَ خَلَقَ السَّمَاوَات وَالأَرْضَ مِنْهَا أَرْبَعَةٌ حُرُمٌ ذَلِكَ الدِّينُ الْقَيِّمُ فَلاَ تَظْلِمُواْ فِيهِنَّ أَنفُسَكُمْ

"Həqiqətən, Allah yanında, Allah kitabında ayların sayı göyləri və yeri yaratdığı gündən on iki aydır. Onlardan dördü (döyüş üçün) haramdır. Bu ayin sabit və möhkəmdir. Bu aylarda savaş, qan tökməklə özünüzə sitəm etməyin."[3]

---

[1] "Ənfal" surəsi, ayə 32
[2] "Əl-Ğədir", cild 1, səh. 239-266. (Bu rəvayət 30 sünni alimi tərəfindən nəql olunmuşdur).
[3] "Tövbə" surəsi, ayə 36

tttttttttttttttttttttttttttttttttttt

Hər il on iki aydan ibarətdir. "Şəhr" (ay) sözü də Quranda on iki dəfə işlədilmişdir.

Quranda dəfələrlə təkrarlanmış on iki ədədi mübarək bir ədəddir. Bəni-İsrail rəhbərlərinin, Musanın möcüzəsi ilə çıxan bulaqların, Əhli-beytin(ə) məsum imamlarının sayı on iki olmuşdur.

Haram aylar da 4-dür. Rəcəb, Zilqədə, Zil-Hiccə, Məhərrəm aylarında döyüş haramdır. İlk ay – Rəcəb tək, qalan 3 haram ay isə ardıcıl gəlir. İlin bütün ayları eyni deyil, vaxtın da müqəddəsi olur. İslam hərtərəfli din olduğundan həm əmin-aman məkanı (Məkkə şəhəri), həm də əmin-aman zamanı (haram aylar) var.

İmam Məhəmməd Baqirdən (ə) nəql olunmuş rəvayətlərdə bu ayə İslam Peyğəmbərindən (s) sonra on iki imamın gəlişinə işarə kimi qeyd olunmuşdur.[1]

İmam Baqir (ə) bu ayənin barəsində belə buyurub: "İldən məqsəd ceddim Peyğəmbərdir (s). Onun on iki ayı isə imamlardır. Allahın xalqa olan höccətləri, vəhy və elminə olan əminlərdir.Allahın haram aylar və ilahinin möhkəm din saydığı dörd ay adları Əli olan dörd imamdır:

1. Əmirəl-möminin Əli (ə) – Həzrət Əli (ə)
2. Atam Əli ibn Hüseyn (ə) – İmam Zeynəlabidin (ə)
3. Əli ibn Musa (ə) – İmam Rza (ə)
4. Əli ibn Muhəmməd (ə) – İmam Əliyyən Nəqi (ə)

Bu imamlara iqrar etməklə din möhkəm olar. Onların hamısına etiqad bəsləyin ki, hidayət tapasınız."

İmam Sadiq (ə) buyurub: "Şiələrimiz bizdəndir. Onlar bizim yaradılışımızdan artıq qalmış gildən yaranıblar. Bizi qəmgin edən, onları da qəmgin edər.Bizi sevindirən, onları da sevindirər."[2]

Digər bir hədisdə İmam Rza (ə) buyurub: "Əgər behiştin ən yüksək dərəcəsində bizimlə birgə olmaq istəyirsənsə, bizim kədərimizə qəmgin olub, şadlığımızda sevinin"[3]

وَلَوْ نَشَاء لَأَرَيْنَاكَهُمْ فَلَعَرَفْتَهُم بِسِيمَاهُمْ وَلَتَعْرِفَنَّهُمْ فِي لَحْنِ الْقَوْلِ وَاللَّهُ يَعْلَمُ أَعْمَالَكُمْ

"And olsun ki, sən onları danışma tərzlərindən tanıyırsan"[4]

Əhli-beytin (ə) sahib olduğu məqam və fəzilətləri bəyan etmə baxımından nazil olan bu ayənin digər ayələrə nisbətdə xüsusi yeri və məqamı vardır. Xüsusilə də bu ayə Həzrət Əlinin (ə) fəzilətlərinə dair diqqət edilməli çox vacib və həssas dəlillərdən biridir.

---

1 "Təfsiri-kənzül-dəqaiq"
2 "Biharul-Ənvar", cild 68, səh. 24
3 Yenə orada, cild 98, səh. 103
4 "Muhəmməd" surəsi, ayə 30

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1. Muğazalı Şafiinin Əbu Səid Xudriyə istinad etdiyi hədisində yuxarıdakı ayənin təfsiri barəsində deyilir:

"Yəni, Əli ibn Əbu Talibə olan düşmənçiliklərindən tanıyırsan", - deyə nəql etməkdədir. Əbu Səid Xudri bu ayənin təfsirində möminlərin münafiqləri ancaq Həzrət Əliyə (ə) olan nifaq və ədavətlərindən tanıya biləcəklərini qeyd edir.

Həzrəti Rəsulullah(s) bir hədisdə belə buyurur:

"Əlini sevmək imandan, ona kin bəsləmək nifaqdandır."[1]

2. Süyuti "Əd-dürrül-Mənsur" adlı kitabında ibni-Məsuddan belə nəql edir.

"Biz münafiqlərin Həzrəti Rəsulullahın (s) gətirdiyi dinə iman edib-etmədiklərini İmam Əliyə (ə) olan düşmənçiliklərindən tanıyırdıq."[2]

3. Termizi öz "Səhih"ində "İmam Əlinin (ə) fəzilətləri" bölməsində Əbu Səiddən belə rəvayət edir:

"Ənsar və biz münafiqləri İmam Əliyə (ə) kin və düşmənçiliklərdən tanıyırdıq."

Yenə də Ümmü Sələmədən Rəsulullahın (s) belə buyurduğunu nəql edir:

"Ya Əli, səni yalnız mömin sevər və yalnız münafiq olan sənə düşmənçilik edər."[3]

4. Hakim "Müstədrək" də münafiqlərin sifətlərini Əbu Səidə istinad etdiyi bir hədislə belə sadalayır:

"Biz münafiqləri bəzi əlamətlərindən tanıyırdıq;

- Allahın və Rəsulun adından yalan danışmalarından.
- Namaza gəlməmələrindən.
- Həzrət Əliyə (ə) qarşı olan kin və düşmənçiliklərindən."[4]

Hakim bu hədisin səhih olduğunu Müslimin "Səhih"inə görə də şərtləndirmişdir.

5. İbn Həcər "Səvaiq" adlı əsərində Cabirə istinad etdiyi hədisdə belə deyir:

"Biz münafiqləri Həzrət Əliyə (ə) qarşı olan düşmənçiliklərindən tanıyırdıq.

6. "Səhihi-Müslim"də də Həzrət Əlinin (ə) "Bizi ancaq mömin sevər və ancaq münafiq bizimlə düşmənçilik edər" sözü yer almışdır.

"And olsun ki, sən onları danışma tərzlərindən tanıyırsan" ayəsində qeyd olunan həssas nöqtələri, xüsusilə də münafiqləri Həzrət Əliyə (ə) olan kinlərindən tanıya bilirik. Rəsulullahdan (s) rəvayət edilən hədislər işığında səhabələrin də ittifaq etdikləri tək nöqtə budur.

---

[1] Əhməd Hənbəl. "Müsnəd", cild. 6, səh. 292
[2] "Dürrül-Mənsur", cild 7, səh. 504
[3] "Səhihi-Tirmizi", cild. 5, səh. 298, hədis 3800
[4] "Müstədrək", cild. 3, səh. 129

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Biz ənsar və mühacirlərin Rəsulullaha iman edib etmədiklərini Həzrət Əliyə (ə) qarşı olan düşmənçiliklərindən tanıyırdıq. Peyğəmbər (s) Həzrət Əliyə (ə) olan düşmənçilikləri səbəbi ilə iman edənlərin əsl üzlərini tanıyırdı.”

Bu ayə ilə əlaqədar daha artıq mənbə araşdırmaq istəyənlər üçün siyahını təqdim edirik.

1. Heysəmi, “Camiuz-Zəvaid”, cild. 6, səh. 174, Qahirə.
2. Qunduzi, “Yənabiul Məvəddə”, səh. 7, İstanbul.
3. Həbib Əbu Bəkir ibn Şəhabəddin, “Rəşfəzus-Sadi”, səh. 24, Misir çapı.
4. İmam Müzəffər, “Dəlail”.

“Məcməul bəyan” təfsirində – “Sən onsuz da onları danışıq tərzlərindən mütləq tanıyacaqsan” ayəsi barədə deyilir: “Əbu Səid əl-Xədri deyir:

“Danışıq tərzi”, yəni Əli ibni-Əbu Talibə (ə) qarşı olan düşmənçilik.” Sonra deyir: “Biz, Peyğəmbərin (s) dövrundə münafiqləri, Əli ibni Əbu Talibə (ə) qarşı olan düşmənçilikləri ilə tanıyırdıq.” Eyni məzmunlu hədis Cabir ibn Abdullahdan də nəql olunub.

Eyni təfsirdə İbadət ibn Samit deyir: “Biz, öz övladlarımızı Əli ibni-Əbu Talibə (ə) qarşı olan sevgilərilə yoxlayırdıq. Əgər onlardan birinin Əlini (ə) sevmədiyini görsəydik, bilərdik ki, həmin uşaq qeyri-qanuni doğulub.”

“Dürrül-Mənsur” kitabında İbn-Mərdəveyh İbn Məsuddan nəql edərək deyir: “Biz, Peyğəmbərin (s) dövründə münafiqləri yalnız Əli ibn Əbu Talibə (ə) qarşı olan düşmənçiliklərilə tanıyırdıq.”

Şeyx Tusi “Əmali” kitabında İmam Əlidən (ə) nəql edərək deyir: “Mən dörd söz dedim. Allah Öz kitabında mənim sözümü təsdiqləmək üçün ayə nazil etdi. Mən dedim: “İnsan, öz dilinin arxasında gizlənib, danışdığı zaman üzə çıxar. Və Allah-Təala bu ayəni nazil etdi: “Sən onsuz da onları danışıq tərzlərindən tanıyacaqsan.”

## “SALAM OLSUN İL-YASİNƏ” AYƏSİ[1]

سَلَامٌ عَلَى إِلْ يَاسِينَ

“Salam olsun İl-Yasinə”

Uca Allahın Qurani Kərimdə “İl-Yasin” (Ali-Yasin) – deyə salamladığı Əhli-Beytdən(ə) başqa kim ola bilər?

Uca Allah onların məqamlarını bizə tanıdarkən onlara belə salam verməkdədir. Bir çox təfsir və tarix alimləri bu ayəni Ali-Muhəmmədin (s) fəzilətlərinə dair enən ayələr arasında sadalamışlar.

[1] “Səffat” surəsi, 130-cu ayə

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

يس وَالْقُرْآنِ الْحَكِيمِ إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ

"Yasin. And olsun hikmət dolu Qurana. Sən, həqiqətən, peyğəmbərlərdənsən."[1]

İndi isə "Səffat" surəsinin 130-cu ayəsinin Əhli-Beyt (ə) haqqında nazil olduğuna dair təfsirlərə və tarix kitablarına nəzər salaq.

1. İbn Həcər "Səvaiq" adlı kitabının 11-ci bölümündə Əhli-Beytə (ə) nisbət verdiyi ayələrin üçüncüsüdür.Həmçinin ibni-Həcər təfsirçilərinin bir çoxunun İbni-Abbasa əsaslanaraq "Ali-Yasindəki məqsəd – Ali-Muhəmməddir", – deyə təfsir etdiyini nəql edir.

Eləcə də İbni-Həcər Fəxri Razinin də bunları qeyd etdiyini yazır:

"Əhli-Beyt (ə) sahib olduğu 5 xüsusiyyətə görə Peyğəmbərlə (s) bərabərdir.Bu beş xüsusiyyət bunlardır:

1. Quranda Peyğəmbərə də, onun bənzərsiz Əhli-Beytinə də salam verilməsi.

وَسَلَامٌ عَلَى الْمُرْسَلِينَ

"Salam olsun bütün peyğəmbərlərə"[2],

"Salam olsun İl-Yasinə".[3]

2. Namazın təşəhhüd hissəsində Peyğəmbərə və ailəsinə salam verilməsi;

3. Onların məsum (günahlardan uzaq) olmaları. – Quranda Peyğəmbərə xitabən "Taha"[4] (pak, təmiz) və Əhli-Beytinə(ə) xitabən "Ey Əhli-Beyt! Allah sizdən pislikləri götürmək və sizi tərtəmiz etmək istəyir."[5]

Təfsir alimləri "Ali-Yasin"dən məqsədin Ali-Məhəmməd (s) olduğunda ittifaq etmişlər.Bu ayə ilə əlaqədar daha artıq məlumat almaq istəyənlər üçün bəzi mənbələrin siyahısını təqdim edirik.

1. İbn Muğazalı Şafii, "Mənaqib".
2. Zərəndi Nizam, "Darul səmtəyin", səh. 34
3. Səyyid Məhəmməd Sadiq Həsən Maliki, "Fəthul-bəyan", c. 8, səh. 78, Misir.
4. Hafiz ibni-Mərduveyh, "Miftəhun-Nəcat", səh. 6
5. Razi, "Camiu-Əhkamil-Quran" cild 5, səh. 19
6. Əbu Həyyan, "Bəhrul-Muhit", cild 7, səh. 373, Misir.
7. İbni Həşir, "Təfsir", cild 4, səh. 20, Misir.
8. C.Süyuti "Durrul-Mənsur", cild. 5, səh. 288, Misir.
9. Alusi, "Ruhul-Məani" cild 23, səh. 129
10 Kəşfi, "Mənaqib", səh. 25
11. Əsqəlani, "Lisanul-Mizan", cild 6, səh. 125, Heydərabad.

[1] "Yasin" surəsi, ayə: 1-3
[2] "Səffaf" surəsi, ayə 181
[3] Yenə orada, ayə 130
[4] "Taha" surəsi, ayə 1
[5] "Əhzab" surəsi, ayə 33

## “BİHƏBLİLLAH” AYƏSİ

وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ وَاذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ

“Hamınız Allahın ipinə möhkəm sarılın. Allahın sizə olan nemətini xatırlayın.” [1]

Təfsir və hədis alimlərinin öndə gedənləri bu əzəmətli ayənin təfsirində bəzi müxtəlif məqamlara üz tutmaqla bərabər, eyni zamanda, ayədəki “Allahın ipinə sarılın”-da məqsədin Quran və Əhli-Beyt(ə) olduğunu açıqlamışlar. Ayənin Əhli-Beytin fəzilətini və əzəmətini bəyan etmək məqsədini daşıdığını Əhli-sünnətin məşhur alimləri də bəyan etmişlər. Bunlara qısa olaraq nəzər salaq.

1. Əhli-Sünnənin böyük alimlərindən olan Qunduzi Sələbiyə əsaslanaraq İmam Cəfər Sadiqdən (ə) nəql etdiyi hədisində “Bizik Allahın ipi. O ip ki, Allah bu ayəni bizim haqqımızda nazil etmişdir (hamınız Allahın ipinə möhkəm sarılın)”, – buyurulur.[2]

2. Səblənci “Nurul-Əbsar” adlı əsərində Əhli-Beytin (ə) fəzilətləri haqqında belə deyir: “Əhli-Beytin fəzilətləri və əzəmətləri haqqında bizə çox ayə və hədis çatmışdır. O ayələrlən biri budur – “Hamınız Allahın ipinə möhkəm sarılın.”[3]

3. “Mənaqib” adlı kitabda Mazandarani qeyd etdiyimiz ayə haqqında ibni-Abbasdan belə nəql edir:

“Biz Peyğəmbərin (s) yanında olduğumuz bir vaxtda bədəvi ərəblərdən bir nəfər gəldi və ondan belə soruşdu: “ Ya Rəsulallah! “Hamınız Allahın ipinə möhkəm sarılın”, – deyildiyini eşitdik. Allahın ipi nədir ki, ona sarılaq?”

Peyğəmbər (s) İmam Əlinin (ə) əlindən tutaraq, “Bu, Allahın sağlam ipidir, ona sarılın”, – deyə buyurdu.

4 Əhli-Beyt məktəbinin təfsirlərindən biri olan “Təfsirul-Bürhan”da Cabir ibn Abdullah Ənsaridən belə rəvayət edilir:

“Yəməndən 70 min nəfər Peyğəmbərin (s) hüzuruna qəlbləri yumşalmış bir vəziyyətdə gəlmişdilər. Onlardan bəziləri Allahın Peyğəmbərinin razılığına və əmrinə uyğun hərəkət etmişlər. Belə bir qrup Peyğəmbərə:

“Ey Allahın Rəsulu! Sənin vəsilərin kimdir?” deyə sual etdilər. Peyğəmbər onlara:

“Onlar elə kəslərdilər ki, onlara möhkəm sarılmanız haqqında bu ayə nazil olmuşdur: “Hamınız Allahın ipinə möhkəm sarılın”, – dedi.

---

[1] “Ali-İmran” surəsi, ayə 103
[2] “Yənabiul-məvəddə”, cild 1, səh. 118-119
[3] “Nurul-Əbsar”, səh. 124

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bundan sonra onlar Peyğəmbərdən Allahın ipinin kim olduğunu soruşdular. Cavabında Peyğəmbər (s) bu ayəni oxudu:

“Onlara, harada olursa-olsunlar, zillət damğası vurulmuşdur. Yalnız Allahdan olan bir ipə və insanlardan olan bir ipə sarılmaqla xilas ola bilərlər.” Daha sonra isə belə buyurdu:

“Şübhəsiz, ayədəki Allah tərəfindən göndərilən ip Qurandır. İnsanlar tərəfindən uzadılan ip isə Mənim vəsilərimdir.”

Onlar yenə də vəsisinin kim olduğunu soruşduqda Peyğəmbər (s) başqa ayələri də dilə gətirərək Həzrət Əli (ə) olduğunu bəyan etmişdir.”[1]

5. Sələbi “Təfsiri-Kəbir”də bu ayə haqqında İmam Cəfər Sadiqdən (ə) bu xəbəri nəql edir: - “Allahın göydən yerə enən ipi bizik.”

İbni-Şəhabəddin kitabında Şafiinin bu ayə ilə əlaqədar şeirini nəql edir:

***İnsanların zəlalət və cəhalət dənizində batdıqlarını gördüyüm an,***
***Allahın adını deyərək Nicat gəmisinə mindim...***
***O gəmi son Peyğəmbər Həzrəti Mustafanın***
***Əhli-Beytinə aid olan gəmidir.***
***Orada da Allahın ipindən yapışdım,***
***Belə ki, o ip onların vilayətidir.***
***Necə ki, bizə o ipə sarılmaq əmr olunmuşdur.***

6. Bir başqa rəvayətdə isə İmam Rza(ə) belə buyurur:

“Bizik Allahın məxluqları arasındakı höccəti, təqva kəlməsi, qırılmaz ipi.” (Tövhid və Kəmaləddin kitablarından)

7. Səddan “Əsəful-Rahibin” adlı kitabında Səbləncinin “Nurul-Əbsar” adlı kitabındakı rəvayəti eyniliklə nəql edir.[2]

8. İbn Həcər “Səvaiq” adlı kitabında Sələbinin İmam Sadiqdən (ə) nəql etdiyi hədisi olduğu kimi nəql etmişdir.[3]

9. Hakim Xəsqani “Şəvahidut-Tənzil” adlı təfsir kitabında eyni rəvayəti qeyd etmişdir.

Eləcə də Alusinin “Ruhul-Məani”, “Səfinətul-Burhan” kitabında[4], “Ğayətul-məram”da[5], “Səvaiqul-Muhriqə”də də[6] bu hədislərə rastlanmaqdadır.

[1] “Yənabiul-Məvəddə”, cild 1, səh. 205
[2] “Nurul-Əbsar” səh. 118
[3] “Nurul-Əbsar” səh. 90
[4] Alusi, “Ruhul-Məani” cild 4, səh. 16
[5] “Ğayətul-Məram”, səh. 232
[6] “Səvaiqul-Muhriqə”, səh. 93

## “İMAMİ-MUBİN” AYƏSİ

إِنَّا نَحْنُ نُحْيِي الْمَوْتَى وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ وَكُلَّ شَيْءٍ أحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ

“Bizik ölüləri diriIdən, onların nə etmiş olduqlarını və qoyub getdiklərini yazan Bizik. Biz hər şeyi hesaba alıb lövhi-Məhfuzda (yaxud, zəmanə imamının yanında) təsbit etmişik.”[1]

Bu ayənin təfsirində yazıblar: Bu ayə nazil olduğu zaman1-ci və 2-ci xəlifə Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulullah! “İmami-Mubin”dən məqsəd Tövratdır?”

Rəsulullah(s) buyurdu: “Xeyr”.

Soruşdular: “İncildir?”

Buyurdu: “Xeyr”.

Soruşdular: “Qurandır?”

Buyurdu: “Xeyr”.

Elə bu zaman Həzrət Əli (ə) qapıdan girdi. Rəsulullah(s) buyurdu: “İmami-Mubin” Əlidir. Allah-təalanın hər bir şeyin elmini onun vücudunda qərar verdiyi bir şəxsdir.”[2]

Həzrəti Muhəmməd(s) buyurub: “Ey camaat, Allah-təalanın mənə öyrətdiyi heç bir elm yoxdur ki, mən də o elmi Əliyə (ə) öyrətməyim, yəni mənim alim olduğum hər elmi təqvalıların imamında qərar vermişəm. Belə ki, dünyada Əlinin (ə) bilmədiyi bir elm yoxdur. Çünki o, “İmami-Mubin”dir.[3]

## “HƏR BİR DƏSTƏNİN İMAMI” AYƏSİ

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُوْلَـئِكَ يَقْرَؤُونَ كِتَابَهُمْ وَلاَ يُظْلَمُونَ فَتِيلاً

“Hər bir dəstəni İmamı (rəhbəri) ilə çağıracağımız gün hər kəsin əməl naməsi sağ əlinə verilsə, onlar öz namələrini oxuyub, şad olarlar. Onlara xurma sapı qədər də zülm olunmaz. “[4]

1. Quranda 2 rəhbərin adı xatırlanır.

a) Nur və hidayət imamı

---

[1] “Yasin” surəsi, ayə 12
[2] “Təfsiri-Safi”, cild 2, “Nurus-səqələyn”, cild 3
[3] “Təfsiri-Bürhan”, cild 4
[4] “İsra” surəsi, ayə 71

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ

"Biz onları əmrimizlə xalqı hidayət edən rəhbərlər etdik" [1]

b) Od və zəlalət imamı-

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ وَيَوْمَ الْقِيَامَةِ لَا يُنصَرُونَ

"Biz o qövmü dünyada insanları cəhənnəm oduna çağıran rəhbərlər etdik. Qiyamət günü onlara Allahın Cəhənnəm əzabından qurtarmaq üçün heç bir kömək edilməyəcəkdir"[2]

2-ci dəstədən olan rəhbərlər xalqı zor, hədə, tamahlandırma, alçaltma vasitəsi ilə özlərinə itaətə məcbur edirlər.

Əbu Bəsir (r) İmam Sadiqə (ə) ərz etdi:

"Şəhadət verirəm ki, sən mənim imamımsan". İmam buyurdu: "Qiyamətdə hər bir dəstə öz imamı ilə məşhur olar. Günəşpərəstlər günəşlə, aypərəstlər ayla səhnəyə gətirilər"[3].

2. Müsəlmanlar rəhbər məsələsinə münasibətdə biganə qalmamalıdırlar. Çünki qiyamətdə insan öz rəhbəri ilə məşhur olar.
3. Qiyaməti yaddan çıxartmayaq.
4. Qiyamətdə insanlar öz rəhbərlərinə uyğun olaraq bölünər.
5. İmamət və vilayət sırf etiqadi məsələ olmayıb, həyat mətnində əsas yerdə duran bir məsələdir. Rəhbərlik məsələsi insanların səadət və bədbəxtliyində həlledici amildir.
6. Qiyamətdə xeyir əməl sahibləri öz əməl namələrini oxuyub şad olarlar.

فَأَمَّا مَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَيَقُولُ هَاؤُمُ اقْرَؤُوا كِتَابِيهْ

7. Onlar bir-birini səsləyib öz namələrini göstərərlər.[4]
8. İnsan qiyamətdə yazılı dəlil-sübutlar əsasında mühakimə olunar.
9. Qiyamətin mükafat və qəzası sırf ədalət əsasındadır.

وَمَن كَانَ فِي هَذِهِ أَعْمَى فَهُوَ فِي الآخِرَةِ أَعْمَى وَأَضَلُّ سَبِيلاً

---

[1] "Ənbiya" surəsi, ayə 73
[2] "Qəsəs" suəsi, ayə 41
[3] "Təfsiri-Nurus-Səqəleyn".
[4] Haqqə surəsi, ayə 19

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Dünyada qəlbikor və azğın olan hər kəs axirətdə də kor və azğın olacaq”.[1]

1. Qiyamətdə ağzı möhürlənmiş lallarla yanaşı səhnəyə korlar da gətirilər.

2. Rəvayətdə deyilir ki, Həcc vacib olduğu halda həccə getməyən və ya Quran oxuyub ona əməl etməyən kəs qiyamət səhnəsinə kor gətirilər.

3. Qəlbikorluq gözükorluqdan da pisdir. Həzrət Əli (ə) buyurur: “Ən pis korluq qəlbikorluqdur.”

“Bizim fəzilətlərimizi görməyə gözü olmayan kəs ən pis və şiddətli kordur.”

4. Qiyamətdə korluq məsələsinə digər ayələrdə də toxunulmuşdur.

“Ta-ha” surəsinin 125-ci ayəsində dünyada qəlbikorluq, ilahi ayələrin unudulması və haqdan üz döndərmək qiyamət korluğunun səbəbləridir.

5. Korluq qiyamətin bir dayanacağına aiddir. İnsan digər dayanacaqlarda görür, dünyada tanımadığı həqiqətləri aşkar müşahidə edir.

قَالَ رَبِّ لِمَ حَشَرْتَنِي أَعْمَى وَقَدْ كُنتُ بَصِيرًا

6. İmam Baqir (ə) buyurur: “Varlıq aləminin müşahidəsindən mənəvi bəhrə götürməyən kəs görmədiyi axirətə münasibətdə qəlbi kordur.”

7. “O deyər:

قَالَ رَبِّ لِمَ حَشَرْتَنِي أَعْمَى وَقَدْ كُنتُ بَصِيرًا.

“Ey Pərvərdigarım! Nə üçün məhşərə kor olaraq gətirdin. Halbuki, mən dünyada görürdüm!”[2]

8. İnsanın axirət şəxsiyyəti onun dünya şəxsiyyətinin təcəssümüdür. Dünyadakı bəsirət axirətdə bəsirətlə nəticələnir. Dünyadakı korluq axirət korluğu ilə sonuclanır.

وَإِن كَادُواْ لَيَفْتِنُونَكَ عَنِ الَّذِي أَوْحَيْنَا إِلَيْكَ لِتفْتَرِيَ عَلَيْنَا غَيْرَهُ وَإِذًا لاَّتَّخَذُوكَ خَلِيلاً

“Az qalmışdı ki, səni vəhy etdiyimizdən xəbərsiz qoyalar, vəhydən qeyri bir şeyi bizə aid edəsən və həmin vaxt səni özlərinə dost tutalar.”[3]

---

[1] İsra surəsi, ayə 72
[2] “Ta-ha” surəsi, ayə 125
[3] “İsra” surəsi, ayə 73

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Ətyəbul-Bəyan” təfsirində deyilir: “Ayədəki “Səni vəhy etdiyimiz” təbirindən aydın olur ki, kafirlər Peyğəmbərin (s) diqqətini vəhydən yox, hansısa şəxsdən yayındırmaq istəmişlər”.

Bəs, haqqında vəhy nazil olmuş bu şəxs kimdir?

İmam Baqir(ə) və İmam Kazimdən (ə) nəql olunmuş hədisdə bildirilir ki, bu şəxs Həzrət Əlidir (ə).

Allah Peyğəmbərin (s) vəhy yolu ilə Həzrət Əlinin (ə) vilayəti haqqında tapşırıq verir.

Allah Peyğəmbərin (s) xalqın həsədinə, inkarına və dözümsüzlüyünə biganə qalması üçün bu ayəni nazil etdi və kafirlərin səyləri icə səmərəsiz qaldı.

“Əlləzi”[1] sözünə əsasən uyğun hədis qəbul oluna bilər. Bir şərtlə ki, Həzrət Əlinin (ə) Məkkədə tanıtdırılması nəzərdə tutulmuş olsun. Çünki surə Məkkə surəsidir.

1. Kafirlər peyğəmbərləri öz tərəflərinə keçirmək üçün plan cızırlar.
2. Din rəhbərləri düşmənin qurduqlarına diqqətli olmalıdırlar.
3. Düşmənlər din rəhbərlərində süstlük yaratmağa, onların mövqeyini dəyişməyə çalışırlar.
4. Nə qədər ki müsəlmanlar öz əqidə və ayinlərindən əl çəkməyiblər, kafirlər və düşmənlər onlara həqiqi dost olmayacaq.
5. Düşmən aza qane olmur, sizi əqidənizdən döndərmək istəyir.

## “ADİYAT” SURƏSİ

Bəzi rəvayətlərə əsasən, “Adiyat” surəsi bütövlükdə Həzrət Əlinin (ə) “Zatus-səlas” müharibəsindəki qələbəsi ilə əlaqədar nazil olubdur. Bu müharibə hicrətin 8-ci ilində baş vermişdir.

**بسم الله الرحمن الرحيم**

**وَالْعَادِيَاتِ ضَبْحًا.1 فَالْمُورِيَاتِ قَدْحًا.2 فَالْمُغِيرَاتِ صُبْحًا.3 فَأَثَرْنَ بِهِ نَقْعًا.4**
**فَوَسَطْنَ بِهِ جَمْعًا.5 إِنَّ الْإِنسَانَ لِرَبِّهِ لَكَنُودٌ.6 وَإِنَّهُ عَلَى ذَلِكَ لَشَهِيدٌ.7 وَإِنَّهُ لِحُبِّ**
**الْخَيْرِ لَشَدِيدٌ.8 أَفَلَا يَعْلَمُ إِذَا بُعْثِرَ مَا فِي الْقُبُورِ.9 وَحُصِّلَ مَا فِي الصُّدُورِ.10 إِنَّ**
**رَبَّهُم بِهِمْ يَوْمَئِذٍ لَّخَبِيرٌ. 11**

**Bismillahir-rəhmanir-rəhim.**

1. And olsun nəfəsləri tövşüyən atlara.
2. Və qaçmaqla daşdan qığılcım qoparan atlara.
3. Və sübh çağı onları qarət edən atlara.
4. Və toz-torpaq qaldırdılar.

[1] “Əlləzi” - o kəs ki.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

5. Və düşmən qoşununu araya alanlara.
6. (Bunlara and olsun ki, ) İnsan Pərvərdigarının nemətinə kafir və naşükürdür.
7. Və özü bu naşükürlüyə həqiqətən şəhadət verəcək.
8. Və həm də o, dünya malına aldanıb, xəsisdir.
9. Məgər insan bilmir ki, bir gün (əməllərinin mükafatına görə) qəbrlərdən çıxardılacaq.
10. Və ürəklərdə gizlin nə varsa, hamısını faş edəcək.
11. Həqiqətən, o gün Pərvərdigarları (yaxşı və pis) əməllərinə tamamilə agahdır!

## “YOXSULU, YETİMİ VƏ ƏSİRİ YEDİRTMƏK” AYƏSİ

Allah-təala buyurur:

**وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا**

“Və deyərlər: Biz sizi Allah rizasından ötrü yedirdirik. Biz sizdən nə bir mükafat, nə də bir təşəkkür tələb edirik.”[1]

Tarixçilər və təfsir alimləri belə qeyd edirlər ki, Həsən və Hüseyn(ə) xəstələnmişdilər və Peyğəmbər (s) bəzi səhabələri ilə birlikdə onların ziyarətinə gəldilər. Onlardan biri İmam Əliyə (ə) belə dedi:

- Ey Əbəl-Həsəneyn, əgər Allaha nəzir edib oruc tutsan, Allah onları sağaldar.

İmam Əli (ə) dedi:

- Allah yolunda nəzir olaraq üç gün oruc tutacağam.

Fatimə (ə) də eyni sözü dedi. Sonra İmam Həsən və İmam Hüseyn (ə) belə dedilər:

- Biz də üç gün oruc tutarıq.

Xadimələri Fizzə (r) də eyni sözləri dedi.Bundan sonra uca olan Allah Həsən və Hüseynə(ə) şəfaət və afiyət verdi. Onlar sağaldılar və əhd etdikləri kimi oruc tutmağa başladılar. İmam Əli (ə) yemək olmadığına görə evdən çıxdı və arpa gətirdi. Fatimə (ə) arpadan un üyüdərək xəmir yoğurdu və çörək bişirməyə başladı. Beş ədəd yayma hazırladı. İftar etməyə hazırlaşarkən, bir nəfər yoxsul qapını döyərək dedi:

- Salam olsun sizə, ey Peyğəmbərin Əhli-beyti! Mən bir müsəlman yoxsulam, Allahın sizə verdiyindən mənə də verin.

---

[1] “İnsan” surəsi, ayə 7-9

İmam Əli (ə) ayağa qalxıb öz payını yoxsula verdi. Digər ailə üzvləri də öz paylarını həmin adama verdilər, özləri isə iftarı su ilə açdılar. Səhəri gün yenə də oruc tutdular. Bu gün də iftar süfrəsi arxasında əyləşərkən, bir nəfər yetim qapını döyüb, ona lütf etmələrini xahiş etdi... Yenə də hamı öz payını yetimə verərək su ilə iftar açdı və həmin günü də ac yatdılar.

Səhəri gün yenə də oruc tutdular. Bu dəfə də iftar vaxtı süfrə arxasına təzə əyləşmişdilər ki, bir əsir qapını döyüb, o biri iki nəfər kimi ona rəhm etmələrini xahiş etdi. Üçüncü gün də bu müqəddəs ailə öz payını əsirə verib su ilə iftar açdı.

Əli, Həsən və Hüseyn (ə) Peyğəmbərin (s) yanına gəldilər. Peyğəmbər (s) Həsən və Hüseyni (ə) bağrına basaraq Fatimənin (ə) evinə tərəf addımlamağa başladı. Gəlib Fatiməni(ə) mehrabında namaz qılan vəziyyətdə gördü. Acından Fatmənin (ə) rəngi saralmışdı. Peyğəmbər (s) onları bu halda görüb belə dedi: “Allah, özün kömək ol! Siz üç gün ərzində heç nə yeməmisiniz?” Bu zaman Cəbrail (ə) yerə enərək salam verdi və dedi: “Ey Muhəmməd (s), Allahın sənə və Əhli-beytinə hazırladığını götür!” Peyğəmbər (s) “Nəyi götürüm, ey Cəbrail?” deyə soruşarkən, Cəbrail (ə), “Bismillahir-Rəhmanir-Rəhim. İnsanın həyatında elə bir zaman olub ki, keçmişdir ki...” sözləri ilə başlayan, məşhur “İnsan” surəsini oxudu.

Beləcə, əziz oxucu, Əhli-beytin (ə) həyatı Allah yolunda əta, səxavət, kəramət və savabla doludur. Belə ki, Allah onların əməllərini qiymətləndirmiş, fəzilət, əzəmət və uca məqamlarını gecə-gündüz oxunan Quranda qeyd etmişdir.

2. Alusi “Ruhul-Məani” adlı əsərində bu hekayəti ibni-Abbasdan nəql edərək belə deyir:

“Bu surənin Əhli-Beyt haqqında nazil olduğu əshab və xalq arasında da məşhurdur. “İnsan” surəsində Əhli-Beytin cənnətlə müjdələndiyi və bu surənin onlara aid olduğu o qədər məşhurdur ki, bu hadisəni həmin zamanın şairləri belə öz əsərlərində qeyd ediblər. Buna misal olaraq, 4 məzhəb imamlarından biri Şafiinin bu şeiri müxtəlif mənbələrdən nəql olunaraq qeyd edilir:

***Hansı vaxta? Hansı vaxta? Hansı anadək?***
***Bu igidin sevgisi ilə azarlıyam?***
***Deyin: Fatimə başqa birisinəmi yoldaş olmuş?***
***“Həl-əta” surəsi onlardan başqasınamı nazil olmuş?***[1]

3. Hicri 6-cı əsrdə yaşayan ibn Bətriq “İmdətul-Uyuni Sihahul-Əxbar” kitabında Əbu İshaq Sələbinin təfsirindən nəqlən belə yazılmışdır:

[1] “İhqaqul-Haqq”, cild 3, səh. 158

"Mən haqqında "Həl-əta" surəsi nazil olan şəxsin (Həzrət Əlinin) köləsiyəm"[1]

4. Səblənçi "Nurul-Əbsar" adlı kitabında ibni-Abbasdan "İnsan" surəsinin 7-ci ayəsi haqqında belə deyir:

"Onlar əhdlərini yerinə yetirirlər və qorxulan gündən çəkinirlər".

Həsən və Hüseyn xəstələnmişdilər. Peyğəmbər, Əbu Bəkr, Ömər və bəzi səhabələr onların ziyarətinə gəldilər. Ömər Həzrət Əliyə (ə) belə dedi: "Ey Əbul Həsən! Övladlarınızın şəfa tapması üçün nəzir etməniz nə yaxşı olardı".

Bu vaxt Həzrət Əli, Fatimə və cariyələri Fizzə Həsən və Hüseynin tezliklə sağalması üçün 3 gün ardıcıl oruc əhd etdilər.

Həsən və Hüseyn sağaldılar. Beləliklə də onlar oruc tutmağı qərara aldılar.

Əmirəlmöminin 3 sa (təqribən, 1 sa – 2, 97 kq) arpa borc aldı və Fatimə də buğdanı əl dəyirmanında una çevirərək beş dənə çörək bişirdi. Birinci gün o çöreklərlə iftar etmək istədikdə gördülər, bir fəqir qapını döydü. Qapını açdıqlarında o dedi: "Salam olsun sizə, ey Peyğəmbərin Əhli-Beyti. Mən bir fəqir müsəlmanam. Mənə yeməyə bir şey verin, Allah da sizə cənnət nemətləri nəsib etsin."

Onlar 5 çörəyin hamısını fəqirə verib özləri isə su ilə iftar etdilər.

Ertəsi gün yenə oruc tutdular. Həmin axşam da bir yetim gəldi və öz yeməklərini o yetimə verdilər. 3-cü gün isə iftara yaxın bir əsir gəldi və onlar yeməklərini əsirə verdilər. Oruc tutduqları üç gün ərzində yalnız su ilə iftar etdilər. Son günün sabahı Həzrət Əli, Həsən və Hüseynin əlindən tutaraq birlikdə Peyğəmbərin görüşünə gəldilər. Peyğəmbər nur saçan iki nəvəsinin aclıqdan solmuş üzlərini görüncə belə dedi:

"Sizdə gördüyüm bu halın səbəbi nədir?" Sonra onlarla birlikdə Fatimənin evinə qayıtdılar. Evə girib Fatimənin ibadətlə məşqul olduğunu gördülər. O böyük xanımın çöhrəsində aclıq və zəifliyin əsərləri görünürdü.

Peyğəmbər bu vəziyyəti görüncə çox kədərləndi. Bu vaxt Cəbrayıl nazil olaraq bu surəni oxuyub Peyğəmbərə belə dedi: "Allahın Əhli-beytə göndərdiyi bu hədiyyə onlara mübarək olsun".[2]

5. Hakim Xəsqani (Hənifi) bu surəni təfsir edərək Həzrət Əlidən (ə) bu rəvayəti nəql edir:

"Bir gün Həsən və Hüseyn xəstələndilər. Rəsulullah (s) onları ziyarət etdikdən sonra mənə buyurdu:

"Oğullarının şəfa tapması üçün bir şey nəzir et!"

---

[1] İbn Bətriq, "İmdətul-Uyuni-Sihahul-Əxbar", səh. 349

[2] "Nurul-Əbsar", səh. 124-126

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Buna görə mən, Fatimə və Fizzə Həsən və Hüseynin sağalacaqları təqdirdə 3 gün oruc tutacağımızı əhd etdik. Uşaqlar sağaldılar və beləliklə biz verdiyimiz əhdi yerinə yetirməyə qərar verdik.

Mən təqribən, 3 sa (1 sa – 2, 97 kq) arpa borc aldım. Fatimə arpanı əl dəyirmanında buğda etdikdən sonra 5 çörək bişirdi.

İlk gün o çörəklərlə iftar etmək istədikdə anidən qapı döyüldü. Qapını açdıqda bir fəqir şəxs gördüm. O dedi: “Salam olsun sizə, ey Peyğəmbərin Əhli-Beyti. Mən bir fəqir müsəlmanam. Mənə yeməyə bir şey verin, Allah da sizə cənnət nemətləri nəsib etsin.” Hamı öz çörəyini fəqirə verdi və biz həmən günü su ilə iftar etdik.

Ertəsi gün yenə oruc tutduq. O axşam da bir yetim gəldi və öz yeməklərimizi ona verdik. Üçüncü günün iftarı zamanı isə əsir gəlib və yenə də yeməklərimizi əsirə verdik. Bu üç gün oruc tutduq və sadəcə su ilə iftar etdik.Ertəsi gün Həsən və Hüseyni də götürüb Peyğəmbərin hüzuruna getdik. Peyğəmbər o nur saçan iki nəvəsinin aclıqdan solmuş üzlərini görüncə dedi: “Sizdəki bu halın səbəbi nədir?”

Sonra isə bizimlə birlikdə Fatimənin evinə gəldi. Evə daxil olduqda Fatimənin ibadət etdiyini gördük. O böyük xanımın çöhrəsində aclıq və zəiflik hiss olunurdu.

Peyğəmbər bu vəziyyətdən çox kədərləndi. Bu zaman Cəbrayıl nazil oldu və bu surəni endirərək Peyğəmbərə dedi: “Allahın Əhli-beytə göndərdiyi bu hədiyyə onlara mübarək olsun”.[1]

6. Əllamə Məhəmməd Alusi Şafii öz təfsirində ibni-Abbasdan belə nəql edir:

“Cəbrayıl Peyğəmbərə bu surəni endirərək belə dedi: “Allahın Əhli-beytə göndərdiyi bu hədiyyə onlara mübarək olsun”.

“Ey Məhəmməd! (s.a.ə.) Bu surəni al! Şübhəsiz ki, Allah sənin Əhli-Beytin ilə iftixar edib və onları təbrik etməkdədir.” Daha sonra Peyğəmbər (s) buyurdu: “Nəyi alım, ey Cəbrayıl?” Bu zaman isə Cəbrayıl ona “İnsan” (Həl-əta) surəsini oxumuşdur.”[2]

Eyni rəvayəti Cəlaləddin Süyuti “Dürrül-Mənsur” adlı təfsirində ibni-Abbasdan nəql edib.

Digər mənbələr:

1. Süyuti, “Təfsirul-Mizan”, cild 2, səh. 221
2. İbni-Həcər Əsqəlani, “Əli sabə”, cild 4, səh. 376
3. Xafiz Kənci, “Kifayət”, səh. 231.
4. Nizaməddin Əl-Qummi, “Nişəbari”, cild 29, səh. 112
5. Məhəmməd ibni-Təhhad Şafii, “Mutalib sual”, səh. 31
6. Sibti Cəvazi Hənifi, “Təzkiratul-Həvəs”

[1] “Səvahidul-Tənzil”, c.2, səh. 299-302
[2] “Ruhul-Məani fi təfsirul- Quran”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## "İNSAN" SURƏSİ[1]

بسم الله الرحمن الرحيم

هَلْ أَتَى عَلَى الْإِنسَانِ حِينٌ مِّنَ الدَّهْرِ لَمْ يَكُن شَيْئًا مَّذْكُورًا.1 إِنَّا خَلَقْنَا الْإِنسَانَ
مِن نُّطْفَةٍ أَمْشَاجٍ نَّبْتَلِيهِ فَجَعَلْنَاهُ سَمِيعًا بَصِيرًا.2 إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا
كَفُورًا.3 إِنَّا أَعْتَدْنَا لِلْكَافِرِينَ سَلَاسِلَا وَأَغْلَالًا وَسَعِيرًا.4 إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِن كَأْسٍ
كَانَ مِزَاجُهَا كَافُورًا.5 عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ يُفَجِّرُونَهَا تَفْجِيرًا.6 يُوفُونَ بِالنَّذْرِ
وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا.7 وَيُطْعِمُونَ الطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا
وَأَسِيرًا.8 إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنكُمْ جَزَاء وَلَا شُكُورًا.9 إِنَّا نَخَافُ مِن رَّبِّنَا
يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا.10 فَوَقَاهُمُ اللَّهُ شَرَّ ذَلِكَ الْيَوْمِ وَلَقَّاهُمْ نَضْرَةً وَسُرُورًا.11
وَجَزَاهُم بِمَا صَبَرُوا جَنَّةً وَحَرِيرًا.12 مُّتَّكِئِينَ فِيهَا عَلَى الْأَرَائِكِ لَا يَرَوْنَ فِيهَا شَمْسًا
وَلَا زَمْهَرِيرًا.13 وَدَانِيَةً عَلَيْهِمْ ظِلَالُهَا وَذُلِّلَتْ قُطُوفُهَا تَذْلِيلًا.14 وَيُطَافُ عَلَيْهِم بِآنِيَةٍ
مِّن فِضَّةٍ وَأَكْوَابٍ كَانَتْ قَوَارِيرَا.15 قَوَارِيرَ مِن فِضَّةٍ قَدَّرُوهَا تَقْدِيرًا.16 وَيُسْقَوْنَ
فِيهَا كَأْسًا كَانَ مِزَاجُهَا زَنجَبِيلًا.17 عَيْنًا فِيهَا تُسَمَّى سَلْسَبِيلًا.18 وَيَطُوفُ عَلَيْهِمْ
وِلْدَانٌ مُّخَلَّدُونَ إِذَا رَأَيْتَهُمْ حَسِبْتَهُمْ لُؤْلُؤًا مَّنثُورًا.19 وَإِذَا رَأَيْتَ ثَمَّ رَأَيْتَ نَعِيمًا وَمُلْكًا
كَبِيرًا.20 عَالِيَهُمْ ثِيَابُ سُندُسٍ خُضْرٌ وَإِسْتَبْرَقٌ وَحُلُّوا أَسَاوِرَ مِن فِضَّةٍ وَسَقَاهُمْ رَبُّهُمْ
شَرَابًا طَهُورًا.21 إِنَّ هَذَا كَانَ لَكُمْ جَزَاء وَكَانَ سَعْيُكُم مَّشْكُورًا.22 إِنَّا نَحْنُ نَزَّلْنَا
عَلَيْكَ الْقُرْآنَ تَنزِيلًا.23 فَاصْبِرْ لِحُكْمِ رَبِّكَ وَلَا تُطِعْ مِنْهُمْ آثِمًا أَوْ كَفُورًا.24 وَاذْكُرِ
اسْمَ رَبِّكَ بُكْرَةً وَأَصِيلًا.25 وَمِنَ اللَّيْلِ فَاسْجُدْ لَهُ وَسَبِّحْهُ لَيْلًا طَوِيلًا.26 إِنَّ هَؤُلَاء
يُحِبُّونَ الْعَاجِلَةَ وَيَذَرُونَ وَرَاءهُمْ يَوْمًا ثَقِيلًا.27 نَحْنُ خَلَقْنَاهُمْ وَشَدَدْنَا أَسْرَهُمْ وَإِذَا
شِئْنَا بَدَّلْنَا أَمْثَالَهُمْ تَبْدِيلًا.28 إِنَّ هَذِهِ تَذْكِرَةٌ فَمَن شَاء اتَّخَذَ إِلَى رَبِّهِ سَبِيلًا.29 وَمَا
تَشَاؤُونَ إِلَّا أَن يَشَاء اللَّهُ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا.30 يُدْخِلُ مَن يَشَاء فِي رَحْمَتِهِ
وَالظَّالِمِينَ أَعَدَّ لَهُمْ عَذَابًا أَلِيمًا. 31

[1] Şeyx Mollazadə

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bismillahir – rəhmanir – rəhim

1. İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır! (Yaxud, insanın elə bir dövrü olub keçmişdir ki, o həmin dövrdə xatırlanası bir şey olmasın?! Əlbəttə, olmuşdur. İnsan əvvəlcə mövcud deyildi. Sonra o, yəni ulu babamız Adəm torpaqdan və sudan yoğrulub insan şəklinə salınmış, ona ruh verilmiş və o, həyat sürməyə başlamışdır. İnsanın nə üçün yaradıldığını əvvəlcə nə göy əhli, nə də özü bilirdi. Tədriclə mələklər və özü nə üçün yaradıldığını anladı.) 2. Həqiqətən, biz insanı (sonrakı mərhələdə ata-anasının toxumundan ibarət) qarışıq bir nütfədən yaratdıq. Biz onu (dünyada özünü necə aparacağı, hər şeyin xaliqi olan Allaha itaət edib-etməyəcəyi ilə) imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. 3. Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir). 4. Biz kafirlər üçün zəncirlər, qandallar və alovlu bir atəş hazırlamışıq. 5. Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri (cənnətdə) kafur qatılmış (şərabla dolu) qədəhdən içəcəklər. 6. O (kafur) elə bir çeşmədir ki, Allahın bəndələri ondan içəcək və onu (istədikləri yerə) asanlıqla axıdacaqlar. 7. Onlar (cənnətə nail olacaq müttəqilər) elə kimsələrdirlər ki, verdikləri sözü (etdikləri nəziri) yerinə yetirər və dəhşəti (aləmi) bürüyəcək (şəri hər tərəfə yayılacaq) gündən (qiyamət günündən) qorxarlar. 8. Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda), yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. 9. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) “Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik. 10. Həqiqətən, biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin bir gündən (üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən) qorxuruq!” 11. Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir (üzlərinə təravət verəcək, qəlblərini sevindirəcəkdir). 12. Və onları etdikləri səbr müqabilində Cənnətlə və (geyəcəkləri) ipəklə mükafatlandıracaqdır. 13. Onlar orada (o cənnətlərdə) taxtlara söykənəcək, orada nə günəş (qızmar isti), nə də sərt soyuq görəcəklər. 14. (Cənnət ağaclarının) kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır (istədikləri yerdə, istədikləri zaman onları dərib yeyə biləcəklər). 15. Cənnətdəki xidmətçilər onların ətrafında gümüş qablar və büllur qədəhlərlə dolanacaqlar. 16. Gümüşdən olan (çox şəffaf olduğu üçün bayırından içərisi görünən) elə büllur (qədəhlərlə) ki, (xidmətçilər) onları (sahiblərinə) münasib ölçüdə etmişlər. 17. Orada onlara zəncəfil qatılmış (zəncəfil dadı verən Cənnət şərabı ilə dolu) badə də içirdiləcəkdir. 18. (Zən-

cəfil) orada (Cənnətdə) bir çeşmədir ki, (suyu boğazdan çox rahat keçdiyi üçün) Səlsəbil adlanır. 19. Onların dövrəsində həmişə cavan (xidmətçi) oğlanlar olacaqdır. Onları gördükdə, sanki (ətrafa) səpilmiş inci olduqlarını zənn edərsən. 20. (Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən. 21. (Cənnət əhlinin) əyinlərində taftadan və atlazdan (nazik və qalın ipəkdən) yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir. 22. (Onlara belə deyiləcəkdir) "Bu sizin (dünyada etdiyiniz yaxşı əməllərə görə) mükafatınızdır. Zəhmətiniz (Allah yanında) məqbuldur (təqdirəlayiqdir)!" 23. (Ya Peyğəmbər!) Həqiqətən, Biz Quranı sənə tədriclə (ayə-ayə, surə-surə) nazil etdik. 24. Elə isə Rəbbinin hökmünə səbr et və onlardan (Məkkə müşriklərindən) günahkar və nankor olana boyun əymə! 25. Səhər-axşam Rəbbinin adını zikr et! (Səhər, günorta və ikindi namazlarını qıl!) 26. Gecənin bir qismində Ona səcdə et (axşam, gecə namazlarını qıl) və gecə uzunu da Onu təqdis edib şəninə təriflər de! (Təhəccüd namazını qılıb gecəni ibadət içində keçir!) 27. Həqiqətən, bunlar (Məkkə müşrikləri) tez keçib gedəni (fani dünyanı) sevər, ağır günə (qiyamət gününə) dal çevirərlər. 28. Onları Yaradan da, güclü qüvvətli edən də (oynaqlarını bir-birinə bağlayan da) Bizik. Əgər istəsək, onları özləri kimilərilə əvəz edərik. 29. Həqiqətən, bu (surə) bir öyüd-nəsihətdir. Kim istəsə, Rəbbinə tərəf bir yol tutar (ibadət və itaətlə Allaha yaxınlaşar). 30. (Ey insanlar! Onu da bilin ki) Allah istəməsə, siz (bunu) istəyə bilməzsiniz. (Ancaq Allah istəsə, istəyə bilərsiniz). Həqiqətən, Allah (hər şeyi) biləndər, hikmət sahibidir! 31. (Allah) İstədiyi kimsəni mərhəmətinə qovuşdurar. Zalımlara gəldikdə isə, (Allah) onlar üçün (axirətdə) şiddətli bir əzab hazırlamışdır!

## ƏHLİ-BEYTİN (Ə) FƏZİLƏTLƏRİ HƏDİSLƏRDƏ

1. Əmirəlmöminin Əli (ə) buyurub: "Peyğəmbərinizin Əhli-beytinə baxın və onların məhəbbətindən ayrılmayın. Onların əsərlərini izləyin, ona görə ki, onlar sizi hidayət yolundan çıxarıb pisliyə doğru aparmazlar. Əgər onlar hər hansı bir yerdə qalsalar, siz də qalın, əgər bir yerdən qalxsalar, siz də qalxın. Heç vaxt onlardan qabaqda getməyin ki, yolunuzu azarsınız və heç vaxt geri qalmayın ki, həlak olarsınız."

2. "Elmin yaşayışı, cəhalətin ölümü Onlardır. Onların helmi elmlərindən xəbər verir, susmaqları sözlərini anladır. Haqqın ziddinə getməzlər, haqda müşrikliyə düşməzlər, sussalar da, haqq Onlarladır, danışsalar da. Dinin əsası, yəqinin dirəyi Onlardır. Haqq Onlarla öz yerini tapar, batil onların vasitəsi ilə aradan gedər. Onlar dini ona riayət etməklə başa düşdülər, dini eşidib başqasına söyləməklə yox, ona görə ki, söyləyənin sayı çox, ona riayət edənin sayı isə azdır."

3. "Peyğəmbərin (s) ailəsi ailələrin xeyirlisi, ağacı ağacların xeyirlisidir. Hörmətlə becərilmiş, kəramətlə sulanmışlar. Həmin ağacın uzun qolları və tükənməz sərvətləri vardır."

4. "Biz nübüvvət ağacı, vəhyin endiyi yer, mələikələrin qərargahı, hikmət bulağıyıq. Bizə kömək edin. Bizi sevəni rəhmət, bizə düşmənçilik edib nifrət bəsləyəni isə əzab gözləyir."

5. "Hara gedirsiniz? Nə vaxt dönəcəksiniz? Hidayətin yolu göstərilmişdir. Dəlillər açıq-aydındır, nişanələr qoyulubdur. Nə üçün gicəllənə-gicəllənə çöllərə düşürsünüz? Niyə və nə üçün vurnuxursunuz? Peyğəmbərinizin nəsli aranızdadır. Onlar sizi həqiqətə aparan iplərdir.Onlar din bayraqları, Quranın danışan ayələridir. Onları qəlblərinizin ən gözəl mehmanxanalarına yerləşdirin. Susamış dəvələr kimi Onların yanına, Onların bulaqlarına qaçın. Ey insanlar, bu sözləri Peyğəmbərlərin sonuncusu buyurmuşdur: "Bizdən olanlar ölü deyil, diridir və o, qəbirdə çürüməz."

6. Bizə sarılan bizə yetişər, bizdən ayrılan geri qalar, həlak olar. Əmrimizə boyun əyən qabağa gedər, xoşbəxtliyə yetişər. Bizim gəmimizdən başqa gəmiyə minən həlak olar, boğular. Dəstəmiz Allahın dəstəsidir. Ədalətsiz və zalım olanlar isə şeytanın dəstəsidirlər. Kim bizimlə bizim düşmənimizi bir edirsə, bizdən deyil."

Allah bizi Əhli-beytə(ə) yaxınlaşmaqla müvəffəq etsin. Qəlblərimizi Əhli-beytin(ə) vilayəti və məhəbbəti ilə işıqlandırsın. Bizi dünyada Onların ziyarəti, axirətdə isə şəfaətləri ilə ruziləndirsin. Həm dünyada, həm də axirətdə bizi onlardan bir an belə ayırmasın.

Aləmlərin Rəbbinə sonsuz şükürlər, Peyğəmbər (s) və onun pak Əhli-beytinə (ə) salam olsun!

## PEYĞƏMBƏRLƏRİN ƏHLİ-BEYTƏ (Ə) TƏVƏSSÜLÜ.

### ADƏM PEYĞƏMBƏR (Ə)

İbni-Abbasdan nəql olunur: "O zaman ki, Allah Adəmi yaratdı və Öz ruhundan ona üfürdü, Adəm səbir gətirdi və dedi: "Həmd olsun Allaha". Allah buyurdu: "Rəbbin sənə rəhm etsin!" Adəm sual etdi: "Ya Rəbbim, Sən ki, məni yaratmısan, məndən də artıq sevdiyin bir məxluq varmı?" Cavab verildi: "Bəli, indi bəyan edərəm." Və Allah mələklərə əmr etdi ki, Adəmlə onların arasında olan hicabı götürsünlər. Hicab qaldırılarkən Adəm 5 nur gördü və soruşdu: "Ey Rəbbim, bunlar kimdir?" Cavab gəldi: "Ey Adəm, bu nurlardan biri mənim Rəsulum Muhəmməddir (s), biri onun əmisi oğlu və vəsisi Əlidir (ə). Bu, Muhəmmədin (s) qızı Fatimədir (ə). Bu iki nur da Əlinin və Fatimənin oğulları Həsən və Hüseyndir (ə). Ey Adəm! Onlar sənin övladlarındır."[1]

Bunu eşidən Adəm sevindi və bir zaman, xətasına görə cənnətdən çıxarılıb yer üzünə endirilərkən Allaha dua etdi: "Ya Rəbbim, məni Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseynin hörmətinə bağışla." Allah-Təala onun duasını qəbul etdi və günahlarını bağışladı. Quranda bu barədə belə buyurulur:

فَتَلَقَّى آدَمُ مِن رَّبِّهِ كَلِمَاتٍ فَتَابَ عَلَيْهِ

"Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək tövbə etdi. Həqiqətən, O, tövbələri qəbul edən və rəhimlidir."[2]

İbni-Abbas deyir: "Peyğəmbərdən (s) Adəmin Rəbbindən öyrəndiyi kəlmələr barəsində soruşdum. O dedi: "Adəm Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn hörmətinə bağışlanma dilədi. Allah da onu bağışladı".

### İDRİS PEYĞƏMBƏR (Ə)

Həzrət İdris (ə) Nuhun babalarındandır. Dərslə daha çox məşğul olduğu üçün və ilk dəfə qələmdən istfadə etdiyi üçün İdris adı ilə tanınmışdır.

İdris peyğəmbərin (ə) sühufunda (514-515-ci səhifə) siryani dilincə Allah tərəfindən Adəm peyğəmbərə belə xitab olunur:

---

[1] "Təfsirul-Burhan" cild. 1, səh. 89; "Biharul-Ənvar", cild 26, səh. 325; "Kənzül ümal" cild 1, səh. 234 və b.

[2] "Bəqərə" surəsi, ayə 37

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Əgər bunlar olmasaydılar, mən səni, göyü, yeri, behişti, cəhənnəmi, günəşi və ayı yaratmayacaqdım.”

Adəm (ə) ərz etdi: “Ey Rəbbim! Bunların adları nədir?” Xitab olundu: “Ərşin altına bax”.

Adəm(ə) ərşin altına baxdıqa gördü ki, 5 mübarək ad yazılıb:

Parqita (Farqalita, yəni Mühəmməd (s), İlya(yəni Əli), Titə-(yəni-Fatimə, Şəbbər (yəni Həsən) və Şübeyr (yəni Hüseyn)

Sonra xitab olundu ki, ey Adəm! Mənim yaratdıqlarıma təsbeh de, məndən başqa məbud yoxdur. Muhəmməd (s) mənim göndərdiyimdir.

## NUH PEYĞƏMBƏR (Ə)

Ənəs ibni-Malik Peyğəmbərdən(s) nəql edir: “Elə ki, Allah Nuhun (ə) qövmünü həlak etmək qərarını verdi, ona vəhy nazil edərək palıd ağaclarının gövdələrini kəsməyi əmr etdi. Nuh (ə) gövdələri kəsəndən sonra nə edəcəyini bilmədi. Bu zaman Cəbrayıl (ə) nazil oldu, o, özü ilə birlikdə 129000 mismar olan bir sandıq gətirmişdi. O, Nuha (ə) gəmini necə düzəltməyi öyrətdi. Nuh (ə) bütün mismarları gəmini düzəldərkən bərkitmə işlərinə sərf etdi. Növbə yerdə qalan 5 mismara çatdıqda, qəribə hadisə baş verdi. O, mismarın birini götürüb işlətmək istəyərkən, mismar parlaq nur saçmağa başladı. Nuh (ə) bundan heyrətlənib Cəbrayıldan (ə) soruşdu: “Ya Cəbrayıl, bu necə mismardır? Mən beləsini görməmişdim.”

Cəbrayıl (ə) dedi: “Bu mismar Muhəmməd ibni-Abdullahın (s) adınadır. Onu gəminin sağ tərəfinə vur.”

Sonra Nuh (ə) ikinci mismarı götürdü. Bu mismar da nur saçmağa başladı. Nuh (ə) soruşdu: “Bəs, bu nə mismardır?” Cəbrayıl (ə) cavab verdi: “Bu Muhəmmədin (s) qardaşı və əmisi oğlu Əlinin (ə) adınadır. Onu gəminin sol tərəfinə vur.”

Üçüncü mismarı götürərkən də eyni hadisə baş verdi. Cəbrayıl (ə) dedi: “Bu Muhəmmədin qızı Fatimənin (ə) adınadır. Onu atasının mismarı vurulan tərəfə vur!”

Dördüncü mismar da nur saçdı. Cəbrayıl (ə) dedi: “Bu Əlinin və Fatimənin oğlu Həsənin(ə) adınadır. Bunu atasının mismarının tərəfinə vur!”

Nəhayət, Nuh (ə) beşinci mismarı əlinə götürdü. Bu mismar da parlayıb nur saçdı, amma Nuh (ə) onda rütubət hiss etdi. Cəbrayı l(ə) dedi: “Bu mismar Allah yolunda şəhid olanların ağası Hüseyn ibni-Əlinin (ə) adınadır.”

Qurani-Kərimdə buyurulur:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

وَحَمَلْنَاهُ عَلَى ذَاتِ أَلْوَاحٍ وَدُسُرٍ

"Biz Nuhu (ona iman gətirənlərlə birlikdə) dirəklərdən düzəldilmiş və mismarlanmış gəmiyə mindirdik."[1]

Həzrət Peyğəmbər (s) buyurur: "Dirəklər burada həmin gəminin taxtaları, mismarları dedikdə isə biz nəzərdə tutuluruq. Əgər biz olmasaydıq, gəmi hərəkət etməyəcəkdi."

Qeyd: burada "mismar" kəlməsi Peyğəmbərin (s) hədisdə buyurduğu beş mismara işarədir. Nuh (ə) gəmiyə minərkən tufanda qərq olmamaq üçün Allaha belə dua etdi: "Ey Allahım, mənə Muhəmməd (s) və Ali-Muhəmmədin hörmətinə nicat ver." Allah da onun duasını qəbul etdi.[2]

Peyğəmbər (s) yəhudilərlə olan mübahisələrin birində belə buyurub: "Allah Nuhu Muhəmməd və Ali-Muhəmməd hörmətinə böyük bəlalardan xilas etdi."[3]

## YUSİF PEYĞƏMBƏR (Ə)

İmam Cəfər Sadiqdən(ə) nəql olunur: "Yusif (ə) quyuya atıldıqdan sonra Cəbrayıl (ə) nazil olub dedi: "Bu quyudan çıxmaq istəyirsənmi?" Yusif (ə) dedi: "Bu yalnız İbrahim, İshaq və Yaqubun Allahının əlindədir." Cəbrayıl(ə) buyurdu: "İbrahim, İshaq və Yaqubun Allahı sənə bu duanı oxumağı əmr edir: "Ey mənim Allahım, həqiqətən, həmd yalnız Sənə məxsusdur və Səndən özgə məbud yoxdur. Göyləri və yeri yaradan Sənsən. Sən rəhmət və kərəm sabihisən.Səndən Muhəmməd və Ali-Muhəmməd xatirinə məni bu bəladan xilas edib qurtuluş verməyini, ağlıma belə gətirə bilmədiyim bir nemətlə ruziləndirməyini xahiş edərəm." Yusif(ə) bu duanı oxudu. Allah həmin gün onu quyudan xilas etdi, sonralar Züleyxanın hiyləsindən qorudu və Yusifə(ə) qurtuluş verdi və Yusifin(ə) ağlına gəlməyən Misir mülkünü ona əta etdi.

## MUSA PEYĞƏMBƏR (Ə)

Həzrət Peyğəmbərdən(s) rəvayət olunan bir hədisdə belə buyurulur: "Musa (ə) əsasını yerə atanda qorxu hissi ilə belə dua etdi: Allahım, məni Muhəmməd(s) və Ali-Muhammədin hörmətinə amanda saxla!

[1] "Qəmər" surəsi, ayə: 13
[2] "Biharul-ənvar", cild 26, səh. 329
[3] "Biharul-ənvar", cild 12, səh. 40

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Allah buyurdu: “Qorxma, sən üstünsən.”[1]

İmam Rza(ə) buyurur: “Musa(ə) dənizə çatdığı zaman onun yarılması üçün bizi təvəssül edərək Allaha dua etdi. Allah dənizi yardı.”[2]

## İSA PEYĞƏMBƏR (Ə)

İmam Rza(ə) bir hədisdə buyurur: “Bir yəhudi Həzrət İsanı(ə) öldürmək istəyərkən, o, bizi təvəssül edərək Allahdan nicat diləmiş, Allah-Təala da onu ölümdən xilas edib Özünə tərəf qaldırmışdı.”[3]

## HƏZRƏT MUHƏMMƏD PEYĞƏMBƏR (S)

Məşhur hədislərdə buyurulur ki, həqiqətən, Allah cənnətləri və səmaları Əhli-beytin(ə) adı və nuru ilə zinətləndirmişdir. Peyğəmbər (s) buyurur: “Cənnətin qapısının üstündə yazılmışdır: “Allahdan başqa məbud yoxdur. Muhəmməd onun rəsuludur. Əli Onun vəlisidir. Həsən və Hüseyn Onun şəfisidirlər. Fatimə Onun ən sevimli bəndəsidir.Onlara nifrət bəsləyənə Allahın lənəti olsun!”

Başqa bir hədisdə O Həzrətdən(s) nəql olunur: “Merac gecəsi Allahdan soruşdum. “Ya Rəbbim, mənim xəlifələrim kimdir?”

Buyuruldu: “Ya Muhəmməd, sənin xəlifələrinin adı Mənim ərşimdə yazılmışdır.” Mən ərşə baxanda 12 nur gördüm. Hər bir nur üzərində olan göy örtükdə xəlifələrin adı yazılmışdı.Onlardan birincisi Əli ibn Əbu Talib, axırıncısı isə ümmətimin Məhdisidir (ə.f). Dedim: “Ya Rəbbim, bunlar məndən sonra xəlifələrdirmi?” Cavab gəldi: “Ya Muhəmməd, bunlar səndən sonra Mənim ümmət üzərində vəlilərim, höccətlərim və səndən sonra ən sevimli məxluqlarımdır.”[4]

---

[1] “Təfsirul-Burhan”, cild. 62, səh. 247
[2] “Biharul-Ənvar”, cild. 26, səh. 325
[3] Yenə orada.
[4] “Biharul-Ənvar”, cild. 26, səh. 337

## MARAQLI HADİSƏ, YAXUD TƏSADÜF

1385-ci ildə (hicri-qəməri) Kərbəladakı İslami xeyriyyə cəmiyyəti Nəcəfdə nəşr olunan "Əl-vəzirə" jurnalının II, III tirajlarında Pakistanın Bilahur şəhərində "İslami mərifətlər" nəşriyyatının dərc etdirdiyi "Təsadüf?!" adlı bir məqalə yayımladı.

1951-ci ildə "Qaf vadisi" adlı məntəqədə Sovet arxeoloqları tərəfindən qazıntı işləri aparılarkən üzərində yazı olan qədim taxta qırıntıları aşkarlanmışdı. Bu da onları həmin qazıntı işlərini genişləndirməyə, həm də dərinləşdirməyə vadar etmiş və nəticədə bir çox daşa dönmüş taxtalar üzə çıxmışdı.

Axtarış nəticəsində tapılmış bu taxtalar arasında uzunluğu 14 m, eni isə 10 m olan dairəvi bir lövhə onları təəccüb və dəhşətə gətirmişdi. Belə ki, bu taxta digərlərindən fərqli olaraq heç bir tarixi təsirə məruz qalmamışdı.

1952-ci ilin sonunda bu taxtalar ətrafında aparılan tədqiqatın nəticəsində məlum olmuşdur ki, tapıntılar Nuhun (ə) gəmisinə məxsusdur. Qədim dildə olan yazının nədən bəhs etdiyini müəyyənləşdirmək üçün 1953-cü ildə Sovet hökuməti 7 mütəxəssisdən ibarət xüsusi komissiya təşkil edir. Bu alimlərin siyahısını diqqətinizə təqdim edirik:

1. Sulyanov – Moskva universitetində dil üzrə müəllim.
2. Xruyev – həmin universitetdə dil üzrə müəllim.
3. Müşatin – "Qədim əsərlər" muzeyinin direktoru.
4. Korovin – "Koynazoy" fakultəsində müəllim.
5. Polkin – "Lenin" institutunda arxeologiya müəllimi.
6. Əhməd Poladi – Elmi araşdırma və tədqiqat üzrə rəhbər.
7. Kolotov – "Stalin" universitetinin direktoru.

Bu komissiyanın 8 aylıq araşdırmalarından sonra gəldiyi nəticə bu olmuşdur ki, lövhə Nuhun (ə) gəmisinə məxsusdur və bəlalardan qorunmaq üçün qoyulmuşdur. Lövhənin üzərində olan yazı qədim Samiyyə dilində yazılmışdır. Britaniyalı alim, Mançester universitetinin qədim dillər üzrə müəllimi N.F.Maks yazını ingilis dilinə tərcümə etmişdir:

Nəzərinizə çatdırmaq istəyirəm ki, "İlya", "Şəbbər" və "Şübeyr" Samaniyyə dilində "Əli", "Həsən" və "Hüseyn" adlarının qarşılığıdır. Alimlər bu beş müqəddəs adın və onların Allah yanında olan məqamının ucalığı qarşısında dəhşətə gəlmişlər, çünki Nuh (ə) onlarla Allaha təvəssül etmişdir. Ən maraqlısı budur ki, 1000 illərdən sonra alimlər (özü də qeyri-müsəlman, ateist) bu lövhədəki yazını oxuyub açıqlaya bilmişlər.

Lövhə hal-hazırda Moskvada "Qədim əsərlər" muzeyində saxlanılır. Biz onu müşahidə edən qardaşlarımızın bəzisi ilə görüşmüşük. Sizin də yolunuz həmin tərəflərə düşsə, öz gözlərinizlə həmin lövhəni görə

bilərsiniz və bu, sizin Əhli-beytin(ə) məqamı barəsindəki etiqad və yəqininizin artmasına, inşallah, bir vasitə olar.

Allah Qurani-Kərimin "Qəmər" surəsinin 15-ci ayəsində buyurur:

"Biz onu (Tufan hadisəsini, yaxud Nuh qövmünün başına gələnləri) ibrət və nişanə üçün saxladıq. Heç ibrət alan varmı?"

Ayədən belə nəticə ala bilərik ki, Allah-Təala Nuhun (ə) gəmisini daimi nişanə və parlaq əlamət olaraq saxladı ki, zaman boyunca gələn nəsillər bu nişanədən dərs alaraq, Allahın qəzəbindən çəkinib rəhmətinə meyl etsinlər.

Sual oluna bilər ki, hal-hazırda Nuhun (ə) gəmisi haradadır və ondan əsər-əlamət qalıbmı?

Cavab: Heç şübhəsiz ki, Nuhun(ə) gəmisindən beş müqəddəs şəxsin adı yazılmış o lövhədən başqa heç nə qalmamışdır.Bu tarixi hadisədən uzun zaman keçməsinə baxmayaraq, lövhə, nəinki çürümüş, əksinə, salamat qalaraq zamana meydan oxumaqdadır.

Buradan da belə məlum olur ki, ayədə nəzərdə tutulan "ibrət" və "nişanə" məhz həmin 5 müqəddəsin adı yazılmış lövhədir. Allah bu lövhəni dəlil və nişanə olaraq saxladı ki, insan hidayət tapıb Əhli-beytin (ə) məqamını dərk etsin. Doğrudan da, bu lövhə bizi onları sevməyə təhrik edir, lakin Allah həmin ayənin davamında necə də doğru və gözəl buyurur: "Heç ibrət alan varmı?"

Və "Allahın dininə (İslama) dəstə-dəstə daxil oldular." Bu əbədiyaşar möcüzənin təsirindən çoxlu insan ibrət alaraq İslama qədəm qoyub Əhli-beyt (ə) bayrağının altına sığındı, bu lövhəni qəti dəlil bilərək, İslamın haqq dini olduğunu və Əhli-beytin (ə) uca məqamını təsdiq etdilər.

Əhli-beytin (ə) Allahın ən fəzilətli məxluqu, ilahi hikmətin yer üzündəki daşıyıcıları və ən sevimli bəndələri olmasının bərəkətidir ki, bu lövhə zamanın təsirlərinə məruz qalmamış, tarixin işıq çatmayan qaranlıq dünənindən bu günün insanına haqqın istiqamətini, nicat yolunun harada olduğunu açıq-aydın göstərir. Belə ki, Nuh (ə) bu adların əzəmətini bildiyinə görə, ehtimal olunan xətər və bəlalardan qorunmaq üçün lövhənin üzərinə yazaraq gəmiyə qoymuşdur. Gəmi dağ hündürlüyündə olan dalğalar arasında qorxu ilə, çətinliklərlə əhatə olunmuş halda hərəkət edirdi. Lakin Allah o beş şəxsin xatirinə bu gəmini içindəkilərlə birlikdə qorudu və salamat saxladı. Həzrət Peyğəmbər (s) bu hadisəyə işarə edərək buyurur: "Əgər biz olmasaydıq, gəmi hərəkət etməzdi."

Nuhun (ə) barəsindəki bu ibrət əsəri bizim üçün, həmçinin, bir örnək ola bilər ki, biz də evlərimizi, məhəllələrimizi, nəqliyyat vasitələrimizi bu adlar yazılmış lövhələrlə şərəfləndirək və Allah onların hörmətinə bizi də bəla və xətalardan hifz edib amanda saxlasın.

Allah bizi müvəffəq etsin.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Lövhənin üzərindəki yazıların tərtibi forması**
**(yazı sağ tərəfdən oxunar)**



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## Lövhənin aşağıdakı hissəsindəki hərflər



وقد ترجم هذه الحروف احد اساتذة اللغة في بريطانيا بما يلي

MR. N. F. Maks

O. Mygod My Helper. Keep My Hand With Mercy Andwithyour Holybodies: Mohamad. Alia. Shabbar. Shabbir. Fatema.

They All Are Biggests And Honou-rables.

Theworld Established For Them.

Help Me By Their Names.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Lövhənin yuxarı hissəsindəki hərflər**



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Lövhənin orta hissəsindəki hərflər.**
**Lövhənin yan tərəfində olan hərflər.**

1. “Tafanenzov” jurnalı, Moskva, 1953-cü il, noyabr ayı.
2. “Weekly-mirror” jurnalı, 1953-cü il, dekabr ayı
3. “Əlhuda” jurnalı, Qahirə, 1954-cü il, mart ayı.

You can rofort bidht.

Bu hərfləri ingilis dilinə Britaniyada fəaliyyət göstərən N.F.Maks adlı dilçi alim tərcümə etmişdir:

“O my God! My helper. Reap my hand vith mercy and with your Holy bodies.

Mohammad. Alia. Shabbar. Shabir. Fatima!

They all are biggest and honorable!

The world Established for them.

Help me by their names.”

“Ey Allahım, lütfünlə, rəhminlə və bu müqəddəs məxluqların hörmətinə – Muhəmməd, İlya, Şibir, Şubeyr, Fatimə – mənə kömək ol. Həqiqətən bu beş nəfər əzəmət sahibləridir və onlara ehtiram etmək vacibdir. Çünki sən bütün dünyanı onların xatirinə xəlq etmisən.”

1. “Stafor Bartania” jurnalı, 1954-cü il, yanvar.
2. “ Maneheslor Sunlight” jurnalı, 1954-ci il, 23 yanvar.
3. “London Weekly Mirror” jurnalı, 1954-ci il, fevral.

Digər maraqlı bir əhvalat.

İraqın Hillə şəhəri yaxınlığında qəribə bir əhvalat müşahidə olunmuşdur. Bir ağacı kəsib mişar ilə doğrayırkən, onun hər tikəsində “La ilahə illəllah, Muhəmmədur-rəsulillah, Əliyyun Vəliyyulah” sözlərinin yazıldığını görmüşlər.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## MƏLƏKLƏRİN ƏHLİ-BEYTƏ (Ə) TƏVƏSSÜL ETMƏSİ

Əhli-beytin (ə) mələklərdən fəzilətli olmasına dair çoxlu hədislər var ki, həmin hədislərdən onların da Əhli-beytə (ə) təvəssül etdiyi məlum olur. Peyğəmbər (s) buyurur: "Ya Əli, əgər biz olmasaydıq, Allah Adəmi, Həvvanı, Cənnəti, Cəhənnəmi, səmanı və yeri yaratmazdı. Necə ola bilər ki, biz mələklərdən üstün olmayaq? Biz Allahı tanımaqda da, Onu zikr etməkdə də, Ona şəhadət verməkdə də, Onu müqəddəs hesab etməkdə də mələklərdən üstünük."[1]

İmam Cəfər Sadiq(ə) buyurur: "Hər gün mələklərdən biri biz Əhli-beytin vilayəti ilə Allaha yaxınlaşır. Bizi sevənlərə istiğfar (bağışlanma) diləyir, düşmənlərimizə isə lənət oxuyur."

Həzrət Peyğəmbər (s) bir hədisdə buyurur: "İsrafil (ə) Cəbrayıldan (ə) üstün olduğu üçün fəxr etdi. Onlar bir-biri ilə mübahisədə ikən Allahdan nida gəldi:

– Sakit olun! Mən sizi sizdən üstün olan kəslərin xatirinə yaratmışam.

Dedilər:

– Ya Rəbb! Bizdən də üstün olanı varmı? Biz ki, Nurdan xəlq olunmuşuq?

Allah-Təala buyurdu:

– Bəli!

Qudrət hicablarına əmr etdi:

– Açılın!

Pərdələr açıldı və bu vaxt ərşdə yazılmış adlar göründü. "Allahdan qeyri məbud yoxdur. Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn Allahın ən sevimli məxluqlarıdır."

Cəbrayıl(ə) dedi:

– Ya Rəbb, Səni and verirəm Onların hörmətinə, məni Onlara xidmətçi et!

Allah buyurdu:

– Artıq sən onların xidmətçisisən.

Peyğəmbər (s) hədisin davamında buyurur:

"Cəbrayıl (ə) Əhli-beytdəndir. Həqiqətən, o, bizim xadimimizdir."[2]

---

[1] "Biharul-Ənvar", cild 26, səh. 325
[2] Yenə orada, cild 26, səh. 344

# IV FƏSİL

# “QƏDİR-XUM”

*Bu günün xeyrin bilən hər kimsə*
*xoşbəxtlik bulur,*
*Bəhri-ümman tək gözü sevdalı*
*sellərlə dolur,*
*Kim Əmirəl-mömininə həqq deməz,*
*əlbət, solur,*
*“Əlini həqq bilməyənlər kafiri-*
*mütləq olur,*
*Dini yox, imanı yox, çün namüsəlmandır bu gün”.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Bismillahir-rəhmanir-rəhim**

Həccətül-vida Həzrət Peyğəmbərin (s) ömrünün sonunda Məkkəyə gedib Kəbəni ziyarət etməsi ilə bağlı olan bir hadisədir.

Hicrətin 10-cu ili Peyğəmbərin (s) son vida Həcci olmuşdur. Bu ildə baş vermiş hadisələrin ən mühümü İslam Peyğəmbərinin (s) son həccidir. Bu ildə həccin əməllərini yerinə yetirmək və onu xalqa çatdırmaq Allah-Təala tərəfindən Peyğəmbərə (s) əmr olunmuşdur. Həccə getmək xəbəri bütün Mədinəyə yayıldı. Zilqədə ayının 26-da İslam Peyğəmbəri böyük bir karvanla Şəcərə məscidində ehram bağlayıb Məkkəyə yola düşdü. Peyğəmbər (s) Məkkənin evləri görünənə qədər, yəni yol boyu "ləbbeyk Allahummə ləbbeyk" zikrini tilavət edirdi. O, Məscidi-Hərama "Bəni-Şeybə" qapısından daxil oldu. İslam Peyğəmbəri (s) həccin bütün əməllərini müsəlmanlara başa saldı. O, bir neçə yerdə, o cümlədən Ərəfat çölündə xütbə oxudu. Xütbəsini bu sözlərlə başladı ki: "Ey müsəlmanlar, bir-birinizin malına, canına, namusuna təcavüz etməyin. Qadınların sizin boynunuzda, sizin də onların üzərində haqlarınız vardır. Onlar Allah tərəfindən sizin əlinizdə əmanətdir. Sizlərdən ən yaxşısı odur ki, evdə ailəsi ilə xoşəxlaq ola..." Bu cür xütbə davam edir və sonra Peyğəmbər (s) xütbəni bu cümlələrlə yekunlaşdırır: "Bütün müsəlmanlar bir-birinə qardaşdırlar." Sonra Peyğəmbər (s) üzünü göylərə tutub dedi:

"Ey Allah, sənin əhdü peymanını ümmətimə çatdırdım."

İslam Peyğəmbəri (s) Mina əməllərini də yerinə yetirəndən sonra Mədinəyə qayıtdı. Həcdən qayıdan karvan Qədir çölünə çatanda Cəbrail (ə) mühüm bir xəbəri Allah tərəfindən Peyğəmbərə (s) çatdırdı. (Onu da qeyd etmək lazımdır ki, Qədir Cöhfənin yaxınlığında yol ayrıcında yerləşirdi). Həmin mühüm xəbər "Maidə" surəsinin 67-ci ayəsinin nazil olma xəbəri idi.

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

"Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı (o məsələ ki, Allahın tərəfindən sənə çatıb) camaata çatdır. Ki, əgər bunu etməsən, Allahın risalətini yerinə yetirməmisən. Allah-Təala səni camaatdan qoruyacaq. Həqiqətən, Allah kafir qövmi hidayət etməyəcək."

Bu ayə nazil olan gün Qurban bayramından səkkiz gün keçirdi. Zilhiccə ayının 18-i idi. Hava çox isti idi, Cöhfə çölü görünür, onun ardınca isə Qədir-Xum səhrası başlanırdı.

Bura dörd yol ayrıcı idi; Misirə, Yəmənə, İraqa və Mədinəyə yollar burada ayrılırdı. Birdən Peyğəmbər (s) müsəlmanlara dayanmaq əmri verdi. Qabaqda gedənlər geri qayıtdılar. Peyğəmbər (s) müəzzinə azan

verməsini əmr etdi və azandan sonra namaz qılındı. Namaz qurtaran kimi müsəlmanlar dağılışmaq istədilər. Buna səbəb də havanın həddindən artıq isti olması idi. İstidən insanlar əbalarının bir hissəsini başlarına çəkməyə, o biri hissəsini isə ayaqlarının altına sərməyə məcbur olmuşdular. Peyğəmbər (s) göstəriş verdi ki, heç kim dağılmasın, ilahi bir xəbəri eşitmək üçün öz yerinizdə qalın. Sonra Peyğəmbər (s) əmr etdi ki, dəvələrin yəhərlərindən bir minbər düzəltsinlər. Minbər hazır olan kimi Peyğəmbər (s) minbərin üstünə çıxdı və Allah-Təalaya həmd-səna edəndən sonra buyurdu:

"Ey camaat, tezliklə mən sizin aranızdan gedəcəyəm və Allahıma qovuşacağam. Deyin, görüm, mənim barəmdə necə şəhadət verirsiniz?"

Hamı bir ağızla ucadan dedi: "Şahidlik veririk ki, həqiqətən, sən nəsihət vermiş, bizi düzgün yola hidayət etmisən. Allah sənə əcr əta etsin, ya Rəsulullah."

Sonra Həzrət buyurdu: "Siz Allahın birliyinə, mənim risalətimə, qiyamət gününə və o gündə hamının diriləcəyinə şəhadət verirsinizmi?"

Hamı dedi: "Bəli".

Sonra Peyğəmbər (s) buyurdu: "İndi baxın, görün, sizə tapşırdığım iki qiymətli əmanət barəsində necə rəftar edəcəksiniz?"

Sual verdilər ki, hansı iki əmanət, ya Rəsulullah?

Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm.Onlardan biri Allahın kitabı və ikincisi, mənim Əhli-beytimdir. Bu iki əmanət Kövsər hovuzuna qədər bir-birindən ayrılmazlar. Bu iki əmanətdən qabaq da düşsəniz, ziyan çəkərsiniz, geri qalsanız da."

Sonra Peyğəmbər (s) Əlini (ə) yanına çağırıb, onun əlindən tutub, hər ikisinin qoltuğunun altı görünənə qədər yuxarı qaldırıb buyurdu: "Ey camaat, Allah mənim rəhbərimdir, mən isə sizin rəhbərinizəm. Kimin ki rəhbəri mənəm, Əli də onun rəhbəridir."

Peyğəmbər (s) bu sözü üç dəfə təkrar etdi, sonra üzünü göyə tutub belə buyurdu:

**اللّهمّ والى من والاه و عاد من عاداه و احب من أحبّه وأبغض من أبغضه وانصر من نصره وأخذل من خذله و أدر الحقّ معه حَيث دار.**

"Ey mənim Allahım, kim onu dost tutsa, sən də onu dost tut, kim onu sevsə, sən də onu sev, kim onu düşmən tutsa, sən də onu düşmən tut, kimin ondan acığı gəlsə, sənin də ondan acığın gəlsin, kim ona kömək etsə, sən də ona kömək et, kim ona kömək etməsə, sən də ona kömək etmə, haqqı onunla yoldaş et və onu haqdan ayırma."

Böyük Füzuli yadigarı, Əhli-beyt aşiqi S.Ə.Şirvani "Qədir-Xum" bayramı haqda gözəl bir şeir yazmış və Peyğəmbərin (s) bu hədisini və duasını belə vəsf etmişdir:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***Dedi: Hər şəxsə ki, aləmdə mən olsam Mövla,***
***Ona Mövladu Əli, ol şəhi-mülkü-məna,***
***Ona nasir olana, nasir ola Bari-Xuda,***
***Hasidü düşməninə düşmən ola Rəbbi-səma,***
***Bu duanı elədi Əhmədi-Muxtar bu gün.***

Sonra Peyğəmbər (s) buyurdu: “Bilin ki, sizin vəzifəniz bu hadisəni burada olmayanlara da çatdırmaqdır.” Peyğəmbərin (s) xütbəsi sona çatdı. Camaat tər içində idi. Camaat dağılışmamış Cəbrail (ə) nazil olub, “Maidə” surəsinin üçüncü ayəsini gətirdi.

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا

“Bu gün sizin üçün dininizi kamil etdim, nemətimi tamamladım və bir din olaraq İslamı bəyəndim.”

Bu ayədəki nemətdən məqsəd İmamətdir.

***Çatdı bu ayə Əli şəninə, “Əkməltu Ləkum”,***
***Çün ki hər ayəvü hər surəvü hər cüz Əlidir.***

Bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) təkbir (“Allahu Əkbər”) deyib, öz sözünə davam verdi:

**الله أكبر الله أكبر على الكمال الذين و إتمام النعمت و رضى الربّ برسالتى والولاية لعليّي من بعدى**

“Allah böyükdür. O Allah ki öz dinini kamil etdi, öz nemətini tamamladı, mənim risalətimdən və məndən sonra Əlinin (ə) rəhbərliyindən razı qaldı.”

Şair Fəxrəddin Cəfakeş Peyğəmbərin (s) bu şükrünü belə vəsf edir:

***Biz ki, Quranda bu “Əkməltə” kəlamın oxuruq,***
***Nə bu Davuda, nə Musaya, nə İsaya gəlib.***

Peyğəmbərin (s) ən mühüm vəzifələrindən biri də imamət məqamını camaata çatdırmaq və Əlinin (ə) özündən sonra rəhbər olmasını elan etmək idi.

Sonra camaat Əlini(ə) təbrik etməyə başladı.Təbrik edənlər içində birinci və ikinci xəlifələr də var idi və bu iki xəlifə Əlini (ə) təbrik edərək dedilər:

**بخٍ بخٍ لک يا ابن ابى طالب اصبحت و امسيت مولاى و مولا كلّ مؤمنٍ و مؤمنة**

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Mübarək olsun, mübarək olsun! Ey Əbu Talibin oğlu, sən mənim və bütün mömin və möminələrin mövlası və rəhbəri oldun."

Bu iki şəxsin Əlini (ə) təbrik etməsini S.Ə.Şirvani oxuculara bu cür çatdırır:

***Tutdu bir xeymədə, bəs, Heydəri-Kərrar qərar,***
***Təhniyət etdilər ol şirdilə kürdü kibar,***
***İbn Xəttab xitab eylədi, ey şiri-şikar,***
***"Bəxxun, Bəxxun, ləkə mövla" səni qıldı Cəbbar,***
***Oldun ey sərvəri-din, aləmə sərdar bu gün!***

İbni-Abbas dedi: "Allaha and olsun ki, bu əhdü peyman hamıya vacib oldu."

Sonra məşhur ərəb şairi Həssan ibn Sabit bu hadisə haqqında nəzmə çəkdiyi "Qədir" şeirini oxudu.

1. "Maidə" surəsi 3-cü ayə: " Qayətul-Məram" kitabının 39 -cu fəslində sünnülər 6 hədis nəql edir. Bu hadisələr təsdiq edir ki, bu ayə "Qədir-Xum" günü nazil olub.

2. "Maidə" surəsi, 67-ci ayə: "Əl-Qədir"in birinci cildində, ibni-Əbu-Hatəmdən, ibn Mərdu Veyhdən, Vahidi Nişapuridən, Əbu Səid Xidridən bunu nəql edir.

"Şəvahidut-tənzil" kitabında Hafiz Hakim Həskanidən, ibn Abbasdan, Cabir Ənsaridən, Əbu İshaq Həməvinidən bunu nəql edir.

"Fəraidus-səmtin" kitabında Qazı Şovkani ibn Mərduveyhdən və o, ibni-Məsuddan nəql edir ki, bu ayə "Qədir-Xum" günü nazil olub və Həzrət Əlinin (ə) vilayətinə dəlalət edir.

Zeyd ibn Ərqəm deyir ki, Həzrət Peyğəmbər (s) buyurdu:

**عَنْ ذَيْدِ بْنِ اَرْقَمَ قَالَ رَسُولُ اللهِ (ص): اِنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ كِتَابَ اللهِ وَ عِتْرَتِي وَ اِنَّهُمَا لَنْ يَتَفَرَّقَا حَتيَّ يَرِدَا عَلَيَّ الْحُوْضَ**

"Mən sizin aranızda iki böyük əmanət qoyub gedirəm: 1-ci Quran, 2-ci isə Əhli-beytimdir. Hər ikisindən bərk yapışın. Birini tutub, digərini buraxsanız, məhv olacaqsınız. Hər ikisi qiyamətdə Kövsər bulağı yanında mənə yetişəcək".

Sonra Həzrət Əlini(ə) çağırıb, əlindən tutaraq dedi:

**مَعَاشِرَالنَّاسِ! مَنْ كُنْتُ مَوْلاَهُ فَهَذَا عَلِيٌّ مَوْلاَهُ**

"Ey insanlar! (Məndən sonra sizin ağanız, başçınız və rəhbəriniz bu Əlidir.) Məni özlərinə mövla bilənlər bilsinlər ki, məndən sonra Əli onların ağası və mövlasıdır".

Bu rəsmi mərasimdə birinci Ömər ibn Xəttab Həzrət Əlini(ə) təbrik edərək, "Mübarək olsun, ya Əli, sən bu gündən mənim və bütün müsəl-

manların mövlasısan”, - dedi və əlini uzadaraq Həzrət Əliyə (ə) beyət etdi (tabeçiliyini bildirdi). Bundan sonra Əbu Bəkr, Osman və digər müsəlmanlar Peyğəmbər (s) qarşısında Həzrət Əliyə (ə) beyət etdilər.

124 minə qədər müsəlman bu hadisənin şahidi olmuşdur. Bu məsələ bəzi sünni məzhəb yazıçılar tərəfindən xalqdan gizlədilmiş və hədisin mənası “söz” oyunları ilə başqa səmtə yönəldilmişdir. Həmin hadisə ilə bağlı dəlilsiz tərəddüd edərək onu qəbul etməmişdilər. Ona görə də İslam aləmi iki məzhəbə, iki əqidəyə bölünmüşdür. Bir əqidə tərəfdarları bu hadisənin olduğunu və onu Quran, tarix və hədislərin rəvayət və göstərişlərinə əsasən qəbul edərək “şiə” və ya “imamiyyə” adlandırılmış, 2-ci əqidə tərəfdarları həmin hadisənin Həzrət Əlinin (ə) vilayəti haqqında olmadığını və hətta bəziləri bu hadisəni inkar edərək və “Əhli-sünnə vəl cəmaət” (sünni) adlandırılmışlar.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, bir çox sünni əqidəli müsəlman qardaşlar vardır ki, onlar Həzrət Əlinin (ə) vilayətini təsdiq edərək, Qədir-Xum əhvalatına inanırlar. Bir çox mötəbər sünni alimləri öz hədis, tarix və digər kitablarında Qədir-Xum əhvalatını təsdiq etmişlər.

İndi isə bu məsələ ilə bağlı sünni alimlərinin fikrini araşdıraq. Bu mövzu İslamda çox mühüm və əhəmiyyətli olduğu üçün onun bütün incəlikləri ilə geniş şərhə ehtiyacı vardır. Lakin biz bu mövzunu türk dünyasında tanınmış mötəbər alimlərin əsərləri üzərində təhlil edəcəyik. Gələcək mövzularımızda da mötəbər sünni əsərlərinin bu hadisə ilə əlaqədar açıqlamalarını təhlil edəcəyik.

***“Dörd böyük xəlifə”*** kitabında bir-birinin əksinə olan yalanların içində Qədir-Xum əhvalatını da yazmışdılar. Bu kitab Qədir-Xum həqiqətini belə yazır:

“Rəsulullah(s) vida Həccindən dönərkən Qədir-Xum deyilən yerdə namaz qıldıqdan sonra üzünü əshabi-girama (səhabələrə) çevirib “Mən möminlərə özlərindən əziz, yaxın deyiləmmi?”, - deyə buyurdu.

Əshabi-giram təsdiq edərək:

- “Bəli, ya Rəsulullah, beləsiniz”, - dedilər. Sonra Həzrət Əlinin əlindən tutub: “Mən kimin ağasıyam, Əli də onun ağasıdır”, - deyə buyurdu. O, mübarək sözlərinə davam edərək, “Ya Rəbbi, ona düşmənçilik edənə düşmənçilik et. Onu sevəni sev, onu aşağı tutanı zəlil et. Ona yardım edənə yardım et. Harada olursa-olsun, haqqı, doğrunu ona bildir”, - deyə buyurdu”.[1]

İndi isə diqqət yetirin, Həzrət Peyğəmbər (s) demişdir: “Onu aşağı tutanı zəlil et”.

Bu söz ilk növbədə yanlışlıqla dolu həmin kitabı yazanların özlərinə aiddir ki, Həzrət Əlini (ə) çoxlarından aşağı tutmuşdular.

[1] Dörd böyük xəlifə", 63-cü mənqibə, səh.316

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

### *Şehbəndərzadənin "İslam tarixi"*

Bu kitab Qədir-Xum hadisəsini belə qeyd edir:

"Həzrət Peyğəmbər (s) deyəndə ki, "Mən kimin mövlasıyam, Əli (ə) də onun mövlasıdır", bu zaman Haris ibn Numan adlı bir şəxs bu əmrə etiraz edərək, "bu əmr sənin öz şəxsi fikrindir, ya Allahın əmridir", - deyə səsləndi.

- Həzrət Peyğəmbər (s) buyurdu: "O Allaha and olsun ki, ondan başqa Allah yoxdur, bu əmr Ondandır, Məndən deyildir".

Haris bin Numan bu sözlərlə razılaşmayaraq, "əgər bu əmr doğrudursa, Allahın əzabı mənə nazil olsun", - dedi. Bu zaman onun başına bir daş düşərək öldü"[1].

***"Məaricun-nübüvvə"*** kitabında Qədir-Xum hadisəsi haqqında belə yazılmışdır:

"Oradan yola düşüb Qədirul-Xum deyilən yerə gəlib çatdılar… Günorta namazını qılıb, mübarək üzünü əshaba çevirdi. Buyurdu ki, "Mən möminlərə canlarından əziz deyiləmmi? Sanki məni sonsuzluq aləminə dəvət edirlər. Sizə iki şey tapşırıram… Allah-Təala mənim mövlamdır, mən də kişi, qadın müsəlmanların mövlasıyam". Həzrət Əlinin (ə) əlindən tutub, "Mən kimin mövlasıyam, Əli də onun mövlasıdır. Ya rəbbi, Onu sevəni Sev, Ona düşmən olana Sən də düşmən ol. Ona əziyyət etmək istəyənə Sən də əziyyət et, ona kömək edənə Sən də kömək et", - deyə buyurdu.

Əshabın çoxu, hətta möminlərin anaları gəlib Həzrət Əliyə "Gözün aydın olsun, mübarək olsun", - dedilər. Ömər, "Ey Əli (ə)! Mənim və bütün möminlərin mövlası oldun", - dedi.[2]

***"Şifai-Şərif"*** kitabı Tirmizinin "Sunəni"ndən hədis bəyan edir. Müəllif heç bir söz açmadan buyurur: "Peyğəmbər (s) də "Mən kimin mövlasıyam, Əli də onun mövlasıdır" - demişdir.[3]

***"Şəmaili-şərif"*** – Bu kitab səhabələrdən biri olmuş Cabir(r.ə.) cənablarından rəvayət edir ki, Həzrət Peyğəmbərimiz(s) buyurmuşdur: "Mən kimin ağasıyamsa (vəlisiyəmsə), Əli (ə) də onun vəlisidir".[4]

***"Türk islam tarixi"*** əsərində vida Həccinin Mədinəyə qayıdış qismində Qədir-Xum günündə söylənilən fikir eynilə yazılmış, amma bu hədisin Qədir-Xumda deyildiyi bildirilməmişdir. Bir nəzər salaq:

"Bu vida Həcci sırasında Həzrət Əli (ə) ağamız daim Rəsuli-Əkrəm ağamızın yanında və qulluğunda olmuş və Peyğəmbər (s) cənabları, "Mən kimin ağasıyam, Əli (ə) də onun ağasıdır" - deyərək, ümmətini ona tapşırmışdı". [5]

---

[1]Şehbəndərzadə, "İslam Tarixi". "Doğan günəş" yayınları, 1971, səh. 272-274
[2]"Məaricun-nübüvvə" ("Altıbarmaq peyğəmbərlər tarixi"), "Bərəkət" yayınları, 1978. səh.736.
[3] "Şifai-Şərif", "Çilə" yayınları, 1977, səh. 242
[4] "Şəmaili-Şərif", "Hilal" yayınları, "Fateh" mətbəəsi, 1976, səh. 127
[5] "Türk islam tarixi", "Tərcuman" qəzetinin nəşri, 1963, I cild, səh. 500

## “QƏDİR-XUM” HƏDİSİNİ İNKAR EDƏNLƏR

“Qisasul-ənbiya” kitabının müəllifi A.Cövdət Paşadır. O, bu əsərində vida Həcci haqqında məlumat vermişdir, amma Qədir-Xum hadisəsinə zərrəcə də olsa, toxunmamışdır. [1]

***“İslam tarixi”*** - Bu kitabın müəllifi İstanbul İmam Xətib Litseyinin müdiri Həyati Ülki əfəndidir. O, hicrətin onuncu ilində baş verən hadisə və vida Həcci barədə on beş səhifə həcmində məlumat qeyd etmişdir. Lakin Qədir-Xum haqqında bir kəlmə belə qeyd etməmişdir. [2]

***“İslam tarixi”*** - Bu tarix kitabının müəllifi İstanbul Yüksək İslam İnstitutu Siyer-İslam tarixi fakultəsinin müəllimi M.Zəki Canandır. Onun əsəri 1977-ci ildə “Yelkən” mətbəəsində çap edilmişdir. Bu kitabda vida Həcci mövzusu 401-408-ci səhifələri əhatə edir, lakin Qədir-Xum hadisəsindən bir kəlmə belə söz açılmayıb, yalnız orada belə bir açıqlama var: “Mədinəyə gələrkən Rabiğ yaxınlığındakı Qədir-Xum deyilən yerdə mövla təyin etdi”[3].

M.Zəki əfəndi bu bir cümlənin sonunda “207” rəqəmini yazaraq, açıqlamasını həmin səhifədə belə qeyd etmişdir:

“Bu mövla məsələsində Həzrət Əli (ə) ilə müxalif olanlar oldu. Məsələ Həzrət Peyğəmbərə (s) çatdı. Həzrət Əli (ə) haqlı çıxdı və ona dua etdi. Şiələr bu hadisəyə siyasi bir rəy verdilər”.

Bəli, bir fikir verin. Böyük bir tarixi hadisəni anlaşılmaz şəkildə qeyd etdiyi az deyilmiş kimi, hörmətli M.Zəki əfəndi “Şiələr bu hadisəyə siyasi bir rəy verdilər”, - deyir. Görəsən, tarixdə olmuş bir hadisənin qəbul edilməsi məsələsində şiələrin başqa nə rəyləri ola bilərdi. Bir də müsəlmanlara təsdiq olunmuş bir hadisənin şiəliyə çevrilməsi kimi başa salınmasında nə məqsəd güdülür?!

***M.Nəcati Bursalı*** əfəndi – Son dövrlərdə ən çox kitab yazan alimlərdəndir. Onun yazmış olduğu “Övliyalar sultanı Həzrət Əli (ə)” adlı bu kitabında Qədir-Xum əhvalatından zərrəcə söz açılmamışdır.[4] Çox təəccüblüdür. İlahi!… Bir şəxs haqqında kitab yazasan, amma həmin şəxsin həyatında böyük əhəmiyyət kəsb edən və Peyğəmbərin (s) onunla bağlı müsəlmanlara verdiyi göstərişi qeyd etməyəsən. Bu, ən azı həmin şəxsə olan hörmətsizlik və məsuliyyətsizlikdir.

---

[1] "Qisasul-ənbiya". "Bədr" yayınları, 1966, cild 1, səh. 231
[2] "İslam tarixi", Türk İslam tarixi. "Tərcüman" qəzetinin nəşri, 1963. I cild, səh. 500
[3] M.Z.Canan, "İslam tarixi".. "Yelkən" mətbəəsi, 1977, səh.207
[4] "Övliyalar sultanı Həzrət Əli", "Çilə" yayınları, 1977, səh. 178-183

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***Professor M.Həmdullah*** –Türkiyədə tanınmış bir şəxsdir. O, "Rəsulullah Məhəmməd" adlı kitabın müəllifidir. Onun yazmış olduğu bu kitabın 175-176, 181-ci səhifələrindəki "Vida xutbəsi" yazısında, habelə 271, 385, 430-cu maddələrdəki "Vida Həcci" yazısında və digər bütün mövzularda Qədir-Xum hadisəsi haqqında heç bir məlumat verilməmişdir.

"Peyğəmbərimizin tarixi" kitabının müəllifi İran Yucel həmin kitabın 4-cü səhifəsində yazır: "Bu kitab Dini İşlər Yüksək Qurumunun 08.01.1981-ci il tarixli, 1 saylı qərarı ilə nəşr edilmişdir". Kitabın 259-267-ci səhifələri tamamilə vida Həcci mövzusuna həsr olunmuşdur. Lakin Qədir-Xum haqqında bir kəlmə belə yazılmamışdır.[1]

Təəccüblü burasıdır ki, Dini İşlər Yüksək Qurumu tərəfindən İlahiyyət dərslərində istifadə üçün nəzərdə tutulan bu kitabda Qədir-Xum və Əhli-beytlə(ə) bağlı başqa məsələlər də gizlədilmişdir. Həmin məsələlər haqqında danışacağıq.

"Xatəmül-Ənbiya Həzrət Məhəmməd (s) və həyatı" adlı kitabının müəllifləri Əli Himmət Bərgi və Osman Kəskioğlu əfəndilərin əsərində Qədir-Xum hədisi gizlədilmişdir.

Həmin kitabın 549-558-ci səhifələri tamamilə vida Həcci mövzusuna həsr olunmuşdur. Ancaq burada da Qədir-Xum əhvalatından zərrə qədər də olsa, söz açılmamışdır.

## "QƏDR-XUM" HƏDİSİNİ TƏSDİQ EDƏNLƏR

***M.Asim Köksal*** –Türkiyə Diyanətinin ən böyük alimlərindən biridir. Onun yazdığı və Türkiyədə zəmanəmizin ən irihəcmli tarix kitabı kimi tanınan "İslam tarixi" kitabına nəzər salsaq, bir neçə məsələ bizim üçün aydın olar.

Məsələni çox da uzatmadan onun yazdığını olduğu kimi oxuyaq:

- "Ey insanlar! Siz nəyə şəhadət edirsiniz? - deyə soruşdu. Allahdan başqa Allah olmadığına şəhadət edirik, - dedilər. Peyğəmbərimiz, "sonra", - deyə soruşdu. Məhəmməd (s) əleyhissəlam da Allahın qulu və Rəsulu olduğuna görə ona şəhadət edirik, - dedilər. Peyğəmbərimiz: "Sizin vəliniz kimdir?" - deyə soruşdu. Bizim vəlilərimiz Allah və Allahın Rəsuludur, - dedilər. Peyğəmbərimiz: "Ey insanlar, mən möminlərə öz nəfslərindən (canlarından) irəli deyiləmmi, bilirsiniz, elə deyilmi?" - deyə soruşdu. "Bəli, Ya Rəsulullah!" - dedilər. Peyğəmbərimiz: "Mən möminlərə öz nəfslərindən irəli deyiləmmi, bilirsiniz, elə deyilmi?" - deyə təkrar soruşdu. "Bəli!" – dedilər.

Bu zaman Peyğəmbərimiz (s) Həzrət Əlinin əlindən tutub:

---

[1] "Peyğəmbərimizin həyatı", Türkiyə Diyanət İşləri Başqanlığı, Ankara, 1992

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Mən kimin mövlasıyam, Əli də onun mövlasıdır. Allahım! Ona dost olana dost ol, düşmən olana düşmən ol. Ona yardım edənə yardım et”, - deyə, Allaha yalvardı”.[1]

Pakistan elmi ictimaiyyəti tərəfindən mükafata layiq görülmüş, Türkiyədə zəmanənin ən düzgün və ən böyük alimi sayılan, Türkiyə Diyanətinin uzun illər fəxri üzvlərindən biri olan M.Asim Köksal əfəndi vida Həccində olan Qədir-Xum hadisəsini qeyd etmişdir. M.Asim əfəndi bu açıqlamasına Heys Əminin “Məcməüz-Zəvahid” kitabını, milyonlarla müsəlmanın özünə məzhəb başçısı kimi rəhbər seçdiyi mərhum Əhməd ibn Hənbəlinin “Müsnəd” hədis kitabını, Tirmizinin “Sünəni”ni, İbn Hacərin “Mətalibül-Aliyə” kitabını dəlil, sübut olaraq göstərmişdir.

Deməli, Türkiyə Diyanəti tərəfindən təsdiq edilən ən düzgün və səhih tarix kitabı Əhli-beytə(ə) aid mühüm bir hadisəni təsdiq etmişdir. Bəs, nə üçün bəzi tarix müəllifləri və əsasən, məktəblər, mədrəsələr üçün nəşr edilən kitablarda belə bir məsuliyyətli Peyğəmbər (s) əmanəti inkar edilir və ya bilərəkdən yaddaşlardan silinir. Axı, Peyğəmbər (s) “Quranla Əhli-beytimi bir-birindən ayırsanız, İslamı və özünüzü məhv edəcəksiniz” - demişdir. Bəs, sizin fikriniz nədir?

***Professor Doktor Əthəm Ruhi Ficlal əfəndi*** – “Doqquz Eylül” Universitetinin İlahiyyət fakültəsinin dekanı və islam məzhəblərinin tarixi üzrə fənn müəllimidir. O, eyni zamanda, “İmamiyyə şiəsi” əsərinin müəllifidir.

Professor Qədir-Xum hadisəsinə toxunaraq, bu hadisənin şiələr tərəfindən ortaya atıldığını iddia edir. Kitabın 213-cü səhifəsindəki hədisin 36 №-li şərhində belə deyilir: “Bu hədis sünni hədis qaynaqlarında, sadəcə olaraq, “Mən kimin mövlasıyam, Əli də onun mövlasıdır”, - şəklində verilib”.[2]

Buradan belə çıxır ki, sünnilər bu hədisin göstərişlərini irəli sürməmişdilər. Bir də ki, əgər Peyğəmbər (s) bir sözü, həqiqətən, demişdirsə və həmin hədis səhih qəbul edilmiş kitablarda yazılıbdırsa, yaxud hədisin, professorun dili ilə desək, sünni kitablarında rəvayətinə rast gəliriksə, nə üçün onu sadə qəbul etməliyik? İkincisi, səhih hədislərin nə sünnisi, nə şiəsi? Məgər, Həzrət Peyğəmbərin (s) əmrləri mömin müsəlmanlar üçün bir əmr kimi qəbul edilmirmi?

Bu hədisin şərhində Prof. Dr. Əthəm əfəndi kitabının 213-cü səhifəsində “Bu hədis sünni kitablarında…”, – deyərək bildirir. Sonradan bu hədisi söyləyən kitabları xatırladaraq, Tirmizinin “Mənaqib”ini, “Müstədrək” kitabını, Əhməd bin Hənbəlinin “Müsnəd” kitabını, “Tarixül-xüləfa”nın adlarını qeyd etmişdir.

---

[1] "İslam tarixi", "Misvak" nəşriyyatı, 1980, X cild, səh. 31
[2] "İmamiyyə şiəsi", "Səlcuq" yayınları nəşriyyatı, Ankara, 1984, səh. 212-213

Deməli, belə çıxır ki, yuxarıda adları çəkilən kitablar sünni kitablarıdır və həmin kitablarda da bu hədis söylənilmişdir.

Çox təəccüblüdür. Görəsən, Peyğəmbərimizin (s) Qədir-Xum çölündə 120 min müsəlmanın içərisində üç dəfə ucadan "Mən kimin ağasıyam, Əli (ə) də onun ağasıdır", - fikrini təkrarlamasında məqsədi nə imiş?

Professor M.Həmdullah yazır ki, Həzrət Peyğəmbərin (s) bu fikrini orada olan 140 min səhabə eşitmişdir.[1]

Bu həqiqəti Türkiyə Diyanət (Din) İdarəsinin ən böyük alimlərindən biri M.Asim Köksal əfəndi də öz əsərində təsdiq edir.

Amma cənab Əthəm Ruhi Ficlal insanı təəccübə gətirəcək tərzdə belə deyir:

"Ayrıca Həzrət Peyğəmbərin (s) bu hədisdə buyurduğu vilayət ifadəsi şiələrin düşündüyü kimi deyilməmişdi, çünki Həzrət Peyğəmbər (s) hər bir müsəlmanın vəlisidir, dostudur. Həzrət Əli ilə olan münasibəti də belədir."[2]

Professor Əthəm Ruhi Ficlal cənabları, Həzrət Peyğəmbərimizin(s) hədisdəki əmrinin sizin şərhinizlə nə əlaqəsi var? Axı, Peyğəmbərimiz(s) Qədir-Xumda səhabələrinə "Mən necə ki, sizin vəlinizəm (ağanız, rəhbəriniz, mövlanızam), Əli (ə) də eynən sizin vəlinizdir", – buyurmuşdur. Bu aydın fikri təhrif edib, Əli (ə) ilə olan münasibəti nəzərdə tutduğunu söyləməklə nə tərəddüd edirsiniz? Sizin bu əməliniz Qədir-Xum günündəki əhvalatı insanlardan gizlətmək üçün sünni-şiə məsələsini ortaya atıb, haqq əmanətini zehinlərdən silməkdən başqa bir şey deyildir.

**Yaxşı! Deyək ki, bu hədisi şiələr qəbul etdi. Bəs, onda sünni qardaşlarımız necə? Əgər qəbul edirsinizsə, onda "haqqı" söz oyunları ilə təhrif etməyə çalışmaq lazım deyil. Yox, əgər qəbul etmirsinizsə, onda yenə də "haqqı" ora-bura yönəltmək yaxşı deyil.**

Necə ki, Qurani-Kərimdə Allah-Təala buyurmuşdur:

وَلاَ تَكُونُواْ كَالَّذِينَ تَفَرَّقُواْ وَاخْتَلَفُواْ مِن بَعْدِ مَا جَاءهُمُ الْبَيِّنَاتُ وَأُوْلَـئِكَ لَهُمْ عَذَابٌ عَظِيمٌ

"(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar."[3]

---

[1] "Rəsulullah Məhəmməd", "İrfan" yayınları, 1973, səh.152, 223, 301
[2] "İmamiyyə şiəsi", səh. 213
[3] "Ali-İmran" surəsi, ayə 105

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## "MÖVLA" SÖZÜNÜN TƏHLİLİ

İndi isə "Mövla" sözünün şərhinə keçək. Bunun üçün M.Asim Köksal əfəndinin "İslam tarixi" əsərinə diqqət yetirək. Burada "Mövla" sözü tam 22 (iyirmi iki) mənada verilir.[1] Və sonra da müəllif buna mənaverici kimi Firuzabadinin "Qamusul-Muhit" kitabını göstərir. Firuzabadi "Mövla" sözünün mənaları ilə bağlı deyir ki, "mövla"nın mənasını "Malik", "Qul azad edən", "Azad edilmiş qul", "Sahib", "Əmioğlu", "Qonşu", "Oğul", "Əmi", "Şərik", "Dost", "Qız qohumu", "Yeznə" və s. kimi başa düşmək olar.

Əziz müsəlman qardaşlar! Kimin "mövla" sözü üçün hansı mənanı əsas seçməsinə baxmayaraq, Həzrət Peyğəmbərimiz (s) hansı mənada söyləyibsə, biz o mənada da götürüb tərcümə edirik.

Yəqin, düşünəcəksiniz ki, hansı mənada qəbul etdik. Allah yanında hansı mənada qəbul edilmişdirsə, Həzrət Peyğəmbər (s) necə buyurmuşdusa ("Mən kimin mövlasıyam, Əli (ə) də onun mövlasıdır"), beləcə də qəbul edirik. Madam ki, Həzrət Peyğəmbər (s) hər bir müsəlmanın vəlisidir, onda Həzrət Əli (ə) də müsəlmanların vəlisidir.

Cənab professor əlavə olaraq, ***"…Həzrət Əlini(ə) sevmək Həzrət Peyğəmbəri (s) sevmək kimi fərz, ona düşmən olmaq Həzrət Peyğəmbərə (s) düşmən olmaq kimi haramdır. Bu Əhli-sünnətin əqidəsidir",*** - deyə bəyan edir.

Çox gözəl bir fikirdir, Həzrət Əlini (ə) sevmək Həzrət Peyğəmbəri (s) sevmək kimi fərzdir. Bəs, onda Həzrət Peyğəmbərin (s): "Mən elmin şəhəriyəm, Əli (ə) onun qapısıdır", - deməsini də nəzərə alsaq, görərik ki, biz Həzrət Əlini(ə), ümumiyyətlə, Əhli-beyti(s) seviriksə, onda gərək onların elmindən də faydalanaq.

Biz bilirik ki, Həzrət Peyğəmbər (s) cənablarından sonra Həzrət Əli (ə) hər bir xüsusiyyətdə, o cümlədən, elmdə də hamıdan yüksəkdə idi. Onu da bilirik ki, Həzrət Əlinin (ə) övladlarından olan İmam Cəfər Sadiq (ə) böyük alim olmuşdur. Hətta bu gün sünni məzhəb qardaşlarımızın özlərinə rəhbər kimi seçdikləri İmam Əbu Hənifə və İmam Malik İmam Cəfər Sadiqdən (ə) iki il dərs almışdılar. İmam Cəfər Sadiqin(ə) məktəbində 4000 şəxs dərs almışdır. Onun Peyğəmbərdən (s) söylədiyi hədisləri 4 min nəfər rəvayət etmişdir.

Biz də Peyğəmbər (s) Əhli-beytinin(ə) elmindən özünün buyurduğu əmrə görə faydalanmalıyıq. Əgər biz – müsəlmanlar "Elm şəhərinə" qapıdan girsək, o şəhər sahibinin bizi qarşılamasına şübhə etmək olmaz. Yox, əgər qapını qoyub divardan atılsaq, qanunu pozduğumuza görə bizə cəza verərlər.

---

[1] M.Asim, "İslam tarixi", cild 10, səh. 314

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ancaq Prof. Dr. Əthəm Ruhi Ficlal kimi bəzi şəxsiyyətlər başqa bir şübhəni ortaya atıb deyirlər ki, Qədir-Xum hadisəsi baş vermişdir, amma Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" kəlamı şiələrin düşündüyü kimi, xilafət və vilayət mənasında deyildir, dost və köməkçi mənasındadır.

Sual olunur, görəsən, "Əli sizin dostunuz, yaxud da vəlinizdir" sözlərini bəyan etmək üçün qızmar səhrada, yandırıb-yaxıcı havada 120 min hacını bir yerə toplayıb Həzrət Əlini (ə) vəli seçərək, əlini qaldırmaq, habelə təbrik (başda Ömər ibn Xəttab olmaqla) və beyət etmək kimə və nəyə görə idi? Həzrət Peyğəmbər (s) bu qədər böyük bir işi əbəs yerə edirdimi? Əlbəttə, yox! Necə ki, Qurani-Kərimdə buyurulur:

فَاعْتَبِرُوا يَا أُولُوا الْأَلْبَابِ لَعَلَّكُمْ تُرْحَمُونَ

"Düşünün, ey ağıl sahibləri, ola bilsin ki, (fikirləşib düzgün yol ilə getdiyiniz üçün) sizə (qiyamətdə) rəhm oluna!"

***Bəhlul Behcət əfəndi*** ləqəbi ilə məşhur olan mərhum qazı Məhəmməd Türkiyədə tanınmış alimlərdən biri olmuşdur. Ulu babası da məşhur qazı olmuşdur. Özünün dediyinə görə, əsil-nəsəbi məhşur səhabə Əbu Əyyub Ənsariyə gedib çıxır. Atası qazi Məhəmməd, habelə İstanbul Şeyxulislamı seyid Əbdül Mehdi Səyyadi Rüfan hədisdə rəvayət icazəsi vermişdi. Sihahu-Sittə (altı kitab, yəni sünni məzhəbinin Qurandan sonra düzgün və hər bir hədisini sözsüz qəbul etdiyi məşhur kitablardır) və başqa kitablarını onun icazəsi ilə nəql edirdi.

Mərhum Bəhlul Behcət əfəndi əvvəlcə Hənəfi məzhəbində olmuş, sonralar Hənəfi məzhəbini tərk edərək, Şafei məzhəbini qəbul etmiş və ömrünün axırına kimi bu məzhəbdə qalmışdır. Bəhlul əfəndi bir çox kitabların müəllifidir. O, 1912-ci ildə Zəngəzurda anadan olmuşdur. Səbahəddin Eloğlu "Zəngəzur hadisələri" adlı kitabında Bəhlul Behcət əfəndi haqqında belə məlumat verir:

"Qazı Bəhlul Behcət Zəngəzurda yaşamışdır. O, erməni daşnaklarının azərbaycanlılara qarşı başladıqları soyqırımı vaxtında əhali arasında böyük ideoloji iş apararaq şiə və sünni məzhəblərini birləşdirə bilmişdir. Əhali arasında hörmət əlaməti olaraq Bəhlul əfəndi kimi tanınan Bəhlul Behcət Zəngəzur əhalisindən ordu yaradıb ermənilərə qarşı böyük əzmlə vuruşmuş və böyük qələbələrə nail olmuşdur. Aprel çevrilişindən sonra Bəhlul Behcət bir müddət Zəngəzurda yaşamış, Mir Cəfər Bağırov (Azərbaycanda) hakimiyyətə gəldikdən sonra isə xalqımızın bir çox ləyaqətli oğulları kimi o da həbs olunmuşdur. Bəhlul Behcət 10 il Bayıl həbsxanasında (Bakıda) qaldıqdan sonra ermənilərin fətvası ilə Bağırov tərəfindən gizli şəkildə öldürülmüşdür". Allah haqq yolunda şəhid olanlara rəhmət eləsin!

Mərhum əfəndi “Təşrih və mühakimə” (Ali-Məhəmməd (s) tarixində) adlı dəyərli bir əsər yazmışdır. O, vida Həcci zamanı Qədir-Xumda baş vermiş həqiqət haqqında öz sözünü demiş və Qədir-Xum hadisəsini söyləyən səhabələrin adlarını belə zikr etmişdir:

“Qədir-Xum hədisini həmin gün Allahın Rəsulundan (s) eşidib təsdiq edən səhabələr bunlardır: Hüzeymə bin Sabit, [1] Səhl bin Səd, Ədi bin Hatəm, Üqbə bin Amir, Əbu Əyyub əl-Ənsari, Əbu Yəla əl-Ənsari, Sabit bin Vədiyətul Ənsari, Əbu Fəzalətul-Ənsari, Əbdürrəhman bin Əbdu Rəb, Cüneydə bin Cündə, Zeyd bin Ərqəm, Zeyd bin Şəracil, Cabir bin Abdulla, Abdulla bin Abbas, Əbu Səid əl-Xudri, Əbuzər, Cübeyr bin Mütəm, Hüzeyfə bin Yəmən, Hüzeyfə bin Üseyd və Səlman əl-Farsi (Allahın salamı və rəhməti onlara olsun). Bu səhabələrin Qədir-Xum hədisini rəvayət etmələri Əllamə Əsərəddin “Üsdul-Qabə” əsərinin III cildinin 307-ci səhifəsində, eyni cildin 321-ci səhifəsində, yenə həmin əsərin I cildinin 308-ci səhifəsində və kitabın VIII cildinin 283-cü səhifəsində, yenə həmin kitabın III cildinin 274-cü səhifəsində və “Siratəl-Hələbiyyə” (müəllifi Nuriddin Əli Hələbi, 1044-cü hicri ili) və “Yənabiul-məvəddət” kitabının 40-cı səhifəsində, habelə “Səvaiqul-Muhriqə” və “Səhihi-Müslüm” əsərlərində və Nəsai Tirmizinin, İbn Macənin, Əhməd bin Hənbəlinin, Hakimin və başqa müəlliflərin kitablarında öz təsdiqini tapmışdır.”

Mərhum qazi bu hədis haqqında bir izahat da verir ki, “…Rəsulullah Allahdan icazəsiz heç bir əmri icra etməz… bu əmri Allah hökmü ilə etmişdir… O şeydə ki, Allahın Rəsulu (s) ümmətin vəlisidir, həmin şeydə Əli (ə) də ümmətin vəlisidir.”[2]

***Məhəmməd Həsən Mövlazadə Şəkəvi*** “Bu ayənin (yəni, “Maidə” surəsi, ayə: 67) nazil olması ilə əlaqədar islam alimləri arasında ixtilaf vardır. Bütün İmamiyyə (yəni, şiə) alimləri və Əhli-sünnə alimlərinin bəzisi buyurublar ki, həmin ayə Əli İbn Əbu Talib haqqında nazil olub. “Təfsiri-Kəbir”də yazılıb:

“Bu ayə nazil olanda Həzrət Peyğəmbər (s) Onun (Əlinin (ə)) əlindən tutub buyurdu: “Mən kimin mövlasıyam, Əli (ə) də onun mövlasıdır. Allahım Onu sevəni sev, Onu düşmən hesab edəni Sən düşmən bil”.

Ömər(s) ona (Əliyə (ə)) yaxınlaşıb dedi: “Mübarək olsun sənə, ey Əbu Talib oğlu! Oldun mənim ağam və bütün mömin kişi və mömin qadınların ağası”.

İmamiyyə alimlərinin təfsirinə görə, Əşrəfi-Məxluqat (Peyğəmbər (s) vida Həccindən qayıdıb Qədir-Xuma yetişəndə bir xütbə oxuyub buyurdu ki: “Allahın əmri ilə Əli ibn Əbu Talibi(ə) özümə varis və canişin etdim. Bütün əshabəyə də əmr etdi ki, Əliyə (ə) beyət etsinlər. Əksər rəva-

[1] Güman var ki, Hüzeyfə olsun – (B. Behcət)
[2] "Təşrih və mühakimə" – Ali-Məhəmməd (s) tarixində, səh. 65-67

yətlərə görə, Həzrət Peyğəmbər (s) Əlinin (ə) əlindən yapışıb o qədər qaldırdı ki, qolunun altı göründü və buyurdu: "Allahım, Onu dost biləni Sən dost bil və düşmən biləni düşmən bil"[1]

***Lütfullah Əhməd əfəndinin "Həzrət Məhəmmədin həyatı"*** adlı kitabının (Bu kitab 1366-cı il hicri-şəmsi tarixində Osmanlı türkcəsindən İran türkcəsinə çevrilmiş və Tehranda çap edilmişdi) vida Həcci ilə bağlı hissəsindən bir neçə cümləni olduğu kimi qeyd edirik:

"Həzrət Məhəmməd (s) vida Həccində üç mühüm xütbə oxumuşdu. Bu xütbələr Peyğəmbərin (s) müsəlmanlara etdiyi son vəsiyyətləri idi… Birinci xütbə arvadlara aid idi… İkinci xütbəsi müsəlmanların bir-biri ilə xoş keçinmələri əmri idi… Həzrət Peyğəmbər (s) zilhiccənin 14-cü, çərşənbə günü Məkkədən çıxıb Mədinəyə yola düşdü və Cöhfə yaxınlığında Qədir-Xum deyilən yerdə dayandı. Qədir-Xumda günorta namazını qıldı və sonra dəvə yəhərlərini üst-üstə qoyub, hamının görməsi üçün"… uca yerə çıxdı və üçüncü xütbəsini belə başladı:

"Mən möminlərə öz nəfslərindən daha övla (əziz) deyiləmmi?"

"Bəli, Ya Rəsulullah!" – dedilər. Həzrət Peyğəmbər (s) belə buyurdu:

"Ey insanlar! Bilin ki, mənim günlərim sayılır. Mən Allah tərəfindən dəvət edildim. (Yəni, dünyadan gedəcəyim gün yaxınlaşdı.) Sizə rəhbər olmağa görə aranızda ən mühüm iki şey qoyuram: bunların ikisi də mütləq bir-birindən ayrılmaz və qiyamətə qədər birlikdə mənə tərəf gələr. Birincisi Quran, ikincisi də mənim Əhli-beytimdir(ə)" – dedi. Peyğəmbər (s) bu "Əhli-beytim(ə)" sözünü üç dəfə təkrar etdi və bundan sonra Həzrət Əlinin (ə) əlindən tutub, o uca yerə çıxartdı və sözünə belə davam etdi:

"Ey insanlar! Bilin ki, Allah mənim mövlamdır. Mən də bütün möminlərin mövlasıyam. Mən kimin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır. Hər kim Allahı sevərsə, Məni sevər, hər kim Məni sevərsə, Əlini(ə) də sevər. Hər kim Allahın düşmənidirsə, Mənim də düşmənimdir, Mənim düşmənimdirsə, Əlinin (ə) düşmənidir".

Həzrət Peyğəmbər (s) bu sözlərini bitirdikdən sonra əllərini qaldırıb bu duanı oxudu: "Allahım! Əlini sevəni sev, Əliyə düşmən olana düşmən ol. Əliyə yardım edənə yardım et, Əliyə həqarət (təhqir) edəni həqir et. Haqq daim Əlinin tərəfindədir!"

Həzrət Peyğəmbərin (s) bu duasına "Amin" deyən xalq dua bitən kimi bir-bir Həzrət Əliyə beyət etdilər (əmrində ona tabe olmalarına vədə vermək), hətta Ömər Əlinin əlindən tutub: "Mübarək olsun sənə, ya Əli!.. Sən mənim mövlam oldun… bütün möminlərin də mövlası oldun", - dedi.

Həzrət Məhəmmədin(s) bü xütbəsindən sonra aşağıdakı ayə nazil oldu:

[1] Mövlazadə, "Kitabül-Bəyan", cild 1, səh. 213

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا**

“Bü gün sizin dininizi kamil etdim və sizə nemətlərimi tamamladım. Və sizə din olaraq islam dinini bəyəndim, seçdim…”[1]

Peyğəmbərin (s) bu 3-cü xütbəsi bəzi Əməvi tərəfdarı olan kitablarda yazılmayıb və onlar sükutla keçiblər, halbuki bütün hədis və mötəbər tarix kitabları bu hadisəni səmimi şəkildə zikr ediblər.

Məsələn, Əhli-sünnətin Qurani-Kərimdən sonra böyük kitabı olaraq tanıdıqları hədis kitabından “Səhihi-Müslüm” bu hadisəni eynilə belə yazır:

“Rəsulullah Məkkə ilə Mədinə arasındakı Qədir-Xum deyilən yerdə bizə bir xütbə oxudu. Allaha həmd və səna etdikdən sonra bizə moizə və nəsihət də etdi. Sonra dedi:

“Ey insanlar! Bilin ki, mən də bir insanam, Tanrının dəvəti (ölüm) mənə sürətlə gələcəkdir. Mən də onu qəbul edəcəyəm (yəni, ölüm yaxınlaşmışdır). …Mən sizin aranızda iki mühüm və dəyərli şey qoyuram. Bunlardan biri Qurandır ki, ondan ayrılmayın, 2-cisi mənim Əhli-beytimdir. Tanrının hüzurunda sizə Əhli-beytimi vəsiyyət (əmanət) edirəm. Tanrının hüzurunda sizə Əhli-beytimi vəsiyyət edirəm. Tanrının hüzurunda sizə Əhli-beytimi vəsiyyət edirəm. (3 dəfə təkrarladı) Onu ağuşunuza alın və ondan ayrılmayın.”[2]

Cənab Lütfullah əfəndi bunu qeyd edəndən sonra aşağıda onun tarixi mənbəyini göstərərək belə qeyd etmişdir:

“Əziz müsəlman qardaşlarım! Siz təəssübkeşliyi kənara qoyub bir anlığa Lütfullah əfəndinin tarixi mülahizələrinə nəzər salın. Onun dəlilləri “Səhihi-Müslüm” kitabıdır ki, İstanbulda 80 il bundan əvvəl çap olunmuşdur. (Allah o kitabın yazılması və çap edilməsi zamanı zəhmət çəkənlərə əbədi rəhmət eləsin, İnşaallah.)”[3]

Gəlin, son vaxtlar çap edilən tarix və hədis kitablarına nəzər yetirək. Görəcəksiniz ki, nəinki Əhli-beyt (ə) haqqında danışmırlar, hətta Əhli-beytə (ə) aid hədisləri aradan çıxararaq, İslamı başqa səmtə yönəltmək istəyirlər.

M.Nəcati Bürsalının “Övliyalar sultanı Həzrət Əli”, professor Əthəm Ruhi əfəndinin “İmamiyyə şiəsi” kitabları məhz Əhli-beyt (ə) mövzusunda yazılmışdır, amma bu kitablarda da Qədir-Xum kimi əhəmiyyətli bir məsələyə yer verilməmişdir.

---

[1] "Maidə" surəsi, ayə 3
[2] "Həzrət Məhəmmədin həyatı", səh.515, 519
[3] "Səhihi-Müslüm", İstanbul, "Amiri" mətbəəsi, 1332, cild 7, səh. 122-123

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ƏBU HÜREYRƏ QƏDİR-XUM GÜNÜNÜN FƏZİLƏTİNİ TƏSDİQ EDİR

Qədir-Xum hadisəsi zilhiccə ayının on səkkizində baş vermişdir. Həmin gün bayram etmək və müstəhəb (bəyənilmiş) oruc tutmaq Allah yanında çox ali ibadətlərdən biri hesab olunur. Bu və ya digər məsələ haqqında Əbu Hüreyrədən nəql edilən bir hədisə də diqqət yetirək.

Əbu Hüreyrə deyir:

مَنْ كُنْتُ مَوْلاَهُ فَهَذَا عَلِيٌّ مَوْلاَهُ

– "Hər kəs zilhiccə ayının on səkkizinci (Qədir-Xum) günü oruc tutsa, Allah onun üçün altmış ayın orucunun savabını yazar və o gün Qədir-Xum günüdür. Peyğəmbər (s) Əmirəl-möminin Əlinin (ə) əlini tutub buyurdu: "Mən möminlərin mövlası və rəhbəri deyiləm?" Dedilər: "Bəli, ya Rəsulullah": Peyğəmbər (s) Əli ibn Əbu Talibin(ə) əlindən tutub buyurdu: "Mən kimin mövlası, rəhbəri və ixtiyar sahibiyəmsə, Əli (ə) də onun mövlası, rəhbəri və ixtiyar sahibidir!" Ömər ibn Xəttab Əliyə (ə) dedi: "Bəxxin-bəxxin, Ya Əli (ə)! Sənin üçün xeyirli olsun, ey Əbu Talibin oğlu, mənim və bütün möminlərin mövlası və rəhbəri oldun." Əbu Hüreyrə deyir: "Allah-Təala bu zaman bu ayəni nazil etdi: "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim."[1]

## "MƏN KİMİN MÖVLASIYAM, ƏLİ DƏ ONUN MÖVLASIDIR" HƏDİSİ-ŞƏRİFİ ƏHLİ-SÜNNƏ KİTABLARINDA

مَنْ كُنْتُ مَوْلاَهُ فَهَذَا عَلِيّ مَوْلاهُ

Həzrət Peyğəmbərin(ə) Qədir-Xumda söylədiyi "Mən kimin mövlasıyam, Əli də onun mövlasıdır" hədisi-şərifi 1400 il ərzində yazılmış, mötəbər sayılan Əhli-sünnət kitablarında qeyd edilmişdir. Bu hədisi-şərif, həmçinin, zəmanəmizdə tanınmış Türk dünyasının mötəbər tarix kitablarında da qeyd edilmişdir. İndi də həmin kitablara müraciət edək:

1. "İslam tarixi". Şehbəndərzadə Filibeli Əhməd Hilmi. "Üçdal" nəşriyyatı, səh. 273-274-338
2. "Həqiqətüs-Süəda". M.Füzuli. "Okü" kitab yurdu. Tərcümə, M.Fərrux Ğürtinca, səh. 141
3. "Həzrət Əlinin külliyyatı". Dr. Mehmet Əli Dərman, I cild, səh. 47-48, 50, 61, 76, 135

---

[1] "Əl-Maidə" surəsi, ayə: 3; İbn Əsakir, "Tarixi-Dəməşqi", cild 2, səh. 78

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t


4. “Həzrət Əlinin külliyyatı”. Dr. Mehmet Əli Dərman, II cild, səh. 61, 76, 135-136, 178-181, 260-261
5. “Dörd böyük xəlifə”. “Bədir” Yayınları. Çevirəni Mehmet Emrə, səh. 316
6. “Sosial açıdan islam tarixi”. Professor Əbdülbaqi Gülpinarlı. “İnqilab” Yayınları, səh. 157-158
7. “Şəmaili-Şərif”. “Hilal” Yayınları. Tirmizi, səh. 127-129
8. “Məzhəblər-tarixi”. Ziya Şakir. İstanbul Məarif kitabxanası, səh. 159
9. “Məaricün-nübüvvə”. “Altıbarmaq Peyğəmbərlər tarixi”. “Bərakat” Yayınları, səh. 736
10. “Şifai-Şərif”. “Çilə” Yayınları. Qazı İyaz, səh. 242
11. “Türk və islam tarixi”. “Tərcüman” qəzeti nəşriyyatı, I cild, səh. 369-473-500
12. “Kitabü-Şifa”. Qazi İyaz. İstanbul, 1290. XI cild, səh. 41
13. “Füsülul-Mühümmə”. İmam Malik, səh. 27
14. “İştiab”. İbn Abdulbər
15. “Yənabiül-Məvəddət”, I cild, səh. 27-40-41
16. “Üsdül-Ğabə”. Əllamə Əsərəddin, I cild, səh. 308; III cild, səh. 307-321-274; VIII cild, səh. 283
17. “Rovzətul-Əhbab”, səh. 224
18. “Müsnədi-Hənbəl”. IV cild, səh. 281-368-370-372
19. Tirmizi. “Sünən”. V cild, səh. 633
20. “Məcməüz-Zəvahid”. Heysəmi. IX cild, səh. 106-107
21. “Mətalibül-Aliyə”. İbn Hacər. IV cild, səh. 65
22. “İslam tarixi”. M.Asim Köksal. Mədinə dövrü. X cild, səh. 312-313
23. Müslüm “Səhih”. IV cild, səh. 325
24. “Məfatihül-Qeyb”. Fəxrəddin Razi. “Təfsiri-Kəbir” (Böyük təfsir)ində
25. “Kəşfül-bəyan” təfsiri. İmam Əhməd Sələbi
26. “Dürrül-Mənsur” təfsiri. Cəlaləddin Süyuti, III cild, səh. 117
27. “Tarixi-xülafə”. Süyutinin kitabında
28. “Təfsiri-Kəbir”. Məhəmməd Cərir Ət-Təbəri
29. “Hilyətül-övliya”. Hafiz Əbü Nəim İsfahani, I cild, səh. 355
30. “Kitabü Nüzülül-Quran”. Hafiz Əbü Nəim
31. “Tarixi-Buxari”. Məhəmməd ibn İsmayıl Büxari, I cild, səh. 375
32. Müslümün “Səhihi”. Müslüm ibn Həccac, II cild, səh. 325
33. “Səvaiqi-Mühriqə”. İbn Hacər Məkki, I cild, səh. 25
34. “Üsdül-Gabə”. Cizrəli İbn Əsiri Cəzri
35. “Xəvasül-Ümmə”. Sibt ibn Cəvzi. Təzkirə, səh. 17
36. Səmhüddin. “Cəvahiri Əqdəyin” kitabında
37. Cəmaləddin Şirazi “Kitabül-Ərbəin”ində
38. Qazi Fəzlullah ibn Rüzbəhanin “Əbtalül-Batil”ində
39. İbn Xaldunun tarix əsərində

40.”Həzrət Məhəmmədin (s) həyatı”. Lütfullah Əhməd. Çevirəni Əbdülkərim Mənzuri, səh. 214-219
41. “Təşrih və Mühakimə”. Qazi Bəhlul Behcət, səh. 64-67
42. “Necə hidayət oldum”. Dr. Məhəmməd Ticani Səmavi Tunisli. Birinci çap, 1371 şəmsi, 1932 miladi, səh. 251-252. Onun dəlil gətirdiyi kitablar: “Səhihi-Müslüm”, “Fəzaili-Əli” (ə. s) hissəsi, V cild, səh. 122; “Səhihi-Tirmizi”, V cild, səh. 328; “Müstədrəki-Həkim”, III cild, səh. 148; “Müsnədi İmam Əhməd ibn Hənbəli”, III cild, səh. 17
43. “Əl-Bidayə-vən-Nəhayə”. İbn Kəsir. Qahirə, 1348-1351. V cild, səh. 208-214
44. “Kitabül-Bəyan Fi Təfsirül-Quran”. Şeyxülislam Məhəmməd Həsən Mövlazadə Şəkəvi (Azərbaycan, Şəki), I cild, səh. 212-213
45. “Əbqatül-Ənvar”. Mirhamid Hüseyn Müsəvi Hindi, I cild, səh.78, 92 və s.
46. “Əsbabün-Nüzul”. Əbdül Həsən Əli bin Əhməd Vahidi Nişapuri, səh. 150
47. Sünən. Əbu Davud Sicistani
48. “Kitabül-Vilayət”. Hafiz ibn Ündə
49. “Tarixi ibn Kəsir Şafi Dəməşqi”, II cild, səh. 86
50. “Sirrül-Aləmin”. Əbü Hamid Məhəmməd bin Məhəmməd Ğəzali
51. “Mətalibüs-Səval”. Məhəmməd bin Təlhə Şafi, I cild, səh. 44
52. “Mənaqibi-ibn Məğazli Fəqihi Şafii
53. “Misbahül-Sünnət”. Hüseyn bin Məsud Bəqəvi
54. “Mənaqib”. İbn Əhməd Xətib Xarəzmi, səh.223
55. “Camiül-Üsül”. Məciduddin bin Əsir
56. Xəsaisül-Ələvi və Sünən. Əhməd bin Əli Nəsai, səh. 22
57. “Sünən”. İbn Macə Qəzvini
58. “Müstədrəki”. Hakim Nişaburi
59. “Ovsat”. Hafiz Süleyman bin Əhməd Təbərani
60. “İqdül-Fərid”. İbn Əbdi-Rəbbə
61. “Minhacül-Sünnə”. İbn Teymiyyə Əhməd bin Əbdül Həlim
62. “Fəthül-Bari və Təhzibüt-Təhzib”. İbn Həcər Əsqəlani
63. “Rəbiül-Əbrar”. İbn Ömər Carullah Zəməxşəri
64. “Kitabül-Dirayət fi Hədisil vilayət”. Əbu Səid Sicistani
65. “Dəvatül Hüda ila Ədai Həqqi Məvalat”. Əbdüllah bin Əbdüllah Həskani
66. “Təfsiri-Kəbir”. İmam Fəxri Razi, XII cild, səh. 50
67. “Kitabül-Ərbəin”. İmam Fəxri Razi
68. “Əhadisül-Mütəvatirə”. Məqbəli
69. “Müvəddətül-Qürba”. Mir Seyid Əli Həmədani
70. “Xəsaisül-Ələvi”. Əbdül Fəth Nəzəzi

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

71. “Xacə Parsiyi Büxari”. Fəsli-Xəttabda
72. “Feyzül-Ğədir fi şərhi Camiüs-Səğir”. Əbdürraüf-ül-Mənavi
73. “Kifayətüt-Talib”. I hissə. Məhəmməd bin Gənci Şafii, səh.53
74. “Kitabi Təhzibül-Əsmai vəl-lüğət”. Yəhya bin Şərəf
75. “Fəraidüs-simtəyn”. İbrahim bin Məhəmməd Hüməvəyn, II cild, səh.185
76. “Siracül-Münir”. Şəmsəddin Mühəmməd bin Əhməd
77. “Miləlül-Nəhl”. Əbdülfəth Şəhristani Şafii, I cild, səh. 163
78. “Tarixi-Bağdadi”. Hafiz Əbü Bəkr Xətaib Bağdadi. VIII cild, səh. 290
79. “Tarixi-Kəbir”. Hafiz bin Əsakir Əbülqasim Dəməşqi
80. “Şərhu Nəhcül-bəlağə”. İbn Əbil Hədid Mötəzili, II cild, səh. 130
81. “Ürvətül-Vüsqa”. Əlaüddin Səmənani
82. “Kənzül-Ümmal”. Mövla Əli Müttəqi Hindi, I cild, səh. 158, hədis 899 və s.
83. “Əsənil-Mətalib”. Şəmsəddin Əbül Xeyr Dəməşqi
84. “Şərhü Məvafiq”. Seyid Şərif Hənəfi Circani
85. “Ğəraib-ül-Quran” (təfsiri). Nəzaməddin Nişapüri
86. “Əs-Səhih İbn Macə”, I cild, səh. 45
87. “Kitabi Nüzulül-Quran”. Hafiz Əbü Nəim
88. “Şəvahidüt-Tənzil-Liqavaid-it-Təfsil”. Hakim Həskani, I cild, səh.187
89. “Təfsir-əl-Mənar”. Məhəmməd Əbdüh, II cild, səh.86; VI cild, səh.463
90. “Fəthül-Qədir”. Şukani, II cild, səh. 60
91. “Ümdətül-Qari fi Şərhül-Buxari”.Bədrəddin Hənəfi, VIII cild, səh.584
92. “Təfsirül-Quran”. Əbdülvəhhab Büxari
93. “Ruhül-Məani”. Alusi, II cild, səh. 384
94. “Fəthül-Bəyan fi Məqasidil-Quran”, III cild, səh. 63
95. “Zəxairul-Üqba”. Təbəri Şafii, səh.16
96 “Əd-Dürrül-Mənsur Süyuti”, II cild, səh. 60
97. “Ənsabul-Əşraf”. Bilazəri, II cild, səh. 110
98. “Ehqaqul-Həqq”. Tustəri, IX cild, səh. 309
99. “Təfsirul-Xazin”, VI cild, səh. 102 və VII cild, səh. 6

Əlavə olaraq onu da qeyd etmək istəyirik ki, Əllamə mərhum Əbdül Hüseyn Əmini Nəcəfi özünün “əl-Qədir” əsərində bu məsələ ilə əlaqədar çox geniş bəhs etmişdir. O, Həzrət Peyğəmbərin (s) “Həcci-vida” günü söylədiyi bu “Vilayət” hədisini rəvayət edən Əhli-sünnət kitablarının və onların rəvayətçilərinin adlarını tam dəqiqliyi ilə göstərmişdir. İndi biz həmin alimlərin adlarını və əsərlərini ixtisar etməklə onların sayını qeyd edirik.

“Vilayət” hədisini nəql edən rəvayətçilər:

1. 110 səhabə
2. 83 tabein (səhabədən nəql edən şəxs).

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Vilayət” hədisini nəql edən Əhli-sünnət alimləri (Hicri tarixi ilə):

| **“Vilayət” hədisini nəql edən Əhli-sünnət alimləri (Hicri tarixi ilə)** | | |
|---|---|---|
| 1 | II əsr | 56 alim |
| 2 | III əsr | 92 alim |
| 3 | IV əsr | 43 alim |
| 4 | V əsr | 24 alim |
| 5 | VI əsr | 20 alim |
| 6 | VII əsr | 21 alim |
| 7 | VIII əsr | 18 alim |
| 8 | IX əsr | 16 alim |
| 9 | X əsr | 14 alim |
| 10 | XI əsr | 12 alim |
| 11 | XII əsr | 13 alim |
| 12 | XIII əsr | 12 alim |
| 13 | XIV əsr | 19 alim |
| Cəmi: 360 nəfər Əhli-sünnət alimi | | |

## HƏZRƏT ƏLİ (Ə) NƏ VAXTDAN PEYĞƏMBƏRİN (S) VƏSİSİ OLMUŞDUR ("YƏVMUL-İNZAR" HƏDİSİ)

Həzrət Peyğəmbər (s) öz peyğəmbərliyini tədricən aşkar edirdi, lakin belə bir çətin zamanda cahil ərəblərlə mübarizədə ona güclü məntiq və köməkçi lazım idi. Güclü məntiq Həzrət Peyğəmbərə (s) Allah tərəfindən verilirdi. Onun üçün də bir köməkçi hazırlanmalı idi. Bütün peyğəmbərlərin ən yaxın köməkçiləri olmuşdur. Onlar elmdə və şücaətdə insanlardan üstün olmalıydılar. Həzrət Peyğəmbər (s) bunun kim olacağını bilirdi. Bunu xalqa həyatı boyu yavaş-yavaş bildirdi və axırda Qədir-Xum günündə Allah əmri ilə 120 mindən çox müsəlmanın qarşısında açıq-aşkar bəyan etdi. Bəs, bunun bünövrəsi hansı gündən qoyulmuşdu? Bu suala cavab vermək üçün, gəlin, bir daha tarixə nəzər salaq.

Məbəsin (peyğəmbərliyin) üçüncü ili idi. Cəbrayıl (ə) nazil olub buyurdu:

وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ

"Öz yaxın qohumlarını qorxut (dinə dəvət et)."[1]

Bu ayə nazil olandan sonra Həzrət Peyğəmbər (s) Bəni-Haşimi, Əbdül Müttəlibin övladlarını və əmisi Əbu Talibi evinə dəvət etdi. Təxminən 40 nəfərə kimi Bəni-Haşim başçısı toplaşdı.

Həzrət Peyğəmbər (s) bir qoyun kəsib onları yedizdirdi. Sonra təbliğata başlayıb buyurdu:

"…İslam dininə gəlin, Allahdan, qiyamət günündən qorxun…"

Əbu Ləhəb yüngül sözlərlə məclisin ahəngini pozdu və onların hamısı dağılışdılar. Həzrət Peyğəmbər (s) də ikinci dəfə onları dəvət edib buyurdu: "Ey Müttəlibin övladları! Allah-Təala məni insanlar üçün Peyğəmbər (s) etdi. Sizi təmiz, günahsız etmək üçün mənə əmr etdi ki, öz qohum-əqrəbamı İslama dəvəm edim, onları Allahın əzabından qorxurdum. İndi isə mən sizi İslama dəvət edərək, iki kəlməni təsdiq etməyinizi istəyirəm. Allahın birliyini və mənim Peyğəmbərliyimi(s). Hər kim bunları təsdiq etsə və mənə yardımçı olsa, onu özümə qardaş, vəzir, varis və xəlifə edəcəyəm".

Heç kəs dinmədi. Həzrət Əli ibn Əbu Talib (ə) qalxıb cavab verdi. Həzrət Peyğəmbər (s) buyurdu: "Otur, Ya Əli (ə)! Yenə də Həzrət Peyğəmbər (s) onları İslama dəvət etdi. Və həmin sualı verdi. Yenə də Həzrət Əli (ə) qalxıb təsdiq etdiyini bildirdi. Yenə də Həzrət Peyğəmbər (s) onları İslama dəvət etdi. Yenə də Həzrət Əli (ə) qalxıb cavab verdi və

---
[1] "Şüəra" surəsi, ayə 214.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

ondan başqa bir şəxs Həzrət Peyğəmbərə (s) cavab vermədi. Bu anda Həzrət Peyğəmbər (s) üzünü onlara tutub buyurdu:

اَنْتَ اَخِي وَ وَزِيرِي وَ وَارِثي وَ خَلِيفَتِي مِنْ بَعْدِي

“Bu gündən Əli mənim qardaşım, vəzirim, varisim və xəlifəmdir.”[1]

Bu hadisə müsəlmanlara mühüm bir məsələni xatırladır. Bununla da göstərir ki, “Nübüvvət” və “İmamət” məsələləri bir-birindən ayrılmaz məsələlərdir. Çünki gördüyünüz kimi, Həzrət Peyğəmbər (s) öz peyğəmbərliyini elan etməklə yanaşı, özündən sonrakı canişin, imam və xəlifəni də tanıtdırır.

Bu hadisə təfsir və tarix kitablarında “Yauvmul-inzar”, “Bədud-dəvət” və “Yaumuddar” adı ilə qeyd edilmişdir.

İndi də bu hadisəni təsdiq edən bir neçə mötəbər Əhli-sünnət kitablarına diqqət yetirək:

1. “Tarixi-Təbəri”, II cild, səh. 217, 319
2. “Kifayətüt-Talib”. Bab 51, səh. 205
3. “Əd-Dürrül-Mənsur”. Süyuti, V cild, səh. 97
4. “Yənabiul-Məvəddət”, səh. 105
5. “Tarixül-Əbil Füda”, I cild, səh. 216
6. “Təfsiri-Fəxri Razi”
7. “Kənzül-Ümmal”, V cild, səh. 41, 42
8. “Həzrət Məhəmmədin həyatı”. Lütfullah Əhməd, səh. 59, 60
9. “Kitabül-Bəyan”. Məhəmməd Həsən Mövlazadə, II cild, səh. 131, 133
10. “Tarixi-Dəməşqi”. İbn Əsakir, I cild, səh. 85
11. Kamil Tarixi, II cild, səh. 22
12. Təfsir. İbn Kəşr, III cild, səh. 351
13. “Həyati-Məhəmməd”. Doktor Hüseyn Heykəl. 1-ci nəşr
14. “Müsnədi-Əhməd”, I cild, səh. 111, 159
15. “Əl Bidayə vən Nəhayə”. İbn Kəsir, XIX cild, səh. 68, 69
16. “Tarixi-ibn Əsir”, II cild, səh. 26
17. “Əssirətül-Hələbiyyə”, I cild, səh. 311
18. “Şəvahidüt-tənzil”. I cild, səh. 371
19. “Təfsiri-Kəbir”. Təbəri. XIX cild, səh. 68, 69
20. “Sirətul-Hələbiyyə”, I cild, səh. 286
21. “Tarixi-ibn Əsakir”, I cild, səh. 85
22. “Təfsirül Xazin”, III cild, səh. 371.
23. “Tarixi ibn Əsakir Şafii”, III cild, səh. 5
24. “Mənaqibi Xarəzmi”, səh. 42 və s
25. “Təzkirətəl-Xəvas”. İbn Cövzi, səh.38

[1] "Sirətun-nəbi”. İbn İshaq, I cild, səh.274

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

26. “İbn Əbil Hədid”, XIII cild, səh. 210
27. “Təfsirul-Munir”, II cild, səh. 118
28. “Təfsiru-Sələbi”. Ayənin təfsirində

Görürsünüzmü, əziz qardaşlar! Bu kitabların, demək olar ki, hamısı Əhli-sünnət qardaşlarımıza məxsusdur. Bunu inkar edən öz tutduğu yolu inkar edir. İnkar edə bilməyənlər isə başqa bir məsələni ortaya qoyurlar ki, Həzrət Əli (ə) bu hadisə zamanı 10 yaşında idi. Onda O, həddi-büluğa çatmamışdı. Onun bu təklifi qəbul etməsi uşaqlığı üzündən olmuşdur. Gəlin, təhlil edək:

1. Əvvəla, onu deyim ki, Həzrət Əlini (ə) başqa uşaqlardan fərqləndirməmək ədalətsizlik olardı.

2. Həddi-büluğ şəri qanundur, ağıl və iman qanunu deyil.

3. Ağıl, elm və iman yaşdan asılı deyil, əgər yaşdan asılıdır, desək, səhv edərik. Elə uşaqlar var ki, alimdir, amma elə yaşlılar var ki, cahildir.

4. Bu hadisədə Əlinin (ə) sözü dəlil kimi götürülmür. Əsas sübut və dəlil Həzrət Peyğəmbərin (s) sözüdür və o, belə buyurmuşdur: “Ey Əli (ə)! Sən mənim vəzirimsən” və s.

Sonra, məgər, Həzrət Peyğəmbər (s) görmürdü ki, Həzrət Əli (ə) azyaşlı bir uşaqdır. Onu xalqın içində vəzir, xəlifə və s. təyin edirdi?

Quranda Həzrəti İsa Peyğəmbərin (ə) uşaq ikən peyğəmbərliyə başlaması ayəsinə baxaq:

قَالَ إِنِّي عَبْدُ اللَّهِ آتَانِيَ الْكِتَابَ وَجَعَلَنِي نَبِيًّا

“Allahdan bir möcüzə olaraq körpə (İsa Peyğəmbər) dilə gəlib dedi: “Mən, həqiqətən, Allahın quluyam. O, mənə kitab (İncil) verdi, özümü də Peyğəmbər etdi.”[1]

Başqa bir ayədə:

يَا يَحْيَى خُذِ الْكِتَابَ بِقُوَّةٍ وَآتَيْنَاهُ الْحُكْمَ صَبِيًّا

(Yəhya dünyaya gəldikdən sonra ona dedik) “Ey Yəhya! Kitabdan bərk yapış! Biz uşaq ikən ona hikmət (Allah kəlamının incəliklərini anlamaq, peyğəmbərlik) verdik”[2], – deyə buyurulmuşdur.

Biz onu da bilirik ki, Həzrət Peyğəmbər (s):

اَنَا مَدِيَنةُ الْعِلْمِ وَ عَلِي بَابُهَا

---

[1] "Məryəm" surəsi, ayə 30
[2] "Məryəm" surəsi, ayə 12.

"Mən elm şəhəriyəm, Əli də onun qapısıdır.", – demişdir.

Həzrət Əlinin (ə) yaşının az olması məsələni başqa səmtə apara bilməz. Onun elmi ilahi bir fitrət əsasında olmuşdur, fitrəti isə Allah verir. Necə ki, Həzrət Əli (ə) özü buyurmuşdur:

فَاءِ نّيِ وُلِدْتُ عَليَ الْفِطْرَةِ

"Mən fitrətli (elm, iman, təqva, şücaət, fəsahət, bəlağət, helm və s.) doğuldum."[1]

Sonra dediyimiz kimi, Həzrət Peyğəmbər (s) onun elminə, imanına bələd olmasaydı, onu vəzir və s. təyin edərdimi? Bir də ki, Həzrət Peyğəmbər (s) özbaşına heç kimi varis edə bilməz. Çünki Quran icazə vermir və buyurur:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

"O, (Məhəmməd) hər istədiyini (havadan) danışmır. Bu, ancaq (Allahdan) nazil olan bir vəhydir."[2]

Aydın görünür ki, Həzrət Peyğəmbər (s) nə buyurubdursa, Allahın əmri və razılığı əsasında olmuşdur. Belə isə sübut olunur ki, Həzrət Əli (ə) Allahın əmri ilə Bəni-Haşim övladlarının içində Həzrət Peyğəmbər (s) tərəfindən seçilmiş varis, vəzir, xəlifə və qardaşdır. Bunu Həzrət Peyğəmbər (s) ömrü boyu xalqa yeri düşdükcə xatırlatmış, ən nəhayət, Qədir-Xum günündə 120 min müsəlman qarşısında bir daha təkrar edərək möhür vurmuşdur.

İsmayıl Mutlu əfəndinin "Həzrət Əbu Bəkr" adlı kitabının üz qabığının arxasında yazılmış bir cümlə nəzərimi cəlb etdi: "Əbu Bəkr… Rəsulullahın ilk xəlifəsidir".

Bu cümləni yazanlara mən həmin kitabdan, "Həzrət Əbu Bəkrin kəlamlarından nümunələr"dən biri ilə cavab vermək istəyirəm:

"Boş danışmaqdan çəkinmək ibrətli kəlamların başlanğıcıdır!" (Həzrət Əbu Bəkr).[3]

---

[1] "Nəhcül-bəlağə", xütbə 230
[2] "Ən-Nəcm" surəsi, ayə: 3-4
[3] "Həzrət Əbu Bəkr". "Azərnəşr". Bakı, 1994, səh.15

## “QƏDİR–XUM” HAQDA OLAN HƏDİSLƏR

**قال الصادق(ع): یوم الغدیر أفضل الاعیاد و هو الثامن عشر من ذی الحجّه.**

İmam Sadiq(ə) buyrub: “İslam bayramlarının ən üstünü “Qədir–Xum” bayramıdır və o, zilhiccə ayının on səkkizidir.”[1]

**قال الرضا(ع): إذا کان یوم القیامة زفّت أربعه ایّام الی الله کما تزف العروس الی خدرها. قیل: ما هذه الایّام؟ قال(ع): یوم الاضحی و یوم الفطر و یوم الجمعة و یوم الغدیر.**

İmam Rza(ə) buyurub: “Qiyamət bərpa olanda “dörd gün”ü bəxt evinə aparılan gəlin tək Allahın dərgahına aparарlar.
Soruşdular: “Buyurduğunuz dörd gün hansı günlərdir?
İmam Rza(ə) buyurdu: “Qurban bayramı”, “Fitir bayramı”, “Cümə günü” və “Qədir bayramı”.[2]
Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: “Mənim ümmətimin ən üstün bayramı Qədir bayramıdır. Həmin gündə Allah-Təala mənə əmr etdi ki, qardaşım Əlini ümmətimin bayraqdarı (rəhbəri) seçim.”
İmam Məhəmməd Baqir (ə) buyurmuşdur:
“Şeytan dörd dəfə nalə etmişdir:
1. Allahın lənətinə səbəb olduğu gün;
2. Yer üzünə gəldiyi gün;
3. Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliyə seçildiyi gün;
4. Qədir bayramı günü.”

### *Fatimeyi-Zəhra (ə) seyiduş-şühəda Həmzənin məzarı önündə*

Bir gün Həzrət Fatimə(ə) atasının əmisi Seyiduş Şühəda Həmzənin qəbrinin yanında durub əzadarlıq edirdi. Mahmud bin Ləbid fürsətdən istifadə edib soruşdu: “Ey Allah Peyğəmbərinin qızı! Əli bin Əbu-Talibin imaməti barəsində atan Peyğəmbərdən (s) bir sübut xatırlayırsanmı?” Fatimə (ə) buyurdu: “Əcaba! Qədir-Xum hadisəsini unutmusanmı? Allahı şahid tuturam ki, Peyğəmbərin bu sözünü özüm eşitdim: “Əli ən layiqli şəxsdir ki, onu sizin aranızdan özümə canişin seçirəm, Əli məndən sonra İmam və xəlifədir. İki

[1] “ Biharul-Ənvar”, cild 59, səh.26
[2] Çehel hədise Quran, səh.18, Məhəmməd Həsən Muini, “Hədis güzgüsündə”, 2005

nəvəm Həsən və Hüseyn və Hüseynin övladlarından olan doqquz nəfər pak və layiqli imamlardır. Əgər onlara itaət etsəniz, sizi doğru yola yönəldəcəklər və əgər onlarla müxalif olsanız, qiyamətə qədər aranızda təfriqə və ixtilaf hökm sürəcək".

### *İmam Əli (ə) Qədir-Xum hadisəsini şahid gətirir*

Səlim bin Qeys Hiali deyir: "Xəlifə Osmanın dövründə Peyğəmbər (s) məscidində oturmuşdum. Bir dəstə insan məsciddə söhbət edirdilər. Əli bin Əbu-Talib (ə) ayağa qalxıb İslama hansı xidmətləri etdiyini sadaladı və hamı onun sözünün təsdiq etdi. O Həzrət Qədir-Xum günü barəsində buyurdu: "İnsanlar Peyğəmbərdən onun canişini haqqında soruşdular. Bu zaman Allah Peyğəmbərinə buyurdu ki, namazın, orucun, zəkatın və həccin hökmlərini insanlara bəyan etdiyin kimi özündən sonra canişinin və xəlifənin kim olacağını bildir. Qədir-Xumda Peyğəmbər (s) məni belə təqdim etdi".

### *Siffeyn döyüşündə "Qədir" hədisi*

Həzrət Əli (ə) günlərin bir günü öz qoşunu önündə çıxış edirdi. Onların arasında mühacir və ənsarlar da var idi. İmam(ə) Peyğəmbərin (s) dilindən öz üstünlüklərini sadalayırdı. O Həzrət "Sizin hamınız və başçınız ancaq Allah, Onun Peyğəmbəri və İman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər" ("Maidə", 55) və "...Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutmayanlar..." ("Tövbə", 16) ayələrini oxuduqdan sonra buyurdu: "İnsanlar Peyğəmbərdən (s) soruşdular: "Ey Allahın Rəsulu! Vilayət yalnız bəzi möminlərə aiddir, yoxsa hamıya? O zaman Allah əmr etdi ki, Peyğəmbər namazı, orucu, zəkatı və həcci izah etdiyi kimi imamət və vilayət məsələsini də insanlara bəyan etsin. Buna görə də Allahın Rəsulu (s) Qədir-Xumda məni imam və əmr sahibi seçdi və xütbə oxuyub dedi: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır".

### *Əlinin (ə) öz xəlifəliyi dövründə oxuduğu "Qədir" xütbəsi*

Əli bin Əbu Talibin (ə) xəlifəliyi dövründə təsadüfən Qədir günü cümə gününə təsadüf etdi. Müsəlmanlar məscidə toplaşdılar və o Həzrət cümə namazını qılmaq və xütbə oxumaq üçün insanların qarşısına çıxdı. Hüseyn bin Əli (ə) deyir: "Gün çıxandan beş saat keçmişdi (günorta azanından əvvəl) ki, atam xütbəni başlayaraq dedi: "Allah bu gün iki böyük bayramı (cümə və Qədir günü) sizin üçün qərar vermişdir. Biri digə-

rinin varlığını kamilləşdirən və hərəsi vasitəsi ilə digərində hidayət təsirli olan iki bayram...” Sonra buyurdu: “Tövhidə və Allahın təkliyinə iman yalnız Məhəmmədin (s) peyğəmbərliyinə iman gətirməklə qəbuldur və Məhəmmədin (s) dini və şəriəti yalnız Allahın təyin etdiyi İmamı qəbul etməklədir. Bütün bu işlər yalnız və yalnız Əhli-beytə(ə) yaxınlaşmaqla mümkündür. Allah-təala Qədir-Xum günü özünün seçilmişləri barədə iradə etdiklərini Peyğəmbərinə göndərdi və ona vilayət və vəsiliyin elanını tapşırdı. Əmr etdi ki, kafirlərə və münafiqlərə fürsət verməsin və düşmənlərin hiyləsindən nigaran olmasın. Bu gün uca və aydın bir yerdən əqidənin aşkarlandığı gündür. Dinin kamilliyi və əhdə vəfa günüdür.”

### *Qədir-Xum hadisəsi İmam Həsənin (ə) xütbəsində*

İmam Həsən (ə) Şam və Kufə əhalisi qarşısında bir xütbə oxudu və nemətə, yəni Əhli-beytin(ə) hakimiyyətinə cəlb etdi. Özünün daha layiqliliyini və hakimiyyətinin qanuniliyini xatırlatdı və Qədir-Xum günü baş verənləri belə açıqladı: “İnsanlar babam Peyğəmbərin dediyi sözləri xatırlayırlar. Peyğəmbər deyərdi: “Hərgah insanlar daha layiqli və bacarıqlı birisinin mövcudluğu şəraitində başqa rəhbər seçsələr, özləri üçün bədbəxtlik almışlar.” Allahın Rəsulu buyurardı: “Ey Əli! Sən mənə nisbətdə Musadan sonra Harun kimisən.O, qardaşı Musanın canişini oldu, sən də mənim canişinim və xəlifəmsən. (Bizimlə onlar arasında) yeganə fərq budur ki, məndən sonra peyğəmbərlik olmayacaq”. İmam Həsən (ə) sonra buyurdu: “Bu insanlar öz peyğəmbərlərini gördülər və onun Qədir-Xumda dediklərini eşitdilər. Həmin gün babam peyğəmbər atam Əlinin əlini tutdu və onların qarşısına çıxıb dedi: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Allahım, onu sevəni sev və ona düşmən olana düşmən ol!”.

### *İmam Hüseynin(ə) Minada buyurduğu “Qədir-Xum” hədisi*

Müaviyyənin ölümündən bir il öncə İmam Hüseyn(ə) Allahın evini ziyarət etmək üçün Həcc mərasiminə yollandı. Onu Abdulla bin Abbas və Abdulla bin Cəfər müşayiət edirdilər. Həmin il Bəni-Haşim qəbiləsindən çoxlu qadınlar və kişilər Həcc mərasimində idilər. İmam Hüseyn(ə) Qurban bayramından sonra insanları Minaya topladı. Orada 700 nəfər tabeinlərdən və 200 nəfərə yaxın Peyğəmbər (s) əshabələrindən Həzrətin çadırı ətrafına toplaşdılar və öz imamlarını dinləmək üçün gözlədilər. İmam Allaha həmd və səna etdikdən sonra buyurdu: “Siz cinayətkar Müaviyyənin bizə qarşı təcavüzünün şahidisiniz. Mənim sözlərimə qulaq asın, yazıb digər şəhərlərdə və qəbilələrdə etimad etdiyiniz mömin insanlara çatdırın və onları bizim (Əhli-beyt) haqqımızı geri qaytarmağa

dəvət edin. Qorxuram, vaxt keçər və bizim haqqımız zülmkara məğlub olar. Hərçənd, Allah ən böyük arxadır.” Sonra buyurdu: “Sizi and verirəm Allaha! Yadınızda deyilmi, Allahın Peyğəmbəri (s) Qədir-Xum günündə atam Əlini(ə) özündən sonra xəlifə və İmam elan etdi və vilayət hədisini sizə oxudu və buyurdu: “Hamınız bu sözü başqalarına çatdırmalısınız?”. Dedilər: “Yadımızdadır”.

### *İmam Məhəmməd Baqir (ə) və Qədir-Xum hadisəsi*

İmam Məhəmməd Baqirin(ə) yanına o dövrün tanınmış adamları toplaşmışdılar. İmam Həzrət Əlinin (ə) vilayəti və Qədir-Xum barəsində buyurdu: “Allah Peyğəmbərinə Əlinin vilayətini elan etməyi buyurdu və bu ayəni nazil etdi:

**إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ**

“Sizin haminiz və başçınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər.”[1] Bu ayənin nazil olması ilə əmr sahiblərinin vilayəti vacib oldu, lakin bəziləri bilmədilər ki, əmr sahibləri kimlərdir. Allah Peyğəmbərə (s) əmr etdi ki, namazı, orucu, zəkatı və həcci izah etdiyi kimi bu məsələni də izah etsin və onun xarici misdaqlarını aydınlaşdırsın. Bu zaman Peyğəmbər (s) iztirab keçirdi və qorxdu ki, bəziləri buna görə İslam dinindən xaric olsun və onu təkzib etsinlər.

Peyğəmbər Allaha pənah apardı və bu zaman təbliğ ayəsi, yəni

**يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ**

“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini)yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!”[2] - ayəsi nazil oldu. Peyğəmbər Qədir-Xum çölündə Allah evinin ziyarətçilərini bir yerə topladı və orada Əli bin Əbu Talibi(ə) özündən sonra vəli və İmam elan etdi”.

---

[1] Maidə surəsi, ayə 55

[2] Maidə surəsi, ayə 67

### *İmam Sadiq(ə) Qədir məscidində*

Həsən Camal deyir: "İmam Sadiqlə(ə) Mədinədən Məkkəyə tərəf yollandıq. Cöhfə məntəqəsinin yaxınlığında Qədir məscidinə çatdıqda İmam Sadiq(ə) məscidin sol tərəfinə baxıb dedi: "Bu, həmin yerdir ki, Allahın Peyğəmbəri (s) Qədir-Xum günündə Əlini öz canişini təyin etdi". Sonra İmam o tərəfə baxdı və digər çadırların yerləşdiyi yeri göstərib dedi: "Salim Qulam Əbu Həzifə və Əbu Ubeyrə Cərah da orada idi. İnsanların bəziləri Əlini Məhəmmədin yanında görüb həsədlə baxırdılar. Bu zaman Cəbrayıl nazil oldu və bu ayələri Peyğəmbərə (s) oxudu:

وَإِن يَكَادُ الَّذِينَ كَفَرُوا لَيُزْلِقُونَكَ بِأَبْصَارِهِمْ لَمَّا سَمِعُوا الذِّكْرَ وَيَقُولُونَ إِنَّهُ لَمَجْنُونٌ وَمَا هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ

"(Ya Peyğəmbər!) Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman (sənə olan həsədlərindən və qəzəblərindən dolayı) az qala səni gözləri ilə yeyələr. Onlar (sənin barəndə): "O divanədər!" – deyirlər. Halbuki bu, (Quran) aləmlərə (insanlara və cinlərə) ancaq bir öyüd-nəsihətdir! (Onun nazil olduğu kimsə heç vaxt divanə ola bilməz!)"[1]

### *İmam Museyi Kazım(ə) və Qədir məscidi*

Əbdürrəhman bin Həccac yazır: "İmam Musa bin Cəfərin(ə) yanına getdim. Səfərə çıxmaq istəyirdim, ona görə də o Həzrətdən Qədir məscidi haqqında soruşdum. İmam buyurdu: "Həmin məsciddə namaz qılın, ona görə ki, savabı və fəziləti çoxdur. Atam (həmin yerə səfər edən) hər kəsə deyərdi ki, Qədir məscidində namaz qılsınlar."

### *İmam Rza(ə) və Qədir*

Əhməd bin Məhəmməd bin Əbu Nəsr Bəzəndi deyir: "Səkkizinci İmam Həzrət Əli bin Musa Rzanın (ə) evində oturmuşdum. O Həzrətin evində çoxlu insanlar toplaşmışdı və Qədir-Xum günü haqqında söhbət düşdü. Bəziləri belə bir hadisənin olmağını və Qədir-Xum gününü inkar edirdilər. Bu zaman Əli bin Musa Rza (ə) buyurdu: "Atam babam Cəfər bin Məhəmməddən (ə) belə nəql edir: "Göydəkilər Qədir-Xum gününü yerdəkilərdən daha yaxşı tanıyırlar. Allah cənnətdə özü üçün böyük bir qəsr yaratmışdır. Bu qəsr qızıl və gümüşdən olan kərpiclərlə tikilmişdir. Qəsrin üstündəki yüz min günbəz qırmızı yaqutdan və yüz min günbəz yaşıl yaqutdandır. Qəsrin tikintisində istifadə olunan palçıq müşk və

[1] "Qələm" surəsi, ayə 51-52

ənbərdəndir. Orada dörd arx vardır ki, onların hər birindən şərab, zülal su, süd və bal axır. Arxların kənarında müxtəlif meyvələri olan çoxlu ağaclar vardır ki, onların üstündə bədənləri sədəfdən və qanadları yaqutdan olan quşlar uçur. Onlar uçanda ürəkaçan səslər eşidilir. Qədir günü bu böyük qəsrin qapısı açılır, mələklər və asiman əhli təkbir deyə-deyə bu qəsrə daxil olurlar. Həmin quşlar uçuşur, arxlarda özlərini sərinlədir, sonra bədənlərini həmin müşk və ənbərə sürtüb ətrini qəsrin içində yayırlar. İlahi mələklər Həzrət Fatimə(s.ə) adı ilə bir-birinə hədiyyələr verirlər. Qədir günü sona çatdıqda mələklərə əmr olunur ki, öz yerlərinə qayıtsınlar. Onlara deyilir ki, gələn il belə bir günə qədər səhv və günahdan amandasınız. Bilin ki, bütün bu yaxşılıqlar Həzrət Məhəmməd Peyğəmbərə (s) və onun Əhli-beytinə(ə) görədir."

İmam Sadiq (ə) buyurmuşdur: "Peyğəmbərin (s) Əlini (ə) vilayət məqamına seçdiyi gün müsəlmanların (Qədir) bayramıdır."[1]

Peyğəmbər (s) buyurub: "Əlinin vilayətini qəbul etmək mənə inanan, məni təsdiq edənlərə vəsiyyətimdir."

"Əli (ə) mənim tərəfimdən əvəzolunmaz təbliğatçıdır."

"Əli (ə) bəşərdən ən xeyirlisidir və bunu qəbul etməyən kafirdir."

**5-ci hicri əsrinin dahi ravilərindən olan və "Firdovsil-Əxbar" kitabının müəllifi** Peyğəmbəri-Əkrəmdən (s) 300 min hədis eşidib əzbərləmişdir, məhz buna görə də "Seyyüdül – hüffaz" (Hafizlərin ağası) ləqəbini almışdır. Zeydi firqəsindən olmasına baxmayaraq, etimadlı və düzdanışan adam olduğuna görə, onun nəql etdiyi hədis və rəvayətlər həm sünnü, həm də şiə alimləri tərəfindən düzgün qəbul edilir.

O, Peyğəmbərdən(s) belə nəql etmişdir:

Peyğəmbər (s) Həzrət Əliyə (ə) buyurdu:

"Ya Əli, əgər bir kəsin Həzrət Nuhun ömrü qədər ömrü olsa və bu müddət ərzində yaşayıb bütün gündüzlərini oruc tutsa, gecələrini sübhə kimi ibadətlə keçirsə, hər il bir dəfə piyada həccə getsə, və "Ühüd" dağı qədərində qızılı olsa və o qızıllarını Allah yolunda paylasa, axırda da "Səfa" və "Mərva" arasında məzlumcasına ölsə, amma sənin vilayətinə etiqadı olmasa, heç vaxt behiştin iyini iyləməyəcək."[2]

Peyğəmbər (s) buyurub: "Əli (ə) Allah və Rəsulun yanında ən sevimlidir."

Əbdullah ibni-Məsud Peyğəmbərin (s) hörmətli səhabələrindən biri olub və hafizi-Quran idi. Quranın 70 surəsini birbaşa Peyğəmbərin (s) özündən eşitmiş və öyrənmişdir. Bədr müharibəsinin fəal iştirakçılarından olub və Əbu Cəhlin başını kəsib Peyğəmbərin (s) yanına gətirmişdir. İbn Məsud on nəfərdən biridir ki, xilafət bölgüsündə etiraz etmiş və Əbu

[1] Hüseyn Suri: "40 mövzu, 40 həqiqət"
[2] "Əldə qələm qan ağlar".Toplayanı: Mübariz Əlizadə

Bəkrə belə söyləmişdir: "Qorxuram, siz cahiliyyət zamanına qayıdasınız. Peyğəmbər (s) Həzrət Əlini (ə) özünün vəsisi, canişini qərar vermişdi və Həzrət Əli (ə) səndən fəzilətlidir." Bu sözlərlə ibni-Məsud "Qədir-Xum" hadisəsini Əbu Bəkrə xatırlatmışdı.[1]

**Böyük alimlərdən biri olan Həsən Əl-Qədari Əfəndinin qardaşı oğlu Mirzə Hadi xilafət barəsində** əmisinə məktub yazır və ondan xahiş edir ki, Peyğəmbərin (s) həqiqi canişini haqqında ona məlumat versin. Həsən Əl-Qədari əfəndi qardaşı oğlu Mirzə Hadinin xilafət barəsində verdiyi sualın cavabını şeir dili ilə belə verir:

***Mükərrəm zadeyi-cismil-abadi,***
***Cənabi-nuri-eynim Mirzə Hadi.***
***Səni hifz eyləsin Xəllaqi-aləm,***
***Əbul-ətavanun olsun şadü xürrəm.***
***Pəs, əz iblaqi-təslimati-afir,***
***Olub məlumuz, ey pakizə xatir.***
***Ki, gəldi nameyi-fərxundə halun,***
***Xilafət macərasından sualın.***
***Mühaqa eyləyib təsviri-təyin,***
***Bu barədə var əqvali-əssəhhin.***
***Cənabi Mustəfadan sonra Əkrəm,***
***Fəqəd ali-əbadır, ey mükərrəm.***
***İbarətdir olar Şiri-Xudadən,***
***İki şahzadədən, Xeyrün-nisadən.***
***Olardı Mustəfanın yadigarı,***
***Kəlamullah ilə hər yerdə cari.***
***Əli ol itrətin şiri-nəridir,***
***Rəsuli ma ədanun sərvəridir.***
***Yetər bürhan ona "Mən kuntu mövla"***
***Hüdudinə olmuş mümtaz ol şah.***
***Qəsimi nari vəl cənnə Əlidir,***
***İmamül insi vəl cinnə Əlidir.***
***Əlidən sabiq üç digər xəlifə,***
***Deyillər layiq, olsunlar şərifə.***
***Olar ancaq rəsul əshabidirlər,***
***Səhabə Al ilə olmaz bərabər.***
***Oğul, xilafət mülki-dünyəvidir,***
***İmamət dində hər surət Əlidir.***
***Ki, axırda imamət ba xilafət,***
***Onun üstündə tapdı istiqamət.***

---
[1] Qurani-Kərimdən dastanlar, fəsil 17, səh. 42

**Bir gün Qazi Əbdülcəbbar Bağdadda** şiə və sünni alimlərindən təşkil olunmuş məclisin başında əyləşmişdi. Bu zaman Şeyx Mufid (o zamanlar ona “Şeyx Mufid” deyilmirdi) məclisə daxil olub məclisin aşağı hissəsində əyləşir. Bir qədər keçdikdən sonra üzünü qaziyə tutub deyir:

“Mənim bu alimlərin hüzurunda səndən bir sualım var.”

Qazi deyir: “Sualını soruş.”

Şeyx Mufid deyir: “Sizin Peyğəmbərin (s) Qədir-Xumda dediyi bu hədis barəsində fikriniz nədir? “Mən kimin ağası və rəhbəriyəmsə, Əli (ə) də onun ağası və rəhbəridir.” Bu hədis düzgündürmü?”

Qazi dedi: “Bəli, düzgündür.”

Şeyx Mufid deyir: “Bəs, onda şiə və sünnilər arasında ədavət və fikir ayrılığı nədir?”

Qazi deyir: “Bu hədis rəvayətdir. Amma Əbu Bəkrin xilafəti dirayətdir. (ictihadın görünüb, elm və məlumat üzündən olması).

Ədalətli insan rəvayəti (xəbəri) dirayətlə (görməklə) tay tutmaz. Çünki dirayət rəvayətdən üstündür.”

Şeyx Mufid deyir: “Siz Peyğəmbərin (s) Əliyə (ə) dediyi bu söz barəsində nə deyirsiniz: “Səninlə müharibə mənimlə müharibə, səninlə sülh mənimlə sülhdür.”

“Bu hədis səhihdir”, – deyə qazi cavab verir.

Şeyx Mufid deyir: “Sizin Cəməl səhabələri (Təlhə, Zübeyr və s.) barəsində nəzəriniz nədir?”

Qazi deyir: “Sonradan onlar tövbə etdilər”.

Şeyx Mufid deyir: “Onların müharibəsi dirayət (görmək və elm) üzündən olmuşdur. Amma onların tövbə etməsi rəvayətdir. Sən “Qədir-Xum” hədisi barəsində dedin ki, rəvayət dirayətlə bərabər deyil, bəlkə dirayət üstündür.”

Qazi Şeyx Mufidin sualının cavabında aciz qalıb, başını aşağı salır və sonra isə deyir: “Sən kimsən?”

Şeyx Mufid cavab verir: “Mən Mühəmməd ibni-Mühəmməd ibni-Nomani Harisəm”.

Qazi Qazilik taxtından durub Şeyx Mufidin əlindən tutaraq öz taxtında əyləşdirir və deyir: “Əntəl Mufidu həqqa” – yəni, şübhəsiz, sən Mufid (faydalı, xeyrli) bir insansan.

Məclisdəkilər bu işdən narahat olsalar da, Qazi üzünü onlara tutub deyir: “Bu kişi mənə bir sual verdi, mən onun cavabında aciz qaldım. Əgər sizlərdən hər hansı biriniz onun cavabını verə bilsə, qazilik taxtında o əyləşəcək!

Oradakılardan heç kəs cavab verməyib susdular.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bu hadisə bütün yerlərə yayıldı. Elə həmin gündən də Şeyx Mufidi bu adla, yəni "Şeyx Mufid" – deyə səslədilər.[1]

***Eyləmiş xətmi Peyğəmbər Qədri-Xumda çün bəyan***
***"Siz bilin, məndən sonra mövla Əlidir, şiəyan!***
***Həm Həsən, həm də Hüseynin bu cahanda parlayan***
***Mənbəi-nuri-qidası, ya Əliyyəl-Murtəza.***

Həzrət Peyğəmbər (s) buyurub: "Ümmətimin alimləri ulduzlar kimidir." Belə ulduz alimlərdən biri də mərhum Müqəddəs Ərdəbili olub. Deyirlər ki, Müqəddəs Ərdəbilinin vəfatından sonra müctəhidlərdən biri yuxuda görür ki, Müqəddəs Ərdəbili böyük alimlərin və səhabələrin cərgəsində Həzrət Əlinin (ə) hərəmini gəzir.Həmin adam yuxuda Müqəddəs Ərdəbilidən soruşur: "Belə uca məqama necə və nə yolla çatmısan?"

Müqəddəs Ərdəbili cavab verir: "Mənim bu məqama yetməyimin səbəbi Həzrət Əlini (ə) sevməyim və onun imamlığını qəbul etməyim oldu."

***"Ey dil, yapış ol Əhmədi-Muxtar ətəyindən***
***Ta ki, nəfəsin var,***
***Səflər dağıdan Heydəri-Kərrar ətəyindən***
***Qəmdən bizi qurtar.***
***Tut silsileyi-seyyidi-əbrar ətəyindən***
***Onlardı dəhü çar***[2]
***Həftad dü tən yavəri-qəmxar*** [3] ***ətəyindən***
***Xoşxülq, xoş ətvar.***
***Hər xeyir tökülsə, tökülür var ətəyindən,***
***Bil vazehü aşkar.***
***Yox daneyi-ərzən qədəri şeri-qəzəldən,***
***Zakir, sənə çarə.***
***Tut Ali-Əlinin genə naçar ətəyindən***
***Fəryad elə yalvar."***

Qasım bəy Zakir bu şeirində vurğulayır ki, insanların bu dünyada və axirətdə səadətə, xoşbəxtliyə çatması üçün yeganə düzgün yol 14 məsumun ətəyindən tutmaları və 72 nəfər Kərbəla şəhidlərindən ibrət almalarındadır. Allah-təala bizi doğru yolun yolçularından qərar versin. Amin!

---

[1] Molla Əliheydər Naqis Təzəkəndi, "İbrətə layiq olanlar", səh. 237-239
[2] Dəhü çar-14 Məsum, yəni Peyğəmbər (s), qızı Faimeyi-Zəhra(s.ə) və 12 İmam
[3] Həftad dü tən yavərü-qəmxar – 72 yavər, Kərbəla şəhidləri

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**İmam Sadiqin(ə) şagirdlərindən biri olan Hişam** Peyğəmbərdən(s) sonra İmam və rəhbərin kim olması barədə sünni alimi Əmr ibn Übeyd ilə mübahisə edir.

Hişam belə söyləyir:

“Cümə günü Bəsrə şəhərinə daxil oldum və məscidə getdim. Əmr ibn Ubeyd Mötədili məsciddə oturmuşdu, böyük bir dəstə də onun ətrafında həlqəvari şəkildə əyləşmişdilər və ona müxtəlif suallar verirdilər. Mən də məclisin bir tərəfində onların arasında oturdum. Hər kəs bir söz soruşurdu. Mən də Əmrə üz tutub:

“Ey alim, mən bu şəhərin adamlarından deyiləm. İcazə versəniz, sizdən bir sual edim?

Əmr dedi: “Ürəyin nə istəyirsə, soruş.”

Dedim: “Sizin gözünüz varmı?”

Dedi: “Görmürsənmi, mənim gözüm var, niyə bunu soruşursan?”

Dedim: “Mənim suallarım bu növdür.”

Dedi: “ Soruş, amma sualların faydasızdır.”

Dedim: “Sizin gözünüz varmı?

Dedi: “Bəli, var.”

Dedim: “Gözlə nə edirsiniz?”

Dedi: “Gözlə görməli şeyləri görürəm, onların rəngini, növünü və s. təyin edirəm.”

Dedim: “Diliniz də varmı?”

Dedi: “Bəli, var.”

Dedim: “Onunla nə iş görürsünüz?”

Dedi: “Onunla yeməyin dadını və ləzzətini bilirəm.”

Dedim: “Qoxu və iybilmə hissiniz varmı?”

Dedi: “Bəli, var.”

Dedim: “Onunla nə edirsiniz?”

Dedi: “Onunla qoxuları duyuram.”

Dedim: “Sizin bunlardan başqa qəlbiniz (və ağlınız) də varmı?

Dedi: “Bəli, var.”

Dedim: “Onunla nə edirsiniz?”

Dedi: “Əgər mənim başqa bədən üzvlərim və duyğularım şəkk və tərəddüd edərsə, qəlbim şəkk və şübhəni aradan qaldırar. Aydındır ki, bəzi hallarda insanın beş hiss duyğusu səhvə yol verir, onların səhvlərini aradan qaldırmaq üçün ağıl və qəlb məhkəməsinə müraciət edirik.

Hişam deyir: “Elə ki, Əmr ibn Ubeyd bu cümləni dedi, mən də onun söylədiklərini təsdiq etdim və dedim:

“Bəli, Allah insanın üzvlərinin və beş duyğu orqanlarının fəaliyyətini istiqamətləndirmək üçün, eyni zamanda, onların xəta və səhvlərini aradan qaldırmaq məqsədilə qəlbi yaratmışdır.

Ey alim, belə söyləsək, düzgün olarmı:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Tanrı insanın gözünü, qulağını və başqa üzvlərini yol göstərənsiz yaratmamışdır. Mehriban Allah Rəsuli-Əkrəmdən (s) sonra müsəlmanları rəhbərsiz və yol göstərənsiz qoymuşdursa, nəticədə insanlar şəkk, şübhə, tərəddüd və ixtilaf içində qalmazmı və yoldan çıxmağa, məhv olmağa düçar olmazmı?"

Hişam deyir ki, dedim, bir fikirləşib, düşünmək lazımdır, hansı sağlam fikir və düşüncə bu mətləbi qəbul edər?! O zaman bu cür sadə suallardan belə bir nəticə ortaya çıxardım. Əmr ibn Übeyd başa düşdü ki, mən Əhli-beyt (ə) tərəfdarıyam və İmam Sadiqin (ə) tələbələrindənəm. Bu səbəbdən sakit oldu, mənə başqa cavab verə bilmədi. Yalnız bunu bacara bildi ki, xoşagəlimli, ümumi sözlər desin və mübahisəni bitirsin.

Hişam bu mübahisədən belə nəticə çıxarmaq istəyir və qarşı tərəfi başa salmaq istəyir ki, Allah-Təala Peyğəmbərdən(s) sonra onun canişini olaraq mütləq rəhbər və başçılar təyin etmişdir ki, onlar bir-birinin ardınca müsəlmanların rəhbəri və başçısı olsun.

Ustad Şəhriyar gözəl demişdir ki,

***"Bu olan işdi ki, axşamçağı Allah çobanı***
***Çöldə Allah davarın boşlaya bica başına?!".***

İslamın adlı-sanlı filosofu Əbu Əli ibn Sina deyir:

"Allah-təala hikmətlidir, insan üçün, onun ən kiçicik və zəruri ehtiyacını ödəmək üçün kiprik və qaş yaratmışdır. Belə olduğu təqdirdə, ağıl və məntiqə uyarlı olarmı ki, bu qədər mehriban olan Tanrı insanın ən böyük ehtiyacını, yəni ona yol göstərən təyin etməyi unutsun və bundan qafil olsun, insanı başçısız, rəhbərsiz, tərbiyəçisiz və müəllimsiz qoysun, xalqı başlı-başına buraxsın."




من كنت مولاه فهذا علي مولاه

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “QƏDİR-XUM”UN QISA XRONİKASI

Qədir-Xum – Zilhiccə ayının 18-i, günlərin ən qədirlisi, ən əfzəli, ən şərafətlisidir.

Qədir-Xum – İslamın ən əziz və ən böyük bayramıdır.

Qədir-Xum – Vilayət günü, həm də vilayət gününün şanlı viladətidir.

Qədir-Xum – Məkkə ilə Mədinə arasında yerləşən müqəddəs məkanlardan biridir.

Qədir-Xum – İlahi vəhyin, ilahi əmrin peyğəmbər tərəfindən elan olunan məntəqənin adıdır.

Qədir-Xum – Həccül-vidanın şahidi və daha doğrusu o günün tarixidir.

Qədir-Xum – İmam Əlinin (ə) Allah tərəfindən imamətə və vilayətə təyinatıdır.

Qədir-Xum – Cənab Cəbrailin “təbliq” ayəsi ilə peyğəmbərə müjdə gətirməsidir.

Qədir-Xum – Haqq Təala tərəfindən dinin kamil olması, nemətlərin tamamlanması və haqqın İslamdan razılığıdır.

Qədir-Xum – Əli ibn Əbu Talibdir.

Qədir-Xum – Şahi-vilayətin mövla, yəni rəhbər təyin olunmasıdır.

Qədir-Xum – Bütün İslamın təntənəsidir.

Qədir-Xum – Haqq Təala tərəfindən əmr olunan vəhdət meyarıdır.

Qədir-Xum – Rəsuli Əkrəmin: “Məni təbrik edin”, “Məni təbrik edin, çünki nübüvvət mənim əhli-beytimin vilayəti ilə tamamlanır”? – dediyi gündür.

Qədir-Xum – Bütün dünya müsəlmanlarına “Siratəlləzinə ən əmtə əleyhim” ayəsi ilə bəxş olunan nemətі-üzmadır.

Qədir-Xum – Haqqın cəmali-mövladə təcəllasıdır.

Qədir-Xum – “Mən küntü mövlahü fə həza Əliyyün Mövla” kəlamının qaynağıdır.

Qədir-Xum – Böyük din üləmalarının əsərlərində qeyd olunmuş tarixi həqiqətdir.

Qədir-Xum – Şuərayi... əhli-imanın əşarından mədh olunmuşdur.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Qədir-Xum – Canlı şahidi olmuş şair Həssan ibn Sabitin qələmindən süzülmüşdür.

Qədir-Xum – Həzrət Peyğəmbərin Əmirəlmöminin Əli (ə) haqda etdiyi duanın bərəkətidir.

Qədir-Xum – "Allahümmə vali mən valah" – "İlahi, onun dostlarını dost tut" və "adi mən adah" – "düşmənlərini isə düşmən tut", – kəlamının müjdəçisidir.

Qədir-Xum – "Vənsür mən nəsərəh" – ona kömək edənə kömək, "vəxzül mən xəzələh" – onu xar etmək istəyənin xar olmağıdır.

Qədir-Xum – "Bəxxun, bəxxun" – deyən bəzilərinin xəyanətinin açıq-aşkar ortaya çıxarıb ifşa edənidir.

Qədir-Xum – İki imamın, iki günəşin, iki ayın, iki ulduzun, iki nurun, birləşib cilvələnməsidir.

Qədir-Xum – İki nurun cəmalında 14 məsumun təqdimatıdır.

Qədir-Xum – Vilayətin ilk şəhidi Xanım Fatimeyi-Zəhranın şəhadətinin sirridir.

Qədir-Xum – Allahın əlindən təcəlla edən nurun, Kərbəla ələmdarının qollarına intiqamının işarəsidir.

Qədir-Xum – İmam Həsən (s) və İmam Hüseynin (ə) qəsb olunmuş haqlarının ibtida mərhələsidir.

Qədir-Xum – Fədəkin bağlı qalmış qapılarının açarıdır.

Qədir-Xum – Ali-əbanın və Aşuranın ayrılmız hissəsidir.

Qədir-Xum – Bu həqiqət haqqın səsi, Kərbəla qəhrəmanı cənab Zeynəbin(ə)qələbəsidir.

Qədir-Xum – İmam Mehdinin həsrəti, iftixarı və intizarıdır.

Qədir-Xum – Həzrət Mehdinin ilk təqdim etdiyi ədalət şüarıdır.

Qədir-Xum – Ələmində "Əliyyün vəliyyullah" yazılan, belində Zülfüqar asılan, əlində Əmirəl-Mömininin tərtib etdiyi "Quran" olan Həzrəti Hüccətin (ə) zühur etdiyi an dediyi "Mən zühur etmişəm ki, sizə Mövla Əlini (ə) tanıtdırım, çünki siz onu layiqincə tanımamısınız", – kəlamının təsdiqidir.

Qədir-Xum – Həqiqəti gizlətmək, təhrif etməkdən ötrü Novruz günü kimi uzun illər unutdurulmuş və müxtəlif qadağalara məruz qalmışdır.

*S.Ə.ŞİRVANİ*

## *"QƏDİR-XUM" QƏSİDƏSİ*

Badeyi-Mustəfəvi Xümdə edər cüşu xuruş,
Ki, səfasından onun qarət olur taqətü huş,
Badədir ruhi-Xuda, saqiyi-gül çöhrə süruş,
Aləmə nəşri-maarif eləyir badəfüruş,
Açılıb rəhmət ilə xaneyi-Xəmmar bu gün.

Piri-meyxanə meyi-nabə işarət eylər,
Dürrinişani-vilayətə bəşarət eylər,
Dini təkmil qılıb kəşfi-kəramət eylər,
Müxtəsər, aləmə təbliği-risalət eylər,
Faş olur mərtəbeyi-Heydəri-Kərrar bu gün.

Axırı-Həccini çün Xətmi-Rəsul etdi tamam,
Azimu-Yəsrib olub Əhmədi-Məhmud məqam,
Ol şahə Xümmi-Qədir üzrə olundu ilham,
Gəldi Cibril ki, ey sərvəri-səyyarə məqam,
Sənə göndərdi salam izzəti-Qəhhar bu gün.

Sən gərəkdir, edəsən Xummi-Qədir üzrə nüzul,
Goftgu eyləməsin zümreyi-əshab füzul,
Bəs, gərək, zahir ola mərtəbeyi-zövci-Bətul,
Olacaqdır o şəhin ziddi "zəlumən və cəhul"
Açılır aləmə məxfi olan əsrar bu gün.

Yetir afaqə o şahənşəhin övlalığını,
Sabit et cümlə bu mövlalərə mövlalığını,
Əlivü ali-Əli gövhəri-əlalığını,
Zatının dürri-giranmayeyi-valalığını,
Minbər üstə çıxıban eyləgilən car bu gün.

Etdi çün hökm nüzul ol şəhi-səyyarəxudəm,
Oldu əshabələrin surəti-hali dərhəm,
Etdilər ərz ki, ey zübdeyi-əhli-aləm,
Su tapılmaz bu qədir içrə hərarətdən həm,
Kürreyi-xak olubdur kürreyi-nar bu gün.

Nazil olmağə deyil hiç münasib bu məqam,
Hökm hökmündü, vəli biz sənə etdik elam,
Açıban dərci-dəhən sərvəri-ecaz kəlam,
Dedi: Bu hökmi-Xudavənddir, ey qövmi-giram,
Eyləyib hökm mənə Qadiri-Cəbbar bu gün.

Etdi əshabə bu hökmü çu şəhi - ərşsərir,
Dedilər sövt ilə “ləbbeyk”, ucaldı təkbir,
Oldular cümlə piyadə çi səqirü çi kəbir,
Müntəzir kim nədi fərmani-Xudavəndi-qədir,
Nə büruz eyləyəcək İzzəti-dadar bu gün.

Ol Şahənşahə hicazi-şitur oldu mənbər,
Bəd təmhidi-xudavəndi-qədimu davər,
Dedi: “Aya, deyiləm mən sizə candan behtər”,
Dedilər cümlə, bəli, ey şəhi-valagövhər,
Sənsən övlalığa mövlayi-səzavər bu gün.

Dedi: Hər şəxsə ki aləmdə mən olsam mövla,
Ona mövladü Əli, ol şəhi-mülki-məna,
Ona nasir olana nasir ola bari-Xuda,
Hasidü düşməninə düşmən ola rəbbi-səma,
Bu duanı elədi Əhmədi-Muxtar bu gün.

Tutdu bir xeymədə bəs Heydəri-Kərrar qərar,
Təhniyyət etdilər ol şirdilə xürdü kibar,
İbn-Xəttab xitab eylədi, ey şiri-şikar,
“Bəxxun, bəxxun, ləkə Mövla” səni qıldı Cəbbar,
Oldun, ey sərvəri din, Aləmə sərdar bu gün.

O qədər keçmədi kim, xətmi-Rəsul etdi vəfat,
Zülməti-xakdə məstur olub abi-həyat,
Tutdular Xızr təriqindən o qövmi-zülmat,
Qıldılar özlərinə həqq ziyafət isbat,
Dedilər, rehlət edib Seyyidi-Əbrar bu gün.

Uydular Əhrimənə, hökmi-Süleyman qaldı,
Bir də həqqin bizə göndərdiyi fərman qaldı,
Bənd olub zahirinə, batini-Quran qaldı,
Kəsdilər suyunu, əfsürdə gülüstan qaldı,
Necə kim, indi də zahirdu o asar bu gün.

Hiç şəkk yoxdu ki, əlan “kəma kan” saqi,
Oldu hər əsrdə bu nüktə nümayan saqi,
Bizə həq nayibidir Fazili-Şirvan, saqi,
Əlivü ali o sibti-Şəhi-Mərdan, saqi,
Ki, onun həqqini qövmü edər inkar bu gün.

Elmdə tay deyildir o cənaba bir əhəd,
Bu Əli mənqəbətin vəsfinə yoxdur sərhəd,
Nə qəmi, etsə əgər hasidi-iqbalı həsəd,
Hasidin boynuna zəncir olacaq həbli-məsəd,
Münkəri-rütbəsinin mənzilidir dar bu gün.

Saqiya, badi-xəzan etsə gülüstanı xərab,
Yenə gül nəkhətini zahir elər buyi-gülab,
Tutmağa ali-Əli damənini eylə şitab,
Bamdə kəlmə, dəri-elmə elə dəqqül-bab,
Ki, Əli elmi Əlidən olur izhar bu gün.

Seyyida, kim ki hürər Şiri-Xuda naibinə,
Sən onun lənət oxu ruhuna, həm qalibinə,
Qəzəbi-izzəd onun hazirinə, qaibinə,
Baxma dəhrin bu sifət xasirənə, xaininə.
Al qələm, yaz oların həcvinə əşar bu gün.

## “QƏDİR-XUM”
## PEYĞƏMBƏRİN DİLİNDƏN

Ey müsəlmanlar, edibdir əmr peyğəmbər sizə,
Şahi-din olsun Əmirəlmöminin Heydər sizə.

Olmasa əldə silah, olsa əgər düşmən dəniz,
Tək Əli bəsdir, gərəkməz min qoşun-ləşkər sizə.

Siz ürəkdən bağlana bilsəz o mahi-ənvərə,
Əskik etməz nurunu həm ol məhi-ənvər sizə.

Daimi olmaq dilərsiz, Şahi-Mərdani tutun,
Çün müdam qalmaz bu var-dövlət, gözəl dilbər sizə.

Qaldıra bilməzsiz aləmdə Əlinin bayrağın,
Cani dildən olmayınca Kərbəla səngər sizə.

Tapdasaz həqqin Əlinin, ya ona ağ olsanız,
İstifadə eyləyib qan uddurar kafər sizə.

Əl uzatmaq da ona vacib deyil, ismi yetər,
Harda olsaz, əl tutar, çün ol mələk-mənzər sizə.

Hər bəladən sizləri zikri-Əlidir saxlayan,
“Ya Əli” – söylər açanda Cəbrəil şəhpər sizə.

Mən Əlini ali bildim əmr alıb meracidə,
Şahi-Mərdanı Xuda təyin edib rəhbər sizə.

Mən Əliyə aşiqəm, yoxdur cahanə rəğbətim,
Çox gözəl mirasdı bu, gəl, öyrədim əzbər sizə.

Ta qiyamət mən Əli təbliğini əmr etmişəm,
Bu səbəbdən də Hacı Soltan açıb dəftər sizə.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## MÜSTƏZAD

Təbrik bu günə, çünki bu gün Əhmədi Muxtar
aləmlərə sərvər.
Bəlli eliyibdir ki, bilün Heydəri-Kərrar
oldu sizə rəhbər.
Xummi-Qədirə yetdi edib hamıya izhar
hər ayəni əzbər.
"Ma ünzilə" ayatini o söylədi təkrar,
tökdi düri-şəkkər.
"Əlyövm"ədə İslamı açıb sahibi-əsrar,
şahid ola səflər.
"Əkməltü"də kamil Əlinin adıdı aşkar,
matdır buna kafər.
"Mən küntü"də "Mövla" sözünü qadiri-qəffar
dinə dedi məhvər.
Bayram qəbul etdi o günü cümleyi zəvvar
birlikdə sərasər.
Kim eyləsə bu hadisəni dəhridə inkar,
duzəx onu gözlər.
Soltan, Əli haqqın tanıt, ol həqqə tərəfdar,
et xalqı münəvvər.
Açmış bizə bu barədə hər mübhəmi əxbar,
Şahdır bizə Heydər.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## ŞAH İSMAYIL XƏTAİYƏ TƏXMİS

Ey könül, cövlanə gəl bir ali meydandır bu gün,
Ya sevincdən, ya kədərdən gözləri qandır bu gün,
Yarimə can verməyim çün əhdü peymandır bu gün,
"Ey mənim çox sevdiyim aləmdə sultandır bu gün,
Yar əgər qəbul edər canimi, qurbandır bu gün".

Mürtəza eşqilə sabitdir dəmadəm hali-dil,
Çün bu meyar ilə olmuş bəlli aşiqlik əsil,
Möminin cənnət məqamı amma bu dünya deyil,
"Sən ey Adəm, aqilisən, dünyayə vermə meyil,
Dünyayə verən könül bu yolda nadandır bu gün".

Bu günün xeyrin bilən hər kimsə xöşbəxtlik bulur,
Bəhri ümman tək gözi sevdalı sellərlə dolur,
Kim Əmirəlmömininə həqq deməz, əlbət, solur,
"Əlini həqq bilməyənlər kafiri-mütləq olur,
Dini yox, imanı yox, çün namüsəlmandır bu gün".

Kim Əli adın tutar, Imanı birdir, eşqi bir,
Axirət zindan olur hər şəxsə, olsa bi bəsir
Sən də gəl, şeytan yox, insan tək çalış, hər qəlbə gir
"Bir könül alur isən, yüzünə varmış kimidir,
Bir könül yıxarisən gər, Məkkə virandır bu gün".

Soltanın, var isə əqlin, gəl sözini tani, gör,
Hər sözündə istinad etsən, düzünü tani, gör,
Var isə sidqin sənin, həqqin izini tani, gör,
"Ey Xətai, can qənimətdir, özini tani, gör,
Danla gün təndən çıxar ol, canki mehmandır bu gün".

## TAPŞIRDIM SİZƏ

Ey camaət, itrəti-”Taha”nı tapşırdım sizə,
Bir də bu göydən gələn Quranı tapşırdım sizə.

Bu iki ağır əmanət, ey güruhi-müslimin,
Bir-birindən ayrı düşməz ta qiyami-yövmidin,
Hövzi-kövsərdə olar bahəm səfa hasil yəqin,
Ittifaqi-hümməti-təqvanı tapşırdım sizə.

Etmişəm iyirmi üç il şami-səhər xidmət sizə,
Cahiliyyətdən qurtardım, verdim əmniyyət sizə,
Bir əmanətdir bu gün Quran ilə itrət sizə,
Gülüstanımdan güli-rənanı tapşırdım sizə.

Salmayın ərkani-dinə iğtişaşi-inqilab,
Qoymayın, aşkar ola, ribhü qumar ilə şərab,
Çıxmayın dindən camaət, etməyin kəşfi-hicab,
Qeyrətiz var, isməti-nisvanı tapşırdım sizə.

Bu Əli ibni-Əbutalib əmoğlumdur mənim,
Kim bunu düşmən tuta, olmuş mənim də düşmənim,
Canişinimdir, vəzirim, varisi-şirəfkənim,
Mürtəzatək mənbəyi – ehsanı tapşırdım sizə.

Almayın haqqın əlindən, etməyin xanənişin,
Vurmayın qollarına bəndi tənab, ey müslimin,
Qüssələnnəm mən behişt içrə, Əli olsa qəmin,
Heykəli, şəxsiyyəti, vicdanı tapşırdım sizə.

Ey cəmaət, ziri-bari zülmə hərkiz getməyin,
Zalıma baş əyməyin, ya bir kəsə zülm etməyin,
Acizi-məzluma püştiban olun incitməyin,
Izzətü hesiyyətü imanı tapşırdım sizə.

## “QƏDİR-XUM” GÜNÜDÜR

“Qədir-Xum” bayramı, əslində, vilayət günüdür,
Həm vilayət gününün şanlı viladət günüdür.

Axərin həcci-vidadən qayıdan vəqti Nəbi
Gəldi səs ərşi-Xudadən: Dayan, ayət günüdür.

Endi göydən yerə, müjdə gətirə Ruhil-Əmin,
Söylədi: - Aləmi-İslamə himayət günüdür.

Əmr edib ol günü Allah özü Peyğəmbərinə,
Elə elan bu sözü, xətmi-Risalət günüdür.

Ver Risalət ipini ibn Əbu Talibə sən,
Seçilib Şəmsi-hüda, ümmətə rəhmət günüdür.

Kim ki, bilməz bu günün qədrini, həm qiymətini,
Ömrünə hər günü Quranə xəyanət günüdür.

Olacaq cümlə şəfaətdən uzaq üqbadə,
Bu günü dərk edənə amma şəfaət günüdür.

Ey Əli aşiqi, xoş haluva olsun ki, sənin
Aldığın hər nəfəsün misli – ibadət günüdür.

Şiələr, əlbir olaq, haqqın ipindən yapışaq,
Bu gün aşiqlər üçün məktəbi-vəhdət günüdür.

Seyyida, Ali Əlidir səqeleynin birisi,
Ol səbəbdən də bu gün hifsi-əmanət günüdür.

## "ƏLİ" DEYİR

Yəvmi-qədiri Xummidi, ərşi-fələk "Əli" deyir.
Yerdə tamami insu-can, göydə mələk "Əli" deyir.

Taqəti varsa möminin, şəkk eləməz hidayəti,
Əmri-Xudanı dərk edən hər bir ürək "Əli" deyir.

Vardı yeri təəccübə, məzhəbi qeyri-Cəfəri,
Dildə nə qədri səy ilə etsə də şəkk, "Əli" deyir.

Gərçi dəyişsə ruzigar, yağsa yağış, tökülsə qar,
Batsa günəş, doğulsa ay, əssə külək, "Əli" deyir.

Dərdi olan mərizilər dərgahi-həqqə üz tutub,
Yetmək üçün şəfaətə umsa kömək, "Əli" deyir.

Bir balaca böcək yeyir tut ağacın rətibəsin,
Hazır olan rətibədən rəsmi-ipək "Əli" deyir.

Vardı şuarı şiənin, cəm ola bir məcalisə,
"Kimdi əmiriz", et sual, cümləsi tək "Əli" deyir.

Şiə odur ki, Seyyida, söz aparanda həqqidən,
Əvvəli kəlməsi "Əli", axıradək "Əli" deyir.

# V FƏSİL

# 12 İMAM TÖVRATDA

*Naibi-Peyğəmbəri-xatəmsən, ey Mövla Əli,*
*Ol səbəbdən söyləyirlər, ya Muhəmməd, ya Əli,*

*Əvvəli-Quran da sənsən, axiri- Quran da sən,*
*Gah olursan "Sin"də sakin, gahi təhti - "Ba" Əli.*

*Bilməz idim, bixəbərdim, eşq nə, sevda nədir?*
*Ta ki, gördüm surətin, bildim nədir, sevda Əli.*

*Kordu, yəqin, gözləri, görmür; nəsara, yəhudi,*
*İncilü, Tövratda ismin səbt olub, "İlya", Əli.*

*Dövrü Adəmdən bəri yar oldun hər Peyğəmbərə,*
*Olmusan sahib-vilayət zahir həm ixfa, Əli.*

*Həzrəti Musa üçün gah cilvə qıldın Turdə,*
*Gahi bildirdin, nədir, İsaya sən, ehya, Əli.*

*Zərbi dəstin qəsri-Xeybərdə əlamət qoymadı,*
*Cəbrayıl vəsf etdi şənin, "la fəta illa Əli",*

*Vəsf edir əhli-qələm şöhrətçün hər bir nakəsi,*
*Səndən özgə heç kəsi vəsf etmərəm, əsla, Əli.*

*Ey şəfaət sahibi, Nakamı çatdır kamına,*
*Qoyma, qalsın ruzi-məhşərdə onu tənha, Əli.*

**Bismillahir-rəhmanir-rəhim**

“Tövrat” 4 səmavi kitabdan biridir. Bu kitab Ulul-Əzm peyğəmbərlərdən olan Həzrət Musa Kəlimullaha (ə) nazil olub.

“Tövrat”ın “Təkvin” kitabı, Bab-17. bölüm – 20:

“Və İsmayıla gəlincə səni eşitdim, işdə onu mübarək qıldım və onu səmərəli edəcəm və onu ziyadəsi ilə çoxaldacam. On iki bəyin babası olacaq və onu böyük millət edəcəm. İslam milləti.”

Tövratın “Təkvin” kitabı, Bab-25:

“Saranın cariyəsi Misirli Hacərin İbrahimə doğurduğu İbrahim oğlu İsmayılın zürrüyyətləri bunlardır və adları ilə nəsillərinə görə İsmayıl oğullarının adları bunlardır.”

Bu on iki bəyin (kralın, rəisin) Tövratdakı isimləri (sifətləri) nələrdir.

İsmayılın ilk oğlu:

1. Nəboyot – Yəni, Həzrət Əli (ə) – vəsilərin birincisi, son Peyğəmbərin (s) vəsisi.
2. Kəgar – Müctəba, yəni ikinci vəsi – İmam Həsən (ə).
3. Advel – Seyyidüş-Şühəda – Şəhidlər ağası, – İmam Hüseyn (ə)
4. Mitvak – Abilərin (Abidlərin) zinəti – Zeynəlabidin (ə)
5. Mişma – əvvəllərin və axirlərin elminin vəsisi – Baqir (ə)
6. Duma – Allahla danışan və doğru danışan – Sadiq (ə)
7. Məssa – Zalımların zindanlarında həbsdədir – Musa (ə)
8. Hədat – Haqqını etiraf edərlər, amma verməzlər – Rza (ə)
9. Təma – Ömrü qısa, amma əsərləri uzun – Cavad (ə)
10. “Yetur – Əli” ismi ilə adlanan dördüncü kişi – Nəqi (ə)

11 Naviş – Adaş, 2-ci İmamla eyni adda olduğu üçün – Əskəri (ə)

12. Kədama – Allahın əmri ilə qaibdir və onun əmri ilə zühur edəcək – Mehdi (ə. f).

“İsmayılın oğlanları bunlardır və göyləri ilə onların adları bunlardır. Kavunlarına görə on iki bəydilər”.

(“Tövrat”, “Təkvin” kitabı, Bab-25, bölüm – 12-dən 16-ya qədər.)

## İMAM ƏLİ İBN ƏBU TALİBİN (Ə) ELMİ

Mibədi “Kəşful-əsrar və iddətul-əbrar” kitabının 10-cu cildinin 686-cı səhifəsində yazıb: “Abdullah ibn Abbas nəql edib: Bir gecə Əli (ə) mənə dedi: “İşa namazından sonra mənim yanıma gəl. Bəlkə sənə fayda verdim.” O Həzrətin hüzuruna getdim. Buyurdu: “Əlhəmd”-in “Əlif”-i haqda nə bilirsən?” Dedim: “Ey Əli (ə), sən yaxşı bilərsən.” Söhbət etməyə başladı. Bir saat “Əlif” hərfinin təfsirindən danışdı.

Sonra buyurdu: “Ləm” hərfi haqda nə bilirsən? Həmin cavabı verdim. Söhbət etməyə başladı və bir saat “Ləm” hərfini təfsir etdi. Eləcə də “Hə” və “Mim” hərflərini təfsir etdi. Beləliklə, səhər açıldı. Nəticə olaraq ibn Abbas deyir: Başa düşdüm ki, mənim elmim Əlinin (ə) elminin yanında dənizin müqabilində bir damla su kimidir.”

Həmçinin Qunduzi “Yənabiul-Məvəddə” kitabının 71-ci səhifəsində və “Əl-Futuhutul-İslamiyyə” kitabının 510-cu səhifəsində Abdullah ibn Abbasdan nəql edir:

“Peyğəmbərin (s) elmi Allah-Təalanın elmindən başlanır. Əlinin (ə) elmi Peyğəmbərin (s) elmindən başlanır, lakin mənim və bütün səhabələrin elmi Əlinin (ə) elmi ilə müqayisədə yeddi dəniz müqabilində olan bir damla su kimidir.”

Abdullah ibn Ömərdən rəvayət edilir: “Birinci xəlifənin xilafəti dövründə bir qrup yəhudi onun yanına gəlib dedilər: İstəyirik ki, Peyğəmbərinizi bizə tanıtdırasan. Xəlifə dedi: ““Həra” mağarasına gedirdik. Mənim əlim onun əlində idi. Məkkədən hicrət edən zaman birlikdə mağarada qaldıq...” Sonra dedi: “Doğrusu Peyğəmbərdən (s) hədis nəql etmək mənim üçün çətindir. Yaxşı olar ki, Əbəl-Həsən Əli ibn Əbu Talibin (ə) hüzuruna gedəsiniz.”[1]

İbn Abbasdan nəql olunur: “İkinci xəlifə öz xilafəti dövründa böyük bir çətinliklə qarşılaşdı. Belə ki, yerində otura bilmirdi. Səhabələri dəvət edib, məsələni açıqlayıb nəzər istədi. Dedilər: “Ya Əmirəl-möminin, bizim hamımızın pənahı sənsən.” Xəlifə onların yaltaqlığından daha da əsəbləşdi. Dedi: “Bu sualı kimin doğru cavablandıracağını mən bilirəm. O hamının pənahı və ən böyük ustadır.” Dedilər: “Əli ibn Əbu Talibi (ə) nəzərdə tutursunuz?” Xəlifə dedi: “Allah onu hifz eləsin, məgər ərəb dünyasında onun bənzəri görülübmü? Durun, onun hüzuruna gedək.” Səhabələr dedilər: “İcazə verin, xəbər göndərək, özü gəlsin.” Xəlifə dedi: “Heç vaxt belə ola bilməz. O alimdir. Biz onun hüzuruna getməliyik.”

Birlikdə gedib Əbəl-Həsəni (ə) dilində Quran oxuduğu halda bostanda gördük. Əkin işi ilə məşğul idi. Xəlifə Şüreyh Qaziyə dedi: “Məsə-

[1] “Ər-Riyazun-Nəzrə”, cild 2, səh. 195

ləni bildir." Tam cavab alınan zaman xəlifə dedi: "Əbul-Həsən (ə), Allah məni sənin olmadığın çətinlikdə diri saxlamasın."

Şiəni Əhli-beytin (ə) qapısına və onların yoluna hidayət edən bu kimi hədislərdir. Hər bir şiə onlardan başqasından elmi öyrənməyi bir növ ədalətsizlik hesab edir. Çünki, Allah-Təala Qurani-Kərimdə buyurub:

قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُوْلُوا الْأَلْبَابِ

"De: Məgər bilənlərlə bilməyənlər birdirmi? Yalnız əsl ağıl sahibləri ibrət götürür."[1]

Buna görə də şiələr hər bir şeyi, o cümlədən, dua etməyi də onlardan öyrənməyə çalışıblar. Deyirlər: "Ey mənim Allahım, Özünü mənə tanıtdır. Əgər Səni tanımasam, Sənin Peyğəmbərini (s) də tanıya bilmərəm. Ey mənim Allahım, Peyğəmbərini (s) mənə tanıtdır. Peyğəmbərini (s) tanıtdırmasan, Sənin Höccətini tanıya bilmərəm. Ey mənim Allahım, höccətini mənə tanıtdır. Höccətini tanıtdırmasan, dinim məni zəlalətə çəkər və mən yolunu azmışlardan olaram. Ey mənim Allahım, məni bir halda öldür ki, ölümüm cahiliyyət ölümü kimi olmasın."[2]

İnsanın öz höccətini, imamını və rəhbərini tanımadığı təqdirdə yolunu azaraq yanlış yola düşməsi, çobanı olmayan qoyun kimi, özbaşına otlayaraq canavarla qarşılaşacağı, habelə din səviyyəsində Quranı özü başa düşdüyü kimi açıqlaması və özü kimi digər şəxslərdən öyrənərək nəticədə illərlə yerində addımladığını və zəhmətlərinin heçə getdiyinin şahidi olacağı aydındır.

Yeri gəlmişkən, bilməliyik ki, bu iddialar heç də yeni bir söz deyil. Peyğəmbərdən (s) nəql olunan səhih bir hədisdə deyilir: "Öz dövrünün imamını tanımadan ölən cahiliyyət dövründə ölmüş kimidir." Bu, xilafətin birinci günü, axşam çağı ikinci xəlifənin Mədinə küçələrində – "Ey müsəlmanlar, gəlin, xəlifə ilə beyət edin, yoxsa imamınıza beyət etmədən gecə yetişər, başınızı yastığa qoyarsınız", – dediyi zaman söylədiyi hədisdir.

Bununla, şiə və sünni arasında bu hədislə bağlı heç bir şübhə olmadığını və bütün firqələrin qəbul etdiyi hədislərdən olduğunu demək istəyirəm. Lakin şiənin etiqadında imamın və höccətin məsum olması şərtdir. Məsumu da Allah-Təaladan başqa heç kəsin tanımaması aydındır.

Bəqərə surəsinin 30-cu ayəsini birlikdə oxuyaq:

---

[1] "Zümər" surəsi, ayə 9

[2] Bu dua "Məfatihul-Cinan" kitabının son hissəsində olan Cənab Şeyx Əbu Ömər Osman ibn Səid Xudrinin söylədiyi və Əbu Əli Muhəmməd ibn Hummamın yazdığı dualardandır. İmam Zamanın (ə.f.) qeyb dövründə bu duanı Cümə günləri axşam çağı oxumaq müstəhəbdir.

وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلاَئِكَةِ إِنِّي جَاعِلٌ فِي الأَرْضِ خَلِيفَةً

“(Yadına sal. O zaman ki, ) Rəbbin mələklərə dedi: Həqiqətən, mən yer üzərində xəlifə (canişin) qərar vermək istəyirəm.”

Həmin surənin 124-cü ayəsində izah edilir: Allah-Təala İbrahim Peyğəmbəri(ə) müxtəlif sınaqlara çəkdikdən sonra buyurdu: “Həqiqətən, mən səni insanlara imam və rəhbər təyin etdim”. Sonra Həzrət İbrahim (ə) soruşdu: “Övladlarımdan necə?”, (yəni, övladlarımdan da imam və xəlifə təyin etməyin mümkündürmü?) Cavabında buyurdu: “Mənim əhdim zalımlara nəsib olmaz”.

Əvvəlki səhifələrdə “Furqan” surəsinin 74-cü ayəsinin izahını qeyd etmişdik. Orada da iman gətirən saleh insanların belə dua etdiyini görürük: “Ey Rəbbimiz, bizə təqvalıları imam təyin et.”

Qurani-Kərimin buyurduğuna əsasən, Peyğəmbərləri təyin etmək Ona aid olduğu kimi, xəlifə, canişin, dəlil və imam təyin etmək də yalnız Allah-təalanın öz şənindəndir.

Bu şəxslər yuxarıda sadalanan məqamlarda ola bilərlər:

– Elmi hamıdan çox olan, hətta dünyanın gələcəyini də bilənlər;

– Fəzilət və mənəvi dəyərləri hamıdan üstün olanlar;

– Hamıdan çox islah olan, yəni imamətlik məqamına layiq olanlar;

– Hamıdan təqvalı və özünü qoruya bilənlər.

Ən mühümü budur ki, insani dəyərlərdən əlavə, məsum olmalıdırlar, yəni İslam ümməti hətta gələcəkdə də onlardan heç bir səhv baş verməyəcəyinə arxayın olmalıdır. Elə isə deyin görək, belə şəxsləri Allah-Təalanın özündən başqa kim tanıya bilər?

Deməli, imam və xəlifəni təyin edə bilən yalnız Allah-Təaladır, hətta peyğəmbərlərin (ə) də belə bir ixtiyarı yoxdur. Yalnız Allah-Təalanın əmri ilə özlərindən sonrakı imamları tanıtdıra bilərlər. Buna görə də, xüsusilə, İslam Peyğəmbəri (s) peyğəmbərlərin souncusu olaraq özündən sonrakı imamları müxtəlif bəyanlarla izah edib tanıtdırmışdır. Əhlisünnətdə olan kitablara və hədislərə baxın. Sonra məsuliyyət hər kəsin öz öhdəsində qalır.

Cabir ibn Səmurə deyir: “Peyğəmbərin (s) belə dediyini eşitdim: “Məndən sonra əmirlər 12 nəfərdən ibarətdir.” Sonra nə buyurduğunu eşitmədim. Atamdan soruşduqda, hamısının Qureyş tayfasından olduğunu dedi.”

Məsruq deyir: “Bir gecə Abdullah ibn Məsudun hüzurunda Quran öyrənirdik. Soruşdular: “Ey Əba Əbdür-Rəhman, Peyğəmbərdən (s) bu ümmətə neçə nəfərin canişin olması haqda soruşmusunuzmu?” Abdullah cavab verdi: “İraqa gələndən bu günə qədər mənə belə sual verilmə-

mişdi. Bəli, Allah-Təalanın Peyğəmbərindən (s) soruşduq. Buyurdu: "Bəni-İsrailin naiblərinin sayı qədər – 12 nəfər olmalıdır."[1]

İndi isə siz deyin, görək, bu 12 nəfər kimlərdir? Fəzlullah Ruzbəhan Xinəci İsfahani[2] "Əbtalu-Nəhcül-batil" adlı şeir kitabında, Şəmsəddin Məhəmməd Tulun[3] "Əl-Əimmətul-İsna Əşər" adlı əsərində, Muhyiddin Lari "Futuhul-Hərəmeyn"də 12 böyük şəxsiyyətin mübarək adlarını İmam Əli ibn Əbu Talibdən başlayaraq Həzrət Məhdi Sahib-əz-Zamana (ə.f.) kimi bir-bir sadalayıblar.

Deməli, şiələri o yola çəkən böyüklərin göstərdiyi bu məna və anlayışlardır. Bunu da Quran özü təsdiq edir. İslam Peyğəmbəri (s) və imamların (ə) qəbirlərini ziyarətə getdikləri zaman öz əməllərinə şahid bilib hərəmlərinə daxil olmaq üçün icazə alaraq deyirlər: "Ey mənim Allahım, bu pak hərəmin sahibi üçün ölüm olmadığına etiqadım var. Buna görə də özümü onun hüzurunda bilirəm. Çünki Sənin Peyğəmbərinin (s) və onun canişinlərinin hüzurunda diri olmalarını və ruzilərinin olduğunu bilirəm. İndi isə onlar məni görür, salamımı eşidir və salamıma cavab verirlər..."[4]

Yekun olaraq deməliyik ki, İslam Peyğəmbərinin (s) risalətindən başqa üç böyük məqam və vəzifəsi vardır:

1 – İmamət, yəni zahiri rəhbərlik;
2 – İslam maarifinin yayılması;
3 – Vilayət, yəni mənəvi rəhbərlik.

İmamət haqqında Quran buyurub: "Özünüzdən olan əmr sahiblərinə itaət etməniz vacibdir." Sübut olundu ki, onlar məsum olmalıdırlar. Yoxsa, qeyri-məsuma qeyri-şərtsiz itaət heç vaxt Allah-Təalanın əmri ola bilməz.

İslam maarifinin yayılması ilk növbədə Əhli-beytin (ə) vəzifəsidir ki, Qurani-Kərim o evdə nazil olub və Peyğəmbərimiz (s) dəfələrlə o dörd nəfəri (əmisi oğlu Əli ibn Əbu Talibi (ə), qızı Xanım Fatimeyi-Zəhranı (s), nəvələri İmam Həsən (ə) və İmam Hüseyni(ə)) bir yerdə toplayıb və ümmətinə Allah-Təalanı şahid tutub ki, bunlardır mənim Əhli-beytim (ə).

Vilayətə gəlincə, Peyğəmbərdən (s) sonra Allah-Təala tərəfindən təyin olunan vəlilərdir ki, etiqadımız bunadır: Vilayət məqamında hamısı

---

[1] Birinci hədis: Səhihi-Buxari-Əhkam kitabı; Müsnədi-Əhməd Həmbəl, cild 5, Xətib Bağdadinin tarixi, cild 14, İbn Həcər Əsqəlaninin "Fəthul-Bari" kitabı, cild 13.
İkinci hədis: Müstədrəkus-Səhiheyn, cild 4; Səhihi-Tirmizi, cild 3; Əl-Bidayətu-vən-Nəhayə, 6-cı cild.

[2] Hicrətin 927-ci ilində vəfat edib.

[3] Hicrətin 951-ci ilində vəfat edib.

[4] Birincisi budur ki, cənab Abdullah ibn Məsud Peyğəmbərin (s) səhabəsi olub, ikinci xəlifənin hakimiyyəti dövründə yaşayırmış. Habelə deməliyik ki, sadaladığımız hər üç şair də sünni məzhəbindən olublar.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

eyni səviyyədə vilayətə malikdir. Hamısı vahid bir nur və işıqdan işıqlanaraq Allah-Təalanın nurunu “güzgü” kimi Vilayət əhlinə qaytarırlar. Onların müqəddəs adları belədir:

1. Həzrət Əli ibn Əbu-Talib (əleyhissəlam)
2. Həzrət Həsən ibn Əli (əleyhissəlam)
3. Həzrət Hüseyn ibn Əli (əleyhissəlam)
4. Həzrət Əli ibn Hüseyn (əleyhissəlam)
5. Həzrət Məhəmməd ibn Əli (əleyhissəlam)
6. Həzrət Cəfər ibn Məhəmməd (əleyhissəlam)
7. Həzrət Musa ibn Cəfər (əleyhissəlam)
8. Həzrət Əli ibn Musa (əleyhissəlam)
9. Həzrət Məhəmməd ibn Əli (əleyhissəlam)
10. Həzrət Əli ibn Məhəmməd (əleyhissəlam)
11. Həzrət Həsən ibn Əli (əleyhissəlam)
12. Həzrət Mehdi Sahib-əz Zaman (əcələllah fərəcəhum).



## HƏZRƏT ƏLİ (Ə) ALLAHIN VƏ PEYĞƏMBƏRİN (S) SEVİMLİSİDİR

Məhəmməd ibn Yusif Gənci Şafii Əhli-sünnətin mötəbər və məşhur alimlərindəndir.[1] Onun “Kifayətut-Talib” əsəri dünya islam aləmində mötəbər hesab edilən əsərlərdəndir. Həmin əsərin 7-ci fəslində Peyğəmbərimizin (s) əmisi oğlu Abdulla ibn Abbasdan belə bir hədis rəvayət edilir: “Abdulla ibn Abbas deyir: Bir gün mən və atam Abbas Həzrət Peyğəmbərin (s) yanında oturmuşduq. Əli (ə) daxil oldu və salam verdi. Salamlaşdıqdan sonra Allahın Rəsulu (s) sevincindən ayağa qalxıb, Əlini qucaqladı və iki gözünün ortasından öpdü. Sonra onu sağ tərəfində otuzdurdu. Atam Abbas dedi: Ya Rəsulullah! Məgər onu sevirsən?” Həzrət Peyğəmbər (s) buyurdu:

“Əmican! Allaha and olsun, məndən çox Allah onu sevir və dost tutur.”

Bu hədis Əhli-sünnətin əksər mötəbər kitablarında qeyd olunmuşdur.

“Sizlər üçün iki dəyərli şey qoyub gedirəm:

Allahın kitabı və itrətim olan Əhli-beytim. Bunlara sarıldığınız müddətdə əsla azmazsınız”.[2]

Müslimin nəql etdiyi hədisdə isə “Allahın kitabı və Əhli-beytim” ifadəsindən sonra üç dəfə “Sizlərə Əhli-beytim haqqında Allahı xatırladıram” – deyə buyurduğu da zikr edilmişdir.[3]

Məlumdur ki, ümmətin arasında Əhli-beyt hamıdan bilikli, təqvalı və fəzilətlidir. Fərəzdəq onların haqqında belə deyir:

“Təqvalıları saysalar, onlar (Əhli-beyt) təqvalıların rəhbəridirlər. “Yer üzünün ən yaxşısı kimlərdir?” – deyə soruşulsa, yenə “Onlardır” – deyilər”.

Burada Əhli-beyt (ə) ilə Qurani-Kərim arasında olan əlaqəni xatırlatmaq məqsədi ilə bir neçə ayəni nəql edirəm:

**فَلَا أُقْسِمُ بِمَوَاقِعِ النُّجُومِ وَإِنَّهُ لَقَسَمٌ لَّوْ تَعْلَمُونَ عَظِيمٌ إِنَّهُ لَقُرْآنٌ كَرِيمٌ فِي كِتَابٍ مَّكْنُونٍ لَّا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ**

Yəni: “Ulduzların mənzillərinə and olsun ki, kaş bunun nə qədər böyük bir and olduğunu biləydiniz. Bu kitab çox qiymətli Qurandır. Ona

1 Məhəmməd ibn Yusif Gənci Şafii hicrətin 6-cı əsrində yazıb yaratmışdır.
2 Tirmizi, cild. 5, səh. 329. Nisai və Əhməd ibni-Hənbəl də bu hədisi nəql ediblər.
3 “Səhihi-Müslim”, cild. 2, səh. 362

yalnız pak olanlardan başqa kimsə toxunmaz. Onun Allahın sirri olan lövhi-məhfuzda məqamı vardır”.[1]

Bu ayələr, heç şübhəsiz, Əhli-beytin Quranın dərin və gizli mənalarını bildiyini göstərir. Çünki əgər Allah-təalanın içdiyi andlara diqqət yetirsək, onun əsrə, qələmə, əncirə, zeytuna və başqa şeylərə and içdiyini görərik. Amma “ulduzların mənzilinə” içdiyi and daha böyük bir anddır. Onun andı bir şeydən çəkindirmək üçün deyil, rədd və isbat üçündür. Allah-təala and içdikdən sonra “Çox qiymətli Qurandır; Gizli saxlanılmış bir kitabda”, – deyə buyuraraq Quranın (dərin həqiqətlərinin) gizli saxlanılmış bir kitabda olduğunu bildirmişdir. Sonra isə “Ona yalnız pak olanlar toxunar”, – deyə buyurur. Demək ayədə mövcud olan “la” sözü inkarı bildirir. Çünki anddan sonra gəlibdir. “Toxunmaz” sözü isə “dərk etməz” və “anlaya bilməz” mənasındadır və bəzilərinin güman etdiyi kimi əllə toxunmaq mənasında deyildir. Çünki ərəbcədə əl və buna bənzər bir şeylə toxunmaq mənasında olan “ləms” sözü ilə batini və ruhi əlaqə mənasında olan (məss) sözü arasında böyük bir fərq vardır. Allah-təala bu sözü başqa bir ayədə də yenə batini idrak və təsir mənasında işlədərək belə buyurur:

إِنَّ الَّذِينَ اتَّقَواْ إِذَا مَسَّهُمْ طَائِفٌ مِّنَ الشَّيْطَانِ تَذَكَّرُواْ فَإِذَا هُم مُّبْصِرُونَ

Yəni: “Təqvalılara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar (Allahı) xatırlayıb düşünərlər və dərhal görən olarlar”.[2]

Başqa bir ayədə isə belə buyurur:

الَّذِينَ يَأْكُلُونَ الرِّبَا لاَ يَقُومُونَ إِلاَّ كَمَا يَقُومُ الَّذِي يَتَخَبَّطُهُ الشَّيْطَانُ

Yəni: “Sələm yeyənlər Qiyamət günündə (qəbirlərindən) şeytanın sehri ilə dəli olmuşlar kimi qəbirlərdən qalxarlar”.[3]

Demək, buradakı “məss” ağıl və ruhla əlaqədardır və əllə toxunmaq mənasında deyildir. Allah-təala pak olanlardan başqa heç kəsin Qurana toxunmayacağına dair and içir. Əgər bundan məqsəd əllə toxunmaq olsa, Allah-təala belə bir şeyə and içərmi? Tarix kitablarında bəzi zalım hökmdarların (məsələn, bir sıra Əməvi xəlifələrinin) Quranla oynadıqları və onu parçaladıqları yazılmışdır. Həmçinin İsrail əsgərlərinin Beyrutu işğal etdikləri vaxt Quranı yandırdıqlarını özümüz televiziyada görmüşük. Buna görə də, Allah-təalanın bu sözü (yəni, “Qurana pak olanlardan başqa kimsə toxuna bilməz” ayəsi) Quran ayələrinin mənala-

1 “Vaqiə” surəsi. ayə 75-79
2 “Əraf” surəsi, ayə 201
3 “Bəqərə” surəsi, ayə 275

rını Allahın seçdiyi və tərtəmiz etdiyi bir qrupdan başqa heç kim başa düşə bilməz anlamındadır.

Ayədə mövcud olan “mütəhhərin” sözü qrammatik baxımdan tamamlıq hesab edilir, yəni “təmizlənmiş kimsələr”. Allah-təala başqa bir ayədə də belə buyurur:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Yəni: “Siz ey Əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir”.[1]

Demək, “Ona təmiz olanlardan başqa kimsə toxuna bilməz” ayəsi də Peyğəmbər (s) və Əhli-beytdən başqa heç kimsə Quranın həqiqətlərini başa düşə bilməz mənasındadır.

Buna görə də, Həzrət Peyğəmbər (s) Əhli-beyt haqqında belə buyurmuşdur:

“Ulduzlar yer üzünün əhalisini qərq olmaqdan qoruduğu kimi mənim Əhli-beytim də ümmətimi ixtilaflardan qoruyur. Ərəblərdən hər hansı bir qəbilə onlarla müxalif olsa, şeytanın hizbindən olar”.[2]

علیّ أوّل من آمن بی و صدّقنی

“Mənə ilkin iman gətirən və məni təsdiq edən şəxs Əlidir.”

علیّ طاعته طاعتی و معصیته معصیتی

“Əliyə itaət edən mənə itaət etmiş olur, Əliyə asilik edən mənə asilik etmiş olur.”

علیّ منّی بمنزلة رأیس من بدنی

“Baş bədənə nə deməkdirsə, Əli də mənim üçün o deməkdir.”

علیّ و شیعته هم الفائزون یوم القیامة

“Qiyamət günü Əli və onun şiələri nicat tapacaqlar.”

یَا عَلِي اِنَّکَ تَسمَعُ وَتَرَی مَا اَرَی اِلاّ اَنَّکَ لَستَ بِنَبِیٍّ

---

1 “Əhzab” surəsi, ayə 33

2 Hakim “Müstədrək”in 3-cü cildinin 149-cu səhifəsində bu rəvayəti ibni-Abbasdan nəql edərək onun səhih olduğunu nəql etmişdir.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Ey Əli! Həqiqətən, Mən nə eşidirəmsə, onu sən də eşidirsən, Mən nə görürəmsə, onu sən də görürsən. Ancaq sən peyğəmbər deyilsən.”

يَاعَلِىُّ اَنتَ اَخِى وَاَنا اَخُوكَ

“Ya Əli! Sən Mənim qardaşımsan və Mən Sənin qardaşınam.”

اَنَا وَ عَلِىٌّ اَبَوا هَذِهِ الاُمَّةِ

“Mən və Əli bu ümmətin atalarıyıq.”

يَاعَلِىُّ مَا عَرَفَ اللَّهُ اَنَا وَاَنتَ وَ مَا عَرَفَنِى اِلاَّ اللَّهُ وَاَنتَ وَمَاعَرَفَكَ اِلاَّ وَاَنَا

“Ey Əli! Allahı Məndən və Səndən başqa heç kəs tanımadı, Məni Allahdan və Səndən başqa heç kəs tanımadı və Səni Allahdan və Məndən başqa heç kəs tanımadı!”

عَلِىٌّ قَسِيمُ النَّارِ وَالجَنَّةِ

“Əli Behişti və Cəhənnəmi bölüşdürəndir.”

عَلِىٌّ مَعَ الحَقِّ وَالحَقُّ مَعَ عَلِىٍّ يَدُورُ مَعَهُ حَيثُمَا دَارَ

“Əli haqq ilədir, haqq Əli ilədir; harda haqq varsa, Əli ordadır.”

ضَربَةُ عَلِىٍّ يَومُ الخَندَقِ اَفضَلُ مِن عِبَادَةِ الثَقَلَين

“Xəndək döyüşündə Əlinin vurduğu bir zərbə Səqəleyn ibadətindən üstündür.”

اِنَّ اَوَّلَ اَهلِ الجَنَّةِ دُخُولاً اِلَيهَا عَلِىُّ بنُ اَبِى طَالِبٍ

“Behişt əhlindən cənnətə daxil olacaq birinci şəxs Əli ibn Əbu Talibdir.”

لِكُلِّ نَبِىٍّ خَلِيلٌ وَاِنَّ خَلِيلِى وَاَخِى عَلِىٌّ

“Hər Peyğəmbərin bir dostu olur; həqiqətən, Mənim dostum və qardaşım Əlidir.”

لِكُلِّ نَبِىٍّ صَاحِبُ سِرٍّ وَصَاحِبُ سِرّى عَلِىِّ بنِ اَبِى طَالِبٍ

“Hər Peyğəmbərin bütün sirlərini bilən bir nəfər olur; Mənim bütün sirlərimi bilən Əli ibn Əbu Talibdir.”

## HƏZRƏT ƏLİ (Ə) MƏSUMLARIN NƏZƏRİNDƏ

1. Həzrət Fatimeyi-Zəhra (s.ə): "Əli can, canım sənə fəda olsun, canım, ruhum sənin bəlalarına sipər olsun. Ey Həsənin atası, biz həmişə səninləyik. Əgər sən xoş günlər içində yaşasan, mən sənin yanındayam. Əgər çətinlik və müsibətlərə düçar olsan, yenə səninləyəm".

2. İmam Cəfər Sadiq (ə): "Öz ailələrinizə Əli (ə) sevgisi tərbiyə edin."

3. İmam Məhəmməd Baqir(ə): "Allahın elçisi Əliyə (ə) min hərf öyrətdi ki, onların hər birindən digər min hərf anlaşılırdı."

4. İbn Həmzə Səmani: "İmam Baqirdən (ə) eşitmişəm: "Məhəmməd (s) öz Peyğəmbərlik dövranını qutardıqda və ömrünü sona çatdırdıqda Allah ona vəhy göndərdi: "Ey Məhəmməd (s), sən, həqiqətən, nübüvvətini başa çatdırdın, indi öz xanədanının elmini, imanını, elmi mirasını və əsərlərini Əli ibn Əbu Talibə ver."

5. Əbu Həmzə Sumali deyir: "İmam Baqir (ə) buyurdu: "Ey Əba Həmzə! Əlini (ə) Allahın qərar verdiyi məqamdan aşağı salmayın və Allahın qoyduğu yerdən yuxarı qaldırmayın. Mürtədlər və imandan azmışlar ilə müharibəyə qalxmaq və behişt əhlinin bir-birilə peyvənd etmək fəziləti Əli (ə) üçün bəsdir."

6. Əbu Əbdürrəhman İmam Sadiqdən (ə) rəvayət edir ki, Peyğəmbər (s) səfərlərinin birində atdan enib beş dəfə səcdəyə düşdü. Yenidən atın belinə qalxandan sonra səhabələrindən biri ondan soruşdu: "Bu gün Səndən elə bir əməl gördük ki, bu vaxta qədər görməmişdik. Cavab verdi: "Bəli, Həzrət Cəbrail (ə) mənim yanıma gəldi və mənə müjdə verdi ki, Əli (ə) behişt əhlindəndir. Mən bu nemətə şükür olaraq, Allaha səcdə etdim. Başımı səcdədən qaldıranda Cəbrail (ə) buyurdu: "Fatimə də behişt əhlindəndir." Mən yenə səcdə etdim. Yenə Cəbrail(ə) dedi: Həsən və Hüseyn behişt cavanlarının başçılarıdılar." Mən şükür üçün səcdəyə getdim. 4-cü dəfə Cəbraili-əmin (ə) xəbər verdi ki, "Hər kəs onları dost tutsa, cənnət əhlindəndir." Mən səcdə etdim. Nəhayət, başımı qaldıranda buyurdu: "Onların dostlarının dostu da behiştlikdir." Və mən bu nemətə də şükür edib səcdəyə düşdüm.[1]

7. Əbu Cəfər Sumali İmam Baqirdən (ə) rəvayət edir ki, Həzrət Rəsulullah (s) buyurub: "Qiyamət gunundə Allahın hüzurunda bəndə qədəmini qədəmindən götürməyəcək, ta ki ondan 4 şey barədə soruşulacaq: 1. Ömrünü nə ilə keçirmisən; 2. Mal-dövlətini nə yolda əldə etmisən; 3. Və nə yolda xərcləmisən; 4. Və bir də biz Əhli-beytin dostluğu barədə." Bir nəfər qalxıb soruşdu ki, "Ey Allahın Rəsuli, Sizin dostluğunuzun nişanəsi

[1] Şeyx Mufid. "Əmali", Məclis-3, hədis – 2

nədir?" Həzrət mübarək əli ilə Əlinin (ə) başını sığallayıb buyurdu: "Nişanə bu şəxsin dostluğudur."[1]

8. Şeyx Səduq (r.ə.) "Məaniyyul-Əxbar" kitabında Həzrət İmam Rzadan (ə), O da məsum imamlar təriqi ilə Peyğəmbərdən(s), O – Cəbraildən, O – İsrafildən, O – Mikaildən, O – Lövhdən, O – Qələmdən rəvayət edir ki, Allah-təala buyurub: "Əli ibni-Əbu Talibin vilayəti qaladır, hər kim bu qalaya daxil olsa, cəhənnəm odundan amanda qalar."

9. Şeyx Səduq (r.ə.) "Məaniyyul – Əxbar" kitabında Mübarək "Fatihə" surəsinin 6-cı "İhdinəs-siratəl-Müstəqim" ayəsinin təfsiri haqqında yazır: İmam Sadiqdən (ə) rəvayət olunur ki, "Siratəl-Müstəqim" – Əmirəlmöminin Əlidir (ə)."

10. İmam Zeynalabdin (ə) buyurub: "Kim Əli ibni-Əbu Talibin (ə) ibadəti kimi ibadət edə bilər? Əli (ə) kimi Allaha ibadət etməyə kimin qüdrəti çatar?"

11. İmam Hüseyn(ə) buyurub: Biz (Əhli–beyt(ə)) Allahın məğlubedilməz qüvvələri, Peyğəmbərinin yaxın itrəti, pak ailəsi və iki ağır yükdən biriyik. Allah öz kitabından sonra bizi qərar verib."[2]

12. İmam Hüseyn (ə) buyurur: "Biz Peyğəmbər (s) dövrində münafiqləri Əli (ə) və onun övladlarına kin bəsləmələri ilə tanıyırdıq."[3]

Əli sirrin nə bilsin hər münafiq,
Münafiq qibləsi şeytan deyilmi.[4]

13. İmam Həsən Müctəba(ə) buyurub: "Bu gecə elə bir kişi vəfat etdi ki, əvvəldəkilər onu əməldə qabaqlaya bilmədilər. Axırdakılar da onu əməldə dərk edə biməyəcəklər". Həzrət Əli (ə) vəfat edən gecə (hicri 40-cı il 21 Ramazan) İmam Həsən (ə) Məscidə gəlib minbərə çıxdı və xalqa müraciət edərək buyurdu: "Dünən gecə sizin aranızdan elə bir insan getdi ki, həm keçmişdəkilər, həm də gələcəkdəkilər arasında elm, təqva və davranışda yeganə və nümunəvi bir şəxsiyyət olub. Əlinin (ə) 700 dirhəmdən başqa dünya malından heç bir şeyi yox idi."

## HƏZRƏT ƏLİ (Ə) SƏHABƏLƏRİN GÖZÜ İLƏ

**Həssan ibn Sabit** – səhabə, şair.

"Mənə deyildi ki, Əlini(ə) Mədh edim, çünki onun tərifi cəhənnəm odunu söndürər. Dedim ki, mən onu mədh edə bilmərəm. Əli (ə) elə şəxsdir ki, ağıl sahibləri onun barəsində heyrətdə qalıb, ona pərəstiş etməyə başladılar."

---

[1] Şeyx Mufid. "Əmali", Məclis - 42, hədis 5
[2] " Ehticaci–Təbərsi", səh.299
[3] "Biharul–Ənvar", cild 39, səh. 302
[4] Şeir Ş.İ.Xətainindir.

“Əli (ə) – Rəsulullahın (s) qardaşı və kürəkənidir, kürəkənlik səhabəliklə bərabər deyil.”

“Əli ibn Əbu Talibin (ə) məhəbbəti olmadan heç tövbəkarın tövbəsi qəbul edilməz.”

**Zeyd ibn Ərqəm** – səhabə.

“Allah Rəsulu (s) ilə birgə namaz qılan ilk şəxs Əli ibn Əbu Talibdir (ə).” Əli (ə) xəlifə seçilərkən Zeyd onu belə təbrik edir: “Xilafət səni zinətləndirmədi, sən xilafəti qəbul etməklə onu zinətləndirdin. Xilafət səni ucaltmadı, sən onu ucaltdın. Xilafət sənə, sən ona möhtac olduğundan daha cox ehtiyaclıdır.”

**Səlmani-Farsi** – səhabə.

“Əgər Əli (ə) sizin aranızdan gedərsə, Peyğəmbərinizin sirlərindən sizə deyən birisi tapılmaz.”

**Əbuzər Qəffari(r.ə)** – səhabə

“Siz və sizin seçdikləriniz Peyğəmbərin (s): “Xəlifəlik məndən sonra Əlinin (ə), sonra oğlanları Həsən və Hüseynin və nəhayət, onların pak sülaləsinə aiddir”, – dediyini yaxşı bilirsiniz.”

**Hudəyil Bin Cünadə** deyir: “Əbu Bəkrin yanında oturmuşdum ki, bir nəfər gəlib dedi: “Ey Peyğəmbər canişini! Həzrət Rəsul (s) vədə vermişdi ki, mənə 3 ovuc xurma verəcək.” Əbu Bəkir dedi: “ Əlini çağırın! Əli gəldi, Əbu Bəkir dedi: “Ey Əbül Həsən, bu kişi deyir ki, Peyğəmbər (s) ona 3 ovuc xurma vəd verib. Ona 3 ovuc xurma ver.” Həzrət Əli (ə) öz əli ilə 3 ovuc xurma götürüb o kişiyə verdi. Əbu Bəkr dedi: “Xurmaları sayın.” Saydılar və gördülər ki, hər ovucda 60 xurma var. Əbu Bəkr dedi: “Peyğəmbər (s) düz buyurmuşdur. Hicrət günü Məkkədən Mədinəyə getmək üçün çıxanda dedi ki, Mənimlə Əlinin ovcu ədalətdə bərabərdir.”[1]

**Səid Bin Museyd** deyir: “Eşitdim ki, bir nəfər İbn Əbbasdan Əli bin Əbu Talibin barəsində soruşdu: “Əli bin Əbu Talib iki qibləyə (Beytül–Müqəddəs və Kəbə) namaz qıldı, iki beyətdə (hicrətdən əvvəlki beyət və Rizvan beyəti) iştirak etdi, heç vaxt bütə pərəstiş etmədi, qumar oynamadı. O pak Tovhid əqidəsi ilə dünyaya gəldi və göz qırpımı həddində də olsa, şirkə bulaşmadı.”[2]

**Cabir ibn Əbdullah Ənsari** nəql etmişdir ki, Peyğəmbəri-Əkrəm (s) belə buyurmuşdur: “Cəbrail Allah tərəfindən bir yaşıl vərəq əlində mənim yanıma gəldi və o vərəqdə ağ xətlə belə yazılmışdı: “Mən Əli ibn Əbu Talibin məhəhəbbətini xəlq etdiklərimin hamısına vacib etdim! Bunu camaata catdır və təbliğ et.”

---

[1] Məclis-35, hədis-1

[2]Məclis 27, hədis-6

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Zeyd ibn Ərğəm** deyir: “Bir gün İslam Peyğəmbəri (s) öz dostlarına buyurdu:” Məscidə açılan bütün qapıları, Əlinin evinin qapısından başqa, bağlayın. Bəziləri bu işə etiraz etdilər. Sonra Allahın Peyğəmbəri (s) ayağa durdu, Allaha həmd-səna etdi, buyurdu: “Mən Əlinin (ə) qapısından savayı bütün qapıları bağlamaq əmri almışam. Amma bir nəfər bununla əlaqədar etiraz etdi. And olsun Allaha, mən özbaşıma bir qapını bağlamamışam və başqasını açıq qoymamışam. Lakin Allah mənə bu işi görməyi əmr etmişdir.”

İbn Abbasdan nəql olunmuşdur ki, “sizin qapılarınızı Allah bağladı.”[1]

**Əbu Hüreyrə** - səhabə:

“Allahın Peyğəmbəri (s) iki qrupu hərbi məmuriyyətə göndərdi. Əli ibni-Əbu Talibi (ə) bir qrupa əmr və sərkərdə, Xalid ibn Vəlidi isə o biri qrupa sərkərdə seçib belə buyurdu: “Əgər bu iki qoşun bölməsi bir-birinin yanında olsalar, Əli (ə) hamısına imam və əmrdir və əgər bir-birindən ayrılsalar, hər biri öz qoşununun sərkərdəsidir.” Əbu Hüreyrə deyir: “Biz Bəni-Zübeyrlə vuruşduq və hər iki dəstə yanaşı döyüşdük. Düşmənə qalib gəldik və onları əsir aldıq. Əli ibni-Əbu Talib (ə) əsirlərdən birini özü üçün seçdi. Xalid məni Peyğəmbərin (s) yanına göndərdi ki, onu Əlinin (ə) bu işindən xəbərdar edim. Peyğəmbərin (s) hüzuruna yetişdim, hadisəni o Həzrətə çatdıran kimi dedim: “ Ey Rəsulallah, öz vəzifəmi yerinə yetirdimmi? Buyurdu: “Əli (ə) barəsində heç bir söz deməyin, çünki o məndən, mən də ondanam və o, məndən sonra mənim canişinim və vəlimdir.”[2]

Səhabələrdən biri.

“Heç bir kəs Əli (ə) ilə müqayisə olunmaq qabiliyyətinə malik deyildir.”

## XƏLİFƏLƏR ƏLİ (Ə) BARƏSİNDƏ

***1. Əbu Bəkr – 1-ci Xəlifə:***

“Hər kəs Peyğəmbərə (s) hamıdan yaxın və əziz, fəzilətcə hamıdan üstün olan şəxsi görmək istəsə, Əli ibn Əbu Talibə(ə) baxsın.”

Səqifədə Əbu Bəkr xəlifə seçilir. Ertəsi gün xalqa üz tutub deyir:

“Məni rahat buraxın. Mən sizin ən xeyirliniz deyiləm, Əli (ə) sizin aranızdadır. Əli (ə) Allaha ən yaxın, mənzilət nəzərindən ən üstün və fədakarlıq cəhətindən ən yüksək şəxsdir.”

***2. Ömər ibn Xəttab – 2-ci Xəlifə:***

“Əli (ə) aramızda ən yaxşı hökm edəndir. Biz Peyğəmbər (s) zamanında Əliyə (ə) ulduza baxdığımız kimi baxırdıq.”

---

[1] Əhməd ibn Hənbəl, “Musnəd”, 4-cü cild, səh. 369; İbn Məğazili, “Mənaqib”, səh. 257; “Hənabül-Məhəbbət”, səh. 282

[2] Əhməd ibn Hənbəl, “Musnəd”, cild 5, səh. 350

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Əli olmasaydı, Ömər həlak olardı. İlahi, Əbu Talibin oğlu olmayan yerdə məni yaşatma!"

Ömər ibn Xəttab müxtəlif hadisələrlə əlaqədar 70 dəfə bu sözü deyib:

"Əgər Əli olmasaydı, Ömər hökmən həlak olardı."[1]

"Qədir-Xum" günündə Əlini (ə) belə təbrik etdi: "Bəh–bəh, ey Əbu Talib oğlu! Mənim və bütün Müsəlman kişi və qadınların mövlası oldun!"

Ömər ibn Xəttab: "Kaş, Əliyə (ə) nəsib olan o, 3 fəzilət mənə nəsib olaydı:

1. Peyğəmbər (s) öz qızını ona verdi;

2. Əlinin (ə) evindən başqa qapısı məscidə açılan bütün evlərin qapıları bağlandı;

3. Xeybər müharibəsində Peyğəmbər (s) bayrağı Əliyə verdi."[2]

***3. Osman ibn Əffan – 3-cü Xəlifə.***

3-cü xəlifə də Ömər kimi, xilafət dövründə dəfələrlə (72 dəfə) Əli-dən (ə) məsləhət alaraq demişdi: "Əli (ə) olmasaydı, Osman həlak olardı."

***4. Ömər ibn Əbdüləziz – Əməvi Xəlifəsi*:**

"Bu ümmət içində Peyğəmbərdən (s) sonra Əlidən (ə) daha zahid şəxs görünməyib."

## MƏZHƏB BAŞÇILARI ƏLİ (Ə) BARƏSİNDƏ

***1.İmam Əhməd ibn Hənbəl – Hənbəli Məzhəbinin banisi.***

İmam Hənbəlin oğlu deyir ki, atamdan səhabələrdən hansının əfzəl olduğu barədə soruşdum. Atam Əbu Bəkrin, Ömərin, Osmanın adlarını çəkib susdu. Dedim: "Ata, bəs, Əli ibn Əbu Talibin (ə) məqamı necədir? Niyə onun adını çəkmədin?" Atam cavab verdi: "Əli (ə) Peyğəmbər (s) xanədanındandır. Onu saydığım adamlarla müqayisə etmək olmaz."

Başqa bir yerdə Əhməd ibn Hənbəl deyir: "Əlinin (ə) haqqında olan tariflər qədər heç bir səhabənin haqqında tarif deyilməmişdir."

***2.İmam Şafei – Şafei məzhəbinin banisi.***

Əliyə (ə) həsr etdiyi bir şeirdə yazır:

*"Yuhibbü Əliyyən la übali vəin fəşa:*
*Və zalikə fazilullahi yutiyhi mən yəşa,*
*Ənə Əbdün li fətən ünzilə fihi həl əta."*

[1]"Sünəni-beyhəqi " cild 7, səh. 442
[2] "Müsnədi- Əhməd" cild 2, səh. 26

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Tərcüməsi: “Əlini sevirəm, Onun düşmənlərindən qorxmuram ki, bu aşkar olar. Bu sevgi Allahın fəzlidir.Hər kimə istəsə, verər. Mən o cavanın quluyam ki, onun şəninə “Həl-Əta” surəsi nazil olub.”

Ölüm ayağında demişdir: “Şafei öldü, bir halda ki aydınlaşdıra bilmədi, onun Rəbbi Əlidir (ə), yoxsa Allah?!”

*“Əliyyun Hübbühü cünnəh,*
*Qəsimun nari vəl cənnəh.*
*Vəsiyyi Mustəfa həqqa,*
*İmamül insi vəl cinnə.”*

Tərcüməsi: “Əlinin sevgisi cəhənnəm alovunun sipəridir. Cəhənnəm və behişti bölən Əlidir. Muhəmməd-Mustəfanın həqq olan vəsisi Əlidir. İns və cinnin İmamı Əlidir.”

***3. İmam Malik – Maliki məzhəbinin banisi:***

*“Ənə əbdul – lil – fəta unzilə fihi “həl - əta”,*
*İla məta əktumuhu ila məta.”*

Tərcüməsi: “Mən elə bir cavana qulam ki, onun haqqında “Həl-Əta” surəsi nazil olmuşdur.Haçana qədər onun haqqını gizlədəcəyik.

Gizlədəcəyik, nə vaxta qədər?”

***4.Əbu Hənifə – Hənəfi məzhəbinin banisi.***

İmam Cəfər Sadiq (ə) Əbu Hənifəyə buyurdu:

“Eşitmişəm ki, Sən “Sonra da həmin gün (qiyamət günü) (Allahın dünyada sizə əta etdiyi) nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız”[1] ayəsini belə təfsir edirsən: “Allah insanları yay fəslində yedikləri dadlı yeməklər və içdikləri sərin sular barədə sorğu-suala çəkəcək.”

Əbu Hənifə: “Düzdür, mən bu ayəni bu cür təfsir etmişəm.”

İmam(ə): “Əgər bir nəfər səni evinə qonaq aparıb qarşına dadlı yemək və sərin su qoya, sonra bu işinə görə sənə minnət qoyarsa, bu adam barəsində necə fikirləşərsən?

Əbu Hənifə: “Deyərəm ki, xəsis adamdır.”

İmam (s): “Allah xəsisdirmi?” (Yəni, bizə bəxş etdiyi yeməklər barədə bizi sorğu-suala çəkər?)

Əbu Hənifə: “Bəs, Quranın “insanlar onlar barədə sorğu-sual olunacaqlar”, - dediyi nemətlərdən məqsəd nədir?

İmam Sadiq (ə): “Ondan məqsəd biz, Əhli-beytin(ə) dostluğudur.”[2]

---

[1] “Təkasur” surəsi, ayə 8
[2] “Biharul-Ənvar.” cild 10, səh. 22

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## HƏZRƏT ƏLİ (Ə) DÜŞMƏNLƏRİN GÖZÜ İLƏ

***1. Müaviyə ibn Əbu Süfyan – Əməvi xəlifəsi:***

"Peyğəmbərdən (s) sonra insanların ən yaxşısı Əlidir(ə). Əgər insanları yer hesab etsək, Əli (s) onların başı üzərində asiman kimidir."

"Vallahi, əgər bütün insanların dilləri bir yerə cəm olsa, təkcə Əlinin (ə) dili onlara cavab verməyə bəs edər. Əlinin (ə) səxavəti o qədərdir ki, əgər bir anbar qızılı, bir anbar da samanı olsa, qızılı samandan əvvəl sədəqə verər."

"Əli ibn Əbu Talib (ə) kimi oğlu dünya qadınları bir daha doğmazlar."

Göründüyü kimi, ən böyük düşmənlərindən biri olan Müaviyə ibn Əbu Süfyan Əlinin (ə) sözlərinin xarüqüladə olan fəsahət və gözəlliyini etiraf etmişdir. Üməyyə övladlarının (Bəni-Üməyyənin) qəlbləri Əliyə (ə) qarşı ədavətlə dolmuşdu. Xeyirxah adamlardan bir dəstə bu işdən əl çəkməyi Müaviyəyə dedikdə, Müaviyə belə cavab verdi: "Bu işi o qədər davam etdirəcəyəm ki, uşaqlarımız bu fikirlə böyüsünlər, böyüklərimiz bu fikirlə qocalsınlar."

Həzrət Əliyə (ə) bu cür böyük düşmənlik bəsləyən Müaviyə deyir: " "Ey Əli, əgər dünyanın Şərqi və Qərbi səninlə mübarizəyə qalxsa, Sən onların hamısını həlak edərsən."

"Allah Əliyə rəhmət etsin, özündən öncə yaşayanlardan önə keçdi və gələcəkdə olanları da aciz buraxdı."[1]

Əlinin (ə) ölüm xəbərini eşidəndə dedi: "Dünyanın dovşanlarına deyin ki, harda istəyirlər, otlasınlar. Ona görə ki, Müharibələrin şiri dünyadan köçdü."

Əbu Hüreyrə Muaviyənin zəngin süfrəsi başında oturub deyirdi:

"Muaviyə sənin süfrən zəngindir, Əlinin (ə) isə ibadəti zəngindir."

***2.Əmr ibn As – Müaviyənin vəziri:***

"Əlinin (ə) zərbələri Qədir-Xum günündəki beyəti kimi camaatın boynundadır. Əli (ə) xalis dürr və qızıldır, qalan camaat isə torpaqdır."

***3.Mərvan ibn Həkəm:***

"Osmanı heç kim Əli qədər müdafiə etmədi." Ona etiraz edib deyəndə ki, Əli barəsində belə etiqadın ola-ola, bəs, nə üçün onu pisləyirsən? Mərvan dedi: "Bizim hökumətimizin bünövrəsi yanlız Əlini alçaldıb, onu söyüb lənətləməklə möhkəmlənib qüvvətlənər."

---

[1] "Nəsixut – Təvarixi-İmam Baqir."cild 7, səh.134

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## HƏZRƏT ƏLİ (Ə) ALİMLƏRİN NƏZƏRİNDƏ

***1. Xəlil ibn Əhməd – əruz elminin banisi*:**

“Dostları qorxudan və düşmənləri ürəklərindəki həsəddən onun fəzilətlərini gizlətdilər. Bununla belə, Əlinin (ə) şöhrəti Şərqi və Qərbi bürüdü.”

***2. Şəbi – alim:***

“Bu ümmət içində Əli ibn Əbu Talib (ə) Bəni-İsrail içində Məryəm oğlu Məsih (ə) kimi idi. Bir dəstə onu sevdi və bu sevgidə ifrat edib kafir oldu. Bir dəstə də onu inkar etdi və bu düşmənçilikdə küfrə bulaşdı.”

***3. Şeyx Bəhai Amuli – İslam alimi*:**

“O, alicənab bir insan idi.Onun ehtiramı və böyüklüyünü saxlamaq üçün xaçpərəstlərin İsa Məsih haqqında dediklərindən əlavə də nə istəsən, deyə bilərsən. Peyğəmbərin (s) Qədir-Xum bayramında xalqa rəhbərlik etməyi tapşırdığı adam həmin şəxsiyyət idi. O, bunu Tanrı əmri ilə etdi və məsələni aydınlaşdırdı. O, məxluqatın sevimlisi və əzizi, insanların ən şöhrətlisi idi. O, nəsil və əsil-nəsəb baxımından ən pak bəşər övladı idi ki, Qureyş qucağında böyümüşdü.”

***4. Seyyid Şərif Rəzi – islam alimi:***

“Əlinin (ə) sözləri fəsahət çeşməsi və bəlağət qaynağıdır. Bəlağət elminin sirləri və qaydaları Əlidən (ə) bəhrələnib, öz qanunlarını ondan iqtibas edib. Hər bir söz ustadı onun ardınca getdi və hər bir söz anlayan vaiz ondan kömək aldı. Lakin heç kəs ona yetişmədi, ondan geri qaldı, çünkü onun kəlamında Tanrı bilgisindən nişanə, Peyğəmbər (s) sözünün ətri və qoxusu vardı.”

***5. Həsən Bəsri – Kəlam elminin ustadı:***

“Allaha and olsun ki, Əli (ə) Allahın düşmənə tuşlanmış möhkəm oxu idi. Ümmətin seçilmiş üstün alimlərindən və Peyğəmbərin (s) ən yaxınlarından idi. Allahın əmrlərinin icrasında süstlük göstərmədi, dininə görə tənbeh olunmadı, Allahın mülkünə xəyanət etmədi. Quranın vacibatını yaxşı qorudu, bununla da əbədi cənnət bağçalarına yol açdı.”

***6. Şeyx Məhəmməd Əbdül – İlahiyyatçı alim:***

“Ərəbdilli camaatı içərisində belə bir adam yoxdur ki, bu fikri təsdiqləməmiş olsun: “Quran və Peyğəmbər kəlamından sonra Əlinin (ə) sözləri ən şərafətli, mənalı və əhatəli sözlərdir”.

***7. İbn Əbil-Hədid – “Nəhcül-Bəlağə”nin şərhçisi, şair:***

“Peyğəmbərdən (s) sonra Əli (ə) insanların ən üstünü, bütün müsəlmanların içində xilafətə ən layiq olandır”. “Əli (ə) fəsahətlilərin imamı, bəlağətlilərin ağasıdır. Onun kəlamları barəsində deyirlər ki, Allah kəlamından alçaq, məxluq kəlamından yüksəkdir.Camaat xitabət və kitabəti (yaxşı danışmaq və savadlı yazmaq) ondan öyrənir. Hamı bilir ki, Ərəb

nəhvini və məbainini Əli (ə) yaradıb. Bu elmlərin prinsip və qaydalarını bəyan edib və Əbül-Əsvəd Dueliyə öyrədib.”

***8. Mənaqib – VII əsr alimi*:**

“Əlinin (ə) fəzilətləri barəsində əsər yazmaq istərkən, bu böyük şəxsiyyət haqqında əlimdə mindən çox kitab var idi.”

***9. Xətib Xarəzmi – fəqih, hənəfi xətibi:***

“Əli Əbu Türab kimi alicənab bir adam varmı? Yer üzərində onun kimi pak təbiətli bir rəhbər tapılarmı? Əli (ə) o adamdır ki, gecəni mehrabda ağlayırdı, ürəyinin dərinliyində coşub-çağlayırdı, gündüzlər şad və gülər üzlə toz-torpaq dolu döyüş meydanına gedirdi. O, müsəlmanların beytül-malından olan sarı və qırmızı rəngli daşlara (qızıl və cəvahirat) etinasızlıqla baxırdı, əlləri boş idi. O, Peyğəmbərlə çiyin-çiyinə gələn və büt sındıran bir adam idi. Bir sözlə, demək lazımdır ki, Əli (ə) bizim mövlamızdır, elə bir tutumlu cəvahirdir ki, biz – qalan adamlar onun üst qlafıyıq.”

***10. Xacə Nəsirəddin Tusi – filosof-riyaziyyatçı*:**

“O, hamıdan bilikli idi, güclü hafizəsi və duyum qüdrəti vardı. Hamıdan çox bəxşiş edirdi. Peyğəmbərdən (s) sonra ən pəhrizkar abid və fərzanə bir insan idi. İmanı hamıdan öncül və sözü hamıdan fəsahətli idi. Rəyi hamıdan möhkəm olmaqla bərabər, Tanrı kitabını hifz etməyə və onun ehkamlarını yerinə yetirməyə hamıdan çox diqqət yetirirdi. Dostluq və köməyi vacib, rütbəsi isə Peyğəmbərlə bərabər idi. O, feyz qaynağı, feyz çeşməsi idi ki, alimlər öz biliklərini ona istinad edirdilər.” “Əli (ə) elə bir böyük şəxsiyyətdir ki, ruzigarın anası ömrünün sonunadək ona bənzərini doğmayacaq, elə bir qaynaqdır ki, həqiqət və hidayət tələb edənlər onun xəbər və danışıqlarının sorağına düşsələr, ona aid olan hər bir xəbərdən parlaq bir şey tapacaqlar. O, kamal mücəssiməsidir ki, bəşər qəlbində yer tutmuşdur.”

***11. Əllamə Təbatəbai – İslam alimi:***

“Əmirəl-möminin tarixin şahidliyinə, dost və düşmənlərinin etirafına görə, insani kamal baxımından nöqsansız idi, islami fəzilətlər baxımından İslam Peyğəmbərinin tərbiyəsinin kamil nümunəsi idi. Onun şəxsiyyəti ətrafında olan bəhslər, onun barəsində yazılan kitablar heç bir tarixi şəxsiyyət haqqında olmayıb. Əli (ə) elm və bilikdə Peyğəmbər-Əkrəmin (s) və bütün başqa İslam əhlinin ən bilici dostlarından idi. O, İslamda öz elmi bəyanatında azad və məntiqli dəlillərin qapısını açan ilk adamdır. İlahi maarifdə fəlsəfi mübahisə, ərəb dilinin qaydalarını yaratmışdı, sözdə və şücaətdə zərbül-məsəl kimi tanınırdı, döyüşlərdə heç vaxt qorxaqlığa qapılmır və iztiraba düçar olmurdu. Ühüd döyüşündə, Xeybər və Xəndək vuruşlarında Peyğəmbərin dostları və hərbçiləri qorxudan titrədilər, lakin Əli (ə) heç vaxt düşmənə arxa çevirmədi və bütün qüdrəti ilə İslamı himayə və müdafiə etməyə girişdi.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***12.Əllamə Əmini – tədqiqatçı alim, 11 cildlik "Əl – Qədir" kitabının müəllifi:***

"Əli əziz Kəbənin qucağında doğuldu, təkallahlıq evini büt və bütxana əsər-əlamətlərindən pak etdi. Tanrı evində (Kufə məscidində) öz pak qanı ilə Tovhid və ədalətin ən görkəmli şüarını mehraba yazarkən təlatümlü ruhu göylərin ənginliklərinə doğru pərvaz etdi. Tanrı evində dünya səhnəsinə açılmış gözü Tanrı evində də bağlandı. Onun həyatı bu iki fasilə arasında keçib getdi. Elə bil üluhiyyət Şərqindən bir ışıq doğdu, nur saçdı, bu işıq həmişə layəzal başlanğıcına, İlahi sonsuzluğa yönəlmişdir, nəhayət, bu işıq əbədiyyət məğribinin qucağında sönüb getdi." Zənnimcə, Əlini (ə) sevməyən insan yoxdur. Əlini (ə) tanımayan insanlar var. Çünki Əlini (ə) tanıyıb, ona vaqif olub, onu sevməmək mümkün deyil. O, ideal bir insandır. Onu tək halda təsəvvür etmək olmur. O bir güldür, bu baxımdan dost da, düşmən də, qəlbində sevgisi olan da, olmayan da bu varlığın qarşısında acizliyini, kiçikliyini duymuş, axirətdə üzüqarə olmamaqçün və Əlinin (ə) onları bağışlaya biləcək qədər böyüklüyünü bildikləri üçün həqiqəti deməyə məcbur olmuş, Əlinin (ə) haqq olduğunu bəyan etmişdir. Bu dünyanın imtahan dünyası olduğu aydındır. Bəzən bu dünyada da cənnət və cəhənnəm olduğunu deyirlər. Bu batil fikrə cəmi bircə bəraət var. O da bundan ibarətdir ki, bu dünya Əlini (ə) sevənlər üçün cənnət, Əlinin (ə) sevgisindən uzaq olanlar üçün isə cəhənnəmdir."

***13.Ustad Şəhid Murtəza Mütəhhəri:***

"Əlinin bütün vücudu, Əlinin tarixi və həyat tərzi, Əlinin (ə) əxlaq və davranışı, Əlinin rəngi, ruhu və nəfəsi, Əlinin (ə) danışıq və söhbəti dərsdir, örnək qaynağıdır, təlim-tərbiyədir, rəhbərlikdir."

***14.Məhəmməd Əbülfəzl İbrahim – tədqiqatçı alim:***

"İmam Əli ibn Əbu Talibin (ə) şəxsiyyətində o qədər kamal, xoşa gələn cəhətlər, ruhi əzəmət, təkamul nuru, uca şərafətlə yanaşı, pak fitrət və ilahi nəfs də cəm olmuşdur ki, böyük insanların heç birində bunları görmək mümkün deyildir."

***15. İbn Sina:***

"Ən şərafətli insan, Peyğəmbərin ən əzizi və sonuncusu belə dedi: "Ey Əli (ə), insanlar çox ibadət etməkdən əziyyət çəkirlər, sən mütləq həqiqəti dərk etmək üçün əziyyət çək ki, hamıdan üstün olasan." Həzrət Peyğəmbər (s) o böyük və imanlı şəxsdən başqa heç kəsə belə müraciət etməmişdir, çünki O, yaradılmışların arasında ən müdrik bir şəxs idi. O, əqlin bəsirət gözü ilə sirləri dərk edirdi, bütün həqiqətləri tapmaq, görmək əsasında hökm verirdi və buna görə idi ki, deyirdi: " "Əgər aradakı pərdə götürülsə, mənim bildiklərimə elə mühüm bir şey əlavə olunmaz."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***16. Akademik Hacı Vasim Məmmədəliyev:***

“Bir zatın, bir kimsənin ki, qiymətini Allah-təala öz kitabında verə, Peyğəmbər (s) öz hədislərində ifadə eləyə, mənə elə gəlir ki, ondan böyük qiymət yoxdur. Bir zatın haqqındakı, Həzrət Peyğəmbərin (s) “Mən elm şəhəriyəm və Əli (ə) onun qapısıdır” kimi hədis buyurubsa bu, Həzrət Əlinin (ə) elminə və helminə, şəxsiyyətinə verilən ən böyük qiymətdir. Bir şəxsin ki comərdliyi, səxavəti, ədaləti Qurani-Kərimin surələrində, ayələrində vəsf oluna, insan dili onu vəsf etməkdə, təbii ki, acizdir. Buna görə də Həzrət Əlinin (ə) haqqını layiqincə verməyən qiyamət günü Allah-Təalanın qəzəbinə düçar olar. Ona görə belə böyük bir şəxsiyyətin qiymətini vermək məsələsinə həddindən artıq ağılla, dərrakə ilə, elmlə yanaşmaq lazımdır və Həzrət Əlinin (ə) qiymətini Quran ayələri işığında, Peyğəmbərin (s) hədisləri işığında vermək lazımdır. Onun böyüklüyünü, şəxsiyyətini, ədalətini, mərdliyini, Peyğəmbərdən(s) sonra İslam dininin saflığını, ülviyyətini qoruyub saxlamaq və ümmətə təqdim etmək sayəsində xidmətlərini olduğu kimi, şişirdib–gizlətmədən insanlara çatdırmaq lazımdır.”

***17. Ayətullah Muhəmməd Fazil Təbrizi Mərəndid:***

“Əli (ə) haqqında danışmaq o qədər də asan deyil. O, sonsuz bir dənizdir. İnsan fəhmi, ağlı, düşüncəsi o qədər kiçikdir ki, Əlini nə dərk edə, nə tərifə çəkə bilər. Əli (ə) elə bir dəryadır ki, Bəşərin o dəryanın sahillərinə iz qoyub Əlinin (ə) kimliyinə nəzər yetirmək qüdrət və qüvvəsi yoxdur.”

***18. Bənazir Bhutto – Pakistanın keçmiş naziri:***

“Həzrət Əli (ə) öz qılıncını və elmini İslam yolunda işlətdi. Bütün ariflər və böyük şəxsiyyətlər onun yaşayışını özləri üçün nümunə bilmişlər.”



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## HƏZRƏT ƏLİ (Ə) QEYRİ-MÜSƏLMAN ALİMLƏRİNİN GÖZÜ İLƏ

***1. Cübran Xəlil Cübran – Livan alimi.***

Həzrət Əlinin (ə) haqqında bu xaçpərəst yazıçı yazır: "Mənim əqidəmcə, Əbu Talibin övladı ilk ərəbdir ki, Ruhi-Küllün yaxınlığını, zəruriliyini və insanla qırılmaz əlaqəsini əsas kimi götürmüşdür. Əli (ə) həmin ruhla gecələr ünsiyyət saxlayır və sirdaşlıq edirdi. O ilk ərəb idi ki, Ruhi-Küllün ahəngini xalqın qulağına pıçıldayırdı, xalq isə bundan qabaq belə bir nəğmə eşitməmişdi. Beləliklə, adi xalq onun işıq saçan bəlağət yollarının ortasında öz keçmişlərinin qaranlıqlarına görə heyran qaldı. Hər bir kəs ona könül bağladı, ona heyran oldu, cahiliyyət və nadanlıq övladları isə ona düşmən kəsildilər."

***2. Corc Cordaq – yazıçı.***

Bu xaçpərəst yazıçı 5 cildlik bir əsərdə Əlinin (ə) şəxsiyyəti və fədakarlığı haqda təhlillər aparmış, Əli (ə) barəsində belə yazmışdır: "Tarixin yanında həqiqət və gerçəklik bu cürdür ki, istər onu tanıyasan, istərsə də tanımayasan, fərq etməz. Adlı-sanlı şəhid, şəhidlərin böyük atası Əli (ə) ibni-Əbu Talib (ə) insan ədalətinin səsidir. Şərqin əbədi şəxsiyyətidir. Bu həmin Əli ibn Əbu Talibdir (ə) ki, ölüm və döyüşün tamami ilə başqa mənasını dərk etmiş və anlamışdır. O, başqa niyyət və qəsdlə vuruşmurdu, bu niyyət başqalarından fərqli idi. Səmimi zövq və halallıqla cihad yolunu seçdi, çarəsizlərə və kimsəsizlərə məhəbbət göstərməklə qalaları fəth etdi, ədalət və insaf düşmənlərinin sarayını yerlə yeksan etdi. O, əxlaqi kəramət və ali insani sifətlər baxımından yüksək kamil bir zirvəyə yetişmişdi. "Ey dünya! Nə olardı ki, bütün qüdrət və gücünü işə salaydın və həmin ağılla, həmin qəlblə, həmin dillə, həmin Zülfüqarla aləmə təzə Əli (ə) bağışlayaydın."

***3. Tomas Karlayl – alim-yazıçı***.

Bu, məhşur ingilis filosofu və alim-yazıçı Əlinin (ə) şəxsiyyəti və tarixi əzəməti haqqında yazır:

"Lakin Əli (ə)... haqqında bizə təkcə bu qalır ki, onu sevək, ona məhəbbət bəsləyək. O, böyük və alicənab şəxsiyyət idi. Onun vicdan çeşməsindən xeyir və yaxşılıq qaynayırdı, ürəyindən qəhrəmanlıq və təlatüm şölələri alovlanıb qalxırdı. O, aslandan da şücaətli idi, lakin bu şücaət lütf, səfa və rəhmət dolu bir ruhla qarışmışdı, incə, insani buyruqlar həlimlik və yüksəklik hissləri ilə dolu idi. "O, Kufə şəhərində qəflətən vuruldu, hiylə ilə şəhadətə yetirildi. Bu cinayətin törəməsi onun ədalətinin hədsiz dərəcədə çox olması ilə bağlı idi, çünki o, hər bir kəsi özü kimi adil hesab edirdi. Ölüm yatağına düşdüyü zaman qılıncla onu yaralayan adam haqqında dedi: "Sağ qalsam, özüm bilərəm, nə edərəm, ölsəm, özünüz bilərsiniz, əgər qisas istəsəniz, bir qılınc zərbəsinin müqa-

bilində siz də təkcə bir zərbə vurun. Ümumiyyətlə, qisasdan keçsəniz, təqvaya daha yaxındır.”

***4. Şibli Şüməyyil – ərəb alimi.***

Materialist filosofdur, kommunist məntiqinə malikdir, ateistdir, metafizikanı inkar edir. O, Əli (ə) haqqında belə deyir:

“İmam Əli ibni-Əbu Talib (ə) böyüklərin böyüyü, zamanın yeganə şəxsiyyəti idi. Qərb və şərq dünyasında, keçmişdə və indiki vaxtda öz əslinə tam bənzər olan ikinci belə bir şəxsiyyət görünməmişdir.”

***5. Qabriyel Dandi – məşhur Fransa yazıçısı və təbliğatcısı.***

Bu alim öz qiymətli əsərində İmam Əlinin (ə) əzəmətli şəxsiyyəti haqqında şövq və həyəcanla, özünə xas bir heyrətlə belə yazır: “Əli məharətli xətib, güclü yazıçı, ali rütbəli qazi hesab edilir ki, mənəviyyat məktəbləri yaradanların və özül qoyanların ilk cərgəsində özünə görkəmli yer tutmuşdur. Onun yaratdığı məktəb aydınlıq, aşkarlıq və məntiqi möhkəmlik baxımından, həmçinin, tərəqqi, yeniləşmə və daim inkişafda olması baxımından fövqəladə əhəmiyyətə malikdir.

Əli iki müstəsna xüsusiyyətə malik olub ki, bu cəhətləri tarixin böyük qəhrəmanlarının heç birində tapmaq olmur: 1-cisi budur ki, Əli “İmam” və “qəhrəman” adının hər ikisinin daşıyıcısı olmaqla yanaşı, eyni zamanda, məğlubedilməz sərkərdə, alim və ilahiyyat bilicisi, İslamın başlanğıc dövrünün ən fəsahətli xətiblərindən sayılırdı; 2-ci xüsusiyyət budur ki, Əli (ə) sünni və şiə məzhəbli müsəlmanlar tərəfindən İslamın sitayiş və ehtirama layiq olan ən iftixarlı şəxsiyyəti kimi tanınmışdır. Bundan əlavə, bu günə qədər İslam xalqlarının, arasında təfriqə və ayrılıq olan bütün firqələr və məzhəbləri tərəfindən rəhbər kimi qəbul edilmişdir.”

***6. Volter – XVIII əsr görkəmli fransız yazıçısı, filosofu və dramaturqu.***

“Qədir-Xum” barədə söylədiklərindən:

“Xalqların adət-ənənələri haqqında” adlı kitabında müəllif Əlinin (ə) haqqında mühüm sənədlərə toxunaraq yazır: “İslam Peyğəmbərinin sonuncu istək və iradəsi yerinə yetmədi. O, ölüm yatağında olarkən Əlini öz canişini seçmişdi, lakin onun vəfatından sonra bu istək həmin əsrin bir sıra nüfuz sahibləri tərəfindən nəzərə alınmadı.”

Müəllif bu kitabında Həzrət Əlinin (ə) xəlifəliyinin qanunilik baxımından sənədləşdiyini göstərmişdir. Eyni zamanda, yazıçının əqidəsinə görə, İslam Peyğəmbəri əmisi oğlu və kürəkəni olan Əlinin canişinliyini açıq-aydın və qətiyyətlə vəsiyyət etmişdir.Hətta ölüm yatağında olarkən öz səhabəsindən qələm və mürəkkəb istəmişdir ki, yazılı surətdə Əlini canişin kimi təqdim və təsdiq etsin.

***7. Süleyman Kəttani – yazıçı.***

Bu xaçpərəst yazıçı ömrünün ən gözəl illərini o böyük azadlıq rəhbərinin həyatını tədqiq etməyə, bu nadir şəxsiyyətin tanıdılmasına

sərf etmişdir. Onun “Əl imam Əli” adlı dəyərli kitabı Əlinin tərifinə həsr olunmuşdur. Bu kitab tarixilik və elmilik baxımından böyük dəyəri ilə yanaşı, bədiilik nöqteyi-nəzərindən də əsrimizin ən gözəl əsərlərindən biridir. Bu əsərin peşəkar bədii üslubu elə səviyyədədir ki, yalnız mahir ərəb ədəbiyyatçıları, fəzilətli hünər sahibləri, alim-ədiblər və bu fənnin mütəxəssisləri, bəlkə, onun dərin mənalarını anlamağa qadir olarlar. Bu xaçpərəst yazıçı yazır:

“İmam Əli (ə) barəsində söz söyləmək – Tanrıya mənəvi yaxınlıq baxımından ibadət mehrabında dayanmaqdan heç də əskik deyil.”

“Ey mənim sərvərim! Heç rəvadımı ki, sənin xidmətində hazır olmaq əvəzində sənin barəndə ixtilaf etsinlər?!

Onlardan bəzisi səni əldən verdi və səni tanımadı... Bir dəstə səni əldən verdi və tapdı.Bir dəstə səni tapdı, sonra əldən verdi. Şübhəsiz, bu, çox təəccüblü və heyrətamizdir.”

***8. Xaçpərəst alimi Fuad Cordaqöz*** ümidini Həzrət Əliyə (ə) bağlayaraq, ondan həmişə kömək və nicat diləyir: “Yaşayış çətinlikləri mənə qalib gələndə, sıxıntıdan xilas olmaq istəyəndə, öz dərd və qəmim əlindən Əlinin (ə) asitanına pənah aparıram. Çünki o, hər qəmlinin pənahgahıdır. Zalımlara şimşək tək amansız, zəiflərə şəfqətli, yardımçıdır.”

***9. İngilis alimi Karlil*** **Əlinin (ə) şücaətindən çox ədaləti** barəsində düşünməyi insanlara tövsiyə edir:” “Əli (ə) öz ədalətinin qurbanı oldu. Çünki camaat onun qanunlarına dözmək taqətinə malik deyildi.”

***10. Nərsəsiyan – xaçpərəst alim və məşhur siyasi xadim.***

Həzrət Əli (ə) barəsində deyir: “Əgər bu böyük xətib Əli ibn Əbu Talib bizim əsrimizdə, elə bu gün Kufə məscidində minbərə qalxsaydı, görərdi ki, məscid Avropanın böyükləri və görkəmli adamları ilə doludur. Hamı gələrdi və öz ruhlarını onun bilik dolu dənizindən sirab etmək üçün buraya toplanardı.”

***11. Baron Kardova – fransız.***

Həzrət Əlinin (ə) necə bir şücaət və cəsarət sahibi olduğundan söhbət açır və Peyğəmbərin (s) ona bağlandığından danışır: “Əli – o bənzərsiz şücaət sahibi, tayı-bərabəri olmayan, qəhrəman və cəsur insan İslam Peyğəmbəri ilə çiyin-çiyinə vuruşur, fəaliyyət göstərir və möcüzə sayağı qiyam edirdi. Bunlar tarixdə şan – şöhrət və əzəmətlə xatırlanır. Əli (ə) Bədr döyüşündə iyirmi yaşlı cavan idi, bir qılınc zərbəsi və qolunun zoru ilə Qureyş sülalələrindən olan, özü də güclü və qəhrəman sayılan məşhur bir adamı iki böldü. Ühüd döyüşündə Peyğəmbərin qılıncını götürdü, hər bir zərbəsi ilə başları parçaladı, zirehləri yırtdı. Xeybər qalasına yürüşdə bir əli ilə ağır dəmir darvazanı yerindən qoparıb başı üzərində sipərə çevirdi. İslam Peyğəmbəri onu çox sevirdi, ona böyük inam və etibarı var idi. Bir dəfə Peyğəmbər nəzərlərini ona dikmiş halda belə söylədi: “Mən hər kim üçün Mövlayamsa, Əli onun Mövlasıdır.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***12. Mixail Nueymə – məşhur xaçpərəst yazıçısı, filosof və mütəfəkkir.***

Müasir ərəb ədəbiyyatının tanınmış nümayəndəsi olan bu yazıçı yazır: “Bir yazıçı və tarixçi nə qədər dahi və hünər sahibi olsa da, heç vaxt bir neçə min səhifədə Əlinin (ə) şəxsiyyətinin mükəmməl təsvirini, onun yaşadığı fitnə dolu və fırtınalı mühiti açıqlaya bilməz. Çünki bu kamil ərəb oğlu özü ilə Tanrı arasında heç kəsin eşidib görmədiyi ünsiyyət yaratmışdı. Belə olduqda, onun şəxsiyyətinə həsr etdiyimiz hər bir tablo istər-istəməz çılız, naqis, dumanlı və yarımçıq olacaqdır. O, nəinki təkcə döyüş və mübarizə meydanının qəhramanı idi, eyni zamanda, özünün pak və dərin vicdanı ilə də, qətiyyətli nitqi ilə də zülümkarlara qarşı amansızcasına çarpışan bir qəhrəman hesab edilirdi.

Uzun illər keçsə də, onun böyüklüyü və əzəməti həmişə bizim üçün zəngin və tükənməz bir xəzinədir. Elə bir xəzinə ki, biz ona diqqət yetirməli, bu gün ləyaqətli və şərafətli həyat sürməyə ehtiyac duyduğumuz hər bir vaxt bu coşğun ruhdan ilham almalıyıq. Çünki O, bütün zamanlar və məkanlar üçün sonsuz təfəkkür və düşüncə qaynağı hesab edilir.”

***13. İlya Pavloviç Petruşevski – Sankt-Peterburq universitetinin tarix üzrə professoru.***

“Məhəmmədin yetirməsi olan Əli ona və İslam dininə dərindən bağlı və vəfalı idi. Əli Sadiq və imanlı idi, əxlaqi məsələlərdə cox diqqətli idi, şöhrətpərəstlikdən, şəhvətpərəstlikdən uzaq idi, şübhəsiz, həm döyüşkən idi, həm də şair idi və Allah övliyalarının bütün lazımi sifətləri onda cəmlənmişdi.”

# VI FƏSİL

# QURANIN QARDAŞI "NƏHCÜL-BƏLAĞƏ"

*Hər kim ki bildi qüdrəti "Nəhcül-bəlağə"də,*
*Gördi o kəs həqiqəti "Nəhcül-bəlağə"də.*

*"Qurani-sani" söylədi əhli-bəşər ona,*
*Çün tapdı hər cür ibrəti "Nəhcül-bəlağə"də.*

*Yazdı Əli bu məcmuəyə həq kəlamları,*
*Kəşf etdi xeyli hikməti "Nəhcül-bəlağə"də.*

*Qalxdı bu göylərə, yerə "Quran" enibsə gər,*
*Göylər də sezdi fitrəti "Nəhcül-bəlağə"də.*

*Hər dövr, hər zəmanə üçün həq kitabidir,*
*Çün yox zəmanə müddəti "Nəhcül-bəlağə"də.*

## Bismillahir-rəhmanir-rəhim

"Nəhcül-Bəlağə" – "bəlağət yolu" adlandırılan bu kitab Əmirəl-Mö-minin Həzrət Əli ibn Əbu Talibin (ə) xütbə, məktub, öyüd-nəsiyyət və hikmətli sözlərini özündə birləşdirən bir topludur. Bütün bunları bir kitab halında cəm edən və ona "Nəhcül-Bəlağə" adı verən hicrətin 4-cü əsrinin məşhur İslam alimi və ədibi Seyyid Şərufəddin Rəzi olmuşdur. Həzrət Əlinin (ə) nəsilindən olan Seyyid Rəzi İmam-Museyi Kazımın(ə) oğlu İbrahimin nəticəsi Əhməd Hüseynin oğludur. Anası isə İmam Zeynalabidinin (ə) nəslindəndir. Bu səbəbdən Al buye hökmdarları ona "Zil-Həsəbeyn" (iki böyük nəsildən olan) ləqəbini vermişdilər. Seyyid Rəzi hicri 359-cu ildə (m. 969 – 70) anadan olmuş, 406-cı ildə (m. 1015) Bağdadda 47 yaşında Məhərrəm ayının 6-da vəfat etmişdir. Qəbri İmam Museyi-Kazımla (ə) İmam Cavadın (ə) məqbərəsi kənarındadır. Seyyid Rəzinin özündən bir qədər böyük olan qardaşı Seyyid Mürtəza da şiə aləminin fəxri sayılan alimlərdən biri olub, "Ələmül-Hüda" (hidayət bayrağı) ləqəbi almışdı. Bu 2 qardaşın barəsində maraqlı rəvayət söyləyirlər. Zəmanəsinin böyük şiə alimi, məşhur "İrşad" kitabının müəllifi Şeyx Mufid bir gün yuxuda görür ki, Bağdad yaxınlığındakı Kərx məscidində oturub. Birdən Həzrət Fatimeyi-Zəhra (ə) İmam Həsən və İmam Hüseynin (ə) əlindən tutmuş halda məscidə daxil olur və övladlarını Şeyx Mufidə təqdim edərək buyurur ki, onlara fiqhi öyrətsin. Şeyx yuxudan ayılıb xeyli təəccüblənir. Elə həmin gecənin səhəri Nasirül-həqqin nəvəsi Fatimə (Seyyid Rəzinin anası) öz iki oğlunun əlindən tutub, alimin yanına gəlir və onlara fiqh öyrətməsini Şeyxdən xahiş edir. Şeyx Mufid yuxusunu ona danışıb, uşaqların təlim-tərbiyəsini öhdəsinə alır. Beləliklə, iki qardaş Seyyid Rəzi və Seyyid Əli Mürtəza bu böyük ustadın elm xəzinəsindən faydalanmağa nail olurlar.

Seyyid Rəzinin barəsində yazırlar ki, o, şairlikdə, fiqhdə və əxlaqda müasirlərindən üstün olmuşdur. 10 yaşında şeir yazmış, 30 yaşında ikən bütün Quranı əzbər bilmişdir. Hətta Seyyid Rəzi o qədər imanlı və təqvalı bir şəxs olub ki, ömrü boyu heç kəsdən mükafat almamış, şahların hörmət mənası ilə göndərdikləri hədiyyələri də geri qaytarmışdır.

Seyyid Rəzinin bir sıra elmi əsərləri də olub ki, bunlardan "Xəsaisül-Əimmə", "Təlxisül-bəyan", "Həqaiqüt-təvil" və s. adlarini çəkmək olar. Lakin etiraf etmək lazımdır ki, ona dünya şöhrəti və əbədi fəzilət bəxş edən "Nəhcül-Bəlağə" əsəri olmuşdur.

Seyyid Rəzi "Nəhcül-Bəlağə" kitabı üzərindəki işini belə təsvir edir: "Ömür budağım hələ təzə-tər idi, hələ yaşıl idi ki, imamların (salam onlara) xüsusiyyətinə, gözəl hallarına aid xəbərləri, onların inciyə bənzər sözlərini əhatə edən bir kitab yazmağa başlamışdım. O, kitabda Əmirəl-

Möminin Əlinin (ə) xüsusiyyətlərini topladıqdan sonra zamanın qarşıya çıxardığı maneələr o kitabı tamamlamağa qoymamışdı... Dostlardan bir qismi o kitabı oxuyub bəyəndi. Həzrət Əmirin(ə) sözlərinin taysız-bərabərsiz olmasına, fəsahət və bəlağətinə heyran oldular. Cürbəcür mövzulara, müxtəlif qollara ayrılan sözlərdən bir seçmə meydana gətirməyimi xahiş etdilər. Çünki bilirdilər ki, o Həzrətin xütbələrində, məktublarında, öyüdlərində, hikmətlərində cəm şəklində mövcud olan və ərəb dilinin heyranedici bəlağət və fəsahətini özünə hopdurmuş, dinə, dünyaya aid bütün hikmətləri o dərəcədə cəm halda ehtiva edən heç bir söz, heç bir kitab yoxdur və ola da bilməz. Çünki Əmirəl-möminin (ə), doğrudan da, fəsahət və bəlağətin mənşəyidir. Bəlağət ondan zühur etmişdir, fəsahət qaydaları onun sözləri ilə yayılmışdır. Çünki onun sözləri Allah bilgisi ilə işıqlanmışdır. O sözlərdə Peyğəmbərin (s) rayihəsi vardır, ətrafa yayılır.

Nəhayət, xahişlərinə qulaq asdım. Bu kitabdakı sözləri toplamağa üz qoydum. Bilirdim ki, xalq bu kitabdan çox böyük faydalar əldə edəcək, bu kitabın şöhrəti bütün aləmə yayılacaq, əcri, səvabı isə axirət günündə mənə bir azuqə olacaq."

Kitabı tərtib edərkən Seyyid Rəzinin əlində bir çox mənbələr var idi. Seyyid Rəzidən əvvəl, Həzrət Əlinin (ə) söylədiyi xütbələri ilk dəfə onun səhabələrindən olan Zeyd ibn Vəhəbül-Cüheyni qələmə almışdı. Zeyd rəvayət etdiyi xütbələri, şəxsən, Əmirəl-Mömininin (ə) özündən eşitmişdi.

Məsudi "Murucuz-Zəhəb" əsərində yazır: "İmamın xütbələrinin 480 ədəddən çoxunu camaat əzbər bilir." Maraqlıdır ki, bu ədəd müasır "Nəhcül-Bəlağə"də toplanmış xütbələrin sayından, təqribən, iki dəfə çoxdur. Seyyid Rəzi özü də bunu təsdiq edir: "Bununla belə, iddia edə bilmərəm ki, O Həzrətin sözlərinin hamısını toplamışam. Düzgün olar, deyəm ki, kitaba daxil etmədiklərim daxil etdiklərimdən çoxdur."

Seyyid Rəzi "Nəhcül-Bəlağə"nin müqəddiməsində yazır: "Əmirəl-Möminin (ə) fəsahət mənşəyi və bəlağət mənbəyidir. Bəlağətin gizli dəfinələri onun vasitəsilə aşkar oldu, qanun və üsullar ondan qaynaqlandı. Bütün söz sahibləri ona iqtida etdilər, bütün vaizlər ondan kömək umdular. Əlinin (ə) sözləri mütəfəkkirlərin gözlərini qamaşdıran nurlu ulduzlarla dolu asimandır. Əlinin (ə) sözləri Allah kəlamından alçaq, İnsan kəlamından yüksəkdir. İslam Peyğəmbərindən (s) sonra heç kəs bu gözəllik, rəvanlıq və təravətdə, az sözlə böyük mənalar deyə bilməmişdir."

"Nəhcül-Bəlağə" yə daxil olan xütbələrin 400 ildən sonra yazıya alınması bir çoxlarında şübhə doğursa da, ərəb bəlağəti ilə tanış olanlar buna çox təbii baxırlar. "Nəhcül-Bəlağə"nin türk tərcüməcisi Ə.Gölpünarlı bu barədə yazır: "Fəsahət və bəlağətdə örnək olan şeirləri, sözləri əzbərləmək ərəblərdə bir ənənə idi. Hətta hicrətin 132-ci ilində (m. 770) son əməvi xəlifəsi Mərvan tərəfindən öldürülən məşhur Əbdül-Həmid Katibidən bu bəlağəti necə əldə etdiyi soruşulduqda o, cavab vermişdi

ki, başının ön hissəsində saç olmayanın (Həzrət Əlinin) xütbələrindən 70 xütbə əzbərlədim və onların köməyi ilə bu bəlağəti əldə etdim."

Qurani-Kərimdən sonra, insan zəkasının məhsulu kimi "Nəhcül-Bəlağə" islam aləminin ən gözəl və bəlağətli əsərlərindən hesab olunur. Islama ilk iman gətirən və ömrünün sonuna qədər bu yolda sabitqədəm olan Həzrət Əli (ə) alovlu və bənzərsiz xütbələri ilə bütün müsəlmanlardan yüksəkdə olduğunu sübuta yetirir. Onu da qeyd etmək lazımdır ki, Seyyid Rəzi xütbələri toplayarkən daha çox öz zövqünə istinad etmiş, fəsahət və bəlağət cəhətindən yüksək qiymətləndirdiyi nümunələri seçmişdi.

Həzrət Əli (ə) söz sahibi olduğu üçün həm xilafətdən əvvəlki vaxtlarda, həm də xilafət dövründə bir çox xütbələr oxumuş, məktublar yazmış, müxtəlif hadisələr barəsində qısa hikmətli sözlər bəyan etmişdir. Həzrət Əlinin (ə) hikmət dolu, nəsihətli xütbələri insanların qəlbinə nüfuz etmiş və 14 əsrdir ki, bu xütbələr və hədislər toplusu öz gözəlliyi və axıcılığı ilə zəmanəmizə qədər gəlib çatmışdır. Həzrət Əli (ə) elə bir kamil şəxsiyyətdir ki, dostları da, düşmənləri də onu tərifləyir, çətin və dar məqamda ona pənah aparırdılar. "Nəhcül-Bəlağə" əsəri Qurani-Kərimin qardaşı kimi yüksək ada layiq görülmüş fəsahət və bəlağət mənşəyi olan bir kitabdır. Bu baxımdan Əli (ə) həm Tövhidin, həm xilqətin, həm də dünyəvi işlərin dərinliyinə varmış, səbəblərini, nəticələrini təhlil və izah etmişdir. Mövlanə Cəlaləddin Ruminin dediyi kimi, Əlinin (ə) elmi dəlilə yox, yəqinə əsaslanır:

*Rahi–istidlaliyan cupun bovəd,*
*Rahi–cupin səxt bitəmkin bovəd.*

Tərcüməsi: "Dəlillərlə hərəkət edənin yolu taxtadandır. Taxta yol isə çox etibarsızdır." Həzrət Əlinin (ə) necə bir yüksək elm, ixlas, əməl sahibi olmasını bilmək üçün yenə də Mövlanaya müraciət edək:

*Əz Əli amuz ixlasi-əməl,*
*Şiri-həqra dan münəzzeh əz dəğəl.*

*Con to babi an mədini-elmra,*
*Con şoayi afitabi-helmra.*

*Baz baş, ey Babi-rəhmət ta əbəd;*
*Barqahi ma ləhu kufən əhəd.*

*Dər şocaət şiri-Rəbbanisti,*
*Dər morovvət xod ki, danəd kisti.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Təcüməsi: “İxlası da, əməli də Əlidən öyrən; Haqqın şirini hiylədən münəzzeh (uzaq) bil. Sən, ya Əli, elm şəhərinin qapısısan; sən helm günəşinin nurusan. Ey rəhmət qapısı, ey bərabəri olmayan, Allah barigahı, bağlanma, əbədi olaraq açıq qal. İgidlikdə Allahın şirisən, ərlikdə isə kimliyini kim bilər?”

Xaçpərəst yazıçı Ustad Süleyman Kəttani “Nəhcül-Bəlağə”nin əzəməti və yüksək məqamı barədə belə yazır: “Belə deyirlər ki, “Nəhcül-Bəlağə”nin toplanması işinə İmam Əlinin (ə) vəfatından üç əsrdən daha çox keçəndən sonra başlanmışdır. Bu faydalı və çox qiymətli işi Seyyid Rəzi adlı bir şəxs öz öhdəsinə götürmüş, O Həzrətdən (ə) yadigar qalmış hikmətli və ibratamiz sözləri, kəlamları, məktubları, fərmanları toplamış, sistemləşdirmiş və demək lazımdır ki, bu işi son dərəcə böyük məharətlə, sənətkarlıqla yerinə yetirmişdir. S.Ş.Rəzi İmam Əlinin (ə) yaşadığı və mübarizə apardığı əsri elə hərtərəfli, dəqiq şəkildə öyrənib tədqiq etmiş və İmam Əli ibn Əbu Talibin (ə) psixologiyasını, əhval-ruhiyyəsini elə gözəl təhlil eləmişdir ki, sanki özü o dövrdə yaşamışdır. “Nəhcül-Bəlağə”nin tərtibi aydın göstərir ki Seyyid Rəzi ifadə, bəyan, təqlid və təqdim baxımından böyük təcrübə sahibi olmuşdur. “Nəhcül-Bəlağə”də, hər şeydən əvvəl, İmam Əlinin (ə) psixologiyası, daxili aləmi, əhval-ruhiyyəsi, əxlaqı elə doğru-düzgün əks etdirilmişdir ki, sanki günəş şualarının işığı büllur camın üstünə düşüb şəfəq saçır.”

Akademik Hacı Vasim Məmmədəliyev: “Nəhcül-Bəlağə” Qurani-Kərimdən sonra, Peyğəmbərin (s) hədislərindən sonra, dinimizin ən böyük bir abidəsi, Xaliq kəlamından aşağı, bəşər kəlamından yuxarı bir yadigardır. Yəni, Qurani-Kərimdən və Peyğəmbərin (s) hədislərindən sonra bu qüdrətdə bir əsər yaranmayıb. Əgər Allah-Təalanın kitabı asimandan, səmadan Allahın yerə uzanmış mərhəmətidirsə, Həzrət Əlinin (ə) “Nəhcül-Bəlağə”si insan övladının, bəşər övladının yerdən göyə uzanmış münacatı, xitabı və nidasıdır. Həzrət Əli (ə) belə bir kitab qoyub gedib. Hələ mən “Divane - əşar”ını demirəm ki, ərəblərin gözəl şairlərini mat-məbhut eləyir. Həzrət Əli (ə) həm də böyük bir şairdir.”

Şair demiş:

“Əli” de ki, mələk sənin ağzından öpsün; Mələk ağzından öpsün, fələk dilindən öpsün. Bir küncü özünçün məskın et, “Əli “deyib fəxr elə ki, onda Cəbrail sənin məkanını ziyarət etsin.”

“Nəhcül-Bəlağə”də Mövla Əlinin (ə) dilindən oxuyuruq: “Allaha and olsun, əbama o qədər yamaq vurmuşam ki, onun dərdindən xəcalət çəkirəm. Mənə dedilər ki, niyə bu köhnə əbadan əl çəkmirsən? Nəsihətçiyə dedim: “Uzaq ol! Sübh açılanda bilinər ki, gecə çəkilmiş zəhmətlər hədər getməyib.” (Yəni, Qiyamət günündə məlum olacaq ki, bu dünyada zahidlik edənlərin zəhməti hədər getməyib.)

Gorkəmli islam alimi Şəhid Mürtəza Mütəhərri "Nəhcül-bəlağədə bir gəzinti" adlı əsərində yazır: "Nəhcül-bəlağə min il bundan əvvəl Seyyid Rəzi tərəfindən toplanmışdı.Nəhcül-bəlağədəki sözlər İmam Əlinin (ə) kəlmələrinin və yaxud xütbələrinin hamısı deyildir. Seyyid Rəzidən yüz il öncə yaşayan Məsudi "Murcuz-Zəhəb" adlı əsərində deyir. "Hazırda Həzrət Əlinin (ə) 480-dən artıq xütbəsi xalqın əlindədi".Halbuki, Seyyid Rəzi topladığı xütbələrin hamısı 238 dənədir.Yəni, Məsudi dediyi sayın yarısından da az." Şəhid Mürtəza Mütəhərri sözünün davamında buyurur: "Həzrət Əlinin (ə) sözləri iki özəlliyə malikdir: Bu özəlliklərdən biri fəsahət və bəlağət, digəri isə çox yönlü, yəni bugünkü zamanla ayaqlaşmasıdır. Bu səbəbə görə İmamın sözləri Xaliqlə Məxluqun sözləri arasında qərar tutmuşdur. Bu barədə İbn Əbil Hədid deyir: "Həzrət Əlinin (ə) sözləri Yaradanin sözlərinin altında, yaradılanın isə sözünün üstündədir".

İmam Əlinin (ə) sözləri haqqında məşhur İbn Abbas deyir: "Peyğəmbər (s) sözlərindən sonra heç bir sözdən bu qədər yararlanmadım:[1]

İmam Əlinin (ə) ən qəddar düşmənlərindən olan Müaviyyə ibn Əbu Süfyan Onun sözlərinin xariquladə, fəsahətli və bəlağətli olduğunu etiraf etmişdir: "Qüreyşin Əlidən öncə fəsahətdən və bəlağətdən xəbəri yox idi. Əli Qüreyşə fəsahət və bəlağət öyrətdi."

Əməvi xəlifələrinin sonuncusu Mərvan ibn Muhəmmədin katibi və məhşur filosof ibn Müqəffanın ustadı Əbdül Həmid Katibi deyir: "Əlinin xütbələrindən 70 dənəsini əzbərlədim və zehnim açıldıqca açıldı".

Əl Cundib nəql edir: "Əbdül Həmiddən soruşdular: "Səni bəlağətdə bu dərəcəyə çatdıran nədir?" O cavab verdi: "Həzrət Əlinin sözlərini əzbərləmək".

Misirin keçmiş muftisi Ş.Muhəmməd Əbduh (h.q. 905) Həzrət Əlinin (ə) sözləri haqqında deyir: "Quran və hədisi-şəriflərdən sonra sözlərin ən şərəflisi və ən bəlağətlisi, ən anlamlısı və ən mükəmməli olduğuna inanmayan heç bir adam yoxdu".

Qahirə Universitetinin professoru Əli Əl Cundi "Həzrət Əli ibn Əbu Talib şiruhu və hikəmuhu" adlı əsərində Əlinin (ə) nəsri haqqında deyir: "Hisslərin dərinliyinə enən musiqinin özəl bir çeşidi bu sözlərdə mövcuddur".

"Nəhcül-Bəlağə" aşağıdakı mövzuları əhatə edir:

1.İlahiyyat və Metafizika

2.Gedişat və ibadət

3.Hökumət və ədalət

4.Əhli-beyt(ə) və xilafət

5.Dünya, dünyaya tamah

6.Qəhrəmanlıq və şücaət

[1] "Cahizin Əl-Bəyan və Tibyan" əsəri cild 1

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

7.Dua və münacat
8.İslam və Quran
9.Əxlaq. Nəfsə üstün gəlmək
10.Şəxsiyyətlər və digər mövzular

**Mövlanə Cəlaləddin Rumi** bir gün məclisində bir gəncin bir yaşlı şəxsdən yuxarı başda oturduğunu görür. O, gəncə bir şey söyləmədən Əlinin (ə) Sübh namazına gedərkən önündə gedən yəhudi bir yaşlı şəxsin yaşına hörmət edib önə keçmədiyini və buna görə də namaza gecikdiyini, birinci rükətin rükusunda Rəsulullahın (s) mübarək belinə Cəbrailin (ə) toxunaraq namazı saxladığını və Həzrət Əlinin gəlib çatdığını bildirir. “Yaşlı yahudi şəxsə hömət edildikdə yaşlı müsəlman şəxsə daha çox hörmət edilər. Qaldı ki, ömrünü dinə tabe olmaqla keçirən yaşlılara hörmət edən gənclərə, Allah qatında nə qədər yüksək mərtəbə qazanar”, – deyə Həzrət Mövlana buyurur.

Bu nəsihəti dinləyən gənc mükəmməl bir dərs alır və bir daha böyüklərdən baş tərəfdə oturmur[1].



[1] Mövlanə Cəlaləddin Rumi: “Eşq pərvanəsi”. səh. 58

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “NƏHCÜL-BƏLAĞƏ”DƏN “KƏLİMATİ-QİSAR”

قالَ الاءِمَامُ اَميرُالمُوءمنِينَ عَلِيٌّ (ع) عِظَمُ الخَالِقِ عِندَکَ يُصَغِّرُ المَخلُوقَ فِی عَينِکَ

İmam Əmirəl-Möminin Əli (ə) buyurur:
“Xaliqi əzəmətlə yad etməyiniz məxluqu gözünüzdə kiçildər.”

مَن اُعطِیَ أَربَعًا لَم يُعرَم أربَعًا
مَن اُعطِیَ الدُعاءَ لَم يُعرَمِذالاءِجَابَةَ
وَمَن اُعطِیَ التَوبَةَ لَم يُعرَم القَبُولَ
وَمَن اُعطِیَ الاءِستِغفَارَ لَم يُعرَمِ المَغفِرَةَ
وَمَن اُعطِیَ الشُّکرَ لَم يُعرَمِ الزِّيَادَةِ

“Hər kəsə 4 şey əta olunsa, 4 şeydən məhrum olunmaz:

1. Hər kəsə dua etmək (qüdrəti) əta olunsa, onun qəbul olunmasından məhrum olmaz;

2. Hər kəsə tövbə etmək əta olunsa, (tövbənin) qəbul olunmasından məhrum etməzlər;

3. Hər kəsə istiğfar etmək əta olunsa, məğfirətdən məhrum etməzlər;

4. Hər kəsə şükür etmək nəsib olarsa, nemət bolluğundan məhrum edilməz.”[1]

Seyyid Rəzi (r) buyurur:

“Bu 4 mətləbin şahidi Allahın kitabında (Quranda) mövcuddur.

Dua etmək barəsində 40-cı surənin 4-cü ayəsində buyurur: “Məni çağırın, sizin duanızı qəbul edim.” 4-cü surənin 110-cu ayəsində buyurur: “Hər kəs pis əməl etsə və özünə zülm etsə, sonra Allahdan bağışlanmaq istəsə, Allahın bağışlayan və mehriban olduğunu hökmən görər.”

Şükür etmək barəsində 14-cü surənin 7-ci ayəsində buyurur: “Əgər nemətlərin şükrünü yerinə yetirsəniz, hökmən onu (neməti) artıraram.”

Tövbə etmək barəsində 4-cü surənin 17-ci ayəsində buyurur: “Allah nadanlıq üzündən pis iş görən və dərhal tövbə edənlərin tövbəsini qəbul edir və onların günahlarını bağışlayır. Allah hər şeyi bilən və hikmət sahibidir.”

اِنَّ کَلامَ الحُکَمَاءِ اِذاکَانَ صَوابًاکَانَ دَوَاءً وَ اِذَا کَانَ خَصَاءً کَانَ داءً

[1] Kəlimati-Qisar, hədis 135

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Həqiqətən, hikmət sahiblərinin sözü gerçək olduqda dərman, yanlış olduqda isə dərd-bəladır.”[1]

**وَاللّٰهُ لَو اُعطِيتُ الاقالِيمَ السَّبعَةَ بِما تَحتَ اَفلاكِها عَلا اَن اَعصِىَ اللّٰهَ فِينَملَةٍ اَسلُبُهآ جُلبَ شَعِيرَةٍ مَا فَعَلتُهُ**

“Allaha and olsun, əgər dünyanı və dünyada mövcud olanları, qarışqanın ağzından bir arpa dənəsinin qabığını zülmlə alaraq Pərvərdigarıma günah edim deyə, mənə versələr, heç vaxt bu işi görmərəm və Pərvərdigarıma bu qədər də günah etmərəm.”[2]

**لَيسَ شَيءٌ اَدعىَ اِلىَ تَغيِيرِ نِعمَةِ اللّٰهِ وَ تَعبِيلِ نَقمَتِهِ مِن اِقَامَةِ عَلَى ظُلمٍ فَاءِنَّ اللّٰهَ سَمِيعٌ دَعوَةَ المُضطَهَدِينَ وَ هُوَ لِلظالمِين بِالمِرصَاد**

“Bilmək lazımdır ki, heç bir şey İlahi nemətləri aradan aparmaqda, bəla və əzabların (artmasında) sürətində zülmkarlıq qədər təsirli ola bilməz.”[3]

**اِنَّمَا عِمَادُالدّينِ وَجِمَاعُ المُسلِمين وَالعُدَّةُ لِلاعَداءِ العَامَّةُ مِنَالاءُمَّةِ فَليَكُن صِغوُكَ لَهُم وَمَيلُكَ مَعَهُم**

“Ümmətin ümumi təbəqəsi dinin dayağı, müsəlmanların birlik səbəbi və din düşmənləri ilə döyüşmək üçün təchiz olunmuşlardır. Buna görə də gərək onlara səfa – səmimiyyət və məhəbbət göstərəsən.”[4]

**مِن وَصِيَّةِ الاءِمَام اَمِيرالمُوءمِنِين عَلِىٍّ (ع) لِلحَسَنِ وَالحُسَينِ عَلَيهِمَسَّلامُ لَمَّا ضَرَبَهُ اِبنُ مُلجَم لَعَنَهُ للّٰهُ:**

**وَاللّٰهُ اللّٰهُ فِلجِهَادِ بِاَموَالِكُم وَ اَنفُسِكُم وَالسِنَّتِكُم فِى سَبِيلِ اللّٰهِ...لاتَترُكُوا الاَمرَ بِلمَعرُوفِ وَالنَّهىَ عَنِلمُنكَرِ فَيُوَلَّى عَلَيكُم شِرَارُكُم ثُمَّ تَدعُونَ فَلا يُستَجَابُ لَكُم**

İmam Əli (ə) oğlanları İmam Həsən və Hüseynə(ə) vəsiyyətində (məlun ibni Mülcəm tərəfindən zərbətləndikdən sonra) buyurur:

“Allah-Allah (sizi and verirəm Allaha), cihaddan qafil olmayın, öz malınız və canınız və dilinizlə Allah yolunda cihad etməkdən qafil olmayın...Əmir be Məruf və Nəhy əz Münkəri tərk etməyin, əks təqdirdə ümmətin ən şər insanları sizə hakim kəsilər və o zaman dua edərsiniz, amma qəbul olunmaz.”[5]

---

[1] “Kəlimati-Qisar”, hədis 265
[2] “Kəlimati-Qisar”, hədis 347
[3] “Nəhcul-Bəlağə”, 53-cü məktub
[4] “Nəhcül-Bəlağə”, 429-cu məktub
[5] “Nəhcül-Bəlağə”, 47-ci məktub

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

اِنّ َللّٰهَ سُبحَانَهُ فَرَضَ فِی اَموَالِ الاَغنِیَاءِ اَقوَاتَ الفُقَرَاءِ فَمَا جَاعَ فَقِیرٌ الاّ بِمَا مَنَعَ غَنِیٌّ

"Həqiqətən, Allah-Təala fəqir və kasıbların ehtiyaclarını, xərclərini varlıların sərvətində qoymuşdur. Deməli, bir fəqir ac qalarsa, bu hansısa bir sərvətlinin onun haqqını verməkdən imtina etməsi səbəbi ilə olmuşdur."[1]

یَابنَ آدَمَ کُن وَصِیَّ نَفسِکَ فِی مَالِکَ وَعمَل فِیهِ مَا تُوثِرُ اَن یُعمَلَ فِیهِ مِن بَعدِکَ

"Ey Adəm övladı, səndən sonrakı varislərin sənin halal malını necə xərcləməsini istəyirsənsə, diri ikən həmin cür özün xərclə."[2]

لاتَبعَلَنَّ اَکثَرَ شُغلِکَ باءَهلِک وَوَلَدِک فَاءِن یَکُن اَهلُکَ وَوَلَدُکَ اَولِیَاءَ اللّٰهِ فَاِنَّ اللّٰهَ لا یُضیعُ اَولیَاءَ هُ وَ اِن یَکُونُوا اَعداءَ اللّٰهِ فَمَا هَمُّکَ وَشُغلُکَ بِاَعداءِاللّٰهِ؟

"Əsla, vaxtının əksəriyyətini öz əhli-əyalına sərf etmə! Çünki əgər əhli-əyalın Allah dostları olsa, bu halda Allah öz dostlarını çarəsiz qoymaz və əgər onlar Allah düşmənləridirsə, bu halda sən nəyə görə Allah düşmənləri üçün bir iş görüb, sonradan qəm-qüssə və peşmançılıq çəkəsən.[3]

وَحَقُّ الوَلَدِ عَلَی الوَالِدَانِ یُحَسِّنَ اِسمَهُ وَیُحَسِّنَ اَدَبَهُ وَیُعَلِّمَهُ القُرانَ

"Atanın övlad qarşısında olan borcu budur ki, ona yaxşı ad qoysun, ona yaxşı ədəb öyrətsin və Quran təlimi versin."[4]

جِهَادُ المَراَةِ حُسنُ التَبَعُّلِ

"Qadının cihadı ərinə yaxşı baxmasıdır."[5]

اُذکُرُوااِنقِطَاعِ الذّاتِ وَبَقَاءَ التَبِعَاتِ

(Günah edən zaman) ləzzətlərin qurtaracağını, onun pis təsirlərinin isə qalacağını yadınıza salın."[6]

اِنَّ البُخلَ وَ الجُبنَ وَالحِرصَ غَرَاءِزُ شَتَّی یَجمَعُهَا سُوءُ الظَنِّ بِاللّٰهِ

"Hərislik, qorxu və paxıllıq imanın azlığı və Allaha bədgümanlığın nəticəsidir."[7]

---

[1] "Nəhcül-Bəlağə", "Kəliməti-Qisar", hədis 328
[2] "Nəhcül-Bəlağə", "Kəliməti-Qisar", hədis 254
[3] "Nəhcül-Bəlağə", "Kəliməti Qisar", hədis 352
[4] "Nəhcül-Bəlağə", "Kəliməti Qisar", hədis 399
[5] "Nəhcül-Bəlağə", "Kəliməti-Qisar", hədis 494
[6] "Nəhcül-Bəlağə", "Kəliməti-Qisar", hədis 553
[7] "Nəhcül-Bəlağə", "Kəliməti-Qisar", hədis 59

## *“NƏHCÜL-BƏLAĞƏ”DƏ*

Hər kim ki bildi qüdrəti “Nəhcül-bəlağə”də,
Gördi o kəs həqiqəti “Nəhcül-bəlağə”də.

“Qurani-sani” söylədi əhli-bəşər ona,
Çün tapdı hər cür ibrəti “Nəhcül-bəlağə”də.

Yazdı Əli bu məcmuəyə həq kəlamları,
Kəşf etdi xeyli hikməti “Nəhcül-bəlağə”də.

Qalxdı bu göylərə, yerə “Quran” enibsə gər,
Göylər də sezdi fitrəti “Nəhcül-bəlağə”də.

Hər dövr, hər zəmanə üçün həq kitabidir,
Çün yox zəmanə müddəti “Nəhcül-bəlağə”də.

Məhbut edib hər alimi ən adi cümləsi,
Dərk et ən adi xisləti “Nəhcül-bəlağə”də.

Şirkü fəsadü zərqü riya, büxlü hiyləyə
Sən görmədinmi nifrəti “Nəhcül-bəlağə”də.

Mömin olan, Xudayə özün can fəda edən,
Tapmış həqiqi izzəti “Nəhcül-bəlağə”də.

“Həmmam”da tab qalmadı təqva cavabına,
Gəl, sən də gör bu dəvəti “Nəhcül-bəlağə”də.

Eşq isə niyyətin, ara, axtar bu şövq ilə,
Hicri cahanda, vəsləti “Nəhcül-bəlağə”də.

Həm hərbi təlim etdi, həmi sülhi əsgərə,
Gördük vətən məhəbbəti “Nəhcül-bəlağə”də.

Şəhri-Şuşa əsirdi, gəlin, küfrə son qoyaq,
Çün yoxdu küfr möhləti “Nəhcül-bəlağə”də.

Soltan, bu əmrdir sənə mövlayi-həqqidən,
Şərh et cahanə qeyrəti “Nəhcül-bəlağə”də.

## HƏZRƏT ƏLİ (Ə) ÖZÜ HAQQINDA

Həzrət Əli (ə) buyurub: “Mən bu 4 kitabı (Tövrat, İncil, Zəbur, Quran) əzbər bilirəm. Amma istərdim ki, bütün müsəlmanlar da bu 4 kitabı əzbər bilsin. Çətin olduğuna görə hər kitabdan bir cümlə seçdim. Hər kəs oxusa, inansa, elə bilsin ki, bütün bu kitabları oxuyub öyrənib;

1. Tövrat: “Hər kəs az danışsa, nicat tapar.”

**تُورات: مَن صَمُوتُ نَجى**

2. İncil: “Hər kəs şəhvətini tərk etsə, bəlalardan salamat olar.”

**إنجيل: مَن تَرَکَ الشّهَوات سَلِمَ مِنَ الأفات**

3. Zəbur: “Hər kəs qənaət etsə, ucalar.”

**زَبور: مَن قَنُعَ إستَغنى**

4. Quran: “Hər kəs işlərində Allaha təvəkkül etsə, Allah ona kifayət edər.”

**قُرآن: وَ مَن يَتَوَكّل على الله فَهُوَ حَسبُه**

Həzrət Əlinin (ə) ən yaxın səhabəsi Səsəə öz əsrinin kamil biliyə malik alimlərindən hesab olunurdu. O, Həzrət Əlidən (ə) soruşdu:

“Ya Əli, istəyirəm, biləm ki, fəzilət cəhətdən Sən üstünsən, ya Adəm?”

Əli (ə) cavab verdi:

“Kişi gərək özünü tərif eləməsin. Amma Quranda bir ayə var, Allah-Təala buyurur:

**وَأَمَّا بِنِعْمَةِ رَبِّكَ فَحَدِّثْ**

“Və Rəbbinin Sənə olan nemətindən söhbət aç.”[1]

Bu ayəyə əsasən, o fəzilətləri ki nemət kimi Allah mənə bəxş edib, onlara əsasən, deyə bilərəm ki, Mən Adəmdən (ə) üstünəm.”

Səsəə soruşdu: “Nəyə görə?”

Həzrət Əli (ə) buyurdu: “Ey Səsəə, ona görə ki, Allah Behiştdə Həzrət Adəmə (ə) buğdadan başqa, hər nemətdən istifadə etməyə icazə

---

[1] “Züha” surəsi, ayə 11

vermişdi. Amma Adəm (ə) Allahın əmrindən çıxdı. Amma Allah-Təala Məni heç bir nemətdən çəkindirməmişdir.Mən çörəyimi bal ilə də yeyərdim. Amma Mən elə quru çörək ilə də qənaətləndim. Fikirləşdim ki, bəlkə bir müsəlman ac yatır."

Səsəə dedi: "Ya Əli, sən üstünsən, yoxsa Nuh?"

Əli (ə) cavab verdi: "Ey Səsəə, Mən üstünəm."

Səsəə dedi: "Nəyə görə?"

Əli (ə) buyurdu: "Ona görə ki, Həzrət Nuh (necə ki Quran buyurur) 950 il təbliğat apardı, amma ona iman gətirın az oldu. Həzrət Nuh dua elədi ki, ey Allah, bu kafir qövmdən bir nəfər də saxlama. Allah–təala da o qövmə bəla göndərdi. Amma mən islamın birliyinə xatir bütün müsibətlərə dözdüm və boğazında sümük, gözündə çöp qalan adam kimi səbr eylədim."

Səsəə dedi: "Ya Əli, sən üstünsən, yoxsa Lut?"

Əli (ə) buyurdu: "Ey Səsəə, mən üstünəm".

Səsəə dedi: "Nəyə görə?"

Əli (ə) buyurdu: "Ona görə ki, Lutun (ə) xanımı kafir olub, öz Peyğəmbərinin sözündən çıxıb pis işlərin ardınca getdi. Amma mənim xanımım Həzrət Fatimə (s) barəsində Həzrət Məhəmməd (s) buyurub ki, əgər Əli (ə) dünyaya gəlməsəydi, Fatimə ərə getməyəcəkdi, çünki kişilərdən ona tay olacaq bir kəs yox idi.

Səsəə dedi: "Ya Əli, sən üstünsən, yoxsa Süleyman?"

Əli (ə) cavab verdi: "Ey Səsəə, mən üstünəm.

Səsəə dedi: "Nəyə görə?"

Əli (ə) buyurdu: "Ona görə ki, Həzrət Süleyman həm Peyğəmbər idi, həm də bütün insanlara, quşlara, heyvanlara padşah idi. Bu qədər fəzilət ilə Allaha deyirdi ki, mənə elə bir hökumət ver ki, indiyə qədər heç bir bəşərə nəsib olmasın. Amma mən bir gün xurmalıqda işləyirdim, dünya bir cavan, gözəl qız şəkilində gəlib mənə dedi ki, ya Əli, dön bir mənə bax, mən səni zəhmətlərdən qurtarım. Mən heç başımı qaldırmadan ona dedim ki, get, bu toru özgələrə qur. Mən səni üç dəfə boşamışam.

Səsəə dedi: "Ya Əli, sən üstünsən, yoxsa İbrahim?

Əli (ə) cavab verdi: "Ey Səsəə, Mən üstünəm."

Səsəə dedi: "Nəyə görə?"

Əli (ə) buyurdu: "Ona görə ki, Həzrət İbrahim(ə) bir gün Allaha dedi ki, Allahım, mənə göstər, görüm, ölünü necə dirildirsən? Vəhy gəldi ki, ey İbrahim, iman gətirməmisən? İbrahim cavab verdi ki, iman gətirmişəm, istəyirəm, yəqinim çox olsun. Allah əmr elədi ki, 4 müxtəlif quş tut və başlarını kəs, 4 yerə böl, hər təpənin başına bir tikəsini qoy, sonra başlarını əlində tutub o quşları səslə, hər quşun öz bədəni gəlib əlindəki başlarına bitişəcəkdir. Həzrət İbrahim bunu etdi və tam yəqin oldu. Amma mənim

imanım o qədər möhkəmdir ki, göylərin pərdələri götürülsə belə, mənim yəqinliyim çoxalmaz, çünki mənim yəqinliyimin həddi yoxdur."

Səsəə yenə sual etdi: "Ya Əli, sən üstünsən, yoxsa Musa?"

Əli (ə) cavab verdi: " Ey Səsəə, mən üstünəm."

Səsəə dedi: "Nəyə görə?

Əli (ə) buyurdu: "Ona görə ki, Həzrət Musa (ə) Fironun zalım adamlarından bir nəfəri öldürmüşdü. Allah Musaya deyəndə ki, get, Fironu mənə tərəf dəvət elə, Musa belə cavab verdi ki, mən onlardan bir nəfəri öldürmüşəm, qorxuram, ora getsəm, məni öldürərlər və Allahdan kömək istədi. Amma mən müşriklərdən bir çoxunu din döyüşlərində öldürmüşəm. Məkkədə "Bəraət" (tövbə) surəsi nazil olanda Allahin hökmünü müşriklərə elan etməyə Peyğəmbər (s) məni tək göndərdi və tək getdim və o gecə ki, Qureyş başçıları istəyirdilər, Allahın Peyğəmbərini öldürsünlər, mən o gecə Həzrətin yerində yatdım."

Səsəə sual etdi: "Ya Əli, sən üstünsən, yoxsa İsa?"

Əli (ə) cavab verdi: "Ey Səsəə, mən üstünəm".

Səsəə dedi: "Nəyə görə?"

Əli (ə) buyurdu: "Ona görə ki, o zaman ki, Həzrət Məryəm Beytül-Müqəddəsdə durmuşdu, doğum vaxtı catanda səs gəldi ki, ey Məryəm, eşiyə çıx! Bura ibadət evidir, doğum yeri deyil. Amma mənim anam Fatimə binti-Əsəd Məscidul-həramda müsəlmanların qibləsinin kənarında durmuşdu. Hiss etdi ki, övladı dünyaya gəlir. Bu zaman Kəbənin divarı aralandı, anam Fatimə içəri daxil oldu və divar yenidən bitişdi. 3 gün anam orda, Kəbənin içində qalıb, 4-cü gün anam Fatimə məni əlləri üstə alıb Kəbədən çölə çıxdı."

Həzrət Əli (ə) öz yüksək elmi və fəziləti haqda buyurur:

"Fəzilət, şərəf mənim təlatümlü dərya kimi dalğalanan ruhumdan sel kimi aşıb-daşır, ən uca zirvələrə uçan quşlar mənim yüksək məqamımın zirvəsinə çata bilməzlər."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## HƏZRƏT ƏLİNİN (Ə) ELMƏ MÜNASİBƏTİ

Quran və İslam baxımından dünya və axirət məsələlərində ən mühüm sayılan əməl elm oxumaqdır. Bu şərtlə ki, öyrənilən elmə əməl olunsun.

Şeyx S.Şirazi deyir:

*Elmin əgər olsa bir ümman qədər,*
*Nadansan, əməlin olmasa əgər.*

Quranda 18 yerdə "fikir", 47 yerdə "Əql", 779 yerdə "elm", 180 yerdə "tanımaq" kəlmələri işlənmişdir. Peyğəmbərə (s) nazil olan ilk surə – "Ələq" surəsi "Oxu" ilə başlanır. İlk nazil olan bu surənin 5 ayəsindən 2-si "İqra" – "Oxu" ilə başlanır.

1-ci ayə:

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ

"Oxu, Səni yaradan Rəbbinin adı ilə!"

3-cü ayə:

اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ

"Oxu və Sənin Rəbbin Kərimdir.

Qurani-Kərimdə elm gündüzə, cəhalət gecəyə bənzədilir. Müqəddəs İslam dininin hədəfi elm, iman, təqva və bilikdir. Hər şeyin mənası, məntiqi, hədəfi, dəyəri elm, iman, əməl ilə bilinir.

Peyğəmbər (s) buyurur ki, müdriklər deyiblər: "Elmin əvvəli sükutdur, sonra dinləməkdir. Sonra yadda saxlamaqdır; sonra əməl etmək; sonra yaymaq və nəşr etməkdir. Hər elm yazılmasa, zay olar."

Elmin əvvəli Allahı tanımaqdır, sonu isə işləri Allaha tapşırmaqdır.

Rəvayət: Bir nəfər 7 yaşlı uşağını Peyğəmbərin (s) yanına gətirib deyir:

"Ya Rəsulullah(s), buna elm öyrət."

Peyğəmbər (s) soruşur:

"Bu uşağın neçə yaşı var?"

Həmin şəxs cavab verdi: "7 yaşı var."

Peyğəmbər (s) buyurdu: "7 il gecikmisən, Mən demişəm, elmi beşikdən ta qəbr evinəcən tələb edin."

Həzrət Əli (ə) buyurur: "İnsanlar 4 taifəyə bölünür:

1. Üməra – hökmdarlar,
2. Əğniya – dövlətlilər,

3. Füqəra – kasıblar,
4. Üləma – alimlər.

“Hökmdarların, dövlətlilərin, kasıbların alimlərə ehtiyacı var. Alimlər isə onlara möhtac deyil.”

Rəvayət: Bir gün Bəsrə və Kufə əhli arasında mübahisə düşdü. Bəsrə əhli dedi:

“Elm mal-dövlətdən əfzəldir.”

Kufə əhli dedi:

“Mal-dövlət elmdən əfzəldir.”

Bu 2 dəstə Əlinin (ə) yanına gəlib, ondan sual etdilər. Həzrət Əli (ə) buyurdu: “Elm 2 dərəcə mal-dövlətdən üstündür:

1. Elm peyğəmbərlərdən, mal-dövlət isə Qeysər və Firondan mirasdır.
2. Elm sahibini qoruyar, malı isə sahibi qorumalıdır.
3. Elm sahibinin dostu, mal sahibinin düşməni çox olar.
4. Elm xərcləndikcə artar, mal isə azalar.
5. Elm sahibi şərəfli ünvan və möhtərəm adlar, mal sahibi isə “simic” və “xəsis” kimi adlar qazanar.
6. Elmin oğrudan qorunmasına ehtiyacı yoxdur, malın isə qorunması vacibdir.
7. Vaxt keçdikcə elm cilalanıb işıq saçar, mal, dövlət isə çürüyüb məhv olar.
8. Elm qəlbi qüvvətləndirər, mal isə zəiflədər.
9. Elm təvazökarlıq yaradar, mal isə məğrurluq.
10. Elm insanda mərhəmət yaradar, mal isə xəbislik.
11. Elm sahibi qiyamət günü Siratdan keçər, mal sahibini isə orada saxlarlar.
12. Heç bir elm sahibi Allahlıq iddiası etməz, amma mal sahibi Allahlıq iddiası edər, necə ki Firon etdi.

Bu məsələ haqqında mübahisə edən Kufə və Bəsrə əhli Əliyə (ə) təşəkkür edib, razılıqla oradan qayıtdılar.

Allah-Təala bizə elm öyrənməyi və Ona itaət etməyi vacib buyurub, cahillikdən və günahdan uzaq olmağı əmr edib.

Şair gözəl deyib:

*Cahil qala bir kəs, necə insafə rəvadır,*
*Cahil qalanın hər işi nöqsanü xətadır.*
*Aləmdə işıq alimin elmilə ziyadır,*
*Həm rahi- hidayətdə qalanlar üləmadır.*

Doğurdan da, aləmdə çox şeylər elmin işığı ilə icad olub. Alimin elmi ilə (elektrik) yaranıb, təxminən 300 il bundan əvvəl hələ elektrik kəşf

olunmamışdan neçə əsr əvvəl yaşamış, möminlər ağası Həzrət Əli (ə) elektrik haqda "Divani-Əmir" də bizə xəbər verir.

Rəvayət: Bir gün bir yəhudi alim (riyaziyyatçı) Həzrət Əlinin (ə) yanına gəlib, sual etdi. "Ey bütün elmləri dirildə bilən İmam! Elə bir ədəd de ki, 1-dən 10-a qədər bütün rəqəmlərə bölünsün və qalıqsız qalsın."

Həzrət Əli (ə) ondan soruşdu ki, əgər verdiyin sualın cavabını desəm, İslamı qəbul edərsənmi?

Yəhudi alim cavab verdi. Əlbəttə, qəbul edərəm.

Həzrət Əli (ə) bir ayağı yerdə, o biri ayağı elə üzəngidə buyurdu:

Sən həftənin günlərini vur çevrənin tam dərəcəsinə. Və o biri ayağını da üzəngiyə keçirib atına süvar oldu.

Yəhudi alim 7-ni 360-a vurub 2520 ədədini aldı. Sonra yenə öz fikrində hesabladı.

| | |
|---|---|
| 2520 : 1 = 2520 | 2520 : 6 = 420 |
| 2520 : 2 = 1260 | 2520 : 7 = 360 |
| 2520 : 3 = 840 | 2520 : 8 = 315 |
| 2520 : 4 = 630 | 2520 : 9 = 280 |
| 2520 : 5 = 504 | 2520 : 10 = 252. |

Yəhudi alim heyrət içində qışqırdı: "Ey həqq olan alim, İmam, mən İslamı qəbul edib müsəlman oldum və şəhadət verirəm: "Əşhədu ənla ilahə illəllah və Əşhədu ənnə Muhəmmədən Rəsuləllah."

Həzrət Əli (ə) İslamı qəbul etmiş şəxsə yenidən buyurdu: "Dünyadə zahidlər o kəslərdir ki, etdikləri nəsihətə özləri də əməl edərlər, xalqı Allahın qəzəbindən çəkindirib, özləri də çəkinərlər, başqalarını şəriətə əməl etməyə çağırarlar, özləri də əməl edərlər. Düzgün nəsihət vermək özü də bir əməldir. Elm 2 cürdür: biri dil ilə deyilir ki, onun sahibi üçün hüccət və dəlildir. O biri isə qəlb ilə ifadə olunur ki, o da ona əməl edən şəxsə xeyir verir. İman isə arzu ilə deyil, qəlbdə sabit olmaqla və bədən üzvlərilə əmələ gətirməklə hasil olur. Fəhmsiz (düşüncəsiz) o şəxsdir ki, öz elminə əməl etməz."

İmam Əli (ə) buyurur: " Elm öyrənin və elmi helmlə, vüqarla birlikdə öyrənin. Həqiqətən, elm mömінin dostu, helm isə vəziridir.

"Elm öyrəndiyiniz, həmçinin öyrətdiyiniz hər bir şəxsə qarşı təvazökarlıq edin."

"Həyat (dirilik) elmilədir."

"(Allah qarşısında) təvazökarlıq elmin səmərəsidir."[1]

"Elm haqqa doğru yol göstərir."

"Elm öyrənin, təki onunla tanınasınız və elmə əməl edin, təki elm əhlindən olasınız."

---

[1] "Qürərül-Hikəm"

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Elm iki həyatdan biridir.”

“Xeyir – mal dövlət və ya övladın çoxluğu deyil, əksinə, elmin artması, helm və dözümlülüyünün (qəlbdə) böyüməsi və insanları Allahın bəndəliyinə çağırmaqdır.”

“İki şəxs doymaz: 1. Elm tələb edən ; 2. Dünya tələb edən.”

“Münafiqin biliyi dilində, möminin biliyi isə əməlindədir.”[1]

Bu bölümü Həzrət Əlinin (ə) bir hədisi ilə yekunlaşdırırıq.

Əli (ə) buyurdu: “Ürəyiniz hər nə istəyirsə, məndən soruşun.” Əmirəl-mömininindən sonra bir neçə şəxs bu hədisi özlərinə nisbət verib deyirdilər: “Məndən soruşun və cavabını alın.”

Bu fikirdə olanlaran biri də Bəsrənin fəqihi Qutadə idi. Bir gün minbər üstündə camaata dedi: “Hər nə istəyirsiniz, məndən soruşun.” Əhli-Sünnətdən olan Əbu Hənifə birisindən ondan bir sual etməyi təkid etdi. Həmin şəxs ayağa qalxıb dedi: “Həzrət Süleymanla söhbət edən qarışqa erkək idi, yoxsa dişi?”

Qütadə bu suala cavab verə bilmədi.

Amma Əli (ə) bir gün Malik Əştər, ya Əmmarla yoldan keçirmiş. Gördülər ki, kolluqdan çoxlu qarışqa çıxır. Əmmar dedi: “Çox böyük şəxsiyyət o adamdır ki, bu qarışqaların sayını desin.”

Həzrət Əli (ə) onlara baxdı və dedi: “De ki, böyük o şəxsdir ki, bunları yaradıb. De: “Allah böyükdür. Mən bunların sayını bilirəm. Hətta erkək-dişi olmaları ilə bərabər, onların xüsusiyyətlərini də bilirəm. İstəsən, sənə deyə bilərəm.”




[1] “Mizanil-Hikmət”, cild 1, səh 170

# VII FƏSİL

# ƏLİ (Ə) ŞAİRLƏRİN GÖZÜ İLƏ

*Binəvayəm, məskənim zəncirü zindan, ya Əli,*
*Tut əlimdən, binəvayə əl tutansan, ya Əli!*

*Mənzilimdir tülkülər zindanı, ey Şiri-xuda,*
*Dişlərimlə çeynərəm zənciri hər an, ya Əli!*

*Mən qızardılmış dəmirdim, kürədən qaldırdılar,*
*Ta ki, əzsinlər alıb çəgiclə zindan, ya Əli!*

*Ağlayır dostlar məzarıstanda, düşmənlər fəqət,*
*Cümcümə tək diş agardır şadu xəndan, ya Əli!*

*Olmasam Əyyub da, ondan səbrim artıqdır mənim,*
*Olmasam Yusif də, çox məhbusam ondan, ya Əli!*

*Heyif, sən yoxsan, bizim alçaq, gödəkdir qəddimiz,*
*Şərimsarıq boy-buxunlu lovğalardan, ya Əli!*

*Bir günahkar dərdliyəm, var ehtiyacım lütfünə,*
*Dərdlilər dərman rica eylər qapından, ya Əli!*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Bismillahir-rəhmanir-rəhim**

“Kitabi-Dədə-Qorqud” dastanında da Həzrət Əli (ə) və onun övladları haqqında rəngarəng şeir nümunələrinə rast gəlirik:

*Sənə “Ağac!” “Ağac!” deyirəmsə, çəkinmə ağac!*
*Məkkə ilə Mədinənin qapısı ağac!*
*Əlinin Düldülünün yəhəri ağac!*
*Əlinin qılıncının qınıyla dəstəyi ağac!*
*İmam Həsənlə Hüseynin beşiyi ağac!*

* * *

*Qılınc çaldı, din açdı Şahi-Mərdan,*
*Əli görklü,*
*Əlinin oğulları, Peyğəmbər nəvələri*
*Kərbəla yazısında*
*Yezidlər əlində şəhid oldu.*
*Həsənlə Hüseyn iki qardaş belə görklü,*
*Yazılıb, düzülüb göydən endi Tanrı elmi,*
*Quran görklü.*

“Dədə Qorqud” dastanından gətirilən bu nümunələrdə İmam Əlinin (ə) qəhrəmanlığı, dində, ibadətdə, imanda, səxavətdə, ədalətdə, hikmətdə birinciliyi, ən ali xüsusiyyətləri vəsf olunmuş və oğulları İmam Həsənlə imam Hüseynin faciəsi xatırlanmışdır.

Klassik Şərq ədəbiyyatında Həzrət Əlinin (ə) mədhi xüsusunda bir çox şairlər qələmlərini sınamışlar. Bu bənzərsiz və dahi şəxsin vəsfi müasirlərindən Həssan Bin Sabitdən üzü bəri Əli (ə) məddahlarının yaradıcılığının ana xəttini təşkil etmişdir. Peyğəmbər (s) “Qədir-Xum” çölündə Əlini (ə) Allah-Təalanın hökmü ilə öz vəsisi və canişini təyin edərkən Həssan Bin Sabit bu münasibətlə bir qəsidə yazdığını Peyğəmbərə (s) söyləyir. Peyğəmbər (s) Həssana buyurur ki, qəsidəni oxusun. Həssan İbn Sabit “Qədir-Xum” haqda yazdığı qəsidəni oxumağa başlayır. Qəsidə bu sözlərlə başlayır:

*“Yunadiyhim yovməl ğədir nəbiyyihum,*
*Bixummin və əsmi, binəbiyyi münadiyən,*
*Və qalə fəmən mövlakum və vəliyyukum?*
*Fə qalu və ləm yubdu hunakə təadiyən.*
*İlahukə mövlanə və əntə vəliyyuna.*
*Və lən təcidən mina ləkəl yovmə asiya.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Fə qalə ləhu qum ya Əliyyu və innəni,*
*Rəziytukə min bədi imamən və hadiyən.*
*Fəmən küntü mövlahu fəhaza vəliyyuhu,*
*Fəkunu ləhu ənsarə sidqin muvaliyən.*
*Hunakə də Əllahummə vali vəliyyəhu,*
*Və kun lilləzi ada Əliyyən muadiyə".*

Tərcüməsi:

"Qədir-Xum" günü müsəlmanları Peyğəmbər (s) səslədi. Elə səslədi ki, nidasını hamı eşitdi. O, buyurdu: "Sizin əmr edəniniz, böyüyünüz və ixtiyar sahibiniz kimdir?" Hamı ixtilafsız dedi: "Sənin Allahın mövlamızdır. Və hökmü keçənimizdir, sən bizim sahibi-ixtiyarımızsan. Bu gün bizdən sənə qarşı nə ixtilaf, nə də əmrindən çıxmaq var." Onda Peyğəmbər (s) Əliyə (ə) buyurdu: "Ya Əli, ayağa qalx. Mən səni insanların imamət və hidayəti üçün özümdən sonra canişin seçdim". Sonra müsəlmanlara dedi: "Hər kəs ki, mən ona mövlayam, Əli də onun mövlasıdır. Və siz də onun dostları və yoldaşları olun" və bu yerdə dua etdi: "Allah, Əlinin (ə) dostlarını dost, düşmənlərini düşmən tut."

Həsən ibn Sabit "Qədir-Xum" günündə olan hadisələri qələm almaqla çox böyük tarixi əhəmiyyət kəsb edən mövzunu açıqlamış və Əlinin (ə) canişinlik məsələsini xalqa çatdırmışdır. "Qədir-Xum" haqda bir çox şairlər qəsidələr yazmışlar. O şairlərdən biri də Zikri Ərdəbilidir. Şair yazır:

*İnkar edən vilayəti-övladi-Heydərə,*
*Billah, gəlir cəzada üzü qarə məhşərə.*

*Hər kəs onu vəsiyyi-bilafəsl bilməsə,*
*Müşrükdü, ağ olubdu cənabi-Peyğəmbərə.*

*Ey meyl edən cifeyi-dünyayə, nə yatmısan,*
*Aldanma dövlətə, özüvü salma şeştərə.*

*Dünyadan ötrü danma Əlinin vilayətin,*
*Şəkk eyləmə vilayəti-övladi-Heydərə.*

*Zikri, həmişə daməni-mövlaya çak vur,*
*Bağla müdam eşqüvi mövlayi-Qənbərə.*

*Hübbi-Əli ola hər kimin qəlbində zərrəcə,*
*Alnı açıq, inan, gələcək ruzi-məhşərə.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Şeirə və şairlərə Həzrət Əlinin (ə) özü də böyük diqqət yetirmiş, hətta Əli (ə) özü də şeir söyləmişdir. Həzrət Əlinin (ə) "Divani-Əmirəl-möminin" adlı əsəri bütövlükdə nəzmlə qələmə alınmışdır. Mərhum Mühəddisi Qumi "Səfinətül-Bihar" əsərinin 1-ci cildində (703-cü səhifədə) Əlinin (ə) bir neçə beytlik şeirini nəql etmişdir. Əş-şəbi Əlinin (ə) xüsusunda belə demişdir: "Əbu Bəkr şeir deyibdir, Ömər də, Osman da şeir deyibdir. Lakin Əli (ə) bunların hər üçündən daha şeiriyyətlidir."

Həzrət Əli (ə) haqqında yazılan mədhiyyələri araşdırarkən, ilk olaraq xatirə Ş.İ.Xətai gəlir. Şairin yaradıcılığının, belə demək olarsa, ana xəttini Əlinin (ə) mədhi təşkil edir. Bir qəzəlində Ş.İ.Xətai Həzrət Əli (ə) haqqında yazır:

*Eylə sultandır ki, yoxdur misli, həm həmta ona,*
*Buyruğundan kim, onun çıxmaz şəhi-mirü gəda.*

Əgər Ş.İ.Xətai irsini araşdırsaq, bir ayrı mövzu da onun Əli (ə) haqqında yazdığı mədhiyyələrə həsr etmək olar. Lakin biz burada Ş.İ.Xətainin bir qəzəlinin açıqlaması ilə kifayətlənəcəyik:

*Hüsn ilə ziba imişsən, ya Əli, səndən mədəd,*
*Görk içində "ba" imişsən, ya Əli, səndən mədəd.*

*Eşq ilə məşuqü aşiq səndə olmuşdur zühur,*
*Sirri-mafiha imişsən, ya Əli, səndən mədəd.*

Şair bu misralarda qeyd edir ki, Əli (ə) vəhyin sirridir, Əli (ə) vəhyin özüdür. Əli (ə) Kərim Allahın əta etdiyi eşqdir, Əli (ə) eşqi özündə cilvələndirən məşuqdur. Əli (ə) ilahi aşiqdir:

*Eşq oxurlar adını rahi-həqiqətdə sənin,*
*Eşq ilə şeyda imişsən, ya Əli, səndən mədəd.*

*Övliyalər, ənbiyalər çoxdurur, illa ki sən*
*Cümlədən əla imişsən, ya Əli, səndən mədəd.*

*Möminə irşad edirsən lütfü ehsanü kərəm,*
*Kafirə qövğa imişsən, ya Əli, səndən mədəd.*

Əlini (ə) sevmək imandan, onunla düşmənçilik etmək isə küfrdəndir.

*Yerdə, göydə istəmir şol kor münafiqlər səni,*
*Zahirən peyda imişsən, ya Əli, səndən mədəd.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Qisməti – ruzi-əzəldə həm muini-Mustəfa,*
*Nərgizi-şəhla imişsən, ya Əli, səndən mədəd.*

*Anca kim, seyr eylədim, gəzdim vücudin şəhrini,*
*Misli-bihəmta imişsən, ya Əli, səndən mədəd.*

Əli (ə) fitrətdən iman ilə yoğrulmuşdur; zatən kamil şəxslər belə olur. Necə ki, “Məryəm” surəsinin 12-ci ayəsi buna misal ola bilər. Həzrət Yəhya (ə) haqqında bu ayədə Allah-Təala buyurub: “Ətyənəhul hukmə sabiyyə”, yəni “Biz ona uşaq olduğu zaman hikmət verdik.”

*Bu Xətai xəstədi, birliginə iqrar edir,*
*Vahidi-yekta imişsən, ya Əli, səndən mədəd.*

Səfəvilər dövlətinin banisi Ş.İ.Xətai şiəliyi rəsmi dövlət dini mövqeyinə qaldirmiş və özünün seyyid nəslindən olması ilə fəxr etmişdir. Onu da qeyd etmək yerinə düşər ki, Ş.İ.Xətai Həzrət Əlinin (ə) əqidə və əxlaq məsləkdaşı olub və zatının Əlinin (ə) zatı ilə bağlı olduğunu qeyd edərək yazmışdır:

*Xətaiyəm, al atlıyam,*
*Sözü şəkərdən dadlıyam.*
*Mürtəza Əli zatlıyam,*
*Qazilər deyən Şah mənəm.*

Və yaxud:

*İmamımdır mənim ol Şahi-Mərdan,*
*Bu gün nəsli-Əli divanə gəldim.*

Ş.İ.Xətai yaradıcılığına nəzər saldıqca, Əliyə (ə) qarşı olan dərin məhəbbət və sevginin şahidi oluruq:

*Ya Əli, canım sənə olsun fəda,*
*Qul-kəfadir şəninə həqdən nida.*
*Bu Xətai könlünə qıldın nüzul,*
*Mərhəba, ey şahi-aləm, mərhəba.*

*Mən məvali-məzhəbəm, rahım Əli,*
*Hacətim, zikrim, nəzərgahım Əli.*
*Oldu ənqa tək Xətai bivücud,*
*Qafi-qüdrət, sirri-Allahım Əli.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ş.İ.Xətai şeirlərinin birində özünü "Səgi-dəri-Əli" – "Əli qapısının iti" hesab etmişdir.

*Xətainin deyil həqqi, "şaha qulam" deyə bilmək,*
*Əgər xidmət qəbul olsa, onun mövlası Qəmbərdir.*

Hürufilik elminin təbliğatçısı və mahir bilicisi S.İ.Nəsimi Əhli-beyt(ə) aşiqi kimi tanınmış, Əlinin (ə) və imamların məhəbbətini özü üçün meyar sanmışdır:

*Mən qulami-xanədanam, padişahımdır Əli,*
*Ehtiyacım onadır, püştü-pənahımdır Əli.*
*Könlümü qıldı münəvvər, mehri-mahımdır Əli,*
*Qibləgahımdır Muhəmməd, səcdəgahımdır Əli.*

S.İ.Nəsimi bir çox şeirlərində Əliyə (ə) olan sonsuz məhəbbətini qələmə alaraq yazır:

*"İnnəmahu", "Həl ətavü"l, "la fəta" şəhrinə gir,*
*"Əyn"u "lam"u "yey"dən özgə varmıdır canan bizə.*

Bu beytin birinci misrasında "innəma vəliyukumullah"[1] ayəsi "Həl-əta" surəsi və "la fəta illa Əli, la seyfə illa Zülfüqar" hədisindən bəhs edən şair 2-ci misrada bu şəxsin adını açıqlayır; bu adın Əlinin (ə) "Əyn", "lam" və "yey" hərflərindən ibarət olan mübarək adı olduğunu və Əlinin (ə) şəninə nazil olan ayələrin Peyğəmbər (s) tərəfindən saysız-hesabsız buyurulan hədislərin bizə Peyğəmbərdən(s) sonra Əlinin (ə) rəhbər olduğunu çatdırdığını vurğulayır:

*Bu Nəsimi binəvadır, vəsfinizdə neyləsin,*
*Sübhü şamü sözlərisiz, ya Muhəmməd, ya Əli.*

Klassik ədəbiyyatımızda xüsusi yeri olan şairlərimizdən biri də Xaqani Şirvanidir. Şair Mövla Əlini (ə) yüksək elm və mərifət sahibi kimi tanıtdıraraq yazır:

*Qoysalar da şeirimə qarşı çürük hədyanları,*
*Bu Turabın qarşısında bu Ləhəbin yox yeri.*

Şair bu beytdə qeyd edir ki, Həzrət Əlinin (ə) müqabilində Əbu Ləhəb kimi müşriklərə yer yoxdur.

---

[1]"Maidə" surəsi, ayə 55

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Ey hidayət əlinin Zülfüqarı, pas at ki,*
*Elmin Əbu Turabı torpaqda oldu pünhan.*

Bu beytdə isə şair Əlinin (ə) elmin ən yüksək zirvəsində olduğunu söyləyir.

Şərq dünyasının dahi şairlərindən biri də Firdovsidir. Şair məhşur “Şahnamə” əsərində dəfələrlə imam Əlinin (ə) mübarək adını xatırlayaraq, ona qarşı olan sevgi və məhəbbətini Peyğəmbərin (s) dili ilə vəsf edir.

*Xəlifə olub növbət ilə Əli,*
*Muhəmməd onu vəsf edibdir, bəli!*
*Demiş ki, Əli olmasaydı əgər,*
*Qazanmazdı İslam bunca zəfər.*

Sultan Mahmuda ünvanladığı başqa bir şeirdə Firdovsi özünü Peyğəmbərin (s) qulu, yolunun isə hər zaman Əli (ə) yolu olduğunu xatırladır:

*Kimin ki, Əli ilə düşmənliyi var,*
*Hər iki dünyada olacaqdır xar.*

*Mən kiməm? Nəbinin kiçik bir qulu,*
*Yolumdur hər zaman Əlinin yolu.*

*Əlinin, Nəbinin yazdım adından,*
*Dürr yağar şeirimin hər qanadından.*

XVI əsrin böyük söz ustadı olan Mövlana Məhəmməd Füzuli də öz yaradıcılığında Həzrət Əliyə (ə) xüsusi yer ayırmışdır. Əbədiyaşar beytləri ilə Azərbaycan klassik ədəbiyyatını rövnəqləndirən şair, sözün əsl mənasında, Əli (ə) aşiqi olmuşdur. Peyğəmbərlə (s) Əlini(ə) müqayisə edən şair yazır:

*Dedi Əhməd: Əli mənlə olub Harunla Musa tək,*
*Şəriklik rəmzi var bunda, kəmali-cahü izzətdü.*

*“Nübuvvətdə Əlinin dəxli yoxdur”-ey deyən kimsə,*
*Nübuvvət əmrinə şirkət deyil, bu hifzi-ümmətdü.*

*Deyirlər dari-dünyadan gedən vəqtində Peyğəmbər,*
*Əlini söyləmişdir, hifz qılmaq eyni-itrətdir.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1-ci beytdə şair Peyğəmbərin (s) Təbuk müharibəsinə gedərkən Əlini(ə) öz yerinə vəsi qoyaraq, “Mənzilət” hədisini buyurduğunu qələmə alıb. Hədisdə buyurulub: “Ya Əli, sənin mənimlə nisbətin Harunun Musaya olan nisbəti kimidir, bir şərtlə ki, məndən sonra Peyğəmbər olmayacaq.”[1]

2-ci beytdə “Nübuvvətdə Əlinin (ə) dəxli yoxdur” iddiasında olanlara şair cavab verir ki, bu nübuvvətdən deyil. Çünki yuxarıdakı hədisdən də aşkar gördük ki, Peyğəmbər (s) açıq-aşkar bildirib ki, “İllə ənnəhu lə nəbiyyə bədi” – ”Məndən sonra Nəbi olmayacaq.” Əli (ə) sadəcə olaraq, Peyğəmbərin canişinidir ki, ümmətin malını, canını və namusunu hifz eləsin.

Şair 3-cü beytdə hədisi-səqəleyndən söhbət açır. Peyğəmbər (s) vəfatı zamanı ümmətə iki ağır əmanəti hifz etməyi vəsiyyət etmişdir ki, bu iki əmanət Quran və Əhli-beyti-Rəsulullah idi. Bu iki əmanəti də özündə birləşdirən Həzrət Əli (ə) idi.

*Mənim həmişə işim tək Əlinin tərifidir,*
*Bir özgə işlərə yoxdur könüldə vəqt, məcal.*

M.Füzuli Əlinin (ə) elmi, fəziləti, ibadəti və səxavəti qarşısında özünün kiçikliyini duyur və deyir:

*Əmirəl-möminin Heydər, Əli ibn Əbu Talib,*
*Ki, hər fazildən əfzəlsən və hər bir elmdə ələm.*

Eyni zamanda,

*“Tövbə qıldıq, ömrümüzdə kimsəni mədh etməyək,*
*Bir Əli, bir də onun övladi-pakindən səva”, –*

deyərək tərif edən şair yalnız Əlinin (ə) qapısında xidmət etməyi və Əlidən(ə) qeyri sultanı tərif etməməyi qarşısına məqsəd qoyur:

*Gəda tək ummaram pay süfrəsindən bir kəsin, amma*
*Könül istər Əlinin asitanında gəda olsun.*

*Dilim varmaz Əlidən qeyri bir sultanı mədh etsin,*
*Budur arzum ki, məmduhim Əliyəl-Mürtəza olsun.*

Füzuli məktəbinin layiqli davamçılarından olan, Əhli-beyt(ə) şairi S.Ə.Şirvani də Əli (ə) aşiqi olmuşdur:

---
[1]“Bihar-ul-ənvar”, 21-ci cild, səh. 207

*Seyyida, eyləmə övsafi-Əlidən qeyri,*
*Ömrünü sərf eyləmə hər yetən əfsanə üçün, –*

deyən şair Əlini (ə) bütün insanların pənahı və bəşəriyyətin xilaskarı kimi tanıtdırır.

*Könül, qəm çəkə müflislər pənahı,*
*Vəliyyül-həq, Əliyyül-Mürtəzadır.*
*Onun vəssafi-zatı bimisali,*
*Hamı Quran nə tənha həl-ətadır.*

Şair Əlinin (ə) zatının saflığından, müqəddəsliyindən söz açaraq yazır:

*Gər zati-həqqi bulmaq dilərsən,*
*Əğyari tərk et, tap Mürtəzani.*

*Aləmdə yoxdur bir ondan özgə,*
*Əhvəl deyilsən, bir görsən ani.*

*Zati-Mühəmməd, zati-Əlidir,*
*İki bədəndə bir bil o canı.*

Digər bir qəzəlində S.Ə.Şirvani "Nadi-Əli" duasını oxuyaraq müşküldən qurtuluş yolunu göstərir:

*Seyyid düşəndə möhnətə Nadi-Əli oxur,*
*Müşkülgüşa cahanda şəhi-lafəta imiş.*

"Nadi-Əli" duası uzun bir duadır və özünə məxsus xüsusiyyətləri vardır. Belə ki, hər kəs ardıcıl olaraq 11 gün ərzində Yasin surəsini oxuyub və surədəki hər "Mubinə" çatdıqda ("Yasin" surəsində 7 yerdə "mubin" sözü işlənmişdir) bu duanı oxusa, yuxuda Həzrət Əlini (ə) görə bilər. Müşkül bir iş üçün və övlad sahibi olmaq üçün bu dua 7 dəfə oxunur, ruzi üçün sübh vaxtı 9 dəfə, borcu qaytarmaq üçün 15 gün ərzində 22 dəfə oxunur. Bu sadalanan xüsusiyyətlərdən başqa bu duanın başqa üstünlükləri də vardır.

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən biri də S.Ə.Nəbatidir. Ədəbiyyatımızda Nəbati də Əli (ə) aşiqlərindən biri kimi tanınmışdır.

*Ey şah, ey Şəhriyar, bu binəvanı,*
*Nurlu günəş kimi lütfünlə bəzə.*

*"Əli" çağır, "Əli" çağır, Əli axtar, Əli axtar,*
*"Hu-hu" ya çatanda bu addan keç.*

*Nəbati, "Əli" çağır ki, nicat tapasan,*
*Nə qədər ki həyatdasan, onun adını əzbər oxu".*

Şairin farscadan sətri tərcümə edilmiş bu beytində insanları Əlini (ə) sevməyə və mətləb-muradlarını Əlini (ə) şəfi (vasitə) edərək almağa çağırır:

*Mənim aləmdə sultanım Əlidir,*
*Mənim miri-cahanbanım Əlidir.*

*Behişti zahidə verdim sərasər,*
*Mənim behişti-rizvanım Əlidir.*

*Nə Dara tanıram, nə də İsgəndər,*
*Mənim fəğfuru xaqanım Əlidir.*

*Əgər hər kimsənin bir şahı olsa,*
*Mənim də şahi-şahanım Əlidir.*

*Deyər daim dilində Xançobanı,*
*Mənim hər dərdə dərmanım Əlidir.*

Həzrət Əliyə (ə) böyük məhəbbət bəsləyən şair xalqa çatdırır ki, bütün müşkül işlərin çarəsi Həzrət Əlidədir. Hər kəsin mətləb-muradı, arzu-istəyi olsa, Əlini (ə) şəfi edərək Allahdan istəsinlər. Adlı-sanlı xaqanlara şahlıq bəxş edən Əlidir.

*Ey dili-müstəməndi-xunaşam,*
*Üz çevir bircə şahi-şahanə.*
*Miri-yəsrib, xədivi-küllü-üməm,*
*Şiri-yəzdan Əliyyi-İmranə.*

*Şahi-müşkülgüşa Əlidir, Əli,*
*Ki, verir nəzm çərxi-gərdanə,*
*İstə ondan muradi-mətləbini,*
*Hər nədir, qorxma, mərdi-mərdanə.*

Göründüyü kimi, şair bu misraları ilə insanlara çatdırır ki, Əlini (ə) sevin ki, arzularınız çin olsun. Şair yazdığı gəraylılarında da Həzrət Əliyə (ə) sonsuz məhəbbətini büruzə vermişdir:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Nəbati, çək "Əli", "Əli",*
*Könlün olsun cəli, cəli.*
*Onu Allah, bəli, bəli,*
*Bu dildə əzbər yaradıb.*

Və yaxud:

*Qəm eyləmə, Xançobanı,*
*Tapıldı dərdin dərmanı.*
*Yad elə Şahi-Mərdanı,*
*Bir "Əli" çək cigərdən sən.*

Həzrət Əlinin (ə) haqqında sünniməzhəb şairlər də mədhiyyələr yazmışlar. XVI əsrdə yaşayıb-yaratmış türk-osmanlı şairlərindən olan Vəsli Rumi Əlinin (ə) şəninə təriflər söyləyərək, Əliyə (ə) olan məhəbbətini insanlara çatdırır:

*Rutbeyi-çarümdə əshabi-kiramın sərvəri,*
*Heydəri-kərrardır Ali-Əbanın məfxəri.*

*Xələti-faxir kimi geydi şücayət kisvətin,*
*Əmri-mövla ilə qəl etdi o babi-Xeybəri.*

*Əl vurunca Zülfüqarə, titrədi aləm tamam,*
*Madəri-dünya gözü görsün, qoy, günə sərvəri.*

*Müxbiri-sadiq qamu övsafını zikr etdi həm,*
*Elm babı olduğuyçün, oldu millət rəhbəri.*

*Gövhəri-pak ilə həm övsafdə Məhmud idi,*
*Elmü helm ilə müzəyyən, övliyalər zivəri.*

*Hatəmü Neman onun bir rizəxari-neməti,*
*Qeysəri-Rum ilə Kəsra bir gədayi-kəmtəri.*

*Gərçi bir kəmtər gəda nətində acizsən, vəli,*
*Vəsliya, cəddin durur, mədh eylə Şahi-Heydəri.*

Tarixdən məlum olduğu kimi, ustad şairlərdən olan M.P.Vaqif ilə M.V.Vidadi səmimi dost olublar. Və o da məlumdur ki, Vaqif şiəməzhəb, Vidadi isə sünniməzhəb olmuşdur. Lakin məzhəb ayrılığı bu dostluqa xələl gətirməmişdir. Vidadi Vaqifə yazırdı ki:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Mələklər ki, gələr Sahib-İzzətdən,*
*Ayıran mömini asi millətdən,*
*Görər ki, deyilsən əhli-sünnətdən,*
*Səni yolum-yolum yolar, ağlarsan.*

Vaqif isə cavabında Vidadiyə yazır:

*Qıl körpüdən çün sürüşər ayağın,*
*Cəhənnəm xovfindən yarılar yağın.*
*Qorxma, yenə Əli olur dayağın,*
*Əgər anıb həştü cahar, ağlarsan.*

*Vaqif, gərçi, əzabı var dünyanın,*
*Tutubsan ətəyin Şahi-Mərdanın.*
*Sən neçün xovfini çəkərsən anın,*
*O gülər, gülərsən, ağlar, ağlarsan.*

Vaqif şair dostunu başa salmaq istəyir ki, onu cəhənnəm əzabından Əlinin (ə) şəfaəti qurtara bilər. M.P.Vaqif digər bir qoşmasında öz mətləb-muradın Şahi-Heydərdən, yəni Əlidən (ə) istəyir:

*Mətlubum istərəm Şahi-Heydərdən,*
*Sahibi-Zülfüqar, Şahi-Qəmbərdən,*
*Biçarə Vaqifi salma nəzərdən,*
*Qul xətasız olmaz, ağa kərəmsiz!*

Şərqin dahi şairi, 14 rəvayətdə Quranı hafizədən oxuyan Hafiz Şirazi Həzrət Əlinin (ə) Xeybər müharibəsindəki qələbəsini qələmə alaraq, onun şücaətindən, igidliyindən söz açır:

*Mərdi ze könəndeyi dər-e Xeybər pors,*
*Əsrare kərəm ze xaceye Qənbər pors.*

Tərcüməsi:

*İgidliyi Xeybər qapısını çıxarandan soruş,*
*Kərəmin sirrini Qənbərin ağasından soruş.*

* * *

*“Hafez”, əgər qələm zəni dər rəh-e xaneda be sidq*
*Bedərqeye rəhət şəvəd hemmet-e şehneye Nəcəf.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Tərcüməsi:

*Hafiz, əgər xanadan yolunda sədaqətli olsan,*
*Nəcəfin himmət sahibi sənin yol göstərənin olar.*

Hafiz Şirazi, bu beytlərdən də göründüyü kimi, Əliyə (ə) qəlbən vurğun olmuşdur.

Əliyə (ə) qəlbən bağlı olmuş görkəmli şairlərdən biri də Əli Nəzmi Təbrizi olmuşdur. Şair Əlinin (ə) yolunda hər iki dünyanın mətahından keçməyə hazır olduğunu bildirmişdir.

*Əgər məta-e do aləm be dəste mən başəd,*
*Fedaye nam-e Əli mikonəm, be can-e Əli.*

*Əgər to niz çu mən, bəndeye qonahkare,*
*Becu şəfaəte fərda ze xanadane Əli.*

Tərcüməsi:

*Əgər hər iki dünyanın mətahı əlimdə olsa,*
*Əlinin adına və canına fəda edərəm.*

*Əgər sən də mənim tək günahkar bəndəsənsə,*
*Hər sabah Əlinin xanadanında şəfaət axtar.*

Həzrət Əli (ə) buyurub: “Ərəftu rəbbi bi rəbbi” -Allahımı Allahımla tanıdım.” Molla Möhsün Feyz Kaşani Əlinin (ə) bu mübarək hədisindən bəhrələnərək, Əliyə (ə) aşiq olmaqla Allaha aşiq olduğunu, Əlini (ə) tanımaqla Allahı tanıdığını və Əliyə (ə) məhəbbət göstərməklə iki dünyanın nemətinə nail olduğunu yazır:

*Əz nur-e nəbi vaqef-e rah şodim,*
*Vəz mehr-e Əli arefe-Əllah şodim.*

*Əz mehr-e Əliyo məhr-e övlade Əli,*
*Məhsul do aləm-e mən-o hasel-e mən.*

Mənası:

*Peyğəmbərin nurundan bu yoldan agah oldum,*
*Əlinin eşqindən Allaha arif oldum.*

*Əli və övladlarının məhəbbətindən,*
*İki aləmin nemətini qazandım.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Şah Nemətullah Vəli Əlini(ə) insanlığın meyarı, Rəsulullahın dostu, batində günəş, zahirdə ay kimi səciyyələndirir.

*Seyyid-e ovşiya, Əliyyi vəli,*
*An ki, aləm tən əst-o can əst.*

*Gər ce mən can-e aləməş qoftəm,*
*Qələti qofteəm, ke canan əst.*

*Dusti-Rəsul o al-e Rəsul,*
*Nəzd-e momin kəmale iman əst.*

*Batenen şəms-o zahirən mah əst,*
*Nure hər do be xəlq təban əst.*

*Ru rezaye Əli bedəst avər,*
*Gər tora eştiyağ-e rezvan əst.*

Tərcüməsi:

*Övliyaların Seyyidi, Əliyyun Vəli,*
*Dünya bədəndir, o candır.*
*Əgər mən ona aləmin canı dedimsə,*
*Qələt dedim, o, canandır.*
*Rəsul və ali Rəsulun dostudur,*
*Möminlərin yanında imanın kəmalıdır.*
*Batində günəş, zahirdə aydır,*
*Hər ikisinin nurunu xalqa saçandır.*
*Əgər behişt arzusundasansa,*
*Əlinin razılığını əldə et.*

Klassik ədəbiyyyatımızda öz dəsti-xətti ilə tanınan şairlərdən biri də Şüaidir.

*Sakit ol, bəsdi, Şüai, nədi bu çunu-çəra?!*
*Sən hara, mədhi-Əli, sərvəri-mərdan hara?*

Şair bu misralarda Həzrət Əlini (ə) mədh etməyi hünər sayaraq özünə sual verir ki, ey Şüai, sən Allahın, Peyğəmbərin (s) və məsum şəxslərin (14 məsum) tərif etdiyi şəxsi necə tərif edə bilərsən?

Şirvan torpağının qüdrətli şairlərindən olan, keşməkeşli ömür sürmüş Nişat Şirvani də təcavüzkarların zülmü qarşısında aciz qalarkən İmam Əlidən (ə) imdad diləyir və ondan kömək istəyir:

*Ya Əmirəl-möminin, Heydər, Şahi-Mərdan, haray!*
*Hər kimin çəkdim cəfasın, bir vəfasın görmədim.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ədəbiyyatımızda “Təmkin” təxəllüslü bir şair də var ki, o da gah Əlinin (ə) şücaətindən, gah da səbrindən danışır:

*Gah verər Şiri-Xuda dəstinə Xeybər fəthin,*
*Gah qolu bağlı onu məscidə nalan gətirər.*

Birinci misrada Xeybər qalasının fəth olunmasından danışılır ki, bu döyüşdə Həzrət Əli (ə) böyük rəşadət göstərmiş, qalanın qapısını əli ilə yerindən qoparıb qalxan kimi istifadə etmişdir.

2-ci misrada isə bu rəşadətli şəxsin qolubağlı Məscidə Əbubəkrə beyətə aparılmasından söhbət açılır.

1-ci misrada Əli (ə) zərbi, qüdrəti; 2-ci misrada Əli (ə) səbri.

XIX əsrdə yaşamış Nəsrəddin şah Qacar Əlinin (ə) şəninə gözəl bir qəsidə yazmış və həmin qəsidədə Əliyə (ə) olan sonsuz məhəbbətini biruzə vermişdir. Qəsidə başdan-başa sufilik, ələlxüsus, Hürufilik çaları ilə zəngindir.

*Xaliqi-yektaya bir məxluqi-yektadı Əli,*
*La ilah-illahidə təkrar olan “La”-dır Əli.*

Kəlmeyi-tövhiddəki “La” ifadəsi təkrar olaraq “illa”-da gəlir və “başqa”, “digər”, “özgə” mənasını verir. Beytdən çıxan məna belədir ki, Allahdan başqa Allah yoxdur, əgər olsaydı, Əli (ə) olardı.

*Nur əndər nur olmuş, həm zücac əndər zücac,*
*Şişə əndər şişədə bir nuri-beyzadır Əli.*

Bu beyt “Nur” surəsi, 35-ci ayəyə istinadən söylənilib. Ayədə buyurulub: “Allah səmaların və yerin nurudur. Onun nuru içində çıraq olan taxca misalındadır; çıraq isə qəndilin (zücac) içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur”.

Nəsrəddin Şah Qacar bu ayədəki, nur və qəndildən məqsədin Əli (ə) olduğunu söyləyir. Doğrudan da, elədir. “Nisa” surəsinin 174-cü ayəsində gələn “Nur” sözü Əli (ə) və məsum imamlara aiddir. Ayədə buyurulur: “Ey insanlar, Sizə Rəbbinizdən dəlil gəlmişdir. Biz sizə aydın bir nur nazil etdik.”

Cənubi Azərbaycan şairlərindən olan Hacı Rza Sərraf Əlinin (ə) vilayətinə sığınmağı qurtuluş yolu bilir və insanları onun vilayətini tanımağa səsləyir:

*Cümlə aləm, nə qəm, olsun bizə düşmən, Sərraf,*
*Bəsdi mövlamız Əliyyi-vəliyyulah bizə.*

Yer üzərində tək bir hakimiyyət vardır ki, o da Cənabi-Haqqın vəlisinin hakim olduğu hakimiyyətdir. Şair bu beytdə deyir ki, vəliyullahın

vilayətinə sığınan şəxs hər bir zaman amandadır. Çünki bu vilayət ilahi vilayətidir.

Klassik ədəbiyyatımızın gözəl simalarından olan M.Ə.Dilsuz Əlini (ə) ürəkdən sevmiş və onun şənində gözəl qəsidələr yazmışdır. Şair "Ya Əmirəl-möminin" adlı qəsidəsini bu beytlərlə başlayır:

*Ey şahənşahi-vilayət, ya Əmirəl-möminin,*
*Ey düri-bəhri-səxavət, ya Əmirəl-möminin.*

*Sən vəsiyyi-Müstəfasan, sən vəliyyi-zülcəlal,*
*Kainat eylər şəhadət, ya Əmirəl-möminin.*

Qəsidə gözəl sözlərlə davam edir və bu beytlərlə sona çatır:

*Qoydu Peyğəmbər səni ruzi Qədir-Xummidə,*
*Ümməti içrə əmanət, ya Əmirəl-möminin.*

*Zülm ilə bu ümməti-məlun qıldı ol şahə,*
*Son əmanətə xəyanət, ya Əmirəl-möminin.*

*Səndən ötrü Məkkədə qövmi-səqifə yazdılar,*
*Məkrilə cümlə kitabət, ya Əmirəl-möminin.*

*Hər kəs əqlu huş ilə fikr etsə bu əbyatidə,*
*Var bularda çox əlamət, ya Əmirəl-möminin.*

*Hər zaman mən istərəm mədhün yazım, hər dəfədə*
*Üz verir bir özgə halət, ya Əmirəl-möminin.*

*Xaliqi-aləm bilir kim, bundan artıq üz verər,*
*Olsa hər kimdə sədaqət, ya Əmirəl-möminin.*

*Çün əlim boşdur, üzüm qarə sənin övsafivü,*
*Etmişəm əldə bəzaət, ya əmirəl-möminin.*

*Sən şəfii-müznibinsən ruzi-məhşər lütfidə,*
*Eylə "Dilsuz"ə şəfaət, ya Əmirəl-möminin.*

XIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Marağalı Əvhədi "Cami-Cəm" əsərində Peyğəmbər (s) və onun pak Əhli-beytindən(ə) söhbət açır. Şair bu əsərində Peyğəmbərin (s) əzəmətindən, insanpərvərliyindən, Əlinin (ə) cəsarətindən və mərdliyindən danışır.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Yoxdur Peyğəmbər tək bir insanpərvər,*
*Kişilik yolunu tək Əli gedər.*

Satirik şairimiz M.Ə.Sabir də Əliyə (ə) və onun pak Əhli-beytinə(ə) böyük hörmət bəsləmiş, öz yaradıcılığında Əhli-beytin(ə) şənini uca tutmuş və onlara olan sonsuz məhəbbətini bildirmişdir.

*Ümmi-Hüseyn, Ümmi-Həsən, zövceyi Əli,*
*Binti-Rəsul möcüzəsi aşikar olur.*

*Zikri-səlavat ilə şürui-kəlam edin,*
*Mədhi-Əlivü ali-Əli intişar olur.*

*Ya rəb, bu asitanidə pak eylə Sabiri,*
*Çoxdur günahı, lütfüvə ümmidvar olur.*

XIX əsrin görkəmli şairlərindən biri, sözün əsl mənasında, Əhli-beyt (ə) aşiqi, ”Kənzül-Məsaib” əsərinin müəllifi Qumri Dərbəndi Əlinin (ə) şənində iri həcmli 12 qəsidə yazmış və Əliyə (ə) olan sonsuz məhəbbətini göstərmişdir.

*Quranə diqqət eyləsə hər kim vərəq-vərəq,*
*Küllən işarədir sənə, ya Mürtəza Əli.*

*Qurani-həqqə natiq özünsən, səninlədir,*
*Hər ixtiyari-külli-cəhan, masiva, Əli.*

Bu beytlərdə şair göstərir ki, hər kəs Quranı diqqətlə oxusa, sənin şənində nazil olan ayələrin şahidi olar.

*Aşikarədür verən cahu cəlali-rütbəvə,*
*Üç yüz on üç ayeyi-Quran şəhadət, ya Əli.*

Şair Əlini (ə) hər iki dünyada özünün rəhbəri hesab edir və bununla bir çox dünyəvi şairlərin qarşısında öyünərək yazır:

*Rəhbərimdi iki dünyadə Hüseyn ibn Əli,*
*Gər varun olsa sənin də, belə mövlanı gətir.*

*Həşirdə cami-bilur əldə tutub Şiri-Xuda,*
*Buyurur təşnədü çox, Qumriyi-nalanı gətir.*

Və yaxud:

*Ver o meydən mənə, bir cürə edə məstanə,*
*Ta ki, hər kəlmeyi-nəzmim, düri-şəhvar olsun.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Ver o meydən, başıma eşq ilə sevda gətirə,*
*Söhbətim məclisi-ürfanə səzavər olsun.*

*Elə mey ver ki, ola hər nəfəsim mədhi-Əli,*
*O Əliyyibni-Əmi Əhmədi-Muxtar olsun.*

*Hani Qumridə o qüdrət, ola məddahi-Əli,*
*Mülhəmi-qeybi məgərinki mədadkar olsun.*

XIX əsr şairlərindən biri də mərsiyyə ədəbiyyatının tacı sayılan Əbülhəsən Racidir. Şair Əliyə (ə) sonsuz məhəbbətini bir beytdə belə ifadə edir:

*Yazmaz məgər övsafi-Əli xaməm edib əhd,*
*Birdir sözü bu külkün, əgərçi du zəbandır.*

Beytin mənası belədir ki, şair deyir: “Qələmim əhd edib ki, ya Əli (ə) əgər Zülfüqar kimi iki dilli olsa da, səndən qeyrisini tərif etməsin.

XVI əsrdə yaşayıb-yaratmış Cənubi Azərbaycan şairi Məhəmməd Əmani “Əlidir” rədifli qəsidəsində Əlini (ə) Allahın şiri, Müstəfanın (s) canişini, xanım Fatimeyi-Zəhranın (s.ə) başının tacı, behişt gənclərinin ağası, Həsən və Hüseynin (ə) atası, Məhşər gününün şəfaət vericisi kimi vəsf edərək, bütün bəşəriyyətin Əliyə (ə) ehtiyacı olduğunu qeyd edir.

*Əslani Həq-Təalanın Heydəri-Səfdər Əlidir,*
*Canişini Mustafanın saqiyi-kövsər Əlidir.*

*Fatimənin tacı-səri, Həsən, Hüseynin sərvəri,*
*Zeynalabdin rəhbəri, şafei-məhşər Əlidir.*

*Bizi bu dinə yetirən, qeyri aradan itirən,*
*Könül istəyin yetirən, qütbü-ərənlər Əlidir.*

XX əsrdə Şərq poeziyasının günəşi S.M.Şəhriyar Əlini (ə) Allahın yer üzündə ən böyük nişanəsi hesab edir və Allah-təalanı onun ecazkar bəndəsi Əli (ə) ilə tanıdığını söyləyir.

*Əli, ey humayi-rəhmət, nə dəlilsən Xudayə,*
*Ki, Xudadən özgə sayən nə ki var, edər himayə.*

*Əgər aşinayi-həqsən, Əli ilə aşina ol,*
*Əli ilə olmuşam mən, könül, aşina Xudayə.*

Şair “Ya Əli” qəzəlində insanların zülm altında yaşadığını, onların hər zaman Əliyə (ə) ehtiyacı olduğunu bildirir.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Binəvayəm, məskənim zənciri-zindan, ya Əli,*
*Tut əlimdən, binəvayə əl tutansan, ya Əli!*

Və yaxud:

*Bir günahkar dərdliyəm, var ehtiyacım lütfünə,*
*Dərdlilər dərman rica eylər qapından, ya Əli!*

Ömrünü səyahətlərdə keçirən, dərviş həyatı sürən Yunis İmrə də Əliyə (ə) xüsusi məhəbbət bəsləmiş və onu Tanrının Aslanı kimi tanıtdırmışdır.

*Tanrı Aslanı Əli,*
*Sağında Muhəmmədin.*
*Həsən ilə Hüseyni,*
*Solunda Muhəmmədin.*

Şərq poeziyasında "Mövlana" adı ilə tanınan Cəlaləddin Rumi Əlini (ə) eşq ilə müqayisə edib və eşqin Həzrət Əlidən ibarət olduğunu söyləyir.

*Hər nə desəm, eşq ondan üstündür,*
*Eşq – Heydər Əmirəl-Mö`minindir.*

Başqa bir şeirində bəşəriyyəti Əlidən (ə) dərs almağa çağırır:

*Əz Əli amuz ixlasi-əməl,*
*Şiri-həqradan münəzzeh əz dəğəl.*

*Çon to babi an mədini-elmra,*
*Çon şoayi afitabi-helmra.*

*Baz baş, ey babi-rəhmət ta əbəd,*
*Barqahi-ma ləhu kufvən əhəd.*

*Dər şocaət şiri-Rəbbanisti,*
*Dər morovvət xod ki, danəd kisti?*

Tərcüməsi: "İxlası da, əməli də Əlidən öyrən. Haqqın şirini hiylədən uzaq bil. Sən, ya Əli, elm şəhərinin qapısısan. Sən helm günəşinin nurusan, ey rəhmət qapısı, ey bərabəri olmayan Allah barigahi, bağlanma, əbədi olaraq açıq qal. Igidlikdə Allahın şirisən, ərlikdə isə kimliyini kim bilər?"

*"Rumi! Nəşod əz serre Əli kəs aqah,*
*Zira ke nəşod kəs agah əz serr-e ilah."*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Tərcüməsi:

*Rumi! Əlinin sirrindən heç kim agah deyil,*
*Çünki heç kəs İlahinin sirrindən agah deyil.*

Həzrət Əliyə (ə) məhəbbət bəsləyən şairlərdən biri də Abdulla Şaiq olub. Şair Əlinin (ə) şəninə bir qəsidə yazmış və həmin qəsidədə qeyd etmişdir ki, Allah-təala ilk əvvəl Əlinin (ə) nurunu xəlq edib.

*Əli, o bəzmi-ələstdə açan liva sən idin,*
*Səriri-silsileyi fəxri-ənbiya sən idin.*

*Nə mey var idi, nə saqi, nə ismi sağəri-həqq,*
*O bəzm ara çağıran, ləfzi-saqiyə sən idin.*

*Yaranmamışdı nə aləm, nə xilqəti-Adəm,*
*Binayi-xilqəti-çəmə qoyan bina sən idin.*

Görkəmli şairlərdən biri də Ərdəbildə Şeyx Səfi məqbərəsinin hücrələrində şairlərə ədəbiyyatın sirlərini öyrədən Şəms Əttar Ərdəbillidir.Əhli-beytə (ə) bağlı olan bu görkəmli şair Əlinin (ə) və İmam Hüseynin (ə) şənində bir çox növhələr, mərsiyələr, qəsidələr yazıb.

*Ya Əli, qaldı Hüseyn tək, Neynəvaya gəlmədin,*
*Çox çağırdı “gəl baba, öldüm” – haraya gəlmədin.*
*Xeybərə getdin, nədən, bəs, Kərbəlaya gəlmədin,*
*“Ya Əli” sövtilə doldu çöllər Aşura günü.*

Başqa bir növhədə Əlidən(ə) kömək diləyən şair Əlinin (ə) əziz balası, Kərbəla sultanı İmam Hüseynə(ə) and içir ki, ölüncə sənin ətəyindən əlimi üzmərəm.

*Rəhm qıl, biçarə Şəmsü Ərdəbiləm, ya Əli,*
*Gəlmişəm dərgahivə, əbdü-zəliləm, ya Əli.*
*Asitanından məni qovma, dəxiləm, ya Əli,*
*Çəkmərəm əl səndən, and olsun Hüseynin canına.*

“Dəxil” təxəllüsü ilə tanınan, ədəbiyyatımızda özünəməxsus yeri olan şairimiz Molla Hüseyn Marağalı Əhli-beytə(ə) xüsusi məhəbbət göstərmiş və Əlinin (ə) şücaətindən söz açaraq onu özünün rəhbəri hesab etmişdir.

*Ağamdı Heydəri-Səfdər, Əlidir aliyi-Əla,*
*Əlidir qale-Xeybər, Əlidir qatili-əntər.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Əlidir saqiyi-kövsər, Əlidir valiyi-vala,*
*Əli sultani-sərməddir, Əli həmraz-Əhməddir.*

*Əli cani Muhəmmədir, Əli müşdaqi ma əvha*
*Əli cani-təcəlladır, Əli həm turi-Sinadır,*

Növhə yazan şairlərimizdən biri də Mir Cəlaldır. Şair Həzrət Əlinin (ə) şənində gözəl bir növhə yazıb.

*Ey vücudi-xilqəti-zati-səxavət, ya Əli!*
*Aləmi-imkanə sənsən kani-rəhmət, ya Əli!*

*Aləmi-imkan sənindir, sən vəliyyü-həqqisən,*
*Həm Əlisən, həm vəlisən, həm imami-həqqisən.*

*Canişini-Mustəfasan, həm Vəliyyü-həqqisən,*
*Biədəd vəsfində var kəşfi-kəramət, ya Əli!*

Növhə gözəl beytlərlə davam edir və bu cür sonluqla yekunlaşır:

*Mən səni verrəm qəsəm məzlum Hüseynin canına,*
*Kərbəlada Zeynəbin həm naleyi-fəryadına.*

*Can verəndə, ya Əli, sən də yetiş imdadına,*
*Mir Cəlala həşridə eylə şəfaət, ya Əli!*

Ədəbiyyatımızda “Qərib” təxəllüslü bir şair də olub və bu şair Əliyə (ə) sonsuz məhəbbət və ehtiramını çatdırmaq üçün gözəl bir növhə yazıb.

*Qüvvəti-qüdrəti-Xuda sərvəti-La fətada var,*
*Fəziləti-Şahi-Nəcəf süreyi-Həl-ətada var.*

*Əli cəlali-həqqidir, Əli cəmali-həqqidir,*
*Əlidir kani-mərifət, Əli kamili-həqqidir.*
*Nəbiyyi-möhtərəm deyib: Əli imami-həqqidir,*
*Tamami bu sifatilər, o Şahi-qul kəfada var.*

Növhə başdan-başa Əlinin (ə) fəzilətindən, şücaətindən, səxavətindən, ibadətindən bəhs edir və bu sonluqla yekunlaşır:

*Əli Vəliyyi-həqqidir, vəli Xudaya bəndədir,*
*Şəhid olubdu zahirən, vəli o şah zindədir.*
*Gahi səmavü ərşidə, gəhi bu yer üzündədir,*
*“Qərib” ərz edər, yəqin, bu bəzmi-qəmfəzada var.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həzrət Əlinin (ə) şəxsiyyətinə dərin məhəbbət və ehtiram bəsləyən şairlərdən biri də Məkukidir. Şair Əlini(ə) özünə rəhbər saydığından heç bir qorxu hissi keçirmədiyini qeyd edərək yazır:

*Nə bir pərva, nə əndişə çəkər Məkuki düşməndən,*
*Əliyyi-aliyu-əla kimi alicənabım var.*

Klassik ədəbiyyatımızda möhtəşəm yer tutan, gözəl qələm sahibi, Əhli-beyt (ə) aşiqi Hacı Mehdi Üryan İmam Əliyə (ə) sonsuz məhəbbətini dilə gətirərək yazır:

*Vəsfin itmamə yetişməz, insü cin katib ola,*
*Yazsalar mədhin əgər ta yovmi-məhşər, ya Əli.*

Şair bu beytdə deyir ki, ya Əli (ə), əgər insanlar və cinlər katib olub sənin vəsfini yazsalar da, məhşər gününə qədər sona çatmaz. Doğrudan da, bu belədir; bir şəxs ki Allah-Təalanın müqəddəs evi Kəbədə qeyri-adi şəraitdə dünyaya gələ, onun vəsfini insanlar və cinlər qələmə almaqda acizdirlər. Ş.İ.Xətai də bir beytində bu cür deyir:

*Çün sənin övsafinə yetməz Xətainin sözü,*
*Uş bu əbyat üstə xətm oldu kəlamım, vəssalam.*

Mərsiyə janrında gözəl növhələr yazan Əhli-beyt (ə) şairlərindən biri də "Dağlı" təxəllüslü şairdir. Şairin Əlinin (ə) şənində qələmə aldığı növhə olduqca diqqətəlayiqdir. Növhə bu misralarla başlanır:

*Aləmi saldı heyrətə şiri-Xuda şücaəti,*
*Çün Əmri-Əntər öldürən, miri-hüda rəşadəti.*

Növhədə Əlinin (ə) bütün insani keyfiyyətləri sadalanır və bu sonluqla yekunlaşır:

*Ya Əli, ver əvəz özün təziyə saxlayanlara,*
*Zakiri-əhli-beyt olub, ağlayıb, ağladanlara,*
*Pirilərə himayət et, lütf elə növcavanlara,*
*Həşridə dadə yet özün, "Dağlıya" ver şəfaəti.*

Şərq ədəbiyyatı nümayəndələrindən, bu qeyd olunanlardan əlavə, bir sıra digər şairlər də Həzrət Əlinin (ə) şənində yazdıqları gözəl şeir numunələri ilə öz yaradıcılıqlarını zənginləşdirmişlər.

# VIII FƏSİL

# HƏZRƏT ƏLİ (Ə) AŞIQ ƏDƏBİYYATINDA

*Bey-Bismillah əzbərimdi, heyXudadan, ya Əli.*
*Əl ibtida gəldi səda ərş-əladan, ya Əli.*
*Badi-sərsər, lohi qələm, oldu dunya olmamış,*
*Bir Cəbrayıl qalxdı göyə tək dəryadan, ya Əli.*

*Səlli-aləm, mahi-aşkar, zülmətdən var pərdəsi,*
*Sey –sirdən səda gəldi, Cəbrayıl çəkdi bəhsi,*
*Həqiqəti düz bilmədi, tərsə döndü kəlməsi,*
*Alışıb yandı şahpəri, oldun fərman, ya Əli.*

*Yandı şahpər, endi suya, nələr gəldi yadına,*
*Xaki-kəlam verdi səlam, yetişdi Muradına,*
*Haqq-təala özü dedi irəhmət ustadına,*
*Hər tərəfdən səda gəldi, ”Əhsən!Əhsən!”, ya Əli.*

## Bismillahir-rəhmanir-rəhim

Klassik ədəbiyyatda olduğu kimi aşıq ədəbiyyatında da ustad aşıqlarımız, daha dəqiq desək, haqq aşiqləri islam dininin qanunlarına, Əhli-beytin (ə) mədhinə, xüsusilə, möminlər ağası Həzrət Əlinin (ə) mədhinə biganə qalmamış, məclislərdə onun şəninə ustadnamələr söyləmişlər.

Bu qrupa aid olan aşıqlardan Aşıq Miskin Abdalı, Aşıq Qurbanini, Aşıq Abbas Tufarqanlını, Xəstə Qasımı, Aşıq Qəribi, Aşıq Valehi, Molla Cüməni, Aşıq Alını, Aşıq Ələsgəri və Ələsgər ocağının digər nümayəndələrini misal göstərmək olar.

Aşıqları, əsasən, 3 qurupa ayırmaq olar:

1. ustad aşıqlar
2. ifaçı aşıqlar
3. aşıq poeziyası üslubunda şeir yazan el şairləri

Ustad aşıqlar aşıq sənətini yaşadan və inkişaf etdirən görkəmli sənət ustalarıdır. Aşıq Qurbani, Miskin Abdal, Abbas Tufarqanlı, Xəstə Qasım, Yunis İmrə, Sarı Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir, Azaflı Mikayıl və s. bu qrupa daxildir. Ustad aşıqlar yalnız aşıq yaradıcılığını mükəmməl bilmələri ilə deyil, eyni zamanda, coşqun şairlik təbinə malik olmaları, İslam dininin qanunlarını dərindən bilmələri, yaxşı saz çalma və gözəl məclis aparma bacarığı ilə seçilirlər. Bu cəhətdən Aşıq Ələsgərin "Gərəkdir" rədifli qoşması aşıq sənətinin mahiyyətini anladır.

*Aşıq olub tərki-vətən olanın,*
*Əzəl başdan pürkəmalı gərəkdir.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmindən dolu gərəkdir.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra.*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdir.*

*Danışdığı sözün qiymətin bilə,*
*Məcazi danışa, məcazi gülə.*
*Kəlməsindən ləli-gövhər süzülə,*
*Tamam sözü müəmmalı gərəkdir.*

Göründüyü kimi, bu misralarda aşığın mənəvi aləmi, sənətkarlıq qüdrəti, onun xalq arasında müdrik bir məsləhətçi olması üçün hansı xüsusiyyətə malik olması təsvir olunmuşdur. Ustad aşıqlar ağıllı, bilikli,

imanlı, xalqa həqiqəti başa sala bilən, söz sənətinin incəliyini duyan, mərifətli kəlamlar söyləməyi bacaran sənətkar olmalıdır. Aşıq Ələsgər özü bütün bu yüksək keyfiyyətlərə malik, böyük saz-söz ustadı olmuşdur.

Aşıq Miskin Abdalla bağlı maraqlı bir hadisəni olduğu kimi bu bölümdə oxucuların diqqətinə çatdırmaq istəyərdim.

“Şah İsmayıl və Miskin Abdal” dastanında belə bir rəvayət nəql olunur: “Hər gün sübh tezdən yuxudan oyanan Miskin Abdal bu gün yuxudan çox gec ayıldı.Yuxuda möminlər ağası Həzrət Əli (ə) ona buta verirdi.Yuxudan ayılan Miskin Abdal ətrafında toplaşan insanları gördü, sevinc və fərəhindən əlini telli saza atıb divardan götürdü, zilini zil, bəmini bəm edib, röyada gördüklərini ətrafında toplaşanlara söylədi:

*Bu gecə vayğamda gördüm Əlini,*
*Səni pir sahibi görürəm – dedi.*
*Gülüb kürəyimə vurdu əlini*
*Ömrünə bir çələng hörürəm – dedi*

*Allahın şiriyəm, bir bax didəmə,*
*Qoru din-məzhəbi, olmaz sədəmə,*
*Dolan bu dünyanı, yoruldum, demə,*
*Arxanda dağ kimi dururam – dedi.*

*Sərində ağıl var, qüvvət qolunda;*
*Mələklər qoruyur sağu solunda.*
*Seyidsən, dərvişsən haqqın yolunda,*
*Abdala haqq payı verirəm, – dedi.*

Miskin Abdal ömrünün sonuna kimi Həzrət Əlinin (ə) yuxuda ona bəxş etdiyi nemətə sadiq qalaraq ömrünün sonuna kimi Əhli-beytin (ə) fəzilətlərini məclislərdə, mərəkələrdə insanlara çatdırır, Həzrət Əliyə (ə) bəslədiyi məhəbbətə sadiq qalaraq deyirdi:

*Ay ağalar, ay qazılar,*
*Mən Əliyi Vəli billəm.*
*Gecə-gündüz əzbərimdi,*
*Mən Əliyi Vəli billəm.*

*Qızıl gülləri dərsəniz,*
*Sinəm üstünə sərsəniz,*
*Əmr eyləyib öldürsəniz,*
*Mən Əliyi Vəli billəm.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həzrət Əlini(ə) Allahın hüccəti, Peyğəmbərin vəlisi bilən Miskin Abdal bu dünyada olduğu kimi, məhşər günü də ümidini möminlər ağası Həzrət Əliyə (ə) bağlayır və deyir:

*Məhşər günü özün tutarsan camı,*
*Tutmuş ətəyindən niku bad, hamı,*
*Seçmə muxlislərdən Miskin Qulamı,*
*Kərəm et, kövsərdən badə, ya Əli.*

## AŞIQ QURBANİ YARADICILIĞINDA ƏHLİ-BEYT (Ə)

Dirili Qurbani XVI əsrdə yaşamış və zəmanəsinin adlı-sanlı aşığı olmuşdur. "Qurbani" dastanından bilinir ki, o, Şah İsmayıl Xətainin ən yaxın müridlərindən biri olub. Dirili Qurbani bunu qoşmalarının birində etiraf edir:

*Mürşidi-kamilim, şeyx oğlu şahim,*
*Bir ərzim var qulluğuna, şah, mənim.*
*Əziz başun üçün oxu yazğumu,*
*Agah ol halımdan gahbagah mənim.*

*Qurbani der: Bahar oldu, gəlir yaz,*
*Göllərdə üzüşür ördək ilə qaz.*
*Sərim təvəlladır, özüm payəndaz,*
*Yoxdur bundan qeyri bir mətah mənim.*

Bu qoşmadan məlum olur ki, Qurbani öz şikayətlərini, dərdi-sərini səmimi olaraq mürşidi-kamil Ş.İ.Xətaiyə söyləyir. Bu qoşmada Dirili Qurbani Ş.İ.Xətaini kamil mürşid adlandırmaqla, fərmana yetirən pənah, şəfa qılan təbib kimi göstərir. Dirili Qurbaniyə görə, Şah İsmayıl onun "pir"idir. O, elə bir mürşiddir ki, Qurbani onun yolunda canını qurban verməyə, başını sadağa və özünü payəndaz etməyə hazırdır:

*Mən haqq aşiqiyəm, haqq yola mail,*
*Kitabım Qurandır, olmuşam qail.*
*Ey mənim sultanım, Şah İsmayıl,*
*Dərdimin əlindən fəryada gəldim.*

Filologiya elmləri namizədi Əzizağa Məmmədov bu qoşmaya istinad edərək yazır: "Qurbani Həmədanda Gülsənəm adlı bir qıza aşiq olmuş və qızı ona verməmişlər. Buna görə də Dirili Qurbani Ş.İ.Xətaidən kömək istəyir".

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Dirili Qurbani özü də qeyd etdiyi kimi, haqq aşiqidir. O, bir pirdə yatmış və burada eşq badəsini Həzrət Əlinin (ə) mübarək əlindən alıb içmişdir. Dastanın bütün variantlarında badəni və butanı ona verən Əlidir (ə)!

*Sənə qurban olum, ya Həzrət Əli!*
*Sailə bağışla dövləti, malı.*
*Yetim Qurbaninin fikri, xəyalı,*
*Gecə-gündüz butam Pəri xandadı.*

*Mənə badə verib Həzrət Əli,*
*Nə buyurubsa da, demişəm: Bəli.*
*Qurbaninin fikri, zikri, xəyalı,*
*Axırı mətləbim Pəri xandadı.*

Dirili Qurbani yaradıcılığında Həzrət Əlinin (ə) şəninə həsr olunmuş çox qüvvətli "ustadnamə"lər vardır. Onlardan birini açıqlaması ilə oxucuların nəzərinə çatdırıram:

*Daməndə qalmışam, yetiş dadıma,*
*Özünü Xeybərə yetirən Əli!*
*O dəm Zülfüqarı çəkən zəbanə,*
*Dinsizləri dinə gətirən Əli!*

*Neçə il Zülfüqar nə yerdə qaldı!*
*Neçə min ənbiya səndən dərs aldı!*
*Üzündə niqabı bir ərəb gəldi,*
*Özü öz tabutun götürən Əli!*

*Şiə, şəkk eyləmə, Əli Vəliyə,*
*Şahi-vilayətə, nuri-cəliyə,*
*İşarət eylədi göydəki günə,*
*Günü günortadan qaytaran Əli!*

*Mənim pirim Kövsər üstə saqidır,*
*Möminlərin yeri cənnət bağıdı.*
*Qurbaninin bu gün müşkül çağıdır,*
*Cəmi müşkülləri bitirən Əli!*

Bu qoşmanın birinci misrasında aşıq köməksiz (daməndə) qaldığını qeyd edir. Bunun üçün Xeybər qalasını fəth edən Əlini (ə) köməyinə çağırır. Tarixdən məlumdur ki, Həzrət Muhəmməd (s) Hüdeybiyyədən qayıdandan sonra hicrətin 7-ci ilində 4400 nəfərlik qoşunla Xeybər qalasını almağa getdi. Xeybərdə olan yəhudilər müsəlmanların gəlişin-

dən xəbərdar olub, 14 min nəfərlik qoşun cəm edərək, Xeybər qalasının qapılarını möhkəm bağladılar. 25 gün Xeybər qalası mühasirədə qaldı. Peyğəmbər (s) əvvəl bayrağı Əbu Bəkrə verib, qalanı fəth etməyi ona tapşırdı. Lakin o, bu işi bacarmadı. Sonra Peyğəmbər (s) bayrağı Ömər ibn Xəttaba verib qalanı fəth etməyi onun öhdəsinə buraxdı, o da bu işi bacarmadı. Sonra islam qoşunundan bir dəstə qalaya hücum etdi. Qalanı müdafiə edənlər müsəlmanları geri oturtdular. Müsəlmanlar çox məyus idilər. Peyğəmbər (s) buyurdu: “Sabah İslam bayrağını elə bir kişiyə verəcəm ki, Allah və Peyğəmbəri onu sevir. Və o da Allahı və Peyğəmbərini sevir. O, bir kəsdir ki, həmişə hücum edəndir və heç vaxt döyüş meydanından geri qaçmır. Bəs, Allah-Təala onun əli ilə Xeybər qalasının qapılarını açacaq”.

Peyğəmbərin (s) bu sözlərindən hamı təəccüblənib fikirləşdi ki, görəsən, həmin şəxs kimdir ki, sabah bayraq ona veriləcək və O, qalib gələcək.

Səhər tezdən Peyğəmbər (s) soruşdu “Əli hardadır?” Dedilər: “ Ya Rəsulullah, Əli xəstədir, gözləri ağrıyır. Peyğəmbər (s) Əlini (ə) çağırtdırıb, onun gözlərinə ağzının suyun çəkdi və buyurdu: “Ya Əli, səndən qabaqkı sərkərdələr Xeybərə hücum ediblər, amma bir iş görə bilməyiblər. Hələ Xeybər qalasının qapıları açılmayıb. Bu iş səndən başqa hec kimin əlindən gəlməyəcəkdir”. Həzrət Əli (ə) soruşdu: “ Ya Rəsulullah (s) hansı həddə qədər onlarla vuruşum? Peyğəmbər (s) buyurdu: “O vaxta qədər ki, Allahın birliyini və mənim nübüvvətimi qəbul etsinlər”.

Bu yerdə Marağalı Əhvədinin “Xeybər” müharibəsi haqqında yazdığı şeir yada düşür:

*Ürəkdir rəhbəri təhqiq yolunun,*
*Ürəkdir xəlili həm eşq odunun.*
*Əliyə yar idi eşq ilə ürək,*
*Odur, zəfərlərə yetişdi şir tək.*

*Xeybər qapısını əllə kim atar?!*
*Ürəyə ver ürək, ürək bacarar.*
*Əhmədin fərri ki, Əliyə çatdı,*
*Xeybər qapısını bir əllə atdı.*

Həzrət Əli (ə) İslamın bayrağını gətirib Xeybər qalasının divarına sancdı. Bir dəstə qapıdan çıxıb onlara hücum etdi. Əli (ə) onların dəstələrini darmadağın edib, qalanın qapısına yetişdi. Qapıda dayanan məşhur pəhləvan Haris Əlinin (ə) qalaya daxil olmasına icazə vermədi. Əli (ə) onu bir qılınc zərbəsi ilə həlak etdi. Harisin qardaşı Mərhəb qardaşının intiqamını almaq üçün Əlinin (ə) qabağına çıxdı. Həzrət Əli (ə) Zülfüqar

ilə Mərhəbin başını və bədənini iki yerə böldü. “Allahu-Əkbər!” – sədaları göyə ucaldı. Mərhəbin üçüncü qardaşı Yasər meydana çıxdı. Həzrət Əli (ə) onu da məhv elədi. Düşmənlər qalanın qapısını möhkəm bağlayıb, özləri isə içəridə gizləndilər. Həzrət Əli (ə) xariqüladə bir qüvvə ilə Xeybər qalasının qapısından yapışıb, onu bir əllə qoparıb, neçə metr kənara atdı. Beləliklə də, Əlinin (ə) əli ilə Xeybər qalası fəth olundu:

*Gedəndə rəmzi-Xeybərə Əli əmiri-”la fəta”,*
*Dalınca ol Qəzənfərə, Nəbi oxurdu “həl-əta”.*

Şeyx Mufid Əbdüllahi Cədəlidən nəql edir ki, Həzrət Əlinin (ə) özündən eşitdim ki, dedi: “Elə ki, Xeybər qalasını qopardım, qapını qalxan əvəzi əlimdə tutdum. Düşmənlər qorxudan məğlub oldular. Xeybərdən bir az uzaqda xəndək qazmışdılar ki, İslam qoşunu xəndəkdən keçə bilməsin. Həmin qapını xəndəyin üstünə körpü əvəzi qoydum və müsəlmanlar onun üstündən keçib qalaya gəldilər. Sonra həmin qapını xəndəyin arasına atdım. Xeybərdən qayıdanda gördük ki, müsəlmanlardan 70 nəfəri o qapını yerindən tərpədə bilmirlər”.

*Bir əlilə qoparıb cəngidə Xeybər qapısın,*
*Əlisiz kimsədə bir böylə şüca olmaz idi.*

İkinci bənddə Dirili Qurbani Həzrət Əlini (ə) bütün Peyğəmbərlərin müəllimi kimi qələmə alıb.

İkinci bəndin üçüncü və dördüncü misrası daha artıq insanın diqqətini cəlb edir. Dirili Qurbani Həzrət Əlinin (ə) dünyasını dəyişərkən üzündə niqab olan bir ərəbin gəldiyini və tabutu götürdüyünü qeyd edir və bu ərəbin Əlinin (ə) özü olduğunu nəzərə çatdırır. Müasir dövrümüzdə yaşayan gözəl təbə malik olan şair Fəxrəddin Cəfakeş bir beytində Aşıq Qurbaninin bu fikri ilə razılaşaraq yazır:

*Namazi-meyyiti eşq əhli qıldı öz-özünə,*
*Xudaya, kim elədi məskən onda tabuti?*

Eşq əhli dedikdə Həzrət Əli (ə) nəzərdə tutulur. Cəlaləddin Bəlxiye-Rumi (Mövləvi) də bir beytində eşqdə məqsədin imam Əlinin (ə) olduğunu bildirir:

*Hər nə desəm, eşq ondan üstündür,*
*Eşq Heydəri-Əmirəl-mömінindir.*

“Heydər” – Həzrət Əlinin (ə) adlarından biridir. “Əmirəl-möminin” ləqəbini isə Peyğəmbərimiz Həzrət Muhəmməd(s) “Qədir-Xum” günü öz

ölümündən 2 ay əvvəl (miladi 632-ci il, zilhiccə ayının 18-də, son "vida" həccində) Həzrət Əliyə (ə) vermiş və özündən sonra Əlini(ə) Allahın əmri ilə öz canişini, vəsisi təyin etmişdir.

Üçüncü bənddə Əlinin (ə) fəzilətindən söz açır. Dini rəvayətlərdə nəql olunur ki, İmam Əli (ə) öz əshabı ilə birlikdə Babilə tərəf yola düşdülər. Yolun ortasında namaz qılmaq üçün münasib bir yer tapmayıb, hərəkət etdilər. Bir qədər yol getdikdən sonra namaz qılmaq üçün münasib yer tapdılar. Amma günəşin batmasına çox az qalmışdı. Həzrət Əli (ə) bir qrup əshabı ilə namazını qılmışdı. Lakin əshabın bir qrupu namazını qılmamışdı. Buna görə də öz namazları barədə danışmağa başladılar. Həzrət Əli (ə) onların söz-söhbətini eşitdikdən sonra Allah-təaladan günəşin geri qayıtmasın istədi. Allah-təala Əlinin (ə) duasını qəbul etdi. Günəşi əsr namazının vaxtına qaytardı. Həzrət Əli (ə) və əshabı namazını qılıb qurtardıqdan sonra günəş qüruba endi. Camaat bu aşkar möcüzəni gördükdən sonra Allaha şükür edib, günahlarının bağışlanmasını istədilər.

Dirili Qurbani ustadnamənin sonuncu bəndində cəmi müşkülləri bitirən Həzrət Əlini(ə) "Kövsər üstə saqi" adlandırır və möminlərə gözaydınlığı verir ki, möminlərin axirətdə yeri cənnət bağıdır.

Haqq aşiqi bu qoşmasında Əlini(ə) "bütün ənbiyaların ustadı", "özü öz tabutun götürən", "günü günortadan qaytaran", "Xeybər müharibəsinin qalibi", "Kövsər üstə saqi", "Cəmi müşkülləri həll edən" və sair kimi kəramətli sifətlərlə bəzəyir. Bu qoşmalarda Aşıq Qurbani Həzrət Əliyə (ə) məxsus olan "Zülfüqar" adlı qılıncdan söhbət açır. Nə üçün bu qılınca "Zülfüqar" deyilir?

6-cı imam Cəfəri Sadiq(ə) buyurur: "Çünki həmin qılıncın orta hissəsində xüsusi fəqərələrə oxşayan bir xətt vardır. Zülfüqar, yəni fəqərələrə sahib olan. Zülfüqar həlqəsi gümüşdən olan bir qılıncdır. Cəbrail (ə) onu göydən gətirmişdir."

Ühüd müharibəsində Həzrət Əli (ə) bütün qüdrəti ilə Peyğəmbərin (s) müqəddəs vücudunu mühafizə edirdi. Bu müharibədə Əlinin (ə) qılıncı sınır. Cəbrail (ə) Allahın əmri ilə göydən bir qılınc endirir. Həmin qılıncın üstündə yazılmışdı: "La fəta illa Əli, la seyfə illa Zülfüqar", yəni "Əli kimi igid, Zülfüqar kimi qılınc yoxdur".

"Ühüd" müharibəsində Həzrət Əlinin (ə) fədakarlığı elə bir həddə çatdı ki, Cəbrail (ə) nazil olub, Peyğəmbərə (s) buyurdu: "Ey Muhəmməd! Bu qardaşlıq və fədakarlıq mislidir". Peyğəmbər (s) buyurdu: "İnnəhu minni və ənə minhu", yəni "Əli məndən və mən ondanam". Cəbrail buyurdu: "Və ənnə minkuma", yəni "Mən də sizin ikinizdənəm".

Dirili Qurbani kimi kəramətli, imanlı aşıqlar haqq aşıqları hesab olunurlar. Haqq aşıqları Həzrət Əlini (ə) özlərinə müəllim, ustad sayırlar. Aşıq Qurbani də bu mətləbi belə bildirir:

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Oturmuşdum Təktüklünün başında,*
*Ocaq qırağında, pirin üstündə.*
*Mana badə verdilər, səfər ayının beşində,*
*Aldım nuş eylədim, dedim "bəli"di.*

*Şair idim, şairliyimi bilmirdim,*
*Ağlayırdım, göz yaşımı silmirdim,*
*İndiyədək ustadımı bilmirdim,*
*İndi bildim, Şahi-Mərdan Əlidi.*

Dirili Qurbani bir çox qoşmalarında Həzrət Əlidən (ə) və onun övladları olan pak imamlardan kömək istəmiş və dünyanın vəfasızlığından onlara şikayətlənmişdir:

*Bu gün bir nurani kimsənə gördüm,*
*Görcəyim çağırdım: "Ya Murtəza Əli!"*
*Sidq ilə çağırsan, tez yetir dada,*
*Dillərdə söylənir: "Ya Murtəza Əli!"*

*On bir oğlu var idi, bir anası,*
*Nur ilə doluydu onun əzası,*
*Məğribdən Məşriqə gəlir sədası,*
*Dillərdə söylənir: "Ya Murtəza Əli!"*

*Nurani dediyin – nuri-mərfətdi,*
*Mədinə dediyin – bizim tərəfdi.*
*Qurbani der: "Ağam əsli ərəbdi,*
*Ağalar ağası, ya Murtəza Əli!"*

Aşıq "Nurani kimsənə gördüm" dedikdə, Həzrət Əlini(ə) gördüyünü qələmə alır. "On bir oğlu var idi, bir anası" dedikdə isə 11 imam və imamlar anası, Peyğəmbərin (s) qızı Həzrət Fatimeyi-Zəhranı(s.ə) nəzərdə tutur. Bu qoşmanın son bəndində Dirili Qurbani İmam Əlini(ə) bütün Peyğəmbərlərin, imamların, ariflərin, aqillərin, ustadların və şairlərin ağası adlandırır.

Dirili Qurbaninin mürşüdi-kamil hesab etdiyi Ş.İ.Xətai də bir qəzəlində Əlini(ə) bütün Peyğəmbərlərdən və övliyalardan üstün tutur:

*Övliyalar, ənbiyalar çoxdur, illa ki sən,*
*Cümlədən əla imişsən, ya Əli, səndən mədəd!*

Dirili Qurbani Həzrət Əliyə (ə) olan məhəbbətinin haradan gəldiyini və bu yolda kimdən bəhrələndiyini gizlətmir. Dirili Qurbani ozan-aşıq sə-

nətinin dərin bilicisi olan, görkəmli elm, dövlət və din xadimi, könüllər sultanı Şeyx oğlu Şah İsmayıl Xətaini cahanın qibləgahı, Şahi-Mərdana bağlı bir şəxs kimi təsvir edir və Ş.İ.Xətaini özünə pənah, xalqa ümidgah bilir:

*Gözəl şahim, Şeyx oğludu,*
*Şah Xətai, Şah Xətai.*
*Şahi-Mərdanə bağlıdı,*
*Şah Xətai, Şah Xətai.*

*Bu dünyada bir haqq divan,*
*O dünyada cənnətməkan.*
*Qoy, var olsun türki zəban,*
*Şah Xətai, Şah Xətai.*

*Qurbani tək qul pənahı,*
*Qibleyi-aləmin mahı.*
*Ol cahanın qibləgahı,*
*Şah Xətai, Şah Xətai.*

Dirili Qurbani yaradıcılığında dini şəxsiyyət və hadisələrə münasibət xüsusi yer tutur. Xüsusən, Həzrət Əlinin (ə) mədhinə həsr olunmuş şeirləri nəzəri daha çox cəlb edir və bu cür dini şeirlərdə Dirili Qurbaninin sənətkarlıq qüdrəti aydın görünməkdədir.

Aşıq Qurbani "Çəkibdi" rədifli qoşmasında yazır:

*Xorasanda qızıl günbəz ağası!*
*Gözüm sənin intizarın çəkibdi.*
*Haqq buyurdu, Həbib getdi meraca,*
*Ona peşkəş, ol Quranı çəkibdi.*

Qoşmanın 1-ci misrasında Xorasan torpağında müqəddəs ziyarətgaha çevrilən günbəzdən, 8-ci imam İmam Rzadan(ə) söhbət gedir. Aşıq bu ziyarətgahın həsrətin çəkir. Aşıq Qurbaninin bu misrasına uyğun bir misraya Aşıq Şəmşirin "Neynim"rədifli qoşmasında rast gəlirik:

*Şəmşir, ha səsləyir yazı yazanı,*
*Müdəm ruhum cövlan edir havanı,*
*Ziyarət etməyə imam Rzanı,*
*Yol verilmir gedə qonağa, neynim!*

Qoşmanın 3-cü və 4-cü misralarında Peyğəmbərin (s) meraca getməsi vəsf olunur. Haqq aşiqi Qurbaninin ruhuna hörmət əlaməti olaraq

Peyğəmbərin (s) meracı haqda qısa da olsa, saz-söz həvəskarlarına məlumat verməyi özümə borc bildim.

Besətin 10-cu ilinin (Peyğəmbərin (s) peyğəmbərliyə yetişdiyi vaxt) hadisələrindən biri də Həzrət Rəsuli-Əkrəmin (s) meracıdır. Merac yerdə və yuxarı aləmlərdə seyr etmək deməkdir. Meracdan məqsəd Allah-Təalanın qüdrət və əzəmətini daha aşkar şəkildə yerdə və başqa aləmlərdə Peyğəmbərə (s) göstərməkdir. Merac islami bir əqidədir ki, Quran və hədislərə inanan şəxs onu inkar edə bilməz.

Qurani-Kərim "İsra" və "Ənnəcm" surələrində bu cismani və ruhi seyri bəyan etmişdir.

"İsra" surəsi 1-ci ayə: "Pak və münəzzəhdir o Allah ki, gecə vaxtı bəndəsini (peyğəmbəri) ona öz ayə və qüdrət nişanələrini göstərmək üçün Məscidul-Həramdan Məscidul-Əqsaya seyr etdirdi. O eşidən və görəndir."

"Ənnəcm" surəsində Peyğəmbərin (s) ikinci dəfə olaraq vəhy mələyini (Cəbraili(ə)) onun əsl surətində gördüyünü xatırlayandan sonra, deyilir:

"Peyğəmbərin (s) gözü səhvə uğramadı, O, Allahın böyük nişanələrini gördü."

Bu iki ayə göstərir ki, həmin görünmə yuxuda deyil, ayıq halda olmuşdur. O, ayələrin məzmununa diqqət etməklə aydınlaşır ki, bizim islami əqidəmiz, "İsra" və "Ənnəcm" surələrinin ayələrinə əsasən, budur: Peyğəmbər (s) bir gecədə öz cismi ilə (maddi cismi) Məscidül-Həramdan Məscidül-Əqsaya və oradan da yuxarı aləmlərə seyr etmiş, vəhy mələyini onun həqiqi surətində eynilə müşahidə edərək, Allahın ayə və nişanələrinin əzəmətini yaxından görmüşdür.

Merac barəsində xeyli hədislər mövcuddur. Həmən hədislərdən 2-sini burada qeyd edirik.

İmam Cəfəri Sadiq (ə) buyurub: "Dörd şeyi inkar edən şəxs bizim tərəfdarlarımızdan deyil:

1. Merac hadisəsini;
2. Qəbirdə sorğu - sualı;
3. Behişt və Cəhənnəmin mövcud olmasını;
4. Şəfaəti."

İmam Rza(ə) buyurub: "Hər kəs Meracı təkzib etsə, Peyğəmbəri Əkrəmi (s) təkzib edibdir. "

Şairlərin böyük ustadı M.Füzuli yaradıcılığında da Peyğəmbərin (s) Merac etməsinə rast gəlinir. Şair qəzəllərinin birində yazır:

*Ey olub Merac bürhani - ülüvvi - şan sana,*
*Yerə enmiş göydən istiqbal edib Furqan sana.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Beytin mənası belədir: “Ey Merac məqamının yüksəkliyinə dəlil olan Furqan (Quranın adlarından biridir, ərəbcə – “ayıran”, “haqqı batildən seçən”) səni qarşılayıb göydən yerə enmişdir.”

M.Füzulinin fikrincə, məmduh elə şərəflidir ki, o yer oğlu ola-ola səmavi kitab olan Quran onu (Muhəmmədi (s)) qarşılamaq üçün o uca yerindən (lövhi - məhfuzdan) enmişdir.

Digər bir beytdə Füzuli deyir:

*Kəlam səmadan enib, sən səmayə yüksəldin,*
*Əyaru qiymətini, qoy, düşünsün hər gümrah.*

Aşıq Qurbani də 4-cü misrada “Ona peşkəş ol Quranı çəkibdi” deməklə Füzuli ilə eyni fikirdə olduğunu bildirir.

2-ci bənddə aşıq deyir:

*Haqq buyurdu Şiri - əzəm Heydərə,*
*Şəhadət barmağın saldı Xeybərə.*
*Şəmameynən getdi ol Şəhrizərə,*
*Ağam orda boran-qarı çəkibdi.*

1-ci misrada “Haqq buyurdu Şiri - əzəm Heydərə” deyərkən aşıq Qurbani Həzrət Əlini(ə) Allahın böyük şiri kimi vəsf edir. 2-ci misrada “Şəhadət barmağın saldı Xeybərə”, – deyərkən şair Həzrət Əlinin (ə) Xeybər qalasını necə fəth eləməsini qələmə alır.

Həzrət Əlinin (ə) “Nəhcül-Bəlağə” əsərinə ətraflı şərh yazmış məşhur ərəb alimi İbni-Əbil Hədidin Xeybər döyüşü zamanı Həzrəti Əlinin (ə) qala qapısını necə qoparmasını tərənnüm edən bir beyti ilə kifayətlənirik:

*Ya qaşəl Babilləzi ən həzziha,*
*Əcəzət əküffü ərbəunə və ərbəu.*

Beytin məzmunu bundan ibarətdir: “Ey o qapını qopardan (Əli (ə)), səndən sonra həmin qapını qaldırmaqda 44 nəfərin aciz olduğunu gördüm.”

Aşıq Ələsgər yaradıcılığında da bu beyt ilə səsləşən misralarla rastlaşırıq:

*Bismillahir-rəhmanir-rəhim! – deyib,*
*Sidq ilə çağırram Şahi - Heydəri.*
*Qeyzə gəlib bir əlində götürdü,*
*Səksən min batmanlıq dəre - Xeybəri.*[1]

[1] “Dər” -fars dilində “qapı” deməkdir. “Dəri-Xeybər”, yəni “Xeybər qapısı”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Qurbani 2-ci bəndin 3-cü və 4-cü misralarında Həzrət Əlinin (ə) fəzilətlərindən söhbət açır. İslam aləmində Həzrət Əlinin (ə) çoxlu kəramətləri olub. Bu kəramətlərdən biri də budur ki, Həzrət Əli (ə) səmaları keçərək Süleyman İbn Davud(ə) kimi bir neçə səhabəsi ilə Mədinədən Şam şəhərinə gedərək Əshabi-kəhf ilə söhbət edib. Bildiyimiz kimi, "Əshabi - kəhf" barədə Qurani-Kərimdə bir surə var və bu surədə onların kəramətlərindən söhbət gedir. Biz də "Əshabi-kəhf" barədə qısaca da olsa, oxuculara məlumat veririk.

"Əshabi-kəhf" rəvayətlərdə adı çəkilən "Mağara sahibləri"dir. ("Əshab" – sahiblər, "kəhf" – mağara). Hədislərdə nəql olunur ki, qədim Misirdə Dəqyanus adlı zalım bir hökmdar olub. Bu zalım hökmdarın sarayında 6 nəfər şahzadə onun xidmətində dururmuşlar. Günlərin birində bu şahzadələr bu zalım şahın zülmündən yaxa qurtarmaq üçün sarayı tərk edirlər. Yolda bir çoban da öz iti ilə onlara qoşulur. Bu şəxslər bir qədər yol getdikdən sonra qaranlığa düşür və orada olan mağarada yatırlar. Gecələdikləri bu mağarada Allah-təala onlara qiyamətə qədər əbədi yuxu verir. Bu mağara sahibləri və çoban, həmçinin, çobanın iti də qiyamət günündən sonra behiştə (cənnətə) gedəcəklər və o dünyada "Əshabi-kəhf"in iti ilə Lut Peyğəmbərin arvadının dərisini bir-birilə dəyişəcəklər. Bu barədə Şeyx Sədi Şirazi "Gülüstan" əsərində deyir:

*Pislərə yar oldu Lutun arvadı,*
*Ayrıldı Peyğəmbər xanədanından.*
*İtinə diqqət et Əshabi - Kəhfin;*
*Yaxşılarla getdi, oldu bir insan.*

Fələstində yaşayan Lut Peyğəmbərin arvadı onun gətirdiyi dini hökmləri qəbul etmədiyinə görə Peyğəmbər ailəsindən sayılmır və Sədi Şirazi də bu beytdə onu qələmə alıb.

Həzrət Əli (ə) Mədinə şəhərindən Şama gedərək "Əshabi-kəhf" ilə söhbət edib.

Peyğəmbərin (s) səhabəsi Ənəs ibn Malik deyir:

Peyğəmbər (s) bizə Əli (ə) ilə birlikdə xalça üstündə əyləşməyi əmr etdi. Xalça bizi Həzrət Əlinin (ə) əmri ilə gecə buludları kimi Mədinədən aparıb bir mağaranın yanında endirdi. Biz Əlidən(ə) soruşduq: "Ya Əli, biz hara gəlmişik?" Əli (ə) buyurdu: "Bu Kəhf ilə Rəqim əshabının məqamıdır. Ayağa qalxın və qardaşlarımıza salam verin." Hamımız salam verdik, cavab eşitmədik. Sonra Əli (ə) ayağa qalxdı və salam verdi. Mağaranın daxilindən Əlinin (ə) salamına cavab gəldi. Biz Əlidən (ə) "bizim verdiyimiz salama niyə cavab vermədilər", – deyə soruşduqda, bu zaman mağara sahiblərinin səsini eşitdik: "Ya Əli (ə), bizə yalnız Peyğəmbərin və vəsilərin salamlarının cavabını qaytarmaq əmr olunub." Biz bir

neçə saatdan sonra Mədinəyə qayıtdıq və Peyğəmbərlə (s) birlikdə sübh namazını qıldıq."

Aşıq Qurbani:

*"Şəmameynən getdi ol şəhrizarə,*
*Ağam orda boran-qarı çəkibdi, "*

– dedikdə bu hadisəni nəzərdə tutur. Aşıq 3-cü bənddə deyir:

*Xoş o kimsəyə ki, yata yuxuda,*
*Cəbrayıl üstünə gətirə nida.*
*Ağam Şahi-Mərdan özü davada,*
*Kafər üstə Zülfüqarı çəkibdi.*

Aşıq Qurbani bu bəndin 1-ci və 2-ci misrasında Peyğəmbərlərin və övliyaların yüksək məqam sahibləri olmasından söz açır ki, xoş o kimsələrin halına ki, vəhy mələyi Cəbrayıl(ə) onların hüzuruna gəlir. Çünki Peyğəmbərlər, İmamlar, övliyalar öz nəfslərinə qul deyil, ağa, rəhbər idilər. Həzrət Əli (ə) buyurub: "Hər kəs nəfsini tanısa, Rəbbini də tanıyar."

Böyük filosof-şair Nəsimi deyir:

*Sən özünü dərk eləsən, dərk edərsən Tanrını da,*
*Haqq özünü dərk edənə Cəbrayılı edər nökər.*

Ustad aşıq Qurbani də bu qoşması ilə bizi yüksək mərtəbələrə, kamillik zirvəsinə yol axtarmağa dəvət edir.

Ustadnamənin 3-cü və 4-cü misralarında aşıq yenə də Həzrət Əlinin (ə) mərdlərin ağası, "Zülfüqar" adlı iki dilli qılıncın sahibi olmasından və bu qılıncla Peyğəmbərin (s) zamanında baş verən müharibələrdə nə qədər kafirləri məhv etməsindən, islama şücaət gətirməsindən söhbət açır. Ş.İ.Xətai də öz əsgərlərinə Həzrət Əlinin (ə) şücaətindən, qüdrətindən danışaraq, onlara bu şüarı əzbər söyləməyi tövsiyə edirdi:

*Harda varsan, ey Xətai, sən bu ləfzi söyləgil,*
*"La fəta illa Əli, la seyfə illa Zülfüqar."*

Yəni, "Əli (ə) kimi şücaətli igid, Zülfüqar kimi kəsərli qılınc yoxdur."

4-cü bəndlə Aşıq Qurbani ustadnaməsini belə yekunlaşdırır:

*Yoxdu bu dünyada belə namidar,*
*Qurbaninin canı yolunda nisar.*
*Ağam Şahi - Mərdan Düldülə süvar,*
*Səməndinə qəm cidarı çəkibdi.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bu bənddə Aşıq Qurbani Əli (ə) kimi namidar, yəni adlı-sanlı, igid, qəhrəman olmadığını söyləyir və belə bir şücaətli şəxsə öz canını nisar edir, yəni qurban verir. Həzrət Əlinin (ə) “Düldül” adlı atına süvar olmağından, “Səməndinə qəm cidarı çəkibdi”, – deməklə isə qırmızı kəhər atın ağzına vurulan cidardan, yəni gəmdən danışır. Hal-hazırda da mehtərlər (atçılıqla məşqul olanlar) atları öyrədərkən, ya onları minərkən ağzına gəm vururlar.

Ş.İ.Xətai və Füzuli də öz qəzəl və qəsidələrində Həzrət Əliyə (ə) məxsus olan “Düldül” adlı atın qeyri-adi yaranışından heyrətə gəlmişlər. S.İ.Xətai:

*“Daş yarıldı, çıxdı Düldül yəhəri-yügən ilə,*
*Ey münafiq, yola gəl, gir, eyləmə şahdan kənar”.*

*Və yaxud:*

*“Şahi - Mərdanın, Əlinin aliyəm, övladıyam,*
*Zülfüqarı, tacı, Düldül-uş bu nişan məndədir” – söyləyir.*

M.Füzuli isə “İmam Əliyə (ə)” həsr etdiyi qəsidəsində “Düldül” adlı atı belə vəsf edir:

*Gətirsən Düldülü cövlanə meydani - vilayətdə,*
*İzin tapmaz, tozun görməz yüz İbrahim, yüz Ədhəm.*

Bu bölümün sonunda Ş.İ.Xətainin, M.Füzulinin və Aşıq Qurbaninin ruhlarına Allah-Təaladan rəhmət diləyib, yazını M.Füzulinin “Olsun” rədifli qəsidəsinin son misraları ilə bitirirəm:

*İlahi, sərfəraz eylə məni daim Füzuli tək,*
*Ki, Füzulinin kəfili Əhli-beyti-Murtəza olsun.*

*Əzəl gündən nəsibim oldu feyzi Şahi - Mərdanın,*
*Necə başlandı, qıl imdad ki, eylə intəha olsun.*

## AŞIQ ABBAS TUFARQANLI

Aşıq Abbas Tufarqanlı da haqq aşiqlərindən biridir. O, haqq aşiqi olaraq səmimi qəlbdən Möminlər ağası Həzrət Əliyə (ə) bağlı olan şəxsdir. Aşıq Abbas dar günündə Həzrət Əlini (ə) dadına çağırır və Həzrət Əli (ə) Abbasın dadına yetişir, ona ən çətin məqamda nicat verir. Rəvayətə görə, Aşıq Abbas Tufarqanlı bağda yatır və yuxuda Mövla Əli (ə) ona eşq butası verir. Bundan sonra Abbası iki dəfə quyuya salırlar. Birinci dəfə Becan onu su quyusuna, ikinci dəfə isə Şah Abbas onu zəhər

quyusuna saldırır. Hər iki halda Aşıq Abbas Həzrət Əlini(ə) dadına çağırır və hər ikisində də öz qəhrəmanına eşq badəsi içirən Həzrət Əli (ə) onu dardan qurtarır, özü isə qeybə çəkilir.

"Abbas və Gülgəz" dastanında həmin hissəyə diqqət yetirək.

Birinci dəfə Abbas quyudan xilas olmaq üçün Həzrət Əlini (ə) köməyinə çağırır və quyunun dibindən yanıqlı-yanıqlı belə oxuyur:

*İstərəm Şiri-Xudanı,*
*Ağamı, Şahi-Mərdanı.*
*Mən Abbası-binəvanı,*
*Ağlar qoyan hara getdi?*

İkinci dəfə zəhər quyusundan xilas olamaq üçün yenə Mərdlər ağası Həzrət Əlini (ə) dadına çağırır:

*Müşküldə qalıb çağırram səni,*
*Yetiş bir dadıma, ay ağa, haray.*
*Pərvanə tək yandım şəmi oduna,*
*Piltə tək qovruldum o yağa, haray.*

*İpəki toxullar ələ yapışı,*
*Pərişan zülflərin ələ yapışı,*
*Mərdin qaydasıdı ələ yapışı,*
*Namərdlər yapışar əyağa, haray.*

*Kəbədən gəlirdim, de, müşkülü nə,*
*Bülbül ərzi halin demiş gülünə,*
*Biçarə Abbasın de müşkülü nə,*
*Özün dada yetiş, ay ağa, haray.*

Abbas bu sözləri quyunun dibində qəmli-qəmli oxuyarkən gördü ki, quyunun ağzındakı daş kənara getdi və quyunun içərisi işıqlandı. Aşıq Abbas başa düşdü ki, bu iş Həzrət Əlinin (ə) işidir. Çox sevincək olub dedi:

*Ağalar ağası Səlli Əla Muhəmməd,*
*Ərənlər sərvəri gəldi, ha gəldi.*
*Düldülün sahibi, Qəmbər ağası,*
*Cansıza can verən gəldi, ha gəldi.*

*Quranı oxuram ayə üzündən,*
*Tökülür söz Peyğəmbərin sözündən,*
*Binəmazlar düşüb haqqın gözündən,*
*Haqq aşığın görən gəldi, ha gəldi.*

*Abbas deyər, çağıraram yasağı,*
*Bizə qismət eylə Behişti, bağı,*
*Allahın Rəsulu minmiş Bürağı,*
*Cansıza can verən gəldi, ha gəldi.*

Bu zaman nurani bir şəxs quyunun başında hazır olub, Abbası səslədi və buyurdu: "Ey Abbas! Əlini uzat, əlimi tut." Abbas əlini uzadır, Həzrət Əli (ə) öz mübarək əlini ona uzadır və Abbası quyudan çıxarır, sonra buyurur: "Abbas məni tanıyırsan?" Abbas dedi: "Kor olsun o göz ki, səni tanımayır, qulaq as, gör, tanıyıram, yoxsa tanımıram:

*Məzhərul-əcaib, tibbül ələtyab,*
*Behiştdə maliksən saqeyi-Kövsər.*
*Natiqi-Quransan, elmin bəyanı,*
*Sənin əlindədir hesabi-dəftər.*

*Sənin varlığınla yer tutdu qərar,*
*Sənin hökmündədir külli, hər nə var,*
*Sənə bəxş eylədi bir Pərvərdigar,*
*Fatimə, Zülfüqar, Düldül və Qənbər.*

*Yüz iyirmi dörd min nəbidən olan,*
*Haqq deyib şanuva Lövlakə-lövla,*
*Bir adın Qul-kəfa, bir adın Ta-ha,*
*Bir adın Yasindir, bir adın Heydər.*

*Yədullah əliynən Xeybəri aldun,*
*Özüvü qul etdin, bərbərə satdun,*
*Tifl ikən ağ devin bəndini çatdın,*
*Vəsiyyi-Mustafa, qaziyi-Məhşər.*

*Abbas, sözlərivi bir bilir Allah,*
*Qümbədi-xəzrada zikri-iləllah,*
*Beytül-müqəddəsdə vallahi-billah,*
*Yoxdu sənin kimi zati-pirhünər.*

Sonra Həzrət Əli (ə) buyurur: "Abbas salavat çevir və atımın rikabından tut. "Abbas gözlərini yumub bir salavat çevirir və Əlinin (ə) atının rikabından tutub, bir göz qırpımında İsfahan darvazasına yetişdi. Həzrət Əli (ə) buyurdu: "Ey Abbas, yeddi günə qədər filan abidə qonaqsan. Ondan sonra hara istədin, gedərsən."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

"Abbas və Gülgəz" dastanından da açıq-aydın görünür ki, həqiqətən Aşıq Abbas haqq aşiqi olub və ömrünün sonuna kimi öz əhdinə sadiq qalıb. Aşığın "Edibdi" rədifli qoşmasında bunun bir daha şahidi oluruq:

*Damadı-Peyğəmbər, zinəti-mənbər,*
*Məhşərdə şiəyə imdad edəndi.*
*Kərəmin kanidir, sahibi-Qəmbər,*
*İmamət vəchində irşad edəndi.*

*Zitaha qəbasi, ziyasin-kəmər,*
*"İnna-fətəhna"ya hüvət taci-sər,*
*O gün ki Cəbrail qalmışdı bisər,*
*Ona təlim verib ifad edəndi.*

*Mahi-hidayətdir, nuri-münəvvər,*
*Barmaqla şəqq etdi səmada qəmər,*
*Adəm sifətində Xatəmə sərvər,*
*Qurani-Məcidi irşad edəndi.*

*Haqq-Təala yaradıb bir belə sərvər,*
*Əmirəl-möminin imami-əkbər,*
*Qəbr evində gəlir Nəkiri-Munkər,*
*Onda da Abbası bir yad edəndi.*

Həqq-təaladan haqq aşiqinin ruhuna rəhmət diləyib Aşıq Abbas Tufarqanlının "Şeşaşeş" rədifli ustadnaməsi ilə bu bölümü yekunlaşdırırıq:

*Əvvəl ibtidadan nurdan yaranmış,*
*Çəkiliydi nuri-ayə şeşaşeş.*
*Abu-ataş, xaku-baddən yaranmış,*
*Ayda ondan qılar sayə şeşaşeş.*

*Əzəl gündən sənə demişəm Əli,*
*Peyğəmbər yerində vəsisən, vəli,*
*Çəkdin Zülfüqarı, böldün Əntəri,*
*Şahlıq gəldi sən Mövlaya şeşaşeş.*

*Abbasın şəstində çoxdur hünəri,*
*Övliyalar, ənbiyalar mürsəli,*
*Yədullah əliylən yıxdın Xeybəri,*
*Əhsən gəlib bu sənayə şeşaşeş.*

## XƏSTƏ QASIM YARADICILIĞINDA HƏZRƏT ƏLİNİN (Ə) YERİ

Haqq aşiqlərindən biri də Xəstə Qasımdır. Xəstə Qasımın bütün şeirləri insanı düşündürür, idrakına, şüuruna təsir göstərir, ona zövq verir və mənəvi aləmini saflaşdıraraq bulaq suyu kimi şəffaf edir. Bu haqq aşiqinin hər bir şeirində ümid çırağı yanır.

*Alimdən dərs aldım, əlif-bey üçün,*
*Sürahilər düzülübdür mey üçün,*
*Dəli könül, qəm çəkirsən nə üçün?*
*Qəmli günün şad günü var yanınca.*

Ustad aşığın söylədiyi bu şeirin məzmunu Quranı-Kərimin ayələri ilə üst-üstə düşür.Belə ki, Allah-təala Qurani-Kərimin "İnşirah" surəsinin 5-ci və 6-cı ayələrində buyurur: "Fə innə məəl usri-yusra; İnnə məəl usri yusra" – Əlbəttə, hər çətinliklə bir asanlıq var! İki aləmdə hər çətinliklə bir asanlıq var!

Xəstə Qasım da məhz bu ayələrə söykənərək insanları ümidsiz olmamağa səsləyir.

"Xəstə Qasım" dastanında maraqlı və cazibədar bir hadisənin şahidi oluruq. Adi bir çoban olan Xəstə Qasım qoyun otararkən bir qəbristanlıqda yatır, yuxuda ona aşıqlıq istedadı və şairlik təbi verilir. Alimlər, qazilər, ruhanilər qarşısında elm və sənət imtahanı verən və bu imtahandan qalib çıxan Xəstə Qasıma Müctəhid məclisə layiq ən gözəl söz söyləməyi xahiş edir. Məclisə və insanlığa layiq olan ən gözəl söz nə ola bilər? Haqq aşiqi olan Xəstə Qasımın nəzərincə, Həzrət Əlinin (ə) şəninə söylənmiş vəsfdən gözəl söz yoxdur. Ona görə də öz imanını belə ifadə edir:

*Ərşi-zəmin, lövhi-qələm yox ikən,*
*Varlığa hamıdan tez gələn Əli.*
*Ustadlar ustadı özün olubsan,*
*Cəbrail məqamın düz bilən Əli.*

*Sənin hörmətinə quruldu varlıq,*
*Həyatın zəm-zəmi, o suyi-dirlik*
*Səndə nəqş olundu elm və birlik,*
*Cəmi dillər ilə söz bilən Əli.*

*Xəstə Qasim, zərbi-danəndən Əli,*
*Aləmi-zərridə demişəm, bəli,*
*Bir ismin Əlidir, bir ismin vəli,*
*Cəmi pünhan dərdi tez bilən Əli.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ustad aşıq digər bir şeirində Əhli-beytə(ə) sonsuz məhəbbətini bildirir, xüsusən, Həzrət Əlinin (ə) təkcə yer əhli üçün deyil, səma əhli üçün də nicat gəmisi olduğunu vəsf edir və deyir:

*Əli Düldül mindi, Muhəmməd Büraq,*
*Aləmin şahpəri, o şahi-çıraq,*
*Əbazər Əlini eylədi qonaq,*
*Qırx yerdə dedilər mənzilgahini.*

*Yığıldı bir yerə təmamən hami,*
*Cəm oldu oraya dini-islami,*
*Fatimə and içdi: “Mən olum Tanrı,*
*Əli eşiyə qoymub qədəmgahını”.*

*Qəbul oldu Xəstə Qasım duası,*
*Silinib, könlümün qalmadı pası,*
*Cəbrail vəhy gətdi: “Ya Fatimə! Eyləmə bəhsi,*
*Əli ərşdə açıb səcdəgahini”.*

Aşıq yaradıcılığında Həzrət Əli (ə) həm ilahi, həm də bəşəri keyfiyyətlərə malik bir şəxsdir. Aşıqlar onu özlərinə mürşid, pir, yol göstərən kimi vəsf ediblər.

Bu sıraya daxil olan aşıqlardan biri də haqq aşiqi kimi tanınan Aşıq Valehdir. Aşıq Valeh “Vücudnamə”sində qeyd edir ki, insan qəbrə qoyulduqdan sonra Nəkir və Munkir adlı iki mələk gəlib sorğu-sual edir. Həmin anda insanlar imdadına axirət hamisi və yardımçısı kimi Həzrət Əlini (ə) çağırırlar.

*Munkir-Nəkir məndən aldılar xəbər,*
*Çəkdilər üstümə həm tiğu-təbər,*
*Nitqim batdı, dilim tutmadı əzbər,*
*Mənə qəbr içində verdilər cəza.*

*Çağırdim: “Ya Əli! Həlali-müşkül,*
*Ürək qüvvət tapdı, güşad oldu dil,*
*Cavabın suala oldu müqabil,*
*Müraciət etdi Mərsuli-Xuda.*

Bu misralardan da aydın görünür ki, Həzrət Əli (ə) təkcə bu dünyanın hamısı deyil, həm də axirət himayədarıdır.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t





t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



## HƏZRƏT ƏLİ (Ə) AŞIQ ALI YARADICILIĞINDA

Aşıq Alı yaradıcılığında Həzrət Əli (ə) mövzusuna geniş yer ayırmışdır. O, hədis və rəvayətlərdən istifadə edərək oxuculara Əli (ə) haqda doğru, düzgün məlumatları çatdırır:

*Rəbbimi şərh etdı, xilqət anladı,*
*Dünyam şükür eyləsin, o bəndəlidi.*
*Pünhan ikən Cəbrailin ustadı,*
*Kəlamında ilk misra, bənd Əlidi.*

Aşıq Alı "Səcdəgahım Şahi-Mərdan Əlidir" adlı təcnisində Həzrət Əlinin (ə) uca məqamını vəsf edərək deyir:

*Səcdəgahım Şahi-Mərdan Əlidir,*
*Vücuduna toxunmayıb bəd əli,*
*Əli yandı,*
*Toxunan əli yandı,*
*Kimsə yanmaz sailə,*
*Hifz etdi, Əli yandı.*
*Kafər qətlikarı Səlli-Şəmşirli,*
*İmamətdə söyləmədi bəd Əli.*

Bu təcnisdə haqq aşiqi Qurani-Kərimin "Vilayət"[1] ayəsini çox incə və nəfis şəkildə müsəlmanlara çatdırır. Bildiyimiz kimi, "Vilayət" ayəsi Həzrət Əlinin (ə) Peyğəmbərdən sonra müsəlman ümmətinə rəhbərliyinə işarədir.

## AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA İSLAM DİNİ VƏ ƏHLİ-BEYTİN (Ə) YERİ

İslam dininin incəliklərinə dərindən bələd olan Aşıq Ələsgər baş divani, ustadnamə, qifilbənd, qoşma, gəraylı, təcnis, müxəmməs, duvaqqapma və s. kimi şeir növlərində bu dinin vacib etdiyi əmrləri xalqa çatdırmışdır. "Baş endirir" və "Yüküm" divanilərinə nəzər salsaq, bunun şahidi olarıq.

*Ələstidən bəli deyən Sübhanə baş endirir,*
*Muhəmmədə tabe olan Quranə baş endirir.*
*Özü birdi, adı minbir, vəhdəhuəl laşərik,*
*Əhli-mömin görə bilməz, pünhana baş endirir.*

[1] "Maidə" surəsi, 55-ci ayə

*Ölməyincə bu sevdadan çətin dönəm, usanam,*
*Həqiqətdən dərs almışam, təriqətdən söz qanam.*
*Şəhi-Mərdan sayəsində elm içində ümmanam,*
*Dəryaların qaydasıdır, ümmana baş endirir.*

Divaninin son bəndində Aşıq Ələsgər Qurani-Kərimin və Peyğəmbərin (s), imamların buyurduqları elm barəsində, yalan danışmamaq, halal ruzi qazanmaq və qiyamət gününün hesab-kitabına hazır olmaq haqqında yazır:

*Biçarə Aşıq Ələsgər, olma elmə nabələd,*
*Danışanda doğru danış, sözün çıxmasın qələt;*
*Çox qazansan, az qazansan, beş arşın ağdı xələt,*
*Mal-dövlətə baş endirən əfsanə baş endirir.*

Aşıq Ələsgər Əhli-beyti (ə) ürəkdən sevmiş və onların əxlaqi xüsusiyyətlərini, insani keyfiyyətlərini, ibadət və səxavət kimi mühüm əməllərini böyük ilhamla tərənnüm etmişdir. Görkəmli sənətkar onları, sadəcə olaraq, vəsf etməmiş, həm də bu mübariz, əzmkar, qüdrətli və yenilməz insanlara qəlbən bağlanmışdır. Aşığın "Yüküm" rədifli divanisinə nəzər salaq:

*Ələstidən bəli dedim, nə xoş iqbaldı yüküm,*
*Beş gözəlin aşiqiyəm, vəsfi kamaldı yüküm.*
*Mətahım mətah olunca bazarım bazar olsun,*
*Nə alınmır, nə satılmır, xeyli zavaldı yüküm.*

*Zatından liva olan tez göstərər isbatın,*
*Ağac bitər öz kökündə, meyvə gözləyər zatın.*
*Hərcayı hədyana yazar, naşı bilməz qiymətin,*
*Əhli-urfan məclisində gövhər misaldı yüküm.*

*Biçarə aşıq Ələsgər, sığın Şahı-Heydərə,*
*Hər kim tutsa ətəyindən, inşəllah, yanmaz narə.*
*Pirim mənə nüsrət verdi, bu gün çıxdım bazarə,*
*Sərrafsansa, bil, sec, götür, gör, necə ləldi yüküm.*

Aşıq Ələsgər fitri istedad sahibi, oxucunu, dinləyicini düşündürən, sözün bədii qüdrəti ilə insanı valeh edən bir sənətkar olmuşdur.

Aşıq Ələsgər haqq aşığıydı; ona yuxuda "buta" verilmişdi. Özü də bunu "Qabaqda" rədifli qoşmasında açıq-aşkar söyləmişdir:

*Şəhrin şöləsindən buldum bələndim,*
*Xoş gəldi xoşuma halı qabaqda.*
*Pir mana göstərdi şah məqamını,*
*Gördüm, cəmdi çox cəlalı qabaqda.*

*Neçə taxt qurulub nuri-münəvvər,*
*Neçəsi zəbərcəd, neçəsi gövhər.*
*Sağda, solda səf-səf yerir mələklər,*
*"Yahu-yahu" deyir qulu qabaqda.*

*"Yahu" deyib, bir-birinə uydular,*
*"Yamənhu" deyəndə təam qoydular.*
*Cümlə məxluq yemədilər, doydular,*
*Qaldı məcmeyilər dolu qabaqda.*

*Neçə sirri gördüm, sirr qaldım aşkar,*
*Səxavət əhlini yandırmadı nar,*
*Salavatnan işlər hər dükan-bazar,*
*Zay oldu dünyanın malı qabaqda.*

*Dünyada əl çəkmə sovm-səlatdan,*
*Təmiz ver, qalmasın xüms-zəkatdan.*
*Ələsgər, xof etmə puli-Siratdan,*
İrəhbərdi cənab Əli qabaqda.

Bu qoşmada aşıq İslam dininin qanunlarına riayət olunmasından söhbət açaraq insanlara namaz qılmağı, oruc tutmağı, xüms və zəkat verməyi, Peyğəmbərə (s) və Əhli-beytinə(ə) salam və salavat göndərməyi tövsiyə edir və insanları səxavətli olmağa çağırır. Aşıq Ələsgər öz dövrünün bütün ustad aşıqlarının ağsaqqalı olmuşdur. Bəzən klassik aşıq şeirində təsadüf olunan "açılmaz" qıfılbəndləri öz adlarına çıxaraq, Ələsgərə göndərənlər də olmuşdur. Böyük fitri istedada malik olan aşıq həmin qıfılbəndləri açmış və şeirlərin də kimə aid olduğunu bildirmişdir. Aşıq Ələsgər Mir Məcid İrəvaninin ona göndərdiyi qıfılbəndi çox məharətlə açmışdır.

**Mir Məcid İrəvani** yazırdı:

*Xilafət mülkünün şahənşahının,*
*Üç yüz altmış altı qulamı vardır.*
*On iki köşkdür, qırx səkkiz hücrə,*
*Üç əzim şəhrində nizamı vardır.*

**Aşıq Ələsgər:**

*Rişeyi-nübuvvət, nəsli-əlaya,*
*Əskik qulun ərzi-salamı vardır.*
*Üç yüz altmış altı gündür, qırx səkkiz həftə,*
*On iki ayın üç əziz bayramı vardır.*

Bu üç bayram islam dinində olan “Qurban”, “Fitr” və “Qədir-Xum” bayramıdır. Aşıq Ələsgər “Qədir-Xum” bayramını bu iki bayramdan üstün bilmiş və Peyğəmbərin (s) Qədir-Xum çölündə buyurduğu xütbəni və Əlinin (ə) haqqını məclislərdə xalqa çatdırmışdır.

**Mir Məcid İrəvani:**
Bir gülşəndə gördüm beş qönçə xəndan,
On iki dəstə gül, on dördü reyhan.
Bir çeşməsin gördüm nur idi əlan,
Yüz iyirmi dörd min su camı vardır.

**Aşıq Ələsgər:**
Beş pənc ali-əbadır, Əzimi-əziz,
On iki imam, cardəh məsum düzbədüz,
Yüz iyirmi dörd min Peyğəmbərimiz,
Hər birinin ayrı məqamı vardır.

**Mir Məcid İrəvani:**
Bir məscidin gördüm əcəb mötəbər,
Altımış min altı yüz altımış altı dər,
Altımış pəncərədir, yüz on dörd minbər,
Otuz sütun üstə davamı vardır.

**Aşıq Ələsgər:**
Altı min altı yüz altımış altı gün,
Yüz on dörd surədi Quran, yəqin bil,
Altımış nisbi, otuz cüzi müttəsil.
Doxsan min kəlmədə tamamı vardır.

**Mir Məcid İrəvani:**
Bir mehrabda gördüm əcayib Quran,
On yeddi səhifə, on səkkiz xoş han,
İyirmi sətirdə, əlli bir bəyan.
Beş cilid içində tamamı vardır.

**Aşıq Ələsgər:**

Elmi-ibadətdi əcaib Quran,
On yeddi rükətdi, on səkkiz xoş han,
Əlli bir sünnətdi yerbəyer qılan,
Məxrəci, səktəsi, idğamı vardır.

**Mir Məcid İrəvani:**

Əgər əsli-nəslim bilmək etsə çak,
Görüm ki, dur etsin dövrünü əflak,
İrəvan, Mir Məcid, Seyyidü qəmnak,
Bisəmər-bisəmər kəlamı vardır.

**Aşıq Ələsgər:**

Ələsgərəm, qəmdən olmaram azad,
Haqdı mizan, sirat, ruzi-qiyamat,
Üsyan, tuğyan, coşğun, düşgün, bisəvad,
Ah çəkmək dilimdə müdamı vardır.

Bu qıfılbənddən bir daha aydın görünür ki, Aşıq Ələsgər İslam dininin bütün məsələlərini mükəmməl bilən, hətta demək olar ki, Qurani-Kərimin ayələri ilə danışmağı bacaran sənətkar olmuşdur.

Azərbaycan aşıq poeziyasından yazılan elmi-tədqiqat əsərlərində ən çox Ələsgərin yaradıcılığından bəhs olunsa da, etiraf edək ki, hələ də bu böyük sənətkarın zəngin irsi lazimi səviyyədə öyrənilməmişdir.

## AŞIQ ŞƏMŞİRİN ƏHLİ-BEYTƏ MƏHƏBBƏTİ

"Dədə" titulu hər adama qismət olan bir məqam deyil. Bu titul aşıq poeziyasında iki şəxsə qismət olmuşdur. Onlardan biri Aşıq Ələsgər, digəri Aşıq Şəmşir olmuşdur. Aşıq Şəmşirin əsərlərindən məlum olur ki, o, on dörd məsumu sidq ürəkdən sevmiş, zamanın zülmündən onlara şikayət etmiş və on iki imamın ziyarətinin arzusu ilə yaşamışdır. "Neynim" rədifli qoşmasında yazırdı:

*Bəşəri qərq etmə dərdə möhnətə,*
*Biz çəkə bilmirik, ay ağa, neynim?!*
*Çağırram Nəcəfdə şah olan mərdi,*
*Bəlkə çatmır səsim uzağa, neynim?!*

*Unudulmaz kərəm-kanı dilimdə,*
*Necə var ömrümün sanı dilimdə,*
*Nübuvvət, imamət hanı dilimdə,*
*Verdilər dilimə qadağa, neynim!*

*Şəmşir, ha səsləyir yazı yazanı,*
*Müdəm ruhum cövlan edir havanı.*
*Ziyarət etməyə imam Rzanı,*
*Yol verilmir gedəm qonağa, neynim!*

Aşıq Şəmşir İmam Hüseynə (ə) sonsuz məhəbbət bəsləmiş, onun Kərbəlada olan mübarək məqbərəsinin ziyarətinin intizarında olmuşdur. Amma təəssüflər olsun ki, Aşıq Şəmşir Kərbəla ziyarətinə gedə bilmədi, vaxtsız əcəl ona bu mübarək arzusuna yetişməyə macal vermədi. "Qurbanıyam mən" rədifli qoşmasında Dədə Şəmşir İmam Hüseynə (ə) olan eşq və məhəbbətini belə qələmə alır:

*Kərbəla şəhrində məzlum Hüseynin,*
*Kəsik peykərinin qurbanıyam mən.*
*O şəhid imamın, o nuri eynin,*
*Əli Əkbərinin qurbanıyam mən.*

*Xorasan şahının, qərib Rızanın,*
*Doqquz min yarası olan ozanın.*
*Zülfüqar sahibi, mərd Mürtəzanın,*
*Oğlu Ələmdarın qurbanıyam mən.*

*Yüz iyirmi dörd min Rəsulu Əkrəm,*
*Şəmşirəm, sizə mən sadiq nökərəm.*
*Qəbul et arzumu, ey kani-kərəm,*
*Əziz ismi-barın qurbanıyam mən.*

Allaha sığınmağı hər şeydən üstün bilən, Əlidən (ə) və onun pak övladlarından kömək istəyən Aşıq Şəmşir "Eşqinə" rədifli ustadnaməsində bunu daha gözəl bəyan etmişdir.

Səndən qeyri nə həkim var, nə təbib,
Dərman eylə bir sübhanın eşqinə.
Olanlar olammaz, sənin tək həbib,
İmdada yet Ər-Rəhmanın eşqinə.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

And verdim İlahi öz hörmətinə,
Yeganə adına, kəramətinə.
Rəhimsən, işimi salma çətinə,
Ali-Əba Mustəfanın eşqinə.

Yüz iyirmi dörd min Peyğəmbər tamam,
Yetmiş min mələkə, on iki imam.
Bunların xətrinə, ey bari, Xudam,
Sən şəfa ver Şah-Mərdanın eşqinə.

Məhəmməd xətrinə bəzənən merac,
Şəmşirəm, istərəm mən sizdən əlac.
Kani-Kərəm, eylə özünə möhtac,
Qərib olan Xorasanın eşqinə.

Təkcə bu iki aşıq deyil, bir sıra digər yaradıcı aşıqlar da öz şeirlərində İslam dininin incəliklərini xalqa çatdırmışlar.

Bu fəsli iki ustad aşığın ustadnamələri ilə tamamlayırıq.

***MİSKİN ABDAL***

### *YA ƏLİ*

Bey-Bismillah əzbərimdi, hey Xudadan, Ya Əli,
Əl ibtida gəldi səda ərş-ə`ladan, Ya Əli.
Badi-sərsər, lohi qələm, oldu dunya olmamış,
Bir Cəbrayıl qalxdı göyə tək dəryadan, Ya Əli.

Səlli-aləm, mahi-aşkar, zülmətdən var pərdəsi,
Sey-sirdən səda gəldi, Cəbrayıl çəkdi bəhsi,
Həqiqəti düz bilmədi, tərsə döndü kəlməsi,
Alışıb yandı şahpəri, oldun fərman, Ya Əli.

Yandı şahpər, endi suya, nələr gəldi yadına,
Xaki-kəlam verdi səlam, yetişdi muradına,
Haqq-təala özü dedi irəhmət ustadına,
Hər tərəfdən səda gəldi, ”Əhsən! Əhsən!”, Ya Əli.

Hər kəlmədə tə`rif edir Qur`anda ayət səni,
Cəmi aləm övlüyadır, yazır əsli zat səni,
Həbib özü tərif edir külli-vilayət səni,
Zahirdə təvəllüdsən, sirri-sübhan, Ya Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Göyçəlidi Miskin Abdal, yoxdu heç bir günahım,
Hər kəlmədə, hər ayədə sən ol mənim pənahım.
Puli-sirat, haqq divandı, ol Xudadan köməyim,
Vəli sənsən, vəkil sənsən, Şiri-yəzdan, Ya Əli.

***AŞIQ XINDI MƏMMƏD***

## *YA ƏLİ*

Atı Düldül, qulu Qəmbər, Şiri-Yəzdan, ya Əli,
Unuduban, mərd iyidi salma gözdən, ya Əli.
Gecə-gündüz əzbərimsən, çağırıram mən səni,
Kəsməginən şəfaətin üstümüzdən, ya Əli.

Nə müddətdir damandəyəm, yetir dəstin dəstimə,
Hər kimi ki dost bilirdim, axır durdu qəsdimə,
Sirr vermə namərdə sən, ayaq alsın üstümə,
Sinəmdəki pünhan dərdim keşdi yüzdən, ya Əli.

Bu sinəmdə olan dərdim, mövlam, sənə əyandır,
Həsrətəm bir xoş günə, xeyli müddət, zamandır.
Özün yetiş harayıma, Şahı-Mərdan, amandır.
Xındı Məmməd mətləbini dilər sizdən, ya Əli.

# IX FƏSİL

# EL ŞAİRLƏRİ

*Köç edib gedəndən Rəsuli-Əkrəm,*
*Əli bu dünyaya soltandı, xandı,*
*Beyyət etməyəni bu beş kimsəyə,*
*Rəbbim, möcüz edib odlara yandır.*

El şairləri də öz şeirlərinin mayasını Haqdan alır. Bu qurupa daxil olan şairlərdən Bəhmən Vətənoğlunu, Dəmirçi Abbası, Kərəm Kürqıraxlını, Alqayıtı və s. göstərmək olar. Bu el şairləri də öz yaradıcılıqlarında İslam dininə, müqəddəs şəxslərə, Əhli-beytə olan sonsuz məhəbbətlərini əks etdirmişlər. Dəmirçi Abbas "Şükür" rədifli divanisində yazır:

*Əliyə bel bağlamışam, Ağamdı Museyi-Kazım,*
*Nitqimdə meydan açılıb, əlif-beylə dastan yazım.*
*Südün gölüdür üzürəm, bir rütbə nəyimə lazım,*
*Güzəranım çox yaxşıdır, bax, onu verənə şükür.*

Şair "Ya Əli" adli ustadnaməsində Həzrət Əlinin (ə) bir çox fəzilətlərini qələmə alaraq yazır:

*Sənsən qibləgahım, ya Şahi-Mərdan,*
*Bir zəlil bəndənəm, salma nəzərdən,*
*Dəmirçini sən qaldırdın məzardan,*
*Yaşadırsan bu dünyada, Ya Əli!*

El şairi Bəhmən Vətənoğlu da İmam Əliyə (ə) olan məhəbbətini belə qələmə almışdır:

*Birinci kəlməsi oldu "Bismillah",*
*İkinci kəlməsi – "La ilahə illəllah".*
*Mən Bəhmənə qismət olar, inşəllah,*
*Paylayan kövsəri Əlidir, Əli.*

El şairi Kərəm Kürqıraxlı Qurani-Kərimin ayələrinin nəsihətamiz hikmətlərini öz şeirləri vasitəsilə xalqa belə çatdırır:

*Dünya öz qoynunda tapandan nicat,*
*Allahın hökmüylə qurulmuş həyat,*
*Bu yer, bu asiman, külli-kainat,*
*Quranın otuz cüzv ayəsindədir.*

Əhli-beytə və Peyğəmbərə (s) sonsuz məhəbbət bəsləyən, bir çox şeirlərini bu pak insanlara həsr etmiş el şairi Kərəm Kürqıraxlı xalqı onlardan ibrət almağa çağırır:

*Quran ayələrini Allah göndərdi,*
*Bu yolda qeyrətlə durdu Məhəmməd.*
*Diliylə söylədi incilər, dürlər,*
*Əliylə min naxış vurdu Məhəmməd.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Peyğəmbərdən (s) sonra ümmətə rəhbər olacaq İmam Əlinin (ə) haqqını tapdayan insanlara şair belə qarğıyır:

*Köç edib gedəndən Rəsuli-Əkrəm,*
*Əli bu dünyaya soltandı, xandı,*
*Beyyət etməyəni bu beş kimsəyə,*
*Rəbbim, möcüz edib odlara yandır.*

Digər bir şeirində şair Əlinin (ə) haqqını xalqa belə çatdırır:

*Sən zülmət yolunda oldun şam, çıraq,*
*Adın gələn yerdə, gərək, baş yaraq.*
*Biz kimik ki, səndə nöqsan axtaraq,*
*Peyğəmbər görməyib bir nöqsan, Əli,*
*Canım sənə fəda, Əli, can Əli.*

Qüreyiş qəbiləsi Peyğəmbərə (s) qarşı sui-qəsd planı hazırlayarkən Cəbrail (ə) bu xəbəri Peyğəmbərə çatdırır. Peyğəmbərin (s) yerində Əli (ə) qalmağa razı olur. Tarixdə bu, **“Darun-nədvə”** hadisəsi adı ilə məhşurdur. “Bəqərə” surəsinin 207-ci ayəsi də bu hadisə ilə əlaqədar olaraq nazil olmuşdur: “Allah yolunda elə insanlar var ki, hətta canlarından belə kecməyə hazırdılar. Allah bu bəndələrinə qarşı mehriban və bağışlayandır.”

Şair K.Kürqıraxlı bu səhnəni çox gözəl şəkildə şeir vasitəsi ilə oxuculara çatdırmışdır:

*Haqdan şir doğulmaq yazıldı baxta,*
*Dizlərin torpaqda, əllərin haqda,*
*Ən çətin məqamda, ən çətin vaxtda,*
*Oldun Peyğəmbərə özün kan, Əli,*
*Canım sənə fəda, Əli, can Əli.*

Yaxud:

*Haqsızlıq görəndə bağrını didən,*
*Məhəmməddən (s) ötrü ölümə gedən,*
*Bütün ömrü boyu ibadət edən,*
*Əli – ibadətdi, ibadət – Əli.*

El şairi K.Kürqıraxlı şeirlərində axirət aləmini də insanlara xatırladır və onları namaz qılmağa, oruc tutmağa, yalan danışmamağa çağırır:

*Acından pay yığsan, harama uyma,*
*İşlərin təmizi, gözəli budur,*
*Oruc tut, namaz qıl, yalan danışma,*
*Dünyanın axırı, əzəli budur.*

İstər klassik ədəbiyyatda, istərsə də aşıq ədəbiyyatında İslam dininə və 14 Məsuma geniş yer ayrılmışdır. Bu gün də müasir şairlər və aşıqlar öz yaradıcılıqlarında bu mövzuya xüsusi hörmət və ehtiramla yanaşırlar.

El şairi Əli Səfər oglu da Peyğəmbərə (s) və Onun Əhli-beytinə (ə) xüsusi məhəbbət bəsləyən şairlərimizdəndi. Onun Həzrət Əliyə (ə) həsr etdiyi gözəl şeirləri var. Şair "Ya Əli" rədifli gəraylısında yazır:

*Yoxdu sənin bərabərin,*
*Haqdan nidasan, Ya Əli!*
*Məzlumların havadarı,*
*Qeybi sədasan, Ya Əli.*

Çoxşaxəli yaradıcılıga malik olan el şairlərindən biri də şair Sərraf Şiruyədir. "Mən haqqa sığınmışam" adlı kitabında onun Allaha, Peyğəmbərlərə və İmamlara olan sonsuz məhəbbətinin şahidi oluruq. Həzrət Əli (ə) sevgisi ilə alışıb-yanan şair yazir:

*İki dünya xoşbəxtiyəm, çün aşiqəm Əliyə,*
*Baş endirib, səcdə qıllam mən dəmadəm Əliyə.*
*Qismət ola, məhşər günü başmağını cütliyəm,*
*Qulamının qulamı tək olam həmdəm Əliyə.*

*Odur millət şəfadarı, iki cahan sahibi,*
*Düldül atlı, Zülfüqarlı, mərdi-meydan sahibi.*
*Dini İslamın carçısı, o xoş Quran sahibi,*
*Lənət gəlsin kafərlərə, etdi sitəm Əliyə.*

*Yerə-göyə lərzə düşdü, O Əntəri böləndə,*
*Sındırdı neçə tilsimi, şəhri-Zərə gedəndə.*
*Şiruyəyəm, canım qurban şəhadətə yetəndə,*
*Haqq öyündə məleykələr tutdu matəm Əliyə.*

"Əlidir" rədifli divanisində də el şairi Həzrət Əlinin (ə) bir çox fəzilətlərindən söz açaraq oxucularına çatdırır ki, ibadət və itaətlərində Həzrət Əlini (ə) Allah və Peyğəmbərdən (s) ayırmasınlar.

*Dərya qədər günahım var, dərya qədər qəmim var,*
*Köməkdarım Qadir Allah, ol Məhəmməd, Əlidir.*
*Gecə-gündüz üz sürtərəm onun xaki-payına,*
*Çağıraram o şəxsi ki, sirri-qüdrət Əlidir.*

*Ürəyimdə əzbərimdir əfzəl, mürsəl peyğəmbər,*
*Beş-pənci Ali-Əba, mən onlara qul-kəmtər.*
*Millətinin dar günüdür, çək Düldülü, ey Qəmbər,*
*Həm kəramət, həm cəsarət, həm də qeyrət Əlidir.*

*Yerin, göyün, ərşin-kürşün sahibidir bir Allah,*
*Hər kəlmənin, hər bir işin əvvəlidir “Bismillah”.*
*Mən sənə bel bağlamışam, Əliyyən-Vəliyullah,*
*Şiruyəyəm, yəqin billəm, verən nüsrət Əlidir.*

Həm Haqq aşiqləri, həm də el şairləri şeirlərində Həzrət Əlini(ə) bir neçə adla vəsf etmişlər: “Şahi-Mərdan”, “Şiri-Yəzdan”, “Heydəri-Kərrar”, “Şahi-Qəşəmşəm”, “Cənab-Əmir”, “Seyfullah”, “Əmirəl-Möminin”, “Şiri-Xuda” və s. Eyni zamanda, onlar öz yaradıcılıqlarında Həzrət Əlinin (ə) “Düldül” adlı atının, “Zülfüqar” adlı qılıncının və “Qənbər” adlı qulamının adını da məhəbbətlə vurğulamışlar.

Belə el şairlərindən biri də Emir Məhərrəmlidir.O, bir şeirində yazır:

*Yel qanadlı, əlvan rəngli Düldül onun atıdı,*
*Sədaqətli qulu Qənbər, tədbir ehtiyatıdı,*
*Sal-sal kimi, Bəttal kimi düşmənləri qatıdı,*
*Salammadı heç birisi iqtidardan Əlini.*

*Küfrə qarşı sinə gərdi, meydanı mərd dolandı,*
*Hökmü-nuru yaymaq üçün dünyanı dörd dolandı,*
*Bütpərəstin ürəyində vahimə, dərd dolandı,*
*Qabağında tir-tir əsdi, gördü harda Əlini.*

Həzrət Əli (ə) bütün cəhətlərdə, söz, əməl, əxlaq, mərifət, ibadət və elm baxımından kamil insan nümunəsi kimi tanınmış və sevilmişdir.

## *ƏLİ*

Ali Muhəmməddən sonra dünyada,
Külli yaranmışın cəmidir Əli.
Çalxanan ümmanda mahal yığışan,
Sahilə yan alan gəmidir Əli.

Haqqın dərgahında aranıbdı o,
Bütün bəd əməldən daranıbdı o,
Məzlumlar ağası yaranıbdı o,
Sızlayan qəlblərin simidir Əli.

Olsan göy üzündə ay bata-batda,
Lap torpaq altında, yeddinci qatda.
Haqq yolda olana bu kainatda,
Atadır, dayıdır, əmidir Əli.

Yaşadı bir ömrü xiffət içində,
Ötsə də hər anı zillət içində.
Kərəm, axirətdə zülmət içində,
O zülmət aləmin şamıdır Əli.

## *YA ƏLİ*

Yüz yol zikr edirəm adını hər gün,
Deyirəm bəlkə də azdı, ya Əli!
Qışın çiləsində adın gələndə,
Baxıram gül açıb, yazdı, ya Əli!

Sən Allah yolunda dayandın mətin,
Heç müşküllər sənə olmadı çətin.
Həsənin, Hüseynin, cəm nəcabətin,
Bütün əzablara dözdü, ya Əli!

Yanında xəciləm, ay ağa, billəm,
Zəif şeir yazıb göz yaşın silləm.
Əliboş qulunam neyləyə billəm,
Kərəmin yazdığı sözdü, ya Əli!

## *YA HƏZRƏT ƏLİ*

Dağlıq Qarabağım düyünə düşüb,
Gəl, bu düyünü aç, ya Həzrət Əli!
Xalqımın nə qədər düşməni varmış,
Qalmışıq biəlac, ya Həzrət Əli!

Yetsin dadımıza Peyğəmbər dini,
Qovsun qəlbimizdən fəryadı, ünü.
Bir qarın çörəyə əl açır mini,
Baş var ki, əlli tac, ya Həzrət Əli!

Cavankən gözümə qaranlıq çökdü,
Neyləsin, canımın dərdi böyükdü.
Verdiyin birbə-bir gözümdən tökdü
Bu zalım ehtiyac, ya Həzrət Əli!

Bu sözü aləmə qoy eyləyim car,
Hər dağ zirvəsində saxlamayır qar.
Dəllalın on dənə cangüdəni var.
Alimlər gəzir ac, ya Həzrət Əli!

Kürqıraxlı Kərəm xəyala dalıb,
Bir kiçik ürəyə min fikir salıb.
Gəl, gör, ümmətlərin zülmətdə qalıb,
Zülmətə işıq saç, ya Həzrət Əli!

## *YA ƏLİ*

Hər kim məqamına baş qoymayıbsa,
Şimşəklər başında çaxar, ya Əli!
Ağlamaq zamanı yaş əvəzinə,
Gözündən qanlı yaş axar, ya Əli!

Imamlar yolunda boynun burmayan,
Ağlayıb başına tişə vurmayan,
On dörd məsum üçün əza qurmayan,
Ölüncə qəlbini sıxar, ya Əli!

Ancaq haqq eşqi var büllur sinəndə,
Sənə həsəd çəkir Günəş də, çən də.
Bir damla səninçün yaş tökən bəndə,
Axır məqamına çıxar, ya Əli!

Kim Həzrət eşqiylə boşalsa, dolsa,
Kim Həzrət eşqiylə saralsa, solsa.
Sənin haqqa eşqin hər kimdə olsa,
Xeybərin qalasın yıxar, ya Əli!

Düşmənlər qəlbini sıxan ağamız,
Zülmün axırına çıxan ağamız.
Külli kainata baxan ağamız,
Yəqin Kərəmə də baxar, ya Əli!

## *OLAN ƏLİ*

Əql söz kəsəndən ölənə kimi,
Cəmi məzlumlara yar olan Əli.
Adəmdən başlamış, Xatəmə qədər,
Səxavəti dildə car olan Əli.

Sevinib yatmazdı bir qəlb hörəndə,
Bir yetim qapısın açıb girəndə.
Sailə üzüyün müjdə verəndə,
Varlığı ayrıdan nur olan Əli.

İnamı, məsləki daim bir idi,
Ədalət yolunda ocaq, pir idi.
Peyğəmbər yanında aslan, şir idi,
Bəndələr yanında sirr olan Əli.

Müşküldə xilqətin yetdi darına,
Xəzinələr çatmaz könül varına.
Bütün yer üzünün qadınlarına,
Namus, qeyrət ilə ar olan Əli.

Kərəm vəsf edəmməz belə bir nəri,
Dünya ta yetirməz bu hünərvəri.
Yüz iyirmi dörd min nəbidən bəri,
Dünyaya bir gəlib bir olan Əli.

## *AĞAM, YA ƏLİ, YA ƏLİ*

Sənin üçün bulud olub,
Yağam, ya Əli, ya Əli.
Şükür olsun Yaradana,
Sağam, ya Əli, ya Əli.

Bir zirvəyəm qar yetirən,
Həmi ahu–zar yetirən,
Imamlarçün bar yetirən,
Bağam, ya Əli, ya Əli.

Yolunda ölümə gedən,
Hər zaman bağrını didən,
Yaradana şükür edən,
Çağam, ya Əli, ya Əli.

Əzbərimsən hər söhbətdə,
Kərəm, həm də şeiriyyətdə.
Pənahım ol axirətdə,
Ağam, ya Əli, ya Əli.

## *ƏLİDİR*

Külli-kainatda Allahdan sonra,
Peyğəmbər sirrini bilən Əlidir.
Kimsəsiz görəndə, məzlum görəndə,
Sızlayıb göz yaşın silən Əlidir.

Düşmənlər gəzsə də sağı-solunda,
Ömrün qurban verdi qeyrət yolunda.
Özü at belində, nəşi qolunda,
Üzündə niqabı gələn Əlidir.

Müqəddəs bildiyi çörəkdən, duzdan,
Qohumdan, qardaşdan, oğuldan, qızdan,
Bir an ayrılanda oruc, namazdan,
Könül varidatı talan Əlidir.

Xeybərdə üstünə gəlsə də qoşun,
Qopardı qapısın, tulladı daşın.
Haris, Mərhəb, Yasər tək üç qardaşın,
Xəncərlə bağrını dələn Əlidir.

Heç şeyə satmadı imanı, dini,
Qoymadı qəlbinə nifrəti, kini.
Kürqıraxlı Kərəm, qiyamət günü,
Cəhənnəm, cənnəti bölən Əlidir.

## *ƏLİDİR MƏNİM*

Allah Muhəmməddən sonra cahanda,
Soltanım, həm xanım Əlidir mənim.
Lap tutsa dünyanı şöhrətim, şanım,
Şöhrətimlə şanım Əlidir mənim.

Döyüş meydanında şiri-nər olan,
Əndamı müşk-ənbər, nəfsi tər olan.
Fatimeyi-Zəhraya layiq ər olan,
Həm dinim, imanım Əlidir mənim.

Körpəcə Qasimdi ən ağır yasım,
Imam Zeynalabidin – son iltimasım,
Həsənim, Hüseynim, Həzrət Abbasım,
Sahibəz Zamanım Əlidir mənim.

Kərəm, o ötüşən müşkül əyyamda,
Qaldı gözlərimdə arzu da, kam da.
Sirat körpüsündə axır məqamda,
Ən son ümidgahım Əlidir mənim.

## *ƏLİ*

Bəşər mat qalmışdı möcüzəsinə,
“Quran” təsdiq etdi, düzüymüş Əli.
Cəmi sızlayanın dadına çatan,
Bəlkə, haqq hökmüylə yüzüymüş Əli.

Güc aldı Quranda hər bir ayadan,
Mənliyi yoğruldu yenməz qayadan.
Kim bilir, bəşəri nura boyadan,
Günəşi isidən göz imiş Əli.

Qüdrəti ölçülməz ulduzla, ayla,
Dalğalı ümmanla, dənizlə, çayla.
“Quran”ın hökmüylə, Haqqdan rizayla,
Islama yol açan iz imiş Əli.

Gecəni gündüzə namazla qatan,
Yetimin, yesirin qolundan tutan,
Hər bir cümləsində kitablar yatan,
Nə böyük hikmətli sözüymüş Əli!

Kərəm, mətləbini de asta-asta,
Rəsulla olardı matəmdə, yasda.
Bəlkə ayrı biçim, başqa libasda,
Ali Peyğəmbərin özüymüş Əli.

## *YA ƏLİ*

Ən müşkül anlarda dada yetirsən,
Dərmansan ən ağır dərdə, ya Əli!
Namərdin gözünə bıçaq olmusan,
Köməksən hər yerdə mərdə, ya Əli!

Allahımdan sonra pənahım sənsən,
Canımı sızladan son ahım sənsən.
Dünənim, bu günüm, sabahım sənsən,
Ürəkdə, ya Əli, sərdə, ya Əli!

Çoxunun üzünə bağlanır bərə,
Düşür dərd əlindən o dağ, bu dərə.
Cəddin şəfa verir bimar kəslərə,
Ocaqda, ya Əli, pirdə, ya Əli!

Haqqın yer üzündə yetkin nərisən,
Adınla bəzədin xeyri-şəri sən.
Heç yerdə qoymadın Peyğəmbəri sən,
Çovğunda, ya Əli, Kürdə, ya Əli!

Ulu yaradanın sərvəri sənsən,
Rəsulu-Əkrəmin yavəri sənsən.
Kərəmin dilinin əzbəri sənsən,
Ya Allah, Muhəmməd, bir də, ya Əli!

### *YA ƏLİ*

Nə yaxşı varsız siz beş əhli-beyt,
Yoxsa dünya olar talan, ya Əli!
Gər olmasaydınız, Allah yanında
Olardı kainat yalan, ya Əli!

Matəminiz kimi kədər olmayıb,
Şükür zəhmətiniz hədər olmayıb.
Adəmdən Xatəmə qədər olmayıb,
Sənin təki namaz qılan, ya Əli!

Əymədin başını şöhrət-şan üçün,
Yezidin əliylə axan qan üçün.
Əhli-əyalın qurban verdi din üçün,
Imam Hüseyn kimi balan, ya Əli!

Kərəməm, uymadın şərəfə, ada,
Məzlumlar sızlasa, yetişdin dada.
Sənin təki kim olardı dünyada,
Yoxsullar qeydinə qalan, ya Əli!

## ƏLİ

Haqqı bu dünyada gəzənlər bilsin,
Əli – ədalətdi, ədalət – Əli.
Külli-kainatda bərabəri yox,
Əli – səxavətdi, səxavət – Əli.

Xudanın istəyi onun bəsidi,
Peyğəmbər hörməti təntənəsidi.
Həyanın yeganə nişanəsidi,
Əli – ləyaqətdi, ləyaqət – Əli.

Kim Hüseyn yasına yaş qoymayıbsa,
Yolunda daş üstə daş qoymayıbsa,
Hər kim məqamına baş qoymayıbsa,
Olacaq yanında xəcalət, Əli.

Peyğəmbər yanında o, şirü nərdi,
Hər ötüşən anı din, islam dərdi.
On bir övladını qurban göndərdi,
Əli – cəsarətdi, cəsarət – Əli.

Haqsızlıq görəndə bağrını didən,
Muhəmməddən ötrü ölümə gedən.
Bütün ömrü boyu ibadət edən,
Əli – ibadətdi, ibadət – Əli.

Cəmi imamların əzəl başıdı,
Hüseyn matəminin qanlı yaşıdı.
Məkkə, Mədinənin qara daşıdı,
Əli – ziyarətdi, ziyarət – Əli.

Ən böyük möhnətdi ün aləmində,
Çalış kölgəsində sin aləmində.
Kərəm, dünya bilsin din aləmində,
Əli – imamətdi, İmamət – Əli.

*SOFU BİLAL*

## BƏŞƏRSƏN, ƏLİ

Bir gözəl çəməndə ötəndə bir quş,
Dağ seli gələndə vüqarlı, coşmuş.
Düz yola qayıtsa bir yolun azmış,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

Biri heç dönməsə halallığından,
Biri əl çəkərsə yamanlığından,
Biri saman versə samanlığından,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

Biri uymayanda dünya malına,
Birisi yanarsa fəqir halına,
Biri başmaq versə ayaqyalına,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

Qurban əti görsəm fəqir aşında,
Sığal yeri görsəm yetim başında,
Namaz qılan görsəm körpə yaşında,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

Mən qəribəm, Qərib Rza köməyim,
İmam bilir, artıq olar deməyim.
Dağılanda həm sonuncu köynəyim,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

Qərib eldə Sofu qərib, kimsəsiz,
Allahımın qismətidir, şübhəsiz.
Yaddaşım zəifsə, ey Əli, şəksiz,
Sən mənim yadıma düşərsən, Əli,
Bəşərin fövqündə bəşərsən, Əli!

## *AĞAMDIR HƏZRƏT ƏLİ*

Yenilməzdir, əzimdir,
Nağılımdır, yazımdır,
Hər vaxt mənə lazımdır,
Ağamdır Həzrət Əli.

Düldülə olsa süvar,
Onda Aslan əzmi var.
Həm əzəmət, həm vüqar,
Ağamdır Həzrət Əli.

Çağıranda ayıqdır,
İslamda ən sayıqdır,
Peyğəmbərə layiqdir,
Ağamdır Həzrət Əli.

Çox nurludur bənizi,
Mələkələrdir kənizi,
İki dünya əzizi,
Ağamdır Həzrət Əli.

Qənimə bir sillədir,
Düşmənə bir güllədir,
Cənnətə bir pillədir,
Ağamdır Həzrət Əli.

Möminlərə dayaqdır,
O yatmayıb, oyaqdır,
Yolumuzda mayakdır,
Ağamdır Həzrət Əli.

Allah dedi: – Şirimdir,
Sözü qənddir, şirindir.
Sofu dedi: – Pirimdir,
Ağamdır Həzrət Əli.

## TƏK ƏLİDİR

Qulaq asın, ey insanlar,
Yer üzündə çox insan var.
Hər kəs də bir “sevgi” anlar,
Mənim sevgim tək Əlidir.

Bu könlümdə Əli – Günəş,
Haqsızlara açar atəş.
Adaşımdır Bilal Həbəş,
Mənim sevgim tək Əlidir.

Allah Tanrı, Allah Ulu,
O Məhəmməd son Rəsulu,
Əli kəsər qeylü qalı,
Mənim sevgim tək Əlidir.

* * *

Hər kim “Əli” desə, dili lal olmaz,
Əlisiz dünyada istiqbal olmaz.
Behişt kövsərinin saqisi odur,
Yəni, onsuz kövsər dadı bal olmaz.

İmamət banisi, Hüseyn atası,
Əli olan yerdə qeylü qal olmaz.
O, şirdir, aslandır, yox bərabəri,
Onun bərabəri Rüstəm Zal olmaz.

Əgər bir məclisdə “Əli” deyilməz,
Yəqin bil, orada bu Bİlal olmaz.
Əli həm imamdır, həm də vəlidir,
Başqa düşünənlər varsa, dəlidir.
Bəxtəvər Sofuyam, ağam Əlidir,
Mənim sevgim tək Əlidir, tək Əli,
Allah, Məhəmməd, ya Əli, ya Əli!

## *PEYĞƏMBƏRİN (S) HƏZRƏT ƏLİ (Ə) BARƏDƏ BƏZİ FİKİRLƏRİNİN NƏZMİ*

Əlini sev, ona gəlsin gümanın,
Sevməsən, nifaqdır, sevsən, imanın.

Namaz dinin sütunu, möminin meracıdır,
Namazsız bal yesən də, aqibəti acıdır.

Əli mənim əqlim, huşum kimidir,
Əli – bədənimdə başım kimidir.

Əli də mənim kimi, ümmətin atasıdır,
Əlini dost bilənlər cənnətə çatasıdır!

Onda ki qılıncı sıyırar Əli,
Haqq ilə batili ayırar Əli!

## *"YA ƏLİ" DE*

İstəsən ki işin olsun sərfəli,
"Ya Əli" de, "ya Əli" de, "ya Əli!"
Bu dünyadan köçmək üçün töhfəli,
"Ya Əli" de, "ya Əli" de, "ya Əli!"

"Allah" sözü dilində bitmiş ola,
Qəlbin Məhəmmədin nuruyla dola.
Qədəm qoysan bir səfərə, bir yola,
"Ya Əli" de, "ya Əli" de, "ya Əli!"

Bu dünyada bir qonaqsan, onu bil,
Dəsmal götür, gözlərini yaxşı sil.
Ölüm səni haqlamamış tez, qəfil,
"Ya Əli" de, "ya Əli" de, "ya Əli!"

Haram işi xəyalına gətirmə,
Namus, qeyrət, abir, həya itirmə.
Az ömrünü sən bihudə ötürmə,
“Ya Əli” de, “ya Əli” de, “ya Əli!”

Əli həm imamdır, həm də vəlidir,
Bu inamdan uzaq olan dəlidir.
Sofunun ağası Həzrət Əlidir,
“Ya Əli” de, “ya Əli” de, “ya Əli!”

### *ƏLİ HƏM İMAMMIŞ, HƏM DƏ VƏLİYMİŞ*

Məhəmməd dinindən çox ibrət aldım,
Yolumu Allahın yoluyla saldım,
Qurana baş əyib xeyli ucaldım.
Dərk etdim, ən mömin Həzrət Əliymiş,
Əli həm İmammış, həm də Vəliymiş.

Əlinin ləqəbi minə çatıbdır,
Onun hökmü aya, günə çatıbdır.
O, məqama, O, “Ya sin”ə çatıbdır,
“Hədisi-qüdsi”də qeyd olub bu iş,
Əli həm İmammış, həm də Vəliymiş.

Dinimiz bir şəhər, ismi-Məhəmməd,
“Şəhər” sakinləri adlanır Hümmət.
Nurlu yolu ağam Əlidir, əlbət!
Şükr olsun ki, bunu Sofu da bilmiş;
Əli həm İmammış, həm də Vəliymiş.

# X FƏSİL

# İNSANLIĞIN BÖYÜK NÜMUNƏSİ HƏZRƏT ƏLİ (Ə)

*Çəkmisən sən nə qədər dinim üçün zəhmət, Əli.*
*Adıva qurban olum, qoy, mən özüm, Həzrət Əli.*

*Sən bəşər övladı olsan da, adın Şiri-Xuda,*
*Verilibdir sənə həqdən bu böyük qüdrət, Əli.*

*Dinə rəhbərdi Muhəmməd, sən isə cəmə imam,*
*Tapdı Qurani-şərif sizlə böyük izzət, Əli.*

*Sənə xain olana nifrət edir əhli-Quran,*
*Xainə cümlə müsəlman oxuyur lənət, Əli.*

*Oxudum diqqət ilə söylədiyin hər kəlamı,*
*Sözlərində, görürəm, vardır böyük hikmət, Əli.*

Həzrət Əli (ə) bütün gözəl əxlaqi cəhətləri özündə cəmləmişdi. Səxavətdə tayı-bərabəri olmayan bir insan idi. Qapısına gələnləri heç vaxt rədd etməzdi. Allah “Qurani-Kərim”in “İnsan” surəsinin 8-ci mübarək ayəsində buyurmuşdur:

“Va yut-imunət-tə-amə alə hub-bihi miskinəvva yətiməvvaəsira” - “Və onlar yeməyi, özləri(nin ehtiyacları olub çox) istədikləri halda yoxsula, yetimə və əsirə verərlər”.

Həzrət Əli (ə) də “yeməmiş, yedirmiş, geyməmiş geyindirmiş”dir. Buna görə də günlərcə ac qalmışdır. Kasıbların, yetim və miskinlərin hamisi, atası hesab olunurdu.

Yardıma ehtiyacı olan hər kəs ən ağır anlarda onu axtarar, kömək istəyərdi. Həzrət Əli (ə) də imkanı daxilində müraciət edənin hər müşkülünü yoluna qoyar, heç vaxt rədd etməzdi. Hidayət Şüədanın rəvayətinə görə, Həzrət Əli (ə) bir gün səfərdə ikən ac-susuz qalmış kasıba rast gəldi. Kasıb ondan bir az çörək istədi. Həzrət Əli (ə) də xidmətçisi Qənbərə:

Kasıbın istəyini ver! – deyə səsləndi.

Qənbər də:

– Ya Əli! Kasıb çörək istəyir. Çörək də dəvənin üstündəki yükdədir, – dedi.

– O halda çörəyi dəvə ilə bərabər ona ver.

– Ya Əli! Dəvələr bir-birinə bağlıdır. Açılması imkansızdır.

– Onda dəvələri qatarıyla ver.

Qənbər bu sözləri eşitdikdə qorxusundan saralıb dəvənin ipini əlindən buraxdı.

Həzrət Əli:

– Ey Qənbər, nə üçün titrəyib ipi əlindən buraxdın?

Qənbər:

– Ey möminlərin əmiri! Sən səxavətdə nəhayətsiz bir dəryasan. Əgər dəvələrin ipi əlimdə olsa, qorxuram ki, məni də dəvələrlə bərabər dilənçiyə verəsən. Bundan qorxdum və ipi əlimdən buraxdım.

Şübhəsiz ki, bu mənzərə onun böyük səxavətinin bir sübutudur. O da Məhəmməd Əleyhissəlam kimi, “Mən paylayanam, verən Mövladır”, buyuraraq bütün elmini, malını insanların dirçəlişinə verərdi. Beləliklə, səxavəti yüzilliklər boyu dillərdə dastan oldu

Həzrət Əli (ə) bir beytində: “Mənim evim hər gələnə bir məskən, yeməyim də hər yeyənə halaldır”, – demişdir.

Digər bir beytində də:

– Dünya sənə səxavət edəndə sən də xalqa səxavətli ol! Çünki dünya bir halda qalmaz, – deyə buyurmuş, ruhundakı sonsuz səxavəti bildirmişdir.

Həzrət Əli (ə) səxavətdə olduğu qədər mömin və abid bir şəxs idi. Onda Allah qorxusu hər şeydən üstün idi.

Namaza duranda Allaha o dərəcədə bağlanardı ki, rəngi qaçardı. Səbəbini soruşanlara:

– Namaz ilahi əmanətdir, – deyərdi.

O əmanəti haqqı ilə verə bilməməkdən qorxduğunu söyləyərdi.

Namaza duranda o qədər qalardı ki, sanki canı mübarək cəsədindən uçardı.

Rəvayətə görə, Ühüd döyüşündə ayağına sancılmış oxun səcdədə çıxarılmasını istəmiş, çıxarılanda ağrısını bilməmişdir.

Həzrət Əli (ə) bir beytində:

– Allahım! Məni sənin əzabından qurtaracaq kimsə olmadığını bilirəm. Buna görə də sənin əzabından yenə sənin bağışlamana sığınıram. Mən bütün günahlarımı, gördüyüm səhvləri etiraf edirəm. Sən mənim kimi acizlərin müraciət etdiyi yeganə varlıq və günahlarımı bağışlayacaq yeganə Mövlasan! Ya Rəbbi! Mənə əzab versən, günah mənimdir! Əgər bağışlasan, o da sənin şanındır, – demişdir.

Beləliklə, cənnətlə müjdələnən bu böyük şəxsiyyətdə Allah qorxusu və hörməti tam və mükəmməl idi.

Hikmətlərin əsası Allah qorxusudur və bu böyük şəxsə həmin qorxu və sevgi bütün ömrü boyunca hakim olmuş, minacat və işlərində təsiri görülmüş, haqq və ədalətdən zərrəcə ayrılmamışdır.

Böyük İmam ən böyük əxlaqi keyfiyyətlərdən olan təvazökarlıqda da bir örnək idi. O qədər təvazökar idi ki, möminlərin əmiri olduğu zamanda belə xalq arasından səssizcə keçərdi. Lovğa, təkəbbürlü krallar kimi əzəmətlə deyil, çox mülayimcəsinə və təvazökarlıqla yeriyərdi. Əgər tələsik bir iş üçün kütlə arasından keçərdisə, çox incəliklə:

– Möminlər! Əliyə yol verərsinizmi? – deyərdi. Eşidənlər də ədəblə ona yol verərdilər. Hər kəs bu böyük şəxsi həmin yüksək keyfiyyətlərinə görə sevərdi.

Həzrət Əli (ə) heç kimdən xidmətçi kimi istifadə etməyi sevməzdi. Möminlərin əmiri olduğu zamanda da ərzağı evə özü daşıyar, heç kimə yük olmazdı.

Bir gün bu hal bir adamın diqqətini çəkdi.

Əlindəki yükdən yapışaraq:

– Ey möminlərin əmiri! Verin, bu əşyanı mən aparım. Bir az da olsa, əhli-beytə xidmət edib dövlətə çatım, – dedi.

Həzrət Əli:

– Ailənin başçısı bunları səndən daha çox daşımağa layiqdir.

Həmin adam:

– Ey möminlərin əmiri! Könlüm razı olmur ki, bu əşyaları siz daşıyasınız.

Həzrət Əli:

– Evinə aid əşyanı daşımaq insanın kamalına nöqsan gətirməz, – dedi.

Deməli, Həzrət Əlinin elm, kərəm və səxavəti qədər təqvası[1], təvazökarlığı, zühdü[2] də tamam-kamal idi.

Bundan başqa, onun sonsuz bir bəlağət və fəsahəti vardı. Danışığına qulaq asan ən hissiyatsız adam belə təsirinə düşərdi. Bütün nitqləri "Nəhcül-bəlağə"sində Şərif tərəfindən toplanmışdır.

Bu əsər onun nə qədər böyük bir elm, dərin bir eşq, bəlağət və fəsahəti olduğunu göstərir. Amma "Nəhcül-bəlağə" Həzrət Əlinin xütbələrinin tam mətni deyildir. Burada yunan fəlsəfəsinin bəzi təfsir və tərcümələri də vardır.

Həzrət Əli (ə) kədər dünyasına yaxşı bələd olan, amma ona əhəmiyyət verməyən, bəlkə də yeganə şəxs idi. Bir beytində deyir:

"Ey bu dünyada qəmsiz, kədərsiz yaşamaq istəyən adam! Sən mümkün olmayan bir şey istəyirsən! Bundan ümidini kəs! Sən yaşadıqca yaxşı və pisi biləcək, asan və çətini görəcəksən."

Digər bir beytində:

"Zaman mənə pislik etsə, səbr edərəm. Qəmlənmərəm, çünki heç bir kədər davamlı deyildir. Dünya dərdi də dəyərsizdir. Dövran mənə yaxşılıq etsə də, sevinmərəm. Çünki sevinc də davamlı deyildir. Dünya sevinci də dəyərsizdir."

Başqa bir beytində isə söyləmişdir:

"Başındakı saçlar ağardı. Amma dünyaya tamah və hirsin qocalmadı, onların saçı ağarmadı. Həqiqətən, dünyaya həris olan böyük məşəqqət içində yaşar."

"Ey dünya ilə məşğul olan! Səni bitməz-tükənməz arzular aldadır. Ölüm qəflətən gəlir. Gedəcəyin yer məzar, o vaxta qədər işlədiyin əməl-

---

[1] Allah qorxusu

[2] Dinin yasaq etdiyi şeylərdən çəkinib buyurulanları yerinə yetirmə

lər sandığındır. Belə olan halda qəflətdən oyan, əcəl sənə yaxınlaşır, amma qəflət yuxusundasan.

Ey insan! Dünyanı əmrində fərz et! Sonda ölməyəcəksənmi?"

Həzrət Əli (ə) oğlu İmam Həsənə xitabən aşağıdakı qiymətli nəsihətlərini vermişdir:

"Ey Həsən! Müsibətlər baş verdikdə səbr örtüyünü üstünə çək. Beləliklə, səbr edib yaxşı nəticələrə çatarsan!

Ey Həsən! Hər cəmiyyətdə mulayim ol! Mülayimlik dostluğun, yoldaşlığın ən yaxşısıdır.

Ey Həsən! Dostluqda əhd-peymanı unutma! Onu gözlə ki, ən təmiz içkilərdə duyulan ləzzəti hiss edəsən.

Ey Həsən! Hər nemətdə Allaha şükr et! Ona şükr etdikcə mükafat olaraq o nemətin üstündə hədiyyələrin ən böyüyünü bağışlayar!

Ey Həsən! Səni xəbərdar edirəm ki, insan nəfsini ancaq öz qoyduğu dərəcədə tutdu. Ancaq nəfisdən sıyrıl və insanlar arasında yüksək dərəcəyə ucal.

Ey Həsən! Sən ruzini daim halal qapısından istə. Halal qazanmağa cəhd et. Ruzin oradan bol-bol gəlsin.

Ey Həsən! Üzünün suyunu töküb alçaq kimsələrin qapısından ehsan istəmə.

Ey Həsən! Dostunun haqqını vacib bil, əgər o sənə xeyirli bir iş üçün gəlirsə.

Ey Həsən! Ana-atanı daim qoruyub, yardımçıları ol! Təqva əhlinə və qohum-qonşuna hər zaman kömək et."



## HƏZRƏTİ ƏLİNİN (Ə) SÖZLƏRİ

***Həzrət Əli (ə) deyir ki, hansı adamın oğlu olursan, ol, tərbiyə, ədəb öyrən. Bu gözəllik səni əsil-nəcabətə möhtac etməz.***

Aydınlatma:

İnsanlıq tərbiyə və ədəbdən ibrətdir. Bu, insan üçün ən böyük nəcabətdir. "Quran" başdan-başa bəşəriyyətə tərbiyə və ədəb haqqında öyüdlər verir. Hər qissə bir tərbiyə örnəyidir. İlahinin hər əmr və qadağasında bu tərbiyəni axtarmaq və asanca tapmaq mümkündür.

Buna görə də bəzi Qərb şərqşünasları islamı tərbiyə, ədəb dini adlandırmışlar. İnsanın kamalı onun ədəb və tərbiyəsinin kamilliyidir. Bu baxımdan Məhəmməd Əleyhissəlam ədəb və əxlaqda ən uca insandır.

Həzrət Əli (ə) məhz bu böyük ruhu vurğulayaraq insanlara müraciət edir. Əsil-nəcabətin tərbiyə və ədəbdə olduğunu bildirərək insanlığın bununla ucaldığını deyir. Həzrət Əli (ə) həmçinin əlavə edir: "Ey ata-babası ilə iftixar edən, amma tərbiyəsiz olan adam! Cəddinin nəcabəti sənə fayda verməz. "İnsan, mən buyam", – deyər, "atam filankəs idi", – deməz".

***Həzrət Əli (ə) deyir ki, övladlarınızı zamanınıza görə deyil, onların yaşayacağı zamana görə tərbiyə edin. Çünki onlar zamanınız üçün deyil, başqa bir zaman üçün yaradılmışlar.***

Aydınlatma:

Dünya hər an dəyişməkdədir. Heç bir halda köhnə üsul yeni üsuldan üstün ola bilməz.Tərəqqidən faydalanmayan tənəzzülə uğrayar. Buna görə də Məhəmməd Əleyhissəlam geriləmə yolunu deyil, irəliləmə yolunu göstərmiş, ən yaxını Həzrət Əli (ə) də daima əsərlərində bunu təbliğ edərək, uşaqlarınıza yaşayacaqları zamana görə tərbiyə verməyinizi, elm, irfan və sənət baxımından hər övladın atasını ötüb keçməsini buyurmuşdur.

Deməli, uşağın yaxşı tərbiyəsi vacibdir. Qəzalinin dediyi kimi, "Uşaq yumşaq bir mumdur, onu öyrədənin əlində formaya düşür", Uşağa yaxşı bir "forma vermək" ana və atanın üzərinə düşən ən müqəddəs bir vəzifədir. Əks halda durğunduq və geriləmə cəmiyyəti sona, məhv olmağa gətirib çıxarar. Bu baxımdan uşaqlarını gələcək zamanın ehtiyacına görə tərbiyə edib hazırlamayan atalar cəmiyyətin ən böyük xəyanətçiləridirlər. Çünki övladlarını yetişkin fərdlərin əsarətinə verirlər və bu hal insanlıq üçün ən böyük faciədir. Həzrət Əli (ə) məhz bu sözləri ilə bizə tərbiyənin əsasını öyrədir. Tarixən bu məşhur sözə əməl edən şəxs və millətlər özlərini fəlakətdən xilas etmiş, əks yolla gedənlər isə azadlıqdan əsarətə, fəlakətdən fəlakətə sürüklənmişlər.

***Həzrət Əli (ə) deyir ki, ağıl kimi mal, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, ilahi qadağa kimi rəhbər, elm kimi şərəf yoxdur.***

Aydınlatma:

Ağıl tükənməz bir sərmayədir. İnsanlığı heyvandan ayıran ən böyük bir ilahi hədiyyədir. Bəşər övladı ancaq bu cövhərlə yaranmışların əşrəfi olmuşdur. İlahi əmrlər də ağıl sahiblərinədir. Allah bütün xitablarında bu cövhərə malik olanlara səslənir. İnsan ancaq ağlı ilə insandır. Buna görə də Həzrət Əli (ə) ağlı ən böyük sərvət hesab etmişdir.

Şübhəsiz, elm, ədəb, xasiyyət, hətta ilahi yasaq ağlın meyvələridir. Həzrət Adəmə Cənabi-Haqq Cəbrayılla bir tabaqda ağıl, elm və həyanı hədiyyə göndərmiş, bunlardan birini seçməsini əmr etmişdir. Adəm də ağlı almış, Cəbrayıl digərlərinə: “Yerinizə gedin”, – buyurmuşdur. Elm və həya demişdir ki, biz yerimizdə ağıl ilə bərabər idik. Ondan ayrıla bilmərik. Bu baxımdan ağıl olunca hər nemət tamamlanır. Həzrət Əlinin bu nəsihətində söyləndiyi kimi, gözəl xasiyyət, ədəb, elm də ağılın dərəcəsinə görədir.

***Həzrət Əli (ə) deyir ki, müşavirəni tərk edən həqiqətə çata bilməz.***

Aydınlatma:

Müşavirə insanı formalaşdıran, həqiqətə çatdıran ən nurlu bir yoldur.

Zaman irəlilədikcə onun qiyməti aydın olur. “Qurani-Kərim”in “Ali İmran” surəsinin 159-cu ayəsində: “va şavirhun fil-əmr” – “İşlərdə onlarla məsləhətləşən” – buyurulmuşdur. İnsanlığın hər işinin müşavirə yolu ilə həll edilməsi əmr edilir. Çünki hər həqiqətə çatmağın sirri müşavirədir. Buna görə də “Fikir mübadiləsindən həqiqət doğar”, – deyilmişdir. Müasir demokratiyanın əsasını təşkil edən və islami bir ruh daşıyan bu prinsip zalım hökmdarlar tərəfindən unudulmuşdur. Müsəlman dünyasında azadlıq əvəzinə əsarət gətirən səltənətlər qurulmuş, xalqın müşavirəsi yerinə fərdin sözü hakim olmuşdur. Bu isə milyonlarla müsəlmanı və islam ölkələrini haqlı olaraq durğunluğa, əsarətə sövq etmişdir. Yuxarıdakı ayədə söylənilən əmr islamın ruhudur.

Bəşəriyyət tərəqqi etdikcə ancaq bu ruh insanlığa həyat vermişdir. Bu ruhdan faydalanmayan cəmiyyətlər, fərdlər fəlakət içində can vermişlər. Bu baxımdan Həzrət Əlinin (ə) “Müşavirəni tərk edən həqiqətə çata bilməz” sözü dünya durduqca yaşayacaq və insanlığı yaşadacaq bir sözdür. İnsanlığın sağlamlığı bu prinsipə əməl etdiyi və əhəmiyyət verdiyi qədərdir.

Artıq bəşəriyyət müşavirənin qiymətini bilmiş, məclislər ilə millət özünü idarəetmə yolunu tutmuşdur.

***Həzrət Əli (ə) deyir ki, qənaət az şeyi çoxaldır, israf çox şeyi azaldır.***

Aydınlatma:

Dünyada azad və məsud yaşamağın əsası pulu yerli-yerində xərcləməkdir. Buna əməl etməyənlər fəlakətə sürüklənirlər. Buna görə də müasir iqtisadi siyasətin əsası cəmiyyəti israfdan qurtarmaqdır. Tarixin

hər səhifəsində kral və padşahların, ya da ailə başçılarının israfı nəticəsində məmləkət və ya ailənin necə uçuruma getdiyini görürürk. Allah “Əraf” surəsinin 31-ci ayəsində buyurur: “Va kulu vaşrabu və lə –tus-rifu innəhu lə yuhibbul-musrifin”.

– ”Yeyin, için, lakin israf etməyin. Çünki Allah israf edənləri dost tutmaz”.

Şübhəsiz, “Quran”dan ilham alan Həzrət Əli (ə) də iqtisadın əsasını bildirir.Ona görə də iqtisadın yarısı tədbirdir. Bu tədbirdə az şey çoxalır. Tədbir ala bilməyən insanlar israfa yol açırlar. İsraf isə çox malı azaldır. Fərdləri və cəmiyyətləri fəlakət və əsarətə aparır.

Müasir dövrdə Qərbin tərəqqisinin, rifah və səadətinin səbəbi qənaətdir. Qəribədir ki, Şərq dünyası qənaəti deyil, israfı əsas bilərək çox şeyləri azaltmış, özünü səadətdən fəlakətə aparmışdır.

Rəsulullah da: “Qənaət edən möhtac olmaz” sözü ilə insanlığa böyük bir həqiqət dərsi vermişdir.

Hər fərd və cəmiyyət qənaətə önəm verdiyi halda səadətə çatır.

***Həzrət Əli (ə) deyir ki, qənaət edən yoxsul da olsa, azaddır. Həris və tamahkar olan azad olsa da, kölədir.***

Aydınlatma:

Hərislik və tamah qəlbin zəhəri, qənaət isə şəfasıdır. İnsan dünyaya həris olduqca qəlbini narahatlıq və şübhələrlə yorub öldürür.

Bu surətlə həris olan heç vaxt rahat yaşaya bilməz. Qarnı doysa da, gözü doymaz. Həris olan puluna və malına kölədir.

Qənaətcil isə qəlbini nəhayətsiz arzu və əndişələrlə məşğul etmədiyi üçün azaddır. İnsan daima qəlbən sevdiyi şeyin əsiridir.

Buna görə də Həzrət Əli (ə) haqlı olaraq “Həris, tamahkar azad olsa da, kölədir”, – buyurmuşdur. Qənaət qəlbə rahatlıq verir və insanlar həqiqi azadlığa qovuşurlar.

Həzrət Əlinin (ə) bu sözü insanlığı şərəfləndirən və şəfa gətirən, əbədiyyətə qədər yaşayacaq nəsihətdir.

***Həzrət Əli (ə) deyir ki, hər zaman elm hakimdir, mal məhkumdur. Mal məhv olur, elm qalır.***

Aydınlatma:

Dünya yaranandan bəri elm bəşəriyyətə ən böyük rəhbər və nur olmuşdur. İnsanlıq bundan ayrıldıqca vəhşətə, yaxınlaşdıqca mədəniyyətə qovuşmuşdur.

Elm insanlara həqiqəti görmək, bilmək üçün ən böyük bir çıraqdır. O çıraq olmadıqca insanlar səadət və sağlamlığa qovuşa bilməzlər. Buna görə də Rəsulullah: “Beşikdən məzara qədər elm öyrənin”, – buyurmuşdur.

Cismin qidası yeyib-içməkdirsə, ruhun qidası da hikmət elmidir.

Elm və hikməti anlayan şəxs ruhən təkamül edib insanlığa üz tutar. Buna görə də insanlığın açarı oxumaqdır.

Allah Həbibinə ilk vəhyində, yəni "Ələq" surəsinin 1-ci ayəsində: "İqra bismi Rabbi-kəlləzi xaləq" – "Oxu! Yaradan Rəbbinin adı ilə!" – buyurmuşdur. Məhz bütün həyatı boyu oxumaq möminlərin birinci vəzifəsidir. Bədənimizə elm hakim olarsa, biz sağlamlığa qovuşarıq, cəmiyyətdə də bu ruh varsa, salamatlıq və səadət olar. Buna görə Həzrət Əli (ə): "Elm sərvətin ən ucasıdır", – buyurmuşdur.

Deyə bilərik ki, elm cəmiyyətin dirəyidir. O, yıxılarsa, cəmiyyət də məhvə doğru gedər. Nəticədə hər cür zülm və cəhalət, əsarət mövcud olar.

Dünya malı insanlığı doyuran bir sərvət deyildir. Bəşəriyyəti doyuran, dirçəldən ən böyük sərvət elmdir. Həzrət Əli (ə) buna görə də: "Cəhalət sahibi üçün ölümdən əvvəl bir ölüm vardır. Elələrinin bədəni məzardan əvvəl bir ölüm yaşayar. Yəni, elələrinin bədənləri məzardan əvvəl məzardır. Həqiqətən bir adam elm ilə dirçəlmədikcə ölüdən başqa bir şey deyildir. Onun üçün Qiyamət gününə qədər dirilmək yoxdur", – demişdir.

Bir arif də bu həqiqəti aşağıdakı şəkildə bildirmişdir: "Həqiqəti diri olan alimlərin sözlərini qəlblərinizə, ruhunuza yeridin ki, siz də həqiqi insanlıqla diriləsiniz".

Deməli, fərdi və ictimai həyatın əsası elmdir, bundan xəbərsiz fərd və cəmiyyətlər ölüdən başqa bir şey deyildir.

Həzrət Əli (ə) bu ölməz sözləri ilə insanlara dünya durduqca həyat vermişdir.

***Həzrət Əli (ə) deyir ki, biləndə susmaq, bilməyəndə söyləmək qədər çirkindir.***

Aydınlatma:

İctimai həyatda nəzakət çox böyük rol oynayır. İnsanların dərəcəsi də nəzakətləri qədərdir. Nəzakət dərəcəsi insanın həddini bilməsi ilə ölçülür.

Bir şəxsin bilmədiyi məsələyə qarışaraq fikir bildirməsi nə qədər pisdirsə, bilən kimsənin bildiyini söyləməməsi də o dərəcədədir. Hətta belələri cəmiyyətin ən pis şəxsləri hesab edilir. Çünki alim həqiqəti bildirdikdə cəmiyyət azadlıq və səadətə qovuşar. Əgər o, həqiqəti gizlədirsə, cəmiyyət cəhalət qaranlığında qalır.

Alimin özü məhv olarsa da, həqiqi sözü yaşayar, insanlıq üçün bir işıq olar. O işıq daim yanar. Bəşəriyyət də bu işıqda yaşar və yaşadar.

Xeyirli söz cəhaləti boğan bir işıqdır, bu, çoxdan bəri nəbilərin təbliğ etdiyi qaydalardandır. "İncil"in ibrani dilindəki mənası da "xeyirli sözlər"dir.

Rəsulullah da: "Söyləyirsinizsə, xeyr söyləyin, söyləmirsinizsə, dinməyin", – buyurmuşdur.

Sözü yerində söyləmək, yerində də susmaq lazımdır. Bunu edə bilməyən adam dərmanı tapıb yerində istifadə edə bilməyən şəxsə bənzər.

***Həzrət Əli (ə) deyir ki, öldükdən sonra yaşamaq istəyirsinizsə, ölməz bir əsər qoyub gedin.***

Aydınlatma:

Əsər insanın gələcək nəsillər üçün qoyub getdiyi ən böyük bir yadigardır. Bu yadigar durduqca o insan da yaşar. İslam dinində də bu məsələyə çox həssas münasibət var və müsəlmanlar özlərindən sonra gözəl əsərlər qoyub getməyə təşviq edilirlər.

Müsəlmanlığın təlqin etdiyi ən böyük əməllərdən biri də gələcəyə ötürüləcək sədəqeyi-cariyədir.[1] O da özündən sonra qalacaq xeyirli bir övlad, elm ocağı olan məktəb, körpü, bulaq, məscid, yol, xəstəxana, kitab kimi əsərlərdir. O əsərlərdən istifadə olunduqca ölünün əməl dəftərinə savab yazılar. Cəsədi çürüsə də, adı yaşayar. "Yasin" surəsinin 12-ci mübarək ayəsində buyurulur: "İnnə nəhnu nuhyil-məvtə va nəktubu mə qaddəmu va asərahum və kullə şəyin əhsəynəhu fi iməmim-mubin" – "Həqiqətən, ölüləri dirildən, etdikləri əməllər və əsərlərini yazan, əlbəttə, Bizik. Hər şeyi Biz açıq-aydın bir imamda (ya lövhi-məhfuzda) toplamışıq". İnsan məzarında yatanda belə əməl dəftəri bağlanmır və özündən sonra qalan əsərləri istifadə olunduqca qəbrində də savab qazanır. Bu təşviq, şübhəsiz ki, bəşəriyyət üçün böyük əhəmiyyət daşıyır.

***Həzrət Əlinin (ə): "Ölməz bir əsər qoyun",*** – sözü dünya durduqca insanlar üçün prinsip olacaq ən böyük sözdür.

***Həzrət Əli (ə) deyir ki, fərddəki pisliyi bağışlayın, ancaq millətinizdə olan pisliyi yox.***

Aydınlatma:

Şəxsi günahlara görə əfv diləyəni bağışlamaq islamın şüarıdır. Allah "Əraf" surəsinin 199-cu ayəsində: "Xuzil-əfva vaamur bil-urfi" – "Əfv (yolunu) tut, yaxşılığa əmr et", – buyurmuş və bu böyük insani duyğu ilə hamımızın yaxşılıq etməyimizi bildirmişdir. Bu baxımdan əfv diləyənləri bağışlamayan insani və islami hisslərdən uzaqdır.

İnsan cəhaləti üzündən pis sözlü və əməlli ola bilər. Amma günün birində hidayət nuru və peşmançılıq acısı ilə tövbə edər. Məhz bu zaman Allah onları bağışladığı kimi, qulunun da bağışlaması ilahi əxlaqdandır. Belə tövbəni qəbul etmiş kimsələrlə əvvəlki vəziyyətindəki kimi davranmaq düz deyildir. Çünki bunlar geri qayıdanlardandırlar.

***Həzrət Əli (ə) bu baxımdan bir gözəl sözdə: "Kərəmlərin ən yaxşısı zənginlərin səxavəti, böyüklərin bağışlamasıdır",*** – buyurmuşdur.

İnsanların ən böyüyü və ən yaxşısı Rəsulullah da daim şəxsə aid pislikləri bağışlamış, ancaq cəmiyyətin hüququna təcavüz edənlərin

[1] Davam edən yaxşılıq

ihqaqe-haq[1] cəzasını vermişdir. Çünki cəmiyyətə edilən pislik ümumidir. Ümumi olan şeyi də bir fərdin bağışlaması düzgün deyildir. Ancaq toplumun qərarı ilə onunu bağışlanmasına və ya cəzalanmasına qərar verilə bilər. Bu baxımdan Həzrət Əli (ə) də: "Ancaq millətimizə olan pisliyi bağışlamayın", – buyurmaqla cəmiyyətin səadətinə olan həssaslığını biruzə vermişdir. Hər kim bu həssaslığı duyub tədbir görürsə, deməli, cəmiyyəti səadətə qovuşdurur. Bu söz Qiyamətə qədər qalacaq sözlərdəndir. Məhz bu qayda bütün qanunların əsası olan bir prinsipdir.

***Həzrət Əli (ə) deyir ki, nə qədər tənha olsan da, pislik edərkən heç kimin görmədiyini düşünmə. Bil ki, səni görən var və bu da Allahdır.***

Aydınlatma:

Hər pislik insanın sanki özbaşına buraxılması düşüncəsindən yaranar. Allah "Qiyamət" surəsinin 36-cı ayəsində: "Əyəhsəbul-insənu əyyutrakə sudə" – "Məgər insan özbaşına buraxılacağını güman edir?" – buyurur. "Qaf" surəsinin 17-ci ayəsində isə deyilir:

إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ

"İz yətə-ləq-qal-mutələqqiyəni anil-yəmimi va aniş-şiməli qaid" – "Çünki onun sağında və solunda iki gözətçi ona nəzarət etməyə oturmuşdur".

"Bəqərə" surəsinin 137-ci mübarək ayəsində isə: "Va huvəs-səmiul-alim" – "O, həqiqətən, eşidən və biləndir", – buyurulur.

İnsan bu sirrə bələd olmaqla pisliyə heç bir yerdə yaxınlaşmaz. Maddipərəstlər kimi hamının gördüyü yerdə dürüst görsənib, tənhalıqda şərlə məşğul olmaz. Bu böyük duyğuya görə, insanlar mələkdən də yüksəkdə dururlar, demək mümkündür. Çünki belə olan halda insanlar özlərindəki heyvani hisslərə (mələklərdə bu hiss yoxdur) qalıb gələrək mələklərin dərəcəsini keçərlər.

Beləliklə, ***Həzrət Əlinin (ə): "Pislik edərkən səni heç kimin görmədiyini düşünmə! Yaxşı bil ki, səni görən vardır, o da Allahdır"*** – sözü insanları doğru yola çəkəcək çox mübarək bir kəlamdır.

***Həzrət Əli (ə) deyir ki, Allahın qəzəbindən qurtulmuş heç bir zalım yoxdur.***

Aydınlatma:

Zülm insani duyğulardan uzaq olanlara məxsusdur. Bütün insanlıq tarix boyunca bu zülmün qaldırılması üçün çalışmışdır. Tarix bizə məzlumların ilk fürsətdə zalımları böyük zərbələrlə necə yıxdığını göstərir.

Bütün nəbi və rəsulullah da məzlum və məsum olan insanları zalımların əllərindən qurtarmağa çalışmamışlarmı? Şübhəsiz, ən həssas

[1] İnsanın ədaləti öz metodları ilə bərqərar etməyə çalışması, haqqını zorla alma

insanlardan tutmuş ən duyğusuzuna qədər hər kəs zülmə düşmən olmuşdur.

Vaxtilə "sözüm qanundur", – deyən kral və padşahlara millətin necə üsyan etdiyini dəfələrlə görmüşük. Onların səltənətlərinin məzlumların qanları bahasına necə çökdüyünün də şahidi olmuşuq.

Məzlumların zalımlara üsyanı çox şiddətli olur. Bu baxımdan Həzrət Əli: "Zülm görənin üsyanı zalımın məzluma ağalığından daha şiddətlidir", – buyurmuşdur. Bu, zalımlar üçün böyük ibrət dərsidir. Gec-tez məzlumların ahı və tökülən qanları zalımları boğmuş, Allahın şiddətli qəzəbi nəticəsində yerlə-yeksan olmuşlar.

***Həzrət Əlinin: "Allahın qəzəbindən qurtulan bir zalım yoxdur",*** – sözünü zalımların insafla oxumalarını, dirçəlmələrini tövsiyə edirik.

***Həzrət Əli (ə) deyir ki, çətinliklərə dözən asanlığa qovuşar.***

Aydınlatma:

Uğur çətinliklərə dözməyin meyvəsidir. Heç bir zəfər bunsuz hasil olmaz. İnsanları kamilləşdirən cəhət çətinlikdir. Bu baxımdan bir alim: "İnsan şagird, çətinlik ustadır, onu döyərək formalaşdırır", – demişdir.

Allah "Bələd" surəsinin 4-cü mübarək ayəsində: "Ləqad xaləqnəl-insənə fi kəbəd" – "Həqiqətən, Biz insanı məşəqqətlər içində yaratdıq", – buyurmuş, beşikdən məzara qədər hər insanın bu çətinliklə qarşılaşacağını buyurmuşdur. Buna baxmayaraq, çətinliyin sonunda bir asanlıq əmələ gəlir. Bu aləmdə yollar ancaq düz olmadığı, yolçunu enişlər, yoxuşlar gözlədiyi kimi, insanın ömür yolunda da onu asanlıq və çətinliklər gözləyir. Bu baxımdan bir şairin:

Bu yollar həp çınqıl və tikən,

Keçəcəksən sabah bu yoldan sən, – sözü necə də ibrətamizdir. Məhz, həyat yolu da beləcə çınqıl və tikandır. Onu hər insan böyük çətinliklərlə keçəcəkdir. Çətinliyə dözən rahatlığa qovuşacaqdır.

Həzrət Əlinin bu gözəl sözü, şübhəsiz ki, insanlığa müvəffəqiyyət sirrini öyrətməkdə bir açar olmuşdur.

***Həzrət Əli (ə) deyir ki, ağıllı bir adam kasıb ola bilər, amma heç vaxt şərəfsiz ola bilməz.***

Aydınlatma:

Şərəf insanın medalyonudur. İnsan bundan məhrum olduqca ağıldan da məhrum olar. Buna görə də ağıl şərəfdən ayrıla bilməz. Mal ağlın deyil, bəlkə, şansın meyvəsidir. Hər mal sahibində ağıl axtarmaq düzgün deyildir. Amma hər ağıl sahibində şərəf axtarılır. Şərəfini itirən ağlını da itirər.

Bu baxımdan Həzrət Əli (ə) insanlığa çox əhəmiyyətli bir əxlaq dərsi verir.

***Həzrət Əli (ə) deyir ki, yumşaqlıq incə bir örtükdür.***

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Aydınlatma:

İnsan nəzakət libasını geymədikcə yaxşı xasiyyətli sayıla bilməz. Yaxşı xasiyyətin ən gözəl əlaməti yumşaqlıq örtüyünü geyməklə üzə çıxar. Ən yaxşı insan mülayim, yumşaq, incə olandır. Bu baxımdan böyük Şərq mütəfəkkiri, Cəlaləddin Rumi oğluna: “Ey oğlum! Gül qədər gözəl olsan, hər kəs tərəfindən tutular və sevilərsən, heç tikan olma ki, onu əlində tutan və sevən yoxdur... Ey oğlum! Bütün peyğəmbərlər gül idi. Sən də gül kimi ol ki, insanlar tərəfindən seviləsən”, – buyurmuşdur.

Həzrət Əli (ə) də insanlığın məhz bu ülvi hissini bildirməklə bizlərə çox böyük bir dərs vermişdir.

***Həzrət Əli (ə) deyir ki, cahilin qəlbi dodaqlarındadır, alimin ağzı qəlbindədir.***

Aydınlatma:

“Düşünmək, sonra hərəkət etmək səadət yoludur”. İnsan yaxşı düşünərsə, işini də yaxşı görər. Buna görə də Allah bizə ilk olaraq düşünməyimizi əmr etmişdir. Cahil düşünmədiyinə görə qəlbi dodaqlarındadır. Yəni düşünmədən ağzına gələni deyir, buna görə də başına çoxlu bəlalar açır. Alim hər şeyi düşünür, sonra söyləyir.

Dünyada insanlıq üçün ən nurlu qayda əvvəl düşünüb, sonra iş görməkdir.

***Həzrət Əli (ə) deyir ki, ağıllı və təcrübəli şəxslərin sözü ilə hərəkət edən əsla aldanmaz.***

Aydınlatma:

Bu dünya ağılsız və təcrübəsizlər üçün bir növ tələdir. Onlar daim aldanırlar. Bir çox təcrübəsiz, özünü bəyənən gənclər var ki, dünyanın tələsinə düşüb özlərini və ailələrini məhv etmişlər. Buna görə də gənclərin təcrübəli insanlarla görüşməsi, onlardan istifadə etməsi səadətləri üçündür.

Əvvəllər əyan məclislərində yaşlı və təcrübəli “millət vəkilləri ilə” məmləkəti idarə edərdilər.

Həzrət Əli (ə) də ağıllı, təcrübəli şəxslərin sözü ilə hərəkət edənin əsla aldanmayacağını vurğulamışdır.

***Həzrət Əli (ə) deyir ki, hamı ilə yaxşı dolanmaq qəlbi genişlədir.***

Aydınlatma:

Qəlbin darlığı pis xasiyyətlərin olmasından irəli gəlir. İnsan pis xasiyyətli olduqda onunla yola getmək çətindir. Qəlbi genişlətmək hamı ilə yaxşı dolanmaqdan başlayır və o, irfan nuru ilə kamala çatır. İrfan nuru qəlbi zülmətdən, darlıqdan genişliyə çıxarır. İnsan haqqında hər pis fikir qəlbə darlıq, qaranlıq və zəhər səpir. Bu cəhəti yox etdikdə insan fərahlığa, nura çatır. Allah “Hücurat” surəsinin 12-ci ayəsində “Əmənuctənibu kəsiram-mi-nəzzənni innə bəazəz-zanni ismuvva lə təcəssəsu” – “Günahların bəzisi günahdır. (Bir-birinizin sirrini araşdırmayın!)” – buyurur.

Belə olan halda qəlb qaranlığa qərq olur. İnsan bu günah altında sıxıntı və əzab keçirir. Qəlbi genişlətmək insanlıq üçün ən birinci vəzifədir, desək, yanılmarıq.

Allah böyük Rəsulullahı böyük işlərə vəkil edincə onun ürəyini genişlətdi.

"İnşirah" surəsinin 1-ci ayəsində buyurulur: "Ələm nəşrah ləkə sadrak" – "(Ya Muhəmməd!) Məgər biz sənin sinəni (ürəyini) genişləndirmədikmi?"

Sinənin genişlənməsi mücadiləyə kömək üçündür. Heç bir zaman dar qəlbli insanlar sıxıntılara dözə bilməz və yaxşı bir mücahid ola bilməz. Halbuki dünya bir mücadilə və müharibə yeridir. Dəniz dalğasız olmadığı kimi, ibtidai tayfa birliklərindən ən mədəni cəmiyyətlərə qədər bu qovğa əskik deyildir. İnsan bu nəhayətsiz qəm dalğaları arasında geniş ürəyə sahib olmazsa, yolunu çaşdırıb özünü fəlakətə sürükləyər.

Buna görə də ariflər buyurmuşlar: "İlk işiniz o olsun ki, qəlbinizi bulandırmayın". Beləliklə bizə, bu qovğalı dünyada həyata keçiriləcək ilk qaydanı göstərmişlər. Qəlb bulanırsa, xəstəlik əmələ gələr. İnsan da əxlaqsızlaşıb dalaşqan olur. Hər dalaşqanın könlü qaradır. "Qəlbi geniş olanın davranışı yerində olur".

***Həzrət Əlinin (ə) "Hər kəslə yaxşı davranmaq qəlbi genişlədir"***, – sözü qəlbi darlar üçün ən böyük şəfaverici bir reseptdir.

***Həzrət Əli (ə) deyir ki, zənginlik qürbəti vətən, kasıblıq da vətəni qürbət edər.***

Aydınlatma:

Kasıblıq, yoxsulluq bir məhrumiyyətdir. İnsan məhrum qaldıqca qüvvətdən, zəfərdən də uzaq olur. Həyatı iztirablar, sıxıntılar, əsarətlər içində keçir. Azadlığını, zövqünü itirir. Buna görə də kasıblıq atəşdən köynək, dünyada üz qaralığıdır.

İnsan qürbətdə hər şeydən məhrum olduğu, sıxıntı, ələm və kədər onu bürüdüyü kimi, kasıblıqda da hər cürə fəlakət, sonsuz dərdlər ona tuş olar.

Buna görə də Həzrət Əli: "Zənginlik qürbəti vətən edər", – buyurmuşdur, ondakı müsbət cəhəti bildirmişdir. Çünki insan zəngin olduqca məhrumiyyətdən qurtulur. Qürbətdə olsa da, istədiyini edə bilir.

Bir arifin dediyi kimi, qürbət kasıblara ikiqat zindandır. Gecə vaxtı insan sıxıntı içində gedəcəyi yolu görmədiyi kimi, hər şeydən məhrum olan adam da şübhə içində gedəcəyi yolu görməyən axmağa bənzər.

Hər zənginlik işıq və qüvvətdir. Hər rahatlıq və zəfərə zənginliklə nail olmaq mümkündür. Buna görə də Allah Məhəmməd Əleyhissəlama "Zuha" surəsinin 8-ci ayəsində: "Va vacədəkə ailənfəəğnə" – "Məgər səni yoxsul gördükdə qəni etmədi?" – buyurur.

Deməli, böyük insanlar böyük işləri bütün qüvvəti özündə toplayan var-dövlətlə həyata keçirmişlər. Napoleon Bonapartın zəfər sözünə "pul" deməsi də buna görədir.

Peyğəmbər Əleyhissəlamın doğru adamın malını mədh edərək: "Doğru kimsənin malı da doğrudur", – buyurması çox ibrətamizdir.

***Həzrət Əli (ə) deyir ki, təmənnalı dostdansa səmimi danışan düşmən daha yaxşıdır.***

Aydınlatma:

Açıq və səmimi danışmaq insanlığın şüarıdır. Ən pis insan düşmənçiliyi qəlbində gizli saxlayandır. O adam qəlbində qurduğu tələ ilə insanlığı ən böyük sıxıntıya, zülmə uğradır. Bu, surətlə qəlbində çox gizli planlardan, tələlərdən, düşüncələrdən törəyər.

Müaviyə saf və təmizlikdə insanlığın böyük nümunəsi olan Həzrət Əli (ə) haqqında: "Mən iki şey sayəsində qazandım. Birincisi, Əli fikrini açıqca söylərdi, mən daima gizləyərdim. İkincisi, Əli başıboş əsgərlərə başçılıq edərdi. Mən gizli bir işarə ilə hərəkət edən əsgərləri idarə edərdim", – demişdir.

Deməli, könlü hər cürə hiylədən təmiz və uzaq olan böyük imam sözünü gizləməzdi. Qəlbində həmcinsinə qarşı bir tələ qurmaz, hamı ilə açıq və səmimi şəkildə danışardı.

Pis insanlar qəlblərindəki tələlərlə başqalarını fəlakətə uğratmışlar.

Buna görə də Həzrət Əli (ə) əsrlərə xitab edən, insanlığa bir həqiqət dərsi verən, açıq bir qəlblə danışan düşmənin, içində gizli tələ quran dostdan daha yaxşı olduğunu bildirmişdir.

Çünki düşmən açıq danışmaqla planlarını söyləyər. İnsanlara üz verəcək fəlakətlərin qarşısı alınar. Üzdən dost görünənlər isə içlərində insanlara fəlakət quyusu qazarlar. İnsanlıq üçün hansı faciələr gəlmişsə, içində belə tələ quran adamlardan gəlmişdir.

***Həzrət Əli (ə) deyir ki, cahil ilə tez-tez danışma! Çünki bir çox cahillər bir çox alimlərin ölümünə səbəb olmuşdur.***

Aydınlatma:

İnsan cəmiyyət üçün yaradıldığına görə hamı ilə danışmaq məcburiyyətindədir. Amma tez-tez danışdığı insanı seçməsi səadəti üçündür. Çünki yoldaşın səadət və fəlakəti dostuna da təsir edər. Axmaq, cahil insanla danışmaqla insan özünü fəlakətə sürükləyər.

Buna görə də Allah-Təala "Əraf" surəsinin 199-cu ayəsində: "Va əa-ri anil-cahilin" – "cahillərdən üz döndər!", – buyurmuş, cahillərdən uzaqlaşmağımızı əmr etmişdir. Çünki cahil gözünün önünü görməyən axmağa bənzər. Özünü və dostunu bilmədən fəlakətə atar. Tarix boyunca cahillər neçə alim şəxslərə yaxınlaşmış və fəlakətə sürükləmişlər.

Həzrət Əlinin tərbiyə məsələsində dünyaya dəyəcək "Cahil ilə tez-tez danışmaqdan çəkin!" – sözü öyüd dinləyənlərə qiymətli həqiqət dərsi verir.

## HƏZRƏTİ ƏLİNİN MİSİR VALİSİNƏ MƏKTUBU

"Allahın qulu, möminlərin əmiri Əlidən Misir valisi Malikə!

Vergini toplamağı, düşmənlərlə savaşmağı, əhalini sülhə və sağlamlığa qovuşdurmağı və ölkəni abadlaşdırmağı sənə əmr edirəm".

Görürük ki, burada Həzrət Əli (ə) Misir valisinə bütün dövlət başçılarını cəlb edəcək dörd şeyi xatırladır:

1) Verginin ədalətlə toplanmasını, yəni hər kəsin verə biləcəyi vergini yığmağı əmr edir.

2) Ölkəni düşmənlərdən qoruya biləcək bir döyüş hazırlığını əmr edir.

3) Əhali arasında da ədaləti və sülhü təmin edəcək hər növ tədbirlərin görülməsini əmr edir.

4) Ölkənin abadlaşdırılmasını əmr edir.

Hər başçı bu dörd əsasdan uzaq düşdükcə ölkəni viran edərək əhaliyə zülm edir. Buna görə də böyük İmam dörd əsası nəzərə çatdırmışdır. Bu dörd əsasda gözünü dörd açmaq məmləkətin səadət və salamatlığı üçündür. Həzrət Əli (ə) bundan sonra deyir: "Ey Malik! Allahdan qorx! Allaha itaət edən ol! Allahın kitabında əmr olunan fərzlərə, sünnətlərə tabe ol! Onlara əməl etməyən heç kimin üzünə səadət gülməz. Tabe olan isə dərd-qəm görməz. Allaha qəlbinlə və dilinlə yardım et! Allah ona yardım edənə qələbə verir. Adını əziz tutanı əziz tutur. Nəfsini şəhvətdən qoru! Nəfs daima pisliyə çağırır. Allah mərhəməti ilə insanı qorusun!

Ey Malik! Səni elə ölkələrə göndərirəm ki, orada səndən əvvəl adil və ya zülmkar bir çox hakimlər olmuşdur. Sən əvvəlkilərin hallarını necə görürsən? Xalq da sənin hakimiyyətini eləcə gözdən keçirib haqqında düşündüyünü söyləyəcək. Ancaq Allah qullarının dilindən söylənilən sözlərlə kimlərin ədalətli olduğu bilinəcək. Aldığın zəxirələr saleh əməllərdən olsun!

Nəfsinə hakim ol! Halal olmayana yaxınlaşma! Ona qarşı ol! Nəfsinə xəsis olmaq ondan intiqam almaqdır.

Təbəələrinə qarşı mərhəmətli ol! Heç vaxt onlara qarşı yırtıcı bir canavar olma!

Təbəə iki cürdür: biri dini qardaşın, digəri də yaradılışda bənzərindir. Onlar səhvə yol verə bilərlər, bəzi xətaları ola bilər.

Sən Allahdan əfv dilədiyin kimi, onları da bağışla! Sən onların üstünə hakimsən. Amma sənin də üzərində böyüyün var. Böyüyünün üzərində də Cənabi-Haqq var! Cənabi-Haqq qullarınn işlərini haqqı ilə görməyini istər.

Allah ilə savaşıb özünü qəzəbə uğratmaqdan çəkin! Çünki intiqam olsa, dözümün çatmayacaq. Cənabi-Haqqın bağışlamasından uzaq deyilsən.

Allahın qullarına zülm edənin cəza verəni Allahdır. Allah bir kimsənin düşməni olarsa, onun göstərdiyi dəlilləri batil olur. Ölüncəyə qədər də Allahla savaş vəziyyətində olar. Dünyada zülm qədər Allahın lütfünü (bağışlama niyyətini) dəyişdirən, qəzəbini tələsdirən bir şey ola bilməz. Allah zülm altında inləyənlərin iniltilərini eşidir, zalımları izləyir.

İnsanlara bəslədiyin bütün kinləri at. Səni intiqama sürükləyən iplərin hamısını kəs. Onun-bunun sözünə tezcə inanma. Çünki qanmaz nə qədər saf görünsə də, daima aldadır.

Çalış ki, heç vaxt zərurət qorxusu səni kərəmdən ayırıb tamaha sövq etməsin.

Həris olanı məşvərət məclisinə çağırma. Sənin ən pis müşavirlərin şərə yaxın olanlardır. Belələrinə qətiyyən gizli sirlərini vermə. Çünki onlar zalımların yardımçısı və yaxınıdır.

Çoxlu alqış və tərif insanı əzəmətə sövq edər, qürura yaxınlaşdırar. Bundan uzaq dur!

Əsgərlərinin üstündə elə bir başçı təyin elə ki, Allah Rəsuluna və imamına qarşı hamısından daha səmimi və ürəkyandıran olsun!

Qəlbi hamısından təmiz, ağlı hamısından üstün olsun!

Qəzəblənəndə ağır davran! Zalımlardan uzaq dur! Hirslə durub zərərlə oturanlardan olma!

Ata-ana uşaqlarını necə öyrədirsə, sən də əsgərlərinin işinə eləcə göz qoy!

Aşağı təbəqədəki çarəsiz, yoxsul, bədbəxtliyə uğrayanlara yardım et. Onlara laqeyd qalma! Allahdan qorx! Həm də çox qorx! Bu təbəqədə halını söyləyən də, söyləməyən də var!

Sənə pənah gətirən yaxın, uzaq hər kəsi qəbul et!

Düşmən tərəfdən sənə təklif olunan sülhü Allah razılığına uyğundursa, qətiyyən rədd etmə! Sülhdən sonra düşməndən çəkin! Həm də çox çəkin! Bəlkə, səni qəfil ovlamaq üçün yaxınlaşmışdır. Ona görə də ehtiyatı əldən vermə! Bu barədə zahiri görüşünə aldanma!

Düşmənlə bir müqavilə bağlamışsansa, öhdəliyini yerinə yetir! Verdiyin sözü qorumaq üçün lazım gələrsə, canını da ver!

Haqsız yerə qan tökməkdən son dərəcə çəkin! Çünki haqsız yerə qan tökmək kimi fəlakət yoxdur!

Allah Qiyamət günü qullarını mühakimə edəndə tökdükləri qandan başlayacaqdır. Heç vaxt haram qan axıdaraq səltənətini qüvvətləndirmə! Bir də heç vaxt özünü bəyənmə!

Heç vaxt xasiyyətinin sənə xoş gələn tərəflərinə güvənmə!

Heç vaxt üzünə tərif etmələrini istəmə! Şeytanın əlindəki fürsətlərin ən sağlamı budur!

Təbəənə etdiyin ehsanı başına qaxma!

Gördüyün işləri şişirtmə!

Verdiyin vəddən dönmə!

Hiddətinə, qəzəbinə, əlinə, dilinə hakim ol!

Allah sənə də, mənə də gücümüz yetdiyi qədər fəaliyyət göstərməyə imkan versin!

Nemətimizi tamamlasın, kərəmini çoxaldıb şəhadətlə can verməyimizi nəsib etsin!

Bizim niyazımız Allahdır (Vəssəlam əla Rəsulullah)".

Bu mübarək məktubun əsasını bir valinin təbəəsinə bir ata qədər şəfqət və ədalətlə davranmağı təşkil edir.

Müsəlmanlarla qeyri-müsəlmanlar islami qanuna görə cəzalandırılanda onlarla insan kimi davranılır. Bunu ancaq son əsrin mədəni dövlətlərində görə bilirik.

Halbuki, islamın mahiyyəti insanlığa xas olanın haqqını verməkdir.

Həzrət Əli (ə) bu barədə deyir: "Onların qanı bizim qanımız kimidir". Bu söz qeyri-müsəlmanlarla necə davranıldığını göstərir.

Bu məktubda əks olunan, bəşər övladına qarşı ədalətli münasibət. Bütün dövlətlərin irq, məzhəb siyasətində bir örnək ola bilər.

Bu gün özünü ən mədəni millətlərdən sayanların başqalarına bu cür şəfqətlə, ədalətlə davrandığını görmürük. Onlar daima öz millətlərindən olmayanlara aşağı bir nəzərlə baxırlar.

Bu böyük məktubda bildirilir ki, cani müsəlman olub-olmamasından asılı olmayaraq, eyni cəzaya çatmalıdır. Ədalət prinsiplərində də heç bir fərq qoyulmamalıdır.

İslamın məqsədi insanlar arasında qardaşlığı, azadlığı yaymaq və təmin etməkdir.

Bu məktub insanlara insanlığa xas haqlarını verməyə təşviq edən, dünya tarixində tayı-bərabəri olmayan bir yazıdır.

Bu məktub Qiyamətə qədər idari və siyasi işləri yoluna qoymaq üçün yazılmış, hər cəhətdən şah əsər olan bir məktubdur.

Valinin bilməsi lazım olan 4 əsas vardır. Birincisi, dövlət vergisinin ədalətlə yığılmasıdır.

"Quran"ın "Bəqərə" surəsinin 286-cı ayəsində:

لاَ يُكَلِّفُ اللّٰهُ نَفْسًا إِلاَّ وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ

"Lə yukəllifullahu nəfsən illa vusahə" – "Allah heç kimi gücündən artıq vəzifələndirməz", – buyurmuşdur. Bu qayda dünya durduqca bütün idari və siyasi məqamların düsturudur. Dövlət məmurları ancaq əhalinin gücü yetəcək dərəcədə ondan vergi almalıdırlar. Bundan artığını tələb edərlərsə, zülm edərlər.

Məktubda göstərilən ikinci vəzifə dövlətin əhaliyə qarşı ata kimi qayğı göstərməsidir. Hökumət millətin bir mənəvi atası olduğu üçün ona şəfqətlə yanaşması üzərinə düşən borclardan biridir.

Konfutsi qanununda buyurmuşdur: “Ana analığını, ata atalığını etdikdə həqiqi valideyn olur”. Hökumət də xalqa qarşı şəfqətli bir ata-ana olmaqla yaxşı hökumət vəzifəsini icra edə bilər.

Həzrət Əli (ə) də bu baxımdan Misir valisi Malikə təbəəsinə qarşı ata kimi davranmağı əmr edir.

Üçüncü nəsihətində düşmənə qarşı daima hazırlıqlı olmaq tələb edilir.

Dördüncü əmr isə ölkənin daima abadlaşdırılmasıdır.

Ölkə gərək əhalinin ehtiyaclarına uyğun olaraq abadlaşdırılsın: küçələr, körpülər, yollar, fabriklərlə təmin olunsun.

Məhz bu dörd vəzifəni ədalətlə yerinə yetirən hər başçı məmləkətinə xidmət etmiş olur. Bundan xəbərsizlər isə ölkəni uçuruma doğru apararlar. Tarix şahiddir ki, bu dörd qaydaya əməl edənlər dövləti ucaltmış, uzaqlaşanlar isə onu fəlakətə doğru aparmışlar.

Həzrət Əli (ə) Misir valisi Malikə nəfslə bağlı bəzi əmrlər verir: “Allahdan qorx! Kitaba, sünnətə əməl et! İnsanın səadəti bu əməli qədərdir. Fəlakəti də bunu inkarla başlar”.

Şübhəsiz ki, Allah qorxusu insanları hər cür pislikdən uzaqlaşdıran yeganə vasitədir. İnsanlar bu qaydaya əməl etdikcə məmləkətə ədalətlə xidmət edirlər. Bunun xaricində hər şey nəfs üçündür. Məhz “Qurani-Kərim”in bir çox yerində: “Vəttəkullah” – “Allahdan qorxun!” – buyurulmuşdur.

Deməli, qanunların tətbiqində yeganə hakim – Allah qorxusudur.

Hakimlərdə, məmurlarda Allah qorxusu olmasa, qanunlar kitablarda qalar, qüvvətlinin haqsız olduğu halda bəraət almasına səbəb olar.

Bir başçı nəfsini şəhvani, şeytani duyğu və tamahlardan uzaqlaşdırdıqca qanunları ədalətlə icra edər.

Həzrət Əli (ə) Malikə bunları xatırlatdıqdan sonra: “Səni elə ölkələrə göndərirəm ki, orada səndən əvvəl adil və ya zülmkar bir çox hakimlər olmuşdur”, – buyurur və Misirdəki Fironluğu xatırladır. Çünki bu ölkə mədəniyyətin beşiyi olmaqla bərabər, minillərlə adil və ya zalım kralların əmri altında xoşbəxt və ya bədbəxt şəkildə yaşamışdır.

Həmçinin, bunlardan ibrət dərsi al! Ədalətlə hakimlik et! Səndən əvvəlkilərin rəftarını sən necə görürsənsə, indi də xalqın nəzəri sənin üstündədir, – deyir.

Şübhəsiz ki, hər bir məmur, hakim keçmişdən ibrət dərsi almadıqca ədalətli davrana bilməz.

Həzrət Əli (ə) insanın fəlakətinə səbəb olan şeyi, şəhvətə meyilliliyi də valiyə xatırladır.

Buna tabe olmamasını, təbəəsinə qarşı mərhəmətli, gözəl davranmasını əmr edir. Onlara qarşı yırtıcı bir aslan kimi olmamasını tapşırır. Eyni zamanda, müsəlmanlarla qeyri-müsəlmanlar arasında da fərq qoymayaraq onlara eyni mərhəmət göstərməsini söyləyir.

Din qardaşı və insan övladı olmaqla təbəəsini iki qismə bölsə də, hər ikisinə qarşı ədalətli olmağa çağırır. Bu qaydanı müasir mədəni millətlər hələ yeni-yeni bilməkdədirlər. Din və dil fərqinə görə millətlər başqa dinə və dilə mənsub olanları aşağılayırdılar.

Sonra Malikə:

– Sən Allahdan əfv dilədiyin kimi, bağışlanmasını istəyən qulları da sən bağışla, – deyir. Şübhəsiz ki, bağışlamağı bilməyən kəs insan övladı deyil.

Hər dövlətdə başçılar günahına görə cəzalandırılan insanları zaman-zaman bağışlayıb, həbsxanadan azad ediblər. Bu, mədəniyyət irəlilədikcə sürətlənmişdir.

Həzrət Əli (ə) valiyə: “Hiddətə qapılma!” – söyləyərək insanları ədalətdən, adamlıqdan uzaqlaşdıran bu xasiyyətdən çəkinməsini əmr edir. Şübhəsiz, məmurlar bu qaydanı yaxşı mənimsəməlidirlər. Çünki hirsləndikdə ağıl yoxa çıxır, insan yırtıcı heyvana çevrilir.

Buna görə də məmurlar mülayim və sakit olmalıdırlar.

İnsanları bir-birinə soyuqlaşdıran yeganə şey də əzəmət və təkəbbürdür.

İdarə məmurlarının lovğalığı xalqı ondan soyudur. Buna görə də Həzrət Əli (ə) lovğalananı işdən uzaqlaşdırmaq lazımdır, məsləhətini verir.

Həzrət Əli (ə) həmçinin bildirir ki, dinin təməli tövhid olduğu kimi, millətin tərəqqisində də fikirlərin birləşməsi lazımdır. Bu isə müasir demokratiyanın əsasıdır. Həzrət Əli (ə) millətin söz və hakimiyyətini vacib bilir. Təbəəsinin qüsurlarını bağışlamağı, eyni zamanda düzəltməyə çalışmasını əmr edir.

İdarə məmurlarının ən gözəl əxlaqa sahib şəxslərdən seçilməsini, onlarla münaqişəyə girməməsini, gizli xəbər gətirənləri tələsib təsdiqləməməsini yada salır. Çünki bir çox insanlar doğru kimi görünüb, hiylə işlədirlər.

Həmçinin, müşavirədə, iclasda paxıl, qorxaq adamın iştirak etməməsini tapşırır. Çünki bu mənfi xüsusiyyətə sahib insanlar öz başçılarını hər cürə yaxşılıqdan, irəliləyişdən uzaqlaşdırırlar.

Ey Rəbbim, onun səbəbi ilə bizə Öz kərəmini artır, onun qərar tutduğu yeri bizim üçün qərar tutulan yer və iqamətgah qərar ver. Onu bizə təqdim etməklə öz nemətlərini tamamla, ta ki, bizi öz cənnətlərinə daxil edib, xalis bəndələrindən olan şəhidlərlə yoldaş edəsən. İlahi, Peyğəmbərə və onun (İmam Zamanın) atası (Peyğəmbərdən) kiçik olan ağamıza (Həzrət Əliyə), nənəsi siddiqeyi-Kubraya-Fatimə binti Muhəmmədə və onun (İmam Zamanın) çox xeyirxah və doğruçu ata-babalarından (sair məsum İmamlardan) olan seçdiyin şəxslərə və bəndələrindən olan xeyirxah insanlar (14 Məsum) üçün salavatların ən fəzilətlisi, ən kamili, ən tamı, ən davamlısı və ən çoxunu göndər. O həzrətə sayı üçün bir son, ardı üçün bir nəhayət, müddəti üçün bir yoxluq (fəna)olmayan bir salavat göndər.İlahi, onun vasitəsi ilə haqqı bərqərar, batili məhv et. Öz övliyalarını onun vasitəsi ilə qalib, düşmənlərini isə zəlil et, bizimlə onun arsında vüsal bərqərar et, elə bir vüsal ki, bizi onun sələfləri (İmamlar və Peyğəmbərlər) ilə yoldaş olmağa aparıb çıxarar. Bizi onun

kəmərindən yapışıb, kölgəsində qərar tutanlardan et, onun haqlarını özünə qaytarmaqda bizə kömək et. Onun itaətində olmağa çalışmaqda, ona qarşı üsyan etməkdən çəkinməkdə bizə kömək et. Onun bizdən razı olması ilə bizə minnət qoy. Onun rəfət, rəhmət, dua və xeyir bərəkətini bizə əta et, belə ki, biz onun səbəbinə sənin rəhmət və kamının (fövz) vüsətinə çataq. Namazlarımızı onun xatirinə məqbul, günahlarımızı onun xatirinə bağışlanmış, dualarımızı onun xatirinə müstəcəb olunmuş qərar ver. Ruzilərimizi onun xatirinə bol, firavan, qəm-qüssələrimizi onun xatirinə aradan qaldırılmış, ehtiyaclarımızı onun xatirinə təmin olunmuş qərar ver. Öz kərəm və nəzərinlə bizə doğru nəzər et, Sənə doğru yaxınlaşmaq (niyyətimizi) qəbul et, bizə rəhmət nəzəri ilə nəzər et, belə ki, o rəhmət səbəbi ilə Sənin yanından gələn kəraməti kamil surətdə edək, daha sonra o rəhməti Öz ehsanınla bizdən başqa tərəfə çevirmə (bizdən alma). Onun ċəddin (səlləllahu əleyhi və alihi və səlləm)in (Kövsər) bizi o həzrətin (İmam Zamanın (ə.s.)) canları ilə çoxlu canımıza nuş olan, zəhmətsiz su verməklə sirab et. Elə sirab et ki, ondan sonra heç vaxt susamayaq. Ey rəhm edənlərin ən rəhimlisi!

## “NADİ-ƏLİ (Ə)” DUASI VƏ ONUN FƏZİLƏTLƏRİ

Böyük təsirləri qeydə alınmış dualardan biri də, mübarək “Nadi-Əli” duasıdır. Bu dua 2 misradan ibarətdir.

نادِ عَلياً مَظهَرَالعَجائِب
تَجِدهُ عَوَناً لَکَ فِی النَوّائِب
کُلَّ هَم وَغَمٍّ سَيَنجَلی
بِوَلايَتِّکَ ياعَلِیُّ ياعَلِیُّ ياعَلِیُّ

**Oxunuşu:**
Nadi Əliyyən məzhərəl-əcaib!
Təcidhu əunən ləkə fin-nəvaib.
Kullu həmmin və ğəmmin səyəncəli,
Bivilayətikə, ya Əliyyu, ya Əliyyu, ya Əliyyu!
**Tərcüməsi:**
Əcaibləri aşkara çıxaran Əlini (ə) çağır!
Onu sənə çətinliklərdə kömək edən görərsən!
Bütün qüssə və kədər çəkilib gedər,
Sənin vilayətinlə, ya Əli (ə), ya Əli (ə), ya Əli (ə)!

Biz onun təsir bağışlaması və bərəkətləri haqqında olan məlumatları “Min bir xətm” kitabından istifadə edərək burada veririk.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

1. "Nadə Əli" (ə) duasının gündə azı 110 dəfə oxunmasının itmiş şeyin tapılmasında və itmiş şəxsin qayıtmasında çox böyük təsiri var.
2. Bir qrup adamın ucbatından çətinliyə düşən şəxs bu duanı 7 dəfə oxuyub onlara tərəf üfürsə, onlardan heç bir zərər görməz.
3. Düşməndən qorxan şəxs onu 27 dəfə oxusa, onları pərakəndə salıb məğlubiyyətə uğradar.
4. Mühüm çətinliklərin həlli üçün 1000 dəfə oxumaq lazımdır.
5. Əgər bir şəxs sənə qarşı qəzəblənibsə, buna görə onu 71 dəfə oxu və 3 dəfə də oxuyub şəxsin üzünə üfür.
6. Əgər rəsmi dairə işçisi üçün oxusa, onun yanında sözü keçər.
7. Cümə gününün əvvəlində 12 dəfə oxuyan şəxsin sözü keçərli olar.
8. Böhtana düşmüş şəxsin, onu dəf etmək üçün səhər və axşam 40 dəfə oxuması lazımdır.
9. Var-dövlətli olmaq üçün hər gün səhər 12 dəfə oxumaq lazımdır.
10. Var-dövlətin artması üçün hər gün 31 dəfə oxumaq lazımdır.
11. Düşmənlərə qələbə çalmaq üçün hər gün 17 dəfə oxumaq lazımdır.
12. Pis niyyətli şəxslərin ağzını bağlamaq üçün 17 dəfə oxumaq lazımdır.
13. Mühüm çətinliklərdən çıxış yolu tapmaq üçün hər gün 34 dəfə oxumaq lazımdır.
14. Göz ağrısı üçün 3 gün, hər gün 2 dəfə oxumaq lazımdır.
15. Xəzinələri ələ gətirmək və müharibələrdə qələbə çalmaq üçün 40 dəfə oxumaq lazımdır.
16. Məhəmməd Peyğəmbəri (s) yuxuda görmək üçün hər gecə 7 dəfə oxumaq lazımdır.
17. Həbsdən xilas olmaq üçün 7 gün və hər gün 16 dəfə oxumaq lazımdır.
18. Bağlı qapıların və bəxtin açılması üçün hər gün 50 dəfə oxumaq lazımdır.
19. Sirlərin aşkarlanması və dövlətli olmaq üçün hər gün 16 dəfə oxumaq lazımdır.
20. Qətl və düşməndən amanda qalmaq üçün 8 gün və hər gün 18 dəfə oxuyub, o şəxsə tərəf üfürmək lazımdır.
21. Elm əldə etmək üçün sübh namazı vaxtı 17 dəfə oxumaq lazımdır.
22. Hacətin rəva olması və istəklərin padşah (rəhbər və ya yüksək rütbəli şəxslərin) yanında qəbul olması üçün 6 gün müddətində hər gün 100 dəfə oxumaq lazımdır.
23. İzzətli olmaq üçün hər gün 10 dəfə oxumaq lazımdır.
24. İki zalım arasında düşmənçilik salmaq üçün hər gün 20 dəfə oxumaq lazımdır.
25. Düşmənin avara və sərgərdan olması üçün hər gün 30 dəfə oxumaq lazımdır.
26. Bir dəstənin arasındakı ixtilafı aradan qaldırmaq üçün hər gün 30 dəfə oxumaq lazımdır.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

27. Düşmənlərin məğlub olması üçün gündə 100 dəfə oxumaq lazımdır.
28. Qəlbin qüvvətlənməsi üçün hər gün 25 dəfə oxumaq lazımdır.
29. Düşmənin ürəyinin yumşalması üçün 6 gün hər gün 100 dəfə oxumaq lazımdır.
30. Düşmənin hiylə və tüğyanının qarşısını almaq üçün hər gün 100 dəfə oxumaq lazımdır.

Bunlardan əlavə, “Nadi Əli (ə)” zikrini hər gün 70 dəfə oxumağın hacətlərin rəva olmasında, həyatdakı çətinliklərin həll olmasında və başqa mühüm işlərdə çox böyük təsiri vardır. Bu zikr təcrübə olunmuşdur. Deyilənə görə, İmamlardan (ə) biri bu zikri deyən şəxsin yuxusuna gəlib, ona üzləşdiyi hadisədən qurtuluş yolunu açıqlayar.

## “NADİ-ƏLİ (Ə)”NİN BAŞQA XƏTMİ

“Nadi-Əli (ə)” zikrinin başqa xətmi belədir: Sübh və axşam namazının təqibat (namazdan sonrakı dua) və salavatından sonra 110 dəfə diqqətlə “Ya Əli” deyirsən. Sonra isə əllərini üzünlə bərabər tutub belə deyirsən.

**بِسمِ اللهِ الرَّحمن الرَّحيم. بِفَضل بِسمِ اللهِ الرَّحمن الرَّحيم. بِبَرَكَة بِسمِ اللهِ الرَّحمن الرَّحيم. يَاأبَاالغيث أغِثنِى نادِ عَلياً مَظهَرَالعَجائِب تَجِدهُ عَوَناً لَکَ فِى النَّوّائِب كُلَّ هَمٍ وَغَمٍّ سَيَنجَلى بِوَلايَتِکَ ياعَلِىٌّ ياعَلِىٌّ ياعَلِىٌّ !**

**Oxunuşu:** Bismillahir-rəhmanir-rəhim. Bi fəzli Bismillahir-rəhmanir-rəhim! Bi bərəkəti Bismillahir-rəhmanir-rəhim! Ya əbəl-ğəysi əğisni! Nadi Əliyyən məzhərəl-əcaibi, təcidhu əvnən ləkə fin-nəvaib! Kullu həmmin və ğəmmin səyəncəli bivilayətikə ya Əliyyu, ya Əliyyu, ya Əliyyu!
**Tərcüməsi:** Mərhəmətli, rəhimli Allahın adı ilə! Ey fəryadlara yetişən! Səni and verirəm “Bismillahir-rəhmanir-rəhim”-in fəzilətinə! Səni and verirəm “Bismillahir-rəhmanir-rəhim”-in bərəkətinə, fəryadıma çat! Əcaibləri aşkara çıxaran Əlini (ə) çağır! Onu sənə çətinliklərdə kömək edən görərsən. Bütün qüssə və kədər çəkilib gedər, sənin vilayətinlə! Ya Əli! Ya Əli! Ya Əli!

Kim təharətli halda xəlvət yerdə 12 min dəfə bu zikri desə, hacətləri rəva olar.

**اللّهمَ اِنَّکَ قُلتُ: نادِ عَلياً مَظهَرَالعَجائِب تَجِدهُ عَوَناً لَکَ فِى النَّوّائِب فَنادَيتَهُ لِيَظهر عَلى من عَجاءِب آثار ولايته و غراءِب أسرار امامته حتى يَنجَلى كل همى و غمى بِوَلايَتِکَ ياعَلِىٌّ ياعَلِىٌّ ياعَلِىٌّ !**

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Oxunuşu:** Əllahummə innəkə qultə: “Nadə Əliyyən Məzhərəl-əcaib təcidhu əvnən ləkə fin-nəvaib.” Fənadəytuhu liyuzhirə ələyyə min əcaibi asari vilayətih və gəraibi əsrari imamətih, hətta yəncəliyyə kullu həmmi və ğəmmi bivilayətih. Yə Əliyyu ədrikni bisirri vilayətikəl-xəfiyi vəl-cəliyy!
**Tərcüməsi:** İlahi! Sən demisən: “Əcaibləri aşkara çıxaran Əlini (ə) çağır! Onu sənə çətinliklərdə kömək edən görərsən!” Mən də Onu çağırdım; vilayətinin təsirlərindən əcaibləri və imamətinin sirrlərindən qəribəlikləri üzə çıxarsın, qüssə və kədərlərim Onun vilayəti ilə çəkilib getsin! Ya Əli (ə)! Gizli və aşkar vilayətinin sirri ilə fəryadıma çat!
Sonra yenə salavat deyib, hacətini istə.

**بسمِ اللهِ الرَّحم ن الرَّحيم. يا قاهر العَدوّ و يا والى الى الولىّ يا مَظهَرَالعَجائِب يا مُرتَضى عَلىّ!**

**Oxunuşu:** Bismillahir-rəhmanir-rəhim. Ya Qahirəl-əduvvi və ya Valiyəl-vəliyyi, ya məzhərəl-əcaib, ya murtuzəl-Əliyyi!
**Tərcüməsi:** Ey düşmənləri məhv edib qələbə çalan! Ey dostlara kömək edən! Ey əcaibləri üzə çıxaran! Ey Murtəza Əli (ə)!
Zalımın və ya düşmənin həlak olması üçün çərşənbə günü gün çıxan vaxt 41 dəfə bu zikri deyib, onun evinə tərəf üfürmək lazımdır.

Məqsədə çatmaq üçün “Nadi Əli (ə)” zikrini bir dəfəyə 110 dəfə demək lazımdır:
Əgər 3 gün belə xətm etsə, inşallah məqsədinə çatar.

## “NADİ-ƏLİ (Ə)” ZİKRİNİN FAYDALARI

Mərhum Ayətullah Kəşmiri (r) belə deyirdi: “Mən “Nadə-Əli (ə)” zikrindən çoxlu xeyirlər görmüşəm. Nəcəfdə qarşıma çıxan hər bir çətinlikdə Əmirəl-möminin imam Əlinin (ə)” zikrini oxuyardım və çətinliklərim həll olardı. “Nadi-Əli (ə)” zikri 110 dəfə deyilərsə, daha yaxşıdır.

Bir gecə bizim evdə şam və xiftən namazı vaxtı qatar şəklində nur peyda oldu. Səbəbi soruşulduqda dedim: “İsfahan şəhərindən Qum şəhərinə gələrkən Əmirəl-möminin İmam Əliyə (ə) olan eşqimdən maşında “Nadi-Əli (ə)” zikrini deməyə başladım və təsiri namazda özünü biruzə verdi”.[1]

[1]“Puhvə reyhan”, səh. 94, 95.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## “KUMEYL” DUASI

## دعای کمیل

بِسمِ اللهِ الرّحمنِ الرّحيم

**اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِرَحْمَتِكَ الَّتِي وَسِعَتْ كُلَّ شَيْءٍ**

**وَ بِقُوَّتِكَ الَّتِي قَهَرْتَ بِهَا كُلَّ شَيْءٍ وَ خَضَعَ لَهَا كُلُّ شَيْءٍ وَ ذَلَّ لَهَا كُلُّ شَيْءٍ**

**وَ بِجَبَرُوتِكَ الَّتِي غَلَبْتَ بِهَا كُلَّ شَيْءٍ**

**وَ بِعِزَّتِكَ الَّتِي لاَ يَقُومُ لَهَا شَيْءٌ**

**وَ بِعَظَمَتِكَ الَّتِي مَلَأَتْ كُلَّ شَيْءٍ**

**وَ بِسُلْطَانِكَ الَّذِي عَلاَ كُلَّ شَيْءٍ**

**وَ بِوَجْهِكَ الْبَاقِي بَعْدَ فَنَاءِ كُلِّ شَيْءٍ**

**وَ بِأَسْمَائِكَ الَّتِي مَلَأَتْ (غَلَبَتْ) أَرْكَانَ كُلِّ شَيْءٍ**

**وَ بِعِلْمِكَ الَّذِي أَحَاطَ بِكُلِّ شَيْءٍ**

**وَ بِنُورِ وَجْهِكَ الَّذِي أَضَاءَ لَهُ كُلُّ شَيْءٍ**

**يَا نُورُ يَا قُدُّوسُ يَا أَوَّلَ الْأَوَّلِينَ وَ يَا آخِرَ الْآخِرِينَ**

**اللَّهُمَّ اغْفِرْ لِيَ الذُّنُوبَ الَّتِي تَهْتِكُ الْعِصَمَ**

**اللَّهُمَّ اغْفِرْ لِيَ الذُّنُوبَ الَّتِي تُنْزِلُ النِّقَمَ**

**اللَّهُمَّ اغْفِرْ لِيَ الذُّنُوبَ الَّتِي تُغَيِّرُ النِّعَمَ**

**اللَّهُمَّ اغْفِرْ لِيَ الذُّنُوبَ الَّتِي تَحْبِسُ الدُّعَاءَ**

**اللَّهُمَّ اغْفِرْ لِيَ الذُّنُوبَ الَّتِي تُنْزِلُ الْبَلاَءَ**

**اللَّهُمَّ اغْفِرْ لِي كُلَّ ذَنْبٍ أَذْنَبْتُهُ وَ كُلَّ خَطِيئَةٍ أَخْطَأْتُهَا**

**اللَّهُمَّ إِنِّي أَتَقَرَّبُ إِلَيْكَ بِذِكْرِكَ وَ أَسْتَشْفِعُ بِكَ إِلَى نَفْسِكَ**

**وَ أَسْأَلُكَ بِجُودِكَ أَنْ تُدْنِيَنِي مِنْ قُرْبِكَ وَ أَنْ تُوزِعَنِي شُكْرَكَ وَ أَنْ تُلْهِمَنِي ذِكْرَكَ**

**اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ سُؤَالَ خَاضِعٍ مُتَذَلِّلٍ خَاشِعٍ**

**أَنْ تُسَامِحَنِي وَ تَرْحَمَنِي وَ تَجْعَلَنِي بِقِسْمِكَ رَاضِياً قَانِعاً وَ فِي جَمِيعِ الْأَحْوَالِ مُتَوَاضِعاً**

tttttttttttttttttttttttttttttttttttttt
اللَّهُمَّ وَ أَسْأَلُكَ سُؤَالَ مَنِ اشْتَدَّتْ فَاقَتُهُ وَ أَنْزَلَ بِكَ عِنْدَ الشَّدَائِدِ حَاجَتَهُ وَ عَظُمَ فِيمَا عِنْدَكَ رَغْبَتُهُ
اللَّهُمَّ عَظُمَ سُلْطَانُكَ وَ عَلاَ مَكَانُكَ وَ خَفِيَ مَكْرُكَ
وَ ظَهَرَ أَمْرُكَ وَ غَلَبَ قَهْرُكَ وَ جَرَتْ قُدْرَتُكَ وَ لاَ يُمْكِنُ الْفِرَارُ مِنْ حُكُومَتِكَ
اللَّهُمَّ لاَ أَجِدُ لِذُنُوبِي غَافِراً وَ لاَ لِقَبَائِحِي سَاتِراً وَ لاَ لِشَيْءٍ مِنْ عَمَلِيَ الْقَبِيحِ بِالْحَسَنِ مُبَدِّلاً غَيْرَكَ
لاَ إِلَهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ وَ بِحَمْدِكَ ظَلَمْتُ نَفْسِي وَ تَجَرَّأْتُ بِجَهْلِي
وَ سَكَنْتُ إِلَى قَدِيمِ ذِكْرِكَ لِي وَ مَنِّكَ عَلَيَ
اللَّهُمَّ مَوْلاَيَ كَمْ مِنْ قَبِيحٍ سَتَرْتَهُ
وَ كَمْ مِنْ فَادِحٍ مِنَ الْبَلاَءِ أَقَلْتَهُ (أَمَلْتَهُ) وَ كَمْ مِنْ عِثَارٍ وَقَيْتَهُ
وَ كَمْ مِنْ مَكْرُوهٍ دَفَعْتَهُ وَ كَمْ مِنْ ثَنَاءٍ جَمِيلٍ لَسْتُ أَهْلاً لَهُ نَشَرْتَهُ
اللَّهُمَّ عَظُمَ بَلاَئِي وَ أَفْرَطَ بِي سُوءُ حَالِي وَ قَصُرَتْ (قَصَّرَتْ) بِي أَعْمَالِي
وَ قَعَدَتْ بِي أَغْلاَلِي وَ حَبَسَنِي عَنْ نَفْعِي بُعْدُ أَمَلِي (آمَالِي(
وَ خَدَعَتْنِي الدُّنْيَا بِغُرُورِهَا وَ نَفْسِي بِجِنَايَتِهَا (بِخِيَانَتِهَا) وَ مِطَالِي
يَا سَيِّدِي فَأَسْأَلُكَ بِعِزَّتِكَ أَنْ لاَ يَحْجُبَ عَنْكَ دُعَائِي سُوءُ عَمَلِي وَ فِعَالِي
وَ لاَ تَفْضَحْنِي بِخَفِيِّ مَا اطَّلَعْتَ عَلَيْهِ مِنْ سِرِّي وَ لاَ تُعَاجِلْنِي بِالْعُقُوبَةِ عَلَى مَا عَمِلْتُهُ فِي خَلَوَاتِي
مِنْ سُوءِ فِعْلِي وَ إِسَاءَتِي وَ دَوَامِ تَفْرِيطِي وَ جَهَالَتِي وَ كَثْرَةِ شَهَوَاتِي وَ غَفْلَتِي
وَ كُنِ اللَّهُمَّ بِعِزَّتِكَ لِي فِي كُلِّ الْأَحْوَالِ (فِي الْأَحْوَالِ كُلِّهَا) رَءُوفاً وَ عَلَيَّ فِي جَمِيعِ الْأُمُورِ عَطُوفاً
إِلَهِي وَ رَبِّي مَنْ لِي غَيْرُكَ أَسْأَلُهُ كَشْفَ ضُرِّي وَ النَّظَرَ فِي أَمْرِي
إِلَهِي وَ مَوْلاَيَ أَجْرَيْتَ عَلَيَّ حُكْماً اتَّبَعْتُ فِيهِ هَوَى نَفْسِي
وَ لَمْ أَحْتَرِسْ فِيهِ مِنْ تَزْيِينِ عَدُوِّي فَغَرَّنِي بِمَا أَهْوَى وَ أَسْعَدَهُ عَلَى ذَلِكَ الْقَضَاءُ
فَتَجَاوَزْتُ بِمَا جَرَى عَلَيَّ مِنْ ذَلِكَ بَعْضَ (مِنْ نَقْضِ) حُدُودِكَ وَ خَالَفْتُ بَعْضَ أَوَامِرِكَ
فَلَكَ الْحَمْدُ (الْحُجَّةُ) عَلَيَّ فِي جَمِيعِ ذَلِكَ وَ لاَ حُجَّةَ لِي فِيمَا جَرَى عَلَيَّ فِيهِ قَضَاؤُكَ وَ أَلْزَمَنِي حُكْمُكَ وَ بَلاَؤُكَ
وَ قَدْ أَتَيْتُكَ يَا إِلَهِي بَعْدَ تَقْصِيرِي وَ إِسْرَافِي عَلَى نَفْسِي مُعْتَذِراً نَادِماً

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t
**مُنْكَسِراً مُسْتَقِيلاً مُسْتَغْفِراً مُنِيباً مُقِرّاً مُذْعِناً مُعْتَرِفاً لاَ أَجِدُ مفرّاً مِمَّا كَانَ مِنِّي وَ لاَ مَفْزَعاً أَتَوَجَّهُ إِلَيْهِ فِي أَمْرِي**

**غَيْرَ قَبُولِكَ عُذْرِي وَ إِدْخَالِكَ إِيَّايَ فِي سَعَةِ (سَعَةٍ مِنْ) رَحْمَتِكَ**

**اللَّهُمَّ (إِلَهِي) فَاقْبَلْ عُذْرِي وَ ارْحَمْ شِدَّةَ ضُرِّي وَ فُكَّنِي مِنْ شَدِّ وَثَاقِي**

**يَا رَبِّ ارْحَمْ ضَعْفَ بَدَنِي وَ رِقَّةَ جِلْدِي وَ دِقَّةَ عَظْمِي**

**يَا مَنْ بَدَأَ خَلْقِي وَ ذِكْرِي وَ تَرْبِيَتِي وَ بِرِّي وَ تَغْذِيَتِي هَبْنِي لاِبْتِدَاءِ كَرَمِكَ وَ سَالِفِ بِرِّكَ بِي**

**يَا إِلَهِي وَ سَيِّدِي وَ رَبِّي أَ تُرَاكَ مُعَذِّبِي بِنَارِكَ بَعْدَ تَوْحِيدِكَ**

**وَ بَعْدَ مَا انْطَوَى عَلَيْهِ قَلْبِي مِنْ مَعْرِفَتِكَ**

**وَ لَهِجَ بِهِ لِسَانِي مِنْ ذِكْرِكَ وَ اعْتَقَدَهُ ضَمِيرِي مِنْ حُبِّكَ**

**وَ بَعْدَ صِدْقِ اعْتِرَافِي وَ دُعَائِي خَاضِعاً لِرُبُوبِيَّتِكَ**

**هَيْهَاتَ أَنْتَ أَكْرَمُ مِنْ أَنْ تُضَيِّعَ مَنْ رَبَّيْتَهُ أَوْ تُبْعِدَ (تُبَعِّدَ) مَنْ أَدْنَيْتَهُ**

**أَوْ تُشَرِّدَ مَنْ آوَيْتَهُ أَوْ تُسَلِّمَ إِلَى الْبَلاَءِ مَنْ كَفَيْتَهُ وَ رَحِمْتَهُ**

**وَ لَيْتَ شِعْرِي يَا سَيِّدِي وَ إِلَهِي وَ مَوْلاَيَ أَ تُسَلِّطُ النَّارَ عَلَى وُجُوهٍ خَرَّتْ لِعَظَمَتِكَ سَاجِدَةً**

**وَ عَلَى أَلْسُنٍ نَطَقَتْ بِتَوْحِيدِكَ صَادِقَةً وَ بِشُكْرِكَ مَادِحَةً**

**وَ عَلَى قُلُوبٍ اعْتَرَفَتْ بِإِلَهِيَّتِكَ مُحَقِّقَةً وَ عَلَى ضَمَائِرَ حَوَتْ مِنَ الْعِلْمِ بِكَ حَتَّى صَارَتْ خَاشِعَةً**

**وَ عَلَى جَوَارِحَ سَعَتْ إِلَى أَوْطَانِ تَعَبُّدِكَ طَائِعَةً وَ أَشَارَتْ بِاسْتِغْفَارِكَ مُذْعِنَةً**

**مَا هَكَذَا الظَّنُّ بِكَ وَ لاَ أُخْبِرْنَا بِفَضْلِكَ عَنْكَ يَا كَرِيمُ يَا رَبِ**

**وَ أَنْتَ تَعْلَمُ ضَعْفِي عَنْ قَلِيلٍ مِنْ بَلاَءِ الدُّنْيَا وَ عُقُوبَاتِهَا**

**وَ مَا يَجْرِي فِيهَا مِنَ الْمَكَارِهِ عَلَى أَهْلِهَا عَلَى أَنَّ ذَلِكَ بَلاَءٌ وَ مَكْرُوهٌ قَلِيلٌ مَكْثُهُ يَسِيرٌ بَقَاؤُهُ قَصِيرٌ مُدَّتُهُ**

**فَكَيْفَ احْتِمَالِي لِبَلاَءِ الْآخِرَةِ وَ جَلِيلِ (حُلُولِ) وُقُوعِ الْمَكَارِهِ فِيهَا**

**وَ هُوَ بَلاَءٌ تَطُولُ مُدَّتُهُ وَ يَدُومُ مَقَامُهُ وَ لاَ يُخَفَّفُ عَنْ أَهْلِهِ**

**لِأَنَّهُ لاَ يَكُونُ إِلاَّ عَنْ غَضَبِكَ وَ انْتِقَامِكَ وَ سَخَطِكَ**

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

وَ هَذَا مَا لاَ تَقُومُ لَهُ السَّمَاوَاتُ وَ الْأَرْضُ

يَا سَيِّدِي فَكَيْفَ لِي (بِي) وَ أَنَا عَبْدُكَ الضَّعِيفُ الذَّلِيلُ الْحَقِيرُ الْمِسْكِينُ الْمُسْتَكِينُ

يَا إِلَهِي وَ رَبِّي وَ سَيِّدِي وَ مَوْلاَيَ لِأَيِّ الْأُمُورِ إِلَيْكَ أَشْكُو وَ لِمَا مِنْهَا أَضِجُّ وَ أَبْكِي لِأَلِيمِ الْعَذَابِ وَ شِدَّتِهِ أَمْ لِطُولِ الْبَلاَءِ وَ مُدَّتِهِ

فَلَئِنْ صَيَّرْتَنِي لِلْعُقُوبَاتِ مَعَ أَعْدَائِكَ وَ جَمَعْتَ بَيْنِي وَ بَيْنَ أَهْلِ بَلاَئِكَ وَ فَرَّقْتَ بَيْنِي وَ بَيْنَ أَحِبَّائِكَ وَ أَوْلِيَائِكَ

فَهَبْنِي يَا إِلَهِي وَ سَيِّدِي وَ مَوْلاَيَ وَ رَبِّي صَبَرْتُ عَلَى عَذَابِكَ فَكَيْفَ أَصْبِرُ عَلَى فِرَاقِكَ

وَ هَبْنِي (يَا إِلَهِي) صَبَرْتُ عَلَى حَرِّ نَارِكَ فَكَيْفَ أَصْبِرُ عَنِ النَّظَرِ إِلَى كَرَامَتِكَ

أَمْ كَيْفَ أَسْكُنُ فِي النَّارِ وَ رَجَائِي عَفْوُكَ

فَبِعِزَّتِكَ يَا سَيِّدِي وَ مَوْلاَيَ أُقْسِمُ صَادِقاً لَئِنْ تَرَكْتَنِي نَاطِقاً لَأَضِجَّنَّ إِلَيْكَ بَيْنَ أَهْلِهَا ضَجِيجَ الْآمِلِينَ (الْآلِمِينَ(

وَ لَأَصْرُخَنَّ إِلَيْكَ صُرَاخَ الْمُسْتَصْرِخِينَ

وَ لَأَبْكِيَنَّ عَلَيْكَ بُكَاءَ الْفَاقِدِينَ وَ لَأُنَادِيَنَّكَ أَيْنَ كُنْتَ يَا وَلِيَّ الْمُؤْمِنِينَ

يَا غَايَةَ آمَالِ الْعَارِفِينَ يَا غِيَاثَ الْمُسْتَغِيثِينَ

يَا حَبِيبَ قُلُوبِ الصَّادِقِينَ وَ يَا إِلَهَ الْعَالَمِينَ

أَ فَتُرَاكَ سُبْحَانَكَ يَا إِلَهِي وَ بِحَمْدِكَ تَسْمَعُ فِيهَا صَوْتَ عَبْدٍ مُسْلِمٍ سُجِنَ (يُسْجَنُ) فِيهَا بِمُخَالَفَتِهِ

وَ ذَاقَ طَعْمَ عَذَابِهَا بِمَعْصِيَتِهِ وَ حُبِسَ بَيْنَ أَطْبَاقِهَا بِجُرْمِهِ وَ جَرِيرَتِهِ

وَ هُوَ يَضِجُّ إِلَيْكَ ضَجِيجَ مُؤَمِّلٍ لِرَحْمَتِكَ وَ يُنَادِيكَ بِلِسَانِ أَهْلِ تَوْحِيدِكَ وَ يَتَوَسَّلُ إِلَيْكَ بِرُبُوبِيَّتِكَ

يَا مَوْلاَيَ فَكَيْفَ يَبْقَى فِي الْعَذَابِ وَ هُوَ يَرْجُو مَا سَلَفَ مِنْ حِلْمِكَ

أَمْ كَيْفَ تُؤْلِمُهُ النَّارُ وَ هُوَ يَأْمُلُ فَضْلَكَ وَ رَحْمَتَكَ

أَمْ كَيْفَ يُحْرِقُهُ لَهِيبُهَا وَ أَنْتَ تَسْمَعُ صَوْتَهُ وَ تَرَى مَكَانَهُ

أَمْ كَيْفَ يَشْتَمِلُ عَلَيْهِ زَفِيرُهَا وَ أَنْتَ تَعْلَمُ ضَعْفَهُ

أَمْ كَيْفَ يَتَقَلْقَلُ بَيْنَ أَطْبَاقِهَا وَ أَنْتَ تَعْلَمُ صِدْقَهُ

أَمْ كَيْفَ تَزْجُرُهُ زَبَانِيَتُهَا وَ هُوَ يُنَادِيكَ يَا رَبَّهُ

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**أَمْ كَيْفَ يَرْجُو فَضْلَكَ فِي عِتْقِهِ مِنْهَا فَتَتْرُكُهُ (فَتَتْرُكَهُ) فِيهَا**
**هَيْهَاتَ مَا ذَلِكَ الظَّنُّ بِكَ وَ لاَ الْمَعْرُوفُ مِنْ فَضْلِكَ**
**وَ لاَ مُشْبِهٌ لِمَا عَامَلْتَ بِهِ الْمُوَحِّدِينَ مِنْ بِرِّكَ وَ إِحْسَانِكَ**
**فَبِالْيَقِينِ أَقْطَعُ لَوْ لاَ مَا حَكَمْتَ بِهِ مِنْ تَعْذِيبِ جَاحِدِيكَ وَ قَضَيْتَ بِهِ مِنْ إِخْلاَدِ مُعَانِدِيكَ**
**لَجَعَلْتَ النَّارَ كُلَّهَا بَرْداً وَ سَلاَماً**
**وَ مَا كَانَ (كَانَتْ) لِأَحَدٍ فِيهَا مَقَرّاً وَ لاَ مُقَاماً (مَقَاماً(**
**لَكِنَّكَ تَقَدَّسَتْ أَسْمَاؤُكَ أَقْسَمْتَ أَنْ تَمْلَأَهَا مِنَ الْكَافِرِينَ**
**مِنَ الْجِنَّةِ وَ النَّاسِ أَجْمَعِينَ وَ أَنْ تُخَلِّدَ فِيهَا الْمُعَانِدِينَ**
**وَ أَنْتَ جَلَّ ثَنَاؤُكَ قُلْتَ مُبْتَدِئاً وَ تَطَوَّلْتَ بِالْإِنْعَامِ مُتَكَرِّماً أَ فَمَنْ كَانَ مُؤْمِناً كَمَنْ كَانَ فَاسِقاً لاَ يَسْتَوُونَ**
**إِلَهِي وَ سَيِّدِي فَأَسْأَلُكَ بِالْقُدْرَةِ الَّتِي قَدَّرْتَهَا**
**وَ بِالْقَضِيَّةِ الَّتِي حَتَمْتَهَا وَ حَكَمْتَهَا وَ غَلَبْتَ مَنْ عَلَيْهِ أَجْرَيْتَهَا**
**أَنْ تَهَبَ لِي فِي هَذِهِ اللَّيْلَةِ وَ فِي هَذِهِ السَّاعَةِ كُلَّ جُرْمٍ أَجْرَمْتُهُ وَ كُلَّ ذَنْبٍ أَذْنَبْتُهُ**
**وَ كُلَّ قَبِيحٍ أَسْرَرْتُهُ وَ كُلَّ جَهْلٍ عَمِلْتُهُ كَتَمْتُهُ أَوْ أَعْلَنْتُهُ أَخْفَيْتُهُ أَوْ أَظْهَرْتُهُ**
**وَ كُلَّ سَيِّئَةٍ أَمَرْتَ بِإِثْبَاتِهَا الْكِرَامَ الْكَاتِبِينَ الَّذِينَ وَكَّلْتَهُمْ بِحِفْظِ مَا يَكُونُ مِنِّي**
**وَ جَعَلْتَهُمْ شُهُوداً عَلَيَّ مَعَ جَوَارِحِي وَ كُنْتَ أَنْتَ الرَّقِيبَ عَلَيَّ مِنْ وَرَائِهِمْ**
**وَ الشَّاهِدَ لِمَا خَفِيَ عَنْهُمْ وَ بِرَحْمَتِكَ أَخْفَيْتَهُ وَ بِفَضْلِكَ سَتَرْتَهُ**
**وَ أَنْ تُوَفِّرَ حَظِّي مِنْ كُلِّ خَيْرٍ أَنْزَلْتَهُ (تُنْزِلُهُ) أَوْ إِحْسَانٍ فَضَّلْتَهُ (تُفَضِّلُهُ(**
**أَوْ بِرٍّ نَشَرْتَهُ (تَنْشُرُهُ) أَوْ رِزْقٍ بَسَطْتَهُ (تَبْسُطُهُ) أَوْ ذَنْبٍ تَغْفِرُهُ أَوْ خَطَإٍ تَسْتُرُهُ يَا رَبِّ يَا رَبِّ يَا رَبِ**
**يَا إِلَهِي وَ سَيِّدِي وَ مَوْلاَيَ وَ مَالِكَ رِقِّي يَا مَنْ بِيَدِهِ نَاصِيَتِي**
**يَا عَلِيماً بِضُرِّي (بِفَقْرِي) وَ مَسْكَنَتِي يَا خَبِيراً بِفَقْرِي وَ فَاقَتِي يَا رَبِّ يَا رَبِّ يَا رَبِ**
**أَسْأَلُكَ بِحَقِّكَ وَ قُدْسِكَ وَ أَعْظَمِ صِفَاتِكَ وَ أَسْمَائِكَ**
**أَنْ تَجْعَلَ أَوْقَاتِي مِنَ (فِي) اللَّيْلِ وَ النَّهَارِ بِذِكْرِكَ مَعْمُورَةً وَ بِخِدْمَتِكَ مَوْصُولَةً وَ أَعْمَالِي عِنْدَكَ مَقْبُولَةً**
**حَتَّى تَكُونَ أَعْمَالِي وَ أَوْرَادِي (إِرَادَتِي) كُلُّهَا وِرْداً وَاحِداً وَ حَالِي فِي خِدْمَتِكَ سَرْمَداً**
**يَا سَيِّدِي يَا مَنْ عَلَيْهِ مُعَوَّلِي يَا مَنْ إِلَيْهِ شَكَوْتُ أَحْوَالِي يَا رَبِّ يَا رَبِّ يَا رَبِ**

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

قَوِّ عَلَى خِدْمَتِكَ جَوارِحِي وَ اشْدُدْ عَلَى الْعَزِيمَةِ جَوانِحِي

وَ هَبْ لِيَ الْجِدَّ فِي خَشْيَتِكَ وَ الدَّوَامَ فِي الاتِّصَالِ بِخِدْمَتِكَ

حَتَّى أَسْرَحَ إِلَيْكَ فِي مَيادِينِ السَّابِقِينَ وَ أُسْرِعَ إِلَيْكَ فِي الْبَارِزِينَ (الْمُبَادِرِينَ)

وَ أَشْتَاقَ إِلَى قُرْبِكَ فِي الْمُشْتَاقِينَ وَ أَدْنُوَ مِنْكَ دُنُوَّ الْمُخْلِصِينَ

وَ أَخَافَكَ مَخَافَةَ الْمُوقِنِينَ وَ أَجْتَمِعَ فِي جِوارِكَ مَعَ الْمُؤْمِنِينَ

اللَّهُمَّ وَ مَنْ أَرَادَنِي بِسُوءٍ فَأَرِدْهُ وَ مَنْ كَادَنِي فَكِدْهُ

وَ اجْعَلْنِي مِنْ أَحْسَنِ عَبِيدِكَ نَصِيباً عِنْدَكَ وَ أَقْرَبِهِمْ مَنْزِلَةً مِنْكَ

وَ أَخَصِّهِمْ زُلْفَةً لَدَيْكَ فَإِنَّهُ لاَ يُنَالُ ذَلِكَ إِلاَّ بِفَضْلِكَ وَ جُدْ لِي بِجُودِكَ

وَ اعْطِفْ عَلَيَّ بِمَجْدِكَ وَ احْفَظْنِي بِرَحْمَتِكَ

وَ اجْعَلْ لِسَانِي بِذِكْرِكَ لَهِجاً وَ قَلْبِي بِحُبِّكَ مُتَيَّماً

وَ مُنَّ عَلَيَّ بِحُسْنِ إِجَابَتِكَ وَ أَقِلْنِي عَثْرَتِي وَ اغْفِرْ زَلَّتِي

فَإِنَّكَ قَضَيْتَ عَلَى عِبَادِكَ بِعِبَادَتِكَ وَ أَمَرْتَهُمْ بِدُعَائِكَ وَ ضَمِنْتَ لَهُمُ الْإِجَابَةَ

فَإِلَيْكَ يَا رَبِّ نَصَبْتُ وَجْهِي وَ إِلَيْكَ يَا رَبِّ مَدَدْتُ يَدِي

فَبِعِزَّتِكَ اسْتَجِبْ لِي دُعَائِي وَ بَلِّغْنِي مُنَايَ وَ لاَ تَقْطَعْ مِنْ فَضْلِكَ رَجَائِي

وَ اكْفِنِي شَرَّ الْجِنِّ وَ الْإِنْسِ مِنْ أَعْدَائِي

يَا سَرِيعَ الرِّضَا اغْفِرْ لِمَنْ لاَ يَمْلِكُ إِلاَّ الدُّعَاءَ

فَإِنَّكَ فَعَّالٌ لِمَا تَشَاءُ يَا مَنِ اسْمُهُ دَوَاءٌ وَ ذِكْرُهُ شِفَاءٌ وَ طَاعَتُهُ غِنًى

ارْحَمْ مَنْ رَأْسُ مَالِهِ الرَّجَاءُ وَ سِلاَحُهُ الْبُكَاءُ

يَا سَابِغَ النِّعَمِ يَا دَافِعَ النِّقَمِ يَا نُورَ الْمُسْتَوْحِشِينَ فِي الظُّلَمِ يَا عَالِماً لاَ يُعَلَّمُ

صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ افْعَلْ بِي مَا أَنْتَ أَهْلُهُ

وَ صَلَّى اللَّهُ عَلَى رَسُولِهِ وَ الْأَئِمَّةِ الْمَيَامِينِ مِنْ آلِهِ (أَهْلِهِ) وَ سَلَّمَ تَسْلِيماً (كَثِيراً)

**Tərcüməsi:**

Bağışlayan və rəhmli Allahın adı ilə!

İlahi! Rəhminə görə Sənə üz tuturam. Axı, Sənin rəhmin hər şeyi əhatə edir.

Gücünə görə Sənə üz tuturam. Axı, Sənin gücünün qarşısında hər şey sarsılmışdır, hər şey xar olmuşdur, hər şey zəlil olmuşdur.

Əzəmətinə görə Sənə üz tuturam. Axı, əzəmətinlə hər şeyə qalib gəldin. Şöhrətinə görə Sənə üz tuturam. Axı, Sənin şöhrətin qarşısında heç bir şey dura bilməz.

Böyüklüyünə görə Sənə üz tuturam. Axı, Sənin böyüklüyün hər yeri bürümüşdür.

Hökmranlığına görə Sənə üz tuturam. Axı, Sənin hökmranlığın hər şeydən üstündür.

Hər şey fani olduqdan sonra baqi olan surətinə üz tuturam.

Hər şeyin əsasında olan adlarına üz tuturam. Mən Sənin nuruna üz tuturam. Axı, Sənin surətinin nuru hər şeyi işıqlandırdı.

Ey Nur!

Ey eybi olmayan müqəddəs!

Ey ilkinlərin ilkini!

Ey sonuncuların sonuncusu!

İlahi! Bağışla günahlarımı. O günahlar ki, ada ləkə gətirir.

İlahi! Bağışla günahlarımı! O günahlar bədbəxtlik, əzab-əziyyət gətirir.

İlahi! Bağışla günahlarımı. O günahlar nemətləri dəyişdirir.

İlahi! Bağışla günahlarımı. O günahlar duanın qarşısını alır.

İlahi! Bağışla günahlarımı. O günahlar bəla gətirir.

İlahi! Bağışla etdiyim hər günahı, buraxdığım hər səhvi.

İlahi! Səni yada salmaqla Sənə yaxınlaşıram, Səndən özümə şəfaət istəyirəm. Səxavətini diləyirəm ki, məni özünə tərəf gətirəsən, Sənə şükr etməyi mənə bəxş edəsən, Səni yada salmaq üçün məni ilhama gətirəsən.

İlahi! Sənə itaətkar, zəlil, qorxaq bəndə kimi yalvarıram ki, məni bağışlayıb mənə rəhm edəsən, mənim üçün ayırdığın qismətə məni razı və qane edəsən, hər yerdə məni təvazökar eləyəsən.

İlahi! Ehtiyac içində olan, çətin vaxtlarında öz diləyilə Sənə pənah gətirən və Sənə böyük ümid bəsləyən bir şəxs kimi yalvarıram. İlahi! Hökmdarlığın əzəmətlidir, yerin ucadır, tədbirin gizlindir, fərmanın aşkardır, gücün qalibdir, qüdrətin özünü göstərir, Sənin hökmündən qaçmaq mümkün deyil. İlahi! Səndən başqa günahlarımı bağışlayan, yaramaz işlərimin üstünə pərdə çəkən bir kəs, pis əməlimi yaxşı hərəkətlə əvəz edən bir şey tapmıram. Səndən başqa ilahi yoxdur. Sitayiş yalnız Sənə məxsusdur. Mən özümü zəlil etdim, nadanlığım üzündən özümü cürətli sandım. Arxayın oldum ki, Sən məni əvvəldən yad edib xatırlamısan. Buna görə mən xatircəm oldum.

İlahi! Ey mənim Mövlam, neçə çirkin işlərin üstünü örtmüsən? Neçə ağır bəladan məni uzaqlaşdırmısan? Neçə büdrəmədən məni qorumusan? Neçə xoşagəlməz əməldən məni uzaqlaşdırmısan? Layiq olmadığım neçə gözəl tərifləri mənim adıma yazmısan?

İlahi! Bəlalarım böyükdür, pis cəhətlərim çoxdur, əməllərim nöqsanlıdır, dəmir qandallar məni buxovladı, sonsuz arzularım məni yaxşı işlər-

dən saxlayıb həbs etdi, dünya azdırıcı görünüşü ilə, nəfsim isə öz cinayəti və xəyanətilə məni aldatdı.

Ey mənim Ağam! Şərəfinə and içib Səndən xahiş edirəm ki, pis əməlim və rəftarım duamın Sənə çatmasının qarşısını almasın, gizli sirlərimə bələd olduğun üçün məni rüsvay etməyəsən, xəlvətdə etdiyim pis hərəkətimə və davranışıma, həddi aşmağım, cahilliyim, şəhvətimin çoxluğu və qəflətdə olmağım davam etdiyinə görə məni cəzalandırmağa tələsməyəsən.

İlahi! Şöhrətinin xatirinə həmişə mənə qarşı rəhmli ol, bütün işlərimdə mənimlə mehriban ol.

Ey Allahım, ey Rəbbim! Səndən başqa kimim var ki, ziyanlarımı ləğv etməyi və işimə göz qoymağı ondan istəyim?

Ey Allahım, ey Mövlam! Sən mənim üçün hökm verdin, mən isə bu hökmlə nəfsimin əsiri olmaq yolunu tutdum, özümü düşmənimin vəsvəsəsindən qorumadım. O da məni istədiyi kimi aldatdı. Qəzavü qədər bu işdə ona kömək etdi. Və mənimlə baş verən hadisələrlə Sənin qoyduğun bir sıra sərhədləri aşdım, bir sıra işlərinə qarşı çıxdım. Bütün bu hallarda Sənə şükr etməliyəm.

Sənin hökmünlə mənim başıma gələnlər üçün heç bir dəlilim yoxdur. Sənin hökmün və bəlaların mənim boynuma qoyulub.

Ey Allahım! Təqsirim olduğu üçün və nəfsimə çox ziyan vurduğuma görə Sənin dərgahına gəlmişəm ki, peşiman, qəlbi qırılmış, günahlarının bağışlanmasını tələb edən, günahdan qayıdan, günahlarını boynuna alan, təsdiq və etiraf edən bir insan kimi Səndən üzr istəyəm. Törətdiyim işlərdən yaxa qurtarmağa nə bir pənahım var, nə sığınmağa bir yerim. Üzrümü qəbul etməkdən və məni geniş mərhəmətinin altına almağından başqa bir çıxış yolu yoxdur.

İlahi! Üzrümü qəbul et! Düşdüyüm çətin vəziyyətə görə rəhm et! Məni günahlarımın dolaşıq düyünlərindən xilas et!

Ey Rəbbim! Bədənimin zəifliyinə, dərimin incəliyinə, sümüyümün nazikliyinə görə mənə rəhmin gəlsin.

Ey məni yaradan, məni unutmayıb tərbiyə edən, mənə yaxşılıq edib məni qidalandıran! Başlanğıcda olan mərhəmətin xatirinə, mənə etdiyin keçmiş yaxşılığın xatirinə bağışla məni!

Ey mənim Allahım, ey mənim Ağam, ey mənim Rəbbim! Görəsən, Sənin cəhənnəm odunda əzab çəkməliyəmmi? Axı, Sənin birliyini qəbul etmişəm. Axı, Sənin mərifət nurun qəlbimi bu vəhdətlə tam bürüdükdən sonra dilimdə həmişə Sənin zikrin olmuşdur. Axı, könlüm sənə olan məhəbbətinə görə Sənin birliyinə inanmışdır.

Axı günahlarımı etiraf edib Sənin böyüklüyünə acizanə dua edirəm. Bu, Sənin məqamından uzaqdır. Çünki Sən özünün tərbiyə etdiyin bir kəsi zay etməkdən, özünə yaxınlaşdırdığın bir şəxsi özündən uzaqlaş-

dırmaqdan, yaxud pənah gətirən bir nəfəri azdırmaqdan, yaxud özünün qoruduğun və rəhm etdiyin bir adamı bəlaya salmaqdan daha kəramətlisən. Kaş, bunu biləydim.

Ey mənim Ağam, Allahım, Mövlam! Sənin əzəmətinə səcdə edən surətləri, sədaqətlə Sənin birliyindən danışan və Səni tərifləyib şükr edən dilləri, Sənin ilahiliyini həqiqətini tanıyan könülləri, Səni tərifləyib şükr edən dilləri, Səni elmlə dərk etmək istəyərək Səndən qorxan ürəkləri, günahlarını boynuna alıb Səndən bağışlanmalarını istəyən və Sənə ibadət olunan yerlərə can atan bədənin üzvlərini cəhənnəm odunda yandıracaqsanmı? Sənin haqqında güman belə deyildir. Sənin fəzilətin barədə bizə belə xəbər çatmayıb.

Ey kərəm sahibi, ey Rəbbim! Sən özün bilirsən ki, onların nəticələrinə və onlardan doğan xoşagəlməyən şeylərə dözməkdə zəifəm. Düzdür, bu bəlalar və xoşagəlməyən şeylər çox çəkmir, az qalır və qısa müddətlidir. Bəs, mən axirətin bəlalarına və onun böyük əzablarına necə dözəcəyəm? Axı, onlar elə bəlalardır ki, müddəti uzundur, çox davam edir və get-gedə yüngülləşən deyil. Çünki bu, yalnız Sənin qəzəbindən, intiqamından və acığından gəlir. Bu, elə bir əzabdır ki, ona nə göylər, nə də yer dözər.

Ey mənim Ağam! Bəs, mən nə edim? Axı, mən Sənin zəif, zəlil, həqir, yazıq və müti bir bəndənəm.

Ey mənim Allahım, Rəbbim, Ağam, Mövlam! Giriftar olduğum hansı işlərdən Sənə şikayət edim? Hansı bəlanın əzabı və şiddətindən, ya hansı bəlanın uzun çəkməyindən və müddətindən şivən qoparıb ağlayım? Məni düşmənlərimin əzabına giriftar etsən, məni bəla əhlinə qatsan, məni dostlarından və övliyalarından ayırsan, necə olar?

Ey mənim Allahım, Ağam, Mövlam, Rəbbim! Tutaq ki, əzablarına dözdüm. Bəs, Səndən ayrılmağıma necə dözüm, necə?

Ey Allahım, Ağam, Mövlam, Rəbbim! Tutaq ki, Sənin cəhənnəm odunun yandırıcı hərarətinə dözdüm. Bəs, Sənin bağışlamaq kəramətinə necə göz yumub dözüm? Ya cəhənnəm odu içində necə yaşayım? Böyüklüyünün xatirinə bağışlamağını istəyirəm.

Ey mənim Ağam və Mövlam! Sədaqətlə and içirəm ki, əgər orada məni danışmağa qoysan, Sənə üz tutub şivən qoparmaq istəyən cəhənnəm əhli arasında mütləq şivən qoparıb bərkdən qışqıracağam. Fəryad ilə nalə edənlər kimi Sənin dərgahına boylanıb hər an nalə edəcəyəm. Harada olsan, Səni çağıracağam.

Ey iman gətirənlərin dostu, ey ariflərin arzularının sonu!

Ey çarəsizlərin fəryadına çatan!

Ey doğru danışanların ürək dostu!

Ey aləmlərin Allahı!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ey mənim Allahım! Görəsən, müxalifətinə görə cəhənnəmdə həbs edilən və günahlarına görə oradakı əzabın acısını dadan bir müsəlman bəndəsinin səsini mərhəmətinin sayəsində eşidəcəksənmi? Bu bəndə özünün günahlarına və cinayətlərinə görə cəhənnəm təbəqələri arasında həbs edilmişdir. O, Sənin mərhəmətinə ümid bağlayaraq qışqırıb yalvarır, tovhid əhlinin dililə səni çağırır, Sənin böyüklük dərgahına əl uzadır.

Ey mənim Mövlam! O, bu əzab içərisində necə qalar? Axı, o, Sənin keçmiş mehribanlığını görmək istəyir. Yaxud, cəhənnəm odunda necə əzab çəkər? Axı o, Sənin fəzilətinə və rəhminə ümid bəsləyir. Yaxud cəhənnəm odunun alovlu dilləri onu necə yandırar? Axı, Sən onun səsini eşidir və yerini bilirsən. Yaxud cəhənnəm odunun qığılcımı onu necə bürüyəcək? Axı, Sən onun zəifliyini bilirsən. Yaxud o, cəhənnəmin təbəqələrində çarəsiz şəkildə necə qalsın? Axı, Sən onun sədaqətini bilirsən. Yaxud, alovun dilləri onu necə qışqırtmağa məcbur etsin? Axı, o, "Aman, ya Rəbb!" – deyə Səni çağırır. Yaxud, necə olsun ki, cəhənnəmdən azad olmağı üçün Sənin fəzilətini istəyən bir kəsi orada qoyub tərk edirsən?

Heyhat, Sənin haqqında güman belə deyil, Sənin fəzilətin belə tanınmayıb. Bu, inamlı tovhid əhli ilə yaxşılıq və lütflə etdiyin rəftara oxşamır.

Mən qəti şəkildə inanıram ki, həqiqəti inkar edənlərə əzab vermək hökmünü verməsəydin və əbədi düşmənlərinin üstündə hökmranlıq etsəydin, mütləq cəhənnəm odunun hamısını söndürüb sərinliyə və salamatlığa çevirərdin. Onda cəhənnəm heç kəsin yeri və məskəni olmazdı.

Lakin Sənin adların müqəddəsdir və and içmisən ki, oranı bütün cinlərdən və insanlardan olan kafirlərlə doldurasan, inadlı düşmənlərini cəhənnəmdə həmişəlik saxlayasan. Sən ki böyük və qüdrətlisən, əvvəldən ənamınla və kəramətinlə buyurmusan: "İman gətirən adam günahkar adam kimidirmi? Əlbəttə, bərabər deyil".

İlahi, mənim Ağam! Sənə üz tutub malik olduğun qüdrətinə qətiyyətli, amiranə və qələbə ilə icra etdiyin hökmünə and verirəm ki, etdiyim bütün pis işləri, yol verdiyim günahları, gizlində etdiyim hər bir nadanlığı, mənə sübutunu buyurduğun və bədənimin üzvləri üçün şahid təyin etdiyin əziz mələklərin yazdığı bütün pis işləri bu gecə, bu saat bağışlayasan. Tərəfimdən edilən hər bir şeyi qeyd edən şahidlərlə yanaşı, Sən özün də onların arxasından nəzərlərindən gizli qalan şeyləri görmək üçün mənə nəzarət etmisən.

Sən mərhəmətinlə onları gizli saxladın və fəzilətinlə onların üstünə pərdə çəkdin. Nazil etdiyin hər bir xeyirdən, ya üstün bildiyin yaxşılıqdan, ya yaydığın xeyirxahlıqdan, ya verdiyin ruzidən, ya bağışladığın günahdan, ya örtdüyün səhvlərdən mənim payımı artıq etməyini diləyirəm.

Ya Rəbb, ya Rəbb, ya Rəbb, İlahi, ey Ağam, Mövlam, ey mənim sahibim, ey ixtiyarım əlində olan, ey mənim yoxsulluğumdan və ehtiyaclarımdan xəbərdar olan! Ya Rəbb, ya Rəbb, ya Rəbb! Haqqının, müqəddəsliyinin, əzəmətli keyfiyyətlərinin və adlarının xatirinə Sənə üz tutub yalvarıram ki, gecəli-gündüzlü vaxtım Səni yada salmaqla keçsin, xidmətinə qovuşum, əməllərim dərgahında qəbul olsun. Yalvarıram ki, bütün işlərim və sözlərim yalnız bir söz olsun, vücudum daim Sənin xidmətində olsun.

Ey mənim Ağam, ey arxalandığım və dərgahına əhvalımdan şikayət etdiyim!

Ya Rəbb, ya Rəbb, ya Rəbb! Sənə xidmət etmək üçün bədənimin üzvlərinə güc ver, bədənimi bərkit, Sənin qorxun qarşısında mənə çalışmaq səyi bəxş et və xidmətinə çatmaq üçün mənə dəyanət ver. Qoy, yarış meydanlarında Sənə tərəf tez gələ bilim, Sənə doğru can atanlar arasında tələsim, Sənin həvəsində olanlar sırasında şövqlə Sənə yaxın düşüm, sadiq adamlar kimi Sənə yaxınlaşım, möhkəm inamlı şəxslər kimi Səndən qorxum, imanlı insanlarla birgə Sənin dərgahının astanasında dayanım.

İlahi, pisliyimi istəyən hər kəsin pisliyini istə, məni aldadanı Sən də kələyə düçar et. Səndən ayrılan bir pay kimi məni özünün ən yaxşı bəndələrindən birinə, yeri Sənə yaxın olan kəsə və Sənin dərgahında yüksək məqamına görə seçilmiş şəxsə çevir.

Həqiqətən, Sənin fəzilətin olmadan buna çatmaq olmaz. Böyüklüyün xatirinə mənə mərhəmət göstər, şöhrətinlə vurğun et, xoş cavabınla mənə minnət qoy, səhvimdən keç, yoldan büdrəyib çıxmağımı bağışla.

Axı, bəndələrinə Sənə ibadət etmək hökmü vermisən, Sənə dua etməyi onlara buyurmusan, onların duasına cavab verməyə zəmanət vermisən. Ona görə, ya Rəbb, üzümü Sənə tutmuşam.

Ya Rəbb! Əlimi Sənə tərəf uzatmışam. Səni böyüklüyünə and verirəm ki, duama cavab ver, məni arzuma çatdır, fəzilətindən ümidimi kəsmə, məni cin və insanlardan olan düşmənlərimin şərindən saxla.

Ey tez razılıq verən Allah! Duadan başqa əlində başqa bir şeyi olmayanı bağışla. Axı, Sən istədiyini edə bilirsən.

Ey adı dərman olan, zikr edilib xatırlanması şəfa olan, itaətində durmaq zənginlik olan Allah! Sərmayəsi ümid, silahı ağlamaq olan kəsə rəhm et!

Ey nemətləri bol olan, ey çətinlikləri dəf edən, ey zülmətdən qorxan ürəklərin nuru, ey heç kəsdən heç nə öyrənməmiş alim! Muhəmmədə və Muhəmmədin nəslinə salam göndər. Mənimlə özünə yaraşan tərzdə rəftar et. Allah Peyğəmbərini və onun nəslindən olan xoşbəxt imamları bəyəndi və çox alqışladı.

# XII FƏSİL

# POEMALAR

*Ya Allah, Əliyə yetir salamım,*
*Naqis görünsə də əgər kəlamım.*
*Ya Nəbi, sən eylə vüsalə çarə,*
*Yetim sevgilimə mən üzüqarə.*
*Ya Zəhra, nəzərin ayırma məndən,*
*Qoyma, bu vadidən uzaq düşüm mən.*
*Ya Həsən, Əlidir mənim istəyim,*
*Yolunda qurbandı, varsa hər nəyim.*
*Ya Hüseyn, qəsəm ol Əkbər canına,*
*Məni Həbibimin apar yanına.*
*Ya Zeynülibad, et qəbul duami,*
*Heydəri-Kərrarə yetir ricami.*
*Ya Mühəmməd Baqir, sənsən pənahım,*
*Bəlkə, lütf eyləyə quluna şahım.*
*Ya Cəfəri Sadiq, göstər inayət,*
*Yarımın damənin tutum, nəhayət.*
*Ya Museyi-Kazim, qoru bu qəlbi,*
*Eşqidir bu qəlbin bircə tələbi.*
*Ya Riza, bu qərib canimə lütf et,*
*Ərzəmlə Əlinin hüzuruna get.*
*Ya Mühəmməd Təqi, ey ismi-bakir,*
*Ruhuma qüdrət ver, Əliyə xatir.*
*Ya Əliyyün Nəqi, eylə himayət,*
*Mənimçün Əlidən istə şəfaət.*
*Ya Həsən Əsgəri, çağırram səni,*
*Əli ləşgərinə qəbul et məni.*
*Ya Sahib-əz-Zaman, Mehdiyi-Xuda,*
*Ya İmami-zində, yoluna fəda.*
*Səndən isə budur qəlbin niyyəti,*
*Yetir muradına bəşəriyyəti.*
*Qurulsun dünyada təxti-ədalət,*
*Əlini tanısın bəşər, nəhayət.*

## *ƏLİ EŞQİ*

### *Minacat*

Eşq olsun o uca Pərvərdigarə,
Bütün yaranmışa ondadır çarə.
Həmd olsun rəhimli böyük Allaha,
Şükr olsun şəfqətli ulu dərgaha.
O baqi varlığa tutub üzümü,
Sütunsuz göylərə dikib gözümü.
Sidqilə hər zaman edirəm dua,
Arzu, istəyimə eyləsin riza.
Səyyar ilhamımı şövqə gətirsin,
Dürlü kəlamları mənə yetirsin.
Söz xəzinəsindən alım mərami,
Bəzəyim eşqilə hər bir kəlami.
Sözün rənglərilə çəmənzar çəkim,
Tikanı güllərdən bir kənar çəkim.
Onun eşqilə coşsun qələmim,
Birləşsin bu yolda sevincim, qəmim.
Nitqimə Allahım versin iqtidar,
Peyğəmbər şəninə söyləyim əşar.
Künçi-təvazedə tutaraq məqam,
Əhməd ünvanına göndərim salam.
O iki dünyanın şahənşahıdır,
Bütün bəndələrin ümidgahıdır.
Ondakı rütbəyə qalxmağı üçün,
Zərrə kəmalatı yoxdu sözümün.
Fəqəd duaçıyam o məhliqayə,
Oxuram “Taha”nı ayəbəayə.
Təki məndən ola razi Peyğəmbər,
Mənə xoş vüsali ola müyəssər.
Sonra bitab düşüb qara torpağa,
Özümü dünyadan çəkib qırağa.
Tutum Əli adın, ta var nəfəsim,
Edincə ruhumu azad qəfəsim.
Üz tutub dünyadan məhşər tərəfə,
Müqəddəslər yurdu Şəhri-Nəcəfə.
Naqis sözlərimlə ona açıb dil,
Cani cananimə eyləyim təhvil.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Deyim, ey bəndələr içində Allah,
Ey Allah yanında qula dönən şah.
Sənsən möminlərə daimi rəhbər,
Sənsən aşiqlərə ən ülvi dilbər.
Dünyanı saxlayan çiyinlərindir,
Sənsən – sənsiz bu dünya heç nədir.
Qədəmin qoyduğun yer, ey ali kəs,
Səni tanıyançün olur müqəddəs.
Vay onun halına, səni bilmədi,
Adınla ehzasə sözü gəlmədi.
Hər iki aləmdə bədbəxtdir o kəs,
Şeytanə can verər aldığı nəfəs.
Ya Əli, mən sənə sadiq aşiqəm,
Sənə aşiq olan aşiqə nə qəm.
Mən də Dülaf[1] kimi sehrivə düşdüm,
Hər harda izin var, getdim görüşdüm,
Açdım Məhsətinin[2] müəmmasını.
Qəssab cavanmərdin macərasını,
Gördüm təbliğ edib Heydər[3] sözünü.
Mehmet Akif[4] yazıb hünər sözünü,
Ki, ondan söz açıb Məhəmməd Hadi[5].
Dilində vird olub Əlinin adı,
Minlərlə şairin, dərviş, məddahın.
Qümri, Qüdsi, Dəxil, Raci, Sərrafın[6],
Seyyidin, Sabirin şüarı olub.
Ənbiya, övliya vüqarı olub,
Üstəlik Qərbin də dilində əzbər,
Ən ali ad kimi çəkilib "Heydər".

Kordova, Kornikuy, Dankiri, Volter[7],
Tomas, Karlil kimi çoxdu yerbəyer.
Bəşərə Əlini ediblər meyar,
Tarixdə bu cür xeyli misal var.

---

[1] Əbu Dülaf- ərəb sərkərdəsi
[2] Məhsəti Gəncəvi
[3] Heydər- Həzrət Əlinin adlarından biri
[4] Mehmet Akif Ersoy
[5] Məhəmməd Hadi
[6] Azərbaycan şairləri
[7] Fransız alim və yazıcısı Baron Kardova, Qabriyel Dankiri, Volter, ingilis alimi Karlil, Tomas Karlayl, Kornikuy, alman alimi Marribn, filosof Mikayail Nueym və s. (bu siyahını uzatmaq da olar) – Qərbin görkəmli alim və filosofları Həzrət Əli (ə) haqda müsbət fikirlərini əsərlərində qeyd etmişlər. Bu barədə ətraflı məlumat üçün bax: Axund Hacı Soltan Hüseynqulu oğlu. "Həzrət Əli (ə) və dünya ədəbiyyatı". Bakı, 2001, səh. 213-228

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Adəmdən Xatəmə hər aqil insan,
Əlini millətə veribdir nişan.
Yer üzündə dahi, müdrik alimlər,
Əlini həq imam, rəhbər biliblər.
Odur yerlərin, göylərin ləngəri,
Xoş söz deyib haqqında düşmənləri.
Göylərdə oxuyur ismin mələklər,
Həqqinə şahiddi cümlə fələklər.
Bu gün də, sabah da zahirdi Əli,
Hər anda, hər yanda hazirdi Əli.
O Şəhdən nişandır "Lökum qalası",
Küfri məhv eləyib bəşər mövlası.
Meracda Əhmədin[1] aldı salamın,
Allah uca edib onun məqamın.
Haqqında bir şirin hekayətim var,
Yorulmuş təbimə sən ol səzavar.
Gücündən bir zərrə lütf eylə mənə,
Bir əsər yaradım sənin şəninə.
Bunu istəyirəm mən Yaradandan,
Bu böyük arzuma o versin imkan.
Ya Rəb, aç üzümə rəhmət qapısın,
Yollarım nahəmvar yollar olmasın.
Bu çətin işimdə sən ol mənə yar,
Qələmə qüdrət ver, təbə iqtidar.

* * *

Xəyalım bir bağa eylədi güzar,
Ki oxşarlığında cənnətdir ki, var.
Sərvlər qatar-qatar, hər yan gül-çiçək,
Bülbülün səsindən məst olub fələk.
Bulaqlar, çeşmələr nəğmə oxuyur,
Hava müşk qoxuyur, ənbər qoxuyur.
Güllərin başında bahar çələngi,
Hər anda dəyişir bu bağın rəngi.
Ortada mərmərdən kiçik hovuz var,
Yanında gümüşdən oturacaqlar.
Bir qonaq əyləşib əlində qələm,
Yazdığın güllərə oxuyur hər dəm.
Şair Məhvəşidir[2] bu ağ saçlı, pir,
Söziylə oxşayır gülləri bir-bir.

---

[1] Əhməd – Muhəmməd(s) adlarından biri.
[2] Məhvəşi Şirvani

Birdən göyə baxıb çökür diz üstə,
Yamyaşıl çəmənə düşür üz üstə.
Elə bil kiməsə səcdəyə gedir,
Başı ehtiramla enir-dikəlir.
“Ya Rəb, göstər mənə o müqəddəsi,
Sevindir bir dəfə bu nakam kəsi.
Aciz qələmimə göstər kəramət,
Bir beyt istəyirəm, yazım nəhayət.
Bir beyt ki, kaş, ola Əliyə layiq,
Bir beyt ki, “afərin” deyə hər aşiq.
Bilirəm, heç kiməm hüzurunda mən,
Hec kim nə söz yaza bilər Əlidən.
Onunçun istərəm şair rütbəsin,
Ki, sözüm Əliyə acıq gəlməsin.
Deməsin, o kimdir vəsf edir məni,
Getsin vəsf eyləsin çölü, çəməni.
Doğrudan da mənim çatmaz qüdrətim,
Əlini mədh edə bilsin sənətim.
Amma, ya Rəb, sənə düşmüşəm dəxil,
Təbimə qüdrət ver, olmayım xəcil.”
Mən də dinləyirəm bu minacatı,
Necə müşkil imiş şair həyatı.
Məhvəşi etdikcə səcdəsin icra,
Düşür xatirəmə bu iki misra:
“İçmişəm cami-əzəldən, olmuşam məstanə mən,
Saqeyi- kövsər Əlidir, olmuşam cananə mən.”
Eşidib bu sözü, görüb bu hali,
Vermədim özümə durmaq məcali.
Sərv ağaclarının arasıyla mən,
Keçəndə uzaqda nə gördüm həmən.
Bir çeşmə başında oturub Üryan[1],
Əlləri sudadır, gözləri giryan.
Sədaya gətirir ötən illəri;
“Ya Əli, nə xoş ki, bura düşmüşəm.
Amma yenə sıxır ürəyimi qəm,
Bir səni görməkdir arzum, muradım.
Sənsiz cənnətə də yox etiqadım,
Sən varsan, deməli, var iki aləm.
Xoşbəxtdir, kim ola könlünə həmdəm,
Bari, göstər üzün, öpüm qədəmin.

[1] Seyyid Mehdi Üryan Bakılı

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ey olan nicati bütün aləmin,
Bu ceşmə dad verməz, olsa da Kövsər,
O suyu əlinlə verməsən əgər.”
Eşitdim bunları, sevindi ürək.
Üryanın bu beyti görməkmiş, gerçək,
“Bir qulami-kəmtərəm Üryansifət yad eylərəm.
Qoyma həsrət həşrdə, ver abi-kövsər, ya Əli.”
Bir az irəlidə çay kənarında.
Tuba ağacının budaqlarında,
Bir quş oxuyarkən kəsdi nəğməsin.
Eşitdim bir kəsin odlu naləsin,
Gördüm, Vəcdi bəydir[1], hey eləyir dad.
Buyurur bu dillə o böyük ustad:
“Ya Əli, çay nədir, nədir bu Tuba.
Sənsiz heç bir şeyə dəyməz zər-ziba,
Neylirəm Tubanın kölgəliyini.
Neylirəm bu çayın şirinliyini,
Mənə zəhər dadır Tuba meyvəsi,
Mənə iştah vermir cənnət süfrəsi.
Sənsiz bu təamlar olmaz mənə nuş.
Qədəmin səsiyçün hey tuturam guş,
Hüsnündür aşiqə ən böyük təam.
Mən bu gözəllikdən heç vaxt doymaram.
Görün gözlərimə, ey müşgül guşa.
Behiştin dərdi var, səndədir dəva.”
Qəribə aləmdə, qəribə istək,
Cənnətdə qəmli kəs olurmuş görmək.
Gələrkən Vəcdinin yanıqlı səsi,
Düşdü yada onun bir rübaisi.
Heyrət gördüyümə, min kərə heyrət.
Hamı həqiqətmiş, əsl həqiqət,
“Sanmun məni, cami əməlidən içərim,
Peymaneyi-feyzi-əzəlindən içərim.
Rəşk eyləməsinlərmi mənə əhli-cinan.
Mən gövsəri həp dəsti-Əlidən içərim”.
Bir az da seyr etdim o laləzari,
Bir taxta rast oldum, göldü kənari.
Hər cürə su quşu üzür bu göldə,
Günahdır vəsf etmək bu hüsni dildə.
Sözdə imkan hanı, ki ola vəssaf,
Söz bu şəffaflığca deyildi şəffaf,

---

[1] Vəcdi bəy Rumi

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

İdraka sığmayan bir gözəlin var,
Hər cürə eyibdən, nöqsandan kənar.
Sahildə Məkuki[1] oturub qəmnak,
Eyləyib qüssəylə sinəsini çak,
Baxır gölə sarı qəmli göziylə,
Nəsə pıçıldaşır özü-özüylə.
“Ya əmirəlmöminin, dadıma yet,
Bu sükut sədalı fəryadıma yet.
Sən söylə, hardasan, qaçıb gələrəm,
Quşdan qanad alıb uçub gələrəm.
Bir dəfə damənin öpmək üçün mən,
Düzəxə düşməyə hazıram həmən.
Səni tanımayan zalimə lənət,
Nöqtəvi bilmiyən alimə lənət.
Lənət o kəsə ki, qədrivi bilməz,
Adıvın önündə səcdəyə gəlməz.
Allahın bəşərə rəhmətisən sən,
Qurani-Kərimin ziynətisən sən.”
Mən də səcdədəydim, alnım torpaqda,
Qəribə bir aləm vardı bu bağda.
Məkuki sözünün sehrindəydim,
Sanki bir məhəbbət bəhrindəydim.
Bir beyt Məkukidən gətirdim yada,
Beyt ki, ondan qalıb nişan dünyada:
“Nə bir pərva, nə əndişə çəkər Məkuki düşməndən,
Əliyyə-aliyü əla kimi alicənabım var.”
Yenə düşüncələr içərisində mən,
Gəzərkən bir qəsrə rast oldum birdən.
Qəsrin hücrəsində çox uca yerdə,
Bir şair batmışdı kədərə, dərdə.
Zəbih Gəncəviydi[2] bu böyük ustad,
Qüssəyə düşmüşdü qüssədən azad.
Sanki tutiya tək bu sahib-kəlam,
Yolları gözünə çəkirdi müdam.
Üz tutub aləmin Yaradanına,
Mehribanların ən mehribanına.
Deyirdi: “Ey eşqi dünyayə bais,
Ey nuri münbəsiz, ey zati xalis.
Naşükür deyiləm, fəqət ey Allah,
Bir arzuya düşür könlüm gahi-gah.

---

[1] Məkuki
[2] Ağa İsmayıl Zəbih Gəncəvi

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Səndən istəyirəm mən Həbibimi,
Eşq bimariyəm, ver təbibimi.
Əlinin nurundan nur sal üzümə,
Ta görünsün onun özü gözümə.
Bir dəfə gəlmişdi mən can verəndə,
Onu qəbr içində görmüşdüm bir də.
Vüsal görmüş kəsə ağırdı hicran,
Məni vəslə yetir, böyük Yaradan."
Dinləyib bu şirin arzu, diləyi,
Kim olsa, dayanıb durar ürəyi.
Məni öz-özümdən ayırdı bu kəs,
Donub dayanmışdım, almırdım nəfəs.
Zəbihin bir şeiri yadıma düşdü,
O mübtəla aşiq belə demişdi:
"Görmədim bu ruzigar əhlində sidqü səfa,
Gördüm onları təmamən bidəyanət, bivəfa.
Bir yalan sözdür, adın qoymuş rəfiqü aşina,
Yox Əli, ali-Əlidən qeyri özgə rəhnuma.
Özgə bir ümmid yox, bir özgə canan istəməz, "
Bir az aralıqda bir otaq vardı,
Nurdan şölələnib sanki yanırdı.
Açıq qapısından göründü biri,
Üzündən min illik hicran əsiri.
Iri gözlərində sönük bir sevinc,
Qəlbi bərk-bərk vurur, otursa da dinc.
Sanki baş əyirmiş kimi taleyə,
Əyilir günəş tək pak döşəməyə.
Ən nəcib sözləri edərək icad,
Gözəgörünməzdən istəyir murad:
"Ya Rəb, cənnət deyil Əlisiz cənnət,
Əlinin özüdür cənnətim, əlbət.
Heyhat, bu ölümlər, bu sonsuz həyat.
Əlinin eşqidir, odur kainat.
Əlisiz yaşanan ömür nə ömür,
Əlisiz bir canlı sağkən ölüdür.
O alicənabın etdim xəyalın,
Cənnət yox, istərəm onun vüsalın."
İlahi, Caviddir[1] bu səs sahibi,
Ən incə, ən nəfis həvəs sahibi.
Könüllər rübabın dilləndirən kəs,
Şeirilə eyləyən dünyanı məhbəs.

---

[1] Hüseyn Cavid

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Dustaq ürəklərə azadlıq verən,
Hürrün çəmənindən qızılgül dərən.
Həmən o Cavid ki, Əli diliylə,
Öz "Peyğəmbər"[1]ində deyirdi belə:
"Əvət, göstərir hər səda,
Hər hərəkət onu daim.
Bir şey görmədim ki, onda
Tanrını görmüş olmayım."
Mən bu düşüncədə çırpınır ikən,
Cənnətin siması dəyişdi birdən.
Dörd tərəfdən çıxdı parlaq günəşlər,
Hər biri günəşin asiman qədər,
Nurun qüvvəsindən tutuldu gözüm,
Şüanın odundan alışdı üzüm.
Hər günəş çevrildi şeirə, sözə,
Səma od tökürdü söz düzə-düzə.
Dörd tərəf, dörd yazı, tapınca imkan,
Oxudum onları mən heyran-heyran.
Birinci günəşdə tapmışdı ziba,
Dahi Nizamidən[2] bu iki misra:
"Qeybdən səs gələr qiyamət günü,
Düldülü minən şah verər nəcatı."
Ikinci günəşdə şair Nəsimi, [3]
Bu beytlə parladı Nizami kimi:
"Mənim canimdə cananım Əlidir,
Tənimdə zati-sübhanım Əlidir."
Üçüncü günəş də tanınmış məna,
Mürşid Xətaidən[4] bu ali parça:
"On səkkiz min aləmin oldi imami Müstəfa,
Verdi Quran ilə kövneynə nizami Müstəfa.
Dinləgil sidq ilə kim, budur kəlami-Müstəfa,
Kim Əlinin Zülfiqari, şah İsmayıldır."
Dördüncü günəşdə eylər təmami,
Böyük Füzulinin[5] incə kəlami:
"Nədir dünyavü üqba birizayi-Mürtəza, billah,
Nə ol baqi gərək sidq əhlinə mütləq, nə bu fani."
Dörd günəş birləşib bir günəş oldu,
Bu nur vəhdətindən bir nur doğuldu.

[1] Hüseyn Cavid, "Peyğəmbər".– Hüseyn Cavid, "Əsərləri", 3-cü cild, Bakı, 1984, səh.41
[2] Nizami Gəncəvi
[3] İmadəddin Nəsimi
[4] Şah İsmayıl Xətai
[5] Məhəmməd Füzuli

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Nur səma üzündə olaraq səhman,
Yazdı qüdrət əli sureyi - "İnsan."[1]
Cənnətdə göründü Əli məqamı,
Cənnətdə olduğun anladı hamı.
Əlinin imzası olmasa hərgah,
Behişti heç kimə göstərməz Allah.
Hər kim Əli vəsfin etsə, nəhayət,
Sözü bahasınca alacaq qiymət.
Əli eşqi ilə, yaşayan insan,
Görməz o dünyada atəşi-niran.
Fəqət, bir cənnətdə deyildir Əli,
Hər yerdə məqamın saxlar o Vəli.
Necə ki dünyanın hər nöqtəsində
Əlinin nişanı vardır, əslində.
Hər mümkün aləmdə, yerdə, səmadə.
O dünya, bu dünya, ruzi-cəzadə.
Yerlərin ən gizli dəfinəsində,
Coşqun dəryaların səfinəsində.
Ən hündür zirvədə, ən dərin yerdə,
Hər bir qərinədə, hər bir əsrdə.
Hər aşiq könlündə, sevən ürəkdə,
Torpaqda, havada, suda, küləkdə.
Yeddi qat səmada, altı tərəfdə,
Hayana əzm etsən, odur hədəfdə.
"Məzari-şərif"-də bir məqamı var,
Həm onu Samaqan, Hülümdə axtar.
Gah bir məqami "Bəndi-Əmir" də,
Zülfüqar keçidi üstəlik bir də.
Həm Zülfüqar gölü, bəndi Pudina,
Nə Ciddəvü Hira nə Turi-Sina.
Nə bəndi-Zülfüqar, nə bəndi-Pendir,
Əlinin məqamı nə bir, nə mindir.
İraq, Ərəbistan, İran, Hindistan,
Rum eli, Türkiyə, Azərbaycan.
Məğribdən Məşriqə cümleyi-cahan,
Onun ayağını öpür hər zaman.
Amma bu yerlərin şahıdır Nəcəf, [2]
Hər tərəf boylanır Nəcəfə tərəf.
Ya Rəb, Əli eşqi qəlbimdə qaynar,
O ad çəkilincə varlığım oynar.

[1] Qurani-Kərim, "İnsan" surəsi
[2] Həzrət Əlinin (ə) məqbərəsi olan şəhər

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

O bağda yeri yox Əlisizlərin,
Ora həsrət qoyma aşiq gözlərin.
Ya Allah, Əliyə yetir salamım,
Naqis görünsə də əgər kəlamım.
Ya Nəbi, sən eylə vüsalə çarə,
Yetim sevgilimə mən üzüqarə.
Ya Zəhra, nəzərin ayırma məndən,
Qoyma, bu vadidən uzaq düşüm mən.
Ya Həsən, Əlidir mənim istəyim,
Yolunda qurbandı, varsa hər nəyim.
Ya Hüseyn, qəsəm ol Əkbər canına,
Məni Həbibimin apar yanına.
Ya Zeynülibad, et qəbul duami,
Heydəri-Kərrarə yetir ricami.
Ya Mühəmməd Baqir, sənsən pənahım,
Bəlkə, lütf eyləyə quluna şahım.
Ya Cəfəri Sadiq, göstər inayət,
Yarımın damənin tutum, nəhayət.
Ya Museyi-Kazim, qoru bu qəlbi,
Eşqidir bu qəlbin bircə tələbi.
Ya Riza, bu qərib canimə lütf et,
Ərzəmlə Əlinin hüzuruna get.
Ya Mühəmməd Təqi, ey ismi-bakir,
Ruhuma qüdrət ver, Əliyə xatir.
Ya Əliyyün Nəqi, eylə himayət,
Mənimçün Əlidən istə şəfaət.
Ya Həsən Əsgəri, çağırram səni,
Əli ləşgərinə qəbul et məni.
Ya Sahib-əz-Zaman, Mehdiyi-Xuda,
Ya İmami-zində, yoluna fəda.
Səndən isə budur qəlbin niyyəti,
Yetir muradına bəşəriyyəti.
Qurulsun dünyada təxti-ədalət,
Əlini tanısın bəşər, nəhayət.
Ya Əli, nitqim yox ki, edim xitabi,
Hansı söz vəsf etsin sən tək cənabi.
Bilmirəm, mənzilim hara olacaq,
İstəyim bir səni görməkdi ancaq.
Bu dünyada ali tək səni bildim,
Səninçün yaşadım, səninçün öldüm.
Yenə ömür versə Həqq mənə əgər,
Səninçün yaşayıb ölməyə dəyər.

## *POEMA*

“Bismillah” deyərək götürüb qələm,
Sənə əl açıram, qibleyi-Aləm.
Sənsən bu dünyanın şahı, sərdarı,
Gözündən kənarda qalmaz bir darı.
Altı gün ərzində dünyanı qurdun,
Hər yola, yamaca bir naxış vurdun.
Bircə an nəzərin çəkilsə əgər,
Bəşər od içində şam tək əriyər.
Sənin adın ilə başlanan hər iş,
Xudam, dərgahından tapar nəvaziş.
Məsləhət bilməsən, sular da axmaz,
Ay göydə tutular, gün yerə baxmaz.
Sənin dərgahına üz çevirmişəm,
Sənə yalvarmaqdır sənətim, peşəm.
Cəmi xəzinələr dərgahındadır,
İstədiyin bundan bir damcı dadir.
Mənə də bir damcı əta et, ağam,
Səcdəndə olaram, nə qədər sağam.
Boynuma çox ağır yük götürmüşəm,
Çün sənə ümidəm, tək götürmüşəm.
Çox müşkil bir işdən yapışsam da mən,
Sənə arxayınam, qəmgin deyiləm.
Sənin rizan ilə duman çəkilər,
Yoluma ətirli güllər əkilər.
“Ya Allah”, “Muhəmməd”, “Ya Əli” deyib
Ey Rəbbim, işimdə olmasın eyib.
“La iləllah”, − deyib işə başladım,
“Əuz billəh” − deyib şəri daşladım.
Sinəmə ilham ver, ey qadir Xuda,
Ya gündüzlər olsun, ya da yuxuda.
Əhli-beyt eşqiylə yaradım, yazım,
Qalmasın gözümdə arzum, murazım.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sənin izninlədür, ver mənə nicat,
Ey dünya ağası, ey ali ustad!
Butun yaranışdan ucasan, uca,
Bəşər heyran qalıb qurduğun taca.
Heçdən on səkkiz min aləm yaratdın,
Cəmi altı gündə murada çatdın.
Dəryalar yaratdın dibi olmayan,
Dağları onlara yaratdın həyan.
Qorxudan kainat titrədi, əsdi,
Dağlar yerə girdi, titrəmə kəsdi.
Olsa yaratdığın ya çox, ya da az,
Zərrə nəzərindən kənarda qalmaz.
Cümlə yaranışın hakimisən sən,
Qurub yaratdığın bəşərə əhsən!
İzin ver, adınla başlayım sözə,
İlham ver qəlbimə, nur payla gözə.

* * *

Sənin qulluğuna necə gələrik,
Günahları necə yuyarıq, Allah?
Qoyulsa tərəzi, haqq-ədaləti
Biz necə ortaya qoyarıq, Allah?

Xəbərsiz olarıq cığırdan, izdən,
Diz taqətdən düşər, gülüşsə üzdən,
Tamam peşman olub əməlimizdən,
Çəkib bağrımızı oyarıq, Allah.

Bütün yer-göy asiman, bu məhvəri duydu,
Fatmeyi-Zəhra tək müşkü tər duydu,
Həzrət Əli duydu, Peyğəmbər duydu,
Biz səni, bəs, necə duyarıq, Allah.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## NƏT

Haqq səni dost tutdu, ya Peyğəmbərim!
Ey mənim yaqutum, əşrəfim, zərim!
Sənin xatirinə yarandı dünya,
Cəmi bəd əməldən darandı dünya.
Qətrəndən doğuldu ulduz da, ay da,
Bəşər nizam tapdı quruldu qayda.
Sənsən bu dünyada ən kamil insan,
Ali vücudunda görünməz nöqsan.
Əhli-beyt üzünə xəlq oldu xilqət,
Bunu aydın görər, kim etsə diqqət
Bu gündən nə qədər ömrüm var mənim,
Əhli-beyt xanəsi olar məskənim.
Bilirəm, zəifdir mənim ilhamım
Bad əsib üzümə, qaralsa şamım,
Yenə də o yola çıraq tutam, gər,
Məramım belədür, qəti, müxtəsər.

Allah istəyindən yaratmış səni,
Çox yaxşı bilirsən, bil, Peyğəmbərim.
Əhli-beytin üçün xəlq oldu dünya
Sevil, Peyğəmbərim, gül, Peyğəmbərim.

Qəlbində ömürlük gəzdirdin məlal
Fənadan ummadın heç cahi-cəlal
Allahdan vəhy gəldi: istədiyin al!
“Məlik” yox, götürdün “qul”, Peyğəmbərim.

Peyğəmbərin dostu olan bu şair
Yazdı öz şeirini bu günə dair.
Ordaca başlayıb yazdı bu şeiri,
Dedi, yazmağımın yeridür, yeri.
Dedi, bu tarixi yazmasam, olmaz.
Yazılmayan tarix yaddaşda qalmaz.
Uca bir məqamda durdu Peyğəmbər,
Buyurdu, səsimi eşitsin ellər.
Dörd yol ayrıcında dayandı millət,
Sakit qulaq asdı ordakı xilqət.
Dedi, Mənim mövlam Allahdır, Allah!
Buna şəkk edənlər, edər çox günah.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sizin də mövlanız mən − Peyğəmbərəm,
Bunu təsdiq etmiş qibleyi-aləm.
Hər kimin mövlası olsa Peyğəmbər,
O insan yadında saxlasın əzbər:
Daha getməliyəm, çatıbdır vaxtım,
Xudadan Əliyə verilir taxtım.
Məndən sonra rəhbər Əlidir, bilin,
O, cəm kainatın ləlidir, bilin.
Ona düşmən olan mənə düşməndir,
Həm mən Peyğəmbərin bağrın didəndir.
Ona hörmət edən, dostdur mənə də,
Ona hörmətim var. Bilin, yenə də.
Üç yol bu sözləri dedi Peyğəmbər,
Buyurdu, onları saxlayın əzbər.
Sonra əl qaldırıb qadir Allaha,
Bu kürreyi-ərzi yaradan şaha.
Əli dostlarıyla, dedi, qardaş ol.
Ya Rəbbim, onlara sən də sirdaş ol.
Ona dərd verənə dərd ver, ey Xuda.
Onu müsibətdən eyləmə cüda.
Haq da qəbul edib bu məsləhəti,
Dedi, ya Muhamməd, sözümdür qəti
Ən istəkli kəsim Əlidür mənim,
Əlinin seyridür güllü çəmənim.
Yüz iyirmi dörd min nəbidən bəri,
Hətta lap oların ağası, piri
Ali-Məhəmməd tək ustad sənətkar
Allahın evində doğulmamışlar.
Allahın evində doğulan bir kəs
Peyğəmbərdən uzaq dayana bilməz.
İzin ver, ya Rəsul, gedim o taya,
Əli seyranını çıxım seyrana.

Məni qeyri-seyrangaha aparma,
Əli seyri cəm seyrandan baş imiş.
Hüseyn matəminə yaş tökməyənin
Axirətdə gözü qanlı yaş imiş.
Qüdrətin hökmüylə açılmaq, solmaq,
Kükrəmək, çağlamaq, boşalmaq, dolmaq,
Bir an Həzrət Əli qonağı olmaq,
Yaşamağın min ilindən xoş imiş.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Dərdsiz olan bir an dərdə dalmadı,
Əqli olan dünya malın almadı,
Bir cahan ki o Həzrətə qalmadı,
Onda bildim, fani dünya boş imiş.

Əli gülşənini sevməyən bir kəs
Peyğəmbər ruhuna qovuşa bilməz.
Əliylə ucalır dində hər qala,
Əlisiz nə Məkkə, nə də Kərbəla.
Namazda üzüyün sailə verən
Əlidən savayı kim olar görən.
Aciz ilhamıma, gəl, vermə qərar,
Alimlər yanında nadanlar sınar.
Zəif sözlərimi bağışla, ustad,
Bu zəlil qulunu özün eylə şad.
İzin ver, bağını seyrana çıxım,
Ordan sinəm üstə incilər yığım.
Əli başındadır dünyanın tacı,
Onu sevməyənlər qəmlər möhtacı.
Əlini sevməyən görməz cənnəti,
Ən adi bir işi düzəlməz qəti.

Özündən böyüyə hörmət etməyən
Özündən kiçikdən hörmət görəmməz.
Ata duasını almayan övlad
Haqqın dərgahından sərvət görəmməz.

Deyim bir mətləbi, bilin aşikar,
Bizi axirətdə yandırmamış nar,
Rəbbim qüdrətindən yaranan kim var,
Haqdan zərrə işi xəlvət görəmməz.

Bilin, aqil ağa rəhm edər qula,
Verər sərvətindən aca, yoxsula.
Yüz il oruc tuta, həm namaz qıla,
Əlini sevməyən cənnət görəmməz.

Əlidür bu yerin, göyün ləngəri,
Ədalət tanınıb Əlidən bəri.
Ədaləti gəzib seçdi ustadın,
Verdi qurbanlığa on bir övladın.

Əhli-beyt ağası olan Peyğəmbər
Ona tərif demiş, eşitmiş bəşər.
“Hər kim ki Əliyə etsə itaət,
O, mənə itaət elyəyir, əlbət.
Əli bədənimin başıdır, başı,
Belə işlətmişdir Rəbbim nəqqaşı.
Səni qardaş verdi mənə yaradan
Məni sən qurtardın çox məcaradan.
Sən mənə, mən sənə əzizik, əziz.
Bu məzlum ümmətin atasıyıq biz.
Cənnət, cəhənnəmin ağasısan sən
Sənin vücudunda imana əhsən!”
Bir gün haqq soruşdu: De, ya Peyğəmbər
Kimi çox sevirsən, söylə, görüm, gər.
Buyurdu: Ya rəbbim, sən sevən kəsi,
O kəsə bağlıdır bəşər cümləsi.
Haqdan nida gəldi: Bil, ey Peyğəmbər,
Əlinin adıdır yanında əzbər.
Onunla ucalır İslam dünyası
O, sildi qəlblərdən kədəri, pası.
Kərəm, O ağamdan aldım ilhamı,
Sinəmdə ilhamın Əlidür şamı.

* * *

Allah, Məhəmməddən sonra cahanda
Soltanım, həm xanım Əlidir mənim
Lap tutsa dünyanı şöhrətim, şanım,
Şöhrətimlə şanım Əlidür mənim.

Döyüş meydanında şiri-nər olan,
Əndamı müşk, ənbər, nəfsi tər olan
Fatimeyi-Zəhraya layiq ər olan
Həm dinim, imanım, Əlidür mənim.

Körpəcə Qasimdı ən ağır yasım,
İmam Zeynalabdin son iltimasım.
Həsənim, Hüseynim, Həzrət Abbasım,
Sahib əz-Zamanım Əlidür mənim.

O çətin məqamda, müşkül əyyamda,
Qalmasın gözümdə arzu da, kam da.
Sirat körpüsündə, axır məqamda
Ən son ümidgahım Əlidür mənim.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Peyğəmbər buyurdu: Gəl, ey Əbazər,
Mənim dediyimi sən eylə əzbər
Bəşər sağa getsə, Əli də sola,
Əlinin dalınca düşərsən yola.
Əli hardadırsa, haqq da ordadı,
Odur ki, haqq ilə çağrılır adı.
Ya Allah, Məhəmməd, bir də ya Əli-
Onlardır cahanın sərvəti, ləli.
Əlini sevməyən qılsa da namaz,
Haqqın dərgahında qəbul olunmaz.
İslam yer üzünə gələndən bəri
Əlidür kürreyi-ərzin əzbəri.

Yeddi qat göydədir Əlinin adı!
Çünki Məhəmməddür onun ustadı!
Hər kim ki Əlidən alarsa muraz,
Axirət günündə peşiman olmaz.
Əliyə bağlıdır cahanda hər iş,
Onunla fəxr edir bu çərxi-gərdiş.
Əliyə bağlıdır hər olan-qalan,
Bunu aydın görür imanı olan.
Əli çiynindədür yer-göy, yeddi qat,
Bunu eşidənlər gərək qalsın mat.
Çox hədislər demiş Rəsuli-əkrəm,
Əlidə olubdur onun çoxu cəm.
Dünya tərəzidə çəkilsə əgər,
“Əlinin imanı dünyanı əyər”.
Bir elmin şəhəri Peyğəmbərsə gər,
“Əli qapısıdır onun, müxtəsər.”
Peyğəmbər Əlidə görməmiş qüsur,
Əlidür Allahdan yerə gələn nur.

Adın tək bircə an çıxmayır yaddan,
Səni haqq qorudu alovdan, oddan
Neçə yol üzü ağ çıxdın cihaddan,
Din, məslək yoluna tökdün qan, Əli.
Canım sənə fəda, Əli, can Əli.

Zülmət yolumuza oldun şəm, çıraq,
Adın gələn yerdə gərək baş yaraq,
Biz kimik ki, səndə nöqsan axtaraq,
Peyğəmbər görməyib bir nöqsan, Əli,
Canım sənə fəda, Əli, can Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ölüncə Allaha etdin ibadət,
Cəm adəm öyrəndi səndən səxavət,
Peyğəmbər bu qədər çəkməzdi zillət,
Olsayda haqq yolda müsəlman, Əli,
Canım sənə fəda, Əli, can Əli.

Yadına salmadın dövləti, varı,
Dinə qurban verdin cəm arzuları,
Tanıdıb dünyaya sən imamları,
Olmusan onlara soltan, xan, Əli,
Canım sənə fəda, Əli, can Əli.

Haqdan nur gəlməyin yazıldı baxta,
Dizlərin torpaqda, əllərin haqda,
Ən çətin məqamda, ən ağır vaxtda,
Oldun Peyğəmbərə özün kan, Əli,
Canım sənə fəda, Əli, can Əli.

Cəm bəşər övladı düşəndə dara,
Ən müşkül dərdlərə sən oldun çara,
"Ya Allah, Məhəmməd" deyəndən sonra,
Sənsən bu dünyaya soltan, xan, Əli.
Canım sənə fəda, Əli, can Əli.

Əli qoşunuyla olmuşdu süvar,
Silah, sursat idi karvan, o ki var.
Baxdı, yol üstündə qəbristanlıq var,
Salavat çevirib dayandı aşkar.
Gördü, çox sərkərdə yatıbdı burda,
Onlar zülm edibdi daim bu yurda.
Onlardan nə qədər xəzinə qalıb,
Bayquşlar üstündə qırğınlar salıb.
Onları gözəllər əyləndirərdi,
Bir an bilməzdilər qüssəni, dərdi.
Saraylar qalmışdı onlardan hazır,
İndi o sarayda özgələr gəzir.
Əli sual etdi: Hanı o günlər?
Orda sürdüyünüz toylar, düyünlər,
Sizi əyləndirən nazlı gözəllər
İndi özgələri əyləndirirlər.
Qızılla yüklənmiş dəvələr hanı?
Ağam qəfil döndü qoşuna sarı.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Dedi, yerin, göyün pərvərdigarı
Onlara bircə an həvəs versəydi,
Həyata qaytarıb nəfəs versəydi,
Onlar əl açardı qadir Allaha,
Dünyanın sərdarı o adil şaha,
Deyərdilər, Rəbbim, səhv eyləmişik,
Sanmışıq bir ömrü nəf, eyləmişik,
Nə olar nəfəs ver, ibadət edək,
Əlinin qoyduğu haqq yolla gedək!
Gecəni sübhəcən namazlar qılaq,
Gündüz oruc tutub din əhli olaq.
Karvan öz yoluna eylədi süvar,
Yolda heyfsiləndi Əli, o ki var.
Əlidən kənarda ədalət gəzmə,
Sədaqət, səxavət, ləyaqət gəzmə.
Əlidir bəşərə mizan, tərəzi,
Olsa, haqq üstündə olar qərəzi.
Əli gülşənini seyrana çıxım,
Ordan sinəm üstə incilər yığım.
Çünki o yerdədür haqnan ədalət,
Əli haqq üstündə qurub səltənət.
Ədaləti gəzən gəzsin Əlini
Alsın o ağadan gövhər ləlini.

Haqqı bu dünyada gəzənlər bilsin:
Əli − ədalətdi, ədalət − Əli.
Səxada dünyada bərabəri yox,
Əli − səxavətdi, səxavət − Əli.

Tanrının istəyi onun bəsidi,
Peyğəmbər hörməti təntənəsidi.
Həyanın yeganə nişanəsidi,
Əli − ləyaqətdi, ləyaqət − Əli.

Kim Hüseyn yasına yaş qoymayıbsa,
Yolunda daş üstə daş qoymayıbsa,
Hər kim məqamına baş qoymayıbsa,
Olacaq yanında xəcalət, Əli.

Haqsızlıq görəndə bağrını didən,
Məhəmməddən ötrü ölümə gedən,
Bütün ömrü boyu ibadət edən,
Əli − ibadətdi, ibadət − Əli.

Peyğəmbər yanında o şiri-nərdi,
Hər ötüşən anı din, İslam dərdi.
On bir övladını qurban göndərdi,
Əli − cəsarətdi, cəsarət − Əli.

Cəmi imamların əzəl başıdı,
Hüseyn matəminin qanlı yaşıdı,
Məkkə, Mədinənin qara daşıdı,
Əli − ziyarətdi, ziyarət − Əli.

Ən böyük möhnəti ün aləmində,
Çalış, kölgəsində sin aləmində,
Bunu dünya bilsin din aləmində,
Əli − imamətdi, imamət − Əli.

Qureyş tayfasından olan Fatimə,
Ziyarətə gəlir Allah evinə.
Hamıya göz ucu baxıb gizlicə
Bilmirdi, dərdini söyləsin necə.
Kəbənin evini edərkən təvaf
Əl açıb yalvardı: Ey qadir Allah,
Boynumdakı yükə bir nəzər yetir,
Məni azad eylə, xoş günə götür.
Sənə əyandır ki, zillət çəkirəm,
Əzab içindəyəm, qan-yaş tökürəm.
Əzəlki dörd uşaq olmayıb bu cür,
Nədənsə bu uşaq məni incidir.
Gəzdirə bilmirəm canımda onu,
Nə olar, bilmirəm, bu işin sonu.
Fatimə sığındı yenə Allaha
Aləmlərin rəbbi, o qibləgaha.
Bu dəm haqq evinin tamam qərbindən,
Bir dəstə hacının durduğu yerdən
Kəbənin divarı yarıldı qəfil,
Qadına səs gəldi, sanki naqəfil:
Ey salehə qadın, gəl, keç içəri,
Qorxma üstündədir haqqın nəzəri.
Daxil oldu evə həmin, o qadın
Necə eşitməsin nökər ustadın?!
Kənardan baxanlar nəzər saldılar,
Baxıb, möcüzəyə heyran qaldılar:

“Tarixdə olmamış belə möcüzə,
Yaradan, nə sirdir, göstərir bizə?” –
Deyərək yenə də heyran qaldılar,
Xeyli o divara nəzər saldılar.
Üç gündən sonra da yarıldı divar,
Uşaq qucağında həmin o dildar
Sevincək üz tutdu evinə sarı,
Sanki gül açmışdı cəm arzuları.
Uşağın sifəti ay tək yanırdı,
Bunu aqil olan baxıb qanırdı.
Aydınlığa gəldi qohum-qonşular
Təbrik elədilər onu, o ki var.
Dedilər: Allahdan olan nəvaziş
Qureyş tayfasına oldu bəxşeyiş.
Məhəmməd də burda idi həmin dəm,
Sanki vəhy göndərdi qibleyi-Aləm,
Baxan tək uşağa vuruldu candan,
İlikdən, sümükdən, damardan, qandan.
Alıb qucağına, gəzdirdi o an,
O andan onunla oldu mehriban
Uşağa bir deyil, cüt ad verdilər:
Biri Əli oldu, o biri-Heydər.
Əli böyüyürdü bu cür dəmadəm,
Ona ruh verirdi qibleyi-Aləm.

Məkkədə qıtlığı hamı görürdü,
Qıtlıq insanlara əzab verirdi.
Beş uşağı vardı Əbu Talibin,
Saxlaya bilmirdi onları, yəqin.
Əmim saxlayammır, çoxdur uşaqlar,
Təkcə bir uşağın yüz qayğısı var.
Əbu Talib evi çəkirdi zillət.
Bunu gözləriylə görən Məhəmməd
Gedib əmilərə belə söylədi:
“Hərəniz bir uşaq götürün” − dedi.
Köməyə yetişib Həmzəylə Abbas
Hərəsi bir uşaq etdi iltimas.
Bibisi Halə də özün yetirdi,
O da əmilər tək uşaq götürdü.
Əbu Talib özü Əqili seçdi,
Əli də Məhəmməd evinə köçdü.
Əli Məhəmmədlə olurdu qoşa,
Nə ki əhvalı var onun, birbaşa.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əlinin canına hopurdu təmiz,
Necə ki çayları qucaqlar dəniz.
Əli diqqət verir onun işinə,
İnsanlara olan nəvazişinə.
Peyğəmbərdə olan ali ədəblər
İşləyirdi onun qanına qədər.
Rəsul Xədicəylə namaz qılarkən
Buyurdu: "Ya Əli, namazı öyrən."
Əlinin on yaşı var idi onda,
Onlarla bir yerdə namaz qılanda.
Peyğəmbərlə Əli, bir də Xədicə,
Üç il namaz qıldı onlar gizlicə.
Gecəli-gündüzlü namaz qıldılar,
Haqqın dərgahında salim durdular.
Tək üçü Məkkəni edərək təvaf,
Ümmətin yerinə yığdılar savab.
Kənardan baxaraq bəzi insanlar,
Deyəsən, onlara yaxınlaşırlar....
Dolurdu qəlblərə Allahın fəhmi,
Kimə xeyirxahlıq, kiminə rəhmi.
Bu dəm vəhy göndərdi qadir Yaradan:
Onların qəlbini qurtar qaradan,
Çəkinmə, ümmətə açıq söylə sən,
Sən haqdan onlara Rəsul gəlmisən.
Bunu bilməliydi bəşər evladı,
Dünyada onların kimdir ustadı.
Bunun üçün hamı cəm olmalıydı,
Elə cəm olmanın məramı buydu.
Əli əmr eylədi, qonaqlıq üçün
Cəm Haşim buraya yığışsın bütün.
Peyğəmbər evinə gəldi qonaqlar,
Gələn qonaqlıqda yedi, o ki var.
Məhəmməd istədi başlasın sözə,
Əbu Ləhəb qəfil edərək məzə,
Dedi: "Bu sehrikar aldadır bizi,
Caduyla çaşdırır hər birimizi."
Qonaqlar bu sözə gülüb getdilər
Bu sözü tam doğru bilib getdilər.
İkinci günü də qonaqlıq oldu,
Əbu Ləhəb yenə boşaldı, doldu.
Məhəmməd bu dəfə verməyib macal
Dedi: "Haqq buyurur, xalqı başa sal!

Söylə, sizə haqdan mənəm Peyğəmbər.
Eşidib bu sözü, qoy, bilsin bəşər.
Mənə biət edən gəlsin İslama,
Necə pərvanələr yığışar şama."
Əlidən savayı dinmədi bir kəs,
Hansı qəlbdə olar belə bir həvəs.
Söylədi: "Ya Rəsul, haqdı sənə yar
Və mənim canımda nə qədər can var,
Sənə köməkdaram gecəbəgündüz,
Mən haqqın yolunda qoymalıyam iz."
Eşq olsun ağamı sevən kəslərə,
O arxa sayılır kimsəsizlərə.
Peyğəmbər onunla gördü çox işi,
Ona arxalandı arxalı kişi.
Dedi: "Yaradanım veribdir qərar,
Sənin arxandayam əldə Zülfüqar."
Ədalət yolunu tutanda Əli,
Duyurdu bu böyük müsibətləri,
Bilirdi qarşıda olan qanları;
Yezid, Muaviyə, o Süfyanları.
Şeytana qul olan çox ağlı dayaz,
Dünya varı üçün sakit dayanmaz.
Qureyş tayfasından olan min nəfər
Rəsul ordusuna hücum etdilər.
Həmin, o tayfadan olan üç rəqib.
Vuruşmaqdan ötrü cəsur istədi.
Əli iki şəxslə irəli durdu,
Düşmənə çox ağır zərbələr vurdu.
Bədr döyüşündə uduzan düşmən
Ühüd döyüşünə çox atırdı can.

İndi Məkkəlilər olaraq əlbir
Dedilər: "Bu işə tökəyin tədbir,
Qureyş tayfasın da gətirib ələ
Ki, ağır zərbələr vuraq düşmənə."
Bu dəm göy üzündən olaraq nazil
Bunu Peyğəmbərə dedi Cəbrail.
Peyğəmbər qoşunu Ühüdə yığdı,
Artıq niyyət birdi, məna açıqdı.
Düşmən ağır güclə hücuma keçdi,
Peyğəmbər də dağın ətəyin seçdi.
Orduda çox ağır gedirdi vuruş,
Buna da çox insan etməyib duruş,

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ənsar, mühacirlər geri döndülər,
Rəsulun öldüyün xəbər verdilər.
Guya Peyğəmbərlə onun əshabı
Vuruş meydanında etməyib tabı,
Bu fani dünyadan köç eyləyiblər,
Mənalı bir ömrü heç eyləyiblər.
Bu dəm göy üzündən bir bəla gəldi,
Onların başçısı qəfildən öldü.
Çün yalan demişdi onlar bu sözü,
Yalan danışanın oyular gözü.
Tamam hər tərəfdə döyüş gedirdi,
Həzrət düşmənləri həlak edirdi.
Rəsulun ordusu çox az qalmışdı,
Əli yetmişdən çox yara almışdı.
Həzrət Peyğəmbəri tənha qoymadı,
Odur ki, haqq ilə çəkilir adı.
Ühüddə çox itki versə də düşman,
Yenə əl çəkmirdi intiqamından.
Ərəb tayfaları Qureyşlər ilə
Yenə də ayrıdan verib əl-ələ,
Bir ordu şəklində birləşib onlar
Yeni bir döyüşə hazırlaşdılar.
Peyğəmbər onları sülhə çağırdı,
Onlar hədə edib bir-bir bağırdı.
Bir xəndək qazdırıb Peyğəmbər bu dəm
Dedi: "Biz çox azıq, qırmasın düşmən."
Onların Əmr tək pəhləvanları
Yamanca arxayın salmış onları;
Kənardan Rəsulu hədələyirdi:
"Mənimlə vuruşa gəlsin", − deyirdi.
Yaman güclü idi düşman ordusu,
Çoxların tutmuşdu canın qorxusu.
Yenə Həzrət Əli keçib irəli,
"Ya Rəsul, vuruşa, gəl, göndər məni",
Deyərək başına qoydu papağı,
Elə bil göründü ayın qabağı.
Verərək qılıncı Rəsuli-Əkrəm,
Əlin kürəyinə çəkərək o dəm
Əliyə vuruşda uğur dilədi:
"Qorxma, Yaradandan yazı belədi".
Həzrət cəsur kimi vuruşa keçdi,
Haqqın rizasıyla bir məqam seçdi.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ora Mədinədən gələn qadınlar
Əlinin halına ağlayırdılar.
Əli ildırım tək keçdi irəli,
Yenə haqq eşqiylə coşdu hünəri.
Ərəb-Əbdəbidə bir zərbə vurdu,
Bununla ordunun belini qırdı.
Onun tək bir dəfə vurduğu zərbə
Xəndək davasında son qoydu hərbə.
Həzrət göstərdiyi burdakı hünər
Sileyi-əshabın ömrünə dəyər.
Bunu mən özümdən demirəm, billah!
Ona qiymət verdi göydəki Allah.
Nə qədər ziyana düşsə də düşman,
Yenə əl çəkmirdi intiqamından.
Peyğəmbər biətin pozan nadanlar
Qırğınlar salaraq tökdürdü qanlar.
Çoxların düz yola çəksə də Həzrət,
Onlar niyyətindən dönməzdi fəqət.
Əbu Bəkr ilə bir də Ömərə,
Haqq yolda köməyə yetdi min kərə.
Təlhə və Zübeyr pozaraq əhdi,
Onlar Ayişəyə tərəf yönəldi.
Cəməl döyüşündə tökərək qanlar
Çirkin əməlinə yetişdi onlar.

Bu dünyada iki ağam var mənim:
Biri Məhəmməddür, biri Əlidür.
Məhəmməd ustaddır küllü aləmə,
Bu cümlə aləmin sirri Əlidür.

Haqq onun üstünə qayğısın çəkdi,
Odur, vuruşlarda aslan tək səkdi.
Həyada, səxada, imanda təkdi.
Çeşmələr suyundan duru Əlidür.

Əgər ki düşünə bilsəydik dərin,
Həyatı tam sirdir bu hünərvərin.
Aləmə nur salan müqəddəslərin
Ocağı Əlidür, piri Əlidür.

İslamın yolunda o, geydi qara,
Neçə məzlumlara eylədi çara,
Yəqin ki, Rəsulu-Əkrəmdən sora,
Qadirü Sübhanın nuru Əlidür.

İslam ölkəsində cüt ordu vardı,
İndi onlar daha qabaq-qanşardı.
Şam ordusu ilə Kufə ordusu,
Tamah, fəlakətdi bunun qorxusu.
Həzrət çox çalışdı olmasın vuruş,
Çünki kimsə buna etməzdi duruş.
Həzrət Maviyəni sülhə çağırdı,
Onunsa üzündən qisas yağırdı.
Nizəyə keçirdib onlar Quranı,
Qarışdırmaq üçün ancaq aranı.
Həzrət ordusuna nifaq saldılar,
Həzrətdən qisası belə aldılar.
Orduda təbliğat etsə də Həzrət,
Nifaq güclü oldu, coşdu ədavət.
Əli deyən yolla getmədi bəşər,
Odur ki dünyanı tutub böhtan-şər.
Görürsüz, hər yanı tutub talanlar,
Oğul itirənlər, yetim qalanlar,
Haqsızlıq bürüyüb bütün dünyanı,
Hər yerə tökülür məzlumun qanı.
Peyğəmbər beləmi demişdi bizə?
Düşmən kəsilmişik bir-birimizə.

Dində Əli haqqın itirən bir kəs
İnancı kamına yetişə bilməz.

Ən müşkül anlarda dada yetirsən,
Dərmansan ən ağır dərdə, ya Əli!
Namərdin gözünə bıçaq olmusan,
Köməksən hər yerdə mərdə, ya Əli.

Allahımdan sonra pənahım sənsən,
Canımı sızladan son ahım sənsən.
Dünənim, bu cünüm, sabahım sənsən.
Ürəkdə “ya Əli”, sərdə “ya Əli”.

Çoxunun üzünə bağlanır bərə,
Düşür dərd əlindən o dağ, bu dərə.
Cəddin şəfa verir bimar kəslərə,
Ocaqda, ya Əli, pirdə, ya Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Haqqın yer üzündə yetkin nərisən,
Adınla bəzədin xeyri, şəri sən
Heç vaxt tək qoymadın Peyğəmbəri sən,
Çovğunda, ya Əli, qarda, ya Əli.

İlk nitqim sən oldun doğulanda da,
Külli varidatım dağılanda da,
Ümmanlar içində boğulanda da,
Arazda, ya Əli, Kürdə, ya Əli.

Ulu Yaradanın sərvəri sənsən,
Rəsulu-Əkrəmin yavəri sənsən,
Canımın, dilimin əzbəri sənsən,
Ya Allah, Məhəmməd, bir də ya Əli.

Əli bir sirridi öz Allahından,
Allah onu vermiş öz dərgahından.
Tək Yaradan bilir bu möcüz nədir,
Bəşər, billəm, desə, bil, əfsanədi.
Hər kəsin əlinə keçsə bu əsər,
Oxumaq gər ona olsa müyəssər,
Əli xatirinə dərin getməsin,
Bu sınıq qəlbimi məyus etməsin.
Dəxi, bacardığım bu idi, neynim,
Mən Əli quluyam, ondadı meylim.
Onun əlindədür ömrümün himi,
Leyli Məcnununu sevdiyi kimi.
Vallah, soyulsam da yeddi qatımdan,
Aşiqəm, bezmərəm öz ustadımdan.
Əlinin həyatın yazmaq üçün gər,
Gərək qələm alıb düşünsün bəşər.
Allahım, ilhamı sən verdin mənə,
Bunun əvəzində min şükür sənə.
Sən əgər verməsən mənə ilhamı,
Onda qaralardı könlümün şamı.
Yerdə də, göydə də, canda da sənsən,
İlikdə, sümükdə, qanda da sənsən.
Hər an, hər dəqiqə dünyada çağsan,
Hər yerdə nə yoxsa, sən orda varsan!
Allahım, adınla başlanan əsər,
Şükür, adınla da bitdi müxtəsər.
“Əli” poemasın yetirdim sona,
Varlığım, vücudum qurbandır ona.

# XIII F Ə S İ L

# BƏHRİ-TƏVİLLƏR

(uzun dərya)

***Heydəriyəm, hidayətim Heydərin əllərindədi!***
***Məcdo vüqaro izzətim Heydərin əllərindədi!***
***Qüdrətim olsa, qüdrətim Heydərin əllərindədir!***
***Şiə deyər Huviyyətim Heydərin əllərindədir!***
***Çün sənəde vilayətim Heydərin əllərindədir!***



*HACI SOLTAN HÜSEYNQULU OĞLU*

## ƏLİ (Ə) KİMDİR

### (Bəhri-Təvil)

Sordu bir şəxs, Əli kimdir, nə təbibdir, nə həkimdir ki, Xudayidir onun sidqü vəfasi, qurtaran dəm bu sual, gəldi cəvabi, necə bir möcizə baş verdi ilahi, gecədən oldu işıq selləri peyda, elədi həqqi hüveyda, dedi: "Ey bəndə, eşit, bil, Əlidir aşiqi - bimisl ki, Qurandı ona vasifü məddah, bu kitabla onu vəsf eylədi Allah, "İnnəma", "Ənfusəna", "Taha"vu "Yasin" sona yetməz edə təfsirin, əgər alim ola min, hələ "Vəttur", hələ "Vənnəcm", hələ "Vəşşəms", hələ var sureyi -"İnsan", "Qul kəfa", "ey yuhərrəsul", "La fəta", sureyi "Rəhman", hanı insanda bu imkan, bilə ki, şəni-Əlidə nə deyir məniyi-Quran, "İnnəl əbrarə yəşrəbunə min kəsin kanə mizacuha kafura"[1], deyə əmr etdi ilahi, keçilər cümlə günahi, eləsə dərk bu ayati əgər kafir olan da, hanı bir kimsə söz ilə belə tərif oluna cümlə cahanda, "Əfəmən kanə mömınən", yəni varmı Əliyə tay, Əlisiz cümlə əməl zay, bunu bir kimsə özündən deməz, əlhəq, belədir Xaliqi-yəzdan buyuran ayeyi-mütləq, belə şərh eylədi bu ayələri Əhmədi-Muxtar, axı, üstün daha kim var, edə məna bu şərafətli kəlami, özünü anlamaz heç vaxt, tanımaz kim ki İmami, Əlidir gənci-nübuvvətdə elə dürri-girami, ki ona söykənib öyrəndi peyəmbərliyi, Allahi təmami, Əlidir həqq özü, həqdir Əlinin cümlə mərami, odu bir beyti-müqəddəs ki, ona daxil olan kəs, soyunur cümlə günahin, geyinir ədl silahin, eliyir zülm ilə dəva ki, ola dəhrdə bərpa bəşərin həqqü hüququ, tapa məna bəşəriyyət ara Quran, olub hər kimsə Əlizadə aça sidqilə meydan ki, ola razi Xudasi, Əlidir çünki cahanda bəşərin rahi-hüdasi...

Bu zamanda dedi:"əhsən" yerü göylər və ağaclar və çiçəklər, cəmi quşlar və mələklər və yağışlar və küləklər, dedi bir kəlməyə "əhsən" bütün aləm, tutub üz göylərə söylər Hacı Soltan, dayanıb əmrə mühəyya: "Kömək ol, ya Əli Mövla, kömək ol, ya Əli Mövla."

---

[1] "İnsan" surəsi, 5 ayə: "Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri Behiştdə kafur qatılmış şərab içəcəklər".

## *ƏLİDİR DÖVLƏTÜ-VARIM*

### *(Bəhri-təvil)*

Əlidir dövlətü varım, Əlidir möhkəm hasarım ki, o Heydərdi, Qəzənfərdi, Müzəffərdi, Hünərvərdi, münəvvərdi günəş tək, hamı xülya oldu gerçək, Vüqarımdır, baharımdır, adı dildə şüarımdır, Əlidir cismidə canım, Əlidir şöhrətü şanım. O mənə dindir, imandır, o vücudumdakı qandır, üzüdür çün məhi-taban, gözüdür batini Quran, sözüdür ayeyi sübhan, bir adı Heydəri-Kərrar, birisi sahibi-əsrar. Əlidir leylü naharım, Əlidir səbrü-qərarım, kimə həqq verdi bu hüsnü ki, ola bədri cəmalda. Hanı bir kimsə belə əqlü kəmalda, Əli çün dəsti-Xudadur, yolu çün rahi–hudadur, adı bimarə dəvadur, nə rəvadur, onu dərk etməyə millət, axı, bu cümlə cahanə odu zinət, gələ bilməz daha dünyayə belə ali təbiət, belə xislət, belə qüdrət, belə siqlət hanı bir kəsdə bəşərdə, dayanıbdır bəşərin yetmədiyi ən uca yerdə, sayaram vəsfini bir də, o səbəbkari-cahandır, o hökümüdari-zamandır, o şahi-dinü imandır, o məhi-ovci sədaqət, o güli-baği-nübuvvət, o elə kani-səxadır, o elə bəhri-vəfadır ki, deyil mislinə uyğun, yazıla min belə məzmun, axı, kimdir Hacı Soltan, deyə tərifi onunçun, bu yəqindir ki, olubdur ona vurğun, gətirir eşqi bəyanə, eşidə əhli-zəmanə, verə zinəti kəlamə, yetişə vəsli-İmamə.

# XIV FƏSİL

# ŞEİRLƏR

*Ey olan sevgili dost Xaliqi subhanə Əli,*
*Kömək ol, nəşr eliyim mədhini hər yanə, Əli,*

*Ey Şahənşah, yazılıb babi-behiştdə ismin,*
*Bəxş edən sənsən o Firdovsi nəcibanə, Əli.*

*Doğulan mənzilin olmuşdu, yəqin Kəbə evi,*
*Bu şərəf qismət olub hansı bir insanə, Əli?*

*Nəbi ərz etdi, elm şəhri mənəm, babi Əli.*
*Yayılıbdır bu kəlam hər tərəf, hər yanə, Əli.*

*Sailə etdin əta şövqilə əngüştərivi.*
*Heyranam taətinə, etdiyin ehsanə, Əli.*

*Üç şamın ruzisini bəzl elədin əl açana.*
*Yetimə, həm fəqirə, miskinə, şahanə, Əli.*

*Ümidim tək sənədir, yoxdu mənim qeyri kəsim,*
*Lütf ilə eylə nəzər Namiqi-nalanə, Əli.*

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

*Ş.İ.XƏTAİ*

## QƏZƏL

Mənim şahim Əliyyu Mürtəzadur.
Yüzüm dünyavü üqbadə onadur.

Əlini bilməyən məlun münafiq,
Xəvaricdür iki gözü əmadur.

Olardan özgə kim vardur? Mənə de,
Xudadur, Mustəfadur, Murtəzadur.

Əlidür şah-i mərdan, şir-i Yəzdan,
Onu həq bilmiyən min kəz xətadur.

Əyaği tozuna şahum Əlinün,
Məvalilər gözinə tutiyadur.

Əlidür ğazilər şahi, şəhənşah,
Muhəmməd Müstəfa sahib liqadur.

“Xətai” can-u dildən şahə quldur,
Əlinün eşiyündə bir gədadur.

## ŞƏMİ-TƏCƏLLİ

Bizə şəmi-təcəlli “Müstəfa”dur,
Onunçün sərvəri “Ali-əba”dur.

Təmamət xarici əcəb ki, bilməz,
Əmirəl-möminin şiri Xudadur.

“Xədicə” məhrəm oldu çün Rəsulə,
Yəqin bil! “Fatimə” xeyrun-nisadur.

Mənim mirim “Həsən”, şahim “Hüsen”dür,
Ki, ” Zeynül-Abidin” dərdə dəvadur.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

“Məhəmməd baqir” oldi eyni gövhər,
İmam “Cəfər”, imamu pişvadur.

İmamu sərvərim “Musayi-Kazim”,
Ki, sultan həm”Əli Musər-Riza”dur.

Sevərəm mən “Təqi”yu həm “Nəqi”ni,
Olar kim, şimdi nəqdi ovliyadur.

İy vəllah xaki payi “Əskəri”nün,
Çəkərəm çeşmimə, cün tutiyadur.

Yenə “Düldülə” mindi şah Məhdi, (ə.c)
Əlündə zülfüqari “Mürtəza”dur!

İlahi əfv qılgil sən günahım!
“Xətai” bir fəqiri-binəvadur!

***S.İ.NƏSİMİ***

**MÜRƏBBE**

Mən qulami–xanədanəm, padişahımdır Əli,
Ehtiyacım onadır, püştü pənahımdı Əli,
Könlümü qıldı münəvvər, mehrü mahımdır Əli,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

Gəldilər həqdən bəyani-sirri ağaz etdilər,
Sözlərindən aləmin mülkünə pərvaz etdilər,
Həmdulillah, biz-gədayi məhrəmi-raz etdilər,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

Vaqifi -əsrari-ədadi-təvafi-Kəbəyəm,
Şöylə ki, əhli-səlati bildim, əhli-qibləyəm.
Dərgəhündə bunların mən bir Hüseyni-bəndəyəm,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

Cəhd edib canü könüldən bulmuşam mən rəhbəri,
Gəzməsəm heyvan kimi ruyi-zəmində sər-səri,
Bixəbərdi bu müəmmadən olan divü pəri,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

On səkkiz min aləmin içində sultanlardu,
Ərseyi-meydan içində mərdi-meydanlardu,
Baxdığımca hər nəzərdə, gördüyüm onlardur,
Qibləgahımdır Muhəmməd, səcdagahimdır Əli.

Ta əzəldən padişahımdır Həsən xülqi-riza,
Dünya və üqbadə səri- tacim-Hüseyni-Kərbəla,
Nuri –çeşmimdir mənim, nuri imami-Zeynüləba,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

Cani dildən bəndeyi-Baqir, qulami-Cəfərəm,
Museyi-Kazım, Əli, Musa Rizayə nökərəm,
Şah Təqi və ba Nəqi yolunda xaki-kəmtərəm,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

Zümreyi-nacidünüz həm Əsgəriyyə Əsgərüz,
Mehdiyi–Sahib–Zəmanə biz təvəlla eylərüz,
Ey Nəsimi, həmdulillah, yolumuzda izlərüz,
Qibləgahımdır Muhəmməd, səcdagahımdır Əli.

***M.P.VAQİF***

## GÖRMƏDİM

(Müxəmməs)

Ey xoş ol kəslər, Məhəmməd Mustəfanı sevdilər,
Oldular aşiq, Əliyyəl Mürtəzanı sevdilər.
Sidqü ixlas ilə pənc ali-əbani sevdilər,
Çardah məsum tək müşkül güşani sevdilər,
Dahi onlardan gözəl yaxşı cəmaət görmədim.

Ya imaməl cinni vəl insü şəhənşahi-ümür,
Getdi din əldən bu gündən böylə, sən eylə zühür,
Qoyma kim, şeytani-məlun eyliyə imanə zur,
Şöleyi-hüsnünlə bəxş et tazədən dünyayə nur,
Kim şəriət məşəlində istiqamət görmədim.

Göz ağardı, ruzigarım oldu gün-gündən siyah,
Etmədim, səd heyfi kim, bir mah rüxsari nigah,
Qədirbilməz həmdəmilə ömrümü etdim təbah,
Vaqifə, ya Rəbbəna, öz lütfüni eylə pənah,
Səndən özgə kimsədən lütfi-inayət görmədim.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

Vaqifa, göz yum, cahanın baxma xubü ziştinə,
Üz çevir ali-əbayə, Əhmədi-Muxtarə bax!

***

Mətlubum istərəm Şahi-Heydərdən,
Sahibi-Zülfüqar, Şahi-Qəmbərdən,
Biçarə Vaqifi salma nəzərdən,
Qul xətasız olmaz, ağa kərəmsiz!

***S.M.H.ŞƏHRİYAR***

## YA ƏLİ

Binəvayəm, məskənim zəncirü zindan, ya Əli,
Tut əlimdən, binəvayə əl tutansan, ya Əli!

Mənzilimdir tülkülər zindanı, ey Şiri-xuda,
Dişlərimlə çeynərəm zənciri hər an, ya Əli!

Mən qızardılmış dəmirdim, kürədən qaldırdılar,
Ta ki, əzsinlər alıb çəggüşlə zindan, ya Əli!

Ağlayır dostlar məzarıstanda, düşmənlər, fəqət,
Cümcümə tək diş agardır şadu xəndan, ya Əli!

Olmasam Əyyub da, ondan səbrim artıqdır mənim,
Olmasam Yusif də, çox məhbusam ondan, ya Əli!

Şeyx özü qullabıdır, dini oyuncaq eyləmiş,
Rindlər ləzzət çəkərlər bu oyundan, ya Əli!

Heyif, sən yoxsan, bizim alçax, gödəkdir qəddimiz,
Şərmisarıq boy-buxunlu lovğalardan, ya Əli!

Ovlanıb küffarə qaçdıq at dalınca tazı tək,
Küfrü kin salmış kəməndə xalqı çoxdan, ya Əli!

Çox günah baş verdi bizdən, Xaliqə xoş getmədi,
Bir cəzadır xudbəsəndlərçin bu niyran, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Söylədim haqq söz, həyatda heç bir haqqım qalmadı,
Əcridir bu, haqq danışsa fazil insan, ya Əli!

Bir günahkar dərdliyəm, var ehtiyacım, lütfünə,
Dərdlilər dərman rica eylər qapında, ya Əli!

***N.Ş.QACAR***

## ƏLİ

Xaliqi-yeqtayə bir məxluqi-yektadır Əli,
Lailah illahidə təkrar olan"La"dır Əli.

Nur-əndər nur olmuş, həmzücac əndər zücac,
Şişə əndər şişədə bir nuri- bəyzadır Əli.

Sirri-tovhidi-nübüvvət aləmin kəşf eyləyən,
Axəri-Allahdə məstur olan "ha"dir Əli.

Allahın olmuş iki lamilə bir yayi nəbi,
Ol iki lam ilə ya həm əlfi-övladır Əli.

Məzhəri-Əllahdır Allahın üstə cilvəgər,
Həq nümayi-ha olan təştidi-tənhadır Əli.

Diqqət etsə kim, deyər, Allahidə təşdiddir,
Lazümi məzlumdə bir lütfi-meydandır Əli.

Həqq buyurmuş öz kəlamında vəllahül-məsəl,
Ol məsəl əksində bir misli-Məsihadır Əli.

Həqq özu bir nurdur, güya məsəl bir ayinə,
Nurunun misli məsəl mislindən ixfadır Əli.

Ruzigarın tökdü memari-bəniyyət tərhini,
Çəkməyib əl tərhini təbində bənnadır Əli.

Zati-paki-kibriyani qoy kənarından kənar,
Hər nə vardır, sərbəsər ikramə danandır Əli.

Rətbi-yavis hər nə var təfsirinin fərdindədir,
Təhti – bismillahdə ol nöqteyi-badır Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Mə`niyi-Tövratü Fürqan, rəmzi-İncilü Zəbur,
Əhmədü Davudü həm Musavü İsadır Əli.

Aləmi – lahütdən batində hər peyğəmbərə,
Vəhyi – sadiq eyləyib Cibrilə ilqardır Əli.

Raziqə mərzuqidir, mərzuqinə rəzzaq tək,
Bundan ötrü ruzinin rizqində vüsatdır Əli.

Feyz ona fəyyazdır, öz feyzini qət eyləməz,
Bəxşişi-həqq bizlərə, bir feyzi üzmadır Əli.

Zatı cövhərdir bu məxluqun, onun zatı ərəz,
Bəndədir məbudə, amma xəlqə mövladır Əli.

Çün məşiyyət etdi iyma kafü nun icadına,
Şübhəyə düşmə, həman imayə iymadır Əli.

İlləti- məlumdur, illət ona peyvənddir,
Hər nə var; dünyavü mafihayə fihadır Əli.

***N.K.DƏRBƏNDİ***

## QƏZƏL

Ey olan sevgili dost Xaliqi subhanə, Əli,
Kömək ol, nəşr eliyim mədhini hər yanə, Əli,

Ey Şahənşah, yazılıb babi-behiştdə ismin,
Bəxş edən sənsən o Firdovsi nəcibanə, Əli.

Nökərəm mən sənə, övladıva, ey Kani-Kərəm!
Canı qurban edərəm sən kimi sultanə, Əli.

Doğulan mənzilin olmuşdu, yəqin Kəbə evi,
Bu şərəf qismət olub hansı bir insanə, Əli?

Nəbi ərz etdi, elm şəhri mənəm, babi Əli.
Yayılıbdır bu kəlam hər tərəf, hər yanə, Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sailə etdin əta şövqilə əngüştərivi.
Heyranam taətinə, etdiyin ehsanə, Əli.

Üç şamın ruzisini bəzl elədin əl açana.
Yetimə, həm fəqirə, miskinə, şahanə, Əli.

Daima mədh edərəm vəsfini hər sübhü məsa,
Şəm sənsən, mən isə eşqivə pərvanə, Əli.

Ümidim tək sənədir, yoxdu mənim qeyri kəsim,
Lütf ilə eylə nəzər Namiqi-nalanə, Əli.

*KƏRİM PİRŞAĞILI*

## HƏZRƏT ƏLİ

Çəkmisən sən nə qədər dinim ücün zəhmət, Əli.
Adıva qurban olum, qoy, mən özüm, Həzrət Əli.

Sən bəşər övladı olsan da, adın Şiri-Xuda,
Verilibdir sənə həqdən bu böyük qüdrət, Əli.

Mərhəbi sən ikiyə böldün özün Xeybərdə,
Allahın qüvvəsidir səndə olan qüvvət, Əli.

Zülfiqarın ilə sən Xeybəri fəth eyləmisən,
Çevrilib oldu müsəlman necə min millət, Əli.

Dinə rəhbərdi Mühəmməd, sən isə cəmə imam,
Tapdı Qurani-şərif sizlə böyük izzət, Əli.

Sənə xain olana nifrət edir əhli-Quran,
Xainə çümlə müsəlman oxuyur lənət, Əli.

Oxudum diqqət ilə söylədiyin hər kəlamı,
Sözlərində, görürəm, vardır böyük hikmət, Əli.

Kəriməm, vəsf edirəm səndə olan qüdrəti mən.
Layiqəmsə, kömək et, mən də görüm çənnət, Əli.

## MƏN
(Qəsidə)

Düşmüşəm bu dəhridə, ya Rəbb, əcəb sevdayə mən,
Şükrilillah, getmədim qafil olan röyayə mən.

Mən Əli adın sevib zikr eylədim şamü səhər,
Aşiqəm ruzi-əzəldən çün belə mövlayə mən.

Lütf qılmış Xaliqim mən mədhi-mövlani deyəm,
Həmd qıllam daima ol Xaliqi-Yektayə mən.

Daima əzbərdir mənim dilimdə bu Əli adı,
Dönmüşəm bu bəzmdə bir bülbüli-şeydayə mən.

İltimasım var Xudadan, eyləsin tofiq məni,
Bu sifət ilə gedim ta dəhridən üqbayə mən,

Mədhi-mövladən deyim, heç bilmirəm, dünya nədir,
Gər mənə yetsə bəla, səbr eylərəm qovğayə mən.

Nə cahandur bu cahan, meyl eyləyim, yox axırı,
Meylim olmuş axirət, ta ki yetəm Əlayə mən.

Mədhi-mövlani deyən olmaz o mövladan kənar,
Söylərəm mövlayə mədhin, kim olam həmsayə mən.

Çox fəzilət söyləmiş mədhi-Əlidən Müstəfa,
Həmdi qıllam, yetmişəm bu neməti-üzmayə mən.

Var günahım, Bar ilahi kecməsən, mən neylərəm,
Hansı üzlə gedərəm ol cənnəti-məvayə mən?

Ey Xuda, əfv eylə Məddahi, bihəqqi-Mürtəza,
Rəhm qıl, taki gələndə məhşəri-kübrayə mən.

*ƏLƏKBƏR ŞAHİD*

**QƏZƏL**

Əhli-meyxanə o kəsdir, meyi minanı tutar,
Necə kim bülbüli-şeyda gülü-hümrani tutar.

Bəzmi-rahətdə əlindən tutar ol saqi Əli,
Sidqlə kim ki durub saqəri-səhbani tutar.

Piri-meyxanə Əlidür, ona manəndi-misal,
Gəlməyib bir elə saqi fərəhəfzani tutar.

Sizi tanrı, mənə bir qətrə o meydən yetirin,
Kim onun zövqü səfası iki dünyanı tutar.

Həsrəti-atəşi-meylə tökürəm göz yaşımı,
Qorxuram, mövc eyləyib sahəti-dəryani tutar.

Bu təriqətdə mənə zərrə məzəmmət yeri yox,
Həq tərəfdari olan daməni-mövlani tutar.

Bu fəna dəhrin əlindən əlin üzmüş “Şahid”,
Axirət mülkü üçün Xaliqi-Yektani tutar.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## M Ö V L U D N A M Ə

*HACI SOLTAN HÜSEYNQULU OĞLU*

### ƏLİ MÖVLUDUNA

Şad olur hər aşiqi-şeyda Əli mövluduna,
Nadürüstdür verməyən məna Əli mövluduna.

Kəbədə dünyayə gəldi, aləmə oldu pənah,
Nazil oldu Məryəmü Sara Əli mövluduna.

Gün yetişdi, bir günəş doğdu qaranlıq Kəbəyə
Saçdı nurun "Yasin"ü "Ta-ha" Əli mövluduna.

Etdi dəryalar təlatüm, nura batdı göy üzü.
Açdı güllər rəngbərəng səhra Əli mövluduna.

Ənbiyalar söyləyir "əhsən" duavü zikr ilə,
Səfdə durmuş bağlayan sevda Əli mövluduna.

"La fəta illa Əli, la seyfə illa Zülfüqar",
Ərşidə etdi mələk ifa Əli mövluduna.

Ya Muhəmməd, gözlərin aydın, günahım əfv elə,
Etdi Soltan bir qəzəl inşa Əli mövluduna.

## HƏZRƏT ƏLİ (Ə) MÖVLUDU MÜNASİBƏTİLƏ

Əli mövlududur, ey şiə, sədaqət göstər,
Bayram eylə bu günü, dərdə qənaət göstər.

Fərəhindən bu gün ehzazə gəlib Kəbə evi
O müqəddəs yerin eşqində dəyanət göstər.

Fürsət ikən Əli vəssafı ol imkanınca,
Aşikar eylə nihan eşqi, məharət göstər.

Necə əslində Əli aşiqisən, eylə sübut,
Şad olub şiəliyindən bir əlamət göstər.

Əli cəngin demirəm ərsədə təsvirə gətir,
Sən, bari, nitqin ilə eyni şücaət göstər.

Bu günün eşqinə vird eylə vəfa kəlməsini,
Müjdə ver Xaliqi-Yektayə, fərasət göstər.

Sən də, ey alim olan, susma Əli bəhsində,
Bəşərə batini-Qurandan işarət göstər.

Hansı məntiq ilə söz nitqdə mənaya gəlir,
Bir-bir isbat eləyib ali fəsahət göstər.

Əli gər qəleyi-Xeybərdə qiyamət qoparıb,
Sən onun şəninin uğrunda qiyamət göstər.

"Əli məndəndi, mən ondan" eləyib ərz Nəbi,
Bu sözün dərkinə, ey şiə, cəsarət göstər.

Gör kimin oğlu, kimin yarı, kimin valididir,
Müstəhəq olmağa bu bəzmə ləyaqət göstər.

Sakit ol, məclisi-Mövladə, oyat qəflətini,
Yadı cəlb et, necədir bizdə bu adət, göstər.

Əli əl tutmağını yad elə, ey varı olan,
Bir heç olmazsa, bu gün xalqa səxavət göstər.

Əlinin şad günüdür, bir kəsi nişad eləmə,
Bacarırsansa, pərişanə himayət göstər.

Xaliq adildi ki, xəlq etdi Şəhi-Mərdanı,
Ona şükr etmək ilə sən də ədalət göstər.

Arifa, ver sözə mənanı Əli eşqi ilə
Necə bu eşq eləyib qəlbini qarət, göstər.

Ya Əli, nəqs sözümlə səni təbrik edirəm,
Cürmümü əfv elə, üqbadə şəfaət göstər.

* * *

Xaliqin sevdiyi bir sahibi-qüdrətdi Əli!
Müstəfa təxtinə bir taci-ədalətdi Əli!

Elmi-ruhaniyə rövnəqdi kəmalü həkəmi
Nöqtə əsrarı bilən çeşmi-bəsirətdi Əli!

Hər həyat tərzinə bir kəlməsi qanünü nizam
Hər sözü dürri-əqiq, xazini-hikmətdi Əli!

Karivanın eləyən bəxş nəcibanə əcəb
Ürəyi beyti-həzin, kani səxavətdi Əli!

Zülfüqarı yetirər kafərə Nuh tufanın
Mürtəza, Şiri-Xuda, Şahi-şücaətdi Əli!

Tək girib meydana, Xeybərdə durar qovğayə,
Neçə nahəq tökülən qanə qənaətdi Əli!

Gah bir küfr sədasilə coşar dərya tək,
Gah bir şərr vəfasilə kifayətdi Əli!

Öz şəhənşahinə çakərdi, fəqət həşr günü
Cümlə çakərlərinə şahi-qiyamətdi Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əlidən öyrənir eşqin yolunu aşiqlər,
Ki sədaqətdi, itaətdi, ibadətdi Əli!

Odur aləmdə olan rükni ədəb-əxlaqın,
Şəhi-Mərdan, əbəda bəhri-ləyaqətdi Əli!

Səltənətçün deyil, adillik üçün hökm elədi,
Cümlə xaqanlar üçün dəhrdə ibrətdi Əli!

On bir övladına həq cövhərini bəxş elədi,
Səbəbi-elmi-bəşər, şahi-imamətdi Əli!

Taci-zərrininə cüt dürri-zərifdir Həsəneyn,
Sacidin şöləsinə nuri-həqiqətdi Əli!

Baqirü, Sadiqə təhvil eləyibdir elmin,
Museyi-Kazimə məhbəsdə şərafətdi Əli!

Çün İmami-Riza olmuşdu qəribi-qəbri
Onun eşqilə məkanı dəri-qürbətdi Əli!

Gərçi derlər, “güli-gülzari-nübüvvət Təqidir![1]“
Ona çün gülbüni-gülzari, nübüvvətdi Əli!

Həm Nəqi, həm də Həsən Əskəridir kani-finun,
Mehdiyi-xoşqədəmin tacına beyətdi Əli!

Arifa, eylə Əli vəsfini, ta var nəfəsin,
Cümlə biçarəvü bimarə şəfaətdi Əli!

* * *

Saqi, boşdur qədəhim, badeyi-gülfam gətir,
Meyi-məna dolu bir cami-güləndam gətir.

Ya məni ram eləyib, badə əyağinə apar,
Ya da ol badeyi-gülgünü edib ram, gətir.

Az qalıb yar ilə vəslin dəminə, çarəmi tap,
Məni məxmur eləyib, dərdimə əncam gətir.

[1] İfadə Hacı Soltan Əlizadənindir.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Mənəm ol kəs ki, adım bəndeyi-dərgahi-Əli,
Camı ol məzhəri-həqqə edib ikram, gətir.

Oğlu ləbtəşnə ölən Şiri-Xudanın quluyam,
Qəmimin cizgilərin çəkməyə rəssam gətir.

Elə rəssam ki, çəkə səhfeyi-əflakə qəmim,
Nə qədər yağsa da yağmur, tuta aram, gətir.

Can varaq, badə mürəkkəb, qələmim cami-bilur,
Cismi-biruhimi tərk etməyə ilham gətir.

Badə lütf et, arasın kəsmə, amandır, saqi,
Abi-Kövsərdi, deyib ağzımıza tam gətir.

Gecələr var dözümüm firqəti-yarə, sən onun
Hər səhər kuyinə ruhum apar, axşam gətir.

Bütpərəstlər nə bilir, badeyi-ruhani nədir,
Zairi-meykədəyəm, dur, mənə ehram gətir.

Yeni bir cam gətirdinsə, tələs, qurban olum,
Atəşim get-gedə artır, yenə bir cam gətir.

Əli mövlududur, Arif, nə deməkdir bu sükut,
Əlini mədh eləyib, namımıza nam gətir.

## HƏZRƏT ƏLİNİN (Ə) MÖVLUDU HAQQINDA
## (Tərkibbənd)

Ey yuman göz cümlə dünyanın ziyanü sudinə,
Ey itaət eyləyən min şövq ilə Məbudinə,
Ey yetən canın fəda etməklə öz məqsudinə,
İstərəm bir şeir ithaf eyləyim mövludinə,
Yetdiyin mərdanə məqsudin mübarək, ya Əli!
Pürsəfa, pürnur mövludun mübarək, ya Əli!

Yoxdu mislin, gərçi axtarsam da yeksər aləmi,
Sənsən heyran eyləyən ancaq sərasər aləmi,
Nuri-zatındır edən bunca münəvvər aləmi,
Səndən ötrü xəlq edibdir həyyi-Davər aləmi,
Həq yanında çox müəzzəmdir məqamın, ya Əli!
Ol səbəbdən vacib olmuş ehtiramın, ya Əli!

Kim ruxi-dildarə candan aşiq olmuş sən kimi?
Kim canın verməkdən ötrü şaiq olmuş sən kimi?
Kim rəhi-eşqində yarın sadiq olmuş sən kimi?
Hansı aşiq bəzmi-yarə layiq olmuş sən kimi?
Yoxdu bir aşiq sənə olsun bərabər, ya Əli!
Tək yaratmışdır səni Xəllaqi-Əkbər, ya Əli!

Sən səxavət, sən kəramət, sən şücaət kanısan,
Həm mətanət, həm dəyanət, həm ədalət kanısan,
Sən elə bir sadiq aşiqsən, sədaqət kanısan,
Aləmi heyran edən bir elmü hikmət kanısan,
Sən ədəbsən, sən elmsən, sən zəkasan, ya Əli!
Mədəni-sidqü vəfa, kani-səxasan, ya Əli!

Çox-çox evlərdə sevincə sən səbəbkar olmusan,
Binəvaya, bikəsə, biçarəyə yar olmusan,
Bilmisən, dərd əhlidir hər kim ki, qəmxar olmusan,
Daima məzluma hər yerdə havadar olmusan,
Həm bizə imdada yet, çək Zülfüqarın, ya Əli!
Qana döndər bu ədular ruzigarın, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Dil açar biganələr İslamə min təhqir ilən,
Cəhd edərlər məhvinə yüz hiyləvü tədbir ilən,
Sinəsin sədparə etməkçün durublar tir ilən,
Qətlinə amadədirlər tirilən, şəmşir ilən,
Həmlə eylərlər bizə hər sübhü axşam, ya Əli!
Qoyma, yad əllərdə qalsın dini-İslam, ya Əli!

Sən vəliyyi-həqsən, şiri-Xudasan, şübhəsiz,
Eyni-nuri-zati-paki-Müstəfasan, şübhəsiz,
Sən imamət mülkünə bir "Lafətasan", şühbəsiz,
Ərsəgahi-həşrdə müşkülguşasan, şübhəsiz,
Mahiri-biçarəyə lütf et şəfaət, ya Əli!
Binəvadır, rəhm qıl, tapsın səadət, ya Əli!

*NAZİM SALAMİ*

## HƏZRƏT ƏLİNİN ANADAN OLMASI

Əmi səy edirdi qatsın başını,
Muhəmməd, qoy, atsın fikrin daşını,
Sevirdi oğul tək həyatda onu,
Gələcək peyğəmbər görürdü bunu.
Çox nəcib qadındı onun qadını,
"Fatimə bin-Əsəd" deyək adını,
O da peyğəmbəri əzizləyirdi,
Onu qardaş bilir, sirdaş bilirdi.
Fatimə Kəbəyə tez-tez gedirdi,
Böyük yaradana şükür edirdi.
Ana olmağının vaxtı çatmışdı,
Qəlbində həyəcan yaman artmışdı.

Bir gün o, üz tutub gəldi Kəbəyə,
Həcərül-Əsvədə niyyətin deyə.
Qapılar, divarlar tez aralandı,
Fatimə özünü içəri saldı.
Bağlandı qapılar, sonra üzünə,
Axdı qureyşilər çölün düzünə,
Yüz açar saldılar, qapı açmağa,
Tapmadı Fatimə çarə qaçmağa.
Camaat əlacsız qalaraq getdi,
Kəbə ətrafını onlar tərk etdi.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Üç gün gəlib keçdi belə aradan,
Açdı qapıları böyük Yaradan.
Qıfıllar qırılıb, torpağa düşdü,
Sevincdən mələklər göydə gülüşdü.
Elə ki, Muhəmməd gəldi Kəbəyə,
Qaldırdı əllərin uca göylərə.
Bu zaman Fatimə əlində uşaq,
Körpə gülümsəyir, ona baxaraq
Muhəmməd körpəni qoluna aldı,
Bütün qüreyş əhli buna mat qaldı.
Sonra sevinərək evə gəldilər,
Ataya belə xoş xəbər verdilər.
Uşağa ad verdi atası – "Əli",
Böyüyüb oldu o, allahın şiri.
Bir gün Muhəmmədsiz qalmadı uşaq,
Yatırdı onunla bir yerdə ancaq.
Əli gəlməsəydi dünyaya əgər,
Islam qazanmazdı həyatda zəfər.

***MİRZƏ DAHİ***

**HƏZRƏT ƏLİNİN (Ə) MÖVLUDUNA TƏBRİK**

Müjdə, ey dil ki, bu gun dərdlərə dərman gəldi.
Söndü hicran odu, can mülkünə canan gəldi.

Tanrının hökmünə "Ləbbeyk" dedi cinnü bəşər,
İsmi-əzəm oxuyub, təxtə Süleyman gəldi.

Kəbənin daşları titrəşdi "Yarıl" hökmündən,
Varmı bir kimsə ki, şənində bu fərman gəldi?

Üç günün, üç gecənin sirrinə mat qaldı cahan,
Tutdu dünyanı xəbər: "Höccəti-Sübhan gəldi"!

"Ali"dən gəldi Əli, varlığı başdan-başa nur,
Kainat güzgüsünə cilveyi-Rəhman gəldi.

Sanki həsrətlə qovuşdu iki dərya o zaman,
Əhmədin sinəsinə natiqi-Quran gəldi.

"İnnəma" ayəsinin təkcə odur mənası,
Bir "Ülül-Əmr" ki, isbatına "İnsan" gəldi.

"Əntə minni ənə mink" eylədi hər sirri bəyan,
"Lafəta" hökmü ilə aləmə sultan gəldi.

Yetdi Museyi-zaman xidmətinə Harun tək,
Qola qüvvət, gözə nur, cismə təzə can gəldi.

Çəkdi can nəqdini hicrət gecəsi meydanə,
Gör ki İsmaili, İbrahimə qurban gəldi.

Sındırıb tilsimi, fəth eylədi Xeybər qalasın
Cümlə müşküllər ona dəhrdə asan gəldi.

Yerlə yeksan eylədi bütləri, bütxanələri,
Hər qılıncıyla fəsad əhlinə əfğan gəldi.

Ədl dəryasına qərq etdi cəfa pişələrin,
Zülm kaşanəsinin təxtinə viran gəldi.

Zülməti-cəhli yayıb, doğdu həqiqət günəşi,
Mərifət gülşəninə qönçeyi-xəndan gəldi.

Etiqad, səbr, həya, eşq, təvəkkül, təqva,
Fani dünya üzünə rövzeyi-rizvan gəldi.

Bir zaman qiyməti itmişdi vəfa gövhərinin
Eşq bazarına ol Yusifi-Kənan gəldi.

Düşdü bu dürri-yetim sehrinə, Dahi, təbim,
Şahi-mərdan gülünə bülbüli-nalan gəldi.

## “GƏLİB” ƏLİNİN (Ə) MÖVLUDUNA

Bu gecə Xətmi-Nəbi ümmətinə sayə gəlib,
Allahın şiri-Əli, Kəbədə dünyayə gəlib.

Mustəfa bəhrinə bir zinəti-əla doğulub
Pürbəha dürrüdür, Əhməd kimi dəryayə gəlib.

Bəşərin tərifi bir yanə, təmami-mələkut,
Huriyan səf çəkibən cümləsi pişvayə gəlib.

Doğulub Beyti-Müqəddəsdə, çatıbdır şəfayə
Bu şərəf Həzrəti-Musa, nə də İsayə gəlib.

Nə günün vardı ziyası, nə ayın nuru o qədr
Doğulan gündə ziya, həm günəş, həm ayə gəlib.

Quruyan bağçaların rişəsinə can verəcək,
Çeşmeyi-abi-həyat bir quru səhrayə gəlib

Çox idi mərdi-bozorq, mərdi-hünər qəbləz Əli
Əli gəlməklə “Fəta” kəlməsi mənayə gəlib.

Bu qədər ki yazılıb, vəsf olunub şəni-Əli
“Seyyida”, yoxdur hesabı, nə də ki, sayə gəlib.

Sən də qoyma qələmi əldən, əgər varsa təbin
Çün Əli adıdır, hər şeiridə misrayə gəlib.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## Q Ə Z Ə L L Ə R

***İ.NƏSİMİ***

Ta əzəldən, bil, mənim könlümdə Sultandır Əli,
Həm əlif, həm nüqtəyi, həm hərfi-Qurandır Əli.

Bağladı ifritə divan dəstini Gəhvarədə,
Həm duran ərşin yolunda şiri-Yəzdandır Əli.

Bir nəzər qıldı Mədinədən şəhi-düldülsəvar,
Asiyabanlara bek şəbbürdə kəşandır Əli.

Museyi-İmran həm odur, Yusifi-Kənan həm,
Həm Xəlilin narinə dəfi-gülüstandır Əli.

İsmi Heydər şahi-Qəmbər gör nəsiri çün dedi:
Yetmiş iki narə qıldı, dedi, sübhandır Əli.

Həm qopartdı qapusini Xeybərin ol dəmdə kim,
Həm olan ruhil-əminə pirü xəndandır Əli.

Ol Mühəmməd Mustafadur, həm kilidi cənnəti,
Saqeyi-kosər həm olur, cümleyi-candır Əli.

Şah Həsən xəlqi-rizadır, həm Hüseyni-Kərbəla,
Həm dini izhar edən, həm kəşfi-pünhandır Əli.

Həm Muhəmməd Baqir, həm Cəfər Sadiqi deyim,
Həm həqiqət Kəbəsi, həm qibleyi-imandır Əli,

Kazim ol sultan Əli, Musa Rzadur cümlədə,
Kəşfi-ərbabi-vilayət, nuri-rəhmandur Əli.

Şah Təqidir bu cahan, mülkünə sultan bu Nəqi,
Həm vilayət şəhridir, həm bəhri-ümmandır Əli.

Həm görən, həm göstərən nizə səkan və həm kaman,
Həm xəvaric gözlərinə tiri-peykandır Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Həm kəvakib, həm qəmər, həm afitabi-xavəri,
İsmi-rəsmi, fövqi təhti, mədəni-kandır Əli.

Bu “Nəsimi” məddahı-Heydər, qulami-Heydəri,
Zülfüqari xarici boynunda bürrandır Əli.

***

***S.Ə.ŞİRVANİ***

Bilmirəm zülfü üçün şanəni xəlq etdi xuda,
Ya ki zülfi-siyəhin xəlq eləyib şanə üçün.

Bunca kim hüsnünü Quranda vəsf etdi Xuda,
Bilmişəm kim, eləyib məşq onu meyxanə üçün.

Piri-meyxanə Əlidir, odur ənvari-cəli,
Aşinanı tanı, seyr eyləmə biganə üçün.

Olmasaydı gili-Adəmdə cəmalından əsər,
Qabil olmazdı onun tinəti peymanə üçün.

“Seyyida”, eyləmə övsafi-Əlidən ğeyri,
Ömrüvi sərf eləmə hər yetən əfsanə üçün.

***

***M.FÜZULİ***

Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!
Mən kiməm – aləmdə bir kəmtər qulamın, ya Əli!

Şükr ola Allaha kim, sayə salıbdır başimə,
Dövləti-iqbal ilə lütfi-müdamın, ya Əli,

Müshəfi-həqdə olan hər hikmətin mənasıdır
Hikmətin kani olan hər bir kəlamın, ya Əli!

Kim nəcat istər qiyamətdə, gərəkdir saxlaya,
Taəti-həq tək həmişə ehtiramın, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Cümlə insanlar, mələklər Kəbə tək məbəd sanır,
Hər yeri kim, orda olmuşdur məqamın, ya Əli!

Hər kəs istərsə cahanda çərxdən alsın murad,
Kamə çatmaz, olmasa lütfi-təmamın, ya Əli!

Lütf süfrəndə sənin hər ləhzədə min feyz alır,
Bu "Füzuli" vird edər həmdü səlamın, ya Əli!

***

### *ƏMANİ*

Əslanı həqq-təalanın Heydəri-Səfdər Əlidür.
Canişini Müstəfanın saqiyi-Kövsər Əlidür.

Fatimənin taci-səri, Həsən, Hüseynin sərvəri,
Zeynəlabidin rəhbəri, şafei-məhşər Əlidür.

Baqirü, Sadiqin şahi, Kazimü, Rizanin ahi,
Təqivü, Nəqi pənahi, Hadivü rəhbər Əlidür.

Əsgərinin pişvayi, sahibzəman müqtədayi,
Cinnü insin müldəayi, xaceyi-Qənbər Əlidür.

Möcüzat bəhrinə dalan, qalmışların əlin alan,
Azmışları yola salan, qatili-Əntər-Əlidür.

Dərmanı dərdi-nihanın, bəyanı elmi-Quranın,
Sultanı iki cahanın fatehi-Xeybər Əlidür.

Olan Kəbədə mövludi, tanın zati-məbudi,
Fəqir Əmani məqsudi, sahibü sərvər Əlidür.

Bizi bu dinə yetürən, qeyri aradan itirən,
Könül istəgin yetürən qütbi-ərənlər Əlidür.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**QƏZƏL**

Hadiyi-rahi-hüdasan, ya Əli.
Canişini-Müstəfasan, ya Əli.

İbni-əmmi-həzrəti-xeyrül-bəşər,
Həmsəri-xeyrənnisasən, ya Əli.

Saqiyi-kövsər, əmirəlmöminin,
Sahibi-tacü livasən, ya Əli.

Əvvəli-isna əşər, bədi-nəbi,
Cinnü insə müqtədasən, ya Əli.

İltifati-kibriyadin şamili-
"Haləta"vü, la fəta sən, ya Əli.

Həqq-təalanın beğayət lütfidin.
Dərdi-üsyanə şəfasən, ya Əli.

Dərgahinə yüz tutubdur xassü am,
Qibleyi-hacətrəvansan, ya Əli.

İki gün içrə vilayət əmridə
Mücmələn bimüntəhasan, ya Əli.

Verdin ərbabi-yəqin eyninə nur,
Şəmi-bəzmi-innəmasən, ya Əli.

Eylədin elal ədyan siğəsin,
Kamili-müşkülqüşasən, ya Əli.

Etmək olmaz zati-pakın vəsfini,
Nadiri-ərzü səmasən, ya Əli.

Möminü müfsidə nuru nar üçün
Qasimi-yövmül-cəzasən, ya Əli.

Bildin ümidimiz irür füzun,
Çün şəfi hər xətasən, ya Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Çəkməzüz ğəm hadisəti-dəhrdən,
Dafei-xeyli-bəlasən, ya Əli.

Etməmişlər qulların idraki-ğəm,
Baisi-zövqü səfasən, ya Əli.

Hacət ərz qılmaq müddəa,
Çünki əsli-müddəasən, ya Əli.

Hasil edərsən Əmani məqsədin,
Mədəni-cud səxasən, ya Əli.

***

***HACI MAİL***

Əhli - irfanə, könül, bir ismi-pünhandır Əli.
Kimsə bilməz ki, necə bir əhli-ürfandır Əli.

Kainatın hər işin tapşırmış İzəd Heydərə,
Ixtiyardari-cəmii-çərxi-dövrandır Əli.

Mən ona “Əjdər” deyim, “Səftər” deyim, “Kərrar”ya,
Hər nə dersəm var yeri, çün ali-Imrandır Əli.

Bir “Yədullah” ismi bəsdir arifü dana üçün,
Bu adı bir kimsə almıb, dəsti-Yəzdandır Əli.

Hatəmi–Tai səxavətlən olub məşhur gər,
Leyk, dünyadə səxa əhlinə sultandır Əli.

Köçdü Hatəm, qalmadı zərrə səxasından əsər,
Öz səxasiylə qalan halavü əlandır Əli.

Yox peyəmbərdən sora bir kəs Əliyə tay ola,
Batinin gör, zahirən, hərçənd, insandır Əli.

O, imami–mömininindir, sərvəri–islamdır,
Gərçi islam cismisə, ol cismə bir candır Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Olmasaydı Zülfüqar, əldən gedərdi dinimiz,
“La fəta illa Əli”yə bunca bürhandır Əli.

Bu qəzavət olmayıb keçsin Əlisiz şəridə,
Düşmənani-müslimə bir şiri-meydandır Əli.

Bir qılınc Xəndəkdə vurdu ol Əmir Əb-Davidə,
Indi də “əhsən” mələklərdən nümayandır Əli.

Büxl ilə mehrabdə düşmən onu qətl eylədi,
Dini–islamə özü, övladı qurbandır Əli.

Onları qətl eyləyənlər özləri, bəs, noldular?
Yox olardan bir əsər, əmma nümayandır Əli.

Qədr ilə zinət verib el, qəbrinə övladının,
Həm Nəcəfdə qəbri nuri-mahi-tabandır Əli.

Pərdə çəkmək həqq olan bir kimsəyə mümkün deyil,
Həqqdir kari-Əli, həm həqqə şayandır Əli.

Həm Əli bir alimi-bimisldir, aləm bilir,
Natiqi-”Quran” olub, kəşşafi-”Quran”dır Əli.

Sayeyi - ”Quran” kimi “Nəhcül-bəlağə”ad alıb,
Bu kitab ilə odur kim, fövqül-insandır Əli.

Həm Əli şairliyi inkar olunmaz bəhsdir,
Aç, oxu “Divan”ını, bir gör, nə divandır Əli.

Tiri-təbimlə necə mədhi-Əlidən bəhs açım?
Cümlə şairlər dilində bunca dastandır Əli.

Bəlkə bir beytim ola, ol şahə xoş gəlsin, dedim,
Əfv edə təqsirimi, çün şahi-rizvandır Əli.

Aşiqi-nəsli Əliyəm, həm bunu Tanrım bilir,
Ta nə qədri mənzilim mülki-Süleymandır, Əli.

Bu məhəbbətdə əgər üqbayə gəlsəm, mütləqa,
İçdiyim–Kövsər, ənisim hurü qılmandır, Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Cənnəti hüsnün mənə dünya, nə üqbadə yetər,
Olmasa eşqin, iki dünya da niyrandır, Əli.

Saymaq ilə bəllidir məndən qutarmaz məsiyət,
Əlli ildən keçdi ömr, könlümsə nadandır, Əli.

Qoymadı dünya işi hərgiz tədarük etməgə,
Gördüyü işdən könül hər gün peşimandır, Əli.

Yoxdu şayəstə əməl, Mail baxa, ümmid edə,
Sənsən ancaq bir ümidi, bir də Sübhandır, Əli.

* * *

Könlüm yenə istər ala bir cam Əlidən,
Əlbəttə, ləbaləb meyi-gülfam Əlidən.

Ol mey ki, onun saqisi cənnətdə Əlidir,
Ol meydən olur hamıya ikram Əlidən.

“Əlavü Əli” eynidü yazdıqda ərəbcə,
Tanrı adı bir fərq eləməz, nam “Əli”dən.

Bir zərrə günah eyləyə bir kəs bu cəhanda,
Əfv olmaz ona, olmasa peyğam Əlidən.

Hatəm ki səxasıyla olub aləmə məşhur,
Üqbadə umar bir kərəmü kam Əlidən.

Olmub ona bənzər nə səxadə, nə şücadə,
Müşküldü yetirsin dəxi əyyam Əlidən.

Hər yerdə Əli adı fəxarətlə çəkilmiş,
Olmub hələ bir aşiqi-bədnam Əlidən.

Vəsf etmiş Əlini nə qədər əhli-qələmlər,
Sən Mailə bir bax, aparır nam Əlidən.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

***HACI MURAD VÜZULİ (BİLGƏH)***

Qüdrəti-Xudanı edən aşikar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Dini-peyğəmbəri edən payidar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Əhmədi-Mürsələ olan əxi, yar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Hifz edən rəsuli əldə zülfüqar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Nar ilən, cənnətə külli-ixtiyar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Ərşidə pənci-nam içrə namidar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Cəmiyyən ixtiyar küllə, hər nə var,
Əlidür, Əlidür, Əlidür, Əli.

Atəşi-naridə olan bir hisar,
Əlidür, Əlidür, Əlidür, Əli.

Vüzulin vəslinə qoyan intizar,
Əlidür, Əlidür, Əlidür, Əli.

## HƏQQİN TƏMƏLİ

“Piri-meyxanə Əlidir, odur ənvari-cəli”, [1]
Onu rəhbər buyurubdur bizə həyyu əzəli.
Dilinin nitqi bəyani əlinin zərbü güci,
Kömək oldu qoyula dəhrdə həqqin təməli.
Cəmdir hüsni-cəmalində sifati-Yəzdan,
Sadə insandı, fəqət, gör, necə insandı Əli.
Elə pakizə vücuddur, elə məsumdur Əli,
“Höləta”nı buyurub vəsfi üçün ləm yəzəli
Ona aid elədi həqq “vəzəəl-mizan”i,
Ona çün verdi Xuda batini – “xeyrül əməli”,
Tanıyıb kimliyini hamı peyəmbər bir-bir,
Onu xəlq etdi Xuda cümlə Nəbidən irəli.
Xülq verdi bütün insanlara Xaliq, əmma
Nisbəti yoxdu onun xülqüdi xülqün gözəli.
Əlinin eşqi yenə Seyyidə rast etdi məni,
Haci Soltan, ona həsr eylə bu şirin qəzəli.

## ƏLİ

Gəlməyib, kimdi deyən, Azərbaycanə Əli,
Qədəmin çünki qoyub dəhridə hər yanə Əli.

Olma ğafil, bu İmam cümleyi dünyanı gəzib,
Həm Meracda olub Əhmədə həmxanə Əli.

Harda bir məzlum əgər olsa, yetər imdadə,
Qalmaz aləm ara bir dərdliyə biganə Əli.

Sidqilə “Nadi-Əli” söylə ki, olsun köməyin,
Baharı bəxş eliyər fəsli-zimistanə Əli.

Adı hər yerdə olub həkk – könüllər şahıdır,
Döndəribdi qədəmi dəhri gülüstanə Əli.

---
[1] “Misra Seyyid Əzim Şirvaninindir.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Aləmin hər tərəfində izi var mövlanın,
Neçə yerdə yazılıb batini-Quranə Əli.

“Xummi”də Heydəri peyğəmbərimiz etdi vəsi,
Əmr ilə oldu Əmir cümlə müsəlmanə Əli.

Əlisiz yoxdu bu dünya – mənə ustadım odur,
Öyrədir çünki həyat sirrini Soltanə Əli.

## DİLİ-AGAHİMƏ

Mən Əli nəslindənəm, kimdir müqabil şahimə,
Qəlbimi kim incidə, tapşırmışam Allahimə.

Varisəm bir öylə şəxsə, şahi-Mərdandır adı,
Mərd olanlar anlayar, yox ehtiyac izahimə.

Nur üzündən eyliyir daim təcəlla eylə kim,
Kül olar, bir şəmmə nuri düşsə mehrü mahimə.

Mən kiməm, məndən sual etmə, Əli kimdir, nədir,
Get, sual et Nuhə, Hudə, Yunisə, İbrahimə.

Mən Əliyə aşiqəm, ünvani şöhrətdir mənə,
Var isə izzim, Əli baisdi üzzü cahimə.

Sərvərim öz şiəsin saxlar göz üstə hər zaman,
Məhv olarsan, ey dəni, olma səbəbkar ahimə.

Xaliqə, ey küfrə yol açmaqla surətlər verən,
Gəl, bax, Allah görmək istərsənsə, Vəchullahimə.

“Hələta”yə, “Kövsər”ə diqqətlə bax, ey nadürüst,
Gör vəliyullahi, şəkk etmə Rəhimü Rahimə.

Ey Haci Soltan, Əliyyəl Mürtəzadan cami al,
Kövsəri məna elə süz bu dili–agahimə.

## YA ƏMİRƏL-MÖMİNİN

İsmin oldu dərdə dərman, ya Əmirəlmöminin,
Şahi-mərdan, şiri-yəzdan, ya Əmirəlmöminin.

Zülfüqarın ləşkəri-küfri edibdir tarü mar,
Sirri-sübhan, miri-meydan, ya Əmirəlmöminin.

Xeybəri fəth eyləyib, sən xəndəyə çaldın zəfər,
Dildə Allah, qəlbdə iman, ya Əmirəlmöminin.

Elmidə ustadi əzəmsən, əya şahi-Nəcəf,
Gövhəri-kan, gənci-pünhan, ya Əmirəlmöminin.

Dörd cürə infaq edibsən sailə, Quran deyib,
Elmi-Quran, kani-ehsan, ya Əmirəlmöminin.

Rəbb əyan oldu cəmalında sənin “keyfə zəhər”,
Həqqə bürhan, nuri-Rəhman, ya Əmirəlmöminin.

Xızra sən bəxş eylədin abi-həyatdan qətrəni,
Xızrı-dövran, bəhri-ümman, ya Əmirəlmöminin.

Həm Süleymanə veribsən dividən ol dəm nəcat,
Mərdi-mərdan, kəşfi-pünhan, ya Əmirəlmöminin.

“Ya Əli” kim söyləsə, həqdən gələr yüz min savab,
Rahi-canan, ədlü mizan, ya Əmirəlmöminin.

Həm Əlisən, həm vəlisən, həm vəsiyyi-Mustəfa,
Cani-Salman, zikri-Soltan, ya Əmirəlmöminin.

## YA ƏLİ

Etmişəm mən adının təkrarın adət, ya Əli,
Harda sən varsansa, var orda səadət, ya Əli.

Bir nümunə göndərildin sən bəşərçün aləmə,
Hər əməl, hər bir sözün həqdən əlamət, ya Əli.

On bir övlad bəxş edibsən, hər biri baş tacımız,
Hadi oldun, sənlə başlandı imamət, ya Əli.

Kim sənə dost olsa, heç görməz cəhənnəm atəşi,
Düşmənin də görməz heç kimdən şəfaət, ya Əli.

Sənsiz olsa hər ibadət, puçdur, olmaz qiyməti,
Haqqını qəsb eyliyən almaz bəraət, ya Əli.

Yazmısan "Nəhcül-bəlağə", həm də "Divani-əmir",
Fikrinə, məntiqinə yoxdur həmayət, ya Əli.

Soltan istər, gəlsin övladın, qurulsun bir daha
Bir zaman sən qurduğun ali vilayət, ya Əli.

## YA ƏLİYYƏL MÜRTƏZA

Ey adın dillərdə əzbər, ya Əliyyəl Mürtəza,
Bizlərə aləmdə rəhbər, ya Əliyyəl Mürtəza.

Şəninə həqdən gəlibdir "Həl əta"vü "İnnəma",
Sureyi–"Rəhman"ü "Kövsər", ya Əliyyəl Mürtəza.

"Ləhkəmə ləhmi"[1] dedi çünki Mühəmməd Müstəfa,
Şahid oldu insü cinlər, ya Əliyyəl Mürtəza.

Xızrü İlyasü Süleyman qapuva dərban olub,
Nökərindi həm də Qənbər, ya Əliyyəl Mürtəza.

---

[1] "Ləhkəmə-ləhmi" – yəni, "Əlinin əti mənim ətim, qanı mənim qanımdır".

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Malikü Əmmarü Yasər can fəda etdi sənə,
Haq sənə ad verdi- “Heydər”, ya Əliyyəl Mürtəza.

Kainatın məhvəri sən, səndədir hər ixtiyar,
Ey zəminü ərşə ləngər, ya Əliyyəl Mürtəza.

Həqqini inkar edənlər cənnəti görməz, yəqin,
Kuyivi aşiqlər istər, ya Əliyyəl Mürtəza.

İbni Mülcəm namüsəlman etmiyib həqdən həya,
Oldu kafər, çəkdi xəncər, ya Əliyyəl Mürtəza.

Əhli-beytin halıva ol gün sənin qan ağladı,
Matəmə qərq oldu yeksər, ya Əliyyəl Mürtəza.

Zeynəbü Gülsümə yetdi bu xəbər, ey vay, o dəm,
Va müsibət, qopdu məhşər, ya Əliyyəl Mürtəza.

Hacı Soltan aşiqindir, atəşindən ahının,
Yandı xamə, yandı dəftər, ya Əliyyəl Mürtəza.

## ƏLİ (ə)

Eşqi-Yəzdan ilə ədl olmuş idi qəsdi-Əli,
Bəzmi-ruhanidə Allah bəyənən kəsdi Əli.

“Ləntərani” sözünü eyliyən ifadə odur,
Turda Həzrəti-Musayə yetən səsdi Əli.

İki əngüşt ilə Xeybər qapısın eylədi xar,
De Xuda dəstidi bu, daima əqdəsdi Əli.

Döy Əli darvazasın, Şəhriyarı dinlə gözüm,
Sənə bir başqa təmənna nə gərək, bəsdi Əli.

Zülfüqar ilə salan küfrə o gün vəlvələni,
Nahəqin xam xəyalın, puç ümidin kəsdi Əli.

Rahi-həqdə dayanıb şir kimi meydan elədi,
Gahda ğəşş etdi namaz üstə, necə əsdi Əli.

Dedi haqqında Nəbi bu sözü çox incə lətif,
“Kəbənin oğludu, xilqətdə müqəddəsdi Əli.”

Arayıb hər iki aləmdə onu tap, Soltan,
Bəşərin son nicatı Mehdidi, məxləsdi Əli.

## ƏLİ MƏKTƏBİDİR

Həqqin ilkin yeri dünyadə Əli məktəbidir,
Gələn hər məktəbə imdadə Əli məktəbidir.

Yazan al qan ilə əvvəldə Hüseynin yolunu,
Gətirən aləmi fəryadə Əli məktəbidir.

İstəsən tövhidi təhlil eləmək, getmə uzaq,
Elmi təhvil verən ustadə Əli məktəbidir.

Əlidən gəldi şücaət və səxavət dərsi,
Dar məqamda yetişən dadə Əli məktəbidir.

Bu ev əxlaqə binadır, ədəbə məskəndir,
Atalıq öyrədən övladə Əli məktəbidir.

Cahilü kafir olan bircə bu yoldan qorxur,
Cəhli şiddətlə verən badə Əli məktəbidir.

Bu o məktəbdi ki, Peyğəmbər ona bani olub,
Hamı məktəbdən əsilzadə Əli məktəbidir.

Sən də, Soltan, bu əsl məktəbi seçdin ünvan,
Edən insanları azadə Əli məktəbidir.

## MÖVLA ƏLİDİR

Əyyuhənnas, bilin, sahibi-təqva Əlidir,
Həm də “təqva” sözünə bətndə məna Əlidir.

İnamın ölçüsü, meyarı, halalın həddi,
Paklığın rəmzi olan zati-mübərra Əlidir.

Tanrının şəfqətü mehrinə odur layiq olan,
Özü ali, sözü ali, adı əla Əlidir.

Əli gər hər nə ibadət eləyə, məqbuldur,
Çün ibadətlərə də ziynətü ziba Əlidir.

Qapısı pirü özü nur, kərəm sahibidir,
Aləmi-mərifəti eyliyən inşa Əlidir.

Fanidə sərv nədir, baqidə Tuba nəçidir,
Əlifi ismi-Xudadə edən icra Əlidir.

Şərhi-təqva ilə Həmmami yetirdi vəslə,
Eləyən mömin üçün cənnəti bərpa Əlidir.

Əliyə yoxdursa mehrin, daha “Quran” oxuma,
Mətni-Quranidəki hər əlifü ba Əlidir.

Xaliqə arif olan kimsə Əlidən dönməz,
Sanki bir nəhrdi təqva, ona məcra Əlidir.

Buyurub ayeyi-Quranda Xuda: “Əkrəməkum”,
Bu guruhə hər iki mülkidə mövla Əlidir.

Soltana söz deməyin, yoxdu eşitmək halı,
Əqli məşğuldu ki, başındakı sevda Əlidir.

## "QURAN" YARADIBDIR

Möcüd olan aləmləri rəhman yaradıbdır,
Dünyanı isə ol şəhi-Mərdan yaradıbdır.

Bu sirri-xəfiyyatı açıb Əhmədi-Muxtar,
Dünyanı Əli eşqinə Sübhan yaradıbdır.

Xaliq Əlini xəlq eliyib dəhridən əvvəl,
Sonra da bu dəhri ona qurban yaradıbdır.

Aşiqdi Əli nuruna Allah bu səbəbdən,
Hər iki cahanə onu sultan yaradıbdır.

Merac gecəsi Əhməd olubdur özü şahid,
Niqtində Əli nitqini Yəzdan yaradıbdır.

Hər qatda Muhəmməd Əlini gördü və bildi,
Xaliq onu hər yerdə nümayan yaradıbdır.

Məhmudə Əli eşqini vacib dedi Xaliq,
Tövhidə onu hüccəti-bürhan yaradıbdır.

Peyğəmbərə göylərdə açıb süfrə ilahi,
Ol süfrəyə həm Heydəri mehman yaradıbdır.

"Quran"dan Əli xəlqə yaxındır, ulu Tanrı
Qəlbi-Əlidə ilk dəfə "Quran" yaradıbdır.

Çox mətləbi sən tapmalısan "Ənfüsəna"də,
Rəbbin Əlidən sureyi- "İnsan" yaradıbdır.

Bu incəliyi dərk eliyər arif olan kəs,
Cahil deyəcəkdir bunu Soltan yaradıbdır.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

***HACI YUSİF***

Tanrının sevdiyi bir bəndədi xilqətdə, Əli!
Göydə Xaliq özü tək, yerdə də izzətdə Əli!

Kə'bədə gəldi o dünyayə, bu bir möcüzədir,
Gördü Peyğəmbər üzün ilk dəfə türbətdə[1]Əli!

Ona Allah uca bir ali məqam bəxş etdi,
Elmdə alim idi, Şir idi qüdrətdə Əli!

O bəşərdir desəm, əlbəttə, günah işlədərəm,
Çün bəşərdən uca olmuş bəşəriyyətdə Əli!

Dini-İslami günəştək belə parlaq eləyən,
Gər nübüvvətdə Mühəmməddi, imamətdə Əli!

Bu kifayətdi ki, ol, bütlərə Allah demədi,
Tanrının hökmünə baş əydi itaətdə Əli!

Onu Peyğəmbərimizdən sora seçmişdi Xuda,
Adil insan kimi məşhurdu ədalətdə Əli!

O Xudadır ki, onu Əhmədə yavər[2] elədi,
Bütün ömrü boyu oldu ona xidmətdə Əli!

Nə mükafat, nə təşəkkür, nə əvəz istəmədən
Rəbbinə aşiq olub eşq-məhəbbətdə Əli!

Odur haqqın səsi, haqqın gücü, haqqın ürəyi,
Can verib haqq işi uğrunda həqiqətdə Əli!

Vəhyin insanlara təbliğini Peyğəmbər edib,
Tanrının vəhdətinə səsləyib, əlbəttə, Əli!

---

1 Türbət – müqəddəs, pak torpaq
2 Yavər – yardımçı, köməkçi

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Fani dünya malına zərrə qədər baxmadı heç,
Ömr edirdi özü amma ki, qənaətdə Əli!

Qapısın döydü dilənçi, yeməyin verdi ona,
Su ilə iftarın açdı neçə müddətdə Əli!

Fatimə baxdı, Həsən baxdı, Hüseyn baxdı ona,
Verdi onlar da payın eyni bu niyyətdə, Əli!

Bu əməl Tanrıya xoş gəldi deyə, ayə gəlir[1],
Əhli-beytin olar ancaq bu səxavətdə, Əli!

Qələm acizdir onu olduğutək vəsf eləsin,
Çünki əlçatmaz olub şan-şərafətdə Əli!

Xətmi-Peyğəmbərin hicrət gecəsin sal yadə,
Qorxusuz yatdı yataqda, gecə vəhşətdə[2] Əli!

O igidliklə alıb Heydəri-Kərrar adını,
Əsədullahdı, Yədullahdı şücaətdə Əli!

Çox savaşlarda sinə gərdi o kafirlər ilə,
Saldı düşmənlərini lərzəyə qüdrətdə Əli!

Nərə çəkdi o Bədrdə, səsinə titrədi yer,
Ütbəni sərdi yerə quş kimi sürətdə Əli!

Əbdəvid xəndəyi keçməkdə pərişan oldu,
Çün inanmazdı onu məhv edə qüvvətdə Əli!

Dildə “Təkbir” ilə atdı yerə Xeybər qapısın,
Düşməni xar eləyib, qoydu xəcalətdə Əli!

Mərhabın da başına dünya o gün dar oldu,
İkiyə böldü onu vurduğu zərbətdə Əli!

Bu şücaətlə, bu elm ilə müti[3] bəndə idi,
Kəbədən Kufəyədək oldu ibadətdə Əli!

---

1 İnsan (“Dəhr”) surəsı, ayə 8
2 Vəhşət – qorxulu yer, tənhalıq
3 Müti – itaət edən, tabe olan

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Vəhy ilə nazil olan elmdən agah idi o,
Həm də çox natiq idi sözdə, fəsahətdə Əli!

Mərifət onda, ədəb onda, hünər onda olub,
Kamil insan idi hikmətdə, fəzilətdə Əli!

Hər bir addımbaşı zalimlər ilə üzləşdi,
Yandı, şamtək əridi səbr, dəyanətdə Əli!

Neçə illərlə düşüb qaldı xilafətdən uzaq,
Xaliqi zikr eləyib, oldu tilavətdə Əli!

Ölümün qüdrəti çox şahları yox etdi, fəqət
Tanrı dərgahına yüksəldi şəhadətdə Əli!

O özündən sora da yaydı imamət nurun,
Ay kimi dövr eləyir nuri vilayətdə Əli!

Kim ona sevgili dost olsa, cəhənnəm görməz,
Pozmayıb əhdini heç vaxt sədaqətdə Əli!

Onu “Kovsər”[1] kənarında görərik, inşallah!
Bizi qoymaz o gözəl nemətə həsrətdə Əli!

“Harda haqq var, Əli də ordadı!” – Yusif, qorxma!
Bizə də yardım edər ruzi-Qiyamətdə Əli!

* * *

Cahanda dövri-qədimdən binası var Əlinin!
İlahi möcuzədən ibtidasi var Əlinin!

Özundən əvvəl onun nuru gəldi dünyayə,
Sevindi şəninə göylər, ziyası var Əlinin!

Birinci dəfə o parlaqlığa Adəm baxdı,
Səmadə gördü yazılmış bəqası[2] var Əlinin!

O gün ki Kəbədə dünyayə gözlərin açır o,
Deyildi: – Aydı, günəşdən şuası var Əlinin!

---

[1] Kövsər – cənnətdə olan bulaq, çeşmə
[2] Bəqa - əbədi, daimi

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Boyandı cumlə cahan nura Əli nurundan,
Yazıldı tarixə bir ad, səfası var Əlinin!

Kəsəndən ağlı o Tovhidə canın etdi fəda,
Onunla fəxr edib İslam, şucası var Əlinin!

Ədalət əhli olanlar dedilər: – Həqdir Əli,
Nə qədri var bəşəriyyət, nidası var Əlinin!

Kəmali, hikməti, elmi şüar olub, çünki
Ona bu dərsi verən Mustafası var Əlinin!

"Mən Əlidən, Əli məndən" – demişdir Ustadı,
Nübüvvət ətrini duymuş zəkası var Əlinin!

Onunla tapdı şərəf, izzət imamət elmi,
Həmişə təsdiq ediblər, dühası var Əlinin!

Yanibdı eşqinə pərvanələri illərlə,
Yenə də yanmağa çox aşinası var Əlinin!

Sevərsə kim onu qəlbən, əsirgəməz canın,
Yolunda ölməyə saysız fədası var Əlinin!

Onun bu cazibədar eşqinin nədir sirri,
Əsir olan bu qədər mübtəlası var Əlinin!

Şücaət, elmü səxasın görən riya bilməz,
Gələr bu fikrə, Xudadən qidası var Əlinin!

Fəqirə, sailə daim sədəqə paylardı,
Rüku halında üzükdən ətası var Əlinin!

Zəfər ilən başa vurmuş bütün savaşları o,
Odur ki, "Şiri-Xuda", "La fəta"sı var Əlinin!

Onunla kim ki, müxalif olub bu dünyadə,
Həsəd çəkib ürəyində, bəhası[1] var Əlinin!

Qədir-Xumda o kəslər ki edib beyət ona,
Demişdi sonra: – Əbəs iddiası var Əlinin!

[1] Bəha – qiymət, dəyər, gözəllik

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Hücum çəkib evinə beyətini istədilər,
Deyildi: – Etməsə hərgah, cəzası var Əlinin!

Zəmanə dövr elədikcə onun da artdı qəmi,
Başında, gör, nə qədər macərası var Əlinin!...

Öləndə Fatimə göylər də qarə geymişdi,
Sevindi yerdəkilərdən: – Əzası var Əlinin!

Əyildi səcdəyə sübhün nəmazın etsin əda,
Göründü qanə boyanmış əbası var Əlinin!

Həsənə zəhri verənlər "kədər" ilən dedilər :
– Ciyəri parə olan Müctəbası var Əlinin!

Gələndə mahi-Mühərrəm gəlir xəyalə hər il,
Hüseyni qanə batan Kərbəlası var Əlinin!

Kimi nizə, kimi xəncər götürdü "Təkbir" lə,
Olub şəhid, nə qədər əqrabası var Əlinin!

Nizədə gördü Hüseynin Yəzid o qanlı başın,
Fərəhlə güldü əcəb: – İntəhası[1] var Əlinin!

İlahi hikmətinə şəkk elədi, görmədi o,
Gələn əsirlər içində ziyası var Əlinin!

Həmən o Nurdan olan nurdu – Zəmanın Nuru,
Sübut kim istəsə, canlı əsası var Əlinin!

Gəlib o dinimizin bayrağını yüksəldər,
Unutma, hər şeyə qadir Xudası var Əlinin!

Bu yer üzündə onun yoxluğuna "yox " demərəm,
Nə qədri Hüccəti sağdır, sədası var Əlinin!

Ona itaət edən axirətin həll eləyər,
Dübarə dərk edər orda vəfası var Əlinin!

Çəkinmə sən də bu gün səs ver Əlinin səsinə,
Yetər o dadına hər an, şəfası var Əlinin!

---

[1] intəha- son, nəhayət, axır

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sənin də əcrini Yusif, verər o, "Amin "de,
Həmişə Rəbbinə layiq duası var Əlinin!

Sən Əli aşiqisən, üzmə Əlidən əlini,
Nə mətləbin olur, olsun, dəvası var Əlinin!

## HƏZRƏT ƏLİ (Ə) HAQQINDA

Bir həqiqət var, onu qəlb ilə duydum aşikar,
Çox şücaət sahibin xəlq eyləmiş Pərvərdigar.
Bir nəfər də xəlq edib onlardan üstün, bəxtiyar,
Heç kimə layiq deyildir böylə ad-san, iftixar,
"La fəta illa Əli, la seyfə illa Zülfüqar![1]"

Qüdrətindən güc veribdir Xaliqi-Sübhan ona,
Hikmətindən elm əta etmiş özü Rəhman ona,
Kim fəzilət aşiqiydi, oldular heyran ona,
Kim onunla üz-üzə gəldi döyüşdə, oldu xar,
"La fəta illa Əli, la seyfə illa Zülfüqar!"

Dini-İslamda o olmuş ilk müsəlman, ilk imam,
Küfrə qarşı, zülmə qarşı inqilab etmiş müdam,
Həzrəti Peyğəmbərin çıxmış dilindən bu kəlam,
Tanrıdan gəlmiş nidadır ömrü çox, daim yaşar:
"La fəta illa Əli, la seyfə illa Zülfüqar!"

Çox savaşlarda hünərlər göstərib İslam üçün,
Əbdəvidtək şirləri, Mərhabları əzmiş bütün,
Fəthi -Xeybərdən gedir, hər yanda söhbətlər bu gün,
Zərbəsindən çox bədənlər düşdü başlardan kənar,
"La fəta illa Əli, la seyfə illa Zülfüqar!"

Kim onu sevmiş, məhəbbətdən canın qurban demiş,
Hikmətin, elmin görənlər Natiqi-Quran demiş,
Həqqi batildən ayırmışlar Şəhi- Mərdan demiş,
Hətta haqqında gəzir dillərdə çoxdan bir şüar:
"La fəta illa Əli, la seyfə illa Zülfüqar!"

---

[1] Tərcüməsi: "Əli kimi igid bir gənc, Zülfüqar kimi kəsərli, iti qılınc yoxdur."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Keçsə min illər belə, hər yerdə elmi yad olub,
Çünki Peygəmbər özü Mövlamıza ustad olub.
Əhli- beyt aşiqləri söz-söhbətindən şad olub,
Şəninə fəxr eyləmiş, kafirlərə olmuş qubar,
“La fəta illa Əli, la seyfə illa Zülfüqar!”

Ya Əli, aləm bilir sən bir həqiqət pirisən,
Həm mücahid[1], həm də rəhbər, həm Xudanın -Şirisən,
Açmısan zalimlərin bənd etdiyi zənciri sən,
Bütləri Kəbə evindən sən edibsən tarü mar!
“La fəta illa Əli, la seyfə illa Zülfüqar!”

Yusifa, həqdir Əli, tut sən də ol həqdən, yapış,
Sönməyən bir parlaq ulduzdur, o nurdan söz danış,
Sev onu canından artıq, sevgisindən yan, alış!
Lövhi- məhfuzda onun haqqında əla misra var,
“La fəta illa Əli, la seyfə illa Zülfüqar!”

## LAƏDRİ

Vaiza, dinlə, eşit, kulli-ləyaqətdi Əli.
Əhli-beytin atası, nəsli-nübuvvətdi Əli.

Sirri-Həqdir ki, bu dünyayə gəlib Kəbədə O,
Diqqət et, sirr ilə bu aləmə xilqətdi Əli.

Gözlərin heç kimə yox, Əhmədi-Muxtarə açıb,
Böylə hikmət ilə Mövlasına ülfətdi Əli.

Tərbiyə etmiş onu Xatəmi-ənbiya özü,
Əxlaq, həm tərbiyədə bəhri-mərifətdi Əli.

Bəxş edib, hər nə qədər elm ki var, Mahmud ona,
Elm ilə həm də bir Mustafa surətdi Əli.

Besətin ilk ili on yaşda bu zat, körpə ikən,
Xatəmi-nəbiyə ilk beyətə ümmətdi Əli.

---

[1] Mücahid – mübariz, Vətən və din uğrunda çarpışan

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bil, Muhəmmədə damad, həm də ki bir qardaş olub,
Külli-əshabə zivər, cümlə fəxarətdi Əli.

Zalimə, müşrikə Peyğəmbər ilə etdi cihad,
Küfr ilə şirkə bütün ömrü qəzavətdi Əli.

Qövmi-şər istədi ki, qətl edə Peyğəmbərini,
Yatdı mövla yerinə, çünki sədaqətdi Əli.

Əl atıb Zülfiqara, Düldülə olduqda süvar,
Təkbiri müşrikə xar, qan dolu dəhşətdi Əli.

Bədr hərbində Validlə atasın, həm əmisin,
Öldürüb çaldı zəfər, çünki fərasətdi Əli.

Məğlub olduqda Ühüd hərbi, anı ləşkəri-Həqq,
Feyza oldu Əlidən əzm ki, qudrətdi Əli.

Sındırıb ləşkəri-küfrün qabağın cəng ilə O,
Etdi Mövlanı xilas, cəngə məharətdi Əli.

Qüdrəti-Həqq Əlidən oldu ki faş, bax, o günü,
Gəldi hatifi-səda, böylə əlamətdi Əli.

## QƏSİDƏLƏR

***S.İ.NƏSİMİ***

Əssalam, ey şahi-mərdan, əssalam.
Əssalam, ey şiri-yəzdan, əssalam.
Əssalam, ey kaşifi-sirri-əzəl
Əssalam, ey cümlə bürhan, əssalam.
Əssalam, ey dürri-dəryayi-ələst
Əssalam, ey gövhəri-kan, əssalam.
Əssalam, ey zati-paki-Mustafa.
Əssalam, ey nuri-iman, əssalam.
Əssalam, ey saqiyi-Kövsər imam.
Əssalam, ey qibleyi-can, əssalam.
Əssalam, ey zahirü batin əyan.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əssalam, ey gənci pünhan, əssalam.
Əssalam, ey Heydəri-düldülsəvar.
Əssalam, ey xəlqi-rəhman, əssalam.
Əssalam, ey sahibi lütfi kərəm
Əssalam, ey kani-ehsan, əssalam
Əssalam, ey pişivayi-övliya.
Əssalam, ey Ali-İmran, əssalam.
Əssalam, ey şahi-cümlə kainat.
Əssalam, ey cümleyi-can, əssalam.
Ey "Nəsimi", şahə ver yüz min salam,
Əssalam, ey şahi-mərdan, əssalam.

***

***AMİL***

Mənim aləmdə soltanım Əlidir,
Mənim miri-cahanbanım Əlidir.

Nə Dara tanıram mən, nə İsgəndər,
Mənim ol şahi-şahanım Əlidir.

Əgər düşmən min olsa, yoxdur bakım,
Mənim də tiği-bürranım Əlidir.

Tökülsə üstümə dəryayi-gövhər,
Sədəf dürrində ümmanım Əlidir.

Xəcalət çəkmərəm dari-fənadan,
Bəqa mülkində imanım Əlidir.

Odur hadi peyğəmbər qarşısında,
Namazü rüknü ərkanım Əlidir.

Əmirəlmöminin, şahi-vilayət,
Nəcəfdə şahi-Mərdanım Əlidir.

Səxavət əhlidir kim, həl-ətadə,
Əzimüşşən Quranım Əlidir.

Tükü tükdən ayırmış hər zamanda
Zəhi-zatilə fürqanım Əlidir.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Mürəkkəb olsa dəryalar, bu vəsfə
Çatışmaz, yazmaq asanım Əlidir.

Əlidir qaldıran kim, babi-Xeybər,
Şücaətnam dastanım Əlidir.

Nədir şeytanü iblisü xənnas,
Sinəmdə daim amanım Əlidir.

Azalmır dilimdən zikri-duası,
Damarlarda axan qanım Əlidir.

Deyir Amil sənə, saxla və söylə,
De sən də, can fədakarım Əlidir.

***MƏSİHİ***

## BU, MƏNQƏBƏTİ-ŞİRİ-XUDA, ŞAHİ-NƏCƏFDÜR

Ey niyyəti-kişvəri-imamət,
Vey qateyi-rişteyi-zəlalət.
Vey sədrnişini-təxti-sərməd,
Bivasitə canişini-Əhməd.
Ey ibn əmi rəsuli-Muxtar,
Vey məhrəmi-razi-külli-əsrar.
Qaim sənədür binayi-iman,
Ol qalibədür məvəddətin can.
Ey mövridi-xasi-vali-min val,
Bütlanə olub dəlili-əbtal.
Əmr oldu sən edəsən qiraət,
Müşriklərə sureyi-bəraət.
Ey sahibi-xütbeyi-süluni,
Vey seyrü süluk rəhnümuni.
Səndən əgər olmasaydı imdad,
Olmuşdu cahan zəlalət abad.
Ey bütşikani-hərimi-taət,
Yarın sənə göstərüb iradət,
Xət eylədi şanə düzdü şanın,
Olduqda ol evdə nərdibanın.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ey qaili-qovli künti-mövlah,
Bizdən sənə kəsdi rahi-ikrah,
Türkin dilin qoyar rəsuli,
De necə olur xuda qəbuli?!
Ey Məkkə məsirü Kəbə milad,
Vey Kufə məharü cəddə bünyad.
Meydani, iradətində xurşid,
Tabe əlünə çü cami-Cəmşid.
Ey mənzili-ənnümayə sadiq,
Mənsubi-səvabiqü ləvahiq.
Xurşidi-bidayətü nəhayət,
Məşşateyi-çehreyi-hidayət.
Ey fatehi-həft babi-Xeybər,
Bərhəmzəni-eyşi-Əmrü-Əntər,
Bir zərbətinə yazıldı tüğra,
Təhsili-səvabi-külli-əşya.
Ey cövhəri-dami-zülfiqarın
Ədanı qılubdurur şikarın.
Ərbabi-mənahivü məasi,
Az buldu o damdin xilasi.
Ey şir məsafü bəbr kinə,
Düşdü çü səlabətin zəminə
Küffarə çü yetdi ruyi-zərdi,
Əcz ilə tutub rəhi-nəvərdi.
Ey balinə bağlı sayeyi fəth.
Ta sən durub olmadun xuraman,
Bulmadı o dərdi-fəth dərman.
Ey raziyi-deynü qaziyi-dəyn,
Vey meyveyi-bustani-kevneyn.
Lazım bizə tanımaq kəmalın,
Tutmaq rəhi-ettebai-alın.
Ey mədəni-həftü çar gövhər
Hər birisi tac, fərqi-əfsər.
Dil qüvvəti, didə rovşənasi,
Canım ola cümlənin fədasi.
Ey ruhi-əminə sən müəllim,
Olduqda o macərayə hakim.
Feyzin ona açdı babi-məsdud,
Verdün əlinə kilidi məqsud.
Ey bəhri-cəhanə dürri-ismət,
Vey keşti-zəmanə əbri-rəhmət.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Gər mərzeyi-dəhrə verməsən nəm,
Pəjmürdə olurdu kəşti-aləm.
Ey püştü pənahi-dinü ayin,
Xurşid mədarü ərş təmkin.
İslamə gər açmasan cəmali,
Haşa ki, buleydi din kəmali.
Ey ayəti-şərə səndin əlam,
Müstəhfizi-din-pənahi-islam.
Ta gözləmədin təriqi-pasi,
Kim buldu rəhi-xudaşünasi.
Ey cameyi-hikməti-ilahi,
Vey maneyi-zilləti-mənahi.
Həqq əmri yetüb zühurə səndən.
Bünyani-xəta füturə səndən.
Ey şəhri-ümumə babisən, bab,
Hər vaqiədə rücuyi-əshab.
Oldu sənə həll edüb təmami,
Qurtardın o xas ilə əvami.
Ey meyveyi-bağı-lütfü ehsan,
Vey dürri-səmini-kani-imkan.
Nə qəm, bizə çün imam sənsən,
Naqislər üçün təmam sənsən.
Ey həzrəti-kibriyayə məmduh,
Tufani-bəlayə kəştiyi-Nuh.
Xas ilə əvamə feyzi-alın
Yetməkdə o neməti-nəvalın
Vay ona tuta rəhi-iduli,
Səndən bula rütbə naqəbuli
Cəm edə zəxireyi-zəlalət,
Ömri ilə kəsb edə xəsarət.
Nə qəm bizə, gərçi ziri-barüz,
Təqsirü nədamət ilə yarüz.
Sən kimi aradə pirimiz var.
Alın kimi dəstgirimiz var.
Mövla əgər olsa sahibi-cah,
Var sayəsi bəndəsilə həmrah.
Ədna qulunun böyük vəbalın,
Tutməzlər anın billəndə halın.
Gər verdük isə xəti-qulami,
Alduq mənşuri-niknami.
Birinə ola məhəbbətin yar,
Haşa ola cürm ilə diləfkar.[1]

---

[1] Məsihi "Vərğa və Gülşa"

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## BU QƏSİDƏ HƏZRƏTİ-ŞAHİ-NƏCƏF ŞANİNƏDÜR

Şahənşahi-fələk qədrü Süleyman cahü İsa dəm,
Vəliyi-həqq imamü müqtədayi-cümleyi-aləm.
Mədari-məsləki-xurşid əgər xahəd begerdanəd,
Çü narəncət bekəf gərdənde kuyi-niyyəri-əzəm.
Məhi-bürci-səadət zovceəş Zəhravü Məsumə,
Pedəri-təbiri-şübeyr Nəbi ra bude ibn əmm.
Həmişe əmro nəhyi-hökm qoranəst u amil,
Həme vəqti-xitabəş ba moxatib bude u mənzəm.
Sipər şod babi-xeybər vəqti-cəngəş gahi-bərnayi,
Gəhi-tefliş dər məhd u dəridəş-peykəri-əğəm.
Gəhi bəzl u bəsail dər roku əndaxtəş xatəm.
Beseyü ehtimaməş bonyeyi-islam əzu qaim
Bezərbi-zolfiqarəş səddi-iman şod əzu mohkəm.
Bedərdi-dərdiməndani-kodurət xatirəş timar
Bezəxmi-mostəməndani-həvadis dəsti-u mərhəm,
Zaman içrə anın tək çıxməmiş bir dür bu dəryadən,
Sədəf bətnində bir lölə anın tək görməmişdir yəmm.
Əgər rəsmi sualə masuyallah birtərəf tutsa,
O babi-elmü hikmət masu allahdən degil mülzəm.
Veribdür atəşi-büğzi-cəhimə qayəti-tüğyan,
Qılıbdur nikhəti-hübbi behişti tazəvü xürrəm,
Tiküb gəz yerə durmuş dəvridə bir qul oldu gərdün,
Kəminə çakəridür əsrdlə Əfrasiyabü Cəm.
Anın miladınə ta çeşmi-əğyar olmasın nazir,
Olupdur Kəbə hayil, çulqayub əlaminə pərçəm,
Görüpdür hicrəti-hicranini, guya əza dutmuş.
Fəraqindən qılar hər sal tazə kisvəti-matəm.
Olub andin cuda miz-ab rəhmət yaş dögər gözdin,
Sirişki-həsrətidin pür dəmadəm dideyi-zəmzəm,
Olupdur izzətə layiq, olupdur cümlədin sabiq,
Olupdur elmilə fayiq, olupdur qədr ilə əzəm.
Əsasi şərədür təmkin, dəqayiq binü din ayin,

Əcayib məzhərü sirri-həqayiqdəndür ol mülhəm,
Xitabi-elminə olmuş hədisi-lov kəşəf tüğra,
Dili-bidarinə keyfiyyəti-əşya degil mübhəm.
Məsihin haşaəllah kəşti-ümmidi ola peyman,
Neçün kim rövzeyi amalinə andan yetər şəbnəm.
Sala ta mərkəzi-qəbrayə çətri-asiman sayə,
Verə tavus gərdun ta ki, dəhrə beyzeyi-qaqum.
Mühübbü çakərin xoşhalü daim düşmənin dutqun,
Yüz ilə damənin peyvəstə gərdi-vəhmü xari-qəm.[1]

[1] Məsihi "Vərağa və Gülşa"

## ƏMİRƏL-MÖMİNİN HƏZRƏT ƏLİ (Ə) MƏDHİNDƏ
### (Qəsidə)

Ey şəhriyari-məmləkəti-övliya Əli!
Vey şəhsüvari-mərəkeyi-övsiya Əli!

Ey məsdəri-cəlali-Xudavəndü zülcəlal,
Vey məzhəri-cəmali-cəmili-Xuda Əli!

Ey zati-paki illəti-ğaiyyi-kainat,
Vey pak zati ayineyi-həqnüma Əli!

Ey mənbəyi kəramətü dəryayi-elmü helm,
Vey mədəni-səxavətü bəhri-əta Əli!

Ey dürri-dürci-izzü şərəf, şahi-lovkəşəf,
Vey mahi-bürci-mehri təvavü səxa Əli!

Ey gülşəni-həqiqətə bir türfə bağban,
Vey məhfili-hidayətə nuri-hüda Əli!

Naibi-mənabi-məhkəmeyi-şəri-Mustafa,
Qaimməqami-məstəbeyi-istəfa Əli!

Ey xanezadi, xaneyi-həqqü şiri-behəq,
Ey xasi-məhrəmi-hərəmi-kibriya Əli!

Ey padşahi-mülki-qəza, kişvəri-qədər,
Vey dadxahi-ruzi-cəza, Murtəza Əli!

Həblülmətin, imami-mubin, pişvayi-din,
Səndəlnişin – bargəhi – ətqiya Əli!

Ey akifani – guşeyi – tovhidi – mizban,
Vey taifani – Kəbeyi – vəslə səfa Əli!

Ey sakinani – aləmi – lahutə müqtəda,
Vey salikani-kuyi-həqə rəhnüma Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ey gövhəri-vilayətə bir pürbəha sədəf,
Vey əxtəri-imamətə nuri-bəha Əli!

Əmründədür dövrü-zəmanü məkan, əmri-kün fəkan,
Hökmündədür sənün həmeyi-masiva, Əli!

Sənlən ucaldı beydəqi-dini-Muhəmmədi,
Ey sahibi-şəriətə sahib-ləva Əli!

İslamın etdi kəc qılıcun rast qəddini,
Olsun o zərbi-şəstüvə ruhim fəda, Əli!

Ey naxudayi-kəştiye-dəryayi-laməkan,
Vey ibtidayi-xilqəti-biintəha Əli!

Bədrəddüca, vəlliyi-Xuda, şahi-Lafəta,
Kəhfül-vəra, şəhənşəhi-müşkülgüşa Əli!

Sənsən vəsiyyi-xətmi-rusul, nəfsi-əqli-kull,
Sənsən vəliyyi-Xaliqi-ərzü səma, Əli!

Sənsən müniri-məşəli-vəş-şəmsü vəz-zuha,
Sənsən əmiri-məsnədi-izzü əla, Əli!

Sənsən kilidi-qufli-dəri-künci-mərifət,
Sənsən ümidi-məlcəyi-şahü gəda, Əli!

Şənündə gəldi ayeyi-bəlliğ Peyəmbərə,
Vəsfündə nazil oldu sənün “innəma Əli”.

Sənsən həbibi-həzrəti-məbudə canişin,
Sənsən təbibi-dərdü dili-bidəva, Əli!

Mən eyni-həq deməm, derəm, eyni-həqqisən,
Müşrikdü eyni-həq deyə hər kim sana, Əli!

Bişəkkü şübhə xilqəti-ərvahi-insü can,
Olmuş sənin vücudüvə vabəstə, ya Əli!

Oldun məhəbbət əhlinə misbahi-küntu kənz,
Etdün həqiqət əhlinə kəşfi-əta, Əli!

Sərraf nəqdi-ömrün edib sərfi-məsiyət,
Əzbəs görüb mətaini çox kəmbəha, Əli!

Ruyi-siyah ilə zəri-naqis əyar tək,
Ümmidvardur sənə, ya Murtəza Əli!

* * *

Ey cəmali, məzhəri-ayati-kübra, ya Əli!
Vey cəlalindən cəlali-həqq hüveyda, ya Əli!

Feyzi cudindən vücudi-masiva mövcud olub,
Ey vücudi-masivayə feyzi-üzma, ya Əli!

Nuri-həq ayineyi-zatunda olmuş cilvəgər,
Ey sifatillahi-mirati-təcəlla, ya Əli!

Lövhü hüsnündə yazılmış ayeyi-əllahu nur,
Surətündə kəlmeyi-mişkati-məna, ya Əli!

Zülf, qəddün xəlqə lai-nəfyi isbat eylədi,
Kəlmeyi-tovhidə sənsən əlif illa, ya Əli!

Mən necə vəsf eyləyim, Xaliq sənə məddah olub,
Doldurub Qurani ovsafun sərpa, ya Əli!

Kəmmü keyfə zatuvi dərk etməz ovhami-üqul,
Zati-pakündür mürəkkəbdən mübərra, ya Əli!

Gər desəm mümkün sənə, sən tək bəşər mümkün degül,
Gər desəm, vacib olur küfrüm hüveyda, ya Əli!

Eylə mümkünsən ki, vacibdü vücudin aləmə,
Ey vücudi illəti ğaiyyi-əşya, ya Əli!

Nari-qəhründən olur nari-cəhənnəm şöləvər,
Nuri-mehründən dolub firdovsi-əla, ya Əli!

Pərtovi-nuri-cəmali-bimisalündən sənin,
Müqtəbəsdür aftabi-aləmara, ya Əli!

Ey vəliyyüllahi-əzəm aləmü adəm sənə,
Bəndədür, sənsən bu məxluqatə mövla, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Xaceyi-Qənbər əmirəl-möminin yəsubi-din,
Fatehi-Xeybər, şəhi-dünyavü üqba, ya Əli!

Ey kəlamüllahi-natiq, vey kilidi-küntü kənz,
Aşkar olmuş sən ilə gənci-ixfa, ya Əli!

Babi-şəbbirü şübər ibni-əmmi-xeyrül-bəşər,
Sahibi-mehrabü mənbər zövci-Zəhra, ya Əli!

Ey düri-bəhri-şərəf, şahənşəhi mülki-Nəcəf,
Sirri-həq səndən olub aləmdə peyda, ya Əli!

Padişahi-kövni-imkan, cismi-məxluqatə can,
Sərvəri-mərdan, əmiri-mülki-bətha, ya Əli!

Qüdrətullah, höccətullah, canişini-Mustəfa,
Ayeyi-rəhmət, vəliyyi-həyyi-yekta, ya Əli!

Alimi-elmi-səluni, məniyi-ümmül-kitab,
Vaqifi-əsrari-sirri-leyli-əsra, ya Əli!

Ürvətül-vüsqadi, yəni tacdari-innəma,
Qofle-gənci-həl-əta, misdaqi ta-ha, ya Əli!

Ey şəhi-valaməkan peyvəstə eylər arizu,
Dərgəhün əsfəl, məqamin ərşi-ülya, ya Əli!

Ab olur atəş səri-kuyin həvasindən sənün,
Xaki-payündür əcəb gügərdi-həmra, ya Əli!

Asitani-dərgəhi-pakun çirağan etməgə,
Məşəli-xurşid ələ almış Məsiha, ya Əli!

Sən səfiyəllahə verdün zəngi-möhnətdən səfa,
Ismi-pakindür sənün əsmai-hüsna, ya Əli!

Nari-Nəmrudi edib lütfün Xəlilə gülsitan,
Puri-Azər görməyib Azərdən onda, ya Əli!

Fülki-möhnətdən tapıb Nuhi-nəciyullah nicat,
Onda kim, etdi səri-kuyində məva, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sən zəbihullahə məşqi-eşqi təlim eylədin,
Verməmiş başin alıb taci-fədəyna, ya Əli!

Həzrəti Musayə mövlasən, təcəlla eylədün,
Nuri-hüsnündən sənin məhv oldu Musa, ya Əli!

Olmasaydı Həzrəti İsa ilə həmdəm dəmün,
Harda Ruhullah edərdi mürdə eyha, ya Əli!

Qasimür-rəzzaq sənsən, xani-cudundan sənin,
Qövmi-İsrailə gəldi mənnu səlva, ya Əli

Mehri-ruyin etdi Musadən yədi-beyza əyan,
Eylədi Fironi qəhrün qərqi-dərya, ya Əli!

Mizban oldun Həbibullahə sən meracdə,
Değüləm münkir, edəm haşavə kəlla, ya Əli!

Nazənin adun Süleyman eylədi nəqşi-nigin,
Oldu cinnü insə hər fərmani məcra, ya Əli!

Beytül-əhzan içrə sən Yəqubə oldun həmnəfəs,
Möhnəti-hicrə edib səbri-şəkiba, ya Əli!

Doldurub afaqə hüsnün sovti-mahəzəl-bəşər,
Hüsni-Yusif zərrədür hüsnün yanında, ya Əli!

Ey cəmalullah, cəmalun olsa zahir pərdədən,
Pərdeyi-ismətdə qalmaz bir Züleyxa, ya Əli!

Hər gözəl məşuqə bir aşiq biyabangərd edib,
Sən məni, Fərhadi Şirin, Qeysi Leyla, ya Əli!

Ərseyi-məhşərdə Sərrafın yetiş fəryadinə,
Çün sənün mədhün edər imlavü inşa, ya Əli!

Mətləbu mənzuri, şaha, iltifatündür sənün,
Yox yəqin könlündə bir özgə təmənna, ya Əli!

Fikrü zikri, rüzü şəbdə virdi "ya məhbub" olub,
Kimdi səndən özgə məhbubi-dilara, ya Əli!

Özü bir muri-mühəqqər dəftəri payi-mələx,
Çün səadətdir, əgər məqbul olunsa, ya Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**ZƏBANİ-HAL**

Etdim Hüseyn məzarini çox illər arizu,
Əlhəmdulilləh, oldu müyəssər hər arizu.

Pərvanə tək fərağ oduna yandı mürği-dil,
Imdi vüsali-bəzmdür, eylər pər arizu.

Bu türbəti-Hüseynə necə müşki-tər deyim,
Eylər bu ətri ənbəri-müşki-tər arizu.

Bildi bu asitandə eyni-həyat var,
Etdi mücavir olmağa İsgəndər arizu.

***

***MƏŞƏDİ AZƏR***

Kim Əli ismi ilə hansı işə qoysa qədəm,
Göstərər mütləq həmən şəxsə ulu Tanrı kərəm.

Kim o mövlaya ki, sidq ilə təvəssül qılsa,
Yetəcək məqsədi mənzurə, olar xatiri cəm.
Kim Əlinin tuta bilmişsə fəzilət yolunu,
Ruzi məhşər yetişməz ona bir zərrə də qəm.
Ona kim aşiq isə, mən o kəsin aşiqiyəm,
Mənə yetsün onun aşiqinə yetən dərdü ələm.
Dil açıb söylərəm icziylə bunu şamu şəhər.
Əli aşiqlərinin dərdini, ya Rəbb, mənə ver!!!

Həzrəti Adəmi xəlq etdi Xuda Cənnətdə,
Qərq qıldı onu hər nazi ilə hər nemətdə.
İlk peyğəmbərə bir nemət edilmişdi haram,
Ona da meyl edərək gördü özün zillətdə.
Şahi-Mərdanə sal indi nəzər, ey dil, özünə
Nələri etdi haram, caiz olan surətdə?!
Onu dərk etməyə insandaki əql acizdir,
O səbəbdəndi, Əli eşqi olur fitrətdə
Kim onun ismini hörmətlə əgər yad eylər,
Tanrı dünyada və üqbada onu şad eylər!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ümməti həzrəti-Nuhi necə inkar etdi,
Xeyli incitdi, əziyyət verərək xar etdi.
Həqqə dəvət nə qədər olsa da, qövmü-inad
Çəkmədi küfrdən əl, zülmidə israr etdi.
Ümmətindən elədi sonra şikayət Həqqə,
Həqqi də tufana aləmləri düçar etdi.
Bəs, Əli neylədi, kim zülm eləmişdirsə ona?..
Əfv qılsın, dedi, qoy, Tanrı, istiğfar etdi.
Cəhd edin, söylədi, düşmənləri siz əfv eləyin!
Yalnız onları unutmaqlığinan məhv eləyin!

Nəzər et həzrəti-Musayi-Kəlimullahə,
Həqqindən əmr alır üz tutduğu an dərgahə,
Əmr icrası üçün Harunu yardım diləyir,
Bəlkə təsir edələr taifeyi-qumrahə.
Vəxti-hicrətdə Əli təkcə özün tutdu sipər,
Kimsə çatmaz bu şucaətdə o Şahənşahə,
Şövqilən atdı canın ölüm bəstərinə,
Yetməyə zərrə xətər ta ki, həbibullahə.
Kim ki canın qıya bilmirsə əgər cananə,
Baxsın ibrət gözü iylən o şəhi-Mərdanə

Sahibi-Yohmil-izam bəxş olub İsayə,
Anası hamilə vəqtində girib Əqsayə,
Əmr gəldi ona ki, çıx bu müqəddəs evdən!
Gətirərsən, bir ülul-əzmi bu gün dünyayə!..
Fatimə binti-Əsəd Kəbədə azad oldu,
Qucaq açdı ev özü çün doğulan mövlayə.
Mən kiməm, dərk qılam ki, nədi sirri bu işin
Nə fəzilətdi, verilmiş bu şəhi-vəlayə.
Bunu yalnız bilirəm ki, kim Əliyə qul olar.
Ərseyi-Məhşərə bir izzət ilən qəbul olar.

“Əbd” derlər o kəsə, Tanrıya kim çakərdir,
Bu ada layiq əzəldən bəri Peyğəmbərdir.
Sordular, kimdi Muhəmməd, Əlidən, söylədi ki,
Ona nökər olan insan Əliyə nökərdir.
Qələm acizdi sənin vəsfini qılsın, Şahim,
Şənüvə hər nə gözəl söz də desəm, bifərdir.
Mən sənə qul olana qul kimi layiq deyiləm.
Biri Səlmanü Əbuzər, birisi Qəmbərdir.
Bir təsəlli sənə bu zikr qalıbdır, Azər:
“Əli aşiqlərinin dərdini, ya Rəbb, mənə ver.”

## MÜXƏMMƏS

Öylə işlətmiş qılıncın hər zaman ol şəhriyar
Həm cəsarət cari olmuş, həm görünmüşdür vüqar,
Bir şüar olmuşdur islam əhli üçün iftixar,
Həzrəti-peyğəmbərindir, söyləyirlər, ol şüar:
“La fəta illa Əli, la seyfə illa zülfüqar”.

Ya Əli, sən etiqad uğrunda qovğa eylədin,
Pak əqidən naminə illərlə dəva eylədin,
Cahili, cahilliyi əzminlə ifşa eylədin,
Vəhy edibdir elçimiz Peyğəmbərə Pərvərdigar:
“La fəta illa Əli, la seyfə illa zülfüqar”.

Bilməyən bilsin ki, himmət sahibi olmuş Əli,
Himmətindən qeyri, qeyrət sahibi olmuş Əli,
Qüvvət aldıq biz ki, qüvvət sahibi olmuş Əli,
Hər müsəlmana əzəldən aşikardır, aşikar:
“La fəta illa Əli, la seyfə illa zülfüqar”.

Çağlayıb qəlbi onun hikmət dolu ilham tək,
Aləmə “Nəhcül-bəlağə” bəxş edib ənam tək,
Qəlbi islamın yolunda odlanıbdır şəm tək,
Kafərə bəd bir xəbərdir, müslimə bir iftixar:
“La fəta illa Əli, la seyfə illa zülfüqar”.

Rəmzidir sadiqliyin hər dəm, sədaqətdir Əli,
Kimsə inkar eyləməz aləmdə, hikmətdir Əli,
Həm ədalət, həm şücaət, həm də iffətdir Əli,
Cism üzülsə, qədd əyilsə, olsa hətta zülf qar,
“La fəta illa Əli, la seyfə illa zülfüqar”.

## HƏZRƏT ƏLİ (Ə) HAQQINDA

Bir gülün eşqi dili-zarımda tutmuşdur qərar,
Könlümü zövqü səfayi-eşqi etmiş laləzar,
Gəldiyim gündən cahanə xeyli müddətdir ki var,
Lövhi-dildə xaneyi-iman yazıbdır bir şüar:
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

Baş əyər görcək vüqarın izz ilə hər dağ ona,
Paybus etsin deyə həsrət çəkər torpağ ona,
Cümlə ariflər məhəbbətlən olub müştağ ona,
Hər qədər ki, insü cinni xəlq edib Pərvərdigar,
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

Əhli-təqva, əhli-iman, əhli-ürfandır Əli,
Fatehi-Xeybər, vəliyyi-həqqi-Sübhandır Əli,
Mürtəzadır, şahi-mərdan, şiri-Yəzdandır Əli,
Təkcə bu misra yetər ki, kimdir ol Düldülsəvar:
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

Olsa da dünyada yüz dövlətli insan Cəm kimi,
Cümlə varın versə də bir kəs əgər Hatəm kimi,
Tutsa da meydani-cəngi sərvəran Rüstəm kimi,
Qoysa da bir ad əgər aləmdə çox-çox tiğdar,
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

Yox sözüm, elm əhli, iman əhli çox insan olub,
Ya ki çoxlar zərbi-dəstiylən gəlib sultan olub,
Sanma, onlardan biri misli-şəhi-Mərdan olub,
Şübhəsiz, dünyaya insanlar gəlibdir bişümar,
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

Sənsən elmü helmdə fərzanələr-fərzanəsi,
Təxtü taci-eşqdə dürdanələr-dürdanəsi,
Ey səxavü ədldə mərdanələr-mərdanəsi,
Söyləmişdir vəsfi-zatında Rəsuli-Kirdigar:
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Ya Əli, ey cümlə xaqanlar sənə kəmtər qulam,
Rahi-eşqində, xoşa ol aşiqə, tutmuş məqam,
Mahirəm, xaki-dərində bir gəda tək sübhü şam,
Tutiyi-dil dəmbədəm təkrar edər biixtiyar:
“La fəta illa Əli, la seyfa illa Zülfüqar”.

*QULAMƏLİ AZƏRİ (İRANLI)*

## ƏLİDİ BƏHRİ-KƏRƏM

Bu söz ərz edim, düzdi ki, rəvayətdir,
Rəvayət olsa da, gər çox gözəl hekayətdir,
Eşitmişəm bu sözü bir Əli sevən kişidən,
Məni ki şad eləyib, şad olar, yəqin, eşidən.
Var idi bir kişi Peyğəmbərin öz əsrində,
Bir arvadı var idi, saliheydi təhtində.
Zibəs ki, çox məhəbbəti çoxdu övrətinə,
Dedi, bu ölsə əgər, dözmərəm müsibətinə.
Deyibdü, yaxşı budur, fikrə salmayım özümü,
Gedib peyğəmbərə ərz edim haman sözümü.
Gəlib yetirdi peyğəmbər hüzuruna özünü,
Rəsuli-Xaliqə ərz eylədi ürək sözünü.
Dedi, Ağa, məni bu fikirdən elə azad,
Qabaqca mən ölərəm, ya ölər bizim arvad.
Yerə baxıb, göyə bir də nicati-külli-cəhan,
Buyurdu ömrin olar, ey kişi, bu gün payan.
Çıxart ürəkdə olan arvada məhəbbətivi,
Ayəqə dur, gedib eylə bu gün vəsiyyətivi,
Ayəqə durdu, gedib yolda gördi Səlmani,
Yığıbdı başə bir iddə kafər, müsəlmani,
Əlini tərif edir, çoxları qalıb heyran,
Əlini tərif edən dillərə canım qurban.
Dayandı o kişi də, getməyib o dəm durdu,
Əlidi bəhri-kərəm, səbr edib özin vurdu,
Fəda edim, dedi, qoy, bu ömri də Əliyə,
Vəleyki şərti budur ki, Əli qəbul eliyə.
Belənçi tərif edirdi Əlini ol Səlman,
“Əli” adın eşidib şad olurdu çox insan.
“Əlidi aləmə sərvər, Əlidi şiri-Xuda,
Əlidi aləmə sərvər, Əlidi miri-huda.

Əlidi sahibi-hovz, Əlidi fəzli-kərəm,
Əlidi sahibi-ədl, Əlidi dinə həkəm,
Əlidi Qasimi-cənnət, Əlidi qaziyi-hür.
Əlidi cövhəri-din, Əlidi aləmə nur.
Əlidi yari-peyğəmbər, Əlidi həmsəri-Zəhra,
Əlidi nuri-Muhəmməd, Əlidi məzhəri-Taha.
Əlidi zöhdü ibadət, Əlidi xəlqə səadət,
Əlidi əvvəlü xilqət, Əlidi rəhbəri-millət,
Əlidi pərçəmi-tövhid, Əlidi dinə hidayət.
Əlidi xəlqə dəyanət, Əlidi sahibi-qüdrət.
Əlidi nüsrəti dinin, Əlidi dinə dəyanət."
Bu sözləri dedi Səlman, bir azca dincəldi,
Haman kişi durub o dəm qüssəli evə gəldi.
Görəndə övrətini ağlayıb, edib əfqan,
Dedi, mənim bu gün ömrüm istəyir, ola payan.
Eşitdi bu sözü arvad, ağlayıb fəğanə gəlib,
Vurubdu baş, gözünə vay deyib, amana gəlib.
Dedi, xanım bu qədər naləvü fəğan eləmə,
Çətindir ayrılıq, amma çox əl-aman eləmə,
Yatıblar o gecəni, ölmədi açıldı səhər,
Dedi, xanım xuraman tez arvadı götürüb,
Hüzuri-Həzrətə fövran o dəm yetirib.
Görəndə o kişini Rəsuli-kövni-məkan,
Dedi ki, müjdəmi ver, Xaliqin edib ehsan.
Dünən ki, ey kişi, sən həqq deyən yolu getdin,
Əli yolunda qalan ömrüvi fəda etdin.
Əli sevənlərə Səlman o gün dua elədi,
Otuz beş il sənə ömür xaliqin əta elədi,
Əlini hər kəs ola, hər zaman sala yadə,
Hayanda olsa, gələr Mürtəza ona dadə.
İlahi, qəlbimə sal Əli məhəbbətini,
Əli qulami tanıtdır cahanda Azərini.

Əli sənin qulamunam,
Mutii-hər kəlamunam,
Bir əbdi-asitanunam,
Əli, Əli, Əli, Əli.

Adın olubdur əzbərim,
Sənsən həmişə sərvərim,
Həm Səfdərim, həm Heydərim,
Əli, Əli, Əli, Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Sənsən ibadət mədəni,
Sənsən səxavət mədəni,
Sənsən şücaət mədəni,
Əli, Əli, Əli, Əli.

Sən hafizi-Quranisan,
Sən mədəni-iymanisan,
Sən aləmə cananisan,
Əli, Əli, Əli, Əli.

Sənsən imami-Azəri,
Həm rəhbəri, həm sərvəri,
Adındı dillər əzbəri,
Əli, Əli, Əli, Əli.

*ƏLİBALA SƏYYAH*

## MÜSƏDDƏS

Gah üzün parlaq Günəş, gah mahi-taban, ya Əli,
Kəhkəşan nur aldı səndən, səndədir kan, ya Əli,
Gəldiyin gün katibi-həqq yazdı fərman, ya Əli,
Biz sənə bir bəndə, sən şövkətli sultan, ya Əli,
Dini-islamın sütuni, şahi-mərdan, ya Əli.

Mülki-aləmdə tapar həqqi, tutan kəs damənin,
Nəsli-aləmdə tapar həqqi, tutan kəs damənin,
Hüznü matəmdə tapar həqqi, tutan kəs damənin,
Ruzi-əzəmdə tapar həqqi, tutan kəs damənin,
Sən gələn dəmdə tapar həqqi, tutan kəs damənin,
Bir təvafi-kuyinə qurban edər can, ya Əli.

Darə düşsək, qorxumuz yox, ta cahanda varsən.
Bir müsəlman bəndəyə ruzi-qiyamət yarsən
Vaqifi-sirri-Xuda, sən məhrəmi-əsrarsən,
Gah rəsuli-Əkrəmin təxtin tutan sərdarsən,
Zülfiqarın əldə sənsən şiri-yəzdan, ya Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Çəkdi çox rəssamlər rəmzin ilə təsviri-şir,
Vəhşilər ram eyləyəndir, bildilər, təbiri-şir,
Hər cavan şiri, hünərmənd eyləyər bir piri-şir,
Şir anası şir doğar, şirlər əmərlər şiri-şir,
Dini-islami edər təqdir iki şəmşiri-şir,
İsminə qılmaqda səcdə hər müsəlman, ya Əli.

Surətin vəsf etməyə vəssaflər vasif deyil,
İzzətin vəsf etməyə vəssaflər vasif deyil,
Qüdrətin vəsf etməyə vəssaflər vasif deyil,
Şöhrətin vəsf etməyə vəssaflər vasif deyil,
Şövkətin vəsf etməyə vəssaflər vasif deyil,
Bir qulundur hər zaman bir şahi-dövran, ya Əli.

Mərhəmət qıl sən, yetir zikr əhlini məqsudinə,
Səy ilə eylər səvab məscidlər mövcudinə,
İştirak etmişsə hər kim məscidi-məbudinə,
Dönsün allahın əziz məsuminə, məsudinə,
Xalq cəm olmuş bu gün sən Həzrətin mövludinə,
Şəninin ehsanıdır təfsiri-Quran, ya Əli.

Həqqi məhrəm eylədin, könlümdə asarin görəm,
Yox, cəfasın çəkməyəm çox, bir zaman varın görəm,
Üz tutam Şahi-Nəcəf rahində zəvvarın görəm,
Baş qoyam torpağinə, ərzin mədədkarın görəm,
Əhd edəm, can tapşıram kuyində, didarın görəm,
Ver Əli Səyyahə vüslət, ruzi-hicran, ya Əli.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## MÜSƏMMƏT

Keçdi əyyami-xəzan, çünki dəyişdi ruzigar,
Aldı şahlıq tacın ondan, növ ərusi-novbahar.
Gəldi novruz, açdı güllər, oldu aləm laləzar,
Hər gülə, hər qönçəyə qoşdu həzar nəğmə, həzar.
İstədim seyrə çıxam könlümdə bir istəkli yar,
Laləni gördüm ki, gülşəndə qızıl qanla yazar,
“La fəta illa Əli, la seyfa illa Zülfiqar.”

Həm Həsən və həm Hüseyn, həm Zeynalabidin, ey xuda,
Həm Məhəmməd Baqirül, həm Cəfərül Sadiq ağa,
Museyi-Kazim imamül həm Qərib imam Rza,
Həm Əliyyən həm Nəği kim, olsun həq ondan riza,
Həm Əliyyən həm Təqi kim, müşrikə versin cəza,
Etdilər ol dəm iki axir imam ilən güzar,
“La fəta illa Əli, la seyfa illa Zülfiqar.”

Gülşənə yetdikdə ol gülpirəhən, qal oldu, qal,
Qönçə gördü gəldi bir qönçədəhən, lal oldu, lal,
Qamətindən ol şahın sərvi-çəmən, dal oldu, dal,
Surətin gördüm ki, gördü yasəmən, al oldu, al,
Cümlə aləm çeşmimə döndü həmən, xal oldu, xal,
Ol şəhin hüsnü önündə oldu gülşən nöqtəvar,
“La fəta illa Əli, la seyfa illa Zülfiqar.”

Ol Əsəd, ol Mürtəza, ol Heydəri-Kərrar Əli,
Şahi-mərdan, Şiri-Yəzdan, taci-din, sərdar Əli,
Dinə sərvər, xəlqə rəhbər, haqqə munis, ya Əli,
Məhrəmi-raz, rai-ecaz, vaqifi-əsrar Əli,
Bəs, əzəldən ta əbəd durduqca dünya, var Əli,
Zülfiqarın qoymaz əldən ol şəhi-Düldülsüvar,
“La fəta illa Əli, la seyfa illa Zülfiqar.”

Biz nəyik? – Qətrə! O şahi-Lafəta ümman imiş,
Biz kimik? – Bəndə! O Şahi-Lafəta sultan imiş,
Bizdə bir can var, o şahə hər zaman qurban imiş,
Bizdə bir tən var, o şahın rahinə yeksan imiş,
Bunca vəsfin, Səyyaha, ol şahə ki şayan imiş,
Var ümidim ki, bizi hifz eyləsin Pərvərdigar,
“La fəta illa Əli, la seyfa illa Zülfiqar.”

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## N Ö V H Ə L Ə R

*ƏBÜLHƏSƏN RACİ*

Ya Əli, bu bivəfa ümmət Peyğəmbərdən sora,
Yaxşı saxlıblar sənə hörmət Peyğəmbərdən sora.

Əhli-Kufə günbəgün zülmü sitəm kəsb etdilər,
Beydəqi-küfri-qəzayi həqqdə nəsb etdilər,
Məsnədi-Peyğəmbəri nahaq yerə qəsb etdilər,
Tutdi bu dünya yüzin zülmət Peyğəmbərdən sora.

Məsnəd üstə əhli-kin eylüb bina əgləşməgə,
Guşeyi-üzlətdə qıldun iktifa əgləşməgə,
Öz evündə, ya Əli, oldun riza əgləşməgə,
Qoymadilər orda da rahət Peyğəmbərdən sora.

Görmədün etdikləri əldə vəfa əshabdə,
Səbr qıldun hər cəfayi-zadeyi-Xəttabdə,
Bu ayın on doqquzunda səcdeyi-mehrabdə,
Vurdular, mövla, sənə zərbət Peyğəmbərdən sora.

Çün qalur miras öz övladinə cəddü əbün,
Qaldı övladə sənün də bu şəhadət mənsəbün,
Saldı hər dəm başə bir qardaş qərasi Zeynəbün,
Olmadı asudə bir saət Peyğəmbərdən sora.

Gəh sənə ağlub, gəhi Zəhrayə qıldi şurişeyn,
Söylədi gahi “Həsən, vay”, ey Şəhi-Bədri-Hüseyn,
Kərbəladə baş açub daim deyirdi, “Va Hüseyn”,
Oldu nalə Zeynəbə adət Peyğəmbərdən sora.

Vəqti-rehlətdə buyurmuşdi Rəsuli-aləmeyn,
Ümmətə, “hazəl-Hüseynü minni və ənə min Hüseyn”,
Kərbəla dəştində əmma, ey imami-məşriqeyn,
Öldürüb nahəq yerə ümmət Peyğəmbərdən sora.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Vəqti-rehlətdə məkərrər tapşurub xətmi-Rəsul,
İki zad məndən əmanətdür sizə, eylün qəbul:
Ey cəmaət, biri Qurandur, biri ali-Rəsul,
Saxlayun siz onlara hörmət Peyğəmbərdən sora.

Ol dəri kim, hacibü dərban idi Nuhü Xəlil,
Eyləmişdi babi-rəhmət xəlq üçün Rəbbi-cəlil,
Daxil olmazdı, əgər izn olmaseydi, Cəbrəil,
Od vurub yandırdı bu ümmət Peyğəmbərdən sora.

Cüstə-cüstə oldu bu atəş zibəs ki, şöləvər,
Eylədi kəm-kəm şərari-Kərbəlayə həm əsər,
Yandurub bir-bir Hüseynün xeyməgahin də Ömər,
Yanə-yanə etdilər qarət Peyğəmbərdən sora.

Var Hüseyn adində, Raci, ismi-əzəm tək xəvas,
Hər kim etsə vird, olur nari-cəhənnəmdən xilas,
Mərhəba olsun bu matəmdə sizə, ey cəmi-xas,
Eyləyibsüz yaxşı cəmiyyət Peyğəmbərdən sora.

*ARİF BUZOVNALI*

## İMAM ƏLİ (Ə) HAQQINDA

Ey oğul, tərk eləyir cismini cani Əlinin,
Daha sənsən bu cahan içrə nişani Əlinin.

Çarəsizdir, demirəm mən, bu həyat adlı zəhər,
Ölümün camı bu biçarəliyə çarə edər,
Sizi mənsiz görüb ədna çətinə salsa əgər,
Olacaq həmdəminiz ruhi-rəvani Əlinin.

Tanıyır göy məni Meracdəki bir izdən,
Yerdə də həqqimə arifdi biri hər yüzdən,
Can deyil, ayrı düşən fani bədəndir sizdən,
İki aləmdə mühəyyadı məkani Əlinin.

Onda ki Kərbübəladə düşəcək dərdə Hüseyn,
Çəkəcək tiği-cəhim ləşkəri-namərdə Hüseyn,
O zaman ki, qalacaq nəşi quru yerdə Hüseyn,
Tutacaq ərşi-müəllanı fəğani Əlinin.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Xələfi-binti-Rəsulsan, bu fəxarətdi sənə,
Zeynəbin qardaşısan sən, bu səadətdi sənə,
Gözümün nuru, ciyərparəm əmanətdi sənə,
O idi çünki çətin gündə həyani Əlinin.

Oğul Abbas, o uzun qollarını boynuma sal,
Yarasından öpərəm min yol, əcəl versə macal,
Səni qan içrə görənlər edəcək böylə xəyal,
Ki dübarə tökülüb bir daha qani Əlinin.

Mənə yox çarə vüsal adlı dəvadan başqa,
Tapmıram bircə şirin kəlmə vidadan başqa
Tutun Allaha üzü, çünki Xudadan başqa,
Özgə bir kimsəyə gəlməzdi gümani Əlinin.

Düzdür, aşiq demək olmaz adımı hər çəkənə,
Vəli mən Şiri-Xudayam, yetərəm dada yenə,
Bu gün Arif kimi kim həsr eləsə nohə mənə,
Görəcək mərhəmətin həşr zəmani Əlinin.

***SƏRRAF***

## HƏZRƏT ƏMİRƏL-MÖMİNİNİN (Ə) VƏFATI HAQQNDA

Çün turab tirə oldu xabgahi bu turab,
Ərşdən gəldi nida: “ya ləytəni küntü türab”.

Çox bəlalər çəkdi bu aləmdə Şahi-lafəta,
Hər qəmə səbr eylədi ol mədəni cudü-əta,
Verdi baş mehrabi-taətdə boyandı qanə ta,
Əhli-eşqə birbəbir olsun o başdan fəthi-bab.

Kişvəri imandə nəsb eylədi beydəq yerə,
Həqq dililən etdi əmrüllahi cari həq yerə,
Bilməyib həqqin, onu öldürdülər nahəq yerə,
Oldu qan ilən mütərcim məniyi-ümmül-kitab.

Çün yıxıldı baisi-icadi-hərfi-”kaf”ü-”nun”,
Dini-həqqin oldu bir möhkəm sütuni sərnigun,
Düşdü dildən qəlbi-aləm, oldu aləm bisükun,
Şeş cəhətdə zahir oldu bu cəhətdən inqilab.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Oldu zərbət aşina fərqi-şəhi-mərdan ilən,
Doldu eynüllahi-nazir gözləri al qan ilən,
Verdi can cananə əmma nə ləbi-ətşan ilən,
Şiələr, ey kaş, oleydi Kufeyi-viran xərab.

Bilmirəm, aya, nə var bu yerdə, ey əhli–vila,
Qoydu hər kimsə qədəm oldu bəlayə mübtəla,
Aqibət qanə boyandı burda Şahi-Kərbəla,
Kəsdi başin, vermədi düşmən ona bir cürə ab.

Çox müsibətlər olub, şiə, nümayan Kufədə,
Çox bədənlər axir olmuş qanə qəltan Kufədə,
Verməyib əmma Hüseyn tək bir nəfər can Kufədə,
Bir bədən, dörd min cərahət kim görüb, versin cəvab.

Şiələr, əhli-cəfa, haşa, cəfadan doydular,
Kəsdilər başin, soyub cismin yer üzrə qoydular,
Xeyməgahin etdilər qarət, əyalin soydular,
Əhli-beyti-ismət oldu bəsteyi-qeydi-tənab.

Kim görüb bir böylə zülmü bir müsəlmanə rəva,
Ya olub ləbtəşnə ölmək hansı qurbanə rəva,
Gördü əmma əhli-kin Şahi-şəhidanə rəva,
Həm əyali, həm özü olsun susuzdan dil kəbab.

Ləşkəri-cürmi-məasi beydəq açmış rəng-rəng,
Pəhləvani-nəfs edibdür ərsəni Sərrafə təng,
Çox səadətdür, vura gər daməni-Mövlayə çəng,
Çün əmirül-mömінindür şafei-yövmül-hesab.

## HƏZRƏT ƏLİNİN ŞƏHADƏTİ XÜSUSUNDA

İbn Mülcəm namüsəlman, ya Əmir əl-möminin,
Eylədi zülmündə tüğyan, ya Əmir əl-möminin.

Doldurubsan gördü bu dünyanı fəzlü cud ilən,
Olmusan məşğul söhbət Həzrəti Məbud ilən,
Bir qılınc vurdu başundan tiği-zəhralud ilən,
Oldu münşəq mahi-taban, ya Əmir əl-möminin.

Yazdı “inşəqqəl-qəmər” səbtin qəza bir dəftərə,
Saxlayıb göstərdi bir-bir itrəti-Peyğəmbərə,
Aqibət bu şivə sərməşq oldu oğlun Əkbərə,
Məşqi-eşq aldı başundan, ya Əmir əl-möminin.

Vurdu bir zərbət sənə gər İbn Mülcəm nabkar,
Etmədi cismün dəxi bir özgə yerdən zəxmdar,
Gör, sənin fərqünlə bu fərqün nə qədri fərqi var,
Bir bədən, min zəxmi-peykan, ya Əmir əl-möminin.

Baş qılınclandı, axıb qanı yer üzrə su kimi,
Dövrəsin səyyad alıb bir zəxmdar ahu kimi,
Haləti-zarin pərişan gördülər gisu kimi,
Etdilər cismin pərişan, ya Əmir əl-möminin.

Oldular birdən hücumavər o ətşan üstünə,
Yüz qoyub min namüsəlman bir müsəlman üstünə,
Ox ox üstən vurdular, peykanı peykan üstünə,
Zəxmdən cism oldu şan-şan, ya Əmir əl-möminin.

Gördülər bibəlü pər düşmüş o Şəhbazi-hərəm,
Kor kəsani-Kufəvü Şam etdilər cürət bəhəm,
Vurdular xəncər olub xəncər dəmində qəddi xəm,
“Su” deyib verdi susuz can, ya Əmir əl-möminin.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

***DAHİ ALMASLI***

Haqq əhli əzəldən sənə heyran, Şəhi-mərdan,
Vallahi, sənindir yenə meydan, Şəhi-mərdan.

Sən kəlmeyi-tovhid ilə dil açmısan, ey şah,
Mümkünmü ki, bir kimsə ola elminə agah?
Vermişdi sənə cümlə gözəllikləri Allah,
Qısqandı fələk, eylədi viran, Şəhi-mərdan.

Ol kəs ki sənin qətlin üçün hökm veribdür,
İblisə uyub haqq ilə davaya giribdür,
Dünya nə zaman böylə dərin hiylə görübdür,
Çox qırdı müsəlmanı müsəlman, Şəhi-mərdan.

Bir əldə qılıncın, dəxi bir əldə kitabın,
Hər kimsəyə öz seçdiyi dildəydi cavabın,
Yüz heyf ola ki, yetmədi məqsudə əzabın,
Dünyanı bu dərd etdi pərişan, Şəhi-mərdan.

Meydan günü meydanları titrətdi cəlalın,
Dastanları, divanları fəth etdi kəmalın.
Bilsəydi mələklər ki, budur hüsnü-cəmalın,
Çoxdan dönüb olmuşdular insan, Şəhi-mərdan.

Hər ravi hekayət danışır mərifətindən,
Dünyayə sığışmaz qəzəbü mərhəmətindən,
Yüz xatirə qalmış bizə hər xoş sifətindən,
Səndən güc alır eşq ilə iman, Şəhi-mərdan.

Qovdun qapıdan nəfsini, tutdun rəhi-təcrid.
Aşiqlərin etməkdədir amalını təqlid,
Hər bir əməlin oldu güli-rövzeyi-tövhid,
Hər göstərişin hökmdə Quran, Şəhi-mərdan.

Ol gün ki səhər nuru qızıl qanə boyandı,
Sanma fələyin gərdişi bir dövrə dayandı,
Əsla, nə xəta ötdü, nə yatmışlar oyandı,
Tutmuş bəşərin gözlərini qan, Şəhi-mərdan.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Gəl, düşdüyümüz dərdü qəmü bizdən ötüşdür,
Lütfünlə bütün yarələri bağla, bitişdir,
Zalimləri divanə çəkib, dərdə yetişdir,
Zülm etdi müsəlmanlara dövran, Şəhi-mərdan

Mən fanidə, sən baqidə, yox heç kəsə rahət,
Çəkməkdədir övladi-bəşər yüz cürə zillət,
Hər gün oxuyur Dahi cahan mülkünə lənət,
Gəl, eylə bu müşkülləri asan, Şəhi-mərdan.

***

***FƏRMAN KAMİL OĞLU***

Əlinin mərtəbəsin Rəbbimiz əla eləmiş,
İki aləmdə onu bizlərə mövla eləmiş,

Əli şahiddi, şəfaətdə dəvanın biridir,
Əli zahiddi, itaətdə ibadət nuridir,
Əli vahiddi, şücaətdə Xudanın şiridi,
Cəngi-Xeybərdə, görün, bir necə uqba eləmiş.

Əli kimdir? Bütün aşiqlər onun məftuni,
Əli kimdir? O, Quranındı əzəl məzmunu,
Əli kimdir? O, ləna kəlməsinindir “nuni”,
Şəkki nun ilə “ləna” kəlməsini “la” eləmiş.

Əlinin cismi verib nuri günəşnən mahə,
Əlinin ismi fəqət layiq olub Allahə,
Əlinin rəsmi düşüb ayeyi-Bismillah”ə,
Nöqteyi “ba”də onun xalı təcəlla eləmiş.

Əlidir “sureyi-Taha” bizə bir rahi-açar,
Əlidir sureyi-”Şəms”, rahə o nur ilə saçar,
Əlidir sureyi-”Yasin”, bütün əsrarı açar,
Xaliqin ismini Tövratidə ülya eləmiş.

Ya Əli, şiələrin eşq ilə ağlar əbəda,
Əsl aşiq odu ki, rahinə can etdi fəda,
Ya Əli, istəginən, əfv edə Fərmanı Xuda,
Bir xətadır ki, şeir namına inşa eləmiş.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t



## ƏLİ

### (Növhə)

Nur saçar, sənin nurundan nur, Əli!
Haqq Quran, İncil, Tövrat, Zəbur, Əli!

Atəşli iman dolu ürəklisən,
Müşk-ənbər saçan gül-çiçəklisən.
Nuruna pərvanə min mələklisən,
Yəqin etdiyim haqq yol budur, Əli!

İmanlı qəlbim yanar, sönməz ocaq,
Eşqindir könlüm-gözüm Kövsər bulaq.
Varlığım bağlı, bütöv haqqa qonaq,
Haqdandır dayaq, əvvəl-axır, Əli!

Rəsuli-Xuda vəsisi, yarısan,
Sən xəzəl könüllərin baharısan.
Məğfirət edənlərin ilqarısan,
Adını çəkdim, tapdım uğur, Əli!

Cənnəti, cəhənnəmi bölən sənsən,
Haqq səni bilənlərə gülən sənsən.
Özünü haqqa imam bilən sənsən,
Əfvü fərmana qəra, qəfur, Əli!

Sən nuru-Rəhman eşqi, sevgisisən,
Sən bəqa ümmətimin vergisisən.
İlahi bir haqq yolun sərgisisən,
Biiman fasiqlərə məhzur, Əli!

Dini-İslamla yaşar məhəbbətin,
İbrətdir aşiqlərə sədaqətin.
Əməli- xeyrə sübut səxavətin,
Bununla olub adın məşhur, Əli!

Çox şükür, mən müslüməm sənə pənah,
Bağışla, günahım çox mənim, Allah.
Rəfiqəm, əfv et, xəta etdim agah,
Mədhinlə oldun dildaş məqdur, Əli!

## HƏZRƏT ƏLİ
**(Mərsiyyə)**

Ey hidayət Kövsəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

Canın qurban etdin din xətrinə,
Malını ehsan etin din xətrinə.
Haqqını Mizan etdin din xətrinə,
Ey imamət sərvəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

İlk iman sən gətirdin Rəsullaha,
Əhdi-peyman yetirdin Rəsullaha.
Canını qurban verdin Rəsullaha,
Ey şücaət əskəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

Ey Vəsiyyi – xətmi - ənbəri yarı,
Ey Vəlliyi – aşiqi – Xuda yarı.
Min bir hacət, müşgülə dəva yarı,
Ey şəfaət məhşəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

Şəninə nazil olan Quran sənsən,
“Həl əta” dəhri – ziya, insan – sənsən.
Rukuda verən zəkat ehsan sənsən,
Ey ibadət məhvəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

Eşqinə, sənin canım olsun fəda,
Mədhinə çaldım qələm, etdim xəta.
Rafiqin könül dostu – Şahi-bəqa,
Ey hidayət ziyvəri – Həzrət Əli!
Ey hidayət kövsəri – Həzrət Əli!
Ey vilayət rəhbəri – Həzrət Əli!

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

***ƏBU ƏLİ SİNA***

Hədisi-xatirəm aməd kimi fərmud peyğəmbər,
Be əshabeş, şəbi-merac sirri-ləylətul əsrar.
Be taqi asemani çəharomin didəm mən əz rəhmət,
Hezaran məscidi əndər dərune məscidul əqsa.
Be hər məscid Hezaran taq bər hər taq mehrabi,
Be hər mehrab do səd minbər, be hər minbər Əli peyda.
Ze peyğəmbər çe beşonidənd əshab in soxən qoftənd,
Ke dişəb ba Əli budim comle cəmdər yekca.
Təbəssom kərd Səlman in səxon qofta be peyğəmbər.
Be ğeyr əz xod nədidəm hiç kəs dər nəzde an movla.
Əbazər qoft, ya Səlman, be ruhe pake peyğəmbər,
Neşəste budəma əndər xidmətəş dər quşeyi tənha.
Be quşe fatime xord in soxən qofta Əli dişəb,
Ke ta sobh əz dərunə xane pa nənəhad brun əsla.
Ke nagəh Cəbrail əz həq səlam avərd bər Əhməd,
Ke ey məsnədneşine bareqahe qorbi-ovədna.
Əgərçe bər həme zahir şod u bər surəti əmma,
Vəleykən əz həme beqozəşt ba ma bud dər bəla,
Xudayəş xaliqi başəd ke bər xəlqəş do səd aləm,
Be hər aləm do səd Adəm be hər Adəm do səd Həvva.
Be hokməş səd hezaran kuh bər hər kuh səd damən.
Be hər damən hezaran dəşt, bər hər dəşt səd Sina.
Be hər hezaran Tur, bər hər Tur səd Musa.
Be hər Musa bezaran beyzə əndər beyzə səd İsa.
Nə vəsfəş in çenin başəd ke miquyənd dər aləm,
Ze Xəndəq costo Mərhəb koşt əndər bişe heyca,
Əliyye aliye əla vəliyye valiye vala,
Vəsiyye seyide-Bətha be hokməş cümle ma fiha,
Əli sərist dər vəhdət ki, başəd səri bi həmta,
Əli xəlqist dər xilqət ke başəd xilqətəş yekta.
Əli lamist əndər lak ela mənsur əz Allah,
Şod əz elme veyəş elme-ləduniye musiqi peyda.
Çu in ovsaf ra be şənid əz vəsfe kəmale u,
Kereft ənqoşte heyrət bər dəhanəş bu Əli Sina.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

**Tərcüməsi:**

Yadıma bir hədis düşdü ki, peyğəmbər öz səhabələrinə buyurdu:
Sirli merac gecəsində dördüncü asimanın tağında (qübbəsində),
Məscüdul-əqsanın içərisində Allahın rəhmətindən minlərlə məscid gördüm.
Hər məsciddə minlərlə tağ, hər tağda da bir mehrab,
Hər mehrabda iki yüz minbər, hər minbərdə də Əlini gördüm.
Səhabələr peyğəmbərdən bu sözü eşitcək dedilər:
Ki dünən hamımız birgə Əli ilə bir yerdə idik.
Səlman təbəssüm edib peyğəmbərə bu sözü söylədi:
(Dünən) özümdən savayı heç kəsi o mövlanın yanında görmədim,
Əbuzər dedi: Ey Səlman! Peyğəmbərin pak ruhuna and olsun,
Mən tənha bir guşədə o həzrətin hüzurunda əyləşmişdim.
Bu söz Fatimənin (s.ə) qulağına çatacaq dedi ki:
Əli dünən Sübhədək ayağın əsla evdən bayıra qoymadı.
Nagəhan Cəbrayıl Haqdan Əhmədə (s.ə) salam gətirdi,
Ki ey Allaha ən yaxın məkanda və ən uca məqamda əyləşən kəs.
Baxmayaraq ki, Əli (s.ə) hamıya müəyyən surətlərdə zahir oldu (onlarla birgə oldu),
Lakin Əli hamıdan keçib bizimlə yuxarıda (meracda) idi.
Əlinin Allahı o Allahdır ki, öz xəlqinə iki min aləm,
Hər aləmə iki yüz Adəm, hər Adəmə iki yüz Həvva bəxş edib.
Hökmü ilə yüz minlərlə dağ hər dağda da yüz ətək,
Hər ətəkdə minlərlə çöl, hər çöldə də yüz Sina.
Hər sinada minlərlə Tur, hər Turdasa yüz Musa.
Hər Musaya minlərlə beyzə (parlaq əl), hər beyzə yüz İsa.
Əlinin vəsfi belədir ki, aləmdə deyirlər:
Xəndəkdən atılıb Mərhəbi öldürdü.
Uca məqamlı Əli Uca valinin (Allah) canişini
Və Həzrəti Muhəmmədin (s.ə) vəsisidir.
Əli vəhdətdə misilsiz bir başdır,
Əli (s.ə) Allah xilqətində elə bir yaradılışdır ki, xilqəti yeganədir.
Əli “La”-da olan “Lam”-dır ki, Allahdan qeyrisi kömək ola bilməz.
(Yəni, kim Əliyə qail olmasa, Allahın köməyindən məhrum olar və ya “Allahdan üstün, qələbə çalan yoxdur” kəlamını Əli (ə) bəşəriyyətə sübut etmişdir. Əliyə məhəbbəti olmayana, Allah qələbə verməz).
Onun elmindən Allah elmi ahənglədi.
Onun kəmalı haqda olan bu tərifləri eşitcək,
Bu Əli Sina heyrət barmağın dişlədi.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

***

***HAFİZ ŞİRAZİ***

Müqəddəs xilqətin sirrin edəndə qeybdən izhar
Əyan oldu səma üzrə həm ayla gün, həm ulduzlar

Kəvakib oldu bir səyyar gələndə Xaliqin əmri
Qərar tutdu bu tağ içrə sərasər gümbəzi-dəvvar.

Düzüldü yeddi səyyarə bürünc ilə olub bahəm
Xudanın bir “ol” əmrindən səmada oldular səyyar.

O şeylər ki bu dünyadan kənar yerdə məskən tutmuş,
Ona xəlq asiman söylər, həsar qılmış ona Səttar.

Mələklər müntəzir əmrə bu doqquz asiman içrə
Qılır səcdə, oxur təsbih, edir zikr – edir istiğfar.

Vücudə gəldi dörd ünsür Onun bircə məramindən-
Həvavü atəşü ab ilə xak oldu tamam aşkar.

Qərar verdi həvavü xakin üstündə dayansın od,
Sular qoynunda tutsun, qoy, qərari-sabiti dağlar,

Nəbi ilə Vəlini dust qıldı Hakimi-mütləq,
Onun əmrindədir hər şey, Odur Xaliq, Odur Cəbbar.

Nəbinin, həm Vəlinin xilqəti idi Onun qəsdi –
Cahan yatmış ədəm içrə, yox idi insdən əxbar.

Dəri-cənnətdə yazmışdı qəza katibləri əvvəl:
“Nəbi Allah rəsuludur, vəlisi Heydəri-Kərrar”.

Əlidir aləm içrə insü cinnə hökm edən sərvər,
Onun şəni füzun olmuş, yox aləmdə ona oxşar.

Asılmışdır adından bu cahanın kürsiyü ərşi,
Onun zatından olmuşdur mütəbbəq bu zəmin həvar.

Əli imam, Əli eymən, Əli imamdır aləmdə-
Əli əmnü, Əli sərvər, Əli məxluq üçün sərdar.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əli hər şey ona məlum, Əli alim, Əli ələm,
Əli müdrik, Əli hakim, Əli qövlündədir muxtar.

Əli yavər, Əli nasir, Əli mənsur olub daim,
Əli qalibdir, olmuşdur müzəffər bir sepəhsalar.

## QƏSİDƏ

***Allah-təalanın qüdrəti, Xatəm-əl-ənbiya Məhəmməd Mustəfanın(s) məqamı və Mövlayi-müttəqiyan Əliyyül-Murtəzanın(ə) mədhində***

Əli munis, Əli izzət, Əli əfzəl cahan içrə,
Əli lütfi-inayətdir, Əli ənvər, Əli ənvar.

Əli fateh, Əli fəttah, Əli ruha verən rahət,
Əli bəhri-səxavətdir, ona Rəhmanı olmuş yar.

Əli salim, Əli müslim, Əli taci-səlamətdir,
Əli xalqanidir narin, Əli təqsim edər əqsar.

Əli səfdə dayanmışdır, Əli safi, Əli sufi,
Əli gənci-vəfa kani, Əli səftər, Əli kərrar.

Əli bəxşiş, Əli nemət, Əli ənam verən kəsdir,
Əli şiri-Xuda olmuş, Əlidir qatili-küffar.

Əli əfzəldir hər kəsdən Məhəmməd ümməti içrə,
Əgər sən pak möminsən, buna sidq ilə qıl iqrar.

Məhəmməd nuruna and içdim, Adəmlə Xəlil həqqi,
Behəqqi-hörməti-Şeysü Şuəybü Hudi-kəmazar.

Behəqqi-Yusifü Yəqub, behəqqi-Yəhyəvü Loğman,
Behəqqi-Nuh ki, tapdı nicatı ondan insanlar.

Behəqqi-hörməti- “Tovrat”, behəqqi-izzəti- “İncil”,
“Zəbur”un, “Müshəf”in həqqi ki, göndərmiş bizə Qəffar.

Behəqqi-danişi-İshəq, behəqqi-şövqi-İsmail
Ki, Allahın rizasində nisari-can qılıb onlar.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Behəqqi-Yuşəvü İlyas, behəqqi-Lutü İskəndər,
Behəqqi-nəğmeyi-Davud, behəqqi-sövti-xoşhəncar.

Behəqqi-ibni Davudü, behəqqi-zöhdi-İbrahim,
Behəqqi-Musayü İsa, behəqqi-Yunisi-qəmxar.

Behəqqi-qüvvəti-Cibril, behəqqi-suri-İsrafil,
Behəqqi-qabizi-ərvah kim, vardır yəminü yəsar.

Behəqqi-hamili-ərşü beqürbi-şəni-Mikail,
Müqəddəs dörd kitab həqqi ki, irsal eyləyib Sərdar.

Behəqqi-ayəti-Quran, səhafiyi-Xəlil həqqi,
Behəqqi-cümleyi-mərdan, behəqqi-vaqifi-əsrar.

Behəqqi-biguman ki, yanar aləmdə atəşsiz,
Behəqqi-zariyi-rəncur kim, qalmış necə bimar.

Behəqqi-çöhreyi-zərdi-fəqiran ki, gəzər çöllər,
Behəqqi ol əsiran ki, uzaqdır qövmdən onlar.

Behəqqi-növcəvanan ki, girər cəngə ədu ilə,
Behəqqi-zariyi-piran ki, dörd içrə olubdur zar.

Behəqqi-dini-Əhmədlə Hüseynin qaninə xatir,
Mühacirdən və ənsardan nə qədri yaxşı insan var.

Yox ədyanın içində, bil, Rəsulun qövlünün tayi,
Əlini bizlərə qıldı vəli ol Əhmədi-Muxtar.

Əlidən sonra itrətdir hidayət nuru aləmdə,
Gəl, axtarma bu məvadə sən özgə hadi, ey dindar.

Yatıbsan xabi-qəflətdə, cəhalətdən kənar ol sən
Ki, bilməzsən şüşə üzrə nədir ləkkə, nədir jəngar.

Məni-xəstədilin cəhdindən axirdə nolur, bilmən,
Məgər cəhlin yuxusundan olurmu bir nəfər bidar,

Cəhalət içrə yatmışdım, yox idi məndə bir idrak,
Mənə tay olmasın kimsə cəhalətdən qalıb bimar.

Şükrlər eylərəm daim, Xuda göstərdi bir düz yol,
Nicat tapdım bu aləmdə, həyatım oldu bərxudar.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Gələndə yeddi yüz yetmiş bu Şirazə mürur ilə,
Tamamə yetdi bir gündə ürəkdən yazdığım əşar.

Əməldən bəd, həramzadə, özü bədbəxtü bibünyad,
Cahanın şahının vəsfinə əsla eyləməz iqrar.

Gəl, öyrətmə münafiqə, necə tabe olar insan,
Ona kar eyləməz bir söz, əgər qılsa min istiğfar.

Oturma heç zaman, Hafiz, sənə düşmən olanlarla,
Təvəlla et, nicat istə Xudadan ömrə həştü çar[1].

*KƏLAMİ*

## HEYDƏRİN (Ə) ƏLLƏRİNDƏDİ

Heydəriyəm, hidayətim Heydərin əllərindədi!
Məcdo[2] vüqaro izzətim Heydərin əllərindədi!
Qüdrətim olsa, qüdrətim Heydərin əllərindədir!
Şiə deyər Huviyyətim[3] Heydərin əllərindədir!
Çün sənəde vilayətim Heydərin əllərindədir!

Xırdaca bir ürək varım həzrəte yara vermişəm,
Yar böyükdü mən kiçik, del[4] o nigarə vermişəm.
Daro- nədarimi[5] həman çeşmə xumarə vermişəm,
Del dalısıyca vay deməm tən demə arə vermişəm.
Çün o ağır əmanətim Heydərin əllərindədir!

Heydəri Mustafa (ə) tanır, onu Murtuzə tanır,
Kəffo Əlidi Fatimə hər üçünü Xuda[6] tanır.
Kəbədən əl Xuda səsin, ruhun əgər səda tanır,
Getdi evində aləme beytə onu səfa tanır.
Yəni Səfaye xilqətim Heydərin əllərindədir!

---

[1] Tərcümə edəni: Hafiz Qaralar
[2] Məcid, böyüklük, əzəmət
[3] Huviyyət-şəxsiyət
[4] Del-ürək
[5] Daro-nədar-var-yox
[6] Xuda-Allah

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Bəndə nə arifəm, nə də əbcədilən çalışmışam,
Bu ləhəbilə küsmüşəm, Heydərilən barışmışam,
Səcdədə “ya Əli” deyib Əllahilən danışmışam.
Babe-beheştə[1] baxmışam, eşq oduna alışmışam.
Yazıb kilide cənnətin[2] Heydərin əllərindədir!

Baxma şenasnamədə[3] səbt olunub kocaliyəm[4],
Əsli evim Nəcəfdədir, Heydəriyəm, vilaliyəm.
Şahim Əlinin oğludur, bax, tanı, Kərbəlaliyəm,
Xadime Murtəzaiyəm, Qənbərinə fəlaliyəm.
Rəddo qəbul xidmətim Heydərin əllərindədir!

Düşmən Əlini axtarır indi də, bağlaya qolun,
İllət odur ki, bağlayıb şiələrə nəcəf yolun.
Müntəzirane Heydəri əbr bəhar tək dolub,
Mehdi deyir zühr üçün Heydərə mültəci[5] olun.
Rəmzo hüzuro qeybətim Heydərin əllərindədir!

Tac nədir, sər[6] olmasa, sər nədir, sərvər[7] olmasa.
Del nədir, delbər olmasa, zər nədir, zərgər olmasa,
Göydə günə nə hacətim, celveye Heydər olmasa,
Abe təhuri neylirəm, saqiye kövsər olmasa,
Came viladə şərbətim Heydərin əllərindədir!

Bilsin o ki, pəs əz zühur[8] rəcatə[9] etiqadı var,
Məhdi də getsə torpaqa, din evinin emadi[10] var.
Cəcət o vəqtdə başlanar, yerdə vəliyyo hadi var,
Ölmiyəcəydir Murtəza, ta be Qiyamat adı var.
Yaz, əbədi hökumətim Heydərin əllərindədir!

---

[1] Babe-beheşt-behişt qapısı
[2] Kilide cənnət-cənnətin açarı
[3] Şenasnamə-şəxsiyyət vərəqəsi
[4] Qocaliyəm-haralıyam
[5] Mültəci-pənah gətirən
[6] Sər-baş
[7] Sərvər-ağa, başçı
[8] Pəs əz zühur-zühurdan sonra
[9] Rəcat-qayıdış, dönüş
[10] Emadi-sütun, dirək

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

And ola ulya çatan mənziləto məratibə,
And ola lohe ərşidə dərc olunan mətalibə,
Pey[1] aparanmıyıb bəşər şəne əbuləcaibə,
Abe həyat Əli verib şəxsən imame qaibə.
Gəlsə, deyər, imamətim Heydərin əllərindədir!

Əli nekine[2] Kəbədi, zinəti Məscidül-Həram,
Leyk onun da zinəti öz qızıdur Əli məram.
Heydəri zində[3] saxlayan Zeynəb olubdur, vəssalam,
Kufədə nitq edib dedi, nabeğədir[4] mənim babam.
Zeynəbi-istianətim[5] Heydərin əllərindədir!

Düzdü ki, reşteye soxən[6] Zeynəbin əllərindədir,
Düzdü ki, tace pənce tən[7] Zeynəbin əllərindədir,
İndi də qanlı pirəhən[8] Zeynəbin əllərindədir,
Pərçəme[9] fəthe bul-Həsən Zeynəbin əllərindədir,
Ruhu deyər səlabətim[10] Zeynəbin əllərindədir,

Heydəriyəm, Əli canı, özgə məsirə[11] getmərəm,
Zeynəbiyəm, Hüseyn canı, özgəyə xidmət etmərəm,
Bu ata, qız böyükdülər, heç birini kiçiltmərəm,
Zeynəb öz Əli yolun getdi, dedi, qayıtmaram,
Reşteye istiqamətim Heydərin əllərindədir!

Öz qızı eftetata[12]edən məktəbə bax, de, ya Əli!
Kufə və Şami fəth edən mokebə[13] bax, de, ya Əli!
Mətne əsasnaməye Zeynəbə bax, de, ya Əli!
Gör, nə yazıb ürəklərə, mətləbə bax, de, ya Əli!
Yazdı, bəqaye dolətim Heydərin əllərindədir!

[1] Pey-iz, ayaq
[2] Nekin-üzük qaşı
[3] Zində-diri
[4] Nabeğa-dahi
[5] İstianət-kömək
[6] Reşteye soxən-söz telləri
[7] Tace pənc tən-beş nəfərin tacı
[8] Pirəhən-köynək
[9] Pərçəm-bayraq
[10] Səlabət-bərklik, möhkəmlik
[11] Məsir-yol, istiqamət
[12] Eftetah-başlama
[13] Mokeb-böyük bir şəxsin müşayiətçiləri

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Zeynəbəm, eşqdən mənə qüdrət ləm yəzəl gəlib,
Eşq yolunda içmişəm zəhr gəlib, əsəl[1] gəlib.
Dərdin uzun qəsidəsi xatirəmə əzəl gəlib,
Qəmlərə mən baş əymərəm, hər nə gəlib, gözəl gəlib.
Selseleye-esarətim[2] Heydərin əllərindədir.

Doxtəre-Murtəza Əli Şamidə gərçe can verib,
Leyk həman diyaridə Əli bir imtahan verib.
Kaxe[3]- Yəzidi titrədib, nitqi ora təkan verib,
Mən, dedi, Zeynəbəm, mənə hubbe[4]- Əli təvan[5] verib.
Tərbiyəte metanətim[6] Heydərin əllərindədir.

İyirmi beş il evində gər xanəneşin olub Əli,
İyirmi beş ildə sayeye[7] zillətə getməyib vəli,
Zülmə baş əyməyib babam, mən də baş əymərəm, bəli.
Ale-Üməyyə, qoymaram, xar edə dine mənzuli,
Hifze-hərime ismətim Heydərin əllərindədir!

Fatimə süd verib mənə, həqdən himayət eylərəm,
İbn Ziyadı sındırıb, Mərvanə lənət eylərəm,
Hakime-Şami xar edib qəlbə hökümət eylərəm,
Qarə çəkib xərabəni Kaxe səfarət eylərəm.
Kongereye[8] səfarətim Heydərin əllərindədir!

Qanlı çölü alıb Hüseyn, Şamidə Zeynəbiyyədi,
Burda bizim səfərimiz bir balaca səbiyyədi,
Qarə salıbdı başına, adı onun Ruqəyyədi,
Heydərə vardı nisbəti seyyidə, Haşimiyyədir,
Güldi, deyir, təravətim Heydərin əllərindədir!

---

[1] Əsəl-bal
[2] Selseleye-esarətim-əsirliyimin zənciri
[3] Kax-saray
[4] Hub-məhəbbət
[5] Təvan-güc, qüvvə
[6] Metanət-vüqar, səbr
[7] Saye-kölgə
[8] Kongere-konqres

Qollarını açın onun, əbr[1] kimi dolar babam,
Qanlı görüb babam başın, saçlarını yolar babam.
Boynu düşübdür çiyninə, bənövşə tək solar babam.
Mən bilirəm çıxır canı, Şamidə dəfn olar babam.
Gözüm, bu qəmli saətim Heydərin əllərindədir!

Rəhm eliyün Ruqəyyəmə, gül xətəri xəzandadır,
Təştə baxır baba, deyir, nalə və əl-əmandadır,
Bir gözü məndədir vəli, bir gözü xizarandadır,
Zərbə o başə vurmiyun, nazlı balam fəğandadır.
Yarəsinə təbabətim Heydərin əllərindədir!

Şamidə batdı gün, qərəz, ay tutulub həmən gecə,
Çıxdı Ruqəyyənin çanı, Zeynəbi ağladan gecə.
Üz Nəcəfə tutub xanım yolda gözü qalan gecə,
Kaş, dedi, babam gələ, şəmi əza yanan gecə,
Çareye- dərdo möhnətim Heydərin əllərindədir!

Ey anamın cənazəsin qəbrə gecə qoyan baba,
Gəl bu gecə xərabədə qəmlər odunda yan, baba.
Öldi se sale[2] Fatimə, qəlbim olubdi qan baba,
Dəftəre- xatirətimə yazdı Rüqəyyə, can baba.
Gəlsə, ilahi xələtim Heydərin əllərindədir!

Ağ kəfənim ki yox mənim, yandım ilahi qüssədən,
Öz qara köynəyin gərək sevgilimə edəm kəfən,
Qaldı qızın yaman günə, ya Əli, ya Əbəl-Həsən.
Kufə yetimlərin salır yadə bu köhnə pirəhən.
Əlace-rənce- qürbətim Heydərin əllərindədir!

Həqqə çatar “Kəlamiya”, kim ola Heydərə dücar,
Rəmze, kilide, mərifət bil sədo dəhdi həfto çar.
Kərbu-balanı istəyən “ya Əli” səsləyib qaçar,
Qəleye-Xeybəri açan Kərbubəla yolun qaçar.
Təzkireye- ziyarətim Heydərin əllərindədir!

---

[1] Əbr-bulud
[2] Se sale-üç yaşlı

## NÖVHƏ

Qüvvəti-qüdrəti-Xuda sərvəti-lafətada var.
Fəziləti-şahi-Nəcəf sureyi-hələtada var.

Beyti-Xudadən eyləyən bütləri cümlə sərnigün,
Əbdəvid oğlunu edən cəngi cədəldə qərqi-xun,
Düşməni-dini eyləyən zərbi qılınc ilə zəbun,
Ayineyi-zəmiri gör, qüdrəti-həqnümadə var.

Açdı şəriətin yolun vəliyyi-şiri-girdigar,
Gəlibdi qeyzə şir tək o şiri çəkdi zülfiqar,
Ki, dini-məzhəbi edib cahanda gün tək aşikar,
O şəni rütbeyi-cəlal, o sahibi-səxada var.

Salan nizamə aləmi vəliyyi-girdəgardür,
Vuran şərarə düşmənə o miri-ruzigardür,
Əliyi-külli-masiva Rəsulə yadigardür,
Cahanda bu sifatlar o miri-övsiyadə var.

Nə növi ərz edim sizə o həzrətin şücaətin,
O həyyü layəzal üçün itaətin, ibadətin,
Ki, vəsf edib Xuda onun səxavətin, şücaətin,
Sifati-həqqi-cudi çun Əliyyəl Mürtəzadə var.

Əlidü kani-mərifət Xudayi-Zülcəlil üçün,
İbadəti, itaəti Xudayi-la yəzal üçün,
Cahanda meyli olmayıb nə rütbeyi-cəlal üçün,
Yəqinin istəsəz əgər, sureyi-innəmadə var.

Əlidü həqqə aşina, Əlidü bəndeyi-Xuda,
Əlidü hər məqamdə təmam xəlqə rəhnüma,
Əlidü sidqilən edüb rəhi-Xudadə can fəda,
Bunlar deyil şərafəti, qoyun, deyim ziyadə var.

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Əlidu şəmsi vəzzüha, Əlidü nuri-övsiya,
Nüzul olubdu şəninə kəlami-həqdə hələta,
Rəsulə həq olan vəsiyy imami külli-masiva,
Dəlilü şahid istəsəz, sureyi-vəzzühadə var.

Əlini cümlə xəlqidən Xuda yaratdı ibtida,
Odur ki, həyyi-kirdigar adın qoyubdu Mürtəza,
Məhəbbəti olan elə o pişivayə iqtida,
Bu mətləbün təmamisi kəlami-həqnümadə var.

Əli ki, rahi-həqqidə sirati-müstəqimidir,
Nə dində, bəlkə, istəsəz bu dindən qədimdir,
Ulumi-xaliqi-cəhan təmaminə əlimdir,
Qəbul qılmasaz əgər, hədisi-ənbiyadə var.

Əlidü dari-fanidə bu dini bərqərar edən,
Cihad edəndə düşmənə cəhanı tirə-tar edən,
Şəriəti-peyğəmbəri cahana bərqərar edən,
Bu zuri-şəsti kimdədir, o şəhi dülrübadə var.

Əli Vəliyyü həqqidir, vəli Xudayə bəndədir,
Şəhid olubdu zahirən, vəli, o şah zindədir,
Gəhi səmavi ərşidə, gəhi bu yer üzündədir,
Qərib ərz edər yəqin bu bəzmi-qəmfəzada var.

## SİNƏZƏN

### *Mövla Əli əleyhis-səlamın şəhadətinə*

Məsciddə sübhi-zamana rəhbər boyandı qanə,
Can verdi bir mücahid, səngər boyandı qanə,
Heydər boyandı qanə.
Sındırdı rukni-dini –
iymani ibni-Mülcəm,
Tur üstə saldı döldən
Musani ibni-Mülcəm,
Bir ömri qoydu ağlar
Dünyani ibni-Mülcəm,
Öpdi Əli başından
Xəncər, boyandı qanə,
Heydər boyandı qanə.
Baş səcdədən ucaldı,
Endi qılınc həvadən,
Fəvvarə tək səpildi
Qan firqi-Murtəzadən,
Cəbrail şeş cəhəti
Doldurdi bu nidadən:
“Agah olun, Vəliyyi –
Davər boyandı qanə”,
Heydər boyandı qanə
Üz məscidə qoyublar
Hər səmtidən cəmaət,
Dillərdə “va” imama,
Gözlərdə eşqü həsrət,
Qalxızdılar Əlini
Mehrabidən o saət,
İslandı ağ mühasin,
Gözlər boyandı qanə,
Heydər boyandı qanə.
Bir halıda atasın
Gördi vəfalı Zeynəb,
Birdən götirdi məcar
Başdan həyali Zeynəb,

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

Qol boynuna Əlinün
Saldı bəlalı Zeynəb,
Öpdi ata üzündən,
Ləblər boyandı qanə,
Heydər boyandı qanə.
Baxdı Əli, buyurdi:
"Zeynəb, qızım, az ağla,
Var ağlamaq zəmani,
Az ağla, sinə dağla,
Gəl, başımın yarasın
Öz məcarınla bağla,
Qan çox gedir yaramdan,
Bəsdər boyandı qanə,
Heydər boyandı qanə.
Saxla bu ahü zari
Səhrayi-Kərbəlayə,
Gördün Hüseyn Əlinün
Nəşin büküb əbayə,
Gözdən tök əşki-əlvan
Rüxsarə, gəl nəvayə,
Leylayə tez xəbər ver,
Əkbər boyandi qanə,
Heydər boyandi qanə".



## FƏRD

Ya Əmirəl-möminin Heydər,
Səlam olsun sənə.
Zövci-Zəhra, sohri-peyğəmbər,
Səlam olsun sənə.
Asitanundan sənin heç kəs
Qeyitməz naümid,
Sailə bəzl etdün ənküştər,
Salam olsun sənə.
Zülfüqarın rövnəqi-İslam,
İstiqlalı-din,
Şiri-heyca, fatihi-Xeybər,
Salam olsun sənə.
Kufədə amma namaz üstündə,
Hali-səcdədə
Başüva dəydi sənin xəncər,
Salam olsun sənə.
Səslədün, and olsun Allaha,
Xilas oldu Əli,
Qan ilə oldu üzün əhmər,
Salam olsun sənə.
Səs gəlib göydən, Əli öldü,
Yıxıldı rukni-din,
Açdı başın Zeynəbi-müztər
Salam olsun sənə.
Ey sahibi-zəmanə,
Ey pişivayi-ümmət,
Cəddün Əli boyandi
Qanə, başun səlamət.
Allah sənə bu qəmdə
Səbr eyləsin kəramət.
Ağlar, deyər Kərimi:
"Heydər boyandı qanə."

t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t t

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Qurani-Kərim
2. "Nəhcül-bəlağə"
3. Ayətullah Əhməd Sabir Həmədani. "İslamda imamət və xilafət"
4. Möhsün Qəraəti. "Nur təfsiri"
5. Məmməd Ticani Səmavi. "Doğru olanlarla birgə"
6. Şeyx Abbas Qumi. "İmam Əlinin (ə) həyatı", "Fəzaili-Əli"
7. Hacı Əbdürrəhman Yusifpur. "30-cu cüzvün təfsiri"
8. Şeyx Həsən Hürri Amuli. "Hədisi-Qüdsi"
9. Məhəmməd Həsən Muini. "Hədis güzgüsündə"
10. Ayətullah Məkarim Şirazi. "Təfsiri-Nümunə"
11. Seyyid Kazım Tərpənci. "Usuli-din"
12. Molla Əliheydər Naqis Tazəkəndi. "İslam dəryasından damlalar".
13. Tədqiqat qrupu. "İslam məzhəbləri ilə tanışlıq"
14. Ayətulluh Seyyid Abdullah Şübbər. "Camiə-Kəbirə" ziyarətinin şərhi
15. Məhəmməd Səccad. "İmam Əli (ə) Quranda".
16. Seyyid Muhəmməd Kazım Qəzvini. "Əhli-beyt" nicat gəmisi.
17. Axund Hacı Soltan Hüseynqulu oğlu. "Həzrət Əli (ə) və dünya ədəbiyyatı"; "Duayi-Heydəri və ya Həzrət Əli zirvəsinə bir baxış"; "Həzrət Əli (ə) kimdir"; "Əli (ə) haradadır"
18. Ayətullah Cəfər Sübhani. "İslam tarixi".
19. Ş.İ.Xətai. "Seçilmiş əsərləri"
20. S.İ.Nəsimi. "Seçilmiş əsərləri"
21. M.Füzuli. "Hədiqətüs-sühəda"
22. Ə.Raci. "Seçilmiş əsərləri"
23. S.Ə.Şirvani. "Seçilmiş əsərləri"
24. H.M.Təqi Qumru Dərbəndi. "Kənzül-məsaib və Gülzari-Hüseyn"
25. A.A.Bakıxanov. "Seçilmiş əsərləri"
26. S.M.Şəhriyar. "Divani-Türk"
27. H.Ə.Mahir. "Səadət intizarında"
28. Rafiq Məhərrəmli. "Mərsiyələr. Qəsidələr. Qəzəllər"
29. K.Kürqıraxlı. "Ümidim Peyğəmbər şəfaətində, əlim Allahımın ətəyindədir"
30. Hacı Mail. "Divan"
31. Arif Buzovnalı. "Mərifətdən-həqiqətə"
32. Əlibala Səyyah. "Şəhid qardaş"
33. Əli Səfəroğlu. "Niyə belə gəlmisən"
34. Əlamə Məhəmməd Baqir Məclisi, "Hilyətul-Müttəqin"
35. Fəzlüllah Kompani, "Əli (ə) kimdir?"

36. Aşıq Ələskər. “Əsərləri, dastan-rəvayətlər, xatirələr”
37. Aşıq Əhməd. “İtən sazım”
38. Sərraf Şiruyə “Mən haqqa sığınmışam”.
39. Aşıq Alı. “Əsərləri”
40. Həzrət Əli ibn Əbu Talib (ə). “Divan”
41. Ayətullah Məzahiri. “On dörd məsum”
42. Şeyx Kuleyni. “Usuli-Kafi”, 1-ci cild
43. Firdovsi. “Şahnamə”
44. Qazi Nurullah Şüştəri. “Ehqaqul-həqq”
45. “Qurani-Kərimdən dastanlar”
46. S.Ə.Nəbati. “Seçilmiş əsərləri”
47. N.P.Vaqif. “Seçilmiş əsərləri”
48. Hacı Rza Sərraf. “Divan”
49. M.Ə.Sabir. “Hop-Hopnamə”
50. Yunis İmrə. “Güldəstə”
51. C.Rumi (Mövlanə). “Eşq qibləsi”
52. X.Şirvani. “Seçilmiş əsərləri”
53. Mehmet Rıhtım. “Seyyid Yəhya Bakuvi və Xəlvətilik”
54. N.Gəncəvi. “Xəmsə”
55. Dr. Ali Yaman. “Alevilik və Kızılbaşlık tarihi”.
56. Hacı Valeh Lənkərani. “Ziya”.

MÜNDƏRİCAT

ÖN SÖZ…......................................................................................11
MÜƏLLİFDƏN..................................................................................15

I F Ə S İ L.
HƏZRƏT ƏLİNİN(Ə) HƏYATI ........................................................ 25
HƏZRƏT ƏLİNİN(Ə) HƏYAT VƏ FƏALİYYƏTİ ............................. 26
*Üç gün Kəbədə* .......................................................................... 27
*Həzrət Əlinin (ə) uşaqlıq dövrü*.................................................. 28
*Həzrət Əliyə (ə) "Əli" deməyin səbəbi* ....................................... 29
*Həzrət Əlinin (ə) adi nəyə görə Quranda açıq-aşkar gəlməyibdir?* ........... 29
FATİMƏ BİNTİ-ƏSƏD ..................................................................... 31
ƏBU TALİBİN HƏYATI.....................................................................33
ƏBU TALİBİN İMANININ DƏLİLLƏRİ ............................................ 33
*1. Əbu Talibin elmi-ədəbi əsərləri*................................................. 33
*2. Əbu Talibin Peyğəmbərlə(s) olan rəftarı onun imanlı olmasını göstərir.* 35
*3. Əbu Talibin vəsiyyəti onun imanına aşkar dəlildir.* ...................... 36
*4. Əbu Talibin Peyğəmbəri-Əkrəm(s) tərəfindən sevilməsi onun imanlı olmasına dəlildir.* .......................................................................... 37
*5. Peyğəmbər (s) səhabələrinin şahidliyi*......................................... 38
*6. Əhli-bey tin (ə) nəzərindən Əbu Talib* ........................................ 39
*Əbu Talibin(ə) imanlı olmağının səbəbləri*...................................... 40
*Əbu Talibin(ə) Peyğəmbəri qorumaqda göstərdiyi xidmətlər* .......... 40
*Qohumların və dostların Əbu Talibin imanına münasibəti*.................. 41
"ZƏHZAH" HƏDİSİNİN ARAŞDIRILMASI ......................................... 42
*"Zəhzah" hədisinin sənədləri əsassızdır*.......................................... 42
*"Zəhzah" hədisinin məzmunu Allahın kitabı və Peyğəmbər (s) sünnəsi ilə uyğun gəlmir*............................................................................. 44
ƏBU TALİBİN(Ə) VƏFATI ................................................................. 45

II F Ə S İ L.
İSLAMDA NÜBÜVVƏT VƏ İMAMƏT ................................................ 47
*1. Nübüvvət məqamı* ...................................................................... 48
*2. Risalət məqamı* ......................................................................... 48
*3. İmamət məqamı* ......................................................................... 49
*İmamət mövqeyinin üstünlüyü*......................................................... 51
*Zahiri rəhbərlik (xilafət, hakimiyyət)*................................................ 51
*İslam dininin yayılması* .................................................................. 55
*Mənəvi rəhbərlik*............................................................................. 58
*İki ən böyük şahid* .......................................................................... 61
*1. Asəf ibn Bərxiya* ......................................................................... 62
*2. Həzrət Əli ibn Əbu Talib (ə)* ........................................................ 62

İMAMƏT “QURANİ-KƏRİM”DƏ....64
MUSA AYDIN....66

III F Ə S İ L.
İMAM ƏLİ(Ə) QURANDA....67
“ƏMANƏTLƏRİ SAHİBLƏRİNƏ QAYTARIN” AYƏSİ....70
VİLAYƏT AYƏSİ....77
VİLAYƏT HAQDA BUYURULAN HƏDİSLƏR....79
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*Ya Vəliyyullah*....81
*Vəsiyy*....82
"TƏTHİR” AYƏSİ....83
ƏHLİ – BEYT HAQDA HƏDİSLƏR....88
*“Kisa” hədisi*....89
“MÜBAHİLƏ” AYƏSI....91
*Hədisi-Tayr (qızardılmış toyuq)*....93
“MƏVƏDDƏT” AYƏSİ....94
ƏHLİ-BEYT KİMLƏRDİR....96
HACI SOLTAN HÜSEYNQULU OGLU.
*Məvəddət*....97
“FƏZİLƏT” AYƏSİ....98
LEYLƏTUL-MƏBİT....99
“ELMÜL–KİTAB” AYƏSİ....100
“HİKMƏT” AYƏSİ....101
“MUNZİR VƏ HADİ” AYƏSİ....102
“İNFAQ” AYƏSİ....103
“BURUC” AYƏSİ....104
“SALEH MÖMİN” AYƏSİ....104
“ONU TƏSDİQ EDƏNLƏR” AYƏSİ....106
“MƏRƏCƏL–BƏHREYİN” AYƏSİ....106
“SABİQUN” AYƏSİ....107
“NƏCVA” AYƏSİ....108
“TƏQVALILAR” AYƏSİ....110
MÖVLA ƏLİDİR....110
“SƏADƏTƏ ÇATANLAR” AYƏSİ....111
“SİRATƏL-MÜSTƏQİM” AYƏSİ....112
HƏZRƏT ADƏMƏ(Ə) NİCAT VERƏN AYƏ....114
“RÜKU” AYƏSİ....117
“SORĞU–SUAL” AYƏSİ....117
“ƏMNİYYƏT” AYƏSİ....118
“ÖZ YARDIMI VƏ MÖMİNLƏRİN YARDIMI İLƏ DƏSTƏKLƏYƏN” AYƏSİ....118
“SƏNƏ TABE OLAN MÖMİNLƏR” AYƏSİ....119
“KÖNÜL SAHİBLƏRİ VƏ GÖRÜB QULAQ ASAN” AYƏSİ....119
“DOĞRU DANIŞAN SİDDİQLƏR”....119

"TƏQVALILAR ÜÇÜN QURTULUŞ VƏ SƏADƏT YERİ" AYƏSİ....119
"XOŞ RUZİGARDIRLAR" AYƏSİ....120
"XEYRÜL–BƏRİYYƏT" AYƏSİ....120
"YÜKSƏK MƏQAM" AYƏSİ....121
"İRS" AYƏSİ....122
"ƏZAB" AYƏSİ....127
"12 AY" AYƏSİ....127
"SALAM OLSUN İL-YASİNƏ" AYƏSİ....130
"BİHƏBLİLLAH" AYƏSİ....132
"İMAMİ-MUBİN" AYƏSİ....134
"HƏR BİR DƏSTƏNİN İMAMI" AYƏSİ....134
"ADİYAT" SURƏSİ....137
"YOXSULU, YETİMİ VƏ ƏSİRİ YEDİRTMƏK" AYƏSİ....138
"İNSAN" SURƏSİ....142
ƏHLİ-BEYTİN(Ə) FƏZİLƏTLƏRİ HƏDİSLƏRDƏ....145
PEYĞƏMBƏRLƏRİN ƏHLİ-BEYTƏ(Ə) TƏVƏSSÜLÜ....146
ADƏM PEYĞƏMBƏR(Ə)....146
İDRİS PEYĞƏMBƏR(Ə)....146
NUH PEYĞƏMBƏR(Ə)....147
YUSİF PEYĞƏMBƏR (Ə)....148
MUSA PEYĞƏMBƏR(Ə)....148
İSA PEYĞƏMBƏR(Ə)....149
HƏZRƏT MUHƏMMƏD PEYĞƏMBƏR (S)....149
MARAQLI HADİSƏ, YAXUD TƏSADÜF....150
MƏLƏKLƏRİN ƏHLİ-BEYTƏ(Ə) TƏVƏSSÜL ETMƏSİ....156

IV F Ə S İ L.
"QƏDİR-XUM"....157
*Şehbəndərzadənin "İslam tarixi"*....163
*"Məaricun-nübüvvə"*....163
*"Şifai-Şərif"*....163
*"Şəmaili-şərif"*....163
*"Türk islam tarixi"*....163
"QƏDİR-XUM" HƏDİSİNİ İNKAR EDƏNLƏR....164
"QƏDR-XUM" HƏDİSİNİ TƏSDİQ EDƏNLƏR....165
"MÖVLA" SÖZÜNÜN TƏHLİLİ....168
ƏBU HÜREYRƏ QƏDİR-XUM GÜNÜNÜN FƏZİLƏTİNİ TƏSDİQ EDİR....173
"MƏN KİMİN MÖVLASIYAM, ƏLİ DƏ ONUN MÖVLASIDIR" HƏDİSİ-ŞƏRİFİ ƏHLİ-SÜNNƏ KİTABLARINDA....173
HƏZRƏT ƏLİ(Ə) NƏ VAXTDAN PEYĞƏMBƏRİN(S) VƏSİSİ OLMUŞDUR ("YƏVMUL-İNZAR" HƏDİSİ)....178

"QƏDİR–XUM" HAQDA OLAN HƏDİSLƏR....182
*Fatimeyi-Zəhra(ə) seyiduş-şühəda Həmzənin məzarı önündə*....182

*İmam Əli (ə) Qədir-Xum hadisəsini şahid gətirir* ...... 183
*Siffeyn döyüşündə "Qədir" hədisi* ...... 183
*Əlinin (ə) öz xəlifəliyi dövründə oxuduğu "Qədir" xütbəsi* ...... 183
*Qədir-Xum hadisəsi İmam Həsənin(ə) xütbəsində* ...... 184
*İmam Hüseynin(ə) Minada buyurduğu "Qədir-Xum" hədisi* ...... 184
*İmam Məhəmməd Baqir (ə) və Qədir-Xum hadisəsi* ...... 185
*İmam Sadiq(ə) Qədir məscidində* ...... 186
*İmam Museyi Kazım(ə) və Qədir məscidi* ...... 186
*İmam Rza(ə) və Qədir* ...... 186
"QƏDİR-XUM"UN QISA XRONİKASI ...... 194
S.Ə.ŞİRVANİ.
*"Qədir-Xum" qəsidəsi* ...... 196
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*"Qədir-Xum"* ...... 199
*Müstəzad* ...... 200
*Şah Ismayıl Xətaiyə təxmis* ...... 201
HÜSEYN KƏRİMİ.
*Tapşırdım sizə* ...... 202
SEYYİD NURƏDDİN DƏRAFƏRİN ...... 203
*"Qədir-Xum" günüdür* ...... 203
*"Əli" deyir* ...... 204

V F Ə S İ L.
12 İMAM TÖVRATDA ...... 205
İMAM ƏLİ İBN ƏBU TALİBİN(Ə) ELMİ ...... 207
HƏZRƏT ƏLİ(Ə) ALLAHIN VƏ PEYĞƏMBƏRİN(S) SEVİMLİSİDİR ...... 212
HƏZRƏT ƏLİ(Ə) MƏSUMLARIN NƏZƏRİNDƏ ...... 216
HƏZRƏT ƏLİ(Ə) SƏHABƏLƏRİN GÖZÜ İLƏ ...... 217
XƏLİFƏLƏR ƏLİ(Ə) BARƏSİNDƏ ...... 219
*1. Əbu Bəkr – 1-ci Xəlifə* ...... 219
*2. Ömər ibn Xəttab – 2-ci Xəlifə* ...... 219
*3. Osman ibn Əffan – 3-cü Xəlifə* ...... 220
*4. Ömər ibn Əbdüləziz – Əməvi Xəlifəsi* ...... 220
MƏZHƏB BAŞÇILARI ƏLİ(Ə) BARƏSİNDƏ ...... 220
*1.İmam Əhməd ibn Hənbəl – Hənbəli Məzhəbinin banisi.* ...... 220
*2.İmam Şafei – Şafei məzhəbinin banisi.* ...... 220
*3. İmam Malik – Maliki məzhəbinin banisi:* ...... 221
*4.Əbu Hənifə – Hənəfi məzhəbinin banisi.* ...... 221
HƏZRƏT ƏLİ(Ə) DÜŞMƏNLƏRİN GÖZÜ İLƏ ...... 222
*1. Müaviyə ibn Əbu Süfyan – Əməvi xəlifəsi:* ...... 222
*2.Əmr ibn As – Müaviyənin vəziri:* ...... 222
*3.Mərvan ibn Həkəm:* ...... 222
HƏZRƏT ƏLİ(Ə) ALİMLƏRİN NƏZƏRİNDƏ ...... 223
*1. Xəlil ibn Əhməd* ...... 223
*2. Şəbi* ...... 223
*3.Şeyx Bəhai Amuli* ...... 223

*4. Seyyid Şərif Rəzi* ........ 223
*5.Həsən Bəsri* ........ 223
*6. Şeyx Məhəmməd Əbdül* ........ 223
*7. İbn Əbil-Hədid* ........ 223
*8.Mənaqib* ........ 224
*9.Xətib Xarəzmi* ........ 224
*10.Xacə Nəsirəddin Tusi* ........ 224
*11.Əllamə Təbatəbai* ........ 224
*12.Əllamə Əmini* ........ 225
*13.Ustad Şəhid Murtəza Mütəhhəri* ........ 225
*14.Məhəmməd Əbülfəzl İbrahim* ........ 225
*15. İbn Sina* ........ 225
*16. Akademik Hacı Vasim Məmmədəliyev* ........ 226
*17. Ayətullah Muhəmməd Fazil Təbrizi Mərəndid* ........ 226
*18.Bənazir Bhutto* ........ 226

HƏZRƏT ƏLİ(Ə) QEYRİ-MÜSƏLMAN ALİMLƏRİNİN GÖZÜ İLƏ ........ 227
*1. Cübran Xəlil Cübran.* ........ 227
*2. Corc Cordaq* ........ 227
*3. Tomas Karlayl* ........ 227
*4. Şibli Şüməyyil* ........ 228
*5. Qabriyel Dandi.* ........ 228
*6.Volter* ........ 228
*7.Süleyman Kəttani.* ........ 228
*8. Fuad Cordaqöz* ........ 229
*9.Karlil* ........ 229
*10. Nərsəsiyan* ........ 229
*11. Baron Kardova* ........ 229
*12. Mixail Nueymə* ........ 230
*13. İlya Pavloviç Petruşevski* ........ 230

VI F Ə S İ L.
QURANIN QARDAŞI "NƏHCÜL-BƏLAĞƏ" ........ 231
"NƏHCÜL-BƏLAĞƏ"DƏN "KƏLİMATİ-QİSAR" ........ 238
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*"Nəhcül-Bəlağə"də* ........ 241
HƏZRƏT ƏLİ(Ə) ÖZÜ HAQQINDA ........ 243
HƏZRƏT ƏLİNİN(Ə) ELMƏ MÜNASİBƏTİ ........ 246

VII F Ə S İ L.
ƏLİ(Ə) ŞAİRLƏRİN GÖZÜ İLƏ ........ 250

VIII F Ə S İ L.
HƏZRƏT ƏLİ(Ə) AŞIQ ƏDƏBİYYATINDA ........ 272
AŞIQ QURBANİ YARADICILIĞINDA ƏHLİ-BEYT(Ə) ........ 275
AŞIQ ABBAS TUFARQANLI ........ 286

XƏSTƏ QASIM YARADICILIĞINDA HƏZRƏT ƏLİNİN (Ə) YERİ ................. 290
HƏZRƏT ƏLİ (Ə) AŞIQ ALI YARADICILIĞINDA........................................... 295
AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA İSLAM DİNİ VƏ
ƏHLİ-BEYTİN(Ə) YERİ ........................................................................ 296
AŞIQ ŞƏMŞİRİN ƏHLİ-BEYTƏ MƏHƏBBƏTİ ............................................ 300
MİSKİN ABDAL.
*Ya Əli* ................................................................................................ 302
AŞIQ XINDI MƏMMƏD ........................................................................ 303
*Ya Əli* ................................................................................................ 303

IX F Ə S İ L.
EL ŞAİRLƏRİ ....................................................................................... 304
KƏRƏM KÜRQIRAXLI.
*Əli* ..................................................................................................... 309
*Ya Əli!* ................................................................................................ 309
*Ya Həzrət Əli!* ...................................................................................... 310
*Ya Əli!* ................................................................................................ 310
*Olan Əli* .............................................................................................. 311
*Ağam, Ya Əli, Ya Əli* ............................................................................ 312
*Əlidir* .................................................................................................. 312
*Əlidir mənim* ....................................................................................... 313
*Əli* ..................................................................................................... 314
*Ya Əli* ................................................................................................ 314
*Ya Əli!* ................................................................................................ 315
*Əli* ..................................................................................................... 316

SOFU BİLAL.
*Bəşərsən, Əli* ....................................................................................... 317
*Ağamdir Həzrət Əli* .............................................................................. 318
*Tək Əlidir* ............................................................................................ 319

PEYĞƏMBƏRİN(S) HƏZRƏT ƏLİ(Ə) BARƏDƏ BƏZİ
FİKİRLƏRİNİN NƏZMİ ........................................................................ 320
*“Ya Əli” de* .......................................................................................... 320
*Əli həm İmammiş, həm də Vəliymiş* ....................................................... 321

X F Ə S İ L.
İNSANLIĞIN BÖYÜK NÜMUNƏSİ HƏZRƏT ƏLİ(Ə)..................................... 322
HƏZRƏTİ ƏLİNİN(Ə) SÖZLƏRİ ............................................................. 327
HƏZRƏTİ ƏLİNİN MİSİR VALİSİNƏ MƏKTUBU ......................................... 337
DR. ALİ YAMAN.
HƏZRƏT ƏLİ(Ə), ƏHLİ-BEYT(Ə) VƏ 12 İMAM SEVGİSİ ............................ 346
DÖYÜŞLƏR .......................................................................................... 348
*1. Cəməl müharibəsi* ............................................................................ 348
*2. Siffeyn müharibəsinin başlanması* ...................................................... 349
*3. Xəvaric* ............................................................................................ 349

XI F Ə S İ L.
DUALAR........................................ 352
CAMEYE-KƏBİRƏ ZİYARƏTİ........................................ 353
NÜDBƏ DUASI ........................................ 365
“NADİ-ƏLİ (Ə)” DUASI VƏ ONUN FƏZİLƏTLƏRİ........................................378
“NADİ-ƏLİ (Ə)”NİN BAŞQA XƏTMİ........................................ 381
“NADİ-ƏLİ (Ə)” ZİKRİNİN FAYDALARI ........................................ 382
"KUMEYL” DUASI ........................................ 383

XII F Ə S İ L.
POEMALAR ........................................ 394
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*Əli eşqi*........................................ 395
KƏRƏM KÜRQIRAXLI.
*Poema*........................................ 405
*Nət* ........................................ 407

XIII F Ə S İ L.
BƏHRİ-TƏVİLLƏR ........................................ 422
HACI SOLTAN HÜSEYNQULU OĞLU ........................................ 423
*Əli (ə) kimdir*........................................ 424
*Əlidir dövlətü-varım*........................................ 425

XIV F Ə S İ L.
ŞEİRLƏR ........................................ 426
Ş.İ.XƏTAİ.
*Qəzəl*........................................426
*Şəmi-təcəlli* ........................................ 427
S.İ.NƏSİMİ.
*Mürəbbe*........................................427
M.P.VAQİF.
*Görmədim*........................................428
S.M.H.ŞƏHRİYAR.
*Ya Əli*........................................429
N.Ş.QACAR.
*Əli*........................................430
N.K.DƏRBƏNDİ.
*Qəzəl*........................................431
KƏRİM PİRŞAĞILI.
*Həzrət Əli*........................................432
MƏDDAH.
*Mən*........................................433
ƏLƏKBƏR ŞAHİD.
*Qəzəl*........................................434

MÖVLUDNAMƏ ... 436
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*Əli mövluduna* ... 436
ARİF BUZOVNALI.
*Həzrət Əli (ə) mövludu münasibətilə* ... 437
HACI ƏLƏMDAR MAHİR.
*Həzrət Əlinin (ə) mövludu haqqında* ... 441
NAZİM SALAMİ.
*Həzrət Əlinin anadan olması* ... 442
MİRZƏ DAHİ.
*Həzrət Əlinin (ə) mövluduna təbrik* ... 443
SEYYİD NURƏDDİN DƏRAFƏRİN.
*"Gəlib" Əlinin (ə) Mövluduna* ... 445

QƏZƏLLƏR ... 446
İ.NƏSİMİ ... 446
S.Ə.ŞİRVANİ ... 448
M.FÜZULİ ... 447
ƏMANİ ... 448
QƏZƏL ... 449
HACI MAİL ... 450
HACI MURAD VÜZULİ (BİLGƏH) ... 453
HACI SOLTAN HÜSEYNQULU OĞLU.
*Həqqin təməli* ... 454
*Əli* ... 454
*Dili-agahimə* ... 455
*Ya əmirəl-möminin* ... 456
*Ya Əli* ... 457
*Ya Əliyyəl Mürtəza* ... 457
*Əli (ə)* ... 457
*Əli Məktəbidir* ... 459
*Mövla Əlidir* ... 460
*"Quran" yaradıbdır* ... 461
HACI YUSİF ... 462
*Həzrət Əli (ə) haqqında* ... 467
LAƏDRİ ... 468

QƏSİDƏLƏR ... 469
S.İ.NƏSİMİ ... 469
AMİL ... 470
MƏSİHİ.
*Bu, mənqəbəti-şiri-xuda, Şahi-Nəcəfdür* ... 471
*Bu qəsidə Həzrəti-Şahi-Nəcəf şaninədür* ... 474
HACI RZA SƏRRAF TƏBRİZİ.
*Əmirəl-möminin Həzrət Əli (ə) mədhində* ... 476
*Zəbani-Hal* ... 481

MƏŞƏDİ AZƏR ........ 481
CƏFƏR RƏMZİ.
*Müxəmməs* ........ 483
HACI ƏLƏMDAR MAHİR.
*Həzrət Əli (ə) haqqında* ........ 484
ĞULAMƏLİ AZƏRİ (İRANLI) ........ 485
*Əlidi bəhri-kərəm* ........ 485
ƏLİBALA SƏYYAH.
*Müsəddəs* ........ 487
*Müsəmmət* ........ 489

NÖVHƏLƏR ........ 490
ƏBÜLHƏSƏN RACİ ........ 490
ARİF BUZOVNALI.
*Imam Əli (ə) haqqında* ........ 491
SƏRRAF.
*Həzrət Əmirəl-mömininin(ə) vəfatı haqqnda* ........ 492
*Həzrət Əlinin şəhadəti xüsusunda* ........ 494
DAHİ ALMASLI ........ 495
FƏRMAN KAMIL OĞLU ........ 496
RAFİQ MƏHƏRRƏMLİ ........ 497
*Əli* ........ 497
*Həzrət Əli* ........ 498
ƏBU ƏLİ SİNA ........ 499
HAFİZ ŞİRAZİ.
*Qəsidə* ........ 502
KƏLAMİ.
*Heydərin(ə) əllərindədi* ........ 504
QƏRİB.
*Növhə* ........ 509
ASİ KƏRİMİ ........ 511
*Sinəzən* ........ 511
*Fərd* ........ 512

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ........ 514

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması.

Baş direktor: ***Hidayət Musabəyli***

«Nərgiz» nəşriyyatı.
Texniki redaktor: ***Kəmalə Məmmədova***
Mətn yığımı: ***Gülnarə Daşdəmirova***
Üz qabığının dizaynı: ***Azər Həsənov***

Mətbəə müdiri: ***Akif Musayev***

Yığılmağa verilmişdir: 24.06.2010
Çapa imzalanmışdır: 10.08.2011.
Kağız formatı: 70x100 1/16.
Həcmi: 43,5 çap vərəqi.
Tiraj: 500 nüsxə; Sifariş: 842

Nərgiz - NƏŞRİYYATI

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Nəşriyyatla əlaqə telefonları: 323-69-53;
050-738-37-22.